Əlamətdar və tarixi günlər

2009

M.F.AXUNDOV ADINA MİLLİ KİTABXANA

Təqvim

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevim müraciəti

Türkdilli ölkələrin milli kitabxana direktorlarının konfransı və "Avrasiya Kitabxanalar Assambleyası" əməkdaşlıq təşkilatının ümumi iclasının iştirakçılarına

Hörmətli konfrans iştirakçıları! Sizi – türkdilli ölkələrin milli kitabxana direktorlarının konfransı və "Avrasiya Kitabxanalar Assambleyası" əməkdaşlıq təşkilatının ümumi iclasının iştirakçılarını səmimi qəlbdən salamlayır, hər birinizə uğurlar, cansağlığı və firavanlıq arzulayıram. Müstəqil Azərbaycan dövlətinin dünya mədəni məkanına inteqrasiyasında türkdilli dövlətlərlə əməkaşlıq mühüm əhəmiyyət kəsb edir.

Son illər ərzində respublikamızda müxtəlif sahələrdə artıq ənənəvi şəkil almış irimiqyaslı forum və konfransların təşkili də məhz bu məqsədə xidmət göstərməkdədir.

Sizin tədbiriniz Azərbaycan Milli Kitabxanasının yaradılmasının 85 illik yubileyi ilə eyni vaxta təsadüf edir. Hər bir kitabsevərə qürur hissi bəxş edən bu tarix ölkələrimizin mədəni həyatında nəzərəçarpan hadisədir. Tarixən özünün yüksək kitab mədəniyyəti ilə tanınan və zəngin kitabxanaları ilə şöhrət tapan Azərbaycanda bu gün də kitabxanalar şəbəkəsinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir. Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi sayəsində son üç ildə dünya və Azərbaycan ədəbiyyatı nümunələrindən ibarət, ümumi tirajı 10 milyona çatan 500-dən artıq kitabın çap olunub ölkə kitabxanalarına hədiyyə edilməsi ilə kitabxana fondları mütəmadi zənginləşmiş, onlardan faydalanma imkanları xeyli genişlənmişdir.

Qloballaşan dünyada informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq müasirləşən milli kitabxanalar ölkələrin davamlı inteqrasiyası və xalqların qarşılıqlı mədəni əlaqələrinin zənginləşməsi proseslərinə öz layiqli töhfələrini verməkdədir. Ümidvaram ki, konfransınızda müzakirəyə çıxarılan məsələlər və qəbul edilən qərarlar milli kitabxanaların xalqlarımızın mədəni sərvətlərinin yaşadılması və intellektual potensialının artırılmasında rolu baxımından faydalı olacaqdır.

Konfrans iştirakçısı olan dost və qardaş ölkələrin milli kitabxanalarının rəhbərlərinə, Azərbaycan Milli Kitabxanasının kollektivinə mənəvi dəyərlərimizin, bəşər mədəniyyəti xəzinəsi incilərinin qorunub saxlanması və gələcək nəsillərə çatdırılması naminə nəcib fəaliyyətlərində yeni-yeni nailiyyətlər arzu edirəm.

Dərin hörmətlə,
İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti.
Bakı şəhəri, 17 noyabr 2008-ci il.

AZƏRBAYCAN RESPUBLİKASI
MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ

M.F.AXUNDOV ADINA
AZƏRBAYCAN MİLLİ KİTABXANASI

Əlamətdar və tarixi günlər təqvimi
2009

Respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik tövsiyələr

BAKI – 2008

REDAKSİYA HEYƏTİ:

Baş redaktor:	***K.M.Tahirov***
Baş redaktorun müavini:	***G.Səfərəliyeva***
Redaktor:	***D.Bayramov***
Məsul katib:	***N.Alışova***

Əlamətdar və tarixi günlər təqvimi - 2009 /baş red. K.M.Tahirov; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Б., 2008.- 389 s.

© M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2008

1 yanvar
Gün çıxır
06:26
Gün batır
17:25
31 yanvar
Gün çıxır
06:18
Gün batır
17:57

Yanvar

22 dekabr-
20 yanvar

Qoç bürcünün Nişanəsi oddur. Marsın himayəsindədir. Günəşin Qoç bürcündən keçdiyi dövrdə doğulanlar qüvvətli və çevik

2009

Əlamətdar və tarixi günlər

1-2. Yeni il bayramı
2 . Rus qoşunları tərəfindən Gəncənin işğal olunmasının 205 ili
20. Ümumxalq Hüzn Günü
24. Ucar rayonunun yaranmasının 70 illiyi
27. Tərtər rayonunun yaranmasının 75 illiyi
29. Gömrük İşçiləri Günü

Ca	1
C	2
Ş	3
B	**4**
Be	5
Ça	6
Ç	7
Ca	8
C	9
Ş	10
B	**11**
Be	12
Ça	13
Ç	14
Ca	15
C	16
Ş	17
B	**18**
Be	19
Ça	20
Ç	21
Ca	22
C	23
Ş	24
B	**25**
Be	26
Ça	27
Ç	28
Ca	29
C	30
Ş	31

Ümumxalq Hüzn Günü

1990-cı il yanvarın 20-də Azərbaycanın ərazi bütövlüyünü pozmaq cəhdlərinə etiraz əlaməti olaraq küçələrə çıxmış dinc əhaliyə divan tutmaq məqsədilə Bakıya və respublikanın digər rayonlarına sovet hərbi hissələri yeridildi.

Görünməmiş qəddarlıqla keçirilən cəza tədbirləri nəticəsində heç bir günahı olmayan 133 dinc sakin öldürüldü, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar olmuşdur. Bu hadisə sovet rejiminin törətdiyi ən qanlı faciələrdən biri və dinc əhaliyə qarşı yönəlmiş vəhşi bir cinayət hadisəsi idi.

Yeni il bayramı (1 yanvar)

Ədəbiyyatşünas, professor Vəliyev Vaqif Əli oğlunun (01.01.1924-24.05.1998) anadan olmasının 85 illiyi

Rus qoşunları tərəfindən Gəncənin işğal olunmasının (03.01.1804) 205-ci ildönümü

Azərbaycanın Əməkdar incəsənət xadimi, opera müğənnisi Ağdamski (Bədəlbəyli) Əhmədbəy Bəşir oğlunun (05.01.1884-01.04.1954) anadan olmasının 125 illiyi

Azərbaycanın Milli Qəhrəmanı Quluyev Mətləb Kamran oğlunun (09.01.1959-31.08.1992) anadan olmasının 50 illiyi

Azərbaycanın Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, dilçi, professor Qurbanov Afad Məhəmməd oğlunun (10.01.1929) anadan olmasının 80 illiyi

Şair, tərcüməçi Məsimov Baba Vəzir oğlunun (Baba Vəziroğlu) (10.01.1954) anadan olmasının 55 illiyi

Nasir, dramaturq Ələddinov Rafiq Səməndər oğlunun (10.01.1949) anadan olmasının 60 illiyi

Nasir Qasımov Ənvər Yusif oğlunun (15.01.1914-04.03.1989) anadan olmasının 95 illiyi

Azərbaycanın Milli Qəhrəmanı Əliyev Vasili Əhməd oğlunun (15.01.1959-19.10.1992) anadan olmasının 50 illiyi

Şair Nəsibov Vaqif (Vaqif Nəsib) Hüseyn oğlunun (16.01.1939) anadan olmasının 70 illiyi

Azərbaycanın Milli Qəhrəmanı Abdullayev Rövşən Əbdülhüseyn oğlunun (16.01.1969-13.09.1992) anadan olmasının 40 illiyi

Tənqidçi, ədəbiyyatşünas Məmmədov Aydın Mirsaleh oğlunun (Aydın) (16.01.1944-20.04.1991) anadan olmasının 65 illiyi

Ümumxalq hüzn Günü (20 yanvar 1990)

Azərbaycanın Xalq artisti, Əməkdar incəsənət xadimi, bəstəkar Axundova Şəfiqə Qulam qızının (21.01.1924) anadan olmasının 85 illiyi

Publisist, nasir Axundov Asif Xeybər oğlunun (21.01.1939) anadan olmasının 70 illiyi

Alman dramaturqu Lessinqin (Qothold Efraim) (22.01.1729-15.02.1781) anadan olmasının 280 illiyi

Azərbaycanın Əməkdar elm xadimi, cərrah Əfəndiyev Fuad Ələddin oğlunun (23.02.1909-19.10.1963) anadan olmasının 100 illiyi

Azərbaycanın Milli Qəhrəmanı Muradov Hikmət Oqtay oğlunun (23.01.1969-29.10.1991) anadan olmasının 40 illiyi

Azərbaycanın Xalq artisti, Əməkdar incəsənət xadimi, dirijor Həsənov Əşrəf Həsən oğlunun (24.01.1909-09.08.1983) anadan olmasının 100 illiyi

Ucar rayonunun yaranmasının (24.01.1939) 70 illiyi

Şotlandiya şairi Berns Robertin (25.01.1759-21.07.1796) anadan olmasının 250 illiyi

Osmanlı imperiyasının əsasının qoyulmasının (27.01.1299) 710 illiyi

Tərtər rayonunun yaranmasının (27.01.1934) 75 illiyi

Gürcüstanın Xalq şairi Leonidze Georgi Nikolayeviçin (28.01.1899-09.08.1966) anadan olmasının 110 illiyi

Gömrük işçiləri Günü (29.01.1992)

Azərbaycanın görkəmli siyasi və dövlət xadimi Rəsulzadə Məhəmməd Əmin Hacı Molla Ələkbər oğlunun (31.01.1884-06.03.1955) anadan olmasının 125 illiyi

Azərbaycanın Əməkdar incəsənət xadimi, şair Cavadzadə Əli Əliqulu oğlunun (Əli Tudə) (31.01.1924-26.02.1996) anadan olmasının 85 illiyi

Yanvar

1

Planetimizdə neçə yeni il bayramı var

Görəsən, planetimizdə neçə Yeni il bayramı var? Bu, heç də ritorik sual deyildir. Əvvəlcə, Yeni ili ənənəvi olaraq dekabrın 31-dən yanvarın 1-nə keçən gecə qarşılayanlardan başlayaq: bunlar MDB ölkələri, Avstraliya, Şotlandiya, İtaliya, Avstriya, Yaponiya, Rumıniya, Kanada, ABŞ, Finlandiya və bir çox başqa dövlətlərdir. Bunun ardınca Yeni il yanvarın 14-də Yunanıstana qonaq gəlir və Müqəddəs Vasili günü adlanır. Uşaqlar çəkmələrini səxavətli Vasilinin onların içinə hədiyyə qoyacağı ümidi ilə sobanın yanına düzürlər və arzularına çatırlar.

Sonra Ay təqviminə uyğun Yeni il gəlir. Onun dəqiq tarixi yoxdur, çünki yazın ilk təzə Ayı (hilal) çıxanda qeyd olunur. Ay təqvimi ilə Yeni il bayramını Çində, Malayziyada, Vyetnamda, Sinqapurda, Koreyada, Monqolustanda və Asiyanın digər ölkələrində, habelə buddizmə sitayiş edənlər keçirirlər.

Sonra hər il gecə ilə gündüzün bərabərləşdiyi gün - martın 21-dən 22-nə keçən gecə qarşıladığımız sevimli Novruz bayramı gəlir. Novruz Əfqanıstan, İran və Pakistanda, Orta Asiya respublikalarında və ölkəmizdə qeyd olunur. Növbəti gün, martın 22-də Yeni il Hindistanı haqlayır. Qeyd etmək lazımdır ki, Hindistanda yeni il kimi qeyd olunan səkkiz tarix var. Aprelin 1-də - zarafatlar günündə Yeni ili Odessada və Birmada qarşılayırlar. Aprelin 13-də Yeni il Şri-Lankaya və Nepala, 14-də isə Laosa gəlir. Mayya tayfaları Yeni ili iyulun 16-da qeyd edirdilər. Cibuti və Nigerdə Yeni ili avqust ayında, Suriyada sentyabrın 1-də, Efiopiyada sentyabrın 11-də, Zambiyada oktyabrın 7-də, Yəməndə noyabrın 18-də, Okeaniyada və Havay adalarında noyabrın ortalarında qarşılayırlar. Yəhudilər Yeni ili sentyabr ayının 1-ci və 2-ci günü qeyd edirlər.

Oktyabrın 31-dən noyabrın 1-nə keçən gecə Yeni ili Şotlandiya, İrlandiya və Men adasında qarşılayırlar.

Yeni ilin yanvarın 1-dən hesab olunması xristianlığın tarixi ilə bağlıdır. Rəvayətə görə xristian dininin yaradıcısı İsa peyğəmbər dekabrın 24-də anadan olmuşdur. Ona görə də xristianlar bu günü İsa peyğəmbərin

doğulması şərəfinə Milad bayramı kimi qeyd edirlər. Milad bayramının ilkin mənbəyi hər il qış günəşinin duruşu zamanı (21-25 dekabr) "xilaskar allahın doğulması" ilə əlaqədar keçirilən qədim bütpərəst mərasimi olmuşdur. Milad bayramını ilk dəfə Roma xristian icmaları keçirmişdir. Bu bayram 431-ci ildə qanuniləşdirilmişdir.

Bizim istifadə etdiyimiz təqvim də məhz miladi təqvim adlanır. Bu təqvimə əsasən yeni il yanvarın birindən başlanır.

Yeni ilin rəmzlərindən biri Şaxta babadır. Şaxta babanı müxtəlif ölkələrdə müxtəlif cür adlandırırlar. Məsələn, ABŞ-da və Avstraliyada o, Santa Klaus, Rusiyada - Ded Maroz, Türkiyədə Noyel baba, Avstriyada – Silvestr, Britaniyada-Miladi baba, Yunanıstanda - Müqəddəs Vasili adlanır.

Bütün hallarda Şaxta baba uşaqların sevimlisidir. Yeni il gecəsində onlar evlərə heç vaxt əliboş gəlmirlər. Torbalarındakı müxtəlif hədiyyələrlə uşaqları sevindirirlər.

Yeni ili nə vaxt bayram etmək başlıca şərt deyildir. Əsas odur ki, qarşıdan gələn hər Yeni il insanlara xoşbəxtlik bəxş etsin.

Ədəbiyyat

1 yanvar-Yeni il bayramı //Qocayev Ə. Bayramlar və tarixi günlər.- B., 2006.- S.79-82.

1 yanvar-Yeni il //Azərbaycan respublikasının Dövlət rəmzləri, tarixi günləri və bayramları.- B., 2005.- S.15-16.

2009

Təqvim miflər (Öküz ili)

Müntəzəm olaraq ilin fəsillərinin, aylarının, günlərinin bir-birini əvəz etməsi ilə təbiətin və bitkilərin dəyişib haldan-hala düşməsi (cücərməsi, yarpaqlaması, çiçəkləyib meyvə verməsi, çılpaqlaşması və s.) ilkin təsəvvürlərdə bir silsilə mifik obrazların kortəbii şəkildə yaranmasına təkan vermişdir. Bitki, heyvan və təbiət hadisələrində ruhun varlığı ideyası meydana gəlmişdir. Ulu əcdad dünyadakı varlıqların ölüb-dirilməsini ruhların iki qütbə ayrılması ilə (xeyir və şər ruhlar) əlaqələndirmişlər.

Bərəkət, bolluq gətirən hami ruhlara ehtiram göstərib sitayiş etmiş, yolunda qurbanlar kəsmişlər. Ölüm, fəlakət, quraqlıq, aclıq və soyuğu qoruyan ruhlara qarşı isə mübarizə yolları axtarmışlar. Əlbəttə, təqvim miflərində də ilkin yaranış motivlərinə müraciət olunurdu, lakin etioloji kateqoriyaya daxil olanlardan fərqli olaraq, əsas qayə, məqsəd yaranma, meydana gəlmə epizodları ilə deyil, yaranan varlıqların sonrakı funksiyalarında açılırdı. Başqa sözlə, etioloji miflərdə əsas diqqət günəşin doğulması səbəbini aydınlaşdırmağa yönəlirsə, təqvim miflərində günəşin doğulandan sonrakı fəaliyyətinə, dünyadakı varlıqların xidmətində durmasına üstünlük verilirdi.

Təqvim miflərində hətta ayrı-ayrı illər, aylar, günlər belə mifik obraza, dünya modelinin detalına çevrilir. Təqvim mifləri haqqında belə bir rəvayət var: “Bir padşah görür ki, bının ölkəsindəki adamnar tez-tez illəri qatışdırıllar bir-birinə. Çünkü illərin adı yoxuymuş. Padşah fikirləşir ki, gərəh illərə ad qoyam. Durur çıxır səfərə. Ucardan, qaçardan, sürünərdən qabağına hansı çıxırsa onun adını verir bir ilə. Bının qabağına on iki cannı çıxdığı üçün on iki də il adı düzəldir. Həmən cannılar bınnardı: donuz, sıçan, pələh, dovşan, öküz, at, qoyun, meymun, it, quş, ilan, balıx. İllər də bınnarın adıynan addanır” .

Mifdə adları çəkilən heyvanlar qədim Şərq təqvimində (çinlilərin, koreyalıların, yaponiyalıların və monqolların, eləcə

də bu cür təqvimlərin ilk yaradıcıları hesab edilən Orta və Şərqi Asiya türklərinin) cüzi fərqlərlə təkrarlanır. İlin günlərə bölünməsi Çin loğmanlarının müəyyənləşdirdiyinə görə, insan bədənində olan 365 əsas həssas nöqtə ilə bağlıdır.

Qədim astroloqların hesablamalarında isə insan skeleti 360 sümükdən ibarətdir ki, bu da ilin günlərinə bərabərdir. Hətta bəzi müsəlman tayfalarında (qədim tyamlarda) 60 illik təqvim sistemində ayrı-ayrı illər Məhəmməd peyğəmbərin bədən üzvləridir, eləcə də ayın otuz günü Adəm peyğəmbərin dişləridir, üst çənəsi açıq Ay, alt çənəsi isə tutqun Aydır.

Azərbaycan miflərində də illər, fəsillər, aylar və günlər insanla əlaqələndirilir. Daha çox qış, onun hissələri - böyük və kiçik çillə şər qüvvələr kimi təsvir edilir. Qış özü isə qarı şəklində verilir.

Sonradan nağıl və dastanlarımızda özünə geniş yer tapan Küpəgirən qarı, Köpək qarı bu təsəvvürlərdən doğan proobrazlardır.

İllərin dəyişməsi ilə dünyanın müvafiq qaydada növbə ilə on iki heyvanın belində saxlanılmasına həsr olunan ənənəvi motivdə də zaman vahidlərinin insanla əlaqələndirilməsinə rast gəlirik:

“Qabaxlar insannar bilmirmiş ki, illəri necə ədlandırsınnar. Navrız bayramında bilicilər yığışıp çıxıllar gəzişə. Deyillər ki, qəbağımıza hansı heyvan çıxsa, o heyvanın adını verəciyih bir ilə.

Bunların qabağına on iki ədda heyvan çıxır. O heyvannarın əddarıynan on iki ilə ad verirlər. Özü də il hənsi heyvanın üstündə təhvil olsa insannan o heyvanın xasiyyətində olur. Birincisi, donquzunan tuşdaşmışdılar. Donquz ilində insannan səlamat olallar. İkincisi, sıçan ilidi. İnsannar sıçan kimi olallar, hər şeyi gəmirip dağıdallar.

Üçüncüsü, öküz ilidi. İnsannar işlək olalar.

Dördüncüsü, pələng ilidi. İnsannar pələh kimi yırtıcı olallar. Beşincisi, dovşan ilidi. İnsannar dovşan kimi qorxax olallar. Altıncısa, balıx ilidi. İnsannar suda çox hərəkət eləllər bı ildə. Yeddincisi, ilan ilidi. Bı ildə də insannar bir-birrərin zəhərrər.

Səkincisi, at ilidi ki, bında insannar dözümnü olullar.

Doqquzuncu, qoyun ilidi, bında insannar həlim, mehriban olalar.

Onuncusu, meymun ilidi. Bında insannar meymun kimin oyunbaz olallar.

On birincisi, quş ilidi. İnsannar bı ildə həvada uçallar.

On ikincisi, it ilidi ki, bında da insannar it kimin boğuşallar, mahərbə-zad olar” .

Şərq Çin ulduz falına

görə 2009-cu il Öküz ilidir. Öküzlər səbrli və qaradinməz, təmkinli və astagəl, nəzərə çarpmayan və hövsələli, dəqiq və səliqəlidir. Öküzün görkəmi bir qədər kəndli görkəmi olsa da, o, orijinal zəka sahibidir. Adamları açıq söhbətə çəkmək

istedadı vardır. Bu onun üstünlüklərindən biridir.. Öküz seyrçidir. Bəlkə də, məhz buna görə tənhalığı sevir.

Zahiri sakitliyinə baxmayaraq tündməcazdır. Təmkinlidir, lakin dəlisovdur. Hiddəti nadir hallarda üzə çıxsa da hiddətlənəndə dəhşətlidir. Ona müqavimət göstərməmək məsləhətdir. Təhlükəli ola bilər. Soyuqqanlı görkəminə baxmayaraq tərsdir və başlanmış işin pozulmasına dözmür. Kim yolunu kəssə, vay onun halına. Rəisdir, rəhbərdir. Adətən qapalıdır, lakin son dərəcə zəruri olduqda bəlağətlə danışa bilir.

Öküz onun ovqatını poza biləcək yenilikləri xoşlamır. Pikassonu, yeni cazı, miniyubkaları və uzun saçları ələ salanlardan biridir, öz ailə üzvlərinin və ya yaxın adamlarının bunları qəbul etməsinə yol verməz. Həyatında ailə böyük rol oynayır. Şərtiliklərin və ənənələrin tərəfdarıdır. Öküz işləkdir, əsil əməkçidir, ailəsinə firavanlıq gətirir. Bir qayda olaraq öz sənəti olduğuna və sənətini işlətdiyinə görə ailəyə xeyri çoxdur. Sərbəst peşə onun üçün daha münasibdir. O, həm fiziki, həm də intellektual baxımdan çevikdir, yaxşı rəhbər ola bilər. Kənd təsərrüfatı sahəsində xüsusilə istedadlıdır.

Ticarətdən və ictimai münasibətlərdən başı çıxmır, bunlar onun üçün çətindir. Səfərlərlə, səyahətlərlə bağlı peşə seçmək məsləhətdir, səyahətlərə və səfərlərdə o müvazinətini və səhhətini itirir. Təəsüf ki, məhəbbət onun üçün ancaq lütfkar bir zarafatdır. O, incə, sədaqətli, sevdalı ola bilər, lakin heç vaxt romantik olmayacaqdır. Həyata materialist münasibət onun üçün bir çox qüssə və kədərlərinin, o cümlədən ailə həyatı ilə bağlı qüssə və kədərlərin mənbəyidir.

Sonda qeyd edək ki, qışda doğulmuş öküz daha xoşbəxtdir: işi az olacaqdır. Yayda doğulmuş öküzün başı işdən açılmayacaq, o il boyu qan-tər içində işləməli olacaqdır.

Ədəbiyyat

Öküz: (iş, ailə, vətən) //Ulduz falları: ensiklopediya lüğəti /red. Məmmədov, T.- B., 1991.- S. 57.

İnternet

www.azmif.net/
forum.azeriyurdu.org/
azerbaijan.news.az/
bizimasr.media-az.com/
www.fikrini.de/viewtopic.

Nailə Alışova

Yanvar

1

85 illiyi

Vaqif Vəliyev
1924-1998

Folklorşünas

Filologiya elmləri doktoru, professor Vaqif Əli oğlu Vəliyev 1924-cü il yanvarın 1-də Azərbaycanın Qazax rayonunun Pirili kəndində anadan olmuşdur. Orta təhsilini Qazax şəhər 1 saylı məktəbdə almışdır. Əmək fəaliyyətinə Azərbaycan KP MK Qazax Rayon Partiya Komitəsində texniki katib kimi başlamışdır. Hərbi xidmətdən sonra ADU-nun filologiya fakültəsində təhsil almışdır. Orada aspiranturaya daxil olmuş, "Səməd Vurğunun poemaları" mövzusunda namizədlik dissertasiyası, 1958-ci ildə "Azərbaycan folkloru janrları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Professor Vaqif Vəliyev ədəbiyyat tariximiz üçün dəyərli olan bir sıra məsələləri tədqiq etmiş, qoşma, gəraylı, divani, müxəmməs kimi xalq şeir formalarını araşdırmış və bu barədə maraqlı tədqiqatlar aparmışdır.

"Ayrım bəzəmələri" və "Bayatılar" kitablarını tərtib etmişdir.

V.Vəliyev 1998-ci il mayın 24-də vəfat etmişdir.

Ədəbiyyat

Azərbaycan folkloru.- B.: Maarif, 1985.- 411s.

Qaynar söz çeşməsi.- B.:Yazıçı, 1981.- 150 s.

Əhmədov, T. Vaqif Vəliyev //Əhmədov T. XX əsr Azərbaycan yazıçıları: Ensiklopedik məlumat kitabı.-B., 2004.- S. 903.

Elmira Şirəliyeva

205 illiyi

Gəncənin işğali 1804

Əsrlər boyu Gəncə Azərbaycan milli ruhunun aynası, onun mənəvi dəyərlər sistemini formalaşdıran bir məkan olub. XVIII əsrin sonlarında, sürətlə bir-birini əvəz edən siyasi hadisələr fonunda Gəncə xanı Cavad xan digər Azərbaycan xanları içərisində fəal mövqeyi ilə seçilirdi. Təbii ki, bunu çox mühüm hərbi-strateji mövqedə yerləşən xanlığın mənafeyi tələb edirdi. Cavad xan Gəncədə XVI əsrdən hökmranlıq edən Ziyadoğlular nəslindən idi. Ziyadoğlular ilk doqquz Qızılbaş tayfalarından olan Qacarların bir qoludur. Yaxınlaşan təhlükə qarşısında Azərbaycan, Dağıstan və Gürcüstan hakimlərinin vahid cəbhədən çıxış etmək meyllərindən məharətlə istifadə edən Gəncə xanı antirus koalisiya yaratmağa çalışır, hətta buna müəyyən qədər müvəffəq olur. Gəncə, Qarabağ, Şəki xanları, ləzgi şamxalları və Gürcü şahzadəsi Aleksandr Rusiyaya qarşı birgə mübarizə aparacaqlarına and içirlər. Cavad xanın siyasi portretinin əsas cizgilərindən biri də bu idi ki, o, nəinki hadisələrin arxasınca sürünmür, əksinə siyasi iqlimə çox güclü təsir göstərməyi bacarırdı. Lakin şəxsi maraqlara qalib gələ bilməyən xanların fəaliyyəti bundan uzağa getmir. Həlledici anda Gəncə xanı qorxunc düşmən qarşısında tək qalır. Cavad xanın başçılığı ilə gəncəlilər təcavüzkara qarşı bir aydan artıq müqavimət göstərirlər. Rus generalı P.D.Sisiyanov dəfələrlə Gəncə xanı Cavad xana könüllü surətdə təslim olmaq təklifini göndərmiş və hər dəfə də rədd cavabı almışdı. 1803-cü ildə o, Tiflisdən keçərək ordusunu Gəncə istiqamətinə yönəldir, dekabr ayında isə Gəncə qalasına yaxınlaşmışdı. Qalanın tutulmasının çətin bir proses olduğunu bilən ordu başçısı xüsusi hazırlıqlardan sonra 1804-cü il Yanvar ayının 3-ü səhər saat 5-də qalaya hücum edir. Bir dəstə general S.A.Portnyakinin başçılığı ilə Qarabağ qapısı, digər dəstə isə Tiflis qapısı tərəfindən həmlə edirdi.

Cavad xanın əsas qüvvələri 2 dəfə Portnyakinin hücumunu dəf edə bildi, yalnız üçüncü həmlədə düşmənlər şəhərə daxil oldular. Ruslar əsas qüllələni tutduqdan sonra döyüş daha da şiddətləndi. Müdafiəçilərin ön sırasında olan Cavad xan yaralandığına baxmayaraq, son nəfəsinədək əlində qılınc düşmənlə döyüşdü. Amansız keçən döyüşdən sonra onlar şəhəri tutmağa nail oldular. Cavad xan oğlu Hüseynqulu ağa ilə birlikdə hətta düşmənlərinin belə etiraf etdiyi bir qəhrəmanlıqla həlak oldu. Cavad xanın böyük oğlu III Uğurlu xan 1804-cü ilin yayında Gəncəbasarda işğalçılara qarşı üsyan qaldırsa da, məğlubiyyətə uğrayır.

1804-cü ilin yanvarında Gəncə rus qoşunları tərəfindən işğal edildikdə təkcə 3700 nəfər qalanı müdafiə edərkən həlak olmuşdu. Minlərlə gəncəli (o cümlədən Xanın yaxın qohumlarından 200 ailə) şəhəri tərk edərək Qafqazın digər xanlıqlarına və İrana köçmüşdülər. Əgər 1802-ci ildə Gəncədə əhalinin sayı 25700 nəfər idisə, işğaldan sonra, 1804-cü ildə bu rəqəm 5460 nəfərə enmişdi. Gəncənin keçmiş xan-bəy mülkləri Rusiya dövlətinin xeyrinə müsadirə olunaraq xəzinə hesabına keçirilir və həmin torpaqlar intensiv surətdə xristian əhalisi (əsasən ermənilər) ilə məskunlaşdırılırdı. Təsadüfi deyil ki, ermənilər 1803-cü ildə şəhərin əhalisinin cəmi 8,5 faizini təşkil etdikləri halda, 1808-ci ildə bu göstərici 36,2 faizə çatmışdı. Gəncənin işğalı Rusiya üçün çox əhəmiyyətli idi. Azərbaycanın digər xanlıqlarının taleyi də artıq həll olunmuşdu. Çar hökuməti Gəncə xanlığı üzərində çətinliklə qazandığı qələbəni yüksək qiymətləndirərək bu münasibətlə xüsusi medal təsis etmişdir. Rusiyaya xoşluqla birləşən xanlıqlardan fərqli olaraq Gəncədə xüsusi hərbi vəziyyət rejimi tətbiq edildi. İnadkar şəhərin minillərin silə bilmədiyi adını da dəyişərək rus padşahının xanımının "ecazkar" ismini verdilər. Və bu qədim, comərd şəhər düz 114 il yad qadının adını daşıyası oldu. Amma ad dəyişməklə yaddaşları pozmaq mümkün deyildi. Doğma şəhəri üçün şəhid olan Cavad xan, Kərbəla müsibətinin simvoluna çevrilmiş İmam Hüseyn kimi, Gəncənin əbədi simvoluna çevrildi. Bir əsr ərzində Azərbaycan xalqı milli təkamül, müasir mədəni dünyaya qovuşmaq yolunda əhəmiyyətli bir mərhələ keçmiş oldu. Bu mərhələdə də Gəncənin xüsusi çəkisi, müstəsna rolu var idi. Avropa mədəni dəyərlərilə milli ənənəviçiliyi (tradisionalizmi) özündə heyrətamiz şəkildə sintez edən bu Cavad xan şəhəri XX əsrin əvvəllərində milli ideyanın beşiyi oldu. Bunun məntiqi nəticəsi kimi ilk demokratik Azərbaycan Cümhuriyyətinin cücərtiləri Gəncədə boy verdi. Şərqdə ilk respublika qurucuları öncüllərinin əksəriyyəti də Cavad xanın Gəncəsinin yetirdiyi siyasi xadimlər idi. Onların arasında damarlarında birbaşa Ziyadoğlu xanlarının qanını daşıyanlar da az deyildilər. Cümhuriyyət doğma Gəncənin adını özünə qaytardı. Lakin Rusiyadakı formasını dəyişmiş mərkəziyyətçi rejim Cavad xanın xanədanının işğalına bənzər bir şəkildə

onun varislərinin yaratdığı Cümhuriyyəti də işğal etdi. Demokratik Azərbaycanı quranlar sırasında aparıcı mövqedə olan Gəncə liderləri, bolşeviklərin tərtib etdiyi təcili və sorğu-sualsız məhv ediləcək şəxslər siyahısında da birincilərdən oldular. Gəncənin adına "əl gəzdirmək" də unudulmadı. Bu dəfə bolşeviklərə heç cür təslim olmaq istəməyən üsyankar şəhər, qədimdə Gəncə ətrafında qadın hökmdarımız Tomris tərəfindən məğlub edilən Əhəməni padşahı Kirin adını təxəllüs seçmiş "alovlu proletar tribununun xatirəsinin əbədiləşdirilməsinə layiq görüldü". İnsanların şəxsi düşüncə və milli meyarlarına məhdudiyyət qoyan 70 illik Sovet dövrü Cavad xan təki tarixi örnəkləri "yad sinfin elementləri kimi" mənəviyyat dairəmizdən kənarda saxlamağa çalışırdı. Lakin, XX əsrdəki ikinci milli intibah dövründə Cavad xan da digər dəyərli tarixi şəxsiyyətlərimiz kimi yaddaşımıza qayıtdı, "yatmış" milli genlərimizi oyatdı. Cavad xanın adı və hünəri Gəncənin, Azərbaycanın, azərbaycanlıların azadlıqsevərliyinin rəmzinə çevrildi. O, qeyri-bərabər döyüşdə şəhid olacağını dəqiq bilsə də, Allahın insana bəxş etdiyi ən gözəl nemət olan azadlığa zərrə qədər də xəyanət etmədi. Cavad xan əlində siyrilmiş qılınc, silahdaşlarının vida salamları altında son döyüş üçün Gəncə qalasının "Hacıxan" bürcünə qalxdı.

Ədəbiyyat

İsayev, Ə. Gəncə və Gəncəlilər.- B.: Azərnəşr, 1992 . - 352 s.

Azərbaycan xanlıqları //Azərbaycan Milli Ensiklopediyası.- B.: Azərbaycan Milli Ensiklopediyası, 2007.- S. 258-259.

Əhmədov, F. Gəncənin tarix yaddaşı.- B., 1998.- 275 s.

İnternetdə

az.wikipedia.org
www.borchali.net.
olaylar.az.

Adilə Abdullayeva

Yanvar

10

80 illiyi

Afad Qurbanov
1929

Dilçi

Afad Məhəmməd oğlu Qurbanov 1929-cu ilin yanvar ayının 10-da Qərbi Azərbaycanda Kolinino rayonunun Qızıl Şəfəq kəndində yüksək rütbəli hərbçi ailəsində anadan olmuşdur. O, 1945-1946-cı illərdə kənd yeddiillik məktəbində direktor işləmişdir.

1946-1948-ci illərdə A.S.Puşkin adına Tiflis Müəllimlər İnstitutunda, 1948-1951-ci illərdə Azərbaycan dövlət Pedaqoji İnstitutunda (indiki ADPU) Azərbaycan dili və ədəbiyyatı fakültəsində təhsilini davam etdirmişdir. 1951-1955-ci illərdə Gürcüstan Hamamalı kənd orta məktəbində direktor, 1955-1956-cı illərdə Tiflis Müəllimlər İnstitutunda müəllim, 1956-1959-cu illərdə APİ-nin Filologiya fakültəsində aspirant, 1967-1981-ci illərdə dosent, dekan müavini, dekan, 1981-1989-cu illərdə rektor işləmişdir.

1979-cu ildən ADPU-da Azərbaycan dilçiliyi kafedrasının müdiridir. O, 1962-ci ildə "Səməd Vurğunun "Vaqif" pyesinin dili və üslubu" mövzusunda namizədlik, 1968-ci ildə "Müasir Azərbaycan ədəbi dili" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

Ədəbi fəaliyyətə XX əsrin 50-ci illərindən başlamışdır. Dövri mətbuatda müasir Azərbaycan dili və ədəbiyyatının aktual problemlərinə dair elmi məqalələri dərc olunmuşdur. Türkiyə və Yunanıstanda beynəlxalq konqres, konfrans və simpoziumlarda iştirak və çıxış etmişdir. Bir sıra beynəlxalq elmi mərkəzlərin üzvü seçilmişdir. 1981-1987-ci illərdə Bakı Sovetinə, 1990-1995-ci illərdə Azərbaycan Respublikası Ali Sovetinə deputat seçilmişdir.

1992-ci ildə Azərbaycan Respublikası Ali Sovetinin Fəxri fərmanına layiq görülmüşdür. 100-ə yaxın elmi monoqrafik əsəri, dərslik, dərs vəsaiti,

500-dən artıq elmi-metodiki və elmi-kütləvi məqaləsi çap olunmuşdur.

A.Qurbanov 2001-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, 1983-cü ildən AMEA müxbir üzvü, 1970-ci ildən filologiya elmləri doktoru, professor, 1981-ci ildən Əməkdar elm xadimi, 1991-ci ildən Dövlət mükafatı laureatıdır.

Hazırda dünyanın bir sıra beynəlxalq və milli akademiyalarının akademiki, Türk Dil Qurumunun şərəfli üzvüdür. Xarici ölkələrin bir çox linqvistik və onomastik elmi komitə, cəmiyyət və təşkilatlarının həqiqi və ya fəxri üzvüdür.

A.Qurbanov ictimai-siyasi fəaliyyəti ilə bağlı respublika xaricində, o cümlədən Türkiyə, Rusiya, İran və başqa ölkələrdə də xeyli işlər görmüşdür.

Türkiyənin Ankara, İstanbul, Adana, Qeysəriyyə və Konya şəhərlərində oxuduğu məruzələrində xalqımızın düşdüyü fəlakəti, onun səbəblərini, çıxış yollarını açıqlamışdır.

1992-ci ildə Azərbaycan dövlət nümayəndə heyətinin tərkibində Yunanıstanda olmuş və Afinada keçirilən Beynəlxalq konqresdə ölkəmizin vacib problemləri ilə bağlı çıxışlar etmişdir.

Professor A.Qurbanov hazırda öz ictimai-siyasi fəaliyyətini davam etdirməkdədir.

Ədəbiyyat

Azərbaycanın onomastikası.- B.: ADU, 1986.- 116 s.

Bədii mətnin linqivistik təhlili.- B.: Maarif, 1986.- 480 s.

Qafqaz ərazisində dillər .- B.: Elm, 2001.- 44 s.

Ana dilində sevgi ananın südiylə insanın qanına hopmalıdır //Əsrin sözü.- 2005.- 5 mart.- S. 4.

Azərbaycan dilçiliyinin problemləri yeni axtarışlarda //Respublika.-2004.- 4 mart.- S. 5.

İqtisadiyyat terminləri lüğəti //Azərbaycan.- 2005.- 25 oktyabr.- S. 5.

Dil və norma.- B.: APU, 1992.- 46 s.

Dil və üslub.- B.: APU, 1992.- 46 s.

Dilçilik sistemi.-B.: APU, 1976.- 88 s.

Dünyada türk adları.- B.: Elm, 2000.- 27 s.

Dünyanın dil ailələri .- B.: APU, 1994.- 143 s.

Ortaq müsəlman adları.- B.: Elm, 2000.- 22 s.

Azərbaycan dilçiliyi problemləri.- B.: Nurlan, 2004. - 443 s.

Sanballı monoqrafiya: tədqiqat //Respublika.- 2007.- 25 iyul.- S. 4.

Ulu öndər haqqında dəyərli tədqiqat əsəri //Azad Azərbaycan.- 2007.- 5 iyul.- S. 4.

Bəybala Ələsgərov

Yanvar

10

55 illiyi

Baba Vəziroğlu 1954

Nasir

Nasir Məsimov Baba Vəzir oğlu - 1954-cü ildə İsmayıllı rayonunun Mollaisaqlı kəndində anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra BDU-nun jurnalistika fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə Azərbaycan Yazıçılar İttifaqında təlimatçı kimi başlamışdır. 1981-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Ədəbi fəaliyyətə 1976-cı ildə "Ulduz" jurnalında çap etdirdiyi "Bir yaz axşamı", "Maqazinçi Dadaş" hekayələri ilə başlamışdır. Həmin vaxtdan dövri mətbuatda şeir və nəsr əsərləri ilə fəal çıxış edir. Klassik rus şairlərindən tərcümələr etmişdir. Əsərləri xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur. Uzun illər teleşirkətdə aparıcı işləmişdir

1998-ci ildə "Mir" Dövlətlər arası Teleradio Şirkətində redaktor, 1998-2002-ci illərdə Azərbaycan Kinematoqrafçılar İttifaqında baş redaktor, idarə katibi, "Yurd" jurnalının məsul katibi vəzifəsində çalışmışdır.

Hazırda "İstedad" jurnalının baş redaktorunun müavinidir. Mindən artıq şeirinə mahnı bəstələnmişdir. "Yeri boş qalan adam", "Sənsiz və ya ömrün son axşamı", "Haradan başlanır vətən", "Elegiya", "Beş nəğməlik ömür" və s. sənədli filmlərin ssenari müəllifidir. 2000-ci ildə "Humay" mükafatı laureatı olmuş, 2005-ci ildən isə Əməkdar incəsənət xadimidir.

Ədəbiyyat

Ocaq (povest).- B.: Gənclik, 1989. -280 s.

Yol (povestlər və hekayələr).- B.: Yazıçı, 1992. - 352 s.

Rus dilində

Продавец Дадаш: Рассказы //Юность.- 1983.- № 3.- С. 31-35.

Sevgiyə Əsədova

Yanvar

16

65 illiyi

Aydın Məmmədov 1944-1991

Tənqidçi



Tənqidçi, ədəbiyyatşünas Məmmədov Aydın Mirsaleh oğlu -1944-cü il yanvarın 16-da Şəki rayonunun Kiş kəndində anadan olmuşdur. Qonşu Oxud kəndində orta məktəbi qızıl medalla bitirib, 1960-cı ildə ADU-nun filologiya fakültəsinə qəbul olmuşdur. 1965-ci ildə həmin fakültəni bitirmişdir.

Ədəbi fəaliyyətə 1979-cu ildə "Ulduz" jurnalında başlamışdır.

1980-cı ildə filologiya elmləri namizədi adı almışdır.

1981-ci ildə Azərbaycan Yazıçılar Birliyinin üzvü seçilmişdir.

1985-1987-ci illərdə AEA-nın Dilçilik İnstitutunun Dilçilik şöbəsinin müdiri, "Sovetskaya türkoloqiya" jurnalının baş redaktorunun müavini vəzifəsində işləmişdir. 1989-1991 illərdə Sovet Türkoloqlar Komitəsinin, "Sovetski pisatel" nəşriyyatının, "Vətən və Qayğı" cəmiyyətinin idarə heyətinin üzvü, "Ulduz" və "Xəzər" jurnallarının heyət üzvü, Qarabağa Xalq Yardımı Komitəsinin sədr müavini olmuşdur.

1991-ci il aprelin 19-da avtomobil qəzasında faciəli surətdə həlak olmuş, doğma kəndində dəfn edilmişdir.

Ədəbiyyat

Sözümüz eşidilənədək.- B.: Yazıçı, 1988.- 244 s.

Son giley.- B.: Azadlıq, 1992.- 94 s.

Qasımoğlu, N. [Aydın Məmmədov haqqında xatirələr] //Xəzər.- 1992.- № 5-6.- S. 67-68.

Sevgiyə Əsədova

Yanvar

16

70 illiyi

Vaqif Nəsib
1939

Şair

16 yanvar 1939-cu ildə Azərbaycanın Qazax şəhərində anadan olmuşdur. Burada orta məktəbi bitirdikdən sonra ADU-nun filologiya fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə "Azərbaycan gəncləri" qəzeti redaksiyasında ədəbi işçi kimi başlamışdır. "Na boyevom postu", "Azərbaycan pioneri", "Qobustan" jurnalı redaksiyasında və başqa qəzetlərdə məsul vəzifələrdə çalışmışdır.

1988-ci ildən "Azərbaycan" jurnalında, publisistika şöbəsində çalışır. Bədii yaradıcılığa 1957-ci ildə dövri mətbuatda dərc etdirdiyi şeirləri ilə başlamışdır. Əsərləri xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur.

Ədəbiyyat

Dağ havası.- B.,1983.- 117 s.

Ceyrançöllü Qoç Kərəməli.- B.: Gənclik, 1986 .- 97 s.

Qayıdanlar //Ədəbiyyat və incəsənət.-1989.-18 avqust .- S. 6.

Dost məktubu //Ədəbiyyat və incəsənət.- 1999.- 22 yanvar.-S.8.

Arzu Babayeva

Yanvar

20

Azadlıq Yolunun 20 Yanvar Zirvəsi

1990-cı il yanvarın 20-də Azərbaycanın ərazi bütövlüyünü pozmaq cəhdlərinə, keçmiş SSRİ rəhbərliyinin Azərbaycanla bağlı apardığı qərəzli siyasətə, yerli rəhbərliyin xalqımızın mənafeyinə zidd mövqedə durmasına qarşı etiraz əlaməti olaraq küçələrə çıxmış dinc əhaliyə divan tutmaq məqsədilə Bakıya və respublikanın digər rayonlarına sovet hərbi hissələri yeridildi. Dinc əhalinin kütləvi etiraz aksiyalarının ağır hərbi texnikanın köməyi ilə vəhşicəsinə dağıdılması təkcə süquta uğramaqda olan sovet siyasi sisteminin qorunması cəhdi kimi deyil, həm də azərbaycanlıların tarixi torpaqlarından sıxışdırılıb çıxarılması ilə bağlı Çar Rusiyasının əsrlərlə apardığı mənfur siyasətin yeni şəraitdə davamı idi.

20 Yanvar hadisəsi xalqımızın yaddaşına qanlı faciə kimi daxil olsa da, bütövlükdə milli tariximizin ən şanlı və qəhrəmanlıq səhifələrindən birini təşkil edir. Məhz 20 Yanvardan başlayaraq Azərbaycan xalqı SSRİ-nin tərkibində ədaləti bərpa etməyin qeyri-mümkünlüyü və milli haqlarımıza obyektiv yanaşma nümayiş olunacağına öz inamını bir-dəfəlik itirdi.

Hakimiyyətin mənbəyi sayılan və öz hüquqları uğrunda düşüncəsi, fikri, sözü, həmrəyliyi ilə mübarizəyə qalxmış bir xalq 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə öz zəhmli ordusunun tankları, işıq saçan zəhərli güllələri, xüsusi təyinatlı hərbi dəstələri, pozuculuq-təxribat işlərini təşkil edən çevik qrupları ilə üzləşdi...

Bakıda fövqəladə vəziyyət tətbiq edilməsinə baxmayaraq, yanvarın 22-də Azərbaycan xalqı şəhidləri ilə vidalaşdı. Paytaxt matəm libası geyinmişdi. Respublikada 3 gün matəm elan olunmuşdu. Azərbaycanın bütün rayonlarında və Bakıda izdihamlı matəm mitinqləri keçirildi. Bakıda keçirilən matəm mərasimində bir milyondan çox insan iştirak edirdi. Bu, Azərbaycan xalqının azadlıq səsi, haqq, ədalət,

demokratiya və müstəqillik uğrunda mübarizə əzmi idi.

20 Yanvar faciəsi törədilən zaman Azərbaycan xalqı ağır iflic vəziyyətinə və informasiya blokadasına salınmışdı, radio, televiziya susdurulmuş, onun enerji bloku silahlı hərbiçilər tərəfindən vəhşicəsinə partladılmış, mətbuatın nəşrinə qadağa qoyulmuşdu. Azərbaycan sakit və ölü bir dənizə bənzəyirdi. Xalq ağır və dəhşətli faciədən xəbərsiz idi. Görünməmiş qəddarlıqla keçirilən cəza tədbirləri nəticəsində heç bir günahı olmayan 133 dinc sakin öldürüldü, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar olmuşdur. Bu hadisə sovet rejiminin törətdiyi ən qanlı faciələrdən biri və dinc əhaliyə qarşı yönəlmiş vəhşi bir cinayət hadisəsi idi. Xalqın bu ağır günlərində, yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, təşkil olunmuş yığıncaqda çıxış edərə, xalqla birgə olduğunu bildirdi, 20 Yanvar faciəsinə siyasi qiymət verdi, onun hüquqa, demokratiyaya, humanizmə zidd olduğunu, mərkəzin və o zamankı respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv olduğunu göstərdi. Bu tarixi çıxışın mətni dünyaya, respublikaya geniş yayıldı. Xalqın qəlbində ümid çırağı yandı.

1993-cü ildə ulu öndər Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinin baş verməsinin səbəblərinin araşdırılması və onu törədənlərin məsuliyyətə cəlb olunması məsələsi istiqamətində mühüm addımlar atıldı. 20 Yanvar faciəsinin xalqımızın tarixində yeri və rolu, bu faciənin əbədiləşdirilməsi və bütün dünya ictimaiyyətinə çatdırılması yönündə mühüm işlər görülmüşdür.

Ümummilli liderin 1994-cü il yanvarın 5-də 20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi ilə bağlı verdiyi Fərmanda Azərbaycan Respublikasının Milli Məclisinə faciəyə tam və əsaslandırılmış siyasi-hüquqi qiymət verilməsi tövsiyə olundu. Milli Məclis 1994-cü il martın 29-da 1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında qərar qəbul etdi. Bununla da Prezident Heydər Əliyevin təşəbbüsü və təkidi nəticəsində 20 Yanvar faciəsinə dövlət səviyyəsində hüquqi-siyasi qiymət verildi.

Bakı şəhərinin ən hündür yerində yerləşən Şəhidlər Xiyabanında Azərbaycanın azadlığı uğrunda mübarizədə şəhid olanların xatirəsinə ucaldılmış möhtəşəm "Əbədi məşəl" abidə-kompleksi də ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə tikilmişdir. Azərbaycan Prezidentinin 2000-ci il, yanvarın 17-də imzaladığı Fərmanla 1990-cı il 20 Yanvar faciəsi zamanı şəhid olanlara "20 Yanvar Şəhidi" fəxri adı verilmişdir.

Bu gün Azərbaycan xalqı azadlıq uğrunda canlarını qurban edən şəhidlərimizin və cəsur Vətən övladlarının qəhrəmanlıq mübarizəsini çox böyük hörmət və ehtiramla əziz tutur, onların igidliyini yüksək qiymətləndirir. Şəhidlərimizin qanı bahasına qazanılan müstəqilliyimizi qanımızla və canımızla qorumalı, ümummilli liderimiz Hey-

dər Əliyevin dediyi kimi, onu daimi, əbədi və dönməz etməliyik.

Ədəbiyyat

20 Yanvar faciəsi və rabitəçilər /tərt. ed. Müşfiq Əmirov, Mədəd Coşqun .- B.: "Nurlar" NPM, 2003.- 95 s.

Balayev, A. 20 Yanvar hadisələri: sənədlər, mövqelər, şərhlər (1990-2000).- B.: Çaşıoğlu, 2000 .- 241 s.

Rəhimli, R. Efirin göz yaşları /red. Vəfadar Əliyev.- B.: Şirvannəşr, 2003.- 167 s.

20 Yanvar Azərbaycanda xalq hərəkatından milli azadlıq mübarizəsinə keçidin dönüş məqamı oldu

//Zaman.- 2008.- 19-21 yanvar.- S.2.
20 Yanvar faciəsinə gedən yol haradan başlanır

//Zaman.- 2008.- 19-21 yanvar.- S.4-5.

Rus dilində

Рзаева,О. Трагические события 20 Января 1990 года глазами женщин Азербайджана.- Б., 2003. - 88 с.

Черный Январь. Баку-1990: Документы и материалы.- Б.: Азернешр, 1990.- 285 с.

Юсифи. 1990. Я голову поднял....- Б.: Дом сказки, 2002.- 32 с.

İnternetdə

www.azadliq.org
www.azerbaijan.az

www.bizimasr.media-az.com
www.google.az

www.january20.net
www.tradition.aznet.org

Adilə Abdullayeva

Yanvar

21

85 illiyi

Şəfiqə Axundova
1924

Bəstəkar

Şəfiqə Qulam qızı Axundova 1924–cü il yanvar ayının 21-də Şəki şəhərində anadan olub. Atası dövrünün ziyalısı və dövlət işçisi olmuşdur.

O, Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını bitirmiş, həyatını milyonlarla dinləyicinin ruhunu oxşayan mahnı və musiqiyə həsr etmişdir. Musiqiyə hələ uşaq yaşlarından böyük həvəs göstərən Şəfiqə xanım məktəbdə oxuyarkən gözəl səsi olduğundan mahnılar ifa edərdi. O, Konservatoriyada vokal fakültəsində oxumuş, sonra bəstəkarlıq şöbəsinə keçmişdir.

Azərbaycanın dahi bəstəkarı Üzeyir Hacıbəyov başqa gənc bəstəkarlar kimi, Şəfiqə xanımın da inkişafında böyük rol oynamışdır. Şəfiqə xanım xalq musiqisinin əsaslarını Üzeyir bəyin sinfində keçmiş, ilk yaradıcılıq uğurlarını bu böyük sənətkarın himayəsi altında qazanmışdır. Hələ tələbə ikən yazdığı "Yuxu", "Qələbə marşı", "Nə gözəl" mahnıları diqqəti cəlb edir. Sonralar Şəfiqə xanım "Ana vətən" adlı vokal–simfonik silsiləsini, "Mənim vətənim", "Bəxtiyar ellər", "Leyla", "Könül istər", "Sevəcək məni", "Arzular" və s. onlarca gözəl lirik mahnılarını yaratmışdır.

Şəfiqə Axundova musiqinin müxtəlif janrlarında işlədiyinə görə onun yaradıcılığında: simfonik orkestr üçün süita, solo kamança üçün "Ləpələrin pıçıltısı" əsəri, müxtəlif fortepiano pyesləri, xalq çalğı alətləri üçün "Bayram rəqsi", "Xoş rəng" və s. instrumental əsərlərin adını qeyd edə bilərik.

Şərqdə ilk qadın bəstəkardır ki, 1972-ci ildə "Gəlin qayası" adlı opera yazmışdır. 1974-cü ildə Xalq yazıçısı S.Rəhimovun eyni adlı povesti əsasında İsgəndər Coşqunun librettosu əsasında yazdığı "Gəlin Qayası" operası ilə bəstəkar yaradıcılığında ən yüksək zirvəni fəth etdi.

Ş.Axundova geniş yaradıcılıq diapazonuna malik bir bəstəkardır. Onun belə sənətkar olması yeni nəslin tərbiyə və təhsilində də mühüm rol

oynamışdır. Belə ki, bəstəkar 1956-cı ildən 1982-ci ilə qədər Azərbaycan Dövlət İncəsənət İnstitutunda müəllim kimi fəaliyyət göstərmişdir.

Onun yaradıcılıq fəaliyyəti xalqımız və dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilmiş, o, Əməkdar incəsənət xadimi və Xalq artisti fəxri adlarına layiq görülmüş, müxtəlif fəxri fərmanlarla təltif edilmişdir. Bəstəkar ulu öndərimiz H.Əliyevin Sərancamı ilə "Prezident təqaüdçüsü"dür.

19 yanvar 2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin Sərəncamı ilə Azərbaycan musiqi sənətinin inkişafındakı xidmətlərinə görə Şəfiqə Qulam qızı Axundovanı "Şöhrət" ordeni ilə təltif etdi.

Ömrünü musiqi kimi zərif, incə bir sənətə həsr edən Şəfiqə xanımın qəlbi həmişəyaşar bahar çiçəyi qədər təravətlidir, sanki bu bəstəkar daim gənclik eşqi ilə yazıb yaradır. Bu gənclik təravəti yaşının 85 olmasına baxmayaraq, indi də Şəfiqə xanımın əsərlərində duyulur.

Ədəbiyyat

Azərbaycan Respublikası Prezidenti. Ş.Q. Axundovanın "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: 19 sentyabr, 2005-ci il //Azərbaycan.-2005.-19 yanvar.-S.1.

Təhmiraz qızı, S. Nəğmədir həyat: (bəstəkar Ş. Axundova haqqında) /red. sənətşünaslıq dok., prof. R.Zöhrabov.-B.: Nafta-Press.-2005.-356 s.

Abdulla, A. Bəstəkar Ş. Axundovanın yaradıcılıq gecəsi keçirildi (Muğam teatrında keçirilən tədbir haqqında) //Yeni Azərbaycan.-2005.-2 mart.-S.3.

Qocayeva, A. Şərqin opera yazan ilk qadın bəstəkarı: /Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi bəstəkar Ş.Axundova ilə müsahibə //Respublika.-2005.-16 yanvar .-S.3.

Şəfiqə Axundova (21.01. 1924) //Qadınlar Azərbaycanın musiqi həyatında /layihənin müəllifi, tərt. və red. Alla Bayramova.-B., 2004.-S.52.- 53.- Mətn azərb. və rus dilində.

Rus dilində

Распоряжение Президента Азербайджанской Республики о награждении Ш.Г.Ахундовой орденом «Слава» (композитор) //Бакинский рабочий.- 2005.- 20 января.-С.1.

В Шеки отмечен юбилей композитора Ш.Г.Ахундовой 80 летие //Бакинский рабочий.-2004.-1 января.-С.8.

Гаджи, И. Воспитательница Узеирбека: (80-летие композитора Ш. Г.Ахундовой) //Бакинский рабочий.-2004.-21 февраля.- С.4.

Nailə Alışova

Yanvar

22

280 illiyi

Lessinq (Qothold Efraim) 1729- 1781

Alman dramaturqu

Alman dramaturqu, maarifçi, klassik alman ədəbiyyatının banisi Lessinq 22 yanvar 1729-cu ildə keşiş ailəsində anadan olmuşdur. Demokratik milli mədəniyyət uğrunda mübarizə, zülm və zorakılığın ifşası Lessinq yaradıcılığının leytmotividir. "Miss Sara Samnson" (1755) ailə dramı və "Minna fon Barnhelm (1767) realist komediyası var. "Emiliya Qalotti" (1772) pyesində, "Müdrik Natan" (1779) dramatik poemasında decnotizmə, feodal zülmünə və dini irticaya qarşı çıxmışdır.

"Laokoon" (1766), "Hamburq" dramaturgiyası (1767-1769) əsərlərində realist estetika və dramaturgiyanın nəzəri prinsiplərini inkişaf etdirmişdir.

1888-1943-cü illərdə Berlində "Lessinq teatrı " fəaliyyət göstərmişdir.

Ədəbiyyat

Emiliya, Qalotti: Pyes /tərc.ed. Həmid Arzulu; Alman ədəbiyyatı antalogiyası kitabında.- B., 1981.-157-233

Rus dilində

Драмы. Басни в прозе. - М., 1972.

Стадников, Г.В. Лессинг: Критика и худож. творч.-во . -Л., 1987.

Байкель, В. Б. «Натан: мудрый» Лессинга и «Побочный сын» Дидро: (Западноевропейский роман эпохи просвешения //Научные доклады высшей школы. Филологические науки.- 1991.-№ 4.- С.- 43- 49.

Щульц, Л. Лессинг и наше время: К 250-летию со дня рожд. Г. Э. Лессинга //Художник.- 1979.- № 6.- С.- 28-30-33.

Zemfira Qəhrəmanova

Yanvar
25

250 illiyi

Robert Berns 1759-1796

Şotlandiya şairi



Robert Berns 1759-cu ildə Şotlandiyada Allouey kəndində yoxsul kəndli ailəsində anadan olmuşdur. Berns öz yaradıcılığına təxminən 14-15 yaşlarından başlamışdır.

Rəvayətə görə, Berns çox zaman öz şeirlərini tarlada iş vaxtında yazarmış. Berns şeir yazarkən Şotlandiya xalq yaradıcılığı ənənələrini, qədim xalq mahnılarındakı motivləri əsas götürürdü, bu isə onun şeirlərinin xalq arasında sürətlə yayılmasına səbəb olurdu. Bernsin şeirləri o qədər ahəngdar və xalq ruhuna yaxın idi ki, onlar çox asanlıqla mahnıya çevrilirdi.

O, bir şeirində açıq yazmışdı ki, "mən Şotlandiya yoxsullarına fayda verməyə hazıram, mənim mahnılarım onlar üçündür". Şotlandiya kəndlilərinin zadəganlara və varlılara nifrətini, azadlığa məhəbbətini Berns məşhur "Namuslu yoxsulluq", "Azadlıq ağacı" şeirlərində ifadə etmişdir. Şairin yaratdığı əsərlər arasında onun mifik şeirləri xüsusi yer tutur. Bunlardan "Con Anderson", "Məhəbbət qızılgül kimidir...", "Busə" və başqa şeirləri göstərmək olar. Xəlqilik, sadəlik, emosionallıq, daxili dramatizm Berns şeirinin səciyyəvi xüsusiyyətləridir.

O, 21 iyul 1796-cı ildə Damfris şəhərində vəfat edib.

Ədəbiyyat

Azadlıq ağacı: Şeir //Bakı.-1959.-21 yanvar

Qızılgül: Şeir //Ədəbiyyat və incəsənət.-1983.-18 mart.-S.3

Rus dilində

Избранные.- М.: Кн. изд-во,1984-222 s.

Роберт Бернс в переводах С. Маршака .-М.: Правда,1979.-271 с.

Tamella Musayeva

Yanvar

28

110 illiyi

Georgi Nikolayeviç Leonidze 1899-1966

Gürcü şairi

Gürcüstanın Xalq şairi Georgi Nikolayeviç Leonidze 1899-cu il yanvar ayının 28-də Saqareco rayonunun Patardzueli kəndində anadan olub. Şeirlərində vətənpərvərlik motivləri güclüdür.

Böyük Vətən müharibəsi illərində yazdığı şeirlərində qəhrəmanlıq, vətənə məhəbbət tərənnüm edilir. 1950-ci ildə "Samqori", 1951-ci ildə "Portoxala" tarixi poemaları, 1962-ci ildə isə "Sehirli ağac" adlı hekayələr toplusu nəşr olunub.

1957-1966 illərdə Gürcüstan Elmlər Akademiyası Ş.Rustaveli adına Ədəbiyyat İnstitutunun direktoru vəzifəsində çalışıb.

"Berşoula" adlı poemasını Əhməd Cəmil, "Azərbaycan şairlərinə", "Vətəni vəsf edirəm" Əflatun Saraclı, "Bulaq" Rəfiq Zəka, "Vətən nəğməsi" Məmməd Araz, "Vəsf edirəm" Əli Kərim, "Vətən haqqında nəğmə" Tofiq Bayram, "Tar haqqında mahnı" adlı şeirləri Əlixan Binnətoğlu tərəfindən Azərbaycan dilinə tərcümə edilib.

Şair 1966-cı il avqust ayının 9-da dünyasını dəyişib.

Ədəbiyyat

Azərbaycan şairlərinə (Şeir) /tərc.ed. Əflatun Saraclı //Azərbaycan.-1975.-№ 9.-S.35 .

Rus dilində

Избранные стихотворения и поэмы.- Тбилиси: Мерани, 1986.-526 с.

Древо желания.-Тбилиси: Мерани, 1987.-270 с.

Azadə Novruzova

Yanvar

31

125 illiyi

Məhəmməd Əmin Rəsulzadə 1884-1955

Dövlət xadimi



Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri Məhəmməd Əmin Hacı Ələkbər oğlu Rəsulzadə 1884- cü il yanvar ayının 31-də Bakının Novxanı kəndində anadan olmuşdur. İlk təhsilini Sultanməcid Qənizadənin 2 saylı rus-tatar məktəbində almış və Bakı texniki məktəbini bitirmişdir.

O, gənc yaşlarından inqilabi hərəkata qoşulmuş, 1902-1903-cü illərdə "Müsəlman Gənclik Təşkilatı" adlı gənc azərbaycanlı inqilabçılar dərnəyi yaratmış və ona başçılıq etmişdir. 1904-cü ildə Rusiya Sosial Demokrat Fəhlə Partiyası Bakı Komitəsi nəzdində "Müsəlman sosial-demokrat "Hümmət" qrupunun yaradılmasında iştirak etmişdir. Bu dövrdə "Şərqi-Rus", "Hümmət", "Təkamül" və s. mətbu nəşrlərdə dərc olunmuş yazılarında xalqa söz, mətbuat, vicdan, cəmiyyət və ittifaqlar yaratmaq azadlıqları verilməsi, vətəndaşların əmlakının və canlarının toxunulmazlığının təmin olunması tələbləri ilə çıxış etmiş, xalqı maariflənməyə çağırmış, Rusiyanın Azərbaycanda yeritdiyi milli qırğın siyasətini kəskin tənqid etmişdir.

Zaman keçdikcə bu siyasi tələbləri "insanlara hürriyyət, millətlərə istiqlal!" çağırışı kimi formalaşdırmışdır. 1905-1907-ci illər inqilabının məğlub olmasından sonra Rusiyada təqiblərin artdığı şəraitdə Rəsulzadə İrana getmişdir. O, 1908-1911-ci illər İran inqilabında, Cənubi Azərbaycanda milli-demokratik oyanışda fəal iştirak etmiş, Səttarxan və Bağırxanla görüşmüşdür. Bu müddətdə Tehranda Avropa tipli ilk gündəlik "İrane-nou" ("Yeni İran") qəzetini dərc etmişdir. 1910-1911-ci illərdə Seyid Həsən Tağızadə ilə birlikdə İran Demokrat Partiyasını yaratmış və onun Mərkəzi Komitəsinə üzv seçilmişdir. İran inqilabı yatırıldıqdan sonra Rəsulzadə S.H.Tağızadə ilə birlikdə Türkiyəyə mühacirət etmişdir.

M.Ə.Rəsulzadə 1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi münasibətilə verilmiş əfv-ümumidən sonra Bakıya dönmüş, "Musavat" partiyasının rəhbərliyinə keçmiş və milli azadlıq mübarizəsində daha fəal iştirak etmişdir. 1917-ci ilin iyununda "Musavat"la Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi "Türk Ədəmi-Mərkəziyyət" partiyası birləşmiş və Rəsulzadə bu partiyanın sədri olmuşdur. 1917-ci ilin oktyabrında "Türk Ədəmi-Mərkəziyyət" firqəsi "Musavat"ın I-ci qurultayında M.Ə.Rəsulzadə partiyanın Mərkəzi Komitəsinin sədri seçilmişdir. O, qurultaydakı çıxışında partiyanın mübarizə istiqamətini müəyyən edərək bildirmişdir: "Milli istiqlala malik olmayan bir millət, hürriyyət və mədəniyyətini də hifz edə bilməz. İnsanlara hürriyyət, millətlərə istiqlal".

1917-ci il Oktyabr çevrilişindən sonra Rusiyada bolşevik irticası və yeni milli əsarət dövrü başlanmışdı. 1918-ci ilin martında Bakıda və bunun ardınca ölkənin digər bölgələrində Azərbaycan xalqına qarşı kütləvi soyqırımları törədildi. 27 may 1918-ci ildə Zaqafqaziya seymi dağıdıldıqda Rəsulzadə Batum konfransında iştirak etdiyinə görə gizli səsvermə nəticəsində qiyabi olaraq Azərbaycan Milli Şurasının sədri seçilmişdir.

1920-ci il aprelin 27-də 11-ci Qızıl ordunun artıq Bakını ələ keçirmiş olduğu şəraitdə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində hakimiyyəti bolşeviklərə təhvil vermək məsələsi müzakirə olunarkən qətiyyətlə bunun əleyhinə çıxmışdır.

M.Ə.Rəsulzadə 1920-ci il avqustun 17-də həbs edilmişdir. Lakin İ.Stalinin göstərişi ilə həbsdən azad olunub Moskvaya aparılmış, Rusiya Sovet Federativ Sosialist Respublikasının Milli İşlər Komissarlığında işlə təmin olunmuşdu. Bir müddət, oradan isə gizli yolla Finlandiyaya keçərək Türkiyəyə mühacirət etmişdir. 1922-ci ilin sonlarından onun İstanbulda siyasi mühacir həyatı başlanmışdı. Lakin, 1931-ci ildə Sovet hökumətinin tələbinə əsasən, Türkiyəni tərk etməyə məcbur olmuş və 1932-ci ildən Rəsulzadənin siyasi mühacirətinin Polşa dövrü başlanmışdı. 1947-ci ildə Türkiyəyə qayıdan Rəsulzadə burada Azərbaycan Milli Mərkəzinin başçısı kimi fəaliyyətini davam etdirmişdi. O, eyni zamanda bütün Azərbaycan mühacirlərini vahid mərkəz ətrafında birləşdirmək məqsədilə Ankarada Azərbaycan Kültür Dərnəyini yaratmışdı.

Rəsulzadə Azərbaycan mətbuatı tarixində siyasi publisistikanın ən görkəmli nümayəndələrindən biri idi. Tədqiqatlar göstərir ki, onun 1903-1920-ci illərdə təkcə Azərbaycanın dövri mətbuatında 1200-dən artıq müxtəlif janrda yazıları dərc olunmuşdur.

Ömrünün sonunadək Azərbaycanın müstəqilliyinin bərpası uğrunda mübarizə aparan Məhəmməd Əmin Rəsulzadə 1955-ci il martın 6-da Türkiyənin Ankara şəhərində vəfat etmiş və Ankara şəhərinin Əsri qəbiristanlığında dəfn olunmuşdur.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli xadimlərinin, o cümlədən M.Ə.Rəsulzadənin

xidmətlərini yüksək qiymətləndirmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri: II cilddə.- I cild.- B.,1992-2001.

Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920): II cilddə . –B.,1998. – 198 s.

Əhmədov, S. Azərbaycan tarixindən yüz şəxsiyyət.- B.: Ayna Mətbu Evi, 2006.-267 s.

Qurban, T. Bir ailənin faciəsi: (Azərbaycan Xalq Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadənin ailəsi haqqında) //Ekspress.-2006.-4-6. mart.- S.17.

Rzayeva, M.Rəsulzadə irsindən faydalanmaq lazımdır: (M.Ə.Rəsulzadənin 120 illiyinə həsr olunmuş tədbir haqqında) //Şərq.-2004.-29 yanvar.- S.10.

Seyidağa, E. Bu gün Rəsulzadənin doğum günüdür: Azərbaycan Demokratik Cümhuriyyətinin banisi, milli öndər Məhəmməd Əmin Rəsulzadənin 123-cü ildönümü münasibətilə) //Yeni Musavat.- 2007.-1 yanvar.-S.7.

Çağdaş Azərbaycan ədəbiyyatı .-B.,1991.-110 s.

Əlizadə, A.H. Məhəmməd Əmin Rəsulzadə və islam: (Mühazirələr və şərhlər) .- B., 2003.-166 s.

Yaqublu, N.Azərbaycan milli istiqlal mübarizəsi

Çağdaş Azərbaycan tarixi. -B.,1991.- 123 s.

və Məhəmməd Əmin Rəsulzadə .-B., 2001.-153 s.

Yaqublu, N. Məhəmməd Əmin Rəsulzadə.-B., 1991. - 73 s.

İnternetdə

www.resulzade.org

www.elçhin.com/az/yazı/mresulzade.htm

Samirə Eminova

Yanvar

31

85 illiyi

Əli Tudə
1924-1996

Şair



Əli Qulu oğlu Cavadzadə 1924-cü il yanvarın 31-də Bakı şəhərində anadan olmuşdur. Burada 150 saylı orta məktəbin yeddinci sinfini bitirdikdən sonra ailəliklə Cənubi Azərbaycana köçmüşdür. İlk şeirini 1944-cü ildə "Vətən yolunda" qəzetində Əli Tudə imzası ilə çap etdirmişdir. 1945-ci ildə Əli Tudə Azərbaycan Demokrat Firqəsi sıralarına daxil olur. Milli demokratik hökumət devrildikdən sonra Azərbaycana qayıdan Əli Tudə "Ədəbiyyat" qəzetində ədəbi işçi vəzifəsində çalışır. 1947-ci ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsinə daxil olur və 1952-ci ildə oranı fərqlənmə diplomu ilə bitirir. Bədii yaradıcılıq sahəsindəki xidmətlərinə görə ona 1987-ci ildə Əməkdar incəsənət xadimi fəxri adı verilmiş, Əməkdə fərqlənməyə görə medalı ilə təltif olunmuşdur.

1996-cı il fevralın 26-da Bakıda vəfat etmiş, II Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ədəbiyyat

Araz üstə palıd.- B.: Yazıçı, 1984.- 303 s.

Gecikmiş vüsal: (şeirlər və poemalar).- B.: Yazıçı, 1988.-255 s.

Mənim səsim: şeirlər və poemalar /tərt. ed. N. Cavadzadə; red. E.Cavadzadə.-B.:Azərbaycan, 2002.- 469 s.

Mühacir qeyrəti.- B.: Azərbaycan, 1998.- 386 s.

Təbriz yolu.- B.: Azərbaycan, 1996.- 240 s.

Rus dilində

Город в горах: Стихи /Авториз. пер. с Азербайдж. А.Зайца и Л.Щеглова.- М.: Сов. писатель, 1972.- 72 с.

Если скажет жизнь сама: Стихи /пер. азерб.

Али Туде.- М.: Сов. писатель, 1982.- 79 с.

Məmməd Məmmədov

1 fevral
Gün çıxır
06:17
Gün batır
17:58
28 fevral
Gün çıxır
05:46
Gün batır
18:32

Fevral

21 yanvar-
18 fevral

Dolça Nişanı havadır. Saturn və uranın himayəsindədir. Günəşin Dolça bürcündən keçdiyi dövrdə doğulanlar xaraktercə emosional,

2009

Əlamətdar və tarixi günlər

2. Gənclər günü
9. Naxçıvan MR-nın yaradılmasının 85 illiyi
11. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının qəbul edilməsinin 5 illiyi
21. Beynəlxalq ana dili Günü
26. Xocalı soyqırımı Günü

B	**1**
Be	2
Ça	3
Ç	4
Ca	5
C	6
Ş	7
B	**8**
Be	9
Ça	10
Ç	11
Ca	12
C	13
Ş	14
B	**15**
Be	16
Ça	17
Ç	18
Ca	19
C	20
Ş	21
B	**22**
Be	23
Ça	24
Ç	25
Ca	26
C	27
Ş	28

Əsrin faciəsi

1992-ci il fevralın 26-da Erm□nistan h□rbi birl□şm□l□ri 7 min □halisi olan Xocalı ş□h□rind□ genosid aktı h□yata keçirdi. Erm□nistan h□rbi birl□şm□l□rinin ş□h□r□ hücumu zamanı burada yalnız 3 min□ yaxın insan qalmışdı. Çünki, mühasir□d□ qaldığı 4 aydan artıq zaman □rzind□ blokadada olduğu üçün □halinin xeyli hiss□si ş□h□rd□n çıxmaq m□cburiyy□tind□ qalmışdı. Xocalı soyqırımı zamanı 613 n□f□r ödürüldü, 1000 n□f□r müxt□lif yaşlı dinc sakin aldığı güll□ yarasından □lil oldu. 106 n□f□r qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürüldü. 8 ail□ tamamil□ m□hv edildi, 25 uşaq h□r iki valideynini, 130 n□f□r valideyinl□rind□n birini itirdi. Faci□ baş ver□n gec□ 1275 n□f□r dinc sakin girov götürüldü, onların 150-sinin taleyi indi d□ m□lum deyil. Cinayət cəzasız qalmamalıdır. Ermənistanın hərbi-siyasi təcavüzü dünya ictimaiyyəti tərəfindən ittiham edilməlidir. Beynəlxalq təşkilatlar, dünya dövlətlərinin parlamentləri Ermənistan Respublikasının Azərbaycan torpaqlarında törətdiyi hərbi cinay□t□ *- Xocalı soyqırımına, əsl soyqırım hadisəsi kimi beynəlxalq siyasi-hüquqi qiymət verməlidirlər.*

Gənclər Günü (2 fevral)

Azərbaycanın Milli Qəhrəmanı Tağıyev Şahin Talıb oğlunun (03.02.1949) anadan olmasının 60 illiyi

Alman bəstəkarı, dirijor Mendelson Bartoldi Yakov Lüdviq Feliksin (03.02.1809-04.11.1847) anadan olmasının 200 illiyi

Azərbaycanın Xalq artisti, aktyor Qasımov Tariyel İsgəndər oğlunun (04.02.1939) anadan olmasının 70 illiyi

Azərbaycanın Əməkdar incəsənət xadimi, SSRİ Dövlət mükafatı laureatı, yazıçı İbrahimbəyov Rüstəm Məmmədibrahim oğlunun (05.02.1939) anadan olmasının 70 illiyi

Azərbaycanın Xalq artisti, aktrisa Şərifova Firəngiz Abbasmirzə qızının (06.02.1924) anadan olmasının 85 illiyi

Azərbaycanın Xalq artisti, rejissor Tağızadə Tofiq Mehdiqulu oğlunun (07.02.1919-27.08.1998) anadan olmasının 90 illiyi

Rus alimi, pedaqoqu Mendeleyev Dmitri İvanoviçin (08.02.1834-02.1919) anadan olmasının 175 illiyi

Azərbaycanın Əməkdar elm xadimi, neftçi-geoloq Abramoviç Mixail Vladimiroviçin (08.02.1884-05.06.1965) anadan olmasının 125 illiyi

Naxçıvan MR-nın yaradılmasının (09.02.1924) 85 illiyi

Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının qəbul edilməsinin (11.02.2004) 5 illiyi

Azərbaycanın Əməkdar incəsənət xadimi, aktrisa Qazıyeva Xədicə Bahəddin qızının (15.02.1909-07.06.1991) anadan olmasının 100 illiyi

İtalyan fiziki Qaliley Qalileonun (15.02.1564-08.01.1642) anadan olmasının 345 illiyi

Beynəlxalq ana dili Günü (21.02.1999)

Azərbaycanın Xalq artisti, Ü.Hacıbəyov adına Respublika mükafatı laureatı, bəstəkar Ələsgərov Süleyman Əyyub oğlunun (22.02.1924-22.01.2000) anadan olmasının 85 illiyi

Rus yazıçısı, Qolikov Arkadi Petroviçin (Qaydar) (22.02.1904-26.10.1941) anadan olmasının 105 illiyi

Yazıçı, ictimai xadim Məmmədquluzadə Cəlil Məmmədqulu oğlunun (22.02.1869-01.01.1932) anadan olmasının 140 illiyi

Yazıçı- publisist Əhmədov Yusif Yaqub oğlunun (22.02.1939) anadan olmasını 70 illiyi

Ədəbiyyatşünas Araslı Həmid Məmmədtağı oğlunun (23.02.1909-20.11.1983) anadan olmasının 100 illiyi

Publisist, filosof, şair, tərcüməçi Hüseynzadə Əlibəy Molla Hüseyn oğlunun (24.02.1864-17.03.1940) anadan olmasının 145 illiyi

Azərbaycanın Əməkdar rəssamı, Müfidzadə Cəmil Mir Yusif oğlunun (24.02.1934) anadan olmasının 75 illiyi

Azərbaycanın Milli Qəhrəmanı Məmmədov Sahil Ələmdar oğlunun (25.02.1964) anadan olmasının 45 illiyi

Nasir, publisist İsmayılova Svetlana Rəhim qızının (26.02.1939) anadan olmasının 70 illiyi

Xocalı soyqırımı Günü (26.02.1992)

Azərbaycanın Xalq artisti, aktyor Mərdanov Mustafa Haşım oğlunun (28.02.1894-28.12.1968) anadan olmasının 115 illiyi

Fevral

4

70 illiyi

Tariyel Qasımov
1939

Aktyor



4 fevral 1939 cu ildə Qazax şəhərində anadan olub. Orta məktəbi bitirdikdən sonra Bakıya gəlib. Aktyorluğa olan həvəsi onu 1960-cı ildə Teatr İnstitutunun kino və dram aktyorluğu fakültəsinə gətirib. 1964-cü ildə ali təhsili başa vurduqdan sonra Gənc Tamaşaçılar Teatrında işə başlayıb. 1966-cı ildə Naxçıvan Musiqili Dövlət Dram Teatrına dəvət olunur. 1967-ci ildə isə İrəvanda açılan Azərbaycan Dövlət Dram Teatrının ilk aktyorlarından biri olur.

1968-ci ildə yenidən Bakıya qayıdır və "Azərbaycanfilm" kinostudiyasında rejissor assisenti kimi fəaliyyətə başlayır. Nəhayət, 1971-ci ildə onu Gənc Tamaşaçılar Teatrına dəvət edirlər və indi həmin teatrın aparıcı aktyorudur. O, "Azərbaycanfilm", "Mosfilm", "Türkmənfilm", "Özbəkfilm", "Tacikfilm" , Almaniyanın "Defa" kinostudiyalarında filmlərə çəkilmişdir. Respublikanın Xalq artistidir. Tariyel Qasımovun ümummilli liderimiz Heydər Əliyevə həsr etdiyi "Azadlıq atası" adlı kitabı 1998-ci ildə çapdan çıxmışdır.

Ədəbiyyat

Quliyeva, Z. Enişli-yo - xuşlu sənət yolları //Azərbaycan.- 2006.- 24 may.- S.8.

Əzizov, K., Hüseynov R. Xalqın sevimli aktyoru //Respublika.-2004.-4 fevral.-S.12.

Xəlilzadə, F. Xalq artisti haqqında //Azərbaycan .- 5 fevral.- 2004.-S.7.

Zamanlı, D. Nağılların sonu yoxmuş //Kredo.- 2007.- 24 noyabr .-S.14.

Sadiqqızı, A. Aktyorla müsahibə //Qobustan.- 2002. -№3.-S.56-59.

Məhəbbət Cahangirova

5 Fevral

70 illiyi

Rüstəm İbrahimbəyov
1939 Yazıçı

İbrahimbəyov Rüstəm Məmmədibrahim oğlu 1939-cu il fevralın 5-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. O, orta məktəbi bitirdikdən sonra Azərbaycan Neft və Kimya İnstitutunun istehsalat proseslərinin avtomatlaşdırılması fakültəsində təhsil almışdır. Təhsilini bitirdikdən sonra Azərbaycan Elmlər Akademiyasının Kibernetika İnstitutunda işləmişdir. 1962-ci ildə "Molodyoj Azerbaydjana" qəzetində dərc etdirdiyi "Mürəbbəsiz çörək" adlı ilk hekayəsi ilə ədəbi fəaliyyətə başlamışdır.

R.İbrahimbəyov 1965-1967-ci illərdə SSRİ Kinematoqrafçılar İttifaqı yanındakı ikiillik ali ssenari kursunda oxumuş, "Bir cənub şəhərində" adlı ssenarisini diplom işi kimi işləmişdir. "Azərbaycanfilm" və qardaş respublikaların kinostudiyaları onun ssenariləri əsasında iyirmiyə yaxın bədii və televiziya filmi çəkmişdir. 1978-ci ildə "Səhranın ağ günəşi" və "Qum üzərində ev" filmlərinə görə Ümumittifaq Lenin komsomolu mükafatına layiq görülmüşdür. 1980-ci ildə ona "Ad günü" və "İstintaq" filmlərinə görə Respublika Dövlət mükafatı, 1981-ci ildə isə SSRİ Dövlət mükafatı verilmişdir. 1993-cü ildə "Urqa-məhəbbət ərazisi" filminə görə Venesiya kinofestivalının baş mükafatını və "Feliks" Avropa kinofestivalının baş mükafatını almışdır. 1995-ci ildə "Günəşdən usanmışlar" filminə görə isə Kann kinofestivalının Qran-Pri mükafatına və "Oskar" mükafatına layiq görülmüşdür.

O, həm də dramaturq və rejissor kimi də fəaliyyət göstərir. Rüstəm İbrahimbəyovun müxtəlif illərdə "Yaşıl qapı arasında", "Şirə bənzər". "Qum üzərində ev", "Kaliforniyada dəfn" pyesləri Bakıda, eləcə də ölkəmizin digər teatr səhnələrində

tamaşaya qoyulmuşdur. Səhnə əsərləri Bolqarıstan, Polşa, Almaniya, Çexiya, Slovakiya, Amerika Birləşmiş Ştatları və başqa xarici ölkələrdə müvəffəqiyyətlə oynanılmışdır. Uzun müddət Azərbaycan Kinematoqrafçılar İttifaqı idarə heyətinin katibi (1967-1981), daha sonralar birinci katibi vəzifələrində işləmişdir.

Ədəbiyyat

Park: povestlər və hekayələr.- B.: Gənclik, 1987. – 584 s.

Ultimatum: Pyeslər.-B.: Yazıçı, 1982 .- 336 s.

Azərbaycanın mədəniyyət xadimlərinə dövlət mükafatları təqdim edilmişdir: Rüstəm İbrahimbəyova "Xalq yazıçısı" fəxri adının vəsiqəsi təqdim edilməsi haqqında //Azərbaycan. – 2006.- 24 mart - S.4.

Tağızadə, S. Rüstəm İbrahimbəyovun Fransa ordeni //Bakı.– 2001.– 26 yanvar.- S.1.

Şahin, G. Rüstəm İbrahimbəyovun pyesi Qazaxıstan səhnəsində /M. Lermontov adına Almaata Dövlət Rus Dram Teatrında "Hərdən bir görüşmək üçün tərəfdaş axtarıram" pyesinin ilk tamaşası haqqında //Azərbaycan. – 2006.– 28 yanvar. – S.8.

Rus dilində

Избранное.- М.: Искусство,1984. – 339 с.

Ультиматум: Пьесы.- Б.: Язычы,1983.- 336 с.

Солнечное сплетение: Бакинская сага.- Б.: Азернешр, 1995.-294 с.

Деловая поездка.- Б.: Язычы,1981.- 320 с.

Алиева, Н.М. Городская проза Азербайджана: Братья Ибрагимбековы . – М., 2000 – 215 с.

Samirə Eminova

Fevral

6

Firəngiz Şərifova

85 illiyi — 1924 — Aktrisa

Şərifova Firəngiz Abbasmirzə qızı 1924–cü ilin fevral ayının 6-da Bakıda anadan olub. Orta məktəbi bitirdikdən sonra Bakı Xoreqrafiya məktəbində oxumuş və bir müddətdən sonra Azərbaycan Dövlət Konservatoriyasına daxil olmuşdur. 1947–ci ildə Azərbaycan Musiqili Komediya Teatrında səhnə fəaliyyətinə başlamışdır. 1949–cu ildən Gənc Tamaşaçılar Teatrında aktrisa işləyir. 1969- cu ildə Azərbaycanın Xalq artisti adına layiq görülmüşdür. Firəngiz Şərifova Y. Əzimzadənin "Anacan", "Aprel səhəri", Məhsəti Gəncəvinin "Mətanət", M.Təhmasibin "Çiçəkli dağ", "Rübailər aləmində", S.Dağlının "Aydınlığa doğru", Anarın "Keçən ilin son gecəsi", Ə.Əylislinin "Mənin nəğməkar bibim" və başqa tamaşalarda iştirak etmişdir.

O, kinoda da çəkilmişdir: "Qaraca qız", "Qum üzərində ev", "Qərib cinlər ölkəsində", "Bayquş gələndə" və s. Xalq artisti Firəngiz Şərifova Azərbaycan teatr sənətinin iki dahisinin - Mərziyə Davudova və Abbas Mirzə Şərifzadənin qızıdır. Hal-hazırda yaşayıb yaradır.

Ədəbiyyat

Səhnə sevdası: Xalq artisti ilə müsahibə //Azərbaycan.- 2003 .-2 fevral.-S.3.

Rəhimli, İ. Sənətkar qüdrəti /aktirisa haqqında/ //Azərbaycan müəllimi .-1979.-9 fevral.-S.4.

Sadıqov, R. Səhnəyə bağlılıq //Azərbaycan qadını.-1984.- №6.-S.18-19.

Salmanov, A. Sənətkar qüdrəti //Qobustan.- 1981 .-№1.-S.45-49.

Məhəbbət Cahangirova

Fevral

7

90 illiyi

Tofiq Tağızadə
1919 -1998

Rejissor

Görkəmli rejissor Tofiq Mehdiqulu oğlu Tağızadə 7 fevral 1919-cu ildə Bakı şəhərində müəllim ailəsində anadan olmuşdur. Valideynlərinin məsləhəti ilə o, orta məktəbi bitirəndən sonra Energetika texnikumunda, eyni zamanda musiqi məktəbində oxumuş, 1938-ci ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun Energetika fakültəsinə daxil olmuşdur.

O, 1941-ci ildə 3-cü kursda oxuyarkən könüllü olaraq cəbhəyə getmiş, 1942-ci ilin axırlarında yaralanaraq Bakıya qayıtmışdır.

1946-cı ildə T.Tağızadə həyatda ən böyük arzusuna çataraq Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutuna daxil olmuşdur.

1955-ci ildə gənc rejissor özünün ilk böyük filmini – Azərbaycan və Özbəkistan pambıqçılarının ənənəvi dostluğundan bəhs edən "Görüş" filmini çəkmişdir.

Rejissorun ilk işi kimi kinokomediya janrına müraciət etməsi onun bu sahədə işləmək bacarığını üzə çıxartmışdır.

Üç il sonra "Uzaq sahillərdə" filmi çəkilmiş və bütün sovet məkanında şöhrət qazanmışdır. Rejissora 1960-cı ildə Azərbaycan Əməkdar incəsənət xadimi fəxri adı verilmişdir.

1960-cı ildə "Əsl dost", "Mən rəqs edəcəyəm" filmləri ilə yanaşı, məşhur fransız yazıçısı Prosper Merimenin eyniadlı novellasının motivləri əsasında "Mateo Falkone" qısametrajlı filmini də uğurla ekranlaşdırmışdır.

Sonrakı illərdə kinorejissor Çeçen-İnquş Respublikası mədəniyyətinin inkişafından bəhs edən "Əmək və qızılgül", Ü.Hacıbəyovun eyni adlı musiqili komediyasının motivləri üzrə "Arşın mal alan", S.Vurğunun "Komsomol poeması"nın motivləri üzrə "Yeddi oğul istərəm", yazıçı İsi Məlikzadənin povesti əsasında "Evin kişisi" bədii filmlərini yaratmışdır.

T.Tağızadənin 1972-ci ildə Ə.Qafarovun ssenarisi əsasında çəkdiyi "Qızıl qaz" filmi onu psixoloji film ustası kimi tanıtmışdır.

"Kitabi-Dədə Qorqud" dastanının motivləri əsasında yazıçı Anarın qələmə aldığı ssenarini T.Tağızadə cəsarətlə kino dilinə çevirmiş və bir rejissor kimi daha da şöhrətlənmişdir.

Kino ustasının 80-90-cı illərdə lentə aldığı "Babamızın babasının babası", "Bağ mövsümü", "O dünyadan salam" və "Köpək" bədii filmləri də Azərbaycan kinosu tarixində özlərinə məxsus yer tutur.

T.Tağızadə həm də 10-a qədər filmdə, o cümlədən "Mateo Falkone", "Onun böyük ürəyi", "Qəribə adam", "Qaladan tapılan mücrü", "Zirzəmi", "Bəxt üzüyü" və s. kinolarda çəkilmişdir.

Böyük sənətkar filmlər çəkməklə yanaşı, respublikanın ictimai-siyasi həyatında da fəal iştirak etmişdir. O, Azərbaycan SSR Ali Sovetinin deputatı olmuş, uzun illər Azərbaycan Kinematoqrafçılar İttifaqının katibi işləmiş, respublikamızda kino işinin təşkilində və milli kino kadrlarının hazırlanmasında gərgin əmək sərf etmişdir. Onun milli kinomuzdakı xidmətləri yüksək qiymətləndirilmişdir. Sənətkar "Oktyabr inqilabı" (1971), "Şərəf nişanı" (1959), "Şöhrət" (1998) ordenləri, "Qafqazın müdafiəsi uğrunda" (1946), "Böyük Vətən müharibəsindəki rəşadətli əməyə görə" (1946) medalları ilə təltif edilmişdir.

Azərbaycan Respublikasının Xalq artisti, kinorejissor Tofiq Tağızadə 1998-ci il avqustun 27-də 79 yaşında vəfat etmişdir.

Ədəbiyyat

Kazımzadə, A. Tofiq Tağızadə //Azərbaycan kinematoqrafçıları: portretlər /elmi red. prof. E.Bədəlov; red. S.Səfərli. – B.: Mütərcim, 2002.-. 1-ci buraxıl. – S. 77-91.

Kazımzadə, A. Tofiq Tağızadə //Azərbaycan kinosu və müharibə.– B.: "Nağıl evi", 2005. – S. 116-121.

Sadıxov, N. Tofiq Tağızadə //Azərbaycan kino rejissorları: portretlər.- B.: İşıq, 1988. – S. 84-91.

"Dədə Qorqud"un 30 yaşı qeyd olundu: [Tofiq Tağızadənin çəkdiyi iki seriyalı "Dədə Qorqud" bədii filmi haqqında] //Azərbaycan. – 2005. – 9 dekabr. – S. 8.

Mükərrəmoğlu M. O dünyaya salam: bu gün məşhur rejissor, Xalq artisti Tofiq Tağızadənin anım günüdür //Xalq qəzeti. – 2003. – 7 fevral.- S. 7.

Rus dilində

Тагизаде, И. Кино и время.– Б.: Азернешр, 1981. – С. 58-61.

İnternetdə

www.cinema.aznet.org /drectors_az

Səmayə Quliyeva

8 Fevral

175 illiyi

Dmitri İvanoviç Mendeleyev 1834-1907

Rus kimyaçısı



Rus kimyaçısı, pedaqoq və ictimai xadim, Peterburq Elmlər Akademiyasının müxbir üzvü D.İ.Mendeleyev 1834-cü il fevralın 8-də Rusiya Federasiyasının Tobolsk şəhərində anadan olmuşdur.

Elementlərin dövri qanunu və onların dövri sistemi Mendeleyevə dünya şöhrəti qazandırmışdır.

1869-ci ildə tərtib edilmiş Mendeleyevin dövri qanunu-kimya elminin əsas qanunlarından biri sayılır. Mendeleyev öz elmi-tədqiqat işlərinin hələ ilk dövründə kimyəvi birləşmələrin tərkibi, fiziki xassələri və formaları arasındakı əlaqə ilə maraqlanmış və uzun illər davam edən axtarışlar nəticəsində 1877-ci ildə elementlərin dövri sistemi cədvəlini tərtib etmişdir. Bu cədvəldə o, bir sıra elementin atom çəkisini və valentini təyin etmiş, elmə məlum olmayan bir neçə kimyəvi elementin varlıdığını əvvəlcədən xəbər vermiş və xassələrini təsvir etmişdir. Sonralar kəşf edilən bu elementlər dövri sistemdə Mendeleyevin göstərdiyi yerləri tutmuş, qabaqcadan xəbər verdiyi kimi xassələri uyğun gəlmiş, beləliklə də onun elementlərin dövri qanunu alimlər tərəfindən kimyanın əsas qanunlarından biri kimi qəbul edilmişdir.

Mendeleyev həmçinin neftin qeyri-üzvi mənşəyi haqqında fikir irəli sürmüş, ondan təkcə yanacaq kimi deyil, qiymətli kimyəvi xammal kimi də müxtəlif sənaye sahələrində istifadə edilməsi zərurətini irəli sürmüşdür. Neft yataqlarının axtarışı, neftin çıxarılması, saxlanması, emalı və digər tədqiqat məsələlərinə dair elmi işləri əsaslandırmaq üçün o, ABŞ-da və 6 dəfə Bakıda olmuşdur. Mendeleyev Bakıda neft itkisini azaltmaq üçün mədənlərdən neftayırma zavoduna neft kəməri çəkmək haqqında konkret məsləhətlər vermişdir.

Elmi fəaliyyətindəki misilsiz xidmətlərinə görə Mendeleyev dünyanın 130-dan artıq Elmlər Akademiyasının, elmi cəmiy-

yətlərin və ali məktəblərin fəxri adlarına layiq görülmüşdür. 1907-cü il fevralın 2-də gözlərini əbədi yuman dahi alim Peterburq şəhərində dəfn olunmuşdur.

Ədəbiyyat

Добротин, Р.Б., Карпилон Г. Библиотека Д.И. Менделеева.- М.: Знания.-1980.- 210 с.

Д.И.Менделеев в воспоминаниях современников.- М.: Атомиздат, 1973.- 264 с.

Кедров, Б.М. Мировая наука и Менделеев .-М.: Просвещение.- 1983.- 193 с.

Каменоградская,О.П. Дмитрий Иванович Менделеев: Библиогр. указ.- Л.: Наука.- 1978.- 335 с.

Стариков, В.И., Д.И. Менделеев.- Свердловск: Сред. Урал. кн. изд-во, 1984.- 253 с.

Фигуровский, Н.А., Дмитрий Иванович Менделеев.- М.: Наука, 1983.- 287 с.

Məmməd Məmmədov

Fevral

9

85 illiyi

Naxçıvan Muxtar Respublikası 1924

Azərbaycan Respublikasının tərkibində olan Naxçıvan Muxtar Respublikası 1920-1923-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923-1924-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924-1990-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası adlanır. Ermənistan, Türkiyə və İranla həmsərhəddir.

Muxtar Respublikanın ərazisi 5,5 min kvadrat metr, əhalisi 376,4 min nəfərdir (01.01.2006). 7 inzibati rayona (Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur) bölünür. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Naxçıvan MR Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir və statusu bu konstitusiya ilə müəyyən edilir.

Naxçıvan MR-də Qanunvericilik Hakimiyyətini Naxçıvan MR-in Parlamenti - Ali Məclisi, İcra Hakimiyyətini Naxçıvan MR-in Nazirlər Kabineti, məhkəmə hakimiyyətini Muxtar Respublikanın məhkəmələri həyata keçirir.

Arxeoloji maddi mədəniyyət qalıqları Naxçıvan MR ərazisində hələ Daş dövründən insanların məskən saldığını xəbər verir. Eramızın əvvəllərində İran, Hindistan, Orta Asiya, Çin və Avropa ölkələrinə gedən ticarət yolları Naxçıvan ərazisindən keçirdi. Naxçıvanın əlverişli geostrateji mövqeyi, mühüm karvan yollarının, o cümlədən "İpək yolu"nun üzərində yerləşməsi, habelə zəngin ticarət, sənətkarlıq mərkəzi olması qonşu dövlətlərin diqqətini cəlb etmişdi. Müharibələr zamanı Naxçıvan ərazisi dəfələrlə əldən-ələ keçmiş və dağıntılara məruz qalmışdır. I Şah Abbasın hakimiyyəti illərində (1587-1629) Naxçıvandan İrana çoxlu əhali sürgün olunmuşdur.

Sovetlər dövründə Naxçıvan MR Azərbaycan Respublikasının tərkibində özünəməxsus inki-

şaf yolu keçmiş, sosial-iqtisadi, ictimai-siyasi və mədəni sahədə böyük nailiyyətlər əldə etmişdir.

Lakin 80-ci illərin sonlarında sovet imperiyasının süquta uğradığı bir vaxtda ittifaq rəhbərliyinin ikiüzlü siyasəti, ermənilər müdafiə etmələri milli münaqişələrə rəvac verdi. Bundan istifadə edən erməni daşnakları bir tərəfdən Dağlıq Qarabağ Muxtar Vilayətini Ermənistana qatmaq üçün açıq-aşkar mübarizə aparır, bir tərəfdən isə azərbaycanlıları öz ata-baba yurdu olan, indiki Ermənistan adlandırılan Qərbi Azərbaycandan zorla, silah gücünə qovurdular. Qovulan azərbaycanlıların bir hissəsi Naxçıvana gəlirdi.

1990-cı il yanvarın 19-da, qanlı Bakı faciəsindən bir neçə saat əvvəl ermənilərin Muxtar Respublikanın Sədərək qəsəbəsinə təsavüzü başlandı. SSRİ rəhbərliyinin riyakar mövqe tutması səbəbindən xalqın tələbi ilə Naxçıvan MSSR Ali Soveti qərar qəbul etdi – Naxçıvan MSSR SSRİ-nin tərkibindən çıxdı.

Dünya şöhrətli siyasi xadim Heydər Əliyevin Naxçıvana qayıtması, 1990-1993-cü illərdə burada yaşayıb fəaliyyət göstərməsi bu bölgəni erməni təcavüzündən xilas etdi.

Naxçıvan MR–in ərazisi müxtəlif faydalı qazıntılarla (molibden, mis, polimetal, qızıl, sürmə, mərgmüş, civə, kobalt,uran, volfram, titan, daşduz, dolomit, boksit, fosforit, kükürd, məmulat daşları, tikinti materialları və s.) zəngindir. 200-dən çox mineral su bulağı (Darıdağ, Badamlı, Sirab, Vayxir, Nəhəcir, Qahab və s.) var. Respublikanın flora və faunası çox zəngindir.

Muxtar respublika öz abidələri ilə də məşhurdur. Mömünə xatun, Qarabağlar, Gülüstan türbələri artıq bütün dünyada məşhurdur. Burada dekorativ-tətbiqi sənət növlərindən xalçaçılıq, muncuqlu tikmələr, naxışlı toxumalar, bədii metalişləmə, ağac üzərində oyma və s. inkişaf etmişdir.

Respublika üzümçülük, tütünçülük, bağçılıq sahəsində ixtisaslaşmış, taxılçılıq və heyvandarlıq da xeyli inkişaf etmişdir.

Naxçıvan Muxtar Respublikası təhsil, mədəniyyət və səhiyyənin inkişaf səviyyəsinə görə Azərbaycan Respublikasının ən qabaqcıl regionlarından biridir.

Ədəbiyyat

Naxçıvan Ensiklopediyası.– B.: AMEA, 2002. – 594 s.

Naxçıvan Muxtar Respublikası –80: Tarixi-statistik məcmuə.– B.: Səda, 2004. – 212 s.

Azərbaycan Milli Ensiklopediyası.– B., 2007. – S. 843.

Azərbaycan Sovet Ensiklopediyası: 10 c.-də.- C. 7.– B., 1983.– S. 172-174.

Səmayə Quliyeva

Fevral

15

100 illiyi

Xədicə Qazıyeva
1909-1991

Aktrisa

Xədicə Bahəddin qızı Qazıyeva 1909-cu il fevralın 15-də Kazan şəhərində dünyaya göz açıb. Orta təhsilini bu şəhərdə almışdır. 1926-cı ildə Xədicə xanımı Naxçıvana işləməyə göndərirlər. Aktrisanın ilk rolu "Qaçaq Kərəm" pyesində Sirab obrazı olub. Sonra C.Cabbarlının "Sevil" pyesində Edilya obrazını, H.Cavidin "Şeyx Sənan" faciəsində Xumarı oynadı. O, 200-dən çox obrazla qarşılaşmışdır.

Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adına layiq görülmüşdür.

1991-ci il iyunun 7-də vəfat edib.

Ədəbiyyat

Ağayeva, K.Səhnədə keçən ömür //Ədəbiyyat və incəsənət.-1969.- 8 mart.- S.3.

Əkbərov, O. 40 il səhnədə //Azərbaycan qadını.- 1969.- № 6.- S.16.

Vəzirov, C. Qədim teatrın ağbirçəyi //Ədəbiyyat və incəsənət.-1986.- 28 noyabr.- S.5

Məhəbbət Cahangirova

Fevral

15

445 illiyi

Qalileo Qaliley
1564-1642

İtalyan fiziki



Q.Qaliley 1564-cü il fevral ayının 15-də Piza şəhərində yoxsullaşmış zadəgan ailəsində anadan olmuşdur. Piza Universitetinə daxil olmuş və təbabət elmini öyrənmişdir. Sonralar Evklidin və Arximedin əsərlərini oxumağa başlamış, həndəsə və mexanika elmləri ilə maraqlanmışdır. O, Piza və Padua universitetlərinin professoru olmuşdur. Əsas tədqiqatları cisimlərin ağırlıq mərkəzi, cismin sərbəst düşməsi, mail müstəvidə cismin hərəkəti, cisimlərin nisbi hərəkəti və başqa sahələrə aiddir. Hərəkətin nisbiliyi ideyasını ilk dəfə Qaliley irəli sürmüşdür. 1609-cu ildə üçqat, daha sonra 32 qat böyüdən teleskop qurmuşdur. Bunun vasitəsilə Yupiterin 4 peykini, Ay səthindəki dağları, Günəşin fırlanmasını və ondakı ləkələri, Veneranın səthlərini kəşf etmişdir. 1632-ci ildə "Dünyanın iki ən mühüm sistemi – Ptolemey və Kopernik sistemləri haqqında dialoq" kitabı nəşr edilmişdir. Din xadimləri bu kitabı qadağan etmiş və ona qarşı məhkəmə işi qaldırılmışdır. Qaliley Kopernik təlimindən imtina etməyə məcbur olmuşdur. O, 1637-ci ildə görmə qabiliyyətini itirmişdir.

O, həm də musiqiçi, rəssam, incəsənət həvəskarı və kamil ədəbiyyatçı idi. Latın dilini mükəmməl bilsə də, elmi əsərlərinin çoxunu italyan xalq dilində yazmış, yunancadan latıncaya tərcümələr etmişdir. Q. Qaliley 1642-ci il yanvar ayının 8-də vəfat etmişdir.

Ədəbiyyat

Qalileo Qaliley //Azərbaycan Sovet Ensiklopediyası: 10 c.-də.- C.3. - B., 1979. – S.18-19.

Кузнецов, Б. Галилей.– М.: Наука, 1964.– 326 с.

Səmayə Quliyeva

Fevral

22

Cəlil Məmmədquluzadə

140 illiyi 1869-1932 Yazıçı

Cəlil Məmmədquluzadə – bənzərsiz nasir, qüdrətli dramaturq, vətəndaş-publisist, azərbaycançılıq ideologiyasının yaradıcılarından biri, Azərbaycan ədəbiyyatında "Molla Nəsrəddin" ədəbi məktəbinin, tənqidi realizmin banisi kimi geniş şöhrət qazanmış ictimai xadimdir.

Mirzə Cəlil Məmmədquluzadə 1869-cu il fevralın 22-də Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur.

Daha sonra Naxçıvan şəhər üçsinifli məktəbində aldığı ibtidai təhsil Cəlil Məmmədquluzadə üçün "işıqlı aləmə ilk addım" olmuşdur.

Qori Müəllimlər Seminariyasında keçən təhsil illərində (1882-1887) dövrünün adlı-sanlı pedaqoqlarından dərs almış, onların ədəbi-maarifçi, pedaqoji-metodiki görüşlərindən faydalanmışdır.

O, 1887-1897-ci illər arasında İrəvan quberniyasının Uluxanlı və Baş Noraşen kənd ibtidai məktəblərində müəllimlik etmişdir. Bədii yaradıcılığa Baş Noraşendə ikən başlayan Cəlil Məmmədquluzadə 1889-cu ildə ilk qələm təcrübəsi olan "Çay dəstgahı" alleqorik dramını yazmışdır. Bədii yaradıcılıq işini davam etdirən gənc yazıçı müəllimlik həyatının Nehrəm dövründə "Kişmiş oyunu" (1892), "Danabaş kəndinin əhvalatları" povestini (1894) və bir sıra hekayələri qələmə almış, müasirləri arasında yeni tipli yazıçı kimi tanınmağa başlamışdır.

"Molla Nəsrəddin" jurnalı Cəlil Məmmədquluzadənin şah əsəridir. Birinci sayı 1906-cı il aprelin 7-də Tiflis şəhərində nəşr olunan bu məşhur jurnal, Azərbaycanın milli oyanışı və dirçəlişində mühüm rol oynamışdır.

Ədibin teatr və dramaturgiya sahəsində fəaliyyəti də məhsuldar olmuş, xüsusən, "Ölülər" komediyasının yazıl- ması (1909) və Bakıda uğurla tamaşaya qoyulması (1916) ədəbi şöhrətini artırmışdır. "Kamança" (1920) və "Anamın kitabı" (1921) pyesləri ilə

o, Azərbaycan dramaturgiyasını zənginləşdirmişdir. Qüdrətli yazıçının "Usta Zeynal" (1905), "İranda hürriyyət" (1906), "Qurbanəli bəy" (1906), "Quzu" (1914) və başqa əsərləri onu hekayə janrının böyük ustadı kimi tanıtmışdır.

Ədibin son dram əsərləri əsasən sovet cəmiyyətindəki çaşqınlıq və sərt ideologiyalaşdırma siyasətinin bədii dərkinə və tənqidinə həsr olunmuşdur.

Beləliklə, Azərbaycan ədəbiyyatı tarixinə böyük demokrat ədib, milli yazıçı kimi daxil olmuş Cəlil Məmmədquluzadə 1932-ci il yanvarın 4-də Bakı şəhərində vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

C.Məmmədquluzadə ədəbi və ictimai həyatda Azərbaycanın milli oyanışı, dirçəlişi və müstəqilliyi uğrunda mübarizənin möhkəm bünövrəsini yaratmışdır.

Onun bədii-publisist əsərləri azərbaycanda milli və müstəqil dövlət quruculuğuna, mənəvi özünüdərk prosesinə uğurla xidmət edir.

Ədəbiyyat

Seçilmiş əsərləri /tərt. edəni, müqəddimə və izahların müəl.: İsa Həbibbəyli.- B.: Çinar-çap, 2003.- 463 s.

Danabaş kəndinin əhvalatları.- B.: Atatürk kitab nəşriyyatı, 2005.- 128 s.

Konsulun arvadı: Hekayələr.-B., 2003.-185 s.

Cəlil Məmmədquluzadə: Biblioqrafiya /tərt. edəni İsa Həbibbəyli.- B.: Elm, 2005.- 156 s.

Əzimli, Əbülfət (Tahiroğlu): Mirzə Cəlil realizmi.- Naxçıvan: Əcəmi nəşriyyatı, 2006.- 94 s.

Həbibbəyli, İ. Cəlil Məmmədquluzadə.- B.: Çinar-çap, 2002.- 57 s.

Məmmədov, A. Cəlil Məmmədquluzadə yaradıcılığında azərbaycançılıq.- B., 2003, 195 s.

Rus dilində

Рассказы. Фельетоны. Повести. Пьесы: /перевод с азерб. А.Шарифа, Ч.Гусейнова; вступ. С. А. Шарифа.-Б.: Азернешр, 1989.- 406 с.

Молла Насреддин /сост. и авт. предисл. М.Г. Тахмасиб; перевод Ю. Гранина.- Б.: Язычы, 1984.- 327 с.

Сборище сумашедших: Повесть /перевод с азерб. Т.Канякиной.- М.: Худож. лит., 1989.- 349 с.

İnternetdə

http//shexsiyyetler/nakhchivan.az

Məmməd Məmmədov

Fevral

22

Yusif Əhmədov

70 illiyi — 1939 — Yazıçı



Əhmədov Yusif 1939-cu ildə fevralın 22-də Füzuli rayonunda anadan olub. 1963-cü ildə Azərbaycan Dövlət Tibb Universitetini bitirib. 9 kitabın, yüzlərlə publisistik yazıların müəllifidir. Onun povest və hekayələrinin mövzusu, aktuallığı qaldırılan problemlərin bədii həlli baxımından çox maraqlıdır. İlk hekayələri dövri mətbuatda 60-cı illərin ortalarından çap olunmuşdur. "Sənin lə sənsiz", "Ürək bağışlamır", "Qara yelkənli qırmızı gəmilər" kitablarının müəllifidir "Ruhların qayıtması" romanı oxuculara saf insan duyğusu aşılayır.

Ədəbiyyat

Topxana meşəsində görüş: Hekayələr.- B.: Planet-Press, 2006.- 423 s.

Torpağa tökülən qan: [Roman].- B.: Azərnəşr, 2004.- 451 s.

Ürək bağışlamır: [Şeirlər, hekayələr və miniatürlər].- Sumqayıt: "Sumqayıt", 1998.- 189 s.

Zülmətdən işığa doğru: [Publisistik qeydlər, kiçik hekayələr].- B.: Ünsiyyət, 2002.- 265 s.

Heydər, R. Şəfa verən yazıçı: [Yusif Əhmədov-60] //Ədəbiyyat qəzeti.- 1999.- 19 fevral.- S. 6.

Muxtar, Ə. "Ürək bağışlamır": [Əhmədov Yusifin "Sumqayıt" nəşriyyatında çap olunmuş eyni adlı kitabı haqqında] //Ədəbiyyat və incəsənət.- 1998.- 17 iyul.- S. 4.

Günay Səfərova

Fevral

22

105 illiyi

Arkadi Petroviç Qaydar
1904-1941 Rus yazıçısı

Arkadi Petroviç Qaydar 1904-cü il fevralın 9-da Kurski vilayətinin Lvov şəhərində anadan olmuşdur.

On üç yaşlı Arkadi realnı məktəbinin üçüncü sinfində oxuyanda 1917-ci ilin fevral inqilabı baş verdi. O, 14 yaşından könüllü olaraq Qızıl ordu sıralarına daxil olmuş, Kiyevdə komandirlər kursunu bitirdikdən sonra on altı yaşında onu alay komandiri təyin edirlər.

Qaydar altı il Qızıl ordu sıralarında xidmət etmişdir. 1923-cü ildə isə bərk xəstələndiyinə görə onu ordudan tərxis edirlər.

Ordu sıralarında hərbi xidmətini başa vurduqdan sonra o, ədəbi fəaliyyətlə məşğul olmuşdur.

1925-ci ildə "Kovş" adlı Leninqrad almanaxında ilk povesti – "Məğlubiyyət və qələbə günlərində" çapdan çıxır. 1930-cu ildə gənc nəsil üçün yazdığı "Məktəb" povesti dərhal uşaq və məktəb kitabxanalarında əl-əl gəzir, oxucuların ən sevimli kitablarından birinə çevrilir. "Məktəb" povestinin əsas qəhrəmanı, birinci şəxsin dilindən danışan əsgər oğlu Boris Qolikov surətində Arkadi Qaydar məhz özünü təsvir etmişdir.

"Timur və onun komandası" (1940) povesti ona böyük şöhrət qazandırmışdır. Cəsur, həssas, qətiyyətli, xeyirxah Timur surəti indi də uşaqların ən sevimli qəhrəmanlarından biri olaraq qalır. Yazıçı böyüməkdə olan nəslin ən yaxşı cizgilərini böyük vətənpərvərlik ideyası ilə qələmə alaraq bu obrazda ifadə etməyə müvəffəq olmuşdur.

Qaydar uşaqlarla hər bir dildə danışmağı bacarırdı. Onun bütün əsərlərində ürəkləri isidən səmimilik, düzgünlük hiss olunurdu.

Yazıçının "Təbilçinin taleyi" (1939), "Cuk və Gek" (1939), "Hərbi sirr" (1940) və s. əsərlərində Böyük Vətən müharibəsinin çətin günlərində var qüvvələri ilə xalqın əzəmətli mübarizəsinə kömək edən gənc vətənpər-

vərlərin şücaətindən söhbət açılır.

1941-ci il oktyabrın 26-da Qaydar dörd nəfər partizanın müşaiəti ilə kəşfiyyata yollanır və faşist gülləsinin qurbanı olur. Qaydar yaradıcılığı, onun qəhrəman həyatı, əməlləri, bədii yaradıcılığa həsr edilmiş ömrü indi də onu sevənlər üçün örnəkdir.

Ədəbiyyat

Mənim yoldaşlarım: Əsərləri /tərc. edəni O.Salamzadə.- B.: Azərnəşr, 1969.- 154 s.

Seçilmiş əsərləri: 4 cilddə.- B.: Gənclik, 1971 - 1973.

Təbilçinin taleyi: Povest /tərc. edəni Ə.Əhmədova.- B.: Azərnəşr, 1963.- 119 s.

Timur və onun komandası B.: Uşaqgəncnəşr, 1953.- 103 s.

Uzaq illər: Povestlər /tərc. edənlər: Ə.Qasımzadə, Ə. Babayeva.- B.: Gənclik, 1980.- 290 s.

Rus dilində

Собрание сочинений: В 3 томах /сост. пример. и общ. ред. Т.А.Гайдара.- М.: Правда, 1986. Т. 1 – 446 с.; Т. 2 – 364 с.; Т. 3 – 441 с.

İnternetdə

www.arkadiygaydar.ru

Məmməd Məmmədov

Fevral

22

85 illiyi

Süleyman Ələsgərov
1924-2000

Bəstəkar

Süleyman Əyyub oğlu Ələsgərov 1924-cü il fevral ayının 22-də Azərbaycanın bənzərsiz guşələrinin şah tacı sayılan Şuşada anadan olmuşdur. Şəhərin musiqi həyatı uşaqlıqdan onda bu sənətə dərin maraq oyatmışdır.

O, orta məktəbi bitirdikdən sonra 1935-ci ildə Şuşa Musiqi Texnikumunun tar sinfinə daxil olur. Onun ilk müəllimi məşhur bəstəkarımız Qəmbər Hüseynli olmuşdur.

S.Ələsgərov 1944-cü ildə Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq şöbəsinə daxil olmuş və 1948-ci ildə professor B.İ.Zeydmanın sinfini fərqlənmə diplomu ilə bitirmişdir. 1948-1954-cü illərdə Bakı orta ixtisas musiqi məktəbində müəllim, sonralar direktor vəzifəsində çalışmışdır. O, 1956-cı ildən özünün pedaqoji fəaliyyətini Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında davam etdirmişdir. 1971-ci ildən Azərbaycan xalq musiqisi kafedrasına rəhbərlik etmişdir.

O, ilk xalq çalğı alətləri orkestri üçün "Rəqs" adlı musiqi əsərini 1941-ci ildə bəstələmişdir.

Bəstəkar öz yaradıcılığında vokal musiqisinin ən geniş yayılmış janrı olan mahnıya xüsusi diqqət yetirmiş, yüzə qədər mahnı bəstələmişdir. Onun mahnı yaradıcılığının diapazonu çox genişdir. "Sülh nəğməsi" (Hikmət Ziya), "Ölməz sərkərdə" (Cavad Cavadlı), "Şuşa" (Şıxəli Qurbanov), "Göy-göl" (Ələkbər Ziyatay), "Mingəçevir" (Novruz Gəncəli) və s. mahnıları indi də dillər əzbəridir.

Süleyman müəllimin Xalq şairi Süleyman Rüstəmin sözlərinə bəstələdiyi "Qarabağ" mahnısı bu gün də, gələcəkdə də ədəbi-musiqi ictimaiyyətinin diqqətində olacaqdır. Dahi sənətkar Süleyman Rüstəmin hələ o dövrdə dediyi sözlər

bizim üçün örnək olmalıdır.

Mən Süleyman sənin-nəm, sən də mənimsən, Qarabağ,

Vətənimsən, vətənim-sən, vətənimsən, Qarabağ!

S.Ələsgərovun yaradı-cılığında teatr, operetta janrında yaratdığı əsərlər və dram tamaşalarına bəstələdiyi musiqilər də xüsusi yer tutur.

Bəstəkarın İ.Səfərlinin "Yadigar", Ş.Qurbanovun "Əcəb işə düşdük", "Rəis məşğuldur", İ.Əfəndiye-vin "Mahnı dağlarda qaldı" və s. pyeslərinə yazdığı musiqi hadisələrin dinamikliyini artırmaqla, məzmunun tamaşaçılar tərəfindən emosional şəkildə qavranılmasına zəmin yaradır.

Süleyman Ələsgərov Azərbaycan musiqi folk-lorunun qədim və zəngin bir sahəsini təşkil edən aşıq yaradıcılığına da çox böyük diqqət yetirmişdir. Azərbaycan hökuməti Sü-leyman Ələsgərovun yara-dıcı əməyini yüksək qiy-mətləndirmişdir. 1960-cı ildə ona Azərbaycan Əməkdar incəsənət xadi-mi adı verilmişdir.

S.Ələsgərov 1967-ci ildə Ü.Hacıbəyov adına Respublika Dövlət Müka-fatı laureatı adına layiq görülmüş, Azərbaycan incəsənətinin inkişafında xidmətlərinə görə 1974-cü ildə ona Azərbaycanın Xalq artisti fəxri adı verilmişdir.

Ədəbiyyat

Əlioğlu, Y. "Subaylardan görəsiniz": /İsi Məlikza-dənin librettosu əsasında Süleyman Ələsgərovun bəstələdiyi eyni adlı əsərin tamaşası haqqında //Mədəniyyət.- 2004.- 8 yanvar.- S. 2.

Mehdixanlı, T. Mədəniy-yətimizin görkəmli nüma-yəndəsi Süleyman Ələs-gərov – 80 //Azərbaycan.- 2005.- 10 iyun.- S. 7.

Zöhrabov, R. Görkəmli bəstəkar və müəllim: Sü-leyman Ələsgərov haq-qında //İki sahil.- 2004.- 5 iyun.- S.4.

İnternetdə

www.musiqi-dunya.az

Məmməd Məmmədov

Fevral

23

100 illiyi

Həmid Araslı
1909-1983

Ədəbiyyatşünas

Azərbaycanın görkəmli ədəbiyyatşünas alimi, tənqidçi Həmid Məmmədtağı oğlu Araslı 1909-cu il fevral ayının 23-də Azərbaycanın Gəncə şəhərində ruhani ailəsində anadan olmuşdur. Elə həmin il atası ölmüş, onu atalığı himayə edib böyütmüşdü. Həmid 1915-1920-ci illərdə Gəncə mədrəsəsində orta təhsil almışdır. 1920-ci ildə Gəncə kişi müəllimlər seminariyasına qəbul olmuşdur. H.Araslı Nəbiağalı kənd (İndiki Göy-göl rayonunun Sabir kəndi) yeddiillik məktəbinə müəllim, sonra direktor təyin edilmiş, Gəncə qəzasının ictimai-siyasi və mədəni həyatında fəal çalışmışdır. 1924-1925-ci illərdə orta məktəb şagirdləri üçün ədəbiyyat dərnəyi açmış, 1927-1928-ci ildə Nəbiağalı kənd və dairə sovetinə deputat seçilmişdir. 1928-ci ildə Dövlət Pedaqoji İnstitutunun Dil və Ədəbiyyat fakültəsinə təhsilini davam etdirməyə göndərilmişdir. 1931-ci ildə Bakıda Həmkarlar məktəbində müəllim işləmiş və institutu vaxtından əvvəl – iki ilə bitirmişdir. Görkəmli ədib 1932-ci ildə Gəncə şəhər Maarif müdirinin müavini təyin edilmiş, 1932-1935-ci illərdə burada savadsızlığın ləğv edilməsi işini yaxşı təşkil etdiyinə görə fəxri tərifnamə ilə təltif olunmuş, aspiranturaya göndərilmişdir. H.Araslı Pedaqoji İnstitutda aspiranturada oxuduğu müddət ərzində assistent, dosent əvəzi, eyni zamanda Elmlər Akademiyasının Azərbaycan filialı kitabxanasında Şərq şöbəsinin müdiri işləmişdir. O, Şərq Əlyazmaları Fondunu yaratmışdır. 1938-1939-cu illərdə Azərbaycan Dövlət Nəşriyyatında ədəbi-bədii şöbənin redaktoru, həm də Nizami adına Dil və Ədəbiyyat İnstitutunun baş elmi işçisi, sonra 1938-ci ildə şöbə müdiri olmuşdur. Nizami adına Ədəbiyyat Muzeyini təşkil etmək, dahi şairin yubileyi münasibətilə hazırlıq işlərinə rəhbərlik etmək üçün muzeyə elmi katib təyin olunmuşdur.

Həmid Araslı 1943-cü ildə dissertasiya müdafiə edib filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. 1944-1962-ci illərdə Azərbaycan Dövlət Universitetində Yaxın Şərq Ədəbiyyatı kafedrasının müdiri vəzifəsində işləmişdir. 1954-1955-ci illərdə Azərbaycan EA Nizami adına Ədəbiyyat və Dil İnstitutunun Mətnşünaslıq şöbəsinin müdiri olmuşdur. 1960-1968-ci illərdə Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, 1968-1970-ci illərdə Azərbaycan EA Yaxın və Orta Şərq Xalqları İnstitutunun Ədəbiyyat şöbəsinin müdiri, 1970-ci ildən isə həmin institutun direktoru vəzifəsində işləmişdir. ADU-nun Filologiya fakültəsində orta əsrlər Azərbaycan ədəbiyyatından mühazirələr oxumuşdur. Həmid Araslının tək və ya müştərək tərtib etdiyi orta məktəbin V sinif şagirdləri üçün "Ədəbiyyat", "Ədəbiyyat müntəxəbatı" (1936-1938), VIII sinif şagirdləri üçün isə "Ədəbiyyat", "Qədim ədəbiyyat" (1950) dərslikləri uzun illərdən bəri kütləvi tirajla nəşr edilir. O, 1966-cı ildən Türkiyə Dilçilik Cəmiyyətinin Fəxri üzvü, 1971-ci ildən İraq Respublika Akademiyasının Fəxri akademiki seçilmişdir.

Həmid Araslı 1951-ci ildə "Şərəf nişanı", 1979-cu ildə "Qırmızı Əmək Bayrağı" ordenləri və bir neçə medallarla təltif olunmuşdur.

Görkəmli ədəbiyyatşünas alim 1983-cü il noyabrın 20-də Bakıda vəfat etmişdir. Bakıdakı küçələrdən biri onun adını daşıyır.

Ədəbiyyat

Ədəbiyyat: 8-ci sinif üçün.- 19-cu nəşr.-B.: Maarif, 1987.- 192 s.

Xaqani Şirvani: (Şairin həyatı və zəngin ədəbi irsi haqqında).- B.:Yazıçı, 1982.- 62 s.

İmadəddin Nəsimi: (Həyat və yaradıcılığı) /red. M.Quluzadə.- B.: Azərnəşr, 1972.- 74 s.

Kitabi-Dədə Qorqud. Xalq dastanı /Red. H.Zeynallı.- B.: Gənclik, 1978.- 184 s.

Koroğlu: Kiçik yaşlı uşaqlar üçün.- B.: Gənclik, 1988.- 36 s.

Rus dilində

Имадеддин Насими: (Жизнь и творчество).- Б.: Азернешр, 1973.- 72с.

Adilə Abdullayeva

Fevral

24

145 illiyi

Əli bəy Hüseynzadə

1864-1940

Publisist



Görkəmli ictimai xadim, pedaqoq, həkim, jurnalist, yazıçı-publisist, rəssam, musiqişünas Əli bəy Hüseynzadə 1864-cü il fevralın 24-də Salyan şəhərində anadan olmuşdur.

O, Qafqaz Şeyxülislamı Axund Əhməd Hüseynzadənin qız nəvəsidir. Tiflisdə Qafqaz Müsəlmanları Ruhani İdarəsinin nəzdində altısinifli məktəbdə (1870-1875), birinci şəhər gimnaziyasında (1875-1883) oxumuş, Peterburq Universitetinin Fizika-riyaziyyat (1885-1889), İstanbul Universitetinin Hərbi tibb fakültələrində (1890-1895) ali təhsil almışdır. Əmək fəaliyyətinə 1897-ci ildə İstanbulda Heydərpaşa xəstəxanasında həkim, 1900-cu ildən başlayaraq İstanbul Universitetində Dəri-zöhrəvi xəstəlikləri kafedrasında professor köməkçisi (dosent) vəzifəsində çalışmışdır. Eyni zamanda o, bu illərdə bədii və elmi yaradıcılıqla da məşğul olmuşdur.

Hələ təhsil illərində Peterburqda tələbə siyasi dərnəklərində fəal iştirak etmiş, İstanbul Universitetində tələbə yoldaşları ilə Sultan Əbdülhəmid rejiminə qarşı məşhur "İttihad və tərəqqi" partiyasının əsasını qoymuşdur. Siyasi fəaliyyətinə görə Sultan xəfiyyələri tərəfindən təqib edilən Əli bəy 1903-cü ildə Bakıya köçməyə məcbur olur. Xarici ölkədə təhsil aldığına görə Rusiya ərazisində həkim işləməsinə icazə verilmədiyindən Əli bəy Hüseynzadə jurnalistika sahəsində çalışmış, "Kaspi" və "Bakı" qəzetlərində əməkdaşlıq etmişdir. Əli bəy Hüseynzadənin çoxşaxəli fəaliyyətinin təməlində turançılıq məfkurəsi dururdu. O, türk xalqlarının milli birliyi, milli dövlətçilik ideyasını ilk dəfə irəli sürmüş, onun elmi-nəzəri əsaslarını işləyib hazırlamışdır.

1905-ci il inqilabından sonra türkçülük məramnaməsini "Həyat" qəze-

tində, “Füyuzat” jurnalında dərc etdiyi “Türkçülük kimdir və kimlərdən ibarətdir?”, “Yazımız, dilimiz”, “Türk dilinin vəzifeyi-mədəniyyəti” və digər məqalələrində geniş surətdə şərh etmişdir:

Eylər dili Çin səddinədək hökmünü icra,

Bir ucudur Altay bu yerin, bir ucu səhra

– misralarında o türk dilinin yayıldığı geniş əraziləri göstərmişdir.

1907-ci ildə “Füyuzat” jurnalı bağlandıqdan sonra Əli bəy Hüseynzadə pedaqoji fəaliyyət göstərmiş, Bakıda “Səadət” məktəbinin müdiri olmuş, “Tərəqqi” və “Həqiqət” qəzetlərində çalışmış, məşhur “Siyasəti-fürusət” əsərini hissə-hissə nəşr etdirmişdir. Türkiyədə Sultan Əbdülhəmid taxtdan salındıqdan iki il sonra inqilabçı yoldaşları olan gənc türklərin dəvətilə 1910-cu ildə Türkiyəyə getmiş, İstanbul Universitetində professor vəzifəsində pedaqoji fəaliyyətini davam etdirmişdir. O, Məhəmməd Əmin Rəsulzadə ilə “Türk ocağı” dərnəyində çalışmış, Birinci Dünya müharibəsi (1914-1918) illərində “Turan” türk birliyinin tərkibində Qərbi Avropanın dövlətlərinə gedərək, türkçülük təbliğatı aparmış, 1916-cı ildə Berlində “Türk qövmləri konqresi”ndə, 1917-ci ildə Stokholmda beynəlxalq sosialist konqresində, 1926-cı ildə Bakıda türkoloji qurultayda iştirak etmişdir.

Ə.Hüseynzadə geniş yaradıcılıq diapazonuna malik mütəfəkkir alim və yazıçıdır. O, müxtəlif elm sahələrində çalışmış, tibbə, fəlsəfəyə, tarixə, siyasətə, sosiologiyaya, ədəbiyyatşünaslığa dair zəngin irs yaratmışdır. Onun geniş ədəbi-publisistik və elmi irsi Azərbaycan milli təfəkkürünün böyük nailiyyətidir. Əli bəy Hüseynzadə çoxsahəli fəaliyyəti ilə Azərbaycan ədəbi-elmi fikir tarixində M.F.Axundovun ardınca yeni mərhələnin əsasını qoymuş, “füyuzatçı”lar adlı orijinal ədəbi-fəlsəfi məktəb yaratmışdır.

XIX əsrin sonu, XX əsrin əvvəllərində türk-müsəlman dünyasının yetirdiyi nadir siyasi və ədəbi simalarından biri olan Əli bəy Hüseynzadə 1940-cı il martın 17-də İstanbulda vəfat etmişdir.

Ədəbiyyat

Azərbaycan mətbuatı tarixi: Dərs vəsaiti /tərt.edəni Akif Şahverdiyev.- B., 2006.- 250 s.

Həsənov, S. “Füyuzat” jurnalı və dil problemləri. - B.: Elm, 2006.- 301 s.

Mirzə, R. Türkçülüyün babası: Əli bəy Hüseynzadə haqqında.- B., 2000.- 157 s.

Tahirli, A. Azərbaycan mühacirət mətbuatı.- 2 cilddə.- B., 2002-2003.

Məmməd Məmmədov

Fevral

26

Xocalı Soyqırımı XX əsrin ən dəhşətli cinayətlərindəndir
1992

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycan xalqının tarixinə qara hərflərlə yazılmışdır. Həmin gecə erməni silahlı dəstələri SSRİ dövründə Xankəndi şəhərində yerləşmiş və şəxsi heyətinin xeylisi ermənilərdən ibarət olan 366-cı motoatıcı alayının zirehli texnikası və hərbiçilərinin köməyi ilə Xocalı şəhərini yerlə-yeksan etmişlər.

Xatın, Liditsa, Oradur soyqırımları kimi, Xocalı faciəsi də insanlıq tarixinə düşmüş qanlı olaydır. Erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdikləri bu növbəti kütləvi qırğın 613 nəfərin, o cümlədən 106 qadının, 83 uşağın, 70 qocanın həyatına son qoydu. 1275 dinc sakin əsir götürüldü, 150 nəfərin taleyi isə hələ də məlum deyildir.

1000-dən artıq dinc sakin müxtəlif dərəcəli xəsarət alaraq şikəst olmuşdur. Onların 76 nəfəri yetkinlik yaşına çatmamış uşaqlar idi. Xocalı qırğını zamanı 6 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir. 56 nəfər xüsusi qəddarlıqla öldürülmüş – diri-diri yandırılmış, başlarının dərisi soyulmuş, bədən əzaları və başları kəsilmiş, gözləri çıxarılmış, hamilə qadınların qarnı süngü ilə deşik-deşik edilmişdi.

Rusiyanın "Memorial" hüquq-müdafiə mərkəzinin məlumatına görə, dörd gün ərzində Ağdama Xocalıda qətlə yetirilmiş 200 azərbaycanlının meyiti gətirilmiş, onlarca meyitin təhqirə məruz qalması faktı aşkar edilmişdir.

Ağdamda 181 meyit (130 kişi və 51 qadın, o cümlədən 13 uşaq) məhkəmə-tibbi ekspertizasından keçirilmişdir. Ekspertiza zamanı müəyyən edilmişdir ki, 151 nəfərin ölümünə güllə yaraları, 20 nəfərin ölümünə qəlpə yaraları səbəb olmuş, 10 nəfər küt alətlə vurularaq öldürülmüşdür. Hüquq-

müdafiə mərkəzi diri adamın baş dərisinin soyulması faktını da qeydə almışdır.

Həmin əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi beynəlxalq hüquqa və dövlətdaxili hüquqa əsasən məhz soyqırımı olduğunu sübut edir. Erməni cəlladlarının törətdikləri bu vəhşilik və vandalizm aktı bəşəriyyətin əsil soyqırımı kimi tanıdığı və yuxarıda adı çəkilən faciələrlə eyni səviyyədə qiymətləndirilməlidir. Dünyanın sülhsevər insanları, sivil dövlətləri, nüfuzlu beynəlxalq təşkilatları, beynəlxalq ictimaiyyət bu acı həqiqəti bilməli, insanlığa qarşı törədilən bu cinayət öz hüquqi qiymətini almalıdır. Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayət sayılır. BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı Qətnaməsi ilə qəbul edilmiş və 1961-ci ildə qüvvəyə minən Soyqırımı cinayətinin qarşısının alınması və təqsirkarların cəzalandırılması haqqında Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsbit olunmuşdur. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit edilmiş soyqırımı cinayətini təşkil edən bütün əməllər tətbiq olunmuşdur. Bu işğalçı ölkənin yürütdüyü terrorçuluq siyasəti uzun illərdir ki, dünya ictimaiyyətinin gözü qarşısında baş verir. Halbuki, beynəlxalq hüquq normalarına, BMT-nin və ATƏT-in prinsiplərinə görə, dövlətlərin sərhədlərinin toxunulmazlığına hörmət edilməlidir, ərazi bütövlüyünün və suverenliyin pozulması yolverilməzdir. BMT Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş torpaqlarının qeyd-şərtsiz azad edilməsi barədə dörd qətnamə qəbul etsə də, işğalçı Ermənistan bunları hələ də yerinə yetirmir.

Xocalı faciəsi iki yüz ilə yaxın bir müddət ərzində erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin davamı və qanlı səhifəsi idi. Bu mənfur siyasət xalqımıza saysız-hesabsız müsibətlər və əzab-əziyyətlər gətirmişdir.

Xocalı soyqırımını törətməklə erməni millətçiləri məkrli məqsədlər güdürdü: xalqımızı qorxutmaq, vahimə yaratmaq, onun mübarizə əzmini qırmaq, torpaqların işğalı faktı ilə barışmağa məcbur etmək. Lakin hiyləgər və amansız düşmən məqsədinə çata bilmədi. Xocalı müdafiəçiləri qəddar düşmənlə mübarizədə əyilmədilər, qəhrəmanlıqla vuruşaraq Vətənə sədaqət nümunəsi göstərdilər.

Xocalı faciəsindən danışarkən o zamankı rəsmi Azərbaycan rəhbərliyinin və ölkədə vəziyyətə ciddi təsir edən siyasi qüvvələrin acizliyini, səriştəsizliyini, xalqın taleyinə biganəliyini xüsusi qeyd etmək lazımdır. Dövlət rəhbərliyi xalqın qəzəbindən qorxaraq, hadisənin miqyasını kiçiltməyə cəhd etmiş, bu qanlı cinayət barədə beynəlxalq ictimaiyyətə operativ və ətraflı məlumat vermək üçün heç bir iş görməmişdi. 1994-cü ildən ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan hö-

kuməti və parlamenti erməni millətçilərinin azərbaycanlılara qarşı törətdikləri cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətləri bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə çatdırmaq, bunların soyqırımı siyasəti kimi tanınmasına nail olmaq üçün ardıcıl tədbirlər görmüşdür. Məqsəd Xocalı faciəsinə beynəlxalq hüquqi-siyasi qiymət verilməsinə, onun təşkilatçılarının, ideoloqlarının və icraçılarının dünya ictimaiyyətinin gözündə ifşasına və cəzalandırılmasına nail olmaqdır. Bu, bir tərəfdən Xocalı müdafiəçilərinin və şəhidlərinin ruhu qarşısında bizim insanlıq və vətəndaşlıq borcumuzdur. Digər tərəfdən isə, insanlığa qarşı yönəlmiş bu cür qəddar cinayətlərin gələcəkdə təkrar olunmaması üçün mühüm şərtdir.

XOCALI SOYQIRIMI QURBANLARININ XATİRƏSİNƏ SÜKUT DƏQİQƏSİ ELAN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1992-ci il fevral ayının 26-da Ermənistan silahlı qüvvələri Azərbaycan xalqına qarşı misli görünməmiş Xocalı soyqırımı törətmişlər. Bu kütləvi və amansız qırğın aktı erməni qəsbkarlarının Azərbaycan dövlət müstəqilliyini, ərazi bütövlüyünü hədəf almış məqsədyönlü irticaçı siyasətinin növbəti qanlı səhifəsi olmaqla, təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı cinayətdir və bəşər tarixində qara ləkə kimi qalacaqdır.

Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək məqsədilə qərara alıram: Hər il fevral ayının 26-sı saat 17:00-da Azərbaycan Respublikası ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilsin.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev
Bakı şəhəri, 25 fevral 1997-ci il

Ədəbiyyat

Aşırlı, A. Türkün Xocalı soyqırımı /red. Ə.Həsənov.- B.: Nurlan, 2005.- 176 s.

Abbasov, İ. Misli görünməmiş qəsd (Xocalı soyqırımı //Azərbaycan.- 2006. - 23 fevral.- S. 3.

Rus dilində

Садиг, Д. Ходжалинская трагедия сроку давности не подлежит.- Тула: Граф и К, 2007.- 34 с.

Фонд Гейдара Алиева. Ходжалинский геноцид. - Б., 2006.- 14 с.

İnternetdə

www.human.gov.az/
az.wikipedia.org/wiki/
www.media-az.com/karabakh/

www.azerbaijan.az/_Karabakh/_Genoside/_genocide_a.html § 27

Adilə Abdullayeva

1 fevral
Gün çıxır
05:43
Gün batır
18:33
28 fevral
Gün çıxır
05:52
Gün batır
20:05

Mart

19 fevral-
20 mart
Balıq Nişanı sudur. Yupiter və Neptunun himayəsindədir. Günəşin Balıqlar bürcündən keçdiyi dövrdə doğulanlar incə intuasiyalı olmaqla yanaşı, daim bir narahatlıq hissi də keçirirlər.

2009

Əlamətdar və tarixi günlər

2. Azərbaycanın BMT-yə qəbul olunması günü
7. Azərbaycanda ilk Dövlət Bankının yaradılmasının 90 illiyi
8. Beynəlxalq Qadınlar Günü
10. Milli Teatr Günü
12. Daxili qoşunlar Günü
20-21. Novruz Bayramı
27. Beynəlxalq Teatr Günü
28. Milli Təhlükəsizlik Günü
31. Azərbaycanlıların Soyqırımı Günü

B	**1**
Be	2
Ça	3
Ç	4
Ca	5
C	6
Ş	7
B	**8**
Be	9
Ça	10
Ç	11
Ca	12
C	13
Ş	14
B	**15**
Be	16
Ça	17
Ç	18
Ca	19
C	20
Ş	21
B	**22**
Be	23
Ça	24
Ç	25
Ca	26
C	27
Ş	28
B	**29**
Be	30
Ça	31

Azərbaycanlıların Soyqırımı günü

XIX əsrin əvvəllərindən başlayaraq ermənilər tarixi Azərbaycan torpaqlarında kütləvi şəkildə məskunlaşdırılmağa başlamış, azərbaycanlılar öz qədim torpaqlarından, ata-baba yurdlarından qovulmuş, onların deportasiyası prosesi məqsədyönlü şəkildə həyata keçirilmişdir.

Ötən əsrdə dörd dəfə - 1905-1906, 1918-1920, 1948-1953 və 1988-1989-cu illərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı və deportasiya siyasəti bu gün özünü Dağlıq Qarabağla bağlı məlum hadisələrdə biruzə verir, həm də onu göstərir ki, ermənilərin xalqımıza olan tarixi münasibəti dəyişməyib.

Azərbaycan gənclərinin II forumunun (01.03.1999) keçirilməsinin 10 illiyi

Azərbaycanın BMT-yə qəbul olunması günü (02.03.1992)

Hərbi xadim, Azərbaycan Xalq Cümhuriyyəti ordusunun zabiti Qacar Seyfulla Mirzə Bəhmən Mirzə oğlunun (06.03.1864-1926) anadan olmasının 145 illiyi

Dilşünas-alim, professor Əfəndiyeva Türkan Əşrəf qızının (07.03.1929) anadan olmasının 80 illiyi

Azərbaycanda ilk Dövlət Bankının yaradılmasının (07.03.1919) 90 illiyi

Beynəlxalq Qadınlar Günü (08.03.1910)

Azərbaycan Respublikasının Xalq artisti, tar ifaçışı Haşımova Ceyranın (08.03.1934) anadan olmasının 75 illiyi

Dünyada ilk kosmonavt Qaqarin Yuri Alekseyeviçin (09.03.1934-27.03.1968) anadan olmasının 75 illiyi

Ukrayna şairi Şevçenko Taras Qriqoryeviçin (09.03.1814-10.03.1861) anadan olmasının 275 illiyi

Milli Teatr Günü (10.03.1873)

Qızıl Aypara Günü (07.04.2008)

Görkəmli elm xadimi, professor İbrahimxəlilov İbrahimxəlil Şıxəhməd oğlunun anadan olmasının (10.03.1934) 75 illiyi

SSRİ Nazirlər Soveti Ermənistan SSR-dən (Qərbi Azərbaycandan) azərbaycanlı əhalinin deportasiyası ilə əlaqədar qəbul edilmiş Tədbirlər Planını təsdiq etmişdir (10.03.1949)

Daxili Qoşunlar Günü (12.03.1995)

Alman fiziki Eynşteyn Albertin (14.03.1879-18.04.1955) anadan olmasının 130 illiyi

Azərbaycanın Xalq artisti, aktyor Quliyev Məmməd Allahverdi oğlunun (15.03.1914) anadan olmasının 95 illiyi

Azərbaycanın Xalq artisti, aktyor Vəlixanlı Məmmədəli Hacı Heydər oğlunun (15.03.1899-12.04.1969) anadan olmasının 110 illiyi

Azərbaycanın Xalq artisti, xanəndə Hüseynov Hacıbaba Hüseynəli oğlunun (15.03.1919-24.10.1993) anadan olmasının 90 illiyi

Fəxri mühəndis, elektrik, radionun ixtiraçısı Popov Aleksandr Stepanoviçin (16.03.1859-13.01.1906) anadan olmasının 150 illiyi

Şair, ədəbiyyatşünas Qasımov Dəmir Müseyib oğlunun (Dəmir Gədəbəyli) (19.03.1939) anadan olmasının 70 illiyi

Novruz Bayramı (20-21 Mart)

Azərbaycanın Xalq artisti, müğənni, Sarabski (Rzayev) Hüseynqulu Məlik oğlunun (20.03.1879-16.02.1945) anadan olmasının 130 illiyi

Beynəlxalq Poeziya Günü (21 Mart)

İrqi Ayrı-seçkiliyin (diskriminasiya) Ləğv Edilməsi Uğrunda Beynəlxalq Mübarizə Günü (21.03.1966)

Azərbaycanın Xalq artisti, aktyor Sadıqov Hüseynağa Ələsgər oğlunun (21.03.1914-23.02.1983) anadan olmasının 95 illiyi

Azərbaycanın Milli Qəhrəmanı Təhməzov Paşa Qurban oğlunuin (23.03.1949-24.08.1993) anadan olmasının 60 illiyi

Azərbaycanın Əməkdar incəsənət xadimi, yazıçı, dramaturq Cabbarlı Cəfər Qafar oğlunun (22.03.1899-31.03.1934) anadan olmasının 110 illiyi

Azərbaycanın Xalq yazıçısı Şıxlı İsmayıl Qəhrəman oğlunun (22.03.1919-06.07.1995) anadan olmasının 90 illiyi

Azərbaycanın Xalq yazıçısı Hüseynov Mehdi Əli oğlunun (Mehdi Hüseyn) (22.03.1909-10.03.1965) anadan olmasının 100 illiyi

Azərbaycanın Xalq artisti, aktyor Abdullayev Lütfəli Əmir oğlunun (22.03.1914-09.12.1973) anadan olmasının 95 illiyi

İlk azərbaycanlı təyyarəçi qadın Seyidməmmədova Züleyxa Həbib qızının (22.03.1919-1999) anadan olmasının 90 illiyi

Azərbaycanın Milli Qəhrəmanı Seryoqin Viktor Vasilyeviçin (23.03.1944-28.01.1992) anadan olmasının 65 illiyi

Beynəlxalq Teatr Günü (27.03.1948)

Milli Təhlükəsizlik Günü (28.03.1997)

Azərbaycanın Dövlət mükafatı laureatı, şair Əliyev Teymur Süleyman oğlunun (Teymur Elçin) (28.03.1924-19.03.1992) anadan olmasının 85 illiyi

Azərbaycanda Nobel Qardaşları şirkətinin fəaliyyətə (29.03.1879) başlamasının 130 illiyi

Azərbaycanın Milli Qəhrəmanı İsmayılov Etibar Bəylər oğlunun (29.03.1964-04.01.1994) anadan olmasının 45 illiyi

Azərbaycanın Milli Qəhrəmanı İsmayılov İlqar Sədi oğlunun (29.03.1959-01.10.1992) anadan olmasının 50 illiyi

Azərbaycanlıların Soyqırımı Günü (31.03.1998)

3 Mart

95 illiyi

Hüseynağa Sadıqov
1914-1983

Aktyor

Sadıqov Hüseynağa Ələsgər oğlu 1914-cü il mart ayının 3-də Bakıda anadan olmuşdur.

Erkən yaşlarından incəsənətə maraq göstərmiş, həvəskar, xor və teatr dərnəklərində iştirak etmişdir. 17 yaşında ikən Gənc Tamaşaçılar Teatrına daxil olmuş və teatrın studiyasında görkəmli səhnə ustaları İ.Hidayətzadənin, A.Tuqanovun rəhbərliyi altında yaxşı yaradıcılıq məktəbi keçmişdir. Aktyor əsasən komik rollarda çıxış etmişdir.

Uşaq psixologiyasına yaxşı bələd olan H.Sadıqov öz istedadlı oyunu ilə gənc tamaşaçıların məhəbbətini və ehtiramını qazanmışdı.

Yaradıcılığının yarım əsri ərzində o, Azərbaycan, rus və xarici ölkə dramaturqlarının əsərlərində 200-dən artıq müxtəlif rollarda çıxış etmiş, kinolarda çəkilmiş, Azərbaycan teatr sənətinin, respublika kinematoqrafiyasının inkişafına böyük kömək göstərmişdir.

"Yenilməz batalyon", "Sehirli xalat", "Alma almaya bənzər", "Ələddinin sehirli çırağı", "Babamın babasının babası" və s. filmlərdə çəkilmişdir.

Hüseynağa Sadıqov Böyük Vətən müharibəsi iştirakçısı olmuşdur.

1979-cu ildə Azərbaycan Xalq artisti adına layiq görülmüşdür. "Qırmızı ulduz", "Şərəf nişanı" ordenləri və medallarla təltif edilmişdir.

1983-cü il fevral ayının 2-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Mehdixanlı, T. Güldürən, düşündürən sənətkar: [Xalq artisti Hüseynağa Ələsgər oğlu Sadıqovun 90 illiyi münasibətilə] //Azərbaycan.- 2004.- 24 mart.- S.7.

Mətanət İbrahimova

6 Mart

145 illiyi

Seyfulla Mirzə Qacar 1864-1926

Hərbi xadim

Qacar Seyfulla Mirzə Bəhmən Mirzə oğlu 1864-cü ildə Tiflisdə anadan olmuşdur. O, hərbi xadim, Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun yüksək rütbəsini almışdır. Qacar Seyfulla Azərbaycanın Qacarlar nəslindəndir. Tiflis Hərbi məktəbində təhsil almışdır. 1886-cı ildən Rusiya ordusunun 152-ci Vladiqafqaz alayında, Rusiyanın müxtəlif şəhərlərində süvari diviziyasında xidmət etmişdir. Birinci Dünya müharibəsi (1914-1918) dövründə Qərb cəbhəsində tabor və alay komandiri olmuşdur. 1916-cı ildə polkovnik rütbəsi alan Seyfulla Mirzə Qacar Amur sərhəd alayının komandiri təyin edilir. "Müqəddəs Stanislav", "Müqəddəs Anna", "Müqəddəs Vladimir" ordenləri, "Georgi" silahı ilə təltif edilmişdir. Seyfulla Mirzə Qacar Azərbaycan Xalq Cümhuriyyəti Hərbi Nazirliyi yarandıqdan sonra Milli Orduya qoşulan ilk Azərbaycan zabitlərindən biri idi. Hərbi Nazirliyin 1918-ci il 15 noyabr tarixli əmri ilə o, qərargahda Ləvazimat İdarəsinin rəisi, 1919-cu ilin əvvəlindən isə 3-cü Gəncə piyada alayının komandiri təyin edilmişdi. Sonradan başqa vəzifələrdə də fəaliyyət göstərmiş Seyfulla Mirzə Qacar 1921-ci ilədək Azərbaycan hərbi hissələrində xidmətini davam etdirmiş, həmin ildə xəstəliyi ilə əlaqədar istefaya çıxmışdır.

Ədəbiyyat

Nəzərli, Ş. Arxivlərin sirri açılır.- B.: Elm, 1999.- 414 s.

Nəzərli, Ş. Qacarlar .- B.: Şur, 1995.- 64 s.

Süleymanov, M. Azərbaycan ordusu (1918-1920).- B.: Hərbi nəşriyyat.- 1998.- 487 s.

Bəybala Ələsgərov

Mart
7

90 illiyi

Türkan Əfəndiyeva
1929

Türkoloq

Türkan Əşrəf qızı Əfəndiyeva 1929-cu il martın 7-də Bakı şəhərində anadan olmuşdur. Şəkidə orta məktəbi başa vurduqdan sonra Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə Azərbaycan Dövlət Universitetinin rus dili kafedrasında laborant kimi başlamışdır. 1973-cü il Türkan Əfəndiyevanın həyatında ən unudulmaz illərdən sayılır. O, "Azərbaycan dilinin leksik üslubiyyatı" (bədii üslub) mövzusunda doktorluq dissertasiyası müdafiə etdi və respublikada dilçilik sahəsində üçüncü qadın elmlər doktoru oldu.

1992-1993-cü illərdə İstanbulun Mərmərə Universitetinin dəvəti ilə orada çalışmış, Azərbaycan dili və ədəbiyyatından mühazirələr söyləmiş, rus dilindən dərs demişdir. Türkan xanım 1989-cu ildən Türkiyədə keçirilən türk dili konqreslərinin daimi iştirakçısıdır.

Professor Türkan Əfəndiyeva öz zəngin və çoxşaxəli elmi yaradıcılığı ilə Azərbaycan dilçiliyində xüsusi yer tutur. Onun elmi əsərləri, monoqrafiya, dərslik və dərs vəsaitləri, ana dilimizin leksikologiyası, morfologiyası, üslubiyyatı, bədii üslub, məcazlar sistemi, poetika məsələlərini və nitq mədəniyyətini əhatə edir.

Türkan Əfəndiyeva bir çox beynəlxalq, ümumittifaq, respublika simpozium, konfrans, müşavirə və elmi sessiyalarında Azərbaycan dilçiliyini ləyaqətlə təmsil etmiş, elmimizi tanıtmışdır.

Ədəbiyyat

Azərbaycan dilinin bədii ifadə vasitələri .- B.: Elm, 1973.- 76 s.

Azərbaycan dilinin leksik üslubiyyatı: (Bədii üslub) .- B.: Elm, 1980.- 251 s.

Hüseynova Gülşən

Mart

9

75 illiyi

Yuri Alekseyeviç Qaqarin 1934-1968 ilk kosmonavt

Qaqarin – tarixdir. Həm də təkcə kosmonavtika tarixi olmayıb, eyni zamanda bizim ən yeni tariximizdir. Qaqarinin həyat həqiqəti onun öz müasirləri və gələcək nəsillər üçün bir möcüzə, bir qəhrəmanlıqdır.

Qaqarin Yuri Alekseyeviç 1934-cü il martın 9-da Rusiyanın Smolensk vilayətinin Qoatski rayonunun Kluşino kəndində kolxozçu ailəsində anadan olmuşdur.

Doğma kəndində natamam orta məktəbi bitirdikdən sonra 1951-ci ildə Lyubertsi şəhərində sənət məktəbinə daxil olur.

Yuri sənət məktəbini bitirdikdən sonra Saratov Sənaye Texnikumuna daxil olur. Texnikumda təhsilini davam etdirməklə bərabər Saratov aeroklubuna kursant qəbul edirlər. Qaqarin kosmosa doğru ilk addımını məhz Saratovda atmışdır.

1957-ci ildə Çkalov adına hərbi-aviasiya məktəbini, 1968-ci ildə isə N.Y.Jukovski adına Moskva Hərbi-Hava Mühəndisləri Akademiyasını bitirmişdir.

1957-ci ildən Qırmızı Bayraqlı Şimal Donanmasının aviasiya hissələrinin birində qırıcı-təyyarəçi kimi xidmət etməyə başlayan Qaqarini 1960-cı ildə kosmonavtlar dəstəsinə qəbul edirlər.

Dünyada ilk kosmonavt kimi Yuri Qaqarin 1961-ci il aprelin 12-də "Vostok" gəmisində kosmosa uçmuş, yer ətrafında 1 saat 48 dəqiqə dövr edib geri qayıtmışdır.

SSRİ-nin ilk təyyarəçi-kosmonavtı, polkovnik, Sovet İttifaqı Qəhrəmanı Qaqarin Yuri Alekseyeviç 1968-ci il martın 27-də təyyarədə təlim uçuşu zamanı qəza nəticəsində həlak olmuşdur.

İnsanlar heç bir zaman Yuri Qaqarini unutmayacaq. Dünyada nə qədər fədakarlıqlar göstərilsə də o, həmişə qəhrəman kimi başqalarına nümunə olacaq, ilk kosmonavt kimi insanların yaddaşında əbədi yaşayacaqdır.

Ədəbiyyat

Obuxova, L. Əsrin sevimlisi.- B.: Gənclik, 1971.- 200 s.

Obuxova, L. Oğlan necə kosmonavt oldu.- B.: Gənclik, 1987.- 32 s.

Rus dilində

Гагарина, А.Т. Память сердца. Воспоминания о Ю.А.Гагарине.- М.: Изд-во агентства печати Новости, 1985.- 220 с.

Гагарина В.И. 108 минут и вся жизнь: о Ю. А.Гагарине.- М.: Мол. гвардия, 1986.- 157 с.

Митрошенков, В.А. Земля под небом: Хроника жизни Ю.Гагарина.- М.: Сов. Россия, 1987.-458 с.

Николаев, Н.В. Будни космической эры: К 20-летию Ю.А. Гагарина.- М.: Книга, 1981.- 145 с.

Он был первым: Воспоминания о Ю.А. Гагарине.-М.: Воениздать, 1984.- 431 с.

Степанов, В.А. Звездные люди: Повесть о Ю.А.Гагарине.- М.: Современник, 1990.- 446 с.

İnternetdə

www.peoples.ru/militory/gagarin/interview.html

http://gagarin.narod.ru/gagarin1.html

Məmməd Məmmədov

Mart

9

275 illiyi

Taras Qriqoryeviç Şevçenko 1814- 1861

Ukrayna şairi

Ukrayna şairi, rəssam, mütəfəkkir, inqilabçı-demokrat, Ukrayna ədəbiyyatı və təsviri sənətində tənqidi realizmin və inqilabi-demokratik cərəyanın banisi, T.Şevçenko 9 mart 1814-cü ildə təhkimli kəndli ailəsində doğulmuşdur. İlk təhsilini kənd keşişindən almış, 1831-ci ildə sahibi ilə Peterburq şəhərinə gəlmişdir. İlk kitabı "Kovzar" 1840 – cı ildə nəşr olunmuşdur. "Kor qadın", (1842), "Muzdur qadın", (1845), "Marina" (1848) və s. romanlarında, "Taras gecəsi" (1838) tarixi poemasında Şevçenko milli azadlıq mübarizəsinə toxunmuşdur. Əsərləri Ukrayna ədəbiyyatında siyasi lirika və satira janrlarının inkişafında mühüm rol oynamışdır. 1847-ci ildə xəyanət nəticəsində həbs edilmiş, Orsk qalasına sürgün edilmişdir. 10 il (1847-1857) sürgündə qalan Şevçenko yalnız I Nikolayın ölümündən sonra azad edilmişdir. Sürgün illərində rus dilində avtobioqrafik səciyyəli "Çalğıçı" (1854-1855), "Bədbəxt", "Kapitan arvadı", "Əkizlər", "Rəssam" (1856) və s. realist povestlərini yazmışdır. Ukrayna ədəbiyyatının inkişafında Şevçenkonun müstəsna xidmətləri olmuşdur. Əsərləri dünya xalqları dillərinə tərcümə edilmişdir. Şevçenko rəssam kimi də məşhurdur. O, 1838-1845-ci illərdə Peterburq Rəssamlıq Akademiyasında oxumuş, K.P.Brullovdan dərs almışdır. Realist meyillər Şevçenkonun erkən yaradıcılığında meydana gəlmiş, sürgündə yaratdığı rəsmlərində kəskin ifşaedici qüvvə kəsb etmişdir. Sürgündən qayıtdıqdan sonra Şevçenko çoxlu qravyüralar yaratmış, 1860-cı ildə mis üzərində qravyüralarına görə akademik adı almışdır. Şevçenkonun "Çimən Virsaviya" (1860) əsəri R. Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində saxlanılır. USSR-də Şevçenko adına Respublika Mükafatı təsis edilmişdir.

1861-ci ilin mayında Şevçenkonun vəsiyyətinə görə Kaver yaxınlığında, Dnepr sahilindəki Çerneçyada dəfn edilmişdir. Bakıda adına küçə və məktəb vardır.

Ədəbiyyat

Abdulla, A. Azərbaycan–Ukrayna ədəbi əlaqələri.- B., 1982.

Fikirlərim-düşüncələrim.- B., 1979.

Rus dilində

Автобиография. Дневник.- Киев, 1988.

Большаков, Л.Н «Все он изведал…. Т. Шевченко: поиски и находки.- Киев., 1988.

Кобзарь: Стихотворения и поэмы.- М., 1984

Zemfira Qəhrəmanova

Mart

10

Qızıl Aypara Günü

Qızıl Xaç və Qızıl Aypara hərəkatının meydana gəlməsi İsveçrə humanisti, Nobel mükafatı laureatı Henri Dünantın adı ilə bağlıdır. O, şahidi olduğu Solferina döyüşündə yaralılara biganə münasibətdən təsirlənir və bu istiqamətdə fəaliyyətə başlayır. Bir neçə ildən sonra yazdığı "Solferina xatirələri" kitabında H.Dünant döyüş meydanında yaralılara kömək göstərilməsi üçün bütün ölkələrdə könüllü dəstələrin yaradılmasını və onlara neytrallıq statusunun verilməsini təklif edir. Onun bu fikirləri Beynəlxalq Qızıl Xaç Komitəsi, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının əsaslandığı başlıca prinsiplərdir. Həmin prinsiplər Cenevrə sazişləri və onlara əlavə edilən protokollarda öz əksini tapıb. Qeyd edim ki, Azərbaycan 1993-cü ildə 4 Cenevrə sazişinə imza atıb.

Azərbaycanda Qızıl Aypara Cəmiyyəti 1920-ci ildə general-leytenant Əliağa Şıxlinskinin təşəbbüsü ilə yaradılıb. Sonrakı illərdə keçmiş SSRİ-nin QXQAC-ləri birliyində fəaliyyət göstərən Azərbaycan Qızıl Aypara Cəmiyyəti 1991-ci ildən müstəqil işləyir. 1992-ci ildə Xocalı faciəsindən dərhal sonra Azərbaycan QAC-ın müraciətinə əsasən Beynəlxalq Qızıl Xaç Komitəsi Bakıda öz nümayəndəliyini açdı. Bir il sonra isə BQXQAC Federasiyası ölkəmizdə fəaliyyətə başladı. Azərbaycan QAC humanitar sahədə hökumətin yardımçısıdır və xalqa xidmət göstərir. Bu cəmiyyət 82 ildir ki, Azərbaycanda fəaliyyətdədir. Heç də təsadüfi deyil ki, Azərbaycan QAC-ın 2000-ci ildə keçirilən 80 illik yubileyində çıxış edən Prezident Heydər Əliyev qurumun fəaliyyətini çox yüksək qiymətləndirib. Bizim üçün sevindirici haldır ki, Azərbaycan QAC BQXQAC Federasiyasının üzvüdür. İlk dəfə olaraq 2001-ci ildə Federasiyanın İdarəetmə Şurasına üzv seçilib. Fövqəladə Hallar üzrə Dövlət Komissiyasında təmsil olunan QAC-ın

sədri Novruz Aslanov qurumun eksperti təyin edilib. Həm Kiyev konfransında, həm də Berlindəki BQXC Federasiyasının konfransında MDB ölkələri arasında yeganə Azərbaycanın nümayəndəsi həmsədr seçilib. Hətta komissiya iclasının sədarəti də Azərbaycan QAC-a həvalə olunmuşdu. Yəni bu bizim və bütövlükdə Azərbaycan xalqının nailiyyətidir. Ötən müddətdə BQXK münaqişədən zərər çəkən insanlara humanitar yardım göstərib. Bu tək ərzaq yardımı deyil. Hazırda dünyada əsir və girovların dəyişdirilməsi ilə yalnız BQXK məşğul olur. Komitə bu fəaliyyətini Azərbaycanda da həyata keçirir. BQXK eləcə də beynəlxalq humanitar hüququn yayılmasını, beynəlxalq axtarışlar sahəsində proqramları maliyyələşdirir, onların inkişafına yardım göstərir. Azərbaycanın işğaldan azad edilən ərazilərinin minalardan təmizlənməsi proqramının həyata keçirilməsi də BQXK-nin fəaliyyətinə daxildir.

Cəmiyyətin nizamnaməsinə görə, irqindən, dini və siyasi mənsubiyyətindən asılı olmayaraq hər bir kəs Azərbaycan QAC-ın üzvü ola bilər. Bunun üçün heç bir məhdudiyyət qoyulmur. Hazırda cəmiyyətin 130 min nəfərə yaxın üzvü və 12 min nəfər könüllüsü var. Cəmiyyətə üzv olmaq istəyənlər rayonlarda olan yerli təşkilatlara ərizə ilə müraciət edərək sıralarımıza qoşula bilərlər. Azərbaycan QAC həm də Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının iştirakçılarından biridir. Məlumdur ki, QAC tək müharibə və təbii fəlakətlər zamanı deyil, həmin hadisələrdən xeyli ötdükdən sonra da onların qurbanlarını axtarır, qohumların qovuşmasına çalışır... Cəmiyyətin Beynəlxalq Axtarış Xidməti cinayətkarların tapılmasından başqa bütün axtarışlarla məşğuldur. Yəni, fövqəladə hadisələr, müharibələr və miqrasiya zamanı itkin düşmüş insanların tapılması, ailələrin bir-birinə qovuşmasına çalışır. Eyni zamanda, bu xidmət Stalin repressiyası, I və II Dünya müharibələri zamanı itkin düşən insanların axtarışı ilə məşğuldur. Hərbi əsirlərin dəfn olunduğu məzarların tapılması və bununla bağlı digər dövlətlərdən sorğu əsasında arxiv sənədlərinin toplanıb ərizəçiyə təqdim edilməsi də Axtarış Xidmətinin fəaliyyətinə daxildir.

Hazırda QAC-da sanitar yardım və fövqəladə hallarla bağlı işlərə daha böyük əhəmiyyət verilir.

Azərbaycanın Qırmızı Aypara Cəmiyyətindən verilən məlumata görə, 1992-ci ildən indiyə kimi Azərbaycan Qızıl Aypara Cəmiyyəti Qarabağ münaqişəsi nəticəsində öz doğma yurdlarından didərgin düşmüş bir milyondan artıq qaçqın və məcburi köçkünün, bu qəbildən olan digər Azərbaycan vətəndaşlarının iztirablarının azaldılması sahəsində faydalı iş aparmışdır. Hazırda Azərbaycan Qızıl Aypara Cəmiyyəti aşağıdakı proqram və layihələri həyata keçirir: fövqəladə hallara hazırlıq və cavabvermə, ilk yardım, sağlamlıq və qayğı, təmənnasız qan donorluğu, HİV/AİDS, humanitar dəyərlər, beynəlxalq humanitar hüquq və fundamental prinsiplərin yayımı, təşkilati inkişaf, yerli komitələrin inkişafı, gənclər və kö-

nüllülər, mina risklərinin azaldılması çərçivəsində "təhlükəsiz oyun meydançaları", miqrasiya (Mobil Texniki Dəstələr), humanitar yardım, axtarış xidməti və telekommunikasiya. Bütün bu fəaliyyətlər 7 Regional Mərkəz, 85 rayon və şəhər Komitəsi və eyni zamanda "Azərpoçt" Dövlət Müəssisəsi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Dövlət İdman Akademiyası, Azərbaycan Tibb Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti və 2 saylı Bakı baza tibb məktəbinin nəzdində yaradılmış Qızıl Aypara Cəmiyyətinin Komitələri vasitəsilə həyata keçirilir. Cəmiyyətin 214, 248 üzvü və 16, 224 könüllüsü var.

Beynəlxalq Qırmızı Xaç və Qızıl Aypara Hərəkatının tərkib hissəsi olan Azərbaycan Qızıl Aypara Cəmiyyəti hər il Ümumdünya Qırmızı Xaç və Qızıl Aypara gününü qeyd edir.

Prezident İlham Əliyev "Qızıl Aypara gününün təsis edilməsi haqqında" sərəncam imzalayıb. Sərəncamda deyilir ki, münaqişə qurbanlarına, fövqəladə hallar nəticəsində zərər çəkmiş insanlara humanitar yardım və sosial xidmətlərin göstərilməsi sahəsində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin səmərəli fəaliyyəti nəzərə alınıb. Beləliklə, Sərəncama görə hər il martın 10-u Qızıl Aypara Günü kimi qeyd olunacaq.

Ədəbiyyat

Azərbaycan Pespublikası Prezidenti.Qızıl Aypara Gününün təsis edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 7 aprel 2008-ci il //Azərbaycan.-7 aprel.-2008.-S.1.

Pikte, J. Beynəlxalq Humanitar hüququn inkişafı və prinsipləri.- B.: Siyasət, 1999.-129 s.

Bayramov, D. Azərbaycan Qızıl Aypara Cəmiyyəti xeyirxah məqsədlərə xidmət edir //Azərbaycan.-2004.- 7 fevral.- S. 4.

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara hərəkatının əlaqə emblemi qəbul edilmişdir //Azərbaycan.-2005.-11 dekabr.- S.11.

İnternet

anspress.com
bizimasr.media-az.com/
www.meclis.gov.az

Nailə Alışova

Mart

10

75 illiyi

İbrahimxəlil İbrahimxəlilov 1934 Riyaziyyatçı

İbrahimxəlilov

İbrahimxəlil Şixəhməd oğlu İbrahimxəlilov 1934-cü ilin mart ayının 10-da Qusar rayonunun Əniq kəndində anadan olmuşdur. 1952-ci ildə Əniq kənd orta məktəbini bitirmişdir.

1954-cü ildə ikiillik Quba Müəllimlər İnstitutunun Fizika-riyaziyyat fakültəsini bitirib, həmin ildə Azərbaycan Dövlət Universitetinin Riyaziyyat fakültəsinə daxil olmuşdur. 1959-cu ildə ali məktəbi müvəffəqiyyətlə başa vurmuşdur.

1958-1959-cu illərdə Bakı şəhərinin 129 və 66 saylı orta məktəblərində riyaziyyat müəllimi işləmişdir.

O, 1959-1960-cı illərdə Azərbaycan Elmlər Akademiyasının (indiki Milli Elmlər Akademiyası) Riyaziyyat və Mexanika İnstitutunda, 1960-cı ildən isə Elmlər Akademiyasının Hesablama Mərkəzində kiçik elmi işçi vəzifəsində çalışmışdır. İşlədiyi müddətdə İ.İbrahimxəlilov özünü bacarıqlı bir riyaziyyatçı kimi göstərir və həmin hesablama mərkəzi tərəfindən təhsilini davam etdirmək üçün Kiyev şəhərinə aspiranturaya göndərilmişdir. 1960-cı ildə o, T.Q. Şevçenko adına Kiyev Dövlət Universitetinin "Ehtimal nəzəriyyəsi və riyazi statistika" ixtisası üzrə məqsədli aspiranturaya daxil olur. "Parametrlərin qiymətlərini tapmaq üçün bəzi üsullar" adlı ilk elmi məqaləsi ilə 1963-cü ildə Tbilisi şəhərində "Ehtimal nəzəriyyəsi və riyazi statistika üzrə VII Ümumittifaq Konfransı"nda çıxış edir və bu məqalə konfransın materiallarında çap olunur.

İ.İbrahimxəlilov 1964-cü ildə Ukrayna SSR Elmlər Akademiyasının Riyaziyyat, Kibernetika, Baş Astronomik Observatoriyası İnstitutlarının birləşmiş Elmi Şurasında "Təsadüfi kəmiyyətlərin paylama parametrlərini qiymətləndirmək üçün bəzi üsullar" mövzusu üzrə namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir.

İbrahimxəlil müəllim 1977-ci ildə Ukrayna Elmlər Akademiyasının Riyaziyyat İnstitutunun Elmi Şurasında "Qauss paylamaları sinfinin parametrləri üçün mötəbər qiymətlər" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək, elmlər doktoru elmi dərəcəsini almışdır.

İ.İbrahimxəlilov Ehtimal nəzəriyyəsi və riyazi statistika sahəsində Respublikamızda birinci elmlər doktoru və professordur. O, 1978-ci ildən Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun (indiki İqtisad Universiteti) "Ali Riyaziyyat" kafedrasının professorudur. Bundan əlavə İ.İbrahimxəlilov Bakı Dövlət Universitetində, Azərbaycan Dövlət Pedaqoji Universitetində, Azərbaycan Dövlət Neft Akademiyasında və başqa ali məktəblərdə işləmiş və indi də institutlarda işləyir.

O, dəfələrlə ABŞ-ın Miçiqan Dövlət Universitetinə dəvət olunmuşdur.

İ.İbrahimxəlilovun ilk kitabı "Təsadüfi proseslərin parametrlərinin mötəbər qiymətlərinin dəyanətliyi" adlanır. 1980-cı ildə Kiyevdə çap olunmuşdur.

İ.İbrahimxəlilov 1988-ci ildə Daşkənddə keçirilən "Bernuli adına riyazi statistika və ehtimal nəzəriyyəsi I Ümumdünya Konqresi"ndə "Qauss prosesləri statistikasının bir problemi haqqında" adlı elmi məruzə ilə çıxış etmişdir.

İ.İbrahimxəlilov bir çox beynəlxalq konfranslarda iştirak etmiş və elmi məruzələrlə çıxış etmişdir. O, riyazi statistika üzrə monoqrafiya, elmi-metodiki vəsaitlər, 100-dən artıq elmi-kütləvi məqalənin müəllifidir, o cümlədən 40-a qədər əsəri xarici ölkələrdə çap olunmuşdur.

O, dəfələrlə Azərbaycan Elmlər Akademiyasının müxtəlif institutlarının ixtisaslaşdırılmış elmi şuralarının üzvü, həmçinin Bakı Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsinin və Tətbiqi-riyaziyyat fakültəsinin Elmi Şuralarının üzvü olmuşdur.

Hazırda görkəmli alim Azərbaycan Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunun və Bakı Dövlət Universitetinin Birləşmiş doktorluq dissertasiya müdafiə şurasının üzvüdür.

Ədəbiyyat

Təsadüfi proseslərin parametrlərinin mötəbər qiymətlərinin dəyanətliyi.- Kiyev, Dumka, 1980.-190 s.-(Rus dilində).

Öləsgərov, B. Riyaziyyatçı alim //İqtisadiyyat.- 2004.- 26 sentyabr.- S. 5.

Öləsgərov, B. Axıxdan başlanan yol //Azərbaycan müəllimi, 2004.- 9 aprel.- S. 3.

Öləsgərov, B. Tanınmış alim //Samur.- 2004.- 25 may.- S. 4.

Öləsgərov, B. Ömrünü rəqəmlərə həsr edən alim //Həftə.- 2004.- 4 aprel.- S. 5.

Bəybala Öləsgərov

Mart

14

130 illiyi

Albert Eynşteyn
1879-1955

Alman fiziki



Alman fiziki Eynşteyn Albert 1879-cu il 14 mart Almaniyanın Ulm şəhərində mühəndis ailəsində anadan olmuşdur. 1913-cü ildə Prussiya EA-nın üzvü, keçmiş SSRİ EA-nın fəxri üzvü olmuş (1927), Nobel mükafatı laureatı adına layiq görülmüşdür (1921). 1893-də Eynşteyn İsveçrəyə köçmüş, Sürix Politexnik İnstitutunu bitirmişdir (1900). Bern patent bürosunda üçüncü dərəcəli ekspert vəzifəsinə təyin olunmuşdur (1902-1909). 1909-1911-ci illərdə Sürix İnstitunun professoru, 1911-1912-ci illərdə Praqadakı Alman Universitetinin Nəzəri-fizika kafedrasının müdiri, 1914-cü ildə Berlin Universitetinin Fizika İnstitutunun direktoru vəzifələrində çalışmışdır.

Eynşteynin mühüm əsərləri molekulyar fizika, statistik fizika, kvant nəzəriyyəsi, nisbilik nəzəriyyəsi sahələrinə aiddir. A.Eynşteyn broun hərəkətinin nəzəriyyəsini vermiş (1905) və bu nəzəriyyə sonralar materiyanın atomustik quruluşunu təsdiq edən təcrübələr aparmağa imkan yaratmışdır. O, işığın kvant (foton) nəzəriyyəsini yaratmış və onun əsasında fotoeffektin (1905), lüminessensiyanın və fotokimyəvi proseslərin qanunauyğunluqlarını izah etmişdir.

Eynşteynin ən mühüm elmi nailiyyəti-nisbilik nəzəriyyəsidir. Bu ona dünya şöhrəti qazandırmışdır. İstedadlı alim ümumi nisbilik nəzəriyyəsini inkişaf etdirərək vahid sahə nəzəriyyəsini yaratmağa cəhd göstərmişdir. Xüsusi nisbilik nəzəriyyəsi müasir elementar zərrəciklər nəzəriyyəsində və nüvə fizikasında, ümumi nisbilik nəzəriyyəsi isə astronomiyaya və kosmologiyaya aid problemlərin həllində mühüm rol oynayır. Almaniyada Hitler hakimiyyət başına gəldikdən sonra Eynşteyn ABŞ-a köçmüş və ömrünün axırına kimi Prinstondakı Fundamental Tədqiqatlar İnstitutunda işləmişdir. Hitler rejiminə etiraz əla-

məti olaraq Eynşteyn Prussiya EA üzvlüyündən imtina etmişdir. O, Sülh uğrunda fəal mübariz, atom enerjisindən hərbi məqsədlər üçün istifadə etməyin əleyhinə çıxmışdır. Eynşteyn 1955-ci il aprelin 18-də ABŞ-ın Prinston şəhərində vəfat etmişdir.

Ədəbiyyat

Собрание научных трудов в 4- том. - М.: Наука, 1967.

Физика и реальность.- М.: Наука, 1965.-359 с.

Эвалюция физика. Развитие идей от первоначальных понятий до теории относительности и квантов.- М.: Мол. Гвардия, 1966.- 267 с.

Пайс, А. Научная деятельность и жизнь А.Эйнштейна.- М.: Наука, 1989.- 566 с.

Бунтарь /пер. с англ. Н.И. Войскунской, И.С . Хорола.- М.: Прогресс, 1983.- 216 с.

дня рождения.- М.: Мир, 1979.-592 с.

Хофман, Б. Альберт Эйнштейн: творец и

Альберт Эйнштейн и теория гравитации: Сб. статей: (К 100- летию со

Эйнштейн и современная физика: Сб. статей.- М.: Знание, 1979. - 80 с.

Jalə Məmmədova

Mart

15

95 illiyi

Məmməd Quliyev
1914-2001

Aktyor

Quliyev Məmməd Allahverdi oğlu 1914-cü il mart ayının 15-də Naxçıvanda anadan olmuşdur. 1943-cü ildən C.Məmmədquluzadə adına Naxçıvan Musiqili Dram Teatrında aktyor kimi fəaliyyətə başlamışdır. Səhnə fəaliyyətinin ilk illərində dram tamaşaları ilə yanaşı, opera və musiqili komediyalarda çıxış etmişdir.

Aktyor 1974-cü ildə Azərbaycan SSR Xalq artisti adına layiq görülmüşdür.

Məmməd Quliyev N.Nərimanovun "Nadir şah" əsərində Təhmas şah, H.Cavidin "Şeyx Sənan" əsərində dərviş, "Səyavuş" əsərində Rüstəm, S.Vürğunun "Vaqif" əsərində İbrahim xan, "Fərhad və Şirin" əsərində Fərhad, K.Qoldoninin "Mehmanxana sahibəsi" əsərində Rippafrata obrazlarını məharətlə oynamışdır.

M.Quliyev 2001-ci il sentyabr ayının 11-də Naxçıvanda vəfat etmişdir.

Ədəbiyyat

İmanov, Ə. Gözəl xarakterlər ustası: [Naxçıvan MSSR-in aktyoru Məmməd Quliyevə Azərbaycan SSR-in Xalq artisti fəxri adı verilməsi münasibəti ilə] //Şərq qapısı.-1974.-23 iyun.

Naxşıvan Ensiklopediyası .-Bakı.- Azərbaycan Milli Elmlər Akademiyası.-2002.-S.285.

Mətanət İbrahimova

Mart

15

110 illiyi

Məmmədəli Vəlixanlı
1899-1969

Aktyor

Məmmədəli Hacı Heydər oğlu Vəlixanlı 1899-cu il martın 15-də Bakının Fatmayı kəndində anadan olmuşdur. Kiçik yaşlarından mərasim oyunlarına, xalq teatrı tamaşalarına, şəbehlərə maraq göstərmişdir. Onun bu marağı görkəmli səhnə ustası Cahangir Zeynalovun nəzərini cəlb etmişdir.

"Səfa" cəmiyyəti nəzdindəki məktəbdə təhsil alan Məmmədəli Vəlixanlı 1911-ci ildə C.Zeynalovun hazırladığı "Hacı Qara" tamaşasında Bədəl rolunun ifası ilə səhnə fəaliyyətinə başlamışdır. Bu kiçik rolda böyük müvəffəqiyyət qazanan Vəlixanlı bir sıra tamaşalarda müxtəlif rollar oynamışdır.

O, 1922-ci ildən Azərbaycan Dövlət Dram Teatrında işləmiş, 1930-cu ildə Bakı Teatr Texnikumunu bitirmişdir. Aktyorun yaradıcılığı iki istiqamətdə inkişaf edirdi. O, dramatik xarakter daşıyan rollarla yanaşı, eyni zamanda komediya tamaşalarında da cıxış etmişdir.

M.Vəlixanlı Azərbaycan Musiqili Komediya Teatrının yaradıcılarından biri olmuşdur. Teatrda işlədiyi illər ərzində istər müasirlərimizin, istərsə də klassiklərimizin əsərlərində bir sıra maraqlı obrazlar yaratmışdır. O, H.Cavidin "Səyavuş" əsərində Əmrah, H.Mehdinin "Cavanşir"ində Saran, S. Vurğunun "Həyat" pyesində Qurbanəli, S.Rəhmanın "Xoşbəxtlər" əsərində Mirzə Qərənfil, "Nişanlı qız"da Mindilli, "Əliqulu evlənir"də Xəlil, M.S.Ordubadinin "Dumanlı Təbriz"ində Dərviş, S.Rüstəmin "Qaçaq Nəbi" əsərində Mürsəl kişi, M.F.Axundovun "Lənkəran xanının vəziri" əsərində vəzir, N.Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" pyesində Hacı Qəmbər, C.Cabbarlının "Almas" əsərində Ocaqqulu obrazlarını özünəməxsus ustalıq və sənətkarlıqla oynamışdır.

Şekspir yaradıcılığı başqa aktyorlar kimi M.Vəlixanlının da sənə-

tindən yan keçməmişdir. O, "Maqbet", "On ikinci gecə, yaxud hər nə istəsəniz", "Qış nağılı" pyeslərində yadda qalan obrazlar yaratmışdır.

Azərbaycanda kino sənətinin inkişafında da M.Vəlixanlı böyük xidmət göstərmiş,"Görüş" (1956), "Mahnı belə yaranır" (1959) və s. filmlərdə çəkilmiş, müxtəlif rollarda bir-birindən maraqlı obrazlar yaratmışdır.

M.Vəlixanlı Azərbaycan teatrında ən ustad sənətkarlardan biri olmuşdur. Onun sənəti yüksək qiymətləndirilmiş, dəfələrlə orden və medallarla təltif edilmiş, Respublikanın Xalq artisti (1949) kimi şərəfli ada layiq görülmüşdür.

M.Vəlixanlı 1969-cu il aprelin 12-də vəfat etmişdir.

Ədəbiyyat

Kazımov, M. M.Vəlixanlı.- B.: Azərbaycan Teatr Cəmiyyəti, 1961.- 60 s.

Vəlixanlı Məmmədəli //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- B., 1977.- C.IL- S. 463.

Sabirqızı, F. Təkcə tamaşaçıları yox, aktyorları da güldürürdü: [Xalq artisti M.Vəlixanov-100] //Yeni müsavat.-1999.- 17 mart.- S.4.

Dilşad Sadıqova

Mart

16

150 illiyi

Aleksandr Stepanoviç Popov 1859-1906

İxtiraçı

Popov Aleksandr Stepanoviç 16 mart 1859-cu ildə Sverdlovsk vilayətinin Krosnoturinsk şəhərində anadan olmuşdur. Rus fiziki və elektrotexniki, məftilsiz elektrik rabitəsinin, (radio rabitəsinin) ixtiraçısıdır. 25 aprel 1895-ci ildə Rusiya Fizika-Kimya Cəmiyyətinin fizika bölməsinin iclasında Popov yaratdığı radiorabitə sistemini nümayiş etdirdi. Popovun rentgen şüalarının öyrənilməsinə dair işləri də bu dövrə aiddir. Popovun qəbuledicisi 1900- cü ildə Parisdə Ümumdünya sərgisində Böyük qızıl medala layiq görüldü. 1945-ci ildə SSRİ Nazirlər Sovetinin qərarı ilə 7 may Radio Günü və Popov adına "Qızıl medal" təsis edildi.

Popov A.S. 13 yanvar 1906-cı ildə Peterburqda vəfat etmişdir.

Ədəbiyyat

Böyük rus alimləri .-B., 1950

Rus dilində

А.С.Попов в характеристиках и воспоминаниях современников.-М-Л., 1958.

Бренев, И.В. А.С. Попов и радио.- М., 1976.

Бренев, И.В. Начало радиотехники в России.-М., 1970.

Изобретение радио А.С.Попов. Документы и материалы.-М., 1966.

Elmira Kazımova

Mart

19

Dəmir Gədəbəyli

70 illiyi

1939

Şair



Şair, ədəbiyyatşünas, tərcüməçi Qasımov Dəmir Müseyib oğlu 1939-cu il martın 19-da Gədəbəy rayonunun Ataxal kəndində müəllim ailəsində anadan olmuşdur. Orada-Böyük Qaramurad kənd orta məktəbində (1946-1956) təhsil almış, sonra ADU-nun Filologiya fakültəsini (1956-1961) bitirmişdir. Əmək fəaliyyətinə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin tarixi verilişlər baş redaksiyasında müxbir kimi başlamışdır. Hazırda "Təfəkkür" Universitetinin Filologiya fakültəsində dosent vəzifəsində çalışır. Ədəbi aləmə 1965-ci ildə Gədəbəy rayon qəzetində çıxan "Məktəb" şeiri ilə daxil olmuşdur. Həmin vaxtdan respublikanın dövri mətbuatında müntəzəm çıxış edir. "Azərbaycan sovet poeziyasında qoşma janrı" mövzusunda namizədlik dissertasiyasını 1975-ci ildə, "Azərbaycan xalq dastanlarının poetikası" mövzusunda doktorluq dissertasiyasını isə 1987-ci ildə müdafiə etmişdir. Keçmiş SSRİ və xarici ölkə xalqları ədəbiyyatından tərcümələr etmişdir. Son dövr hadisələri onun "Bu qəm sənə sığmaz dünya", "Azərbaycan harayı", "Əsgər anası" və s. mahnılarında ifadəsini tapmışdır. Onun üç yüzdən artıq şeirinə mahnı bəstələnmişdir. "Molodaya qvardiya" jurnalında silsilə şeirləri dərc edilmişdir (1974).

Ədəbiyyat

Abdal oğlu.- B.: Nurlan, 2004.- 178 s.

Xalqın Heydər babası.- B.: Caşıoğlu, 2004.- 20 s.

Tuğ harayı: Poema və şeirlər.- B.: Təfəkkür.- 2001.-58 s.

Gülanə Quliyeva

Mart

20-21

Novruz Bayramı



Novruz - bir bayram kimi baharın gəlməsi münasibətilə geniş miqyasda qeyd olunur və sevincli bir hala - qışın qurtarmasına və baharın gəlişinə həsr olunur. Nizami özünün "İskəndərnamə" poemasında Nüşabənin İskəndəri mədh edən Novruz bayramında qonaq çağırmasından, tonqal qalamasından və süfrəyə cürbəcür nemətləri qoymasından bəhs edir. Novruz bayramını qeyd etmək təzə ili, baharın ilk gününü qarşılamaq deməkdir. Təqvimdə baharın ilk günü isə günəşin bir illik fırlanması ilə əsaslanır.

Alimlərin fikrincə bu bayramın tarixi çox qədimdir. QədimVavilonada bu bayram Nisanın (mart, aprel) 21-ci günü qeyd olunurdu və 12 gün davam edirdi. Bununla belə bu 12 günün hər birisinin öz ritualları (mərasim, ayin), öz əyləncələri mövcud idi. İlk yazılı mənbədə qeyd olunur ki, Novruz bayramı bizim eradan əvvəl 505-ci ildə yaranmışdır.

İslam xadimləri bu bayrama həmişə dini rəng verməyə çalışıblar. Ancaq Novruzun islamdan da əvvəl yaranmasına görkəmli maarifçilərdən Firdovsi, Rudaki, Avisenna, Nizami, Sədi, Hafiz və başqaları da təsdiq edirlər.

Novruz bayramının yaranması tarixinə həsr olunmuş yazılardan Nizaminin "Siyasətnamə"sini, Ömər Xəyyamın "Novruznamə" sini və başqalarını qeyd etmək olar. Sovet dövründə Novruz qeyri-rəsmi qeyd olunurdu, çünki hökumət orqanları buna icazə vermirdilər və insanları təqib edirdilər. Ancaq bütün bunlara baxmayaraq, əsrlərdən qalmış ənənələrə sadiq qaolaraq, hər bir azərbaycanlı ailəsi bu bayramı qeyd edirdi.

Təbiətin, həyatın oyanması Novruzdan başlanır və Azərbaycan xalqı bunu çox təntənəli və həm də hələ bir ay əvvəldən qeyd etməyə başlayır. Belə ki, hər həftənin üçüncü günləri Su Çərşənbəsi, Od Çərşənbəsi, Külək, Torpaq Çərşənbəsi günləri qeyd olunur. Xalq mövhumatına əsasən birinci çərşənbə günü su və su mənbələri təzələnir və hərəkətə gəlir, ikinci çərşənbə od, üçüncü çərşənbə yer, dördüncü çərşənbə küləyin köməyilə ağaclar cücərir və baharın gəlməsindən xəbər verir. Xalq arasında elə təsəvvür yaranır ki, külək sudan da,

oddan da, yerdən də güclüdür.

Çərşənbələrin içində ən vacibi axır çərşənbə axşamıdır və əsas qəziyyələr onda başlanır. Həmin gün qədim ənənələrlə zəngin olur, bütün həyat tərzini əhatə edən, təzə ilə xoş arzular, ailəyə səadət, xoşbəxtlik və bütün bədbəxtliklərdən uzaq olmaq arzulanır. Bütün evlərdə bayram süfrəsi açılır. Cürbəcür yeməklər, əsasən aş, şirniyyatlar: paxlava, şəkərbura, şəkərçörək, şorqoğal, badambura və s. hazınlanır. Bayram süfrəsində bayram xonçasının olması vacibdir. Xonçanın ortasında səməni, hər ailə üzvünə şam, boyadılmış yumurta qoyulur. Süfrədə yeddi növ yemək olmalıdır. Həmin gün hamı öz evində olmalıdır, ancaq uşaqlar ata-analarına baş çəkib, yenə də evə qayıtmalıdırlar.

Həmin qədim ənənələr, oyunlarla zəngindir. Qədim ənənələrdən "Xıdır İlyas" (məhsuldarlıq, çiçəklənmə rəmzi), "Koskosa"– meydan məzəli oyunu (baharın gəlməsi rəmzi) və falabaxmanı qeyd etmək olar. Su və odla bağlı maraqlı ənənələr var. Azərbaycan bir odlar ölkəsi kimi, odla bağlı zəngin ənənələrə malikdir və bu saflaşma, təmizlənmə əlamətidir. Tonqallar qalanır və Novruzdan əvvəl axırıncı çərşənbədə yaşından və cinsindən asılı olmayaraq, hamı tonqalın üstündən tullanmalıdır, özü də yeddi dəfə, ya bir tonqalın üstündən yeddi dəfə və ya yeddi tonqalın hərəsinin üstündən bir dəfə. Tullanmaqla bərabər bu sözlər deyilir: "Sarılığım sənə, qırmızılığın mənə". Tonqal heç vaxt su ilə söndürülmür. Tonqal özü sönəndən sonra cavan oğlan və qızlar həmin tonqalın külünü yığıb, evdən kənar bir yerə, çölə atırlar. Bu o deməkdir ki, tonqalın üstündən tullanan bütün ailə üzvlərinin bədbəxtçiliyi atılan küllə birlikdə ailədən uzaqlaşdırılır.

Su ilə saflaşma isə suyun real əlamətilə əlaqədardır. Su ilə əlaqədar olan ənənələr Azərbaycanda təzə illə bağlıdır. Təzə ildə axar suyun üstündən tullanmaqla, keçən ilin günahlarını yumuş olursan. Bundan başqa bütün ailə üzvləri ötən ilin axırıncı gecəsi, yatmazdan əvvəl biri-birinin üstünə su çiləyirlər. Deyilənə görə axırıncı çərşənbə gecəsi bütün

axar sular dayanır və hamı ona səcdə edir, hətta ağaclar da yerə əyilir. Əgər təzə il axşamı hər kəs bu sudan içərdisə, onlar Təzə ildə bütün xəstəliklərdən uzaqlaşırdılar.

Novruzun ən yüksək zirvəsi köhnə il öz səlahiyyətlərini təzə ilə verəndə olur. Bu anda köhnə ənənəyə görə Novruzun şərəfinə top və tüfənglərdən yaylım atəşləri açılır. Hələ XIX əsrdə N.Dubrovin bu haqda belə yazmışdır:

"Azərbaycanda Baharın gəlməsini şəhər və kəndlərdə açılan yaylım atəşləri bildirirdi". Azərbaycanda Novruz bayramı təntənəsinin iştirakçısı olan Adam Olearіy hələ 1637-ci ildə yazırdı: "Münəccim (astroloq) tez-tez arxasından qalxaraq, astronomik cihaz və gü-

nəş saatı vasitəsilə günəşin hündürlüyünü təyin edərək, gündüzlə gecənin bərabərləşdiyi anda elan etdi: "Təzə il gəldi" və elə bu anda yaylım atəşləri başlandı, şəhərin qüllələrindən və divarlardan musiqi sədaları ucaldı. Beləliklə, Bahar bayramı başlandı."

Azərbaycanlılar bayram süfrəsinə ciddi diqqət yetirirlər. Süfrədə yeddi növ təam olmalıdır ki, adları da "S" hərfi ilə başlayır. Sumax, sirkə, süd, səməni, səbzi və s. olmalıdır. Bunlardan başqa süfrəyə güzgü və şamlar qoyulur, güzgünün üstünə boyanmış yumurtalar düzülür. Bunların da öz rəmzi mənası var: şam od, işıq deməkdir, hansı ki, insanı bədnəzərdən qoruyur, güzgü aydınlıq rəmzidir. Ənənəyə görə bayramın ilk günü hamı evdə olmalıdır.

Xalq arasında deyirlər: "Əgər bayram günü evdə olmasan, yeddi il dərbədər olacaqsan." Bir qayda olaraq, çöl qapıları bağlanmırdı. Təzə ilin birinci günü bütün gecə işıqlar söndürülmür, sönmüş od, işıq bədbəxtçilik əlamətidir.

Novruzu qeyd edərkən kəndlilər təzə ilin necə keçməyini: quru və yaxud yağmurlu, məhsuldarlığın dərəcəsini təyin edirdilər. Ənənəyə görə Novruzun birinci günü – yaz, ikinci – yay, üçüncü – payız, dördüncü gün isə - qış sayılır. Əgər birinci gün küləksiz və yağmursuz olarsa, deməli bu yaz kənd təsərrüfatı işləri üçün əlverişli olacaq. Əksinə yağmurlu, küləkli olsa, deməli bütün yaz belə olacaq. Qalan üç gündə də yayın, payızın və qışın necə olacağı təyin olunurdu.

Novruz şən və sevimli bayramdır, xalqımızın bütün varlıqlarını özündə cəmləşdirən bayramdır.

Ədəbiyyat

Bakıda Novruz bayramı münasibətilə ümumxalq şənliyi: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi //Azərbaycan.- 2008.- 19 mart.- S.1-2.

Qocayev Y. Novruz bayramı /Bayramlar və tarixi günlər.–B., 2006.- S. 14.

Allahyarov, K. Novruzun ən qədim qaynaqları //Azərbaycan.-2005.-20 mart.- S. 5.

Bünyadov, T. Novruz bayramının tarixi kökləri //Tarix insan və cəmiyyət.-2006.- №1.- S. 12-14.

Rus dilində

Алиев, И. Речь Президента Азербайджана Ильхама Алиева на всенародном празднестве в Баку по случаю Новруз байрамы //Бакинский рабочий.-2008.-19 марта.-С.2.

Зейналоглы, Г. Новруз-праздник весны, новшества, веселья //Голос Карабаха.-2005-22 марта.-С.-5.

Nailə Alışova

Mart

20

130 illiyi

Hüseynqulu Sarabski
1879-1945

Aktyor

Müğənni (lirik tenor), aktyor, rejissor, pedaqoq, teatr xadimi H.Sarabski 20 mart 1879-cu ildə Bakı şəhərində dənizçi ailəsində anadan olmuşdur. Kiçik yaşlarından matros, daşyonan, palçıqdaşıyan və s. işləmişdir. Səhnə fəaliyyətinə 1902-ci ildə Bakıda Nəriman Nərimanovun "Dilin bəlası" pyesindəki Rəsul rolu ilə başlamış, sonralar Məstəli şah ("Müsyö Jordan və dərviş Məstəli şah" - M.F.Axundov), Fərhad ("Dəmirçi Gavə"- Ş.Sami), Fəxrəddin (Müsibəti-Fəxrəddin"- H.B.Vəzirov), Qurban, Nəcəf bəy ("Pəri cadu", "Dağılan tifaq"- Ə.B.Haqverdiyev), Lyapkin-Tyapkin ("Müfəttiş" - N.Qoqol) və s. rolları ifa etmişdir.

Azərbaycan operasının yaranması və inkişafında Sarabskinin böyük xidməti olmuşdur. O, 1908-ci ildən "Nicat" Maarif Cəmiyyəti nəzdindəki opera truppasının solisti olmuş, həmin il ilk Azərbaycan operası "Leyli və Məcnun"da (Ü.Hacıbəyov) Məcnun partiyasını müvəffəqiyyətlə oxumuşdur. Digər milli opera və operettalarda da əsas partiyaları ilk dəfə Sarabski ifa etmişdir.

1910-cu ildən H.Sarabski rejissor kimi fəaliyyət göstərmiş, Ü.Hacıbəyovun "Rüstəm və Söhrab" (1910), "Ər və arvad" (1910), "Arşın mal alan" (1913), C.Məmmədquluzadənin "Ölülər" (1916) əsərlərini tamaşaya qoymuşdur.

Gözəl səsə malik istedadlı müğənni Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında, A.Zeynallı adına Bakı Musiqi məktəbində muğam sənətindən dərs demişdir. Ölkəmizin bir çox artist və xanəndələri onun tələbəsi olmuşdur.

İncəsənət sahəsində uzunmüddətli və səmərəli fəaliyyətinə görə H.Sarabski 1922-ci ildə Azərbaycan SSR Əməkdar artisti, 1932-ci ildə isə Azərbaycan SSR Xalq artisti fəxri adına layiq görülmüşdür. O, "Qırmızı Əmək Bayrağı" ordeni və

medallarla təltif olunmuşdur.

H.Sarabskinin hərtərəfli istedadı ədəbi yaradıcılıq sahəsində də özünü göstərmişdir. Onun yazdığı "Cəhalət", "Axtaran tapar", "Nə tökərsən aşına, o çıxar qaşığına" dram əsərləri tamaşaya qoyulmuşdur. O, "Azərbaycan milli kostyumu", "Azərbaycan teatr tarixinin oçerkləri", "H.Ərəblinskinin tərcümeyi-halı", "Bir aktyorun xatirələri", "Köhnə Bakı" əsərlərinin, eyni zamanda "Dağlar", "Muğan" kimi populyar mahnıların müəllifidir.

Görkəmli teatr xadimi 1945-ci il fevral ayının 6-da vəfat etmişdir.

Ədəbiyyat

Köhnə Bakı.– B.: Şərq-Qərb, 2006. – 143 s.

Dünyamalıoğlu, F. Bir soyun iki nümayəndəsi: Ulu baba Sarabski: [Rzayev-Sarabski İsfar Aydın oğlunun söhbəti] //Mədəniyyət.– 2008.– 13 fevral. – S. 6.

Əliyev, V. Səhnəmizin ilk Məcnunu: (teatr xadimi, Xalq artisti H.Sarabskinin anadan olmasının 125 ili tamam olur) //Xalq qəzeti. – 2004.– 24 mart.– S. 7.

Quliyeva, Z. Hüseynqulu Sarabski anıldı: [H.Sarabskinin 125 illiyi münasibətilə] //Azərbaycan. – 2004.– 23 aprel.– S. 8.

Salmanov, R. H.Sarabskinin yubileyi qeyd olundu //Xalq qəzeti.– 2004.- 18 iyun. – S. 8.

Səmayə Quliyeva

Mart

22

90 illiyi

İsmayıl Şıxlı 1919-1995

Yazıçı

İsmayıl Şıxlı ədəbi-mədəni həyatımızda, ictimai-bədii fikir tariximizdə özünəməxsus yeri və mövqeyi olan görkəmli sənətkardır. İsmayıl Qəhrəman oğlu Şıxlı 1919-cu il mart ayının 22-də Qazax rayonunun İkinci Şıxlı kəndində ziyalı-müəllim ailəsində doğulmuşdur. İlk təhsilini Qazax rayonunun Kosalar kənd məktəbində almışdır. Atasının sənətinə olan marağı onu tezliklə Qazax Pedaqoji Texnikumuna gətirir. 1936-ci ildə texnikumu bitirən İsmayıl Kosalar kənd orta məktəbində müəllim kimi çalışmağa başlamışdır. Kənddə iki il müəllim işlədikdən sonra 1937-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Dil-ədəbiyyat fakültəsinə daxil olur. Qaynar tələbəlik həyatı ilk günlərdən onun həssas və romantik təbiətinə öz təsirini göstərməyə başlayır. Ədəbi- bədii gecələr, görüşlər, Səməd Vurğun, Mehdi Hüseyn, Əbülhəsən kimi sənətkarlarla təmas onun ədəbi-bədii təsəvvür dairəsini genişləndirir. 1938-ci il 24 noyabrda "Ədəbiyyat qəzeti"ndə "Quşlar" adlı ilk şeiri çapdan çıxır.

1941-ci ildə İsmayıl Şıxlı institutu bitirərək ali təhsilli ədəbiyyat müəllimi kimi Qazax rayonuna gəlir. Birinci Şıxlı, Daş Salahlı və Kosalar kəndlərində müəllim, dərs hissə müdiri və direktor vəzifələrində işləyir.

1942-ci il sentyabrın 15-də İsmayıl Şıxlı cəbhəyə gedir. Müharibənin sonunadək Bətəni uğrunda alman faşistlərinə qarşı vuruşur.

1945-ci ilin noyabrında cəbhədən qayıdan ədib 1946-cı ildə Azərbaycan Pedaqoji İnstitutunun ədəbiyyat ixtisası üzrə aspiranturasına daxil olur və yaradıcılığını davam etdirir. Müharibə mövzusunda "Həkimin nağılı", "Döyüşdən sonra", "Konserv qutuları", "Kerç sularında" hekayələrini yazır, 1947-ci ildə ilk hekayəsi "Həkimin nağılı" "İnqilab və mədəniyyət" jurnalında çapdan çıxır. İsmayıl Şıxlı ayrı-ayrı mətbuat səhifələrində nəşr edilmiş hekayələri toplayıb 1950-ci ildə

“Kerç sularında “ kitabına daxil edir.

Yazıçı yaradıcılığının ilk mərhələlərində oçerk janrına meyl göstərmiş və “Qazaxdan məktublar” başlıqlı oçerkləri mətbuatda silsilə şəklində çap olunmuşdu.

1949-cu ildən institutun ədəbiyyat fakültəsində baş müəllim işləyən İsmayıl Şıxlı 1954-cü ildə “Xalq yazıçısı Mehdi Hüseynin həyat və yaradıcılığı” mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi adını alır.

İsmayıl Şıxlını bir nasir kimi daha çox müasir həyat problemləri maraqlandırır. 50-ci illərdə yazdığı lirik-epik səpkili ilk romanı “Ayrılan yollar”da, Azərbaycan kəndinin koloritli mənzərəsini canlandırır.

İ.Şıxlı milli ədəbiyyatımıza adi, sıravi əsgərin cəbhə həyatı və fəaliyyətinə aid gündəlik formasında ilk əsər gətirən yazıçıdır.

İ.Şıxlı epik növün bir çox forma və janrlarında yazıb yaratmış, əsasən mahir hekayə ustası, dəyərli “Gündəlik” müəllifi və görkəmli realist romançı kimi şöhrətlənmişdir.

Müəllifə həqiqi sənətkar şöhrəti qazandıran “Dəli Kür” tarixi romanıdır. “Dəli Kür“ Azərbaycan bədii nəsrin arsenalına daxil olmuş sanballı nümunədir. İ.Şıxlı əsərin üzərində on ildən çox işləmişdir. Mövzusu yaxın tarixi keçmişimizdən alınan romanda müəllif bütöv bir ictimai-tarixi dövrü qüvvətli xarakterlər və kəskin konfliktlərlə əks etdirmişdir.

İ.Şıxlını “Dəli Kür” romanını yazmağa sövq edən digər başlıca amil isə məşhur Qori seminariyasının mədəniyyət tarixi-mizdəki misilsiz rolu və əhəmiyyəti olmuşdur.

Fəaliyyətə orta məktəb müəllimliyindən başlamış İ.Şıxlı bir sıra vəzifələrdə çalışmış, kollektivin və dövlətin etimadını qazanmışdır. O, Azərbaycan Yazıçılar İttifaqının katibi, “Azərbaycan” jurnalının baş redaktoru, V.İ. Lenin adına APİ-nun rus və xarici ölkələr ədəbiyyatı kafedrasının müdiri və başqa vəzifələrdə çalışmış, Azərbaycan Dövlət Kinostudiyası nəzdindəki bədii şuranın, “Azərbaycan” və “Ulduz” jurnallarının redaksiya heyətlərinin üzvü kimi səmərəli fəaliyyət göstərmişdir.

İ.Şıxlının bir çox əsəri müxtəlif dillərə (rus, gürcü, bolqar, özbək, belarus, alman, ingilis, fransız, ispan) tərcümə olunmuş və geniş yayılmışdır.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası İ. Şıxlının həyat və yaradıcılığına dair biblioqrafik-ədəbiyyat göstəricisi hazırlayıb nəşr etdirmişdir (1982) .

İ.Şıxlı həm də tanınmış ictimai-siyasi xadim idi. Xalq deputatı, Millət vəkili, parlament üzvü kimi fəaliyyət göstərmişdi. Milli Məclisin yığıncaqlarında nüfuzlu ağsaqqal sözünü inamla deyir, gəldiyi başlıca qənaət və nəticələri faktlarla əsaslandırır, ümumi işə kömək edən konkret məsləhət və təkliflər irəli sürürdü. İ.Şıxlı xidmətlərinə görə “Qırmızı ulduz” (1945), “Şərəf nişanı” (1971), “Qırmızı əmək bayrağı”(1979) ordenləri, bir neçə medal və Azərbaycan Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilmişdir. Böyük və əvəzsiz xidmətlərinə görə o, Xalq

yazıçısı fəxri adına layiq görülmüşdür.

Yarım əsrdən artıq zəngin və mənalı yaradıcılıq yolu keçmiş İ.Şıxlı müasir ictimai-bədii fikrimizin, milli ədəbiyyat və mədəniyyətimizin qüdrətli simalarındandır.

Milli ədəbiyyatımızın inkişafındakı səmərəli fəaliyyəti nəzərə alınaraq o, anadan olmasının 75 illiyində Azərbaycan Respublikasının "Şöhrət" ordeninə layiq görülmüşdür. Müdrik insan, qabil pedaqoq, bütöv yaradıcı şəxsiyyət, fəal ictimai-siyasi xadim, təmiz vicdan və mənəviyyat sahibi İ.Şıxlı yaşasaydı, vətəninə hələ çox xidmətlər göstərə bilərdi.

Onun, zəngin irsi milli yaddaşımızda, ədəbiyyat və mədəniyyət tarixi mizdə silinməz iz qoyub getdi. Ölümündən az əvvəl tamamladığı bədii-mənəvi sərvət olan sonuncu "Ölən dünyam" romanı 1995-ci ildə çapdan çıxdı.

1995-ci il iyulun 26-da xalqımıza böyük itki üz verdi. İ.Şıxlı uzun sürən ağır xəstəlikdən sonra 76 yaşında vəfat etdi. Fəxri Xiyabanda dəfn edildi.

2009-cu ildə anadan olmasının 90 illiyi tamam olacaq İ.Şıxlı nəcib əməlləri, yaradıcılıq uğurları, əvəzsiz ictimai-siyasi xidmətləri ilə yaddaşlara həkk olundu, ürəklərdə məskunlaşdı, xatirələrdə qaldı və əbədiyyətə - ölməzliyə qovuşdu.

Ədəbiyyat

Seçilmiş əsərləri: 2 c.-də.- B.: Şərq-Qərb, 2005.-C.I .-408 s.; C.2 .- 400 s.

Daim axtarışda: məqalələr, publisist çıxışlar.- B.: Yazıçı, 1988.-358 s.

Dəli Kür.- B.: Pedaqogika, 2004.-350 s.

Sapı özümüzdəndir.- B.: Gənclik, 1990.-62 s.

İsmayıl Şıxlı: Biblioqrafik göstərici /tərt. R.Əhmədov.- B.: M.F. Axundov adına kitabxana, 1982.-49 s.

İsmayılov, Y. İsmayıl Şıxlı. Həyatı, mühiti, sənəti.- B.: Mətbu Evi, 1999.-221 s.

Rus dilində

Буйная Кура: Роман Исмаил Шыхлы /перевод с азерб. В. Солоухина; вступ. С. Ю. Суровцева.- Б.: Гянджлик, 1986.-336 с.

Умудлу, И. Вышла первая монография об Исмаиле Шыхлы //Зеркало.- 2000.- 9 февраля.- С. 6.

İnternetdə

www.azerbaijan.news.az
www.az-muallim.com
www.el.ans.az
www.imtahan.blogspot.com
www.google.az
www.load.az
www.old.ayna.az

Saqibə Mehrəliyeva

Mart

22

100 illiyi

Mehdi Hüseyn
1909-1964

Yazıçı

Nasir, dramaturq, tənqidçi Hüseynov Mehdi Əli oğlu 1909-cu il martın 22-də Azərbaycanın Qazax mahalının İkinci Şıxlı kəndində müəllim ailəsində anadan olmuşdur. Burada ilk təhsilini almışdır.

Mehdi Hüseynin anadan olduğu II Şıxlı kəndindəki məktəb o zaman Azərbaycanda ən nümunəvi məktəblərdən sayılırdı.

O, 1916-cı ildə məktəbə daxil olmuş və 1918 -ci ilə qədər həmin məktəbdə oxumuşdur.

Atası Əli Hüseynovu 1920-ci ildə Qazax Müəllimlər Seminariyasına işə təyin edirlər. Mehdi Hüseyn də atası ilə birlikdə Qazaxa gəlir və seminariyaya daxil olur. Həmin illərdə Səməd Vurğun və Osman Sarıvəlli də Qazax seminariyasında oxuyurdular.

Mehdi Hüseyn Qazax seminariyasını bitirə bilmir, 1925-ci ildə o, ailəsi ilə birlikdə Bakıya köçür və orta təhsilini Bakı Darülmüəllimində tamamlayır. Buranı bitirdikdən sonra 1926-cı ildə Azərbaycan Dövlət Darülfununun pedaqoji fakültəsinin tarix-ictimaiyyət şöbəsinə daxil olmuşdur.

Bakı mühiti Mehdi Hüseynin bir ədəbiyyatçı kimi yetişməsində böyük rol oynamışdır. 1930-cu ildə onu Azərbaycan Proletar Yazıçılar İttifaqına məsul katib seçirlər ki, bundan sonra Mehdi Hüseyn taleyini ömürlük ədəbiyyata bağlayır.

Mehdi Hüseyn 1937-ci ildə Moskvaya oxumağa gedir. Rus yazıçıları ilə şəxsi tanışlıq onun bir sənətkar kimi kamilləşməşində mühüm rol oynayır.

Mehdi Hüseyn ədəbiyyata "Qoyun qırxımı" (1927) hekayəsi ilə gəlmişdir. Lakin o, bu hekayədən əvvəl, hələ Qazax seminariyasında oxuduğu zaman (1920-1925) kiçik məqalələr yazırdı.

Mehdi Hüseyn 30-cu ildə "Xavər" və "Bahar

suları” hekayələr kitabçalarını nəşr etdirir.

Ədib 1931-1935-ci illərdə üç hissədən ibarət “Daşqın” romanını, “Kin” (1935) povestini və “Tərlan” (1936-1937) romanını yazır. “Tərlan” müxtəlif səciyyəli insan surətləri ilə zəngin bir əsərdir.

Mehdi Hüseyn tarixi mövzulara da müraciət etmişdir. “Komissar” (1936-1939) povesti, “Nizami” (1940-1941) və “Cavanşir” dramları tarixi mövzuda yazılmış əsərlərdir.

“Nizami” dramı Azərbaycanın böyük şairi Nizaminin həyatından bəhs edir. M.Hüseyni bu əsərdə ən çox maraqlandıran vətənpərvərlik mövzusudur. Dramaturqun qənaətinə görə, məhəbbət və vətənpərvərlik bir-birini tamamlayan duyğulardır.

Ədibin “Cavanşir” tarixi dramında əsərin qəhrəmanı öz ölkəsinin istiqlaliyyəti uğrunda yadelli qəsbkarlarla otuz il vuruşan Girdiman hökmdarı Cavanşirdir. M.Hüseyn bütün ömrü boyu xalqın azadlıq və namusu uğrunda döyüşlərə sinə gərən bir cəngavərin həyat və mübarizəsini əsərdə geniş əks etdirmişdir.

Mehdi Hüseyn Böyük Vətən müharibəsi illərində “Fəryad”, “Tunel” və “Kin”əsərlərini yazır və müharibənin dəhşətlərini göz önündə canlandırır. 1947-1948-ci illərdə dünyada məşhur olan və otuzdan çox dilə tərcümə edilən “Abşeron” romanını yazır.

Bu romanda gənc neftçilər diqqət mərkəzində dururlar.

Əsər həm bədii, həm də siyasi cəhətdən dolğun, mənəviyyatca zəngin obrazlara malik bir romandır. “Abşeron” romanı alban, çex, macar, rumın, polyak, ispan, fransız, ingilis, alman, eston, latış və bir sıra başqa dillərə tərcümə edilmişdir.

“Qara daşlar” (1954-1958) “Abşeron”un davamı olub, gərgin konfliktlər və zəngin xarakterlər romanıdır.

“Qara daşlar” romanı istər əhatə etdiyi hadisələr, istərsə də hadisələrin cərəyan etdiyi ərazi genişliyi nöqteyinəzərindən əhatəli, zəngin bir əsərdir.

Mehdi Hüseynin yaradıcılığında “Səhər”(1949-1952) romanı xüsusi yer tutur. Yazıçının bu əsərdə əsas məqsədi azərbaycanlı fəhlələrdə inqilabi şüurun oyanması prosesini təsvir etməkdir.

“Səhər” romanı istər siyasi, istərsə də bədii cəhətdən dolğun bir əsərdir.

Hərtərəfli biliyə və geniş əhatəli yaradıcılığa malik olan Mehdi Hüseyn ədəbiyyatımızın ən məhsuldar və mübariz sənətkarlarından biridir. Onun bütün elmi, tənqidi fəaliyyəti, ictimai xidmətləri və bədii yaradıcılığı Azərbaycan ədəbiyyatının təşəkkülü və inkişafı ilə bağlıdır ki, onsuz bu ədəbiyyatı təsəvvür etmək qeyri mümkündür.

Əsərləri keçmiş SSRİ və xarici ölkə xalqlarının dillərinə tərcümə edilmişdir. “Qırmızı əmək bayrağı” ordeni və medallarla təltif olunmuşdur. Onun adına Bakıda küçə, Qazax rayonunda məktəb var.

1965-ci il martın 10-da Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ədəbiyyat

Seçilmiş əsərləri: 3 cilddə /tərt.və ön sözün müəl- Zivər Həsənova.- təkrar nəşr.- B.: "Avrasiya Press" 2005.-319 s.

Hop-hop.- B.: Gənclik, 1987.-37 s.

Ədəbiyyat və həyat.- B.: Yazıçı, 1989.-512 s.

Kin.- B.: Gənclik, 1988.- 172 s.

Komissar.- B.: Gənclik, 1980.-167 s.

Səhər.- B.: Gənclik, 1989.- 615 s.

Cəfərov, N. Ədəbi döyüşlər cəngavəri: [Mehdi Hüseyn.-90 //Ədəbiyyat qəzeti.-1999.- 9 aprel.- S.3

Hüseynova, Z. Doğma, əziz, xatirələr: Mehdi Hüseyn-90 //Azərbaycan.- 1999.- 3 iyun.- S.3

Rus Dilində

Подземные воды текут в океан: Роман /пер. с азерб. Т.Колякиной.- Б.: Язычы, 1991.-133 с.

Гийасбейли, З.Н. Апшерон: Образ рабочего-нефтяника в романах

Мехти Гусейна.- Б.,1971.- С. 782.

İnternetdə

www.elchin.com.
www.bizimasr.media-az.com.
www.anl.az

www.kitab.az.
www.yeniazerbaycan.com.
www.el.ans.az.

www.az.wikipedi.org.

Saqibə Mehrəliyeva

Mart

22

95 illiyi

Lütfəli Abdullayev
1914-1973

Aktyor

Lütfəli Abdullayev 22 mart 1914-cü ildə Şəkidə anadan olmuşdur. O, doğma şəhərindəki yeddiillik məktəbi bitirdikdən sonra fəhlə gənclər klubunda həvəskar artist kimi çıxış etdiyi zaman nuxalıların rəğbətini qazanmışdır. 1928-ci ilin payızında Bakıya gələn Lütfəli Abdullayev öz sənətkarlığını artırmaq məqsədi ilə Üzevir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına daxil olmuşdur. 1938-ci ilədək Opera və Balet Teatrında işləyən Lutfəlinin yaradıcılıq inkişafı üçün həmin ildə baş vermiş bir hadisə çox mühüm rol oynamışdır. Bu da Azərbaycan hökumətinin qərarı ilə müstəqil Musiqili Komediya Teatrının təşkil olunması idi. Görkəmli sənətkar 1946-cı ildə Dövlət mükafatı laureatı, 1960-cı ildə Xalq artisti adına layiq görülmüşdür. Onun həyatı Azərbaycan Musiqili Komediya Teatrı ilə sıx bağlı olmuşdur. Lütfəli Abdullayev "Beş manatlıq gəlin" də Möhsün, "Toy kimindir"də Qoşun, "Durna"da Dursun, "Gözün aydın"da Qəhrəman kimi obrazlar yaratmışdır. Görkəmli sənətkar "Ulduz"da Məhəmməd, "Hicran"da Mitoş kimi rollar oynamış, "Arşın mal alan" (1945) "Əhməd haradadır" (1964) filmlərində çəkilmişdir. "Qırmızı Əmək Bayrağı" ordeni və medallarla təltif edilmişdir.

Lütfəli Abdullayev 1973-cü il dekabr ayının 9-da Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Babayev, A. Lütfəli Abdullayev.- B., Azərb. teatr cəm., 1966.- 47 s.

Şəhərimizin maestrosu: (Teatr xadimləri İttifaqında Xalq artisti Lütfəli Abdullayevin 90 illik yubileyinin keçirilməsi haqqında) //Şərq.– 2004.-27 mart.-S. 14.

Məlahət Həsənova

Mart

28

85 illiyi

Teymur Elçin
1924-1992

Şair

Əliyev Teymur Süleyman oğlu (Teymur Elçin) 1924-cü il martın 28-də Şuşa şəhərində anadan olmuşdur. 1931-ci ildə ailəliklə Bakıya köçmüşlər. Burada 132 saylı məktəbi bitirdikdən sonra ADU-nin Filologiya fakültəsində təhsil almışdır. (1941-1948).

Ədəbi fəaliyyətə kiçik yaşlarından başlamış, ilk şeirlərini məktəb şənliklərində oxumuşdur. Onun ilk mətbu əsəri Bakı Mərkəzi Pioner Evinin 1938-ci ildə nəşr etdiyi "Şeirlər məcmuəsi"də dərc olunan "Azərbaycan" şeiridir. Bundan sonra məktəb illərində onun dövri mətbuatda dərc edilən yazıları "Teymur Əlizadə" imzası ilə çıxmışdır. Onun bir sıra siyasi, lirik, əmək və uşaq şeirlərinə mahnılar bəstələnmişdir. "Qar qız" mənzum pyesi Gənc Tamaşaçılar Teatrında tamaşaya qoyulmuşdur. Əsərləri keçmiş SSRİ, həmçinin xarisi ölkə xalqlarının dillərində çap olunmuşdur.

Son şeir və poemaları, habelə bəstəkar Vasif Adıgözəlov ilə birlikdə yazdığı "Qarabağ" poema-oratoriyası şairin bir növ vəsiyyəti olmuşdur.

T.Elçin gözəl insan, vətəndaş şair, səmimi dost, qayğıkeş ailə başçısı idi. 1992-ci il martın 19-da uzun sürən xəstəlikdən sonra vəfat etmişdi.

Ədəbiyyat

Torağayın nəğməsi.- B.: Yazıçı, 1979 .-20 s.

Toğrul babanın nağıl ağacı.- B.: Gənclik,1982.- 62 s.

.

Bayramov, B. Uşaq ədəbiyyatı uşaq deyil: T.Elçinin yaradıcılığı haqqında //Ulduz.-1989.- .№ 4.-S.64-70.

Hacızadə, N. Nurlu ömür: Teymur Elçinin 80 illiyi münasibət ilə //Mədəni-Maarif.- 2004.- .№5.- S. 15-19

Arzu Babayeva

Mart

29

130 illiyi

Bakıda "Nobel qardaşları" şirkəti 1879

Bakı həmişə dünyanın neft maqnatlarının diqqət mərkəzində olub. 1879-cu ildən etibarən Bakıda "Nobel qardaşları" neft şirkəti fəaliyyət göstərib. Bakı neftinin böyük bir hissəsini əhatə edən bu neft şirkətinin təməlini Azərbaycanda Nobel qardaşları kimi tanınan Robert, Alfred, Lüdvik qoymuşdur. Qardaşlar arasında ən böyük səhm isə Alfred Nobelə məxsus olub. Böyük alim, 90-a yaxın kəşfi olan Alfred öz səhmlərini məhz neft səltənətinə qoyub. Və heç kəsə sirr deyil ki, onun kapitalının əsas mənbəyi Bakı olub.

...Silah istehsalı ilə məşğul olan Nobellər ailəsi əslən İsveçdəndir. 1843-cü ildə ailə başçısı Emmanuel Nobel oğulları Alfred, Lüdviq və Robertlə Rusiyaya gələrək, burada silah istehsalına başlayır. Ailə əsasən su-altı mərmilər hazırlayırdı. Krım müharibəsinin başa çatmasıyla Nobellərin də bazarı bağlanır. Qoz ağacı tüfəng qundağı üçün ən yaxşı xammal sayıldığından Robert Nobel "qoz ağacı" sorağıyla Azərbaycana da gəlib çıxır. Bir müddət Bakıda qalan Robert "neft və milyonlar səltənəti"nin hesabına qısa zaman kəsiyində qaz vurub-qazan doldurmağın mümkünlüyünü anlayıb, qardaşlarına Bakıya gəlməyi təklif edir. "Burada qızıl su kimi axır. Belə olan halda bizə qundaq istehsalı lazımdırmı?" fikirlərinin yer aldığı məktub qardaşların Bakıya köçünü qətiləşdirir.

1875-ci ildə Nobel qardaşları Bakıda "Tovarişestvo Neftyanoqo Proizvodstva Bratyev Nobel" Nobel Qardaşları şirkətini yaradırlar. Az müddətdə Nobel qardaşları Abşeronun bir sıra neft mədəninin sahibi olur, bir sıra zavodlar alırlar.

Onlar bütün neft sənayesini dəyişirlər: Bakı mədənlərinə Amerikadan neft avadanlığı və texnologiyalar, nefti müasir üsullarla çıxarmaq üçün Pensilvaniyadan Bakıya buruq ustaları gətirirlər. Proletar inqilabı Nobellər dövrünə son qoymuş oldu...

Lakin Nobellərin ən böyük nailiyyəti – dün-

yada ilk neftdoldurma tankerinin yaradılması olur. 1877-ci ildə Nobel qardaşlarının sifarişi ilə İsveçdə ilk neftdoldurma gəmisi "Zoroastr" inşa edilir. 90-cı illərdə Bakının neft hasilatı artıq Amerikanı ötüb keçərək dünyada birinci yerə çıxır.

Artıq 20-ci əsrin əvvəllərinə yaxın Bakıda fəaliyyət göstərən 20-yə qədər xarici şirkət arasında ən aparıcı yer Nobel qardaşlarına məxsus idi. Nobellərin var-dövləti artaraq artıq 45 milyona çatır. Lakin elə məhz bu dövrlərdən Rusiyada inqilabi hərəkat baş qaldırmağa başlayır. Bu, Bakı neftində də fəhlələrin tətillərinə, iğtişaşlara gətirib çıxarırdı. Peterburqda yaşayan Nobel qardaşlarından biri yazırdı: "Elə gün olmur ki, mədən və zavodlarımızda fəhlələr iğtişaş salıb, maşın və avadanlıq sındırmasınlar. Ürəyimiz Bakıdadır. Bizi iflic vursa, Bakıdan vuracaq"..

Rusiyada proletar inqilabından sonra bolşeviklər Bakı neftinə can atırdılar. 1920-ci ilin aprel ayında onlar Bakıya daxil olur, neft sənayesi milliləşdirilir. Nobellərin milyonları, əlbəttə ki, batmadı, onlar onsuz da xarici banklarda idi, lakin onların Bakı dövrü artıq başa çatmış oldu. Suraxanı, Balaxanı, Bibiheybətdə mədən sahibinə çevrilən qardaşlar mis, çuqun, kükürd, neftayırma zavodlarını da tikib, istifadəyə verirlər. Sənaye üsulu ilə neft çıxarmağa başlayan qardaşların sərmayəsi tezliklə 15 milyona çatır. Sonra bu rəqəm 30, 45 milyona qalxır. O vaxt "Nobel qardaşları" şirkətinin aksiyaları qızıl qiymətinə bərabər idi...

Qardaşlardan biri – Alfred Nobel 1896-cı ildə dünyasını dəyişir. Onun vəsiyyətnaməsi əsasında 1901-ci ildə "Nobel" mükafatı təsis olunur. Varidatının bir hissəsinin elm dünyasına ayrılmasına, fizika, kimya, ədəbiyyat, tibb sahəsində uğur qazanan insanların illik mükafatlandırılmasına xərclənməsini vəsiyyət edir. Məlum məsələdir ki, mükafatın yüksək səviyyədə təqdimatı, ümumiyyətlə ərsəyə gəlməsi və yaşaması üçün mütləq bir maliyyə mənbəyinə dayaqlanmalıdır. Əlbəttə ki, maliyyə mənbəyi rolunu bu mükafatın təsisini vəsiyyət edən Alfred Nobelin mirası oynadı. O miras ki, Bakı neftinin gəliri əsasında yığılmışdı. Gördüyünüz kimi, dünya şöhrətli "Nobel" mükafatının ərsəyə gəlməsində Bakı nefti həlledici rola malikdir. Bir faktı qeyd etmək lazımdır ki, bu bir qədər görünməyən qatlardadır. Nobel mükafatı ideyası əslində Alfred Nobelə deyil, onun qardaşı Lüdvik Nobelə məxsusdur. İlk dəfə o, belə bir mükafat təsis etmək fikrinə düşüb. Elə adını da öz soyadlarının şərəfinə "Nobel" adlandırıb. O, 1888-ci ildə dünyasını dəyişəndə, şəxsi arxivində olan materiallar arasında Nobel mükafatının nizamnaməsi də olub. Sonradan Alfred Nobel qardaşının yazdığı bu nizamnamə üzərində kiçik dəyişikliklər apararaq, onu yenidən dəstəkləyir. Tarixdə də Nobel mükafatı Alfredin adı ilə qalır.

Ədəbiyyat

Mirzəyev, M.A. Nobellər və Nobel mükafatları /M.A.Mirzəyev Nobelçi fiziklər.- B.: Nasir, 2004.- S.6.

Nobel mükafatları almış iqtisadçılar və onların nəzəriyələri.- B.: Elm, 2004.- 237 s.

Süleymanov, M. Neft sənayesinin inkişafı /Süleymanov M. Eşitdiklərim, oxuduqlarım, gördüklərim.- B.: Azərnəşr, 1989.- S.64-177.

Rus dilində

Алияров, С.С. Нефтяные монополии в Азербайджане в период первой мировой войны.- Б., 1974

Дъяконова, И.А. Нобелевская корпорация в Росии.- М., 1980.

Монополистический капитал в нефтяной промышленности России: Документы и материалы.- ч.1-2.-М-Л.,1965

İnternetdə

www.deyerler.org/
az.wikipedia.org/
www.tourism.az/

31 Mart

Tarixi faciəli səhifəsi 1918

Tarixi yaddaşsızlıq və unutqanlıq xalqımıza baha başa gələ bilər. Azərbaycanlılara qarşı zaman-zaman törədilən bu ağır cinayətləri unutmamaq, böyüyən nəsli bədxah qüvvələrin məkrli niyyətlərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək mühüm vəzifədir.

Heydər Əliyev, ümummilli lider

Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gücləndirilən belə qeyri insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən min illər boyu yaşadıqları tarixi etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

XX əsrin əvvəllərində ermənilər təkcə bu gün Ermənistan adlanan ərazi deyil, Bakı quberniyasının Bakı, Şamaxı, Quba şəhəri, Göyçay qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda da vaxtaşırı xalqımıza qarşı qırğınlar, talanlar, yanğınlar, terror və digər zorakılıq aktları həyata keçirmişlər. Erməni faşistləri bu ərazilərdə on minlərlə dinc azərbaycanlı əhalini - qadını, uşağı, qocanı yalnız milli mənsubiyyətlərinə görə vəhşicəsinə qətlə yetirmiş, yaşayış yerlərini talan edərək yandırıb viran qoymuş, xalqımızın milli mədəniyyət abidələrini, məscidləri dağıtmış və yandırmışlar.

XIX əsrin əvvəllərindən başlayaraq erməni-

lər tarixi Azərbaycan torpaqlarında kütləvi şəkildə məskunlaşdırılmağa başlamış, azərbaycanlılar öz qədim torpaqlarından, atababa yurdlarından qovulmuş, onların deportasiyası prosesi məqsədyönlü şəkildə həyata keçirilmişdir.

Tarixin hələ tam açılmamış səhifələrindən biri olan bu soyqırımı hadisəsi xalqımıza qarşı dəfələrlə törədilmiş kütləvi qətl kimi qiymətləndirilməlidir. Tarixi faktlar təsdiq edir ki, son iki əsrdə azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş bu soyqırımı siyasəti nəticəsində soydaşlarımız qədim Azərbaycan torpağı olan, indi Ermənistan adlandırılan öz doğma torpaqlarından didərgin salınmışlar.

1918-ci ildə Bakıda və Azərbaycanın digər bölgələrində ermənilərin törətdikləri qırğınlardan 85 il ötməsinə baxmayaraq, bu vəhşiliklər xalqın qan yaddaşında əbədi iz buraxmışdır. Ötən əsrin əvvəllərindən başlayaraq ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri aramsız soyqırımı və deportasiya siyasəti 1918-1920-ci illərdə xüsusən genişlənmiş və Azərbaycan xalqını yer üzündən tam silmək kimi iyrənc niyyətlərini bütün çılpaqlığı ilə üzə çıxarmışdır. Həmin illərdə ermənilərin Azərbaycanda törətdikləri milli qırğın haqqında bizə çatan tarixi sənədlərdəki faktlar Şamaxıda, Qubada, Muğanda, Zəngəzur qəzasında, Qarabağda, İrəvan quberniyasında və ölkənin digər ərazilərində azərbaycanlıların amansızlıqla qətlə yetirildiyini, şəhər və kəndləri talan edilərək dağıdıldığını sübut edir.

Azərbaycanın ayrı-ayrı bölgələrində olduğu kimi, Bakıda da həmin illərdə azərbaycanlıların soyqırımı həyata keçirilmiş və şəhər erməni silahlı dəstələri tərəfindən dağıdılmışdır. 1918-ci ilin mart ayının son üç günündə təkcə Bakıda otuz mindən çox əhalini erməni vəhşiləri xüsusi amansızlıqla qətlə yetirmişlər. Mart qırğınları haqqında müstəqil tədqiqatçı Kulqe yazır: "Ermənilər musəlman əhalisini işgəncələrlə öldürür, şəmşirlərlə parçalayır, süngü ilə dəlik-deşik edir, körpə uşaqları süngüyə keçirir, cəsədlərin burun, qulaq və başlarını kəsir, evlərə od vurub sakinləri ilə qarışıq yandırır, qadınları soyundurur və saçlarını bir-birinə bağlayaraq tüfəngin qundağı ilə ölüncəyə qədər döyürdülər". Kulqe ermənilər tərəfindən üzü divara çevrilərək itlərə gəmirdilən azərbaycanlıların şəkillərini də çəkmişdir. Bu faktlar erməni daşnak qaniçənlərinin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərin kiçik bir hissəsidir və ancaq 1918-ci ilin mart ayının son üç günündə törədilən Bakı qırğınını əks etdirir.

1918-ci ildə erməni bandaları insanlara qarşı vəhşi amansızlıq etdikləri kimi, mədəniyyət abidələrini və tarixi abidələri də vəhşicəsinə dağıdır, məscidləri yandırır, memarlıq incisi sayılan binaları yerlə-yeksan edirdilər. Mart qırğını haqqında olan mənbələrdə göstərilir ki, ermənilər bir çox qədim binaları, o cümlədən Cümə məscidini, İsmailiyyə binasını top atəşinə tutaraq dağıtmışlar. Həmin dövrü əhatə edən, 1918-ci ildə Bakının dağıdılmasını əks etdirən tarixi foto-şəkillər də tarixçilərin yazdıqlarını əyani şəkildə təsdiqləyir.

Ötən əsrdə dörd dəfə - 1905-1906, 1918-1920, 1948-1953 və 1988-1989-cu illərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı və deportasiya siyasəti bu gün özünü Dağlıq Qarabağla bağlı məlum hadisələrdə büruzə verir, həm də onu göstərir ki, ermənilərin xalqımıza olan tarixi münasibəti dəyişməyib. Ancaq Azərbaycanın beynəlxalq aləmdə möhkəmlənən mövqeyi və real beynəlxalq vəziyyət ötən əsrdən tamamilə fərqli olduğuna görə yəqin ki, Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli, erməni işğalçılarının torpaqlarımızdan çıxarılması, daşnak ideyalarının davamçılarının yerində oturdulması mümkün olacaqdır.

1918-ci ilin mart soyqırımı zamanı Bakı şəhərində 11 min nəfərədək türk-müsəlman öldürülmüşdür. Onların çoxunun meyitləri tapılmamışdır. Çünki şahidlərin dediklərinə görə, ermənilər meyitləri od-alova bürünmüş evlərə, dənizə və quyulara atırdılar ki, cinayətin izini itirsinlər.

Bakının şəhər camaatından 400 milyon manatlıq daş-qaş və əmlak müsadirə olunmuşdu. Xalqın bir çox ziyarətgahları və tarixi abidələri dağıdılıb yerlə-yeksan edilmişdir. Uzaqvuran topla Təzəpir məscidi zədələnmişdi. Daşnaklar Bakıda dünya memarlığının incilərindən sayılan "İsmailiyyə" binasına od vurub yandırmışdılar. Bakıda baş vermiş faciəli hadisələr şəhərə olduqca böyük ziyan vurmuşdu.

Qədim Azərbaycan şəhəri Şamaxı da dəhşətli talan və vəhşiliklərə məruz qalmışdı. Şamaxı şəhəri və Şamaxı qəzası üzrə ermənilərin törətdikləri vəhşiliklər haqqında 7 cild, 925 vərəqdən ibarət materiallar toplanıb. Şamaxının müsəlmanlar yaşayan hissəsinin hamısına od vurulmuşdu, 13 məhəllə məscidi və məşhur müqəddəs ocaq Cümə məscidi yandırılmışdı. Erməni quldurları minlərlə dinc adamı qətlə yetirmişdilər. Şamaxı qəzasının 53 kəndində ermənilər 8077 azərbaycanlını qətlə yetirmişdilər. Onlardan 4190 nəfəri kişi, 2560 nəfəri qadın və 1277 nəfəri uşaqlar olmuşdur. Bu kəndlərə dəyən ümumi maddi zərər o dövrün qiymətləri ilə 339,8 milyon manat olmuşdur.

Əvvəlcədən qurulmuş plana görə daşnak-bolşevik qoşunu Şamaxını işğal etdikdən sonra Quba qəzasına daxil olmalı idi. S.Şaumyan Cənubi Qafqazda böyük Ermənistan dövləti yaratmaq üçün bütün imkanlardan istifadə edirdi ki, təki Azərbaycan deyilən dövlət yaranmasın.

Ermənilər bolşeviklərin köməyi ilə Quba qəzasında üç dəfə qırğın törətmişlər. Qubaya hücum edənlər içərisində özünü bolşevik kimi qələmə verən və 2 min əsgərə başçılıq edən David Kelovandilidən başqa, bolşevik Stiqua da olmuşdu. Onun dəstəsində min əsgər olub.

Ermənilərin vəhşilikləri nəticəsində 1918-ci ilin ilk 5 ayı ərzində üst-üstə 16 mindən çox insan

məhv edilmişdir. Ayrı-ayrı mənbələrə və şahidlərin dediklərinə əsasən, qırğın zamanı 12 minədək ləzgi, 4 mindən çox azəri türkü öldürülmüşdü. 1918 -ci ilin qırğınları zamanı daşnak-bolşevik birləşmələri Quba qəzasında 162 kəndi dağıtmışdılar ki, bunlardan 35-i hazırda mövcud deyildir.

Daşnak-bolşevik birləşmələri nəinki Quba qəzasında, hətta Cənubi Dağıstanda, Bakıdan Dərbəndə kimi böyük bir ərazidə müsəlmanların soyqırımını həyata keçirmək niyyətində idilər.

Azərbaycanın tarixindən məlumdur ki, 1918-ci ilin yazından başlayaraq, Ermənistanda (Qərbi Azərbaycan) yaşayan azərbaycanlılar da erməni bolşevik dəstələri tərəfindən soyqırıma məruz qaldılar. Erməni cəlladları "Böyük Ermənistan" yaratmaq üçün ilk növbədə Qərbi Azərbaycandakı müsəlman əhalisini buradan çıxarmağa və bu məkrli planın reallaşmasına çalışırdılar. Təkcə aprelin sonunda bu ərazidə dağıdılmış müsəlman kəndlərinin sayı 199-a çatırdı.

1918-ci ilin yazında Bakı şəhərində və Azərbaycan qəzalarında daşnak-bolşevik birləşmələrinin türk müsəlman əhalisinə qarşı törətdikləri vəhşiliklər istər hüquqi baxımdan, istərsə də siyasi cəhətdən soyqırımı kimi qiymətləndirilməlidir.

Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırımı faciələrini qeyd etmək məqsədilə mərhum Prezident Heydər Əliyevin 27 mart 1998-ci il "31 Mart Azərbaycanlıların Soyqırımı" haqqında Fərmanı ilə 31 Mart Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir.

Fərmanda deyilir: "Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırımı faciələrini qeyd etmək məqsədilə qərara alıram:

1. 31 Mart Azərbaycanlıların Soyqırımı günü elan edilsin.

2. Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun ki, azərbaycanlıların soyqırımı ilə bağlı hadisələrə həsr olunmuş xüsusi sessiyanın keçirilməsi məsələsinə baxılsın".

Xalqımıza qarşı 1918-ci ildə törədilən mart soyqırımı kimi faciəli bir tariximizin sovet tarixşünaslığında saxtalaşdırılması və ört-basdır edilməsini təkcə tarixi bir anın unudulması kimi qəbul etmək olmaz. Mart hadisələrinin saxtalaşdırılması xalqımıza qarşı tarixən düşmən münasibət bəsləyən erməni xislətinin gizlədilməsi oldu. Bu isə özlüyündə XX əsr tariximizdə yeni-yeni canlı səhifələrin açılmasına gətirib çıxarmışdır.

1998-ci ildən bəri respublikamızda 31 Mart hər il Azərbaycanlıların Soyqırımı Günü kimi dövlət səviyyəsində qeyd edilir. Bu hadisələri, onların dərslərini unutmağa haqqımız yoxdur".

Ədəbiyyat

"Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanı //Azərbaycan.- 1998.- 27 mart.

Abışov V, Azərbaycanlıların soyqırımı: (1917-1918-ci illər).-B.: Nurlan, 2007.-175 s.

Arzumanlı, V. 1918-ci il soyqırımı.- B.: Öyrətmən, 1995.- 89 s.

Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə.-B.: Elm, 1990.-381 s.

Azərbaycan tarixi: 7 c.-də.-5 c.-B.:Elm, 2001.-672 s.

Baykara, H. Azərbaycan istiqlal mübarizəsi tarixi.-B.:Azərnəşr, 1992.-276 s.

Məmmədov, L., Əsədov, S. Ermənistan Azərbaycanlıları və onların acı taleyi.-B.: Azərbaycan, 1992.-71 s.

Paşayev, A.Açılmamış səhifələrin izi ilə.-B.: Azərnəşr, 2001.-535 s.

Rus dilində

Агамалиева, Н., Худиев Р. Азербайджанская Республика. Страницы политической истории 1918-1920 гг.-Б.: Сабах, 1994.-112 с.

Дарабади, П. Военные проблемы политической истории Азербайджана начала XX века.-Б.: Элм, 1991.-205 с.

Мамедова, Л.Феврал 1917: Новая фаза армянского политического экстремизма в Азербайджане.- Б.: Азернешр, 1995.- 61 с.

Мамедова, Л. Деятельность Армянских политических организаций в Азербайджане (1918-1920 гг.) Канд. дис.-Б., 1996.- 193 с.

İnternetdə

http://www.azadqarabag.azerall.

www.anl.az.

Bəybala Ələsgərov

1 aprel
Gün çıxır
05:50
Gün batır
20:06
30 aprel
Gün çıxır
04:56
Gün batır
20:36

2009

Əlamətdar və tarixi günlər

1. Eldəgizlər dövlətinin hökmdarı Məhəmməd Cahan Pəhləvanın hakimiyyətə gəlməsinin 835 illiyi
2. Kəlbəcər rayonunun işğal günü
12. Ümumdünya Kosmonavtika və Aviasiya Günü
18. Tarixi abidələrin mühafizəsi Günü
18. Qori seminariyasında Azərbaycan şöbəsinin yaradılması haqqında qərarın qəbul olunmaşının 135 ili
24. Bakı-Supsa neft kəmərinin işə salınmasının 10 ili

Aprel

Ç	1
Ca	2
C	3
Ş	4
B	**5**
Be	6
Ça	7
Ç	8
Ca	9
C	10
Ş	11
B	**12**
Be	13
Ça	14
Ç	15
Ca	16
C	17
Ş	18
B	**19**
Be	20
Ça	21
Ç	22
Ca	23
C	24
Ş	25
B	**26**
Be	27
Ça	28
Ç	29
Ca	30

21 mart-
20 aprel

Qoç bürcünün Nişanəsi oddur. Marsın himayəsindədir. Günəşin Qoç bürcündən keçdiyi dövrdə doğulanlar qüvvətli və çevik olurlar.

Kəlbəcərin işğalı

Kəlbəcər Azərbaycanın ən yüksək dağ rayonudur. Ən hündür zirvə Kamış dağındadır (3724 m). Ərazinin çox hissəsi meşəlikdir. Rayonda 132 yaşayış məntəqələri vardı. Kəlbəcər rayonunun gözəl və zəngin təbiəti, yeraltı və yerüstü sərvətləri, münbit torpaqları vardır. Kənd təsərrüfatında əsasən heyvandarlıq və əkinçilik inkişaf etmişdir.

Rayonun ərazisi 1993-cü ildə erməni silahlı dəstələri tərəfindən işğal edilmişdir.

Ümumdünya Gülüş Günü (01.04.)

Eldəgizlər dövlətinin hökmdarı Məhəmməd Cahan Pəhləvanın hakimiyyətə gəlməsinin (01.04.1174) 835 illiyi

Ədəbiyyatşünas, dilçi, professor Xudiyev Nizami Manaf oğlunun (01.04.1949) anadan olmasının 60 illiyi

Şair, tərcüməçi Xəlilov Zeynal Rza oğlunun (Zeynal Xəlil) (01.04.1914-10.08.1973) anadan olmasının 95 illiyi

Rus yazıçısı Qoqol Nikolay Vasilyeviçin (01.04.1809-04.03.1852) anadan olmasının 200 illiyi

Kəlbəcər rayonunun işğal (02.04. 1993) günü

Azərbaycan bəstəkarı Zeynallı Asəf Zeynalabdin oğlunun (05.04.1909-27.10.1932) anadan olmasının 100 illiyi

Azərbaycanın Əməkdar incəsənət xadimi, professor İsmayılov Tofiq Hüseyn oğlunun (06.04.1939) anadan olmasının 70 illiyi

Azərbaycan yazıçısı Abdullayev Çingiz Akif oğlunun (07.04.1959) anadan olmasının 50 illiyi

Azərbaycan dramaturqu, publisist, teatr xadimi Vəzirov Nəcəf bəy Fətəli bəy oğlunun (11.04.1854-09.07.1926) anadan olmasının 155 illiyi

Ümumdünya Kosmonavtika və Aviasiya (12.04.1961) Günü

Azərbaycanın Xalq artisti, Respublikanın Əməkdar müəllimi, xanəndə Şuşinski Seyid Mir Möhsün Ağa Seyid İbrahim oğlunun (12.04.1889-01.10.1965) anadan olmasının 120 illiyi

Ümummilli lider Heydər Əliyevin "Atatürk Beynəlxalq Sülh Mükafatı" ilə (13.04.1999) təltif edilməsinin 10 illiyi

Azərbaycanın Əməkdar incəsənət xadimi, şair Mütəllibov Tofiq Mütəllim oğlunun (13.04.1929-02.11.1992) anadan olmasının 80 illiyi

Rus yazıçısı Fonvizin Denis İvanoviçin (14.04.1744-12.12.1792) anadan olmasının 265 illiyi

Azərbaycanın Xalq artisti, bəstəkar Mirişli Ramiz Aqil oğlunun (16.04.1934) anadan olmasının 75 illiyi

Amerika rejissoru, aktyor və ssenarist Çaplin Çarlz Spenserin (16.04.1889-25.12.1977) anadan olmasının 120 illiyi

Azərbaycanın Əməkdar incəsənət xadimi, bəstəkar Hacıbəyli Zülfüqar Əbdülhüseyn oğlunun (17.04.1884-30.09.1950) anadan olmasının 125 illiyi

Dövlət xadimi Cəfərov Vaqif Cəfər oğlunun (18.04.1949-20.11.1991) anadan olmasının 60 illiyi

Tarixi Abidələrin Mühafizəsi Günü (18.04.1983)

Qori seminariyasında Azərbaycan şöbəsinin yaradılması haqqında qərarın qəbul olunmasının (18.04.1874) 135 ili

Azərbaycanın Xalq artisti, Əməkdar incəsənət xadimi, aktyor Təhmasib Rza Abbasqulu oğlunun (20.04.1894-14.02.1980) anadan olmasının 115 illiyi

Azərbaycanın Əməkdar incəsənət xadimi, professor Hüseynov Çingiz Hüseyn oğlunun (20.04.1929) anadan olmasının 80 illiyi

Beynəlxalq Yer kürəsi Günü (22.04.1970)

İngilis dramaturqu və şairi Şekspir Vilyamın (23.04.1564-23.04.1616) anadan olmasının 445 illiyi

Bakı-Supsa neft kəmərinin işə salınmasının (24.04.1999) 10 ili

Azərbaycanın Xalq artisti, aktyor Bürcəliyev Məmməd İsmayıl oğlunun (25.04.1914-25.11.1994) anadan olmasının 95 illiyi

Azərbaycanın Xalq artisti, Azərbaycan və Türkmənistanın Əməkdar incəsənət xadimi, kinorejissor İbrahimov Əjdər Mütəllim oğlunun (29.04.1919-20.09.1993) anadan olmasının 90 illiyi

Aprel

1

95 illiyi

Zeynal Xəlil
1914-1973

Şair

Xəlilov Zeynal Rza oğlu 1914-cü il aprelin 1-də Gəncə şəhərində sənətkar ailəsində doğulmuşdur. 7 yaşında atasını itirdiyindən böyük qardaşlarının himayəsində boyabaşa çatmışdır. Yeddiillik şəhər məktəbini bitirib pedaqoji fəhlə fakültəsində təhsil almışdır. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Dil və ədəbiyyat fakültəsində təhsilini davam etdirmişdir (1932-1936). "Yeni kənd" adlı ilk mətbu şeiri tələbəlik illərində "Hücum" (1932-ci il, № 7-8) jurnalında dərc olunmuşdur. 1936-cı ildə onu Qasım İsmayılov rayonunun Goranboy kəndinə orta məktəbə müdir vəzifəsinə göndərmişlər (1936-1938). Ədəbi fəaliyyətə 1934-cü ildə başlamışdır. Şeirləri "Gənc işçi", "Ədəbiyyat qəzeti" və "Hücum" jurnalı səhifələrində dərc olunmuşdur. "İstək" adlı şeirlər məcmuəsi 1936-cı ildə Azərnəşrdə çapdan çıxmışdır. Bakıda İncəsənət Muzeyinin müdiri (1938-1939), Azərbaycan Sovet Yazıçılar İttifaqı Rəyasət Heyətinin məsul katibi (1939-1945), M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında müdir (1945-1948), Azərbaycanın Xarici Ölkələrlə Mədəni Əlaqələr Cəmiyyətinin sədr müavini, şöbə müdiri işləmişdir (1947-1950). 1941-ci il avqustun 25-dən 1942-ci il yanvarın 1-dək ("Na şturm" qəzetinin redaksiyasında) qələmini süngü ilə yanaşı tutmuşdur. İkinci Dünya müharibəsi illərində "İntiqam" (1942), "Qatır Məmməd" (1945) mənzum pyesləri M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrında oynanılmışdır. Onun "Gənc ustalar", "Gəncə qartalı" pyesləri də tamaşaya qoyulmuşdur. Azərbaycan SSR Siyasi və Elmi Bilikləri Yayan Cəmiyyətin redaktoru, məsul katibi (1950-1951), Azərnəşrdə redaktor (1951-1952), Azərbaycan SSR Radio Ko-

mitəsində bədii verilişlər üzrə məsləhətçi (1952-1956), Azərbaycan Sovet Yazıçılar İttifaqında dramaturgiya üzrə məsləhətçi (1956-1958), Azərbaycan Mədəniyyət Nazirliyi İncəsənət işləri idarəsinin rəisi (1960-1963) olmuşdur. Ömrünün sonuna kimi Azərbaycan Dövlət Kinematoqrafiya Komitəsində baş redaktor vəzifəsində çalışmışdır (1963-cü ildən). Ş.Petefinin "Şeirlər" (1956) kitabını tərcümə edib çapa vermişdir. "Şərəf nişanı" ordeni, "Qafqazın müdafiəsinə görə", 1941- 1945-ci illər İkinci Dünya müharibəsində "Fədakar əməyə görə", "1941-1945-ci illər İkinci Dünya müharibəsində Almaniya üzərində qələbəyə görə" medallarını, iki dəfə Azərbaycan Ali Soveti Rəyasət heyətinin Fəxri fərmanı ilə təltif olunmuşdur.

1973-cü il avqustun 10-da vəfat etmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri.- B.: Öndər, 2004.

Dağ cığırı: Şeirlər və poemalar.- B.: Yazıçı, 1986.

Abbasov, İ. Sənətkar ömrü /Z.Xəlilin yaradıcılığı haqqında //Ulduz.- 1984.- №6.-S. 41- 44.

Abbasov, İ. Zamanla birlikdə: Zeynal Xəlil-70. //Ədəbiyyat və incəsənət.- 1984.- 25 may.- S. 7.

Arzu Babayeva

Aprel

1

60 illiyi

Nizami Xudiyev 1949

Dilçi-alim

Nizami Manaf oğlu Xudiyev 1949-cu ildə Azərbaycan Respublikası Naxçıvan MR-nın Şahbuz rayonunda anadan olmuşdur. 1966-1970-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Filologiya fakültəsində təhsil almışdır.

O, 1979-cu ildə İnstitut Həmkarlar İttifaqı Komitəsinin sədri seçilmişdir. 1991-ci ildən N.Tusi adına ADPU-nin birinci prorektoru, 1994-cü ildən isə həmin Universitetin rektoru olmuşdur.

Nizami Xudiyev 1996-2006-cı illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri vəzifəsində işləmişdir.

O, filologiya elmləri doktoru, professordur. 200-dən çox elmi məqalənin, 30 monoqrafiya, dərslik, dərs vəsaitinin müəllifidir.

Nizami Xudiyev Azərbaycan Yazıçılar Birliyi və Jurnalistlər Birliyinin üzvüdür. O, Azərbaycan Respublikası Ali Sovetinin Fəxri Fərmanı ilə təltif edilmişdir.

Ədəbiyyat

"Heydər Əliyev və Azərbaycan dili".- B.: Təhsil, 2001.- 146 s.

Mehdizadə, İ. İdarəçiliyi bacarmaq dövlətçilikdən-

Rus dilində

язык"] //Бакинский рабочий.-2001.-19 июля.- С.3.

Пашазаде, И. Телевидение как школа культуры речи: [О книге Худиева Низами: "Радио, телевидение и литературный

Azərbaycan antroponimlərinin təşəkkülü və inkişafı.- B.: Azərnəşr, 2005 .-158 s.

dir: [Filologiya elmləri doktoru Nizami Xudiyev haqqında] // 525-ci qəzet.- 2006.-10 iyul.- S. 38.

Gülər Hüseynova

Aprel

1

200 illiyi

Nikolay Vasilyeviç Qoqol 1809-1852 Rus yazıçısı

Görkəmli rus yazıçısı Nikolay Vasilyeviç Qoqol 1809-cu il aprelin 4-də yoxsullaşmış mülkədar ailəsində anadan olmuşdur. O, 1828-ci ildə Nejin ali elmlər gimnaziyasını bitirmişdir. Tələbə ikən rəssamlığa, aktyorluğa həvəs göstərmiş, şeir və faciələr yazmışdır. Nikolay 1829-cu ildə Alov imzası ilə "Hans Kühelqarten" idilliyasını çap etdirmiş, lakin əsər uğurlu olmamışdır. Qoqola ədəbi şöhrət gətirən ilk əsər Ukrayna xalq ədəbiyyatı, nağıl və əfsanələri əsasında, romantik üslubda yazılmış "Dikanka yaxınlığındakı xutorda axşamlar" (1831-1832) povestidir. 1836-cı ildə yazılmış "Müfəttiş" və 1842-ci ildə yazılmış "Ölü canlar" əsərləri Qoqol dramaturgiyasının şah əsərləri sayılır. 1836-1848-ci illərdə Nikolay xaricdə yaşamış, uzun müddət Rusiyanın qabaqcıl adamlarından uzaq düşmüş və 1847-ci ildə "Dostlarla yazışmalardan seçilmiş parçalar" kitabını nəşr etdirmişdir. Moskvada - Nejində abidəsi qoyulmuş, doğulduğu küçədə ev - muzeyi açılmışdır.

Nikolay Vasilyeviç Qoqol 1852-ci ildə martın 4-də Moskvada vəfat etmişdir.

Ədəbiyyat

Əsərləri: 6 cilddə /Nikolay Vasilyeviç Qoqol.- B.: Azərnəşr, 1993.

Taras Bulba: Povest /Nikolay Vasilyeviç Qoqol.- B.: Maarif, 1983.- 112 s.

Rus dilində

Арабеск: Сборник /Николай Васильевич Гоголь.- М.: Молодая гвардия, 1990.- 430 с.

Вечера на хуторе близ Диканьки: Повести.- М.: Современник, 1990.- 283 с.

Adilə Abdullayeva

2 Aprel

Kəlbəcər

Ərazisi - 1936 km²
Əhalisinin sayı – 53962
İnzibati mərkəzi – KƏLBƏCƏR
İşğal tarixi - 02 - 4 aprel 1993-cü il

Kəlbəcər həm təbii sərvətlərlə zənginliyinə görə, həm iqliminin gözəlliyinə görə, həm də orada yaşayan insanların fədakarlığına görə respublikada həmişə çox hörmətə, ehtirama layiq olubdur. Kəlbəcər Azərbaycanın ayrılmaz bir parçasıdır, hissəsidir. Heç şübhəsiz, o gün gələcək ki, Kəlbəcər rayonu Ermənistanın silahlı qüvvələrinin işğalından azad olacaq və Kəlbəcərin vətəndaşları, sakinləri, bizim soydaşlarımız öz yerlərinə, yurdlarına qayıdacaqlar

Heydər Əliyev, ümummilli lider

Kəlbəcər Azərbaycanın ən yüksək dağ rayonudur. Ən hündür zirvə Kamış dağındadır (3724m). Ərazinin çox hissəsi meşəlikdir. Rayonda 132 yaşayış məntəqəsi vardı. Rayonun ərazisi 1993-cü ildə erməni silahlı dəstələri tərəfindən işğal edilmişdir.

Kəlbəcər rayonunun gözəl və zəngin təbiəti, yeraltı və yerüstü sərvətləri, münbit torpaqları vardır. Kənd təsərrüfatında əsasən heyvandarlıq və əkinçilik inkişaf etmişdir.

1998-ci ildən başlayan elan olunmamış müharibədə Kəlbəcər camaatı qeyrətlə vuruşaraq təpədən dırnağacan silahlandılar və havadarlarına arxalanan ermənilər torpaqlarına yaxın qoymadılar. Bir faktı qeyd edək ki, Kəlbəcərin Ağdaban kəndinin qadınları 1991-ci ildə 11 nəfər silahlı erməni quldurunu tərksilah edib, əsir götürmüşdü. Təəssüf ki, belə şücaətlərə baxmayaraq, yerli adamlar respublika rəhbərliyi tərəfindən heç bir kömək, qayğı görmədilər. İşğala qədər kəlbəcərlilər min əzab-əziyyət çəkdilər, sarsıntılı, səksəkəli günlər yaşadılar.

1992-ci il aprelin 8-də Ağdaban kəndi ermənilərin amansız hücumlarına dözə bilmədi, işğal olundu. 39 nəfər kənd sakini qəddarcasına öldürüldü, 5 nəfər girov götürüldü, 100-dən artıq ev yandırıldı. Respublika rəhbərliyindən qayğı görməyən ərazi bir ucdan boşalırdı. Düşmənlərimiz isə fürsəti əldən vermir, əsaslı müqavimətə rast gəlmədikləri üçün günbəgün irəliləyirdilər. 1993-cü ilin mart ayı bu bölgəyə qara gəldi. Düşmənlər strateji əhəmiyyətli bir neçə yüksəkliyi tutdular. Təkəqaya, Zağalar, Çıraq kəndlərinə soxulub evlərə od vurub, dinc əhalini diri-diri yandırdılar. Ən əhəmiyyətli Keçiliqaya yüksəkliyinə sahib çıxdılar. Aprelin 2-də Kəlbəcər artıq erməni quldurlarının əlində idi.

İşğal nəticəsində Kəlbəcərdə: 511 nəfər şəhid oldu, 231 nəfər itkin düşdü, 100-lərlə adam şikəst oldu. 130 yaşayış məntəqəsi, dünya şöhrətli, "İstisu" sanatoriyası, 500-dən artıq sənaye, tikinti, məişət, ticarət obyekti, 172 mədəniyyət obyekti, 96 ümumtəhsil məktəbi, 76 səhiyyə obyekti, 1 muzey darmadağın edildi. 100 min baş qaramal, 500 min baş qoyun-quzu, 100-lərlə maşın, texnika, avadanlıq talan olundu.

1993-cü ilin qiymətləri ilə Kəlbəcərə azı 761 mln. ABŞ dolları dəyərində ziyan dəydi. Mənəvi ziyanlar isə heç deyiləsi deyil. Kəlbəcər faciəsi Ağdamın, Füzulinin, Qubadlının, Cəbrayılın işğalına yol açdı. Bu artıq Qarabağın iflası demək idi.

Hazırda Kəlbəcər rayonundan olan məcburi köçkünlər Bakı, Sumqayıt, Gəncə və Azərbaycanın 44 rayon və şəhərində məskunlaşmışlar.

Onlardan 116 ailə çadırda, 8988 ailə ictimai binalarda, məktəblərdə, 351 ailə yol kənarında və humanitar təşkilatlar tərəfindən tikilmiş müvəqqəti yaşayış yerlərində yerləşdirilmişdir. Kəlbəcər rayonunda erməni təcavüzü nəticəsində 24279 uşaq zərər çəkmiş, onlardan 734 nəfəri yetim qalmışdır.

Ədəbiyyat

Kəlbəcərli inqilablı günlərimiz: Sənədli publisistika.-B.:Nasir, 2005.-356 s.

Şahhüseynov, M. Kəlbəcərsiz, Zarsız keçən ömürlər.- B.: Şirvannəşr, 2003.-90 s.

Tapdıqoğlu, N. Kəlbəcərin toponimləri.- B., 2002.-140 s.

İnternetdə

http://www.azadqarabag.azerall.

www.anl.az.

Adilə Abdullayeva

5 Aprel

100 illiyi

Asəf Zeynallı
1909-1932

Bəstəkar

Asəf Zeynalabdin oğlu Zeynallı 1909-cu il aprelin 5-də Dərbənd şəhərində yoxsul ailədə anadan olmuşdur. O, ibtidai təhsilini Dərbənd realnı məktəbində almışdır. 1920-ci illərin əvvəlində A. Zeynallının ailəsi Bakıya köçmüşdür. Bakıda Zeynallı hərbi məktəbə daxil olmuş, ilk dəfə musiqi alətində-klarnetdə çalmağı da burada öyrənmiş, musiqi nəzəriyyəsi üzrə keçilən fənlərlə məşğul olmuşdur.

1926-cı ildə Zeynallı Konservatoriyaya daxil olmuşdur. O, əvvəlcə Orkestr fakültəsində (truba) oxumuş, sonra isə Bəstəkarlıq fakültəsinə keçmişdir. Onun müəllimləri Ü.Hacıbəyov, L.P.Yablonko, V.V.Karagiçev olmuşdur. Ü.Hacıbəyov gələcək bəstəkarın yaradıcılıq simasının formalaşmasına böyük təsir göstərmişdir.

Bəstəkar əsərlərinin çoxunu Konservatoriyadakı təhsil illərində yazmışdır. Bunlardan fortepiano üçün "Cahargah"ı, "Durna"nı, skripka üçün "Muğamsayağı" pyesini, xalq mahnısı əsasında iki violençel və fortepiano üçün "İki füqo"nu göstərmək olar.

1920-ci illərin axırında Zeynallı Azərbaycan "Tənqid-təbliğ" Teatrının Musiqi şöbəsinin müdiri vəzifəsinə təyin olunmuşdur. 1920-ci illərin sonu-1930-cu illərin əvvəlində Zeynallı özünün ən məşhur əsərlərini- "Ölkəm", "Sual", "Seyran", "Çadra", "Sərhədçi" romanslarını yazmışdır. Eyni zamanda "Səndən mənə yar olmaz", "Araz" və s. bu kimi mahnıları nota köçürmüş, səs və vokal ansamblı üçün işləmişdir.

1930-cu illərin əvvəlində o, Konservatoriyanın yaradıcılıq bölməsinə rəhbərlik etmiş, Azərbaycan Proletar Musiqiçiləri İttifaqının (APMİ) başçısı olmuşdur.

Zeynallı bir sıra dram tamaşalarına musiqi tərtibatı vermişdir. O, C.Cabbarlının "Sevil", Yanovskinin "Qəzəb", Kirşonun "Şimal küləyi", C.Xəndanın "Gizli əl", Ə.B.Hamidin "Hind qızı", S.Rüstəm və H.Nə-

zərlinin “Yanğın” və s. pyeslərinə musiqi yazmışdır. Bu pyeslərə yazılmış musiqinin ayrı-ayrı hissələrindən 2 hissəli “Fraqmentlər” süitasını bəstəkar Konservatoriyanı bitirdikdən sonra işləmişdir. (“Fraqmentlər”in ikinci süitası bəstəkarın ölümündən sonra onun müəllimi L.P.Yablonko tərəfindən orkestrləşdirilmişdir.) O, 1931-ci ildə Leninqrada gedib orada Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət konsert təşkil etmiş və konsertlər zamanı Azərbaycan musiqisi haqqında məruzələrlə çıxış etmişdir.

İlk milli fortepiano musiqi əsərlərinin meydana çıxmasında Asəf Zeynallının müstəsna xidməti olmuşdur. Məhz o, ilk dəfə milli folklor yaradıcılığından əməli şəkildə istifadə edərək klassik Avropa fortepiano musiqisinin ənənələri ilə Azərbaycan xalq musiqisinin səciyyəvi cəhətlərini birləşdirmişdir.

A.Zeynallı Azərbaycan musiqi mədəniyyəti tarixində bir sıra yeni janrın (milli romans və s.) yaradıcısı kimi tanınmış, simfonik, kamera, vokal və instrumental əsərlər bəstələmişdir.

Bəstəkarlardan: Q.Qarayev, S.Hacıyev, T.Quliyev, Z.Bağırov onun sinfində oxumuşlar. A.Zeynallı “İbtidai not savadı” dərsliyinin müəlliflərindəndir.

A. Zeynallının “Uşaq süitası” Azərbaycanda uşaqlar üçün və uşaqlar haqqında yazılmış ilk musiqi nümunəsidir.

Zeynallı xalq musiqisinin toplanması, nota köçürülməsi və işlənməsi sahəsində də faydalı iş aparmışdır. 50 xalq mahnısını nota almışdır.

Səfərlərdən birində yatalaq xəstəliyinə tutulan bu gözəl sənətkar 1932-ci il dekabrın 27-də Bakıda vaxtsız vəfat etmişdir. Xidmətlərini yüksək qiymətləndirərək 1953-cü il 31 dekabrda Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin qərarı ilə Bakı Orta İxtisas Musiqi Məktəbinə (indiki Asəf Zeynallı adına Azərbaycan Dövlət Musiqi Kolleci) A.Zeynallının adı verilmişdir. Onun qoyub getdiyi irs Azərbaycan musiqi mədəniyyətinin təşəkkülü və inkişafına böyük təkan vermişdir.

Ədəbiyyat

Beşik mahnısı [Not]: /R.Mirişli Kamança məktəbi.- B., 1970.-S.74.

Uşaq süitası [Not]: Fortepiano üçün.- B.: Azərnəşr, 1969.-11 s.

Romanslar [Not]: Fortepiano ilə oxumaq üçün.- B.: İşıq, 1984.-28 s.

Muğamsayağı [Not]: /Pyeslər məcmuəsində; tar üçün, fortepiono üçün köçürəni S.Rüstəmov.- B., 1966.-S.3-5.

Ölkəm [Not] /sözləri C.Cabbarlınındır; Azərbaycan mahnıları məcmüəsində; Azərbaycan bəstəkarlarının əsərləri.- Kiyev, 1971.-S.72.

Azərbaycan musiqi dünyası /baş red. S.Firudinli; .-B.: Nurlar, 2001.-463 s. -(Azərbaycan incəsənətinin korifeyləri); -mətn Azərb. və ingilis dil.
Bəstəkar Asəf Zeynallı: (anadan olmasının 80 illiyi münasibətilə): Metodik biblioqrafik tövsiyələr /tərt. ed. T.P. Məmmədova; M.F. Axundov adına Azərbaycan Dövlət kitabxanası.- B., 1989.- 13 s.
Hüseynov, V.R. Görmədiyin illərdən sənə salam: Asəf Zeynallı //Qobustan.-1984.-№4.- S.61-68.
Qasımova, S.D Asəf Zeynallı /S.D. Qasımova, N.Bağırov //Azərbaycan sovet musiqi ədəbiyyatı: orta ixtisas musiqi məktəbləri üçün dərslik.- B.: Maarif, 1984.- S.85-90.

Rus dilində

Детская сюита: для Ф-но.- Б.: Ишыг, 1981.-9 с.
Пляска: Детские пьесы композиторов Азербайджана: для ф-но.- М.: Музыка, 1972.-9 с.
Романсы: для голоса с ф-но.- Б.: Ишыг, 1984.- 29 с.

İnternetdə

www.musigi-dunya.az/
musigi-dunya.az/
az.wikipedia.org/

Nailə Alışova

Aprel

6

70 illiyi

Tofiq İsmayılov
1939

Kino-dramaturq



Nasir, kinodramaturq T.İsmayılov 6 aprel 1939-cu ildə Bakı şəhərində anadan olmuşdur. 1958-ci ildə orta məktəbi bitirmiş və M.A.Əliyev adına Teatr İnstitutunun Aktyorluq (1958-1962), sonra Rejissorluq fakültəsində (1962-1968) təhsilini davam etdirmişdir

"Müasir Azərbayan kinosunda tipik xarakter" mövzusunda namizədlik dissertasiyası üzərində işləmişdir. Son illər "Sənətkarlarımızın portreti" silsilə bədii-sənədli filmləri – Tofiq Quliyev, Əminə Dilbazi, Gülxar Həsənova haqqında çəkmişdir (1992-1994). Uşaqlar üçün pyeslər, hekayələr yazmışdır. İlk mətbu hekayəsi – "Ağ dəsmal" 1962-ci ildə "Göyərçin" jurnalında çap edilmişdir. Əsərləri bir sıra xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur.

1987-ci ildə Əməkdar incəsənət xadimi adı almışdır.

1994-cü ildə Türkiyə İncəsənət Universitetinə dəvət alıb. Kinorejissor Tofiq İsmayılov 15 ildir Türkiyədə yaşayır. Fəaliyyətinin əsas hissəsi həmin ölkə ilə bağlı olan Əməkdar incəsənət xadimi son filmini 1994-cü ildə çəkib.

Ədəbiyyat

Diş ağrısı .– B.: Gənclik, 1986. – 92 s.

Qonşular.– B.: Gənclik, 1978. – 14 s.

Sevincin yuxusu.– B.: Gənclik,1979.–38 s.

Rzayev, T. Türkdilli dövlətlərin kino tarixi: (T.İsmayılovun eyniadlı kitabının nəşr olunması haqqında) //Respublika. – 2002. – 23 yanvar. – S. 2.

Tofiq qızı, A. Rejissor taleyinin zirvələri: (Kinorejissor T.İsmayılov haqqında) //Qobustan.– 2003. -№2.-S.44-45.

Səmayə Quliyeva

Aprel 7

50 illiyi

Çingiz Abdullayev 1959

Yazıçı

Görkəmli nasir, publisist, dünya şöhrətli kəskin süjetli romanların müəllifi Çingiz Akif oğlu Abdullayev 1959-cu il aprelin 7-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1976-cı ildə o, Azərbaycan Dövlət Universitetinin Hüquq fakültəsinə daxil olmuşdur. 1981-ci ildə təhsilini müvəffəqiyyətlə bitirmişdir. Əmək fəaliyyətinə 1981-ci ildən Bakı İstehsalat birliyində əvvəlcə hüquq məsləhətçisi, sonra isə böyük hüquq məsləhətçisi və şöbə rəisi kimi başlamışdır. Sonra Bakı şəhəri Əzizbəyov rayonu İcraiyyə Komitəsində şöbə müdiri, Qaradağ rayonu komitəsində təşkilat şöbəsinin təlimatçısı, siyasi-maarif kabinetinin müdiri vəzifələrində çalışmışdır. 1989-cu ilin fevralından Azərbaycan Yazıçılar İttifaqının katibi olmuşdur. 1988-ci ildə beynəlxalq təcavüz problemi barədə dissertasiya müdafiə edib, hüquq elmləri namizədi alimlik dərəcəsi almışdır. 1989-cu ildən Krakov (Polşa) Universitetinin fəxri professorudur. 1990-cı ildən H.Z.Tağıyev adına Xeyriyyə Cəmiyyətinin sədri və Azərbaycan PEN-klubunun vitse- prezidentidir. 1991-ci ildən Azərbaycan Yazıçılar Birliyinin katibidir. Bundan başqa, Beynəlxalq Yazıçılar İttifaqının üzvü, eyni zamanda Beynəlxalq Ədəbiyyat Fondunun həmsədridir. Azərbaycan Demokratik Ziyalılar İttifaqı nəzdində olan Milli Akademiyanın fəxri doktorudur. 1991-ci ildə o, Beynəlxalq cinayət problemi barədə doktorluq dissertasiyası müdafiə etmiş, hüquq elmləri doktoru adını almışdır.

O, ədəbi fəaliyyətə tələbəlik dövründən başlamışdır. 1983-cü ildən dövri mətbuatda oçerk, məqalə və detektiv janrında yazdığı hekayələrlə müntəzəm çıxış edir. Çingiz Abdullayevin əsərləri 18 xarici ölkədə 11 dilə tərcümə edilib çap olunur. Almaniyada, İrlandiyada, Fransada, Rusiyada kütləvi tirajla

buraxılmış, 20 milyon nüsxədə olan 600-dən çox kitabı dünyada yayılmışdır. Bütün bu kitablar onu siyasi detektiv janrında yazan ən yaxşı müasir yazıçı kimi tanıtdırmışdır. Fəxrlə deyə bilərik ki, həmyerlimiz, Xalq yazıçısı Çingiz Abdullayev cənub-şərqi Asiyadan tutmuş Latın Amerikasınacan geniş bir ərazini əhatə edən "Mavi mələklər" romanını yazmaqla dünya detektiv ədəbiyyatında yeni "qlobal siyasi detektiv" janrının əsasını qoymuş və bütün dünyada bu janrın ustası kimi şöhrət qazanmışdır.

Onun "Mavi mələklər", "İnsan ovu", "Qanın üç rəngi", "Əfsanə hüququ" və s. romanları çağdaş siyasi detektiv janrının zirvələridir. Gərçəkliklə fantaziyanın məntiqi şəkildə uzlaşması və bir-birini tamamlaması, dünyada baş verən ictimai-siyasi hadisələr barədə səhih informasiyalar, bir çox hallarda öz təsdiqini tapan siyasi proqnozlar, hamının tanıdığı dövlət xadimlərinin təsvirində heç bir komplekslərə qapılmamaq - bütün bunlar Ç.Abdullayevin siyasi detektivlərinin üstün cəhətlərindəndir. Yazıçının qələminin məhsulu olan "Cəhənnəmdən keçid", "Geri dönməmək", "Öz dünyanı yarat", "İnanılmaz qətl", "Atlantika üzərində ölüm", "Xammurapinin məcəlləsi", "Unudulmuş yuxu", "Yalnız özünün-külər", "Professionalların oyunları", "Professionalların qaydaları", "Günəş altında zülmət" kimi casus, "Döyüşçünün yolu", "Məhkumların cənnəti", "Eramızın əvvəlindəki sui-qəsd" kimi tarixi detektivlər və başqa rəngarəng üslublu detektiv romanlar göstərir ki, Ç.Abdullayev bu janrın bütün növlərində gözəl əsərlər yaratmağın mahir ustasıdır. Buna görə də onun yaradıcılığını araşdırarkən yalnız siyasi detektivlərlə kifayətlənmək düzgün olmaz.

Dövlət başçısı cənab İlham Əliyev 2005-ci il iyulun 12-də Çingiz Abdullayevi "Xalq yazıçısı" fəxri adı ilə təltif etmişdir.

Hazırda yazıçı üç kitab, bir böyük ssenari və dram üzərində işləyir.

Ədəbiyyat

Azərbaycan Respublikasının Prezidenti. Azərbaycan Yazıçılar Birliyi üzvlərinin təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: 12 iyul, 2005-ci il //Azərbaycan.- 2005.- 13 iyul.- S. 1.

Alçağın üslubu: Roman /tərc.Təbəssüm Muxtarova; red. Ə.Cəfərli.- B.: Çıraq, 2005.- 236 s.

Döyüşçünün yolu /tərc ed. K.Pərvin və Fidan.-B.: Cıraq, 2007.-302 s.

Mənim gözəl alibim /tərc.ed. T.Muxtarova.- B.:Nurlan, 2006.-166 s.

Monte-Mario təpəsində ölüm: roman /red. Ə.Cəfərli; tərc. Zeynəb Əliqızı.- B.: Çıraq, 2005.- 158 s.

Pəri busəsi: roman /tərc.ed. V.Məhərrəmli.- B.: Nağıl evi, 2007.-70 s.

Rus dilində

Распоряжение о награждении членов союза писателей Азербайджана: Президент Азербайджанской Республики И.Г.Алиеву //Бакинский рабочий.- 2005.- 13 июля.- С.1.

Власть маски: Роман /Чингиз Абдуллаев.- М.: Эксмо, 2007.- 314 с.

Время нашего страха: Роман /Чингиз Абдуллаев.- М.: Эксмо, 2007.- 320 с.

Заговор в начале эры: Роман /Чингиз Абдуллаев.- М.: Эксмо, 2007.- 503 с.

İnternetdə

www.ans.az
www.bizimasr.media-az.com
www.kitabklubu.org.
www.scond.narod.ru
www.wikipedia.org

Adilə Abdullayeva

Aprel

11

155 illiyi

Nəcəf Bəy Vəzirov
1854-1926

Yazıçı

Azərbaycan dramaturgiyasının inkişafında, milli teatrın yaradılmasında və inkişafında müstəsna rolu olan görkəmli şəxsiyyətlərdən biri də Nəcəf bəy Vəzirovdur.

Nəcəf bəy Fətəli bəy oğlu Vəzirov 1854-cü il aprel ayının 11-də Azərbaycanın ən gözəl guşələrindən biri olan Şuşa şəhərində doğulmuşdur. Uşaq ikən həm ailənin ağır vəziyyəti, həm də Nəcəfin özünün xəstə və bədəncə zəif olması onun vaxtında məktəbə getməsinə mane olmuşdur. O, 12 yaşında ilk təhsilini dini məktəbdə almış və bir ildən sonra Şuşa şəhərindəki mülkiyyə məktəbinə getmişdir. Lakin müəlliminin amansız rəftarı, uşaqları yerli-yersiz döyüb işgəncə verməsi yeniyetmə gənci məktəbdən uzaqlaşmağa məcbur etmiş və o, Şuşadan ayrılaraq 1868-ci ildə Bakıya getmişdir. O, imtahan verib realnı gimnaziyanın II sinfinə daxil olmuşdur. Gimnaziyanın son siniflərində oxuyarkən Nəcəf əlaçı bir şagird kimi tanınmış, hətta dövlətli uşaqlarına dərs deməklə məşğul olmuşdu. 1873-cü ildə, 6-cı sinifdə oxuyarkən Nəcəf bəy Vəzirov rus teatrına getmiş və teatrla ilk tanışlığı başlanmışdır. Bundan sonra Nəcəf bəydə milli teatr yaratmaq, ana dilində tamaşalar hazırlamaq fikri daha da qüvvətlənmişdi.

1873-cü ildə Həsən bəy Zərdabinin rəhbərliyi və Vəzirovun fəal iştirakı ilə Bakıda M.F. Axundovun "Hacı Qara" komediyası tamaşaya hazırlanmış və səhnəyə qoyulmuşdu. Hələ gimnaziyada oxuyarkən Nəcəf bəy ilk qələm təcrübəsi olan "Əti sənin, sümüyü mənim" komediyasını və "Qaragünlü" faciəsini yazmışdır. Həmin əsərlərdə köhnə cəmiyyətin əxlaq qanunları, mövcud təhsil sistemi, xüsusilə dini məktəblərdəki tədris üsulu tənqid olunmuş, pislən-

mişdi. 1874-cü ildə Nəcəf bəy Vəzirov realni gimnaziyanı müvəffəqiyyətlə bitirib, təhsilini davam etdirmək üçün Peterburqa getmiş, lakin burada qarşılaşdığı uğursuzluq onu Moskvaya getməyə məcbur etmişdir. Moskvaya qayıdan Nəcəf bəy sentyabrda Petrovski-Razumovski Meşə və Torpaqşünaslıq Akademiyasının Meşəçilik şöbəsinə daxil olmuşdur. 1878-ci ildə Nəcəf bəy Akademiyanı bitirərək meşəbəyi ixtisasına yiyələnmişdir. Qafqaz Canişinliyi Baş İdarəsinin nəzdindəki Dövlət Mülkiyyəti idarəsi tərəfindən Yelizavetpol (Gəncə) quberniyasının Tərtər nahiyəsinə III dərəcəli meşəbəyi təyin olunmuş, 1880-ci ilin iyul ayına qədər burada çalışmış və II dərəcəli meşəbəyi kimi İrəvan quberniyasının Dilican nahiyəsində fəaliyyət göstərmişdir. 1885-ci ildə müşavir Abbas bəy Haqverdiyevin qızı, gözəl tərbiyə və təhsil almış Xurşud xanımla evlənmiş və bu evlilikdən onun 3 övladı olmuşdur.

Rusiyada inqilabi-azadlıq hərəkatının yüksəlişi ilə əlaqədar olaraq Nəcəf bəy də siyasi etibarsızlıqda günahlandırılaraq meşəbəyi vəzifəsindən azad edilmişdir. 1895-ci ildə Bakıya köçən Vəzirov lazımi imtahanları verib vəkillik vəsiqəsi almış və məhkəmələrdə çalışmışdır. Burada o, uzun müddət ayrı düşdüyü bədii yaradıcılığını da davam etdirmişdi. "Daldan atılan daş topuğa dəyər"(1890), "Sonrakı peşimançılıq fayda verməz" (1890), "Adı var özü yox" (1891), "Yağışdan çıxdıq, yağmura düşdük" (1895) komediyalarını və Azərbaycan ədəbiyyatı tarixində faciə janrının əsasını qoymuş "Müsibəti Fəxrəddin" kimi klassik əsərini yaratmışdır.

Nəcəf bəy 1903-cü ildə Bakı Dumasına katib seçilmişdir. Az sonra şəhər maarif şöbəsi rəisinin müavini təyin edilmiş və əziz müəllimi Həsənbəy Zərdabi ilə birgə doğma xalqının maariflənməsi üçün yeni məktəblərin, müxtəlif tərbiyə ocaqlarının açılması işində yaxından iştirak etmişdir. 1905-ci il inqilabı N.Vəzirovun ədəbi, ictimai fəaliyyətinin genişlənməsi üçün münbit zəmin yaratmışdı. Maarifpərvər ədib bir tərəfdən Bakıda çıxan "Həyat", "İrşad", "Tazə həyat", "Açıq söz" və s. qəzetlərdə "Dərviş" imzası ilə felyetonlar yazmış, digər tərəfdən dram dərnəklərinə rəhbərlik etmiş, Azərbaycanda teatr sənətinin inkişafı, aktyor nəslinin yetişməsi üçün yorulmadan fəaliyyət göstərmişdir.

1913-cü il noyabr ayının 15-də "Səfa" maarif cəmiyyəti Nəcəf bəy Vəzirovun ədəbi fəaliyyətinin 40 illiyi münasibətilə Bakıda təntənəli yubiley gecəsi keçirmişdir. Bu illərdə o, "Pul düşgünü Hacı Fərəc" komediyasını, "Təzə əsrin ibtidası" dramını yazmış, böyük fransız yazıçısı Jan Batist Molyerin "Xəsis" komediyasını "Ağa Kərimxan Ərdəbili", fransız məzhəkəsi "Vəkil Patelen"i isə "Dələduz" adı ilə təbdil etmişdir.

Keçən əsrin 20-ci illərindən Vəzirov Bakıda Kənd Təsərrüfatı Texnikumunda müəllim işləmişdir. 1926-cı ilin yayında N.Vəzirov təcrübə məşğələləri aparmaq üçün tələbələrlə birlikdə Şamaxıya - Çuxuryurda getmiş və iyulun 9-da orada vəfat

etmişdir. Yazıçının cənazəsi Bakıya gətirilmiş, iyulun 12-də dəfn olunmuşdur.

Ədəbiyyat

Seçilmiş əsərləri /tərt. X. Məmmədov; red. Z. Əsgərli.- B.: Maarif, 2002.- 291 s.- (Məktəb kitabxanası)

Əsgərli, Z. Nəcəf bəy Vəzirov.- B.: Şuşa, 1998.- 56 s.

Əsgərli, Z. Millət, vətən aşiqi: Nəcəf bəy Vəzirov-150 //Azərbaycan.- 2004.- № 5.-S. 144-147.

Əsərləri /tərt. D.Məmmədova; red. Ə. Mirəhmədov.- Təkrar nəşr.- B.: Şərq-Qərb, 2005.- 421 s.- (Klassik Azərbaycan ədəbiyyatı)

Məmmədov, K. Nəcəf bəy Vəzirov.- B.,1995.- 328 s.

Məmmədova, D. Nəcəf bəy Vəzirovun yubiley təntənəsi //Azərbaycan.- № 5.- 2004.- S. 148-150.

Rus dilində

Аскерли, З. Трагедия «Горе Фахреддина».-Б.: Элм, 2003.-160 с.

İnternetdə

www.azerbaijan.new
www.azerilobbi.com
www.az.wikipedia.org
www.bizimasr.media-az.com
www.elm.az
www.kitabxana.iatp.az
www.sazeri.iblog.com

Adilə Abdullayeva

Aprel

12

120 illiyi

Seyid Şuşinski
1889-1965

Xanəndə

Mir Möhsün ağa Seyid İbrahim oğlu Şuşinski 1889-cu ildə aprel ayının 12-də Şuşa qəzasının Horadiz kəndində anadan olmuşdur. Gənc Seyid ilk təhsilini Horadiz mədrəsəsində almış, oranı bitirdikdən sonra dərzilik sənəti ilə məşğul olmuşdur. Lakin buna baxmayaraq, hərdən dini mərasimlərdə və xalq şənliklərində çıxış etmişdir. Seyidin peşəkar bir xanəndə kimi yetişməsində Azərbaycanda xanəndəlik sənətinin beşiyi olan Qarabağın və dahi xanəndə Cabbar Qaryağdı oğlunun çox böyük təsiri olmuşdur.

Böyük sənətkar şuşalılar qarşısında ilk dəfə olaraq 1908-ci ildə çıxış etmişdir. Seyid Şuşinski xüsusi musiqi məktəbi bitirməmişdir. Lakin o, öz fitri istedadı və bacarığı sayəsində hələ gənclik illərində dövrünün məşhur musiqişünaslarından, özündən yaşlı xanəndə və tarzənlərdən musiqi elminin sirlərini dərindən öyrənmişdir.

XX əsrin əvvəllərində Zaqafqaziyanın inzibati mərkəzi Tiflisdə bir sıra mədəniyyət ocaqları açıldı. 1912-ci ildə Tiflisdə yazıçı C.Məmmədquluzadənin və maarifçi Əlimirzə Nərimanovun təşəbbüsü ilə şəhərin azərbaycanlılar yaşayan hissəsində ("Şeytanbazar"da) açılan "Auditoriya" klubunun təşkilinə Seyid yaxından kömək göstərmişdir. Klubun açılışı günü burada Şuşinskinin rəhbərliyi ilə "Şərq konserti" təşkil olunmuşdur.

Seyid Şuşinski konsertdən əldə olunan pulun hamısını kluba bağışlamışdı. Seyid bir "messenat" kimi daima həm teatra, həm də teatrda iştirak edən artistlərə maddi yardım göstərmişdir.

S.Şuşinski həm də istedadlı bir səhnə ustası idi. O, 1916-1919-cu illərdə Bakıda, Şuşada, Tiflisdə, Vladiqafqazda, Batumda, Mahaçqalada və Dərbənddə səhnəyə qoyulan opera tamaşalarında müvəffəqiyyətlə

çıxış etmiş, xalqın rəğbətini qazanmışdır.

Hətta S.Şuşinski 1924-1926-cı illərdə Azərbaycan Dövlət Akademik Dram Teatrının artisti olmuşdur. O, teatr tamaşalarında bir çox rollarda çıxış etməklə, səhnə sənətinin inkişafına böyük kömək göstərmişdir.

1926-cı ildə Bakı şəhərində "Böyük Şərq konserti" təşkil edilmişdir. Bu konsertdə Cabbar Qaryağdı oğlu, Bülbül, Əli Zülalov, Qurban Pirimov, Saşa Oqanezaşvili, Eloğlu İsmayıl ilə birlikdə S.Şuşinski də çıxış etmiş, "Mahur" və "Mani" muğamlarını böyük məharətlə ifa etmişdir.

Böyük sənətkar həm də görkəmli pedaqoq idi. Azərbaycan xanəndələrinin böyük bir nəsli onun tələbəsi olmuşdur.

Seyid Şuşinskiyə Azərbaycan musiqi mədəniyyətinin inkişafı tarixindəki xidmətlərinə görə Azərbaycan SSR Xalq artisti adı verilmiş, "Şərəf Nişanı" ordeni və bir sıra medallarla təltif edilmişdir. Böyük xanəndə Azərbaycan SSR Əməkdar müəllimi fəxri adına da layiq görülmüşdür. S.Şuşinski ömrünün son günlərinədək öz gözəl sənəti ilə xalqına sədaqətlə xidmət etmiş, 1965-ci ilin noyabr ayının 1-də vəfat etmişdir.

Ədəbiyyat

Şuşinski, F. Seyid Şuşinski.-Təkmil. təkrar nəşr .- B.: İşıq, 1991.- 181 s.

Xəlilzadə, F. "Şərq musiqisinin bahadırı": [Seyid Şuşinski – 115] //Azərbaycan.- 2004.- 13 aprel.- S.7.

Salmanov, R. Şərq musiqi dünyasının incisi Seyid Şuşinskinin xatirə gecəsi: ("Vahid" poeziya evində keçirilmiş tədbir haqqında) //Xalq qəzeti.- 2004.- 13 oktyabr.- S. 8.

Seyid Şuşinski //Qarabağ xanəndələri.- B.: "Azərb. Mədəniyyətinin Dostları" fondu, 2005.- S. 20-21.

Vəhədzadə, S. Böyük müğənni, əməkdar müəllim: Seyid Şuşinski xalq musiqisinin çırpınan ürəyi idi //Azərbaycan mədəniyyəti və incəsənəti.- 2005.- 20 yanvar.- S. 2.

Rus dilində

Шушинский, Ф. Сеид Шушинский //Народные певцы и музыканты Азербайджана.-М.: Сов. композитор, 1979.- С. 150-171.

Səmayə Quliyeva

Aprel

13

80 illiyi

Tofiq Mütəllibov
1929-1992

Şair



Tofiq Mütəllim oglu Mütəllibov 1929-cu il aprelin 13-də Naxçıvan şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra ADU-nun Filologiya fakültəsində təhsil almışdır (1958-1963). 1946-cı ildə "Zəfər" adlı ilk şeiri "Azərbaycan pioneri" qəzetində çıxmışdır.

Mütəllibov "Pioner" jurnalında məsul katib, Azərbaycan Dövlət Radio və Televiziya Verilişləri Komitəsində redaktor, böyük redaktor, baş redaktor olmuşdur. Sonralar "Azərbaycan gəncləri" qəzetində ədəbiyyat, incəsənət və mədəniyyət şöbəsinin müdiri vəzifəsində işləmişdir. Şairin 300-dən artıq şeirinə mahnı bəstələnmişdir. Onun məşhur "Cücələrim" şeirinin musiqisini bəstəkar Q. Hüseynli bəstələmişdir.

T.Mütəllibovun əsərləri dünya xalqlarının dilində çap olunub yayılmışdır. 1981-ci ildə Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrında "Meşə nağılı", 1982-ci ildə "Danışan qayalar" pyesləri, 1984-cü ildə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında isə "Cücələrim" alleqorik pyesi tamaşaya qoyulmuşdur. 1968-1990-cı illərdə SSRİ Yazıçılar İttifaqının Uşaq və Gənclər ədəbiyyatı şurasının üzvü olmuşdur. 1970-ci ildə SSRİ-Çexoslovakiya Dostluğu Cəmiyyəti Azərbaycan şöbəsi İdarə Heyətinin üzvü seçilmişdir. 1955-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur. 1986-cı ildə Azərbaycan Yazıçılar İttifaqı Təftiş Komissiyasının üzvü seçilmişdir. 1988-ci ildə "Ədəbiyyat və incəsənət" qəzeti redaksiya heyətinin üzvü seçilmişdir. 1989-cu ildə Azərbaycan SSR-nin Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür. Üç dəfə Azərbaycan SSR-nin Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilmişdir.

1992-ci il noyabrın 2-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Durnalar qanadında.-B.: Gənclik, 1992.- 205 s.

Qövsi-qüzeh.- B.: Gənclik, 1990.-170 s.

B.: Yazıçı, 1991.-279 s.

Sevənlərin ürəyi . –

Vüqarın nəgmələri.-B.: Gənclik, 1987.-160 s.

Babayev, A. Tofiq ömrü nağıllaşdı…Əməkdar incəsənət xadimi şair Tofiq Mütəllibovun anadan olmasının 75 illiyi

münasibətilə //Vəfa.-2004. - № 4.- S. 16-19.

//Xalq qəzeti.-1999.-26 may- S . 5.

Vəliyev, S. O, yaxşılıq qoyub getdi. Yazıçının arxivindən. (Şair Tofiq Mütəllibov haqqında)

İnternetdə

www.adalet-az.com

www.azerbaijan.news.az

www.dil-tarix-poeziya.iatp.az

www.xalqqazeti.com

www.paralel.az

www.varliginsesi.com

Saqibə Mehrəliyeva

Aprel

14

265 illiyi

Denis İvanoviç Fonvizin
1744-1792 Rus yazıçısı

Rus ədəbiyyatında maarifçi realizmin görkəmli nümayəndəsi kimi tanınan, milli komediyanın banisi Fonvizin Denis İvanoviç 14 aprel 1744-cü ildə zadəgan ailəsində anadan olmuşdur. 1755-1762-ci illərdə Moskva Universitetinin nəzdində gimnaziyada oxumuşdur. 1762-ci ildə Peterburq şəhərinə köçmüş, tərcüməçilik ilə məşğul olmuşdur. "Xəzinədar tülkü" (1762) təmsilində və "Nökərlərimə məktublar"ında (1764-1766) təhkimçiliyə tənqidi münasibət öz əksini tapmışdır. Onun "Briqadir" (1768-1769) məişət komediyasında əcnəbi mədəniyyətə sitayiş masqaraya qoyulur.

"Nadan övlad" (nəşri 1783, tamaşası 1782) satirik komediyasında təhkimçilik, zadəgan əxlaqı, hakim təbəqələrin kütbeyinliyi ifşa olunur. Fonvizinin publisistik məqalələri, xatirələri var. Yaradıcılığı realist rus ədəbiyyatı və teatrın inkişafına güclü təsir göstərmişdir.

12 dekabr 1792-ci ildə Peterburq şəhərində vəfat etmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri.- B.: Sərq-Qərb.-2006.-157 s.

Rus dilində

Избранные сочинения.- М.: Художественная литература.-1989.-607 с.

Бригадир; Недоросль; Сатирическая проза; Письма из Петербурга.- М.: Советская Россия.- 1987.-268 с.

Pərvanə Qurbanova

Aprel

16

120 illiyi

Çaplin Çarls Spenser 1889-1977

Amerika rejissoru

16 aprel 1889-cu ildə Londonda anadan olmuşdur. Çarls Çaplin - amerika rejissoru, aktyoru, ssenaristidir. Mənşəcə ingilisdir. Müzik-holl aktyorları ailəsindəndir. 8 yaşından səhnədə çıxış etməyə başlamışdır. 1907-1912–ci illərdə F.Karnonun pantomimo truppasında istedadlı komediya aktyoru kimi yetişmişdir. Çaplin 1913-cü ildə M.Sennetin rəhbərlik etdiyi "Kestoun" şirkəti ilə müqavilə bağlamış, 1914-cü ildə "Dolanacaq pulu qazanarkən" qısametrajlı kinokomediyasında çəkilmişdir.

M.Sennetin qısametrajlı komediya filmlərində iştirakı, Çaplinin komik ustalığının inkişafı üçün məktəb olmuşdur. Çaplin 1914-cü ildə rejissorluq fəaliyyətinə başlamış, sonralar əsasən öz filmlərində aktyor, rejissor, çox vaxt həm də bəstəkar kimi çıxış etmişdir. Çaplinin yaradıcılığında qrotesk və parodiya üslubları, eləcə də, pantomima, xalq teatrı, müzik holl və sirk sənətlərinin ifadə vasitələri əhəmiyyətli yer tutmuşdur. 1915-1918-ci illərin filmlərində "Səfil", "İş", "Müzik-holl axşamı", "Avantürist", "Borc dükanı", "Sakit küçə", "Mühacir", "İt günü", "Silahı çiyninə al" və "Balaca"(1920) filmində komediya formasının kamilliyinə nail olm uşdur.

Çaplinin filmlərində komiklik faciəliklə qovuşur, onun qəhrəmanı kapitalist cəmiyyəti tərəfindən rədd olunmuş yoxsullar dünyasını təcəssüm etdirmişdir. Çaplin 1923-cü ildən tammetrajlı "Parisli qız" (1923), "Qızıla həris-lik" (1925) və "Sirk" (1928) filmlərini çəkmişdir. Dünya kinokomediyasının inciləri sayılan bu filmlərdə burjua cəmiyyətinin ifşası sadə və məzlum adamlara dərin mütəəssirlik duyğusu ilə uyuşdurulmuşdur.

"Balaca adam"ın səadət ümidlərinin qeyri-reallığı, onun ictimai ədalətsizlik

əleyhinə mübarizəsinin faciəsi səmərəsizliyini əks etdirən "Böyük şəhərin işıqları" (1931) və "Yeni əyyamlar" (1935) filmlərində komediya şərtliliyi qəhrəmanın məhəbbət yolunda tamaşaçıları riqqətə gətirən mətanəti, zirəklik və tədbirliliyi, yüksək humanizmi vəhdət təşkil edir. "Böyük diktator"(1940) satirik filmi Çaplinin yaradıcılığında və onun əqidəsinin təkamülündə mühüm mərhələdir. Çaplinin kapitalizm cəmiyyətinin riyakarlığını ifşa edən "Müsyo Verdi" (1947) filmi ABŞ-ın mürtəce dairəsinin qəzəbinə səbəb olmuşdur. "Səhnə işıqları" (1952) filmində müəllifin incəsənət və istedad, məhəbbət və qocalıq haqqında düşüncələri poetik əksini tapmışdır. Çaplin təqiblər nəticəsində Hollivudu tərk etmiş, 1952-ci ildə İsveçrəyə köçmüşdür. O,1957-ci ildə Böyuk Britaniyada, amerikan həyat tərzini satira atəşinə tutan kədərli "Kral Nyu-Yorkda" filmini, 1967-ci ildə isə "Honqkonqlu qrafinya" romantik komediyasını yaratmışdır.

1982-ci ildə böyük Britaniya televiziyasında Çaplinin ilk komediya filmləri üzərində necə işləməsi barədə "Film necə yaranır" sənədli film çəkilmişdir.

Dramatik, lirik və yumoristik səhnələri və vəziyyətlərin üzvi uyarlığı Çaplinin filmlərinin ən diqqətəlayiq cəhətlərindəndir. Böyük artist, humanist, rejissor olan Çaplin dünya kinosunun inkişafına böyük təsir göstərmişdir. O, 25 dekabr 1977-ci ildə vəfat etmişdir.

Ədəbiyyat

Səhnə işıqları.- B.: Gənclik.-1973.-119 s.

Rus dilində

О себе и своем творчестве /перевод с англ. сост. и предисловие, комментарии Кукарина.- М.: Искусство.-1990.-Т.-1.-350 с. ; Т.2.-348 с.

Робинсон, Д. Чарли Чаплин: Жизнь и творчество /перевод с англ. предисловие Э.Рязанова .- М.: Радуга, 1990.- 669 с.

Зоркий, А. Сколько живет фильм? /О творчестве Чарли Чаплина //Литературная газета.- 1977 .-23 марта.- С. 8.

Сименон, Ж. Он был защитником демократии /О Чарли Чаплине //Литературная газета.- 1978 .-8 февраля.- С.10.

Шальнев, А. И в смерти как в жизни /Памяти Чаплина //Советская культура.- 1978.- 27 января.- С.14.

Pərvanə Qurbanova

Aprel

16

75 illiyi

Ramiz Mirişli
1934

Bəstəkar

Bəstəkar R.Mirişli 1934-cü il aprel ayının 16-da Naxcıvan şəhərində anadan olmuşdur. 1937-ci ildə Üzeyir Hacıbəyovun təşəbbüsü ilə Naxçıvanda açılan ilk musiqi məktəbində kamança sinfində təhsil almış, məktəbi bitirdikdən sonra Bakıda Asəf Zeynallı adına Orta İxtisas Musiqi məktəbinin Xalq Çalğı Alətləri şöbəsinin birbaşa II kursuna qəbul olunmuşdur. 1954-cü ildə məktəbi bitirib Naxçıvan şəhərinə qayıtmış, uşaq musiqi məktəbində həm kamançadan, həm də musiqi nəzəriyyəsi fənnindən dərs demişdir. O, 1957-ci ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında Cövdət Hacıyevin sinfində Bəstəkarlıq şöbəsində təhsil almışdır. R.Mirişli oxuduğu illərdə Azərbaycan Teleradio Verilişləri Komitəsinin Xalq Çalğı Alətləri Orkestrində birinci kamança vəzifəsini tutmuşdur. Bu dövrlərdə bəstəkar fortepiano üçün prelyüdlər, sonatino, simfonik poema, simli kvartet, romanslar bəstələmişdir. 1964-cü ildə o, keçmiş SSRİ Bəstəkarlar İttifaqına üzv qəbul olunmuşdur.

R.Mirişli uzun illər F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının bədii rəhbəri olmuşdur. 1964-cü ildə o, Azərbaycanda ilk dəfə olaraq mahnı janrında yallı rəqs ritminə müraciət etmiş və "Bayram axşamlarında" mahnısını yazmışdır. Mahnı onun ən sevimli janrıdır. O, 300-dən çox mahnının müəllifidir.

Muğamlarımıza dərindən yiyələnən Ramiz mürəkkəb ladlarımızdan istifadə edib "Oxu tar", "Oxu bülbül" kimi vokal əsərlər yaratmış, 1981-ci ildə C.Məmmədovun librettosu əsasında "Qaçırılmış qız" operettasını yazmışdır. Bəstəkar "Gəl qohum olaq" operettasının da müəllifidir.

R.Mirişli teatr və kino janrlarına da müraciət etmiş, Ə.Əylislinin "Nəğməkar bibim", Teymur Elçinin "Qar qız" və s. bir sıra bu kimi dram əsərlərinə musiqi bəstələmişdir.

C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında A.Babayevin "Alma almaya bənzər", T.Tağızadənin "Evdə kişi var", E.Qasımovun "Köhnə bərə", Ş.Əkbərovun "Səhrasız gecə" kinofilmlərinə, S.Rüstəm, Naxçıvan MR-sı, T. Mütəllibov haqqında filmlərin, "Bacarıqlı əllər" adlanan sənədli filmin, uşaqların sevə-sevə baxdıqları "Tıq-tıq xanım", "Dost axtatıram", "Kirpi və alma" və s. cizgi filmlərinin musiqisi R.Mirişlinindir.

Nizami Gəncəvinin qəzəlinə solist, xor və simfonik orkestr üçün "Peyğəmbərin tərifi" vokal poemasını (1997), "Qəzəlxan" bədii filminə musiqi bəstələmişdir.

Bəstəkar pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. O, 1986-cı ildən dosent, 1993-cü ildən isə professordur.

Musiqi mədəniyyətimizin inkişafındakı xidmətlərinə görə R.Mirişli Naxçıvan MR-ın Əməkdar incəsənət xadimi (1974), Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi (1982), Azərbaycan Respublikasının Xalq artisti (1990) və "Şöhrət" ordeninə layiq görülmüşdür.

Ədəbiyyat

Azərbaycan, dünyam mənim [Not]: fortepiano ilə oxumaq üçün mahnılar.- B.: İşıq, 1978.- 49 s.

Kamança məktəbi [Not]. - B.: Azərnəşr, 1970.- 118 s.

Mahnılar [Not]: fortepiano ilə oxumaq üçün.- B.: Azərnəşr, 1968.-16 s.

Oxu tar [Not]: fortepiano ilə oxumaq üçün mahnılar.- B.: İşıq, 1981.- 32 s.

Sənin bircə təbəssümün [Not]: fortepiano ilə oxumaq üçün mahnılar.- B.: Azərnəşr, 1973.- 45 s.

Bünyadov, T. Hikməti heyrətdi...: (Bəstəkar Ramiz Mirişlinin anadan olmasının 70 illiyi haq.)

//Yeni Azərbaycan.- 2004.- 3 iyun.- S. 5.

Qocayeva, A. Yaratdıqları ilə yaşayacaq bəstəkar : [Ramiz Mirişli ilə söhbət]

//Respublika.- 2004.-3 dekabr.- S. 4.

Rus dilində

Лишь твоя улыбка [Ноты]: Песни для голоса в сопровожд.ф.-но.- Б.: Азернешр, 1973.-45 s

Səmayə Quliyeva

Aprel

20

115 illiyi

Rza Təhmasib
1894-1980

Rejissor

Rza Təhmasib – Azərbaycan aktyoru, rejissoru, pedaqoq, Azərbaycanın Əməkdar incəsənət xadimi 1894-cü ildə aprelin 20-də Naxçıvanda anadan olub. 1910-cu ildə Tbilisi şəhərində azərbaycanlı aktyorlar truppasında, sonra Bakı şəhər neft-mədənlərində işləmiş, 1917-1920-ci illərdə isə yenidən ana vətəni Naxçıvana qayıdıb müəllimlik etmişdir. Onun ilk müstəqil rejissor işi Naxçıvan teatrında C.Məmmədquluzadənin "Ölülər" pyesi ilə başladı. Daha sonra Tbilisi və Yerevan teatrlarında aktyor və rejissor işləmişdir.

1934-1937- ci illərdə Təhmasib Moskva Dövlət Kinematoqrafiya İnstitutunun rejissorluq fakültəsində təhsil almışdır. Sovet kinosunun görkəmli, bənzərsiz xadimi S.Eyzenşteyin ona Moskvada birgə işləməyi təklif edəndə "Mənə Azərbaycanda daha çox ehtiyac var"- deyərək vətənə qayıtmışdır.

O, M.Əzizbəyov adına ADDT-nın səhnəsində "Şeyx Sənan", "Vəfa", "Sevil", "Madrid" və başqa pyesləri uğurla tamaşaya qoymuşdur. R.Təhmasib eyni zamanda kino sahəsində də böyük yaradıcılıq yolu keçmişdir. Onun "Azərbaycanfilm" Kinostudyasında Hacıbəyovun "Arşın mal alan" komediyası, "On birdən biri", "Səbuhi", "Bakının işıqları", "Mahnı belə yaranır", "Onu bağışlamaq olarmı" filmləri tamaşaçıların rəğbətini qazandı. 1937-ci ildən R.Təhmasib ömrünün axırına kimi M.Əliyev adına ADİİ-da müəllim kimi çalışmış, aktyor sənəti kafedrasının müdiri olmuşdur. R.Təhmasib məktəbi elə sənətkarlar yetişdirmişdir ki, onlar bu gün də ölkəmizin teatrlarında, "Azərbaycanfilm"kinostudiyasında, radio və televiziyada, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində böyük uğurla işləyirlər. R.Təhmasib 1946-cı ildə Azərbaycan Əməkdar incəsənət xadimi, Xalq artisti, dövlət mükafatı laureatı adlarına layiq görülmüşdür. 1980-ci il 14 fevralda Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Təhmasib, T. R. Təhmasib .- B., 2005.- 272 s.

Alıqızı, M. Sənət işığı: [Rza Təhmasib və başqa korifeylər haqqında] //Azad Azərbaycan.- 2008.- 16 mart.- S. 7.

"Bir ailə": Sevimli kinolarımız: Kadrarxası: Sovet kinosunun ulduzu Lyubov Orlova Azərbaycan filmində: [Ssenari müəllifi-Mir Cəlal, quruluşçu rejissor R.Təhmasib olan eyni adlı film haqqında] //Ekspress.- 2007.-24-26 fevral.- S.18.

Qəhrəmanov, Ə. Mənalı ömrün iziylə: [Rza Təhmasib- 110] //Yeni Azərbaycan.- 2004.- 10 iyul.- S. 6.

"Mahnı belə yaranır": Sevimli kinolarımız: Kadr arxası: [Ssenari müəllifi R.Təhmasib və Roman Fatiyev] //Ekspress.- 2007.- 10-12 fevral.- S. 18.

Səhnə onun həyatı idi...: [Əməkdar incəsənət xadimi, Xalq artisti R.Təhmasibin 113 yaşının tamam olması haqqında] //Xəzər qəzeti.- 2007.- 21 aprel.- S. 19.

Günay Səfərova

Aprel

20

80 illiyi

Çingiz Hüseynov
1929

Yazıçı

Çingiz Həsən oğlu Hüseynov 1929-cu il aprel ayının 20-də Bakı şəhərində anadan olmuşdur.

Ç.Hüseynovun "Novruzgülü" povesti hələ 60-cı illərin əvvəllərində ədəbi ictimaiyyətin nəzərini cəlb etmişdi. Yazıçı öz əsərlərində ciddi əxlaqi problemlərdən bəhs edir, oxucuları mənəvi təmizliyə, saflığa çağırır. Yazıçı 1978-ci ildə filologiya elmləri doktoru, 1979-cu ildə professor adına layiq görülmüşdür.

Müəllif 1981-ci ildə yazdığı "Fətəli fəthi" romanını M.F.Axundova həsr etmişdir.

Moskvada yaşayıb-yaradan Çingiz Hüseynovun Azərbaycan ədəbiyyatına, ədəbiyyatın nəzəri problemlərinə dair monoqrafiyaları, ədəbi-tənqidi məqalələri vardır.

Ç.Hüseynov M.Ə. Sabir, C.Məmmədquluzadə, S.Vurğun, H.Mehdi, Əbülhəsən və başqalarının əsərlərini rus dilinə tərcümə etmişdir.

Ədibin əsərləri bir sıra xalqların dillərinə tərcümə edilib, povest və hekayələri Bolqarıstan, Polşa, Macarıstan, Çexoslavakiya, ADR və ABŞ-da nəşr olunmuşdur.

Ç.Hüseynovun yüksək ixtisaslı kadrların hazırlanmasında çox böyük xidmətləri vardır.

Ədəbiyyat

Adalar: Hekayələr və povestlər.-B.:Gənclik.-1980. - 308 s.

Fətəli fəthi: Roman.- B.- Yazıçı, 1986.- 712 s.

Nəbiyev, B. Söz ürəkdən gələndə .- B.: Yazıçı, 1984.- S.99-104.

Rus dilində

Восточные сюжеты.- М., 1980.

Mətanət İbrahimova

Aprel

23

445 illiyi

Vilyam Şekspir 1564-1616

İngilis dramaturqu



Dahi ingilis dramaturqu və şairi Vilyam Şekspir 1564-cü il aprel ayının 23-də Stratford-on-Eyvon şəhərində anadan olmuşdur. Uşaqlıq, gənclik illərini doğma şəhərində keçirmiş, qrammatika məktəbində təhsil almışdır. Şekspir 80-ci illərin sonunda Londona gəlmiş, teatr mühitində dolaşmış, peşəkar aktyor, az sonra isə dramaturq kimi fəaliyyət göstərmişdir. Yaradıcılığının ən səmərəli illəri Londonun məşhur teatrlarından olan "Qlobus" la bağlıdır. Vilyam təqribən 1612-ci ildə Londonu tərk edərək Stratforda qayıtmış, ömrünün sonunadək burada yaşamış və üç ildən sonra vəfat etmişdir.

Şekspir 37 pyesin- komediyaların, tarixi dramların, faciələrin, habelə "Venera və Adonis" (1593), "Lukretsiya"(1594) poemalarının, çoxlu sonetlərin müəllifidir. "Hamlet", "Otello", "Makbet", "Kral Lir" kimi əsərlər Qərb ədəbiyyatının inciləri sayılır. Azərbaycanda ilk dəfə Şekspirin "Otello" faciəsi 1903-cü ildə N.Vəzirovun tərcüməsində Şuşada oynanılmışdır. Həmin əsər 1910-cu ildə Bakıda tamaşaya qoyulmuşdur və dəfələrlə Milli Teatrın səhnəsində oynanılmışdır.

Ədəbiyyat

Seçilmiş əsərləri : 2 cilddə -B.: Öndər, 2004.- (Dünya uşaq ədəbiyyatı)

Rəhimli, E. Azərbaycan dilində danışan Şekspir //Mədəni-maarif.- 2005.- № 8.- S. 37.

İnternetdə

www.biyografi.net
www.xariciedebiyyat.azeriblog.com
www.sekspir.wordpress.com
www.wikipedia.org

Adilə Abdullayeva

Aprel

25

95 illiyi

Məmməd Bürcəliyev
1914-1994

Aktyor

Azərbaycan Respublikasının Xalq artisti Məmməd İsmayıl oğlu Bürcəliyev 25 aprel 1914 -cü ildə Şəki şəhərində anadan olmuşdur.

Teatr sənətinə 30-cu illərdə qədəm basan M.Bürcəliyev həyatının ən mənalı cağlarını Gəncə Dövlət Dram Teatrının inkişafına həsr etmiş, 60 il müddətində zəngin və bitkin obrazlar yaratmaqla tamaşaçı qəlbinə yol tapmış və sənətsevərlərin rəğbətini qazanmışdır.

O, M.İbrahimovun "Kəndçi qızı", S.Vurğunun "Fərhad və Şirin", C.Məmmədquluzadənin "Ölülər" və başqa tamaşalarda gözəl obrazlar yaratmışdır. "Mən ki, gözəl deyildim", "Dəli Kür" filmlərinə çəkilmişdir.

Gözəl yumor ustası kimi tanınan sənətkar həyat həqiqətlərini sənət dili ilə xalqa çatdırmaq üçün var qüvvəsi ilə çalışmışdır.

Aktyorun rejissorluq fəaliyyəti nəticəsində neçə-neçə ədəbi əsər Gəncə teatrının səhnəsində müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur.

Səhnə fədaisi Məmməd Bürcəliyev 1958-ci ildə Xalq artisti adına layiq görülmüşdür.

O, uzun illər Azərbaycan Teatr Xadimləri İttifaqının Gəncəbasar şöbəsinin sədri olmuşdur.

Görkəmli aktyor M.Bürcəliyev 1994-cü il noyabrın 25-də 81 yaşında vəfat etmişdir.

Ədəbiyyat

Ələsgərli, Ç. Əsrin dizlərini qatlayan kişi: M.Bürcəliyev-80 //Mədəniyyət.-1994.-23 aprel.-S. 2.

Həqiqət duyğusu //Ədəbiyyat və incəsənət.-1990.-28 sentyabr.- S.7.

Xoş ovqat da bir nemətdir //Kommunist.-1989.-12 mart.- S. 4.

İnqilab. Kollektivin istedadlı üzvü: /M.Bürcəliyev haqqında/ //Ədəbiyyat və incəsənət.-1984.- 7 dekabr.- S. 7.

Elmira Şirəliyeva

Aprel

29

90 illiyi

Əjdər İbrahimov
1919-1993

Kinorejissor

İbrahimov Əjdər Mütəllim oğlu 1919-cu il aprel ayının 29-da Türkmənistanın Aşqabad şəhərində fəhlə ailəsində anadan olmuşdur. Səkkiz yaşında atasını itirdiyindən kərpic zavodunda fəhləlik etmiş, 11 yaşında orta məktəbə daxil olmuş, məktəbin özfəaliyyət dərnəyində ciddi çalışmışdır. 1937-ci ildə Aşqabadda Azərbaycan Musiqili-Dram Teatrında aktyorluq etmiş, eyni zamanda teatr məktəbində təhsil almışdır.

Ə.İbrahimov 1942-ci ilin martında ordu sıralarına çağırılmışdır. Aşqabadda piyada hərbi məktəbi, sonra əlahiddə zabitlər məktəbini leytenant rütbəsi ilə bitirmişdir. İkinci Dünya müharibəsində yaralandığına görə 1945-ci ildə ordudan tərxis olunmuşdur. Bundan sonra 1945-1946-cı ildə Türkmənistan Dövlət Filarmoniyasında direktor müavini vəzifəsində çalışmışdır. 1946-1952-ci illərdə Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun Rejissorluq fakültəsində təhsilini davam etdirmişdir. Bir müddət Aşqabad kinostudiyasında işləmiş, "Firuzə" (1953), "Xəzərin şərqində" (1953) mənzərə filmlərinin rejissoru olmuşdur. Sonra 1954-1959-cu illərdə Bakı Kinostudiyasında fəaliyyəti dövründə "Bir məhəlləli iki oğlan", "Onun böyük ürəyi" bədii filmlərini çəkmişdir. Sonralar çəkdiyi "26 Bakı Komissarı" (1966), "Ulduzlar sönmür" (1960), "Urək məsələləri"(1973), "Məhəbbətim, kədərim mənim" (1978) filmləri onun kino rejissoru kimi yüksəlişini göstərir.

Vyetnam Demokratik Respublikasına ezamiyyətdə olduğu müddət ərzində ilk milli kino məktəbinin yaradılmasında, milli aktyor və rejissor kadrlarının hazırlanmasında fəal iştirak etmişdir. O, 1959-1962- ci illərdə kino sənəti məsələləri üzrə məsləhətçi və Hanoy kino məktəbində müəllim ol-

muşdur. Burada onun rəhbərliyi və yaxın köməyi ilə "Bir payız günündə", "Cüllüt" (1962), "İki əsgər" filmləri çəkilmişdir. 1962-ci ildən "Mosfilm" kinostudiyasında quruluşçu rejissor işləyir. "Mosfilm" kinostudiyası baş bədii şurasının üzvü, rejissorlar bölməsinin sədr müavini olmuşdur.

Ə.İbrahimov Moskva Mədəniyyət İnstitutunda kinorejissorluq üzrə müəllim, "Azərbaycanfilm" kinostudiyasında bədii rəhbər, "Türkmənfilm" və "Qazaxfilm"in çəkdikləri bir sıra filmlərin bədii rəhbəri olmuşdur.

Bədii yaradıcılığa 1948 -ci ildə "Türkmənistan" jurnalında çap etdirdiyi "Möcüzə" hekayəsi ilə başlamışdır. Bundan sonra hekayə, oçerk, povest və ssenarilərini rus, türkmən və Azərbaycan dillərində yazıb yaratmışdır.

Əjdər İbrahimov xidmətlərinə görə 1971-ci ildə "Şərəf nişanı", 1976-cı ildə "Qırmızı Əmək Bayrağı", 1979-cu ildə "Xalqlar dostluğu" ordenləri ilə, eləcə də 1962-ci ildə Vyetnamın II dərəcəli "Əmək ordeni" və "Dostluq" medalı ilə təltif edilmişdir.

Ədəbiyyat

Vyetnamda gördüklərim.- B.: Azərnəşr, 1964.-120 s.

Günəş ağlayır.- B.: Azərnəşr, 1978.- 96 s.

İbrahimov, Ə. Moskvada anıldı: (Azərbaycanın tanınmış kinorejissoru, Azərbaycanın Xalq artisti, professor Ə.İbrahimovun 85 illiyinə həsr olunmuş xatirə gecəsi haqqında) //Şərq.- 2004.- 12-19 may.- S. 2.

Rus dilində

Дорога солдата .- М.: Молодая гвардия, 1966.- 48 с.

Девушка из племени Тан.-М.: Советский писатель, 1970.- 280 с.

Samirə Eminova

1 may
Gün çıxır
04:55
Gün batır
20:36
31 may
Gün çıxır
04:13
Gün batır
21:04

May

21 aprel-
21 may

Buğa bürcünün Nişanı Yerdir. Veneranın himayəsindədir. Günəşin Buğa bürcündən keçdiyi dövrdə doğulanlar təbiətcə emosional olurlar.

2009

Əlamətdar və tarixi günlər

3. Beynəlxalq Söz və Mətbuat azadlığı Günü
8. Şuşa rayonunun işğal günü
9. Faşizm üzərində Qələbə Günü
10. Ümummilli lider Heydər Əliyevin doğum günü
10. Heydər Əliyev Fondunun yaranmasının 5 illiyi
15. Beynəlxalq Ailə Günü
18. Beynəlxalq Muzeylər Günü
18. Laçın rayonunun işğal günü
28. Respublika Günü

C	1
Ş	2
B	**3**
Be	4
Ça	5
Ç	6
Ca	7
C	8
Ş	9
B	**10**
Be	11
Ça	12
Ç	13
Ca	14
C	15
Ş	16
B	**17**
Be	18
Ça	19
Ç	20
Ca	21
C	22
Ş	23
B	**24**
Be	25
Ça	26
Ç	27
Ca	28
C	29
Ş	30
B	**31**

Şuşa və Laçının işğal günü

Şuşa Qarabağ silsiləsində 1400-1500 metrdən çox yüksəkliyə malik hamar platoda yerləşir. Dağ-iqlim kurortudur. Müxtəlif növ tikinti materialı yataqları və mineral su bulaqları (Turşsu və Şırlan) var.

Laçın rayonu ən yüksək dağ rayonlarından biridir. Ən hündür nöqtəsi dəniz səviyyəsindən 3594 m yüksəklikdə yerləşən Qızılboğaz dağıdır. Rayonda 127 yaşayış məntəqəsi yerləşir. Hər iki rayonun ərazisi 1992-ci ildə erməni silahlı dəstələri tərəfindən işğal edilmişdir.

Yazıçı Məlikzadə İsi Abbas oğlunun (01.05.1934) anadan olmasının 75 illiyi

Azərbaycan Dövlət mükafatı laureatı, tənqidçi, ədəbiyyatşünas, professor Seyidov Yusif Mirəhməd oğlunun (02.04.1929) anadan olmasının 80 illiyi

Beynəlxalq Söz və Mətbuat azadlığı Günü (03.05.1993)

İtalyan diplomatı, yazıçı və tarixçisi Makiavelli Nikkolonun (03.05.1469-22.06.1527) anadan olmasının 540 illiyi

Yazıçı Əkbərov Məhəmməd Həmzə oğlunun (Məmməd Əkbər) (05.05.1909-11.11.1974) anadan olmasının 100 illiyi

SSRİ Xalq artisti, Dövlət Mükafatı laureatı, bəstəkar Hacıbəyov Soltan İsmayıl oğlunun (08.05.1919-19.09.1974) anadan olmasının 90 illiyi

Şuşa rayonunun işğal (08.05. 1992) günü

Faşizm üzərində qələbə günü (09.05.1945)

Akademik Cəfərov Məmməd Cəfər Zeynalabdin oğlunun (Məmməd Cəfər) (09.05.1909-11.05.1992) anadan olmasının 100 illiyi

Ümummilli lider Heydər Əliyevin doğum günü (10.05.1923-12.12.2003)

Azərbaycanın Əməkdar mühəndisi, SSRİ dövlət mükafatı laureatı Ləmbəranski Əliş Cəmil oğlunun (10.05.1914-01.05.1999) anadan olmasının 95 illiyi

Professor Qurbanov Şamil Dünyamalı oğlunun (10.05.1934) anadan olmasının 75 illiyi

Heydər Əliyev Fondunun yaranmasının (10.05.2004) 5 illiyi

Azərbaycanın Milli Qəhrəmanı Abdullayev Namiq Vahid oğlunun (10.05.1974-09.02.1993) anadan olmasının 35 illiyi

İngilis yazıçısı Voyniç Etel Lilianın (11.05.1864-28.07.1960) anadan olmasının 145 illiyi

“Dinc dağlar” Beynəlxalq ekspedisiyasının üzvü Mursaqulov Səridanən Azərbaycanın dövlət bayrağını dünyanın ən uca zirvəsi olan Everestə sancmasının (12.05.1999) 10 illiyi

Azərbaycanın Əməkdar incəsənət xadimi şair Əfəndiyev Hikmət Ziya oğlunun (Hikmət Ziya) (13.05.1929-02.08.1995) anadan olmasının 80 illiyi

Beynəlxalq Ailə Günü (15.05.1994)

Azərbaycanın Xalq artisti Əfqanlı Rzanın (15.05.1899-09.11.1973) anadan olmasının 110 illiyi

Nasir, dramaturq Əliyev Həmid Fərhad oğlunun (Həmid Arzulu) (15.05.1939) anadan olmasının 70 illiyi

Şair, ədəbiyyatşünas Əhmədov Elburus Misir oğlunun (Əhməd Elburus) (17.05.1944) anadan olmasının 65 illiyi

Beynəlxalq Muzeylər Günü (18.05.1977)

Laçın rayonunun işğal (18.05.1992) günü

Azərbaycanın Milli Qəhrəmanı Hacıyev Fikrət Əli oğlunun (19.05.1964-04.05.1992) anadan olmasının 45 illiyi

Ədəbiyyatşünas, professor Həkimov Mürsəl İsmayıl oğlunun (20.05.1929-19.04.2006) anadan olmasının 90 illiyi

Fransız yazıçısı Onore de Balzakın (20.05.1799-18.08.1850) anadan olmasının 210 illiyi

Görkəmli ədəbiyyatşünas alim Əsgərov Salman Məmmədəmin oğlunun (Salman Mümtaz) (20.05.1884-1938) anadan olmasının 125 illiyi

Azərbaycanın Xalq yazıçısı İbrahimov Hüseyn Məhəmmədəli oğlunun (23.05.1919-10.04.2008) anadan olmasının 90 illiyi

Şair Mehdizadə Abbasqulu Əlabbas oğlunun (Abbas Səhhət) (24.05.1874-11.07.1918) anadan olmasının 135 illiyi

Şair, folklorşünas Kəmali Əli Əkbər oğlunun (24.05.1944-01.08.1996) anadan olmasının 65 illiyi

Tərcüməçi, publisist Bayramov Adilxan Hüseynəli oğlunun (24.05.1949) anadan olmasının 60 illiyi

Publisist, teatr xadimi Hacınski Mehdibəy Süleyman oğlunun (24.05.1879-18.06.1941) anadan olmasının 130 illiyi

Şairə, yazıçı Sadıqzadə Umgülsüm Əbüləziz qızının (24.05.1899-1946) anadan olmasının 110 illiyi

Ədəbiyyatşünas Məmmədov Hüseynqulu Məmməd oğlunun (Hüseynqulu Məmmədli) (24.05.1919) anadan olmasının 90 illiyi

Ədəbiyyatşünas, şair Zəkiyev İmaməddin Şahverdi oğlunun (24.05.1939) anadan olmasının 70 illiyi

Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin yaranmasının (25-28.05.1944) 55 illiyi

Azərbaycanın Xalq yazıçısı, Əməkdar incəsənət xadimi Əfəndiyev İlyas Məhəmməd oğlunun (26.05.1914-03.10.1996) anadan olmasının 95 illiyi

Ədəbiyyatşünas, publisist, professor Xuluflu Vəli Məmmədhüseyn oğlunun (Vəli Xuluflu) (26.05.1894-1938) anadan olmasının 115 illiyi

Respublika Günü (28.05.1918.)

Azərbaycanın Xalq artisti, kaman ustası Əliyev Habil Mustafa oğlunun (29.05.1929) anadan olmasının 80 illiyi

Rus yazıçısı Leonov Leonid Maksimoviçin (31.05.1899-08.08.1994) anadan olmasının 110 illiyi

May

1

75 illiyi

İsi Məlikzadə
1934-1995

Nasir

Məlikzadə İsi Abbas oğlu 1934-cü il mayın 1-də Azərbaycanın Ağcabədi rayonunda anadan olmuşdur. Burada Xalfərəddin orta məktəbini bitirdikdən sonra M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun Neft-kimya fakültəsində təhsil almışdır (1952-1957). Ədəbi yaradıcılığa başlayan İsi Məlikzadə "Ulduz" jurnalı redaksiyasında publisistika şöbəsinin müdiri, məsul katib (1966-1973), C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında ssenari redaksiya heyətinin üzvü (1974-1976), "Azərbaycan" jurnalı redaksiyasında nəsr şöbəsinin müdiri (1976-1980), "Ulduz" jurnalı redaksiyasında nəsr şöbəsinin müdiri (1980-1981), "Mozalan" satirik kinojurnalında böyük redaktor işləmişdir (1983-1985). 1990-cı ildən ömrünün sonunadək "Azərbaycan Mədəniyyət Fondunun" Qarabağ filialının sədri vəzifəsində çalışmışdır.

İsi Məlikzadə 1995-ci il mayın 12-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Dolaşığın novruz bayramı.- B.: Gənclik.- 1992.-119 s.

Şehli çəmənlərin işığı.- B.:Yazıçı,-1991 .-304 s.

Quliyeva, Z. Xatirə geçəsi: [İsi Məlikzadənin 70 illiyi münasibətilə //Azərbaycan.-2004.-2 iyun.- S. 8.

İsi Məlikzadənin xatirəsi anıldı: [Yazıçı haqqında] //Yeni Azərbayçan.- 2003 .-7 fevral.-S. 4.

Paşayev, Q., İbrahimqızı, G. Bədii nəsrimizdə İsi Məlikzadə nəfəsi: İsi Məlikzadə-70 //Vəfa.- 2004.- №4.- S.20- 21.

Məlahət Həsənova

May

2

80 illiyi

Yusif Seyidov
1929

Ədəbiyyatşünas

Yusif Mirəhməd oğlu Seyidov 1929-cu il may ayının 2-də Naxçıvan MR-da Şərur rayonunun Yengicə kəndində anadan olmuşdur, filologiya elmləri doktoru, professordur, BDU-nun Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının müdiridir. Dövlət mükafatı laureatı və Əməkdar elm xadimi 50 ildir ki, pedaqoji və elmi-tədqiqat işi ilə məşğul olur.

Y.M.Seyidov dilçiliyin nəzəri və tətbiqi problemlərinə həsr edilmiş iki yüzə qədər əsərin, o cümlədən 30-dan çox kitabın (monoqrafiya, dərslik və dərs vəsaitlərinin) müəllifidir.

Y.M.Seyidovun elmi yaradıcılığı çoxcəhətlidir. Ancaq sintaksis problemlərin tədqiqi onun fəaliyyətində əsas yer tutur. O, bu sahədə ən görkəmli mütəxəssislərdən – türkoloqlardan hesab olunur. Onun 1950-ci illərdə yazdığı ilk əsərlərində feli tərkiblərin qrammatik mahiyyəti açılmış, tərkiblərlə budaq cümlələrin eyniləşdirilməsinin obyektiv və subyektiv səbəbləri, fəlsəfi əsasları müəyyən edilmiş və bu, nəticə etibarilə cümlə ilə fikri, dil ilə təfəkkürü, forma ilə məzmunu eyniləşdirmək kimi qiymətləndirilmişdir.

Y.Seyidov türkologiyada tərkib və budaq cümlə məsələsində üç mövqeyin olduğunu müəyyənləşdirmiş və bu bölgü sonralar mürəkkəb cümlə və tərkiblər haqqında yazılan əsərlərin, demək olar ki, hamısında qeyd-şərtsiz təkrar edilmişdir.

Azərbaycan dilçiliyində sintaktik əlaqələrin elmi əsaslarla geniş tədqiqi Y.Seyidovun adı ilə bağlıdır. O, tabesizlik və tabelilik əlaqələrinin bütün sintaktik vahidlər üzrə (söz birləşməsindən mürəkkəb cümləyə qədər) təzahür hallarını müəyyən etmiş, bu sahədə bir sıra yeni fikirlər irəli sürmüşdür.

Y.Seyidov Azərbaycan dili tarixinə dair də səmərəli tədqiqatlar aparır: "Nəsiminin əsərləri Azərbaycan ədəbi dilinin tarixi abidəsi kimi", "Dastani-Əhməd Hərami" haq-

qında bəzi qeydlər, "Kitabi-Dədə Qorqud"un dilində sadə cümlə (inkişaf səviyyəsi), "Dövrün (XII-XIX əsrlər) şeir dilinə ümumi bir nəzər", "Nəsiminin dilində söz birləşmələri", "Nəsimi dilində say", "Nəsimi dilində əvəzlik", "Nəsimi dilində tabeli mürəkkəb cümlə", "Ədəbi şəxsiyyət və dil" və s. məqalələri ədəbi dil tarixi və tarixi qrammatika sahəsində konkret müşahidə və axtarışların məhsuludur.

Y.Seyidov "Yazıçı və dil" problemi ilə də müntəzəm məşğul olur. Onun bu sahədəki tədqiqləri iki istiqamətdədir: ədəbi-bədii dil, onun inkişaf meylləri və yolları; yazıçıların söz, dil, bədii dil haqqında fikir və mülahizələri. Y.Seyidov bir sıra məqalələrində, xüsusən "Klassik Azərbaycan şairləri söz haqqında" (1977), "Yazıçı və dil" (1979), "Sözün şöhrəti» (1981), "Sözün qüdrəti» (1988), "Sözün hikməti" (1989) və s. monoqrafiyalarında XI əsrdən başlayaraq əsrimizin 90-cı illərinə qədər Azərbaycan yazıçılarının söz və sənət haqqında, dil və onun insan həyatında, cəmiyyətdə rolu, əhəmiyyəti barədə fikirlərini toplayıb sistemə salmış, ədəbi-tarixi ardıcıllıqla təsvir və təhlil etmiş, xalqın dilçilik, qismən də ədəbiyyatşünaslıq və estetik görüşlərinin yığcam salnaməsini yaratmışdır.

Y.Seyidovu bir dilçi-filoloq kimi səciyyələndirən əsas xüsusiyyətlərdən biri də onun ədəbi prosesi ardıcıl izləməsi, xalis ədəbi tədqiqlərə meyilli olmasıdır. Təsadüfi deyildir ki, o, tələbəlik illərindən başlayaraq sırf dilçilik tədqiqləri ilə müvazi, ədəbi-tənqidi əsərlərini də çap etdirir ki, bunların bir qismi "Ədəbi tənqid və bədii dil" (1986), "Ey ulu dünya" (2003) kitablarında öz əksini tapmışdır. O, Azərbaycan filologiyasına vahid elmi yaradıcılıq sahəsi kimi baxır və belə hesab edir ki, yazıçının dilinə nəzər yetirmədən, onun ustalığını, onun yaradıcılığının mahiyyətini açmaq olmaz.

Y.Seyidovun əsərlərinin 15 cildliyi çapa hazırlanmışdır. Bunlardan hər biri 600 səhifə həcmində olan yeddi cildi nəşr olunmuşdur.

Y.M.Seyidov elmi redaktor kimi də böyük iş aparır. Onun redaktə etdiyi əsərlərdən bir neçə misal: dos. A.Q. Həsənovun "Azərbaycan dilində müəyyənlik və qeyri-müəyyənlik kateqoriyası" (1970), prof. N.N.Məmmədovun "Azərbaycan dilçiliyinin nəzəri əsasları" (1971), prof. Ə.Z.Abdullayevin "Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr" (1964, 1974), prof. F.R.Zeynalovun "Türk dillərində nitq hissələrinin təsnifi" (1957), prof. A.M.Qurbanovun "Müasir Azərbaycan dili" (1985), prof. H.A.Bayramovun "Azərbaycan dili frazeologiyasının əsasları" (1978), X.Cabbarovun "Bədii ədəbiyyatda obrazlar" (1986) və s. Bu kitabların bir qismi Y.M.Seyidovun giriş sözü ilə başlanır.

Y.M.Seyidov aspirant illərindən başlayaraq, 50 ildir ki, BDU-da mühazirələr oxuyur. O, Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının yarandığı vaxtdan (1965) onun müdiri olmaqla özünü bacarıqlı elm və tədris təşkilatçısı kimi göstərmişdir. Sonradan univer-

sitetin başqa kafedralarında çalışan bir sıra elmlər doktorları, professorlar və elmlər namizədləri, dosentlər ilk elmi-pedaqoji fəaliyyətlərini bu kafedrada başlamış və burada işləmişlər.

Başqa ali məktəblərdə və elmi müəssisələrdə işləyən bir çox elmlər doktoru və elmlər namizədinin dissertasiyaları bu kafedrada müzakirə edilmiş və müdafiəyə buraxılmışdır. Y.M.Seyidov iki elmlər doktorunun məsləhətçisi olmuş, on yeddi elmlər namizədi hazırlamış, 16 elmlər doktorunun və çoxlu elmlər namizədinin rəsmi opponenti olmuşdur.

İndiyə kimi əllidən çox xarici vətənədaş – ABŞ, Yaponiya, Çin, Cənubi Koreya, Finlandiya, Ukrayna və başqa ölkələrin vətəndaşları Azərbaycan dilini öyrənmək məqsədi ilə kafedraya müraciət etmiş və onların çoxu bu dili mükəmməl öyrənərək vətənlərinə qayıtmışlar.

Y.Seyidov universitetin və respublikanın ictimai həyatında fəal iştirak edir. O, bir neçə illər fakültə partiya təşkilatının katibi, universitet partiya komitəsinin üzvü olmuşdur. 1960-cı illərin əvvəllərindən fakültənin və universitetin elmi şuralarının üzvüdür. BDU-nun metodşurasının sədridir. Bir neçə il Təhsil Nazirliyi elmi-metodik şurasının sədri olmuş, indi həmin şuranın sədrinin müavinidir. Bir neçə müdafiə şuralarının üzvü, AAK-nın ekspert şurasının sədr müavini olmuşdur.

Y.Seyidov mübariz "Əlincə" Azərbaycan siyasi xeyriyyə cəmiyyətinin fəal üzvlərindən olmuş, həmin cəmiyyətin siyasi orqanı "Səs" qəzetində, sonralar başqa mətbuat orqanlarında xalqımızın dahi oğlu Heydər Əliyevin siyasi mövqeyini müdafiə etmişdir. Onun bu yönümdə məqalələrinin bir qismi "Demokratiyanın uzun yolu" adlı iki cildlik kitabında çap olunmuşdur: "XX-XXI əsrlər – Heydər Əliyev əsrləri", "Dahilik mərtəbəsi", "Heydər Əliyevin dövlətçilik strategiyası", "Heydər Əliyev və dünya azərbaycanlılarının həmrəylik ideyası" və s.

Ədəbiyyat

Əsərləri. 15 cilddə. I cild.- B.: BDU, 2006-2007.- 628 s.; II cild.- 555 s.; III cild.- 562 s.; IV cild.- 571 s.; VI cild.- 566 s.; VII cild.- 562 s.

Azərbaycan dili .- B.: Yazıçı, 2007.- 125 s.

Azərbaycan dili (BDU-nun rus bölmələri üçün dərslik).-B.: Maarif, 2005.- 220 s.

Azərbaycan dili (dərslik).- B.: BDU, 2005 .- 358 s.

Azərbaycan dilinin qrammatikası: Morfologiya.- B.: BDU, 2005.- 360 s.

Demokratiyanın uzun yolu: I kitab.- B.: BDU, 2001.- 212 s.

Demokratiyanın uzun yolu : II kitab.- B.: BDU, 2002.- 181 s.

Ey ulu dünya.- B.: BDU, 2003.- 813 s.

Müasir Azərbaycan dili: IV hissə. Sintaksis.- B.: Maarif, 1972.- 476 s.

Sözün hikməti.-B.: Yazıçı, 1989.- 485 s.

Sözün şöhrəti .-B.: Yazıçı, 1983.- 282 s.

Bəybala Ələsgərov

3 May

540 illiyi

Nikollo Makiavelli 1469- 1527

İtalyan diplomatı

Makiavelli Nikollo 3 may 1469-cu ildə Florensiyada anadan olmuşdur. İtaliya siyasi xadimi, diplomatı, yazıçısı, tarixçisi, hərb nəzəriyyəçisidir. İtaliyanın fəlakətini onun siyasi pərakəndəliyi ilə bağlayan Makiavelli bu problemi o dövrdə aradan qaldırmaq iqtidarında olan güclü milli dövlət nəzəriyyəsi yaratmış, dövlət probleminə dünyəvi mövqedən yanaşmışdır. Makiavelli respublikanı ən yaxşı dövlət forması hesab etsə də, İtaliya şəraiti üçün təkhakimiyyətliliyə üstünlük vermişdir. Onun fikrincə, tarixin əsas hərəkətverici qüvvəsi siyasi mübarizədir. O, bir sıra ədəbi- bədii əsərlər də yazmışdır. Hərb sənətinə aid görüşlərində muzdlu ordu sisteminin kəskin tənqidini vermiş, onun hökmdara tabe olan daimi ordu ilə əvəz edilməsini təklif etmişdir. Makiavelli 22 iyun 1527-ci ildə Florensiyada vəfat etmişdir.

Ədəbiyyat

История Флоренции.- М.: Наука, 1987.- 446 с.

Небеса могут подождать: Сборник.- М.: Знание, 1999.

Юсим, М. А. “Этика Макиавелли”.- М.: Наука, 1990.- 155 с.

Elmira Kazımova

May 8

90 illiyi

Soltan Hacıbəyov
1919-1974

Bəstəkar

Soltan İsmayıl oğlu Hacıbəyov 8 may 1919-cu ildə Şuşa şəhərində anadan olmuşdur. İki-sinifli musiqi məktəbini bitirdikdən sonra o, 1930-cu ildə Bakıya köçmüş, 1936-cı ildən etibarən burada əmisi Ü.Hacıbəyovun ailəsində yaşamışdır. S.Hacıbəyov orta məktəbi qurtarandan sonra ixtisas musiqi məktəbinin truba sinfində oxumuş (müəllimi A.L.Kolpinski), 1939-cu ildə həmin məktəbi bitirib, Azərbaycan Dövlət Konservatoriyasının Bəstəkarlıq fakültəsinə, professor B.İ.Zeydmanın sinfinə daxil olmuşdur. Hələ Konservatoriyaya daxil olmamışdan əvvəl S.Hacıbəyov "Qızılgül" musiqili komediyasını yazmışdır. Bu əsər 1940-cı ildə Azərbaycan Musiqili Komediya Teatrının səhnəsində tamaşaya qoyulmuşdur. Bəstəkar o vaxtlar həmin teatrda orkestrin rəhbəri vəzifəsində işləmişdir.

Konservatoriyada təhsil aldığı illərdə S.Hacıbəyov "İki pioner" mahnısı, fortepiano üçün "İki prelüd" və "Uşaq kantatası" əsərlərini yazmışdır. Bir qədər sonra Azərbaycan teatr məktəbində musiqi-nəzəriyyə fənlərindən dərs demişdir. 1946-cı ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirib, bir neçə il Musiqili Komediya Teatrına, Dövlət Caz orkestrinə rəhbərlik edib. 1948-ci ildən 1966-cı ilədək M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri, direktoru vəzifəsində çalışmışdır.

S.Hacıbəyov yaradıcılığında bir çox musiqi janrlarına müraciət etmişdir. O, simfonik orkestr üçün "Konsert"in, "Karvan" simfonik lövhəsinin, kütləvi mahnıların, dram tamaşalarına yazılmış musiqinin, xalq mahnıları əsasında işləmələrin və s. müəllifidir.

Onun yaradıcılığında simfonik musiqi, simfonik əsərlər daha mühüm yer tutur.

Onun "Karvan" (Ü. Hacıbəyova həsr olunub), "Simfonik lövhələr" adlı simfonik əsərləri dünyanın bir çox ölkələrində, "Skertso" və "Gülşən"

baletlərindən üvertüralar SSRİ məkanında səslənib. Onun yaratdığı əsərlər A.Qauk, N.Anosov, K.Eliasberq, Niyazi, N.Rojdestvenski kimi adlı-sanlı dirijorların rəhbərliyi altında orkestrlər tərəfindən ifa olunmuşdur.

Bəstəkar "Kəndçi qızı" dram tamaşasına bəstələnən musiqinin, böyük simfonik orkestr üçün konsertin, xalq çalğı alətləri orkestri üçün silsilə musiqi əsərlərinin, bir sıra kamera əsərlərinin, o cümlədən bir kvartetin, iki skertsonun, A.Puşkinin sözlərinə yazılmış "Quşcığaz" romansının və s. populyar musiqi əsərlərinin müəllifidir.

1950-ci ildə M.F. Axundov adına opera və Balet Teatrının səhnəsində S.Hacıbəyovun müasir mövzu əsasında yazdığı ilk Azərbaycan baleti olan "Gülşən" tamaşaya hazırlanmışdur.

S.Hacıbəyovun simfonik orkestr üçün konserti Azərbaycan SSR Dövlət mükafatına, "Gülşən" milli baletinə görə isə 1952-ci ildə SSRİ Dövlət mükafatına layiq görülmüşdür.

1953-cü ildə "Gülşən" baleti Ə.Nəvai adına Daşkənd Böyük Teatrının səhnəsində tamaşaya qoyulmuşdur. Müəllif baletə yazdığı musiqidən süita tərtib etmişdir ki, bu süitası böyük tirajla "Bruno" (Amerika) firması tərəfindən buraxılmış və geniş yayılmışdır.

S.Hacıbəyov M.Əzizbəyov adına Azərbaycan Dövlət Milli Dram Teatrının bir sıra tamaşalarına da musiqi bəstələmişdir.

S.Hacıbəyov görkəmli Azərbaycan bəstəkarıdır. Onun əsərləri respublikamızın musiqi mədəniyyətinə mühüm töhfədir. Dövrümüzün aktual problemləri, vətənpərvərlik mövzusu S.Hacıbəyovun diqqət mərkəzində olmuşdur.

Dünya klassiklərini, Ü.Hacıbəyovun ənənələrini davam etdirərək, S.Hacıbəyov bu ənənələri öz yaradıcılığında müasir musiqi dilinin zənginlikləri ilə üzvi surətdə birləşdirmiş, bütün əsərlərində özü üçün başlıca yaradıcılıq mənbəyi saydığı və gözəl bildiyi milli xalq incəsənətinə istinad etmişdir.

1948-ci ildən Azərbaycan Konservatoriyasında pedoqoji fəaliyyətə başlayan S.Hacıbəyov 1969-cu ildən 1974-cü ilədək bu ali təhsil ocağının rektoru olub. S.Hacıbəyov cəmi 55 il ömür sürərək, 1974-cü il sentyabrın 19-da vəfat etmişdir.

Ədəbiyyat

Bolqar süitası [Not]: partitura.-B.: Azərnəşr, 1962.- 46 s.

Hind rəsmləri, süita. Böyük simfonik orkestr üçün. Партитура [Not].- M.: Советский композитор, 1978.- 76 с.

"Qızıl gül", 3 pərdə, 4 şəkildə musiqili komediya /librettosu M.Əlizadənindir-Reavir.- B.: Azərnəşr, 1972.-111 s.

Mahnılar [Not]: Fortepiano ilə oxumaq üçün.- B.: Azərnəşr, 1964.-18 s.

Simfoniya № 2 [Not]: simfonik orkestr üçün partitura.-B.: Azmusnəşr, 1968.-189 s.

* * *

Xəlilzadə, F. «Karvan»ın yolu Şuşaya dönə /F.Xəlilzadə Bəstəkar Soltan Hacıbəyov haqqında //Azərbaycan.-2004.-9 may.- S.12.

Qasımova, S.D. Soltan Hacıbəyov dönə /S.D. Qasımova, N.Bağırov //Azərbaycan sovet musiqi ədəbiyyatı: orta ixtisas musiqi məktəbləri üçün dərslik.- B.: Maarif, 1984.- S.170-176.

Məmmədova, T. Görkəmli bəstəkar və pedaqoq: Soltan Hacıbəyov-85 //Min bir mahnı.-2004.-№ 2.-S.11-13.

Şərif, A. Hacıbəyovlar //XX əsr Azərbaycanın yaradıcı nəsilləri.- B.: Əbilov, Zeynalov və oğulları, 2007.- S.14.; Mətn Azərb. və rus dilində.

Rus dilində

Гызыл гюль [Not] муз. комедия в 3-х д. 4 карт.Либретто М. Ализаде, клавир.-Б., 1972.-111 с.

Караван [Not]: Симф. картина. Партитура.-М.: Советский композитор, 1959.-44 с.

Песни для голоса с ф-но [Not].-Б.: Азернешр, 1964 .-15 с.

Партитура.- Б.: Азернешр, 1965.- 30 с.

Секстет для духовых инструментов.

İnternert

musigi-dunya.az/

voices.musigi-dunya.az/

Nailə Alışova

8 May

Şuşa

Ərazisi – 351,55 km²
Əhalisinin sayı – 25,720
İnzibati mərkəzi – Şuşa
İşğal tarixi- 8 may 1992

Şuşanın işğal altında olması qəlbimizi kədərləndirir, sıxır, incidir... Şuşanın işğalına şərait yaradanlar, onu sadəcə olaraq hakimiyyət mübarizəsi zamanı qurban veriblər ki, bu da dəhşətdir.

Heydər Əliyev, ümummilli lider

Şuşanın dağları başı dumanlı,
Dərdindən ölməyə çoxdur gümanlı...

Ustad Xan Şuşinskinin yazdığı və oxuduğu bu mahnını eşidəndə istər-istəməz adamın ürəyinin başı göynəyir. Çünki əsası Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulan Şuşanın başını doğrudan da dumanlar alıb. Şuşa 1992-ci il mayın 8-də erməni qəsbkarları tərəfindən işğal olunub. Azərbaycan musiqisinin beşiyi sayılan Şuşanın onlarla tarixi abidələri, o cümlədən Pənahəli xanın sarayı, Cümə məscidi, Aşağı "Gövhər ağa məscidi", "Xurşid Banu Natəvanın evi", "Molla Pənah Vaqifin məqbərəsi" yağmalanıb. Hətta, Ü. Hacıbəyov, Bülbül, Natəvan kimi tarixi şəxsiyyətlərin heykəlləri belə düşmən güllələsinə tuş gəlib... Lakin böyükdən-kiçiyə hamı inanır ki, ən yaxın vaxtlarda Şuşanın başının üstündəki qara duman çəkiləcək, Qarabağ savaşında yüzlərlə şəhid verən Şuşa erməni işğalından azad ediləcək, elindən-obasından didərgin düşən qaçqınlar yenidən öz yurdlarına qayıdacaqdır. Beləcə, Şuşa köhnə ya-

ralara məlhəm qoya-qoya yenə nəğməli-sözlü ömrünü yaşayacaq, yenə havalanacaq "Xanın səsi", "Qarabağın şikəstəsi..." 1992-ci il mayın 8-dən bu günə qədər ermənilər Pənah xanın yadigarı olan Şuşanı - Pənahabadı dağıdırlar. Mədəniyyət və təhsil ocaqlarımız - 8 muzey, 31 kitabxana, 17 klub, 8 mədəniyyyət evi, 25 orta məktəb, 40 tibb müəssisəsi, 241 tarixi abidə dağıdılmış, viran edilmişdir. Şuşa muzeylərinin qiymətli sərvətlərini - rəsm və heykəltəraşlıq əsərlərini, xalça və xalça məmulatlarını, xalq tətbiqi sənət nümunələrini, arxeoloji tapıntıları, çox gərəkli sənədləri, Azərbaycanın görkəmli şəxsiyyətlərinin xatirə əşyalarını, digər qiymətli materialları Ermənistana aparmışlar. İndi həmin əşyalar xarici auksionlarda satılır, yaxud müxtəlif sərgi və muzeylərdə dünya ictimaiyyətinə erməni mədəniyyət nümunəsi kimi təqdim olunur.

Şuşada Dövlət Dram Teatrı, Dövlət Qarabağ tarixi və Şuşa şəhərinin tarixi muzeyləri, Üzeyir Hacıbəyovun, Bülbülün, Mir Möhsün Nəvvabın xatirə muzeyləri, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Dövlət Rəsm Qalereyası, orta və orta ixtisas musiqi məktəbləri, kitabxanalar fəaliyyət göstərirdi.

XX əsrdə Şuşa tarixdə görünməmiş faciəli hadisələrlə üzləşdi, işğal olundu. Övladları yerindən-yurdundan didərgin düşdü, şəhidlər verdi, ancaq əsrlər boyu olduğu kimi sınmadı, əyilmədi və Şuşa indi də yaşayır. Çoxlu sayda yaşayış evlərini, məktəbləri, muzeyləri yandırdılar. 5000-ə yaxın eksponatı olan Şuşa Tarix Muzeyinin dağıdılması Qarabağın son 250 illik tarixinə erməni xəyanətinin sübutudur. Mir Möhsün Nəvvab, Natəvan xanım, Üzeyir Hacıbəyov, Bülbül, Cabbar Qaryağdı oğlu, Süleyman Ələsgərov və çoxlu sayda elm və sənət adamlarının şəhəri olan Şuşa artıq 15 ildir ki, işğal altındadır. Azərbaycan xalqı bu məğlubiyyətlə barışmır. Ölkə başçısı bu həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün gecəli-gündüzlü çalışır. Biz bu xəyanəti unutmadan öz tarixi torpaqlarımızı geri almasaq, bu mübarizədə həlak olmuş oğullarımızın ruhu qarşısında ömürlük xəcalətli qalacağıq.

Şuşa şəhəri mütləq geri alınmalıdır. Çünki ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi, «Şuşasız Azərbaycan yoxdur». Şuşa Azərbaycanın bəlkə də yeganə bölgəsidir ki, bu qədər tarixi şəxsiyyətlər, incəsənət xadimləri yetişdirib, Azərbaycanın başını uca edib. Azərbaycan mədəniyyətinə bu cür dühalar, tarixi şəxsiyyətlər, incəsənət xadimləri bəxş etmiş bu şəhər, nə qədər istəsələr də heç vaxt, heç bir vəchlə başqa bir millətin ola bilməz. Bu şəhəri özünün adına çıxmağa çalışan hər hansı bir millətin arzusu ürəyində qalacaqdır.

Düşmənlərimiz Şuşanı müvəqqəti işğal etsələr də, kənd-kəsəklərinə yalançı adlar qoysalar da, onu heç vaxt özününkü-ləşdirə bilməyəcəkdir.

Ümummilli liderimiz, böyük şəxsiyyət, görkəmli dövlət xadimi Heydər Əliyev işğal altında olan torpaqlarımızın sülh yolu ilə azad edilməsi üçün əzmlə mübarizə aparmışdır. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də bu siyasəti ardıcıl və geniş şəkildə davam etdirir. Cənab İlham Əliyev dəfələrlə birmənalı təkrar edib ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmamış, heç bir danışıqdan söhbət gedə bilməz. Erməni faşistləri başqalarının köməyi ilə zəbt etdikləri torpaqlarımızı, şəhərlərimizi, o cümlədən doğma Şuşamızı sülh yolu ilə tərk etməlidirlər. Əks təqdirdə, Azərbaycan xalqı və onun rəşadətli ordusu düşməni məhv edərək öz torpaqlarını azad edəcəkdir.

Ədəbiyyat

Abbas, H. Şuşa həsrəti, türk həqiqəti: (İl və yol qeydləri).- B., 1993.- 168 s.

Ağamirov, M. Şuşa musiqi məktəbi.- B.: Şuşa, 2003.- 79 s.

Axundbəyli, P. Şuşa həsrəti.- B.: Azərnəşr, 2005.- 460 s.

Müharibə və tarix mədəniyyət abidələrimiz.- B.: Heydər Əliyev Fondu, 2006.- 63 s.

Tapdıqoğlu, N. Qarabağın tacı Şuşam.- B., 2003.- 203 s.

Rus dilində

Чингиз, Г. Старая Шуша. -Б.: Шарг-Гарб, 2007.-344 с.

Садыхова, Г.Н. История города Шуши (XIX-начало XX в.в.) .- Б.: Нурлан, 2004.-166 с.

İnternetdə

http://www.azadqarabag.azerall.

www.anl.az.

http://bizimki.org

http://shusha.az.net.orq

http://shusha.iatp.az

http://www.musigi-dunya.az

Nailə Alışova

May

9

Faşizm üzərində qələbə günü 1945

XX əsrdə bəşəriyyət iki dünya müharibəsi ilə üzləşdi. İkinci Dünya müharibəsi əhatə dairəsinə, iştirakçı dövlətlərin sayına və müharibənin aparılması metodlarına və vasitələrinə görə birincidən qat-qat dəhşətli idi. İtaliyada faşist və Almaniyada nasist diktaturaları nəinki bu ölkələrin özlərini, habelə bütün bəşəriyyəti təhlükə altına qoymuşdu. Qərb demokratiyasının, faşizmin və kommunizmin toqquşmasının labüd nəticəsi olaraq bu müharibəyə o vaxt SSRİ-nin tərkibində olan Azərbaycan SSR- də qoşulmalı olmuşdu. Azərbaycan xalqı istər cəbhədə, istərsə də arxada misilsiz döyüş və əmək rəşadətləri göstərmişdi. Qısa müddət ərzində Respublikada 87 qırıcı təyyarə batalyonu və 1124 özünümüdafiə batalyonları təşkil olunmuşdu. 600 mindən çox azərbaycanlı cəbhəyə getmişdi. Azərbaycanlılardan ibarət 416-cı, 271-ci, 77-ci, və 223-cü Milli diviziyalar təşkil edilmişdi. Bu diviziyalar Qafqaz dağlarından Berlinədək şanlı bir döyüş yolu keçmişdilər. 100-dən çox azərbaycanlı ən yüksək hərbi ada – Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. 30 nəfər Şərəf ordeni, 170 min nəfər isə müxtəlif orden və medallarla təltif olunmuşdu. Sovet İttifaqı Qəhrəmanı adına ilk dəfə Azərbaycandan İsrafil Məmmədov layiq görülmüşdü. Bu ada iki dəfə layiq görülmüş hərbiçimiz isə Həzi Aslanov olmuşdur. Sovet İttifaqı Qəhrəmanları Adil Quliyev, Ziya Bünyadov, Gəray Əsədov, Məlik Məhərrəmov, Mehdi Hüseynzadə, generallar Mahmud Əbilov, Akim Abbasov, Tərlan Əliyarbəyov, Hacıbaba Zeynalov və başqaları öz qəhrəmanlıqları ilə xalqımızın hərb tarixinə yeni şərəfli sətirlər yazdılar. Respublika iqtisadiyyatının hərbi relslər üzərinə keçirilməsi sahəsində böyük işlər görüldü. Yüngül və yeyinti sənaye sahələri hərbiləşdirildi. Az vaxt ərzində Bakı şəhəri döyüşən ordunun cəbbəxanasına çevrildi. Böyük çətinliklərə baxmayaraq neftçilərimiz döyüşən ordunu yanacaqla təmin edirdilər. Azərbaycan alimi Yusif Məmmədəliyevin başçılıq

etdiyi alimlər qrupu yüksək oktanlı təyyarə benzininin alınması üsulunu kəşf etdilər. 1941-ci ildə Azərbaycanın neft tarixində rekord miqdarda – 23,5 milyon ton neft istehsal olundu. Bu SSRİ-də istehsal olunan neftin 71,4 %-ni təşkil edirdi. Ümumiyyətlə, müharibə illərində Azərbaycan neftçiləri ölkəyə 75 milyon ton neft, 22 milyon ton benzin və başqa neft məhsulları vermişdilər. Sovet ordusunun təyyarə və tankları demək olar ki, Bakı nefti ilə işləyirdi. Azərbaycanın digər sərvətləri də cəbhə üçün sərf olunurdu. Qadınlar döyüşçülər üçün yundan corab, əlcək, köynək toxuyur, bəzək əşyalarını müdafiə fonduna verirdilər. Kolxozçular ordunu ərzaqla təchiz edirdilər. Taxıl, ət, süd, yağ son damlasınadək cəbhənin ehtiyaclarına yönəlmişdi.

Sovet dövlətinin xalqımıza qarşı etdiyi ən böyük ədalətsizliklərdən biri də Bakıya layiq olduğu adın "Qəhrəman şəhər" adının verilməməsi idi. Alman nasizmi üzərində qələbədə misilsiz rol oynamış Bakı neftinin roluna belə münasibət əsrlərdən bəri imperiyaların xalqımıza qarşı ədalətsizliyinin bariz nümunəsi idi.

1945-ci ilin mayında təcəvüzkar dövlətlərdən yalnız Yaponiya mübarizəni davam etdirirdi. 1945- ci il Potcdam konfransında Avropa problemlərinin müzakirəsi ilə yanası, Uzaq Şərqdəki vəziyyətə də böyük diqqət yetirildi. 1945-ci il 26 iyul Bəyannaməsində ABŞ, Böyük Britaniya və Çin hökumətlərinin Yaponiyaya təklif etdikləri konkret təslim şərtlərini Yaponiya hökuməti rədd etdi. 1945-ci il avqustun 8-də öz müttəfiqlik borcuna sədaqətli olan Sovet hökuməti Yaponiyaya müharibə elan etdi. SSRİ-nin Yaponiyaya qarşı müharibəyə başlaması ərəfəsində ABŞ hərbi zərurət olmadan ilk dəfə yeni silah tətbiq edərək Xirosima və Naqasaki şəhərlərinə iki atom bombası atdı. 1945-ci il sentyabrın 2-də isə Yaponiya təslim aktını imzalayaraq Potsdam Bəyannaməsinin şərtlərini danışıqsız yerinə yetirəcəyini bildirdi. Bununla da İkinci Dünya müharibəsi qurtardı.

Müharibə bəşəriyyətə çox böyük itkilər bahasına başa gəldi. Təqribən 50 milyon adam həlak olmuşdu. Milyonlarla insan yaralanmış, şikəst olmuş, itkin düşmüş, əsir düşərgələrində işgəncə və zülmlərə məruz qalmışdır. Minlərlə şəhər, kənd, qəsəbə xarabazarlığa çevrilmişdir. Bir daha belə dəhşətli müharibəyə yol verməmək üçün bütün dünya öz qüvvələrini səfərbər etmişdir. Ona görə də Almaniyanın təslim olması günü – 9 May bütün bəşəriyyət tərəfindən faşizm üzərində Qələbə Günü kimi qeyd olunur.

Ədəbiyyat

Bağırzadə, Ə. Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində . - B.: Azərnəşr, 1970. – 442 s.

Abdullayeva, Ş. Onların ruhu qarşısında borcluyuq "Respublika xatirə kitabı", "Böyük Vətən müharibəsində həlak olmuş və itkin düşmüş soydaşlarımız haqqında" //Xalq qəzeti.- 2002.- 9 May.- S. 3.

Azərbaycan İkinci Dünya müharibəsi illərində //Azərbaycan.- 2005.- 6 sentyabr.- S. 4.

Jelev, J. Faşizm .– B.: BSU Kitab aləmi, 2005. – 278 s.

Faşizm qurbanlarının xatirəsi unudulmazdır: 1944-cü ilin mart, 1945-ci ilin aprel aylarında Avstriyadakı Mauthauzen düşərgəsində əsirlikdə olmuş həmvətənlərimizin siyahısı //Azərbaycan.- 2003.- 8 may.- S. 8.

Xəlilzadə, F.Tarixi həqiqəti gizlətmək olmaz: II Dünya müharibəsində 600 -min azərbaycanlı iştirak edib //Azərbaycan.- 2002. - 15 may.- S. 7.

İsayev, Ə. Ölümdən güclü: 27 aprel 1942-ci il almanların əsir düşərgələrində əzab vermiş onlarca azərbaycanlı qızıl əsgəri haqqında //Azərbaycan. – 2005. – 6 sentyabr. – S. 4.

Respublika Veteranlar Şurasının IV plenumu keçirilmişdir //Azərbaycan. – 2006. – 27 aprel. – S. 3.

Rus dilində

Картье, Р. Тайные войны. После Нюрнберга . – М.: Вече, 2005.- 448 с.

Кульков, Е.Н. и др. Война 1941 – 1945 гг. - М.: Олма – Пресс, 2005.- 479 с.

Тике, В. Марш на Кафказ: Битва за нефть 1942 – 1943 гг.- М.: Эксмо, 2005.- 448 с.

Samirə Eminova

May

9

100 illiyi

Məmməd Cəfər 1909-1992

Ədəbiyyatşünas

Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Məmməd Cəfər Zeynalabdin oğlu Cəfərov 1909-cu il mayın 9-da Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur. Burada ilk təhsilini aldıqdan sonra Naxçıvan Pedaqoji Texnikumuna daxil olmuşdur. Daha sonra Bakı Ali Pedaqoji İnstitutunda təhsil almış və elə orada da aspiranturanı bitirmişdir. "Gənc işçi" qəzetində ədəbi işçi vəzifəsindən Azərbaycan Respublikası EA-nın ədəbiyyat, dil və incəsənət bölməsinin akademik-katibliyinə qədər şərəfli və zəngin həyat yolu keçmişdir. O, ədəbi tənqid və ədəbiyyatşünaslıq elmimizin inkişafı tarixində böyük xidmətləri olan görkəmli şəxsiyyətdir. Təxminən 35 il ərzində 22 kitab və broşüra, çoxlu sayda publisist, elmi-tənqidi məqalələr nəşr etdirmiş, sanballı monoqrafiyalar yazmışdır.

M.Cəfər yaradıcılığa 30-cu illərdən başlayıb. İlk mətbu əsəri - Gertsen haqqında yazdığı məqalə 1937-ci ilə təsadüf edir. 30-cu illərdə o, hələ ədəbi-mədəni hadisələrin mərkəzində olmasa da, hər halda həmin dövrün ağrı-acılarını duyub. 30-cu illər M.Cəfərin nəzərində ilk növbədə haqsız qurban gedən ziyalılarımızın yaşayıb yaratdığı bir dövr deməkdir. Günahsız qurbanlardan Hacıbaba Nəzərli və Əli Nazim M.Cəfərin müəllimi olublar. M.Cəfər "Xatirat"da H.Nəzərlinin rəhbərliyi ilə Volter haqqında diplom işi yazdığını, Ə.Nazimdən həmin işlə bağlı məsləhətlər aldığını xoş bir təəssüratla yada salır.

M.Cəfərin klassik irsə müraciəti romantizmlə məhdudlaşmır. "M.F. Axundovun ədəbi-nəzəri görüşləri", "Mütəfəkkirin şəxsiyyəti", "C.Məmmədquluzadə", "Hünərvər şair" (M.Ə.Sabir haqqında) və s. məqalələrindən bəlli olduğu kimi, M.Cəfər ardıcıl olaraq klassik realizm ənənələ-

rinə də xüsusi maraq göstərmişdir.

M.Cəfər ardıcıl olaraq dünya estetik ədəbi fikri ilə əlaqədar əsərlər də yazmışdır. Gənc nəslin yetişdirilməsi, tədris və təlimin keyfiyyətinin yüksəldilməsi kimi vacib bir işə kömək etmişdir. Uzun müddət respublikamızın ayrı-ayrı ali məktəblərində müəllimlik edən görkəmli ədəbiyyatşünas "Estetik tərbiyə, ailə və məktəb", "Estetik zövq haqqında" üç cildlik, "XIX əsr rus ədəbiyyatı" kitablarını yazmağı, gənc nəsli anadilli dərsliklə təmin etməyi özünün vətəndaşlıq borcu saymışdır.

Yarım əsrdən çox bir dövr ərzində Azərbaycan ədəbiyyatının mühüm və əsas hadisələri onun ədəbi-tənqidi əsərlərində təkrarsız təcəssümünü tapmışdır. Tənqid sahəsində yorulmaz fəaliyyətlə yanaşı M.Cəfər ədəbiyyatşünaslığın fundamental problemlərini də tədqiq edirdi. Müharibədən sonra yazılan və nəşr olunan "Azərbaycan ədəbiyyatı tarixi" əsərinin yaradılmasında müəllif və redaktorlardan biri kimi yaxından iştirak etmişdir. Onun əsərlərində Azərbaycan ədəbiyyatı klassiklərinin əksəriyyətinin həyat və yaradıcılığı, fəlsəfi və humanist ideyalar aləmi, vətəndaşlıq mövqeyi hərtərəfli öyrənilmişdir. "Klassiklərimiz haqqında", "M.F.Axundovun ədəbi-tənqidi görüşləri", "Ədəbi düşüncələr", "Füzuli düşünür", "Mütəfəkkirin şəxsiyyəti", "H. Cavid", "Həyatın romantikası", "Sənət yollarında", "Nizaminin fikir dünyası", "Səməd Vurğun" kimi onlarca tədqiqatı, əsərləri milli ədəbiyyatımızın gözəl nümunələridir. M.Cəfər uzun illər ali məktəblərimizdə, Bakı Dövlət Universitetində Azərbaycan, rus və xarici ölkə ədəbiyyatları tarixindən mühazirələr oxumuş, kafedra müdiri və dekan vəzifələrində işləmişdir. M.Cəfər orta və ali məktəblər üçün ədəbiyyat dərsliklərinin müəllifidir. 1950-ci illərin ortalarından etibarən fəaliyyətini Respublika EAnın Nizami adına Ədəbiyyat İnstitutu ilə bağlamış, Akademikin elmi rəhbərliyi altında ədəbiyyatşünaslarımızın neçə-neçə nəsli yetişmiş, namizədlik və doktorluq dissertasiyaları müdafiə edilmişdir. M.Cəfər fəal ictimai xadim idi. O, saysız-hesabsız ictimai elmi qurumların, elmi şuraların, redaksiya heyətlərinin, Azərbaycan Yazıçılar Birliyinin İdarə Heyətinin üzvü olmuşdur.

M.Cəfərin klassik və müasir ədəbiyyatımızın məşhur nümayəndələrini geniş oxucu kütləsinə tanıtmaqda, habelə rus və Qərb ədəbiyyatının ən görkəmli simalarını, onların fikri bədii nailiyyətlərini təbliğ etmək sahəsində xidmətləri böyükdür. Onun Toqor, Hüqo, Göte, Heyne, Uitmen kimi ədəbi şəxslər barədə məqalələri məhz bu nöqteyi-nəzərdən əhəmiyyətlidir.

Akademik 15 may 1992-ci ildə uzun sürən ağır xəstəlikdən sonra 83 yaşında vəfat etmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri: 2 cilddə /tərt. T.Fərzəliyev; elmi red. fil.elm. dok. prof. Elçin; red. fil. e.n. İ.İsrafilov.-B.: Çinar-Çap, 2003.- C. 1.-355 s.

Seçilmiş əsərləri : 2 cilddə /red.S.Hüseynova.-B.: Azərnəşr, 1973.- C. 1.- 351 s.; C.2.-1974.- 342 s.

Ağayev, Ə. Ədəbi düşüncələr /Əsrin tərənnümü kitabında.- B.: Yazıçı, 1980.-S. 224.-230.

Həmişə bizimlə.- B.: Yazıçı, 1981.- 124 s.

Ədəbiyyat: 9-cu sinif üçün /Qasımzadə F., C. Məmməd.- B., 1983.- 400 s.

Əntiqə adamlar: hekayələr /red. S.Zeynalova.- B.: Gənclik,1981.-200 s.

Həmişə bizimlə: Məqalələr /red. və məq. müəl. Elçin.- B.:Yazıçı, 1980.- 364 s.

Nizaminin fikir dünyası: monoqrafiya.- B.: Yazıçı.-1981.-201 s.

XIX əsr rus ədəbiyyatı /müqəddimə və elmi red. Ə.Ağayev.- B.: Maarif, 1970.- I hissə.- 315 s.; II hissə.-1974.-326 s.

Məmməd Cəfər Cəfərov (Məmməd Cəfər Zeynalabdin oğlu Cəfərov): Biblioqrafik göstərici /tərt. müəl. M.Mehdiyeva.- B.: Çinar-çap, 2003.-124 s.

Sənət yollarında: Ədəbi tənqidi məqalələr.- B.: Gənclik, 1975.-368 s.

Zamanov, A. Əməl dostları.- B.: Yazıçı, 1979.- 323 s.

Rus dilində

Альманах Низами Гянджави /ред. М.Д. Джафаров.- Б.: Элм, 1984.- 266 с.

Гусейн Джавид /перевод с азербайджанского языка Ислама Ибрагимбекова.- Б.: Элм, 1982.- 194 с.

Гусейн Джавид-поэт и драматург /Мамед Джафар.- Б.: Язычы, 1982.- 21 с.

Литературные раздумья: Сборник /Мамед Джафар; научный ред. и автор предисловия Я. Караев.- Б.: Язычы, 1988. -382 с.

Романтизм как творческий метод в Азербайджанской литературе: сборник «Проблема реализма в литературах народов советского востока».- Б.: Элм, 1974.- 112 с.

Страницы азербайджанско-узбекских литературных взаимосвязей /АН Аз.ССР, Инст. литературы им. Низами: Редкол.:Джафаров М.Д. и др.- Б.: Элм,1985.- 280 с.

İnternetdə

www.azerbaijan.news.az.
www.525.az/
www.azeri.net/
www.xatirekitabi.az/
www.kitabxana.iatp.az/
www.kitab.az
www.azerbaijan.az/_

Nailə Alışova

May

10

5 illiyi

Heydər Əliyev Fondu 2004

Ulu öndərimiz Heydər Əliyevin həyat amalı, zaman və məkan anlayışına sığmayan fəaliyyətinin əsas məqsədi azad və müstəqil bir dövlət qurmaq idi. Tarixə müstəqil dövlətimizin qurucusu kimi daxil olan bu şəxsiyyət həmişə Azərbaycanı özünə güvənən qüdrətli bir ölkəyə çevirmək istəyirdi. Bu yolda addımlar atır, əməli işlər görür, iqtisadi inkişaf yolunda olan Azərbaycanın etibarlı gələcəyini qururdu. Xalq onu sevir, işıqlı zəkasını qiymətləndirir və inanaraq ardınca gedirdi. Əslində Heydər Əliyev ömrü Azərbaycan xalqının XX əsr tarixinin 35 illik bir dövrü ilə sıx bağlıdır və onları bir-birindən ayrı konteksdə götürmək və izah etmək mümkün deyildir.

Bu gün yeni cəmiyyət quruculuğunda fəal iştirak edən Heydər Əliyev Fondu Azərbaycan xalqının öz dahi oğluna sonsuz ehtiramının daha bir ifadəsidir. Ulu öndərin ideyalarına, işıqlı amal və məsləkinə sadiq qalan Fond ictimai təşkilat olaraq həyata keçirdiyi genişmiqyaslı layihələrdə məhz xalqın ictimai fəallığına və dəstəyinə arxalanır.

2004-cü il mayın 10-da –Ümummilli liderin doğum günü açılış mərasimini keçirən Heydər Əliyev Fondu bu dahi insanın milli dövlətçilik, Azərbaycançılıq məfkurəsinin həyata keçirilməsi, onun zəngin nəzəri-fəlsəfi, siyasi irsinin dərindən öyrənilməsini özünün başlıca məqsədi, vəzifəsi hesab edir. Heydər Əliyev Fondunun prezidenti kimi Mehriban xanım Əliyeva dövlətçilik tariximizdə müstəsna xidmətlər göstərmiş böyük bir şəxsiyyətin - Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin irsinin qorunması və təbliği kimi ali bir missiyanı yerinə yetirir.

Fondun yaradılmasında əsas məqsədlərdən biri məhz Heydər Əliyevin zəngin irsinin hərtərəfli öyrənilməsinə və təbliğinə, Azərbaycanın

tərəqqisi və xalqımızın rifahı naminə ondan istifadə olunmasına yönələn genişmiqyaslı proqramların və tədbirlərin həyata keçirilməsidir.

Fond ictimai təşkilat kimi hazırda cəmiyyətin müəyyən bir qismini təşkil edən qaçqın və məcburi köçkün ailələrinin, eləcə də valideyn himayəsindən məhrum olan uşaqların problemlərini diqqətdə saxlamağa və həllinə kömək etməyə çalışır.

Böyük siyasi xadim Heydər Əliyev müstəqil Azərbaycanın beynəlxalq aləmdə tanınmasında, ölkəmiz haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında, Vətənimizin dünya birliyində nüfuzunun artırılmasında və özünəməxsus yer tutmasında misilsiz xidmətlər göstərmişdir. Fond dahi şəxsiyyətin bu yöndə gördüyü işləri davam etdirir, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin keçirilməsinə daim yardım göstərir.

Gərgin əməyin səmərəli nəticəsi olaraq, qısa müddət ərzində Heydər Əliyev Fondunun Azərbaycan, rus və ingilis dillərində nəfis tərtibatla işlənib hazırladığı İnternet səhifəsi açılmışdır. Saytda ümummilli liderimiz Heydər Əliyevin həyat və yaradıcılığı, irsi haqqında məlumatlar verilir. Zəngin materialları olan Fondun yaranma tarixi, fəaliyyəti, beynəlxalq əməkdaşlığı, mükafatları, fəxri qonaqları, kitabxanası və s. haqqında da ətraflı məlumat burada yerləşdirilmişdir. Belə bir saytın açılması ilə Heydər Əliyev Fondu xaricdə yaşayan həmvətənlərimizlə,

beynəlxalq qurumlarla, ictimaiyyətlə, kütləvi informasiya vasitələri ilə əlaqələrin genişləndirilməsi məqsədlərini həyata keçirir.

Fondun fəaliyyətində diqqəti cəlb edən işlərdən biri də ölkəmizə həsr olunmuş Azərbaycan, ingilis və rus dillərində "Azərbaycan" adlı İnternet səhifəsinin yaradılmasıdır. Burada Azərbaycanın tarixi, coğrafiyası, dövlət quruluşu, regionların sosial-iqtisadi həyatı, elm, təhsil, mədəniyyət, ədəbiyyat və incəsənət, idman və turizm sahəsi geniş işıqlandırılır. Başqa sözlə, bu, informasiyanın həcminə və zənginliyinə görə respublikada analoqu olmayan İnternet texnologiyaları sahəsində yeni bir layihədir. Azərbaycanla maraqlanan hər kəs burada ətraflı məlumat əldə edə biləcəkdir.

Ulu öndər Heydər Əliyevin çoxşaxəli fəaliyyətində elm, təhsil və mədəniyyətin, səhiyyə və idmanın inkişaf etdirilməsi də əhəmiyyətli yer tuturdu. Fond da öz növbəsində, bütün bu sahələrdəki layihələrin həyata keçirilməsinə, xüsusilə də Azərbaycançılıq məfkurəsinin bərqərar olunmasına, milli mənəvi dəyərlərimizin qorunması və təbliğinə, böyüməkdə olan gənc nəslin sağlam, hərtərəfli biliyə malik, layiqli vətəndaş kimi yetişməsinə yardım edir.

Fondun xətti ilə 2004-2007-ci illərdə həyata keçirilən proqramlar daha çox maarifçilik mahiyyəti daşıması ilə yaddaqalan olmuş, təhsilin səviyyəsini yüksəltməyə imkan vermişdir. Fondun təşəbbüsü ilə həyata keçirilən, dövlət qurumlarının və vətəndaş cəmiyyətinin bəzi strukturlarının da dəstəklədiyi "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində təkcə 2005-2006-cı illərdə Azərbaycanın müxtəlif regionlarında 200-ə yaxın məktəb binası inşa olunaraq lazımi avadanlıqlarla təchiz edilmişdir. Müasir gerçəkliklər fonunda dünya təhsil sisteminə inteqrasiyanın təmin edilməsi, cəmiyyətdə hamı üçün bərabər təhsil imkanlarının yaradılması, yeni məktəblərin, təhsil ocaqlarının inşası, gənc nəslin kompyuter və informasiya texnologiyalarına dərindən yiyələnməsi məsələləri bu gün də Fondun xüsusi diqqət yetirdiyi məsələlər sırasındadır.

Heydər Əliyev Fondu ulularımızdan bizlərə yadigar qalmış mədəniyyət incilərimizin qorunması, bu sərvətin heç bir itkiyə məruz qalmadan gələcək nəsillərə əmanət edilməsi üçün məqsədyönlü və konkret fəaliyyət planına malikdir. Fondun prezidenti Mehriban xanım Əliyevanın Bakıda "Qafqaz xalq ənənələri evi"nin yaradılması ilə bağlı YUNESKO qarşısında irəli sürdüyü təşəbbüsü də bu planın tərkib hissəsidir. Belə bir qurumun təşkili Qafqaz xalqlarına məxsus mədəni irsin qorunması baxımından daha böyük faydalar vəd edir. "Qafqaz xalq ənənələri evi"nin yaradılması Avropa Birliyinin təşəbbüsü ilə Qafqaz regionunda həyata keçirilən "Yeni Qonşuluq siyasəti"nin icrasına müəyyən töhfə verməklə bərabər, həm də zaman-zaman Azərbaycanın mədəniyyət incilərini oğurlayıb öz adlarına çıxan ermənilərin bu hərəkətlərinin qarşısını almış olacaqdır.

2007-ci ildə Heydər Əliyev Fondunun, Azərbaycan Mədəniyyətinin dostları Fondunun dəstəyi ilə keçirdiyi "Muğam televiziya müsabiqəsi-2007" layihəsi Azərbaycan muğamını təbliğ etmək, zəngin muğam məktəbi üçün yeni səslər axtarmaq və gənc ifaçılara öz potensiallarını tam şəkildə reallaşdırmaq üçün şərait yaratdı. Azərbaycan muğamını qorumaq, inkişaf etdirmək, gələcək nəsillərə çatdırmaq üçün Heydər Əliyev Fondu, Azərbaycan Mədəniyyətinin Dostları Fondu ilə birlikdə bu istiqamətdə bir sıra mühüm layihələr həyata keçirmişdir: "Qarabağ xanəndələri" musiqi albomu buraxılıb. Alboma "Qarabağ xanəndələri" adının seçilməsi ilə bütün dünyaya Qarabağın əzəli və əbədi Azərbaycan torpağı, muğamın isə bu torpağın dünyaya bəxş etdiyi nadir sənət nümunəsi olduğu bir daha nümayiş etdirildi.

Azərbaycanın birinci xanımının rəhbərliyi altında "Qarabağ həqiqətləri" kitabının çapa hazırlanması Azərbaycanın, Qarabağın tarixi keçmişinin öyrənilməsi tarixi

baxımdan son dərəcə böyük əhəmiyyət daşıyır. "Muğam" jurnalının nəşri, "Muğam" ensiklopediyasının həm çap, həm də elektron versiyasının hazırlanması çox əhəmiyyətlidir. Hazırda Muğam Mərkəzi tikilir ki, bu layihə YUNESKO tərəfindən dəstəklənir və bu beynəlxalq bir mərkəz olacaq, yeni beynəlxalq tədbirlər keçiriləcək.

Azərbaycanın görkəmli alimlərinin, yazıçı və bəstəkarlarının yubileylərinin keçirilməsi, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin beynəlxalq miqyasda qeyd olunması, YUNESKO-nun "Dünya irs siyahısı"na İçərişəhərin, Şirvanşahlar Saray Komplekslərinin, Qobustan Qoruq Muzeyinin və Atəşgahın da daxil edilməsi, tarixi mədəniyyət abidələrinin bərpası "Azərbaycan Mədəniyyətinin Dostları" Xeyriyyə Fondunun fəaliyyətinin təqdirəlayiq məqamları kimi vurğulanmalıdır. Heydər Əliyev Fondunun həyata keçirdiyi kompleks tədbirlər həm də xalqın milli kimliyini, keçmişini, milli varlığını özündə yaşadan Azərbaycan folklorunun inkişafına, onun nümunələrinin toplanılması və nəşri işinə ciddi təkan verir.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə işlənib hazırlanmış "Hərəmiz bir ağac əkək" layihəsi ətraf mühitin sağlamlaşdırılması, ekoloji vəziyyətin yaxşılaşdırılması, vətənimizin abad, yaşıl, çiçəklənən diyara çevrilməsi naminə həyata keçirilir və başlanan bu hərəkatın əhəmiyyətini yerlərdə yaxşı başa düşür və lazımınca dəyərləndirirlər.

Ulu öndərin mərhəmət, nəciblik və yüksək humanizmə əsaslanan ali idealların ictimai şüurda möhkəmlənməsinə çalışan, millətin gələcəyi naminə bir sıra əhəmiyyətli layihələri inamla həyata keçirən Heydər Əliyev Fondu hazırda cəmiyyətdə bir çox insanların ümid yerinə çevrilmişdir. Qurumun başlıca məqsədi Ulu öndərimizin zəngin dövlətçilik irsinin öyrənilməsi və təbliğinə xidmət edən irimiqyaslı proqramları həyata keçirmək, xalqın rifahının yüksəldilməsinə yönəlmiş faydalı təşəbbüsləri dəstəkləmək, elm, təhsil, mədəniyyət, incəsənət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrə yardımçı olmaq, milli mənəvi dəyərlərə sadiq gənclərin yetişdirilməsinə çalışmaq, respublikamızın nüfuzunu artırmaq kimi strateji əhəmiyyətli vəzifələrdən ibarətdir.

Heydər Əliyev Fondunun gələcək planları geniş və çoxşaxəlidir və bunların hamısı bir məqsədə-Ulu Öndərin ideyalarının, arzu və istəklərinin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilməsinə xidmət etməyə, ölkə ictimaiyyətini, habelə xaricdə yaşayan soydaşlarımızı bu işə getdikcə daha geniş cəlb etməyə yönəldilmişdir.

Ədəbiyyat

Heydər Əliyev Fondu: 2004-2005.-B., 2005.-103 s., fotoşək.

Heydər Əliyev Fondu: Heydər Əliyev haqqında.-B., 2006.-129 s., fotoşək.-Mətn Azərb. və ing. dillərində.

Heydər Əliyev Fondu: 2005- 2006.- B., 2006.-67 s., fotoşək.-Mətn Azərb. və ing. dillərində

Heydər Əliyev Fondunun yeni layihəsi: Hərəmiz bir ağac əkək //Azərbaycan.-2007.-29 mart.-S.5.

İmanov, M. Xeyirxahlığın ali ünvanı: Ulu öndərimiz Heydər Əliyevin adını daşıyan Fondun idealları-na layiq şəkildə fəaliyyət göstərir //Azərbaycan.-2006.- 6 iyul.-S.4.

İsmayılov, H. Xoş məram və məqsədlər elçisi: Hey-dər Əliyev Fondunun çox-şaxəli fəaliyyəti xalqımıza xas mütərəqqi dəyər və ideallarının ictimai şüur-da möhkəmlənməsinə yö-nəlmişdir //Azərbaycan.-2007.-13 sentyabr.-S.4.

İnternetdə

www.**heydar-aliyev**-foundation.org/
www.yap.org.az/
www.csl-az.com.
www.president.az.
Www.204az.net.

Nailə Alışova

May

10

95 illiyi

Əliş Ləmbəranski
1914-1999

Mühəndis

Əliş Cəmil oğlu Ləmbəranski 1914-cü il mayın 10-da Ağdam rayonunda anadan olmuşdur. O, 1936-cı ildə Azərbaycan Sənaye İnstitutunu bitirdikdən sonra əmək fəaliyyətinə Bakıda neft-yağ zavodunda başlayaraq, qısa bir zamanda baş mühəndis vəzifəsini tutmuşdur. 1939-cu ildə orduya çağırılmışdır.

Ordudan tərxis olunaraq, 1940-1941-ci illərdə həmin zavodda baş mühəndis kimi işini davam etdirmişdir. Əliş Ləmbəranski 1941-1942-ci illərdə alman faşizminə qarşı müharibədə iştirak etmiş və ağır yaralanaraq, arxa cəbhəyə göndərilmişdir. Vətənə qayıtdıqdan sonra o, 1942-1959-cu illərdə neft-yağ zavodunda baş mühəndis və direktor, Bakı Neftayırma Zavodları Trestində müdir, Azərbaycan Neftayırma Zavodları Birliyində rəis vəzifələrində çalışmışdır. Əliş Ləmbəranski eyni zamanda 1954-cü ildən Respublika Neft Sənayesi nazirinin müavini olmuşdur.

1959-1966-cı illərdə Əliş Ləmbəranski Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin sədri vəzifəsində işləmişdir. 1966-cı ildə o, SSRİ Nazilər Soveti yanında Mikrobiologiya Sənayesi Baş İdarəsi rəisinin birinci müavini, 1970-ci ildə isə Azərbaycan Nazirlər Soveti sədrinin müavini vəzifəsinə təyin olunmuşdur. 1987-ci ildə bu vəzifədən təqaüdə çıxmışdır. Buna baxmayaraq, Əliş Ləmbəranski ömrünün sonunadək respublika əhəmiyyətli müxtəlif tikintilərə uğurla başçılıq etmişdir. 1998-ci ildə yenidən istifadəyə verilmiş Azərbaycan Musiqili Komediya Teatrının bərpasında, indiki H.Əliyev adına Respublika sarayının tikilməsində Əliş Ləmbəranskinin xüsusi xidməti olmuşdur.

Əliş Ləmbəranski tutduğu hər bir vəzifədə özünü bilikli mütəxəssis, bacarıqlı təşkilatçı və təşəbbüskar rəhbər kimi göstərmişdir. Bütün öm-

rünü respublikada təsərrüfatın müxtəlif sahələrinin inkişafına həsr etmiş Əliş Ləmbəranskinin əməksevərliyi və peşəkarlığı neçə-neçə nəslə örnəkdir. Gərgin əmək fəaliyyəti ilə yanaşı o, ömrünün son günlərinə qədər respublikanın ictimai həyatında fəal iştirak etmişdir. Ə.Ləmbəranski dəfələrlə Respublika Ali Sovetinin deputatı seçilmişdir. Onun zəngin və mənalı həyat yolu Vətənə sədaqətin, xalqa məhəbbətin, seçdiyi sənətə vurğunluğun əsl nümunəsidir.

Əliş Ləmbəranskinin əməyi keçmiş SSRİ-nin ən yüksək mükafatlarına layiq görülmüşdür. Dövlət mükafatı laureatı, Əməkdar mühəndis Əliş Cəmil oğlu Ləmbəranski 1999-cu ildə 85 yaşında vəfat etmişdir.

Ədəbiyyat

Bayramov, Ə. Özünə heykəl qoyan adam Əliş Cəmil oğlu Ləmbəranskini anarkən (Ə. Ləmbəranskinin ölümü münasibətilə xatirə) //Xalq qəzeti.-1999.-3 iyun.-S.4.

Rus dilində

Распоряжение президента Азербаиджанской Республики об увековечении памяти-А.Д.Лемберанского // Бакинский рабочий - 2004.- 12 мая .–С.1.

Лемберански, А. и. др. Баку. (Фотоалъбом).-Б., Отд.культуры Бакинского городского Совета.1964, 137 с.

Анар. Человек легенда. Профессией его было Созидание: Памятъ (об Алише Лемберанском) //Бакинский рабочий.-1999-13 мая-С.3.

Микалидзе, Г. Любимый город Алиша Лемберанского //Гюнай- 2002 .- 2 марта. – С. 5.

Мирзоева,С. Алиш Лемберански: «Ну, это же во человек! Глыба, феномен, гений!» //Бакинский рабочий.- 2001-9 мая.- С. 7.

Мирзоева, С. «Лебединая песня» Алиша Лемберанского: (построивший Театр. Музыкальной Комедии) //Бакинский рабочий.- 2003.- 15 апреля.- С. 4.

Шульман, В. Самый популярный Бакинец: /Алиш Джамилович Лемберанский //Вышка.- 1991. - 22 июня.- С. 13.

Tahirə Həsənova

May

11

145 illiyi

Etel Lilian Voyniç 1864-1960

İngilis yazıçısı

Etel Lilian Voyniç 1864-cü il may ayının 11-də İrlandiyanın Kork şəhərində anadan olmuşdur. İngilis riyaziyyatçısı C.Bulun qızı, Polşa inqilabçısı M.Voyniçin arvadıdır. 1887-1889-cu illərdə Rusiyada yaşamışdır. 1920-ci ildə Nyu-York şəhərinə köçmüşdür.

O, məşhur "Ovod" əsərini italyan xalqının XIX əsrin 30-40-cı illərindəki azadlıq mübarizəsinə həsr etmişdir. Qəhrəmanı mərdlik və yenilməzlik rəmzinə çevrilən bu əsər dünya xalqlarının dilinə, o cümlədən Azərbaycan dilinə tərcümə edilmişdir.

Etel Lilian "Cek Rey mond" (1901), "Oliviya Letta Le tam" (1904), "Ovod sürgündə" (1910), "Başmaqlarını çıxart" (1945) romanlarında italyan, rus, polyak xalqlarının inqilabi mübarizəsini əks etdirir. O, həmçinin müsiqi əsərləri də bəstələmişdir. "Babilistan" (1948) oratoriyası rusiyada çarizmin devrilməsinə həsr olunmuşdur.

O, 1960-cı il iyul ayının 28-də Nyu-Yorkda vəfat etmişdir.

Ədəbiyyat

Ovod. Roman /tərc. ed. B. Mustafayev; red. P. Salamova.- B.: Gənclik, 1976.- 270 s.

Rus dilində

Собрания сочинений: в 3-х т.- М.: Правда, 1975

Yasəmən Sadıqova

May

13

80 illiyi

Hikmət Ziya
1929-1995

Şair



Əməkdar incəsənət xadimi, tanınmış şair Hikmət Ziya oğlu Əfəndiyev 1929-cu il mayın 13-də Ağdam şəhərində anadan olmuşdur. 1 saylı orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil almışdır (1947-1952). Ədəbi yaradıcılığa 1952-ci ildə "Azərbaycan pioneri" qəzetində çap edilən "Qeqola" adlı ilk şeiri ilə başlamışdır. Sonra dövri mətbuatda vaxtaşırı yeni şeirləri ilə çıxış etmişdir. İlk satirik şeirləri, eyni zamanda "Atamın hədiyyəsi" (1957), "Bahar gözəldir, ya qış?" (1959), "Milçək ürəyi" (1960) kitabları Hikmət Əfəndiyev imzası ilə çap olunmuşdur. "Qərib cinlər diyarında" bədii filminin ssenari müəllifidir.

Bir qələm sahibi kimi onun yaradıcılıq simasını təmsil şeirləri müəyyən edir. Azərbaycan ədəbiyyatında qısa təmsil anlayışı müasir ədəbi prosesə bilavasitə H.Ziya adı ilə gətirilmişdir. Ədibin təxminən 3000-ə yaxın təmsili vardır.

Xidmətlərinə görə Azərbaycanın Əməkdar incəsənət xadimi (1986) fəxri adına layiq görülmüş, Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə təltif olunmuşdur

Hikmət Ziya 1995-ci il avqustun 2-də Bakıda vəfat etmişdir

Ədəbiyyat

Seçilmiş əsərləri.- B.: Azərnəşr, 1992.-293 s.

Qardaşlar ovda.- B.: Gənclik, 1978.- 143s

Qərib cinlər diyarında.- B.: Gənclik, 1970.- 141 s

Təmsillər.- B.: Gənclik, 1985.- 120s

Təmsillər.- B.: Yazıçı, 1988.- 237 s.

Vətənim mənim.-B.: Gənclik, 1988.- 123 s.

Məmməd Məmmədov

May

15

Beynəlxalq Ailə Günü
1994

BMT Baş Assambleyasının 20 sentyabr, 1993-cü il tarixli qətnaməsinə əsasən 1994-cü ildən hər il mayın 15-i Beynəlxalq Ailə Günü kimi təntənə ilə qeyd olunur. Həmin günün təsis edilməsi dünya ictimaiyyətinin müasir ailənin vəziyyəti ilə, onun cəmiyyətdə və böyüməkdə olan nəslin tərbiyəsində rolu ilə bağlı narahatlığından irəli gəlmişdir.

Ümumiyyətlə, ailənin yaranma tarixi insanlığın yaşı ilə ölçülür. Ailə - cəmiyyətin içində qurulan kiçik bir dövlətdir və bu dövlətin təməl daşını qoyanlar gənclərdir.

Cəmiyyətin saflığı, dövlətin uğurları xeyli dərəcədə normal, sivil qaydalar əsasında formalaşan ailə məişət prinsipləri ilə şərtlənir.

Bu gün Respublikamızda 1 milyon 800 minə yaxın ailə var. Qadınların sayı isə 4 milyon 328 minə qədərdir. Bunların arasında 1100 nəfər ağbirçəyin yaşı 100-ü keçib. Bu gün bizim ailələrimiz xoşbəxt ömür-gün sürməklə yanaşı, cəmiyyətdə fəal həyat mövqeləri, elmdə, yaradıcılıqda və təsərrüfat işlərində qazandıqları nailiyyətlərlə də digər ölkələrdən fərqlənirlər.

Ailənin, qadın və uşaqların problemləri müstəqil Azərbaycan dövlətinin daim diqqət mərkəzindədir. Bu sahədə dövlət siyasətinin prinsipləri ümummilli lider Heydər Əliyev tərəfindən müəyyən olunub. Ulu öndər daim qadınların ictimai həyatda iştirakını dəstəkləmiş, ailə və uşaq problemlərinin həllinə diqqətlə, qayğıyla yanaşmışdır. Bu siyasətin davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2006-cı il fevralın 6-da imzaladığı Fərmanı ilə yaradılmış Ailə, Qadın və Uşaq Problemləri Üzrə Dövlət Komitəsi bunun əyani sübutudur. Bu gün Prezident İlham Əliyevin şəxsi təşəbbüsü və rəhbərliyi ilə ölkə əhalisinin sosial vəziyyətinin yaxşılaşdırılması sahəsində uğurlu addımlar atılır. Evini və ailəsini möhkəm qala sayan soydaşları-

mızın bü gün müdafiəyə və dəstəyə ehtiyacı var. Çadır düşərgələrində, yük vaqonlarında məskunlaşmış qaçqın və məcburi köçkün ailələri üçün yeni qəsəbələrin salınması bu sahədə görülən əhəmiyyətli işlərdəndir.

Ədəbiyyat

Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması haqqında Fərmanı //Azərbaycan.- 2006 .- 7 fevral.- S. 1.

Cabbarov, A. 15 may- Beynəlxalq Ailə Günüdür //Azərbaycan.- 2007.- 15 may.- S. 5.

Qurbanqızı, Z. Ailə kiçik dövlətdir //Respublika.- 2006.- 16 may.- S. 4.

İnternetdə

www.azadinform.az
www.azerbaycan.news.az
www.geleceknesil.az
www.news.trend.az

Adilə Abdullayeva

May

18

Laçın

Ərazisi - 1875 km²
Əhalisinin sayı - 61763
İnzibati mərkəzi – LAÇIN
İşğal tarixi 18.05.1992

Laçın - dağların sinəsinə qonmuş nəhəng bir qartala bənzəyir. Bu qartalın hər lələyi düşmən gözünə bir ox idi.

Qulu Xəlilov

Laçın rayonu Azərbaycan Respublikasının cənub-qərbində, dağlıq ərazidə yerləşir. Şimaldan Kəlbəcər, şərqdən Xocalı, Şuşa və Xocavənd, cənubdan Qubadlı rayonları, qərbdən isə Ermənistan Respublikası ilə həmsərhəddir.

Dünyada ən nadir ağac sayılan qırmızı dəmirağac meşələri, çoxlu mineral suları, kobalt, uran, civə, qızıl, dəmir, müxtəlif rəngli mərmər yataqları, həddindən çox dərman bitkiləri və s. vardır.

Laçın şəhərinin yerini Tağı Şahbazi Simurq seçmiş və bu adı da ona özü vermişdir. Laçın rayonu 1924-cü ildə təsis edilmişdir. Rayonun mərkəzi Laçın şəhəridir.

İşğaldan əvvəl:

217 mədəniyyət müəssisəsi;
142 səhiyyə obyekti;
133 idarə və müəssisə;
100 ümumtəhsil məktəbi;
5 məktəbəqədər müəssisə;
5 musiqi məktəbi;
1 internat məktəbi;
1 orta texniki peşə məktəbi;
1 rabitə müəssisəsi.

1992-ci il xalqımızın tarixinə ən ağır, müdhiş bir il kimi daxil olub. Dağlar qoynunda yerləşərək öz gözəlliyi ilə aləmə meydan oxuyan, hər daşında bir sirr yatan Laçın düşmənə təslim edildi. Laçın da Şuşa kimi mühüm hərbi-strateji əhəmiyyətə malik idi. Şuşanın işğalı günü Laçın da güclü top və raket atəşinə məruz qalmışdı. Xəyanət və xəyanətə bərabər məsuliyyətsizlik Dağlıq Qarabağın, bütünlükdə isə Azərbaycanın gələcək taleyi üçün mühüm əhəmiyyətə malik olan vüqarlı Laçını düşmənə təslim etdi. Bu təslim nəticəsində təbii səngərlərlə əhatə olunmuş Laçın odlara qalanaraq tamamilə dağıdıldı. Sərvəti talan olunaraq Ermənistana daşındı, mədəniyyət ocaqlarımız, tarixi-memarlıq abidələrimiz o torpaqlardan silindi, minlərlə baş mal-qara aparıldı, ən başlıcası isə laçınlılar doğma obalarından perik düşərək respublikamızın bölgələrinə səpələndilər. Şuşa və Laçın həmin günlər yalnız taleyin ümidinə qalmışdı

Artıq 15 ildir ki, dağlar gözəli Laçın erməni daşnaklarının ayaqları altında inildəyir, laçınlılar isə ölkənin müxtəlif ərazilərində köçkün vəziyyətində yaşayırlar. Laçınlılara dövlətimiz və soydaşlarımız tərəfindən nə qədər qayğı və diqqət göstərməsinə baxmayaraq, onlar yurd həsrəti ilə çırpınırlar. Ölkə başçısı İlham Əliyevin bu istiqamətdə apardığı siyasət deməyə əsas verir ki, torpaqlarımızın işğaldan azad ediləcəyi, bir milyondan artıq qaçqın-köçkünümüzün, o cümlədən laçınlıların öz yurdlarına qayıdacaqları gün uzaqda deyil.

Ədəbiyyat

Əliyev, A. Laçın polisinin qəhrəmanlıq salnaməsi.- B.:Şur, 1993.-74 s.

İsmayılov, F. Tarixin faciəsi: Laçın.- B.: Nurlar, 2003.-48 s.

Mahmudov, Y. Qarabağ: real tarix, faktlar, sənədlər / Mahmudov, Y., Şükürov F.- B.: Təhsil, 2005.- 380 s.

İnternetdə

http://www.azadqarabag.azerall.

www.anl.az.

Səadət Mütəllimova

May

18

Beynəlxalq Muzeylər Günü
1977

Dünyada ilk muzey Ellin dövründə qədim Misirin paytaxtı İskəndəriyyə şəhərində yaradılmışdır. Burada 40 000-dən artıq eksponat toplanmışdır. Şöhrəti bütün dünyaya yayılmış muzeylər isə çoxdur. Onlardan ən məşhurları Parisdə Luvr Muzeyi, Londonda Viktoriya və Albert Muzeyi, İstanbulda Topqapı Muzeyi və Sankt-Peterburqda Ermitajdır.

Azərbaycanda isə muzey işinin tarixi çox da qədim deyil. İlk milli muzeyin yaradılması Azərbaycan Xalq Cümhuriyyəti dövrü ilə bağlıdır. 1919-cu il dekabrın 7-də "İstiqlal" Muzeyi fəaliyyətə başlamışdı. Muzeydə tariximizi, milli-mənəvi dəyərlərimizi əks etdirən eksponatlar - məişət əşyaları, silahlar və əlyazmalar toplanmışdı. Keçmiş Sovet hakimiyyəti illərində Respublikada muzey şəbəkəsi daha da genişlənmişdir: Nizami adına Ədəbiyyat Muzeyi, L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi, Azərbaycan Tarixi Muzeyi, Xalq Maarifi Muzeyi, əksər rayon və şəhərlərdə diyarşünaslıq muzeyləri, elm və mədəniyyət xadimlərinin ev - muzeyləri və s.

Azərbaycan həm də açıq səma altında yerləşən muzeylər ölkəsidir. Bunu Qobustanda, İstisuda (Kəlbəcər) və Gəmiqayada (Naxçıvan) qayalar üzərindəki təsvirlər sübut edir.

Dünya mədəni ictimaiyyəti hər il mayın 18-ni 1977-ci ildə Beynəlxalq Muzeylər Şurasının 11-ci konfransında təsis olunmuş Beynəlxalq Muzeylər Günü kimi qeyd edir. 1978-ci ildən etibarən bu bayram hər il 150-dən çox ölkədə qeyd olunur.

Ədəbiyyat

Kəbutər. Beynəlxalq Muzeylər Günü qeyd olundu //Yeni Azərbaycan.- 2006.- 19 may.- S.7.

18- May Beynəlxalq Muzeylər Günü //Qocayev, Ə. Bayramlar və tarixi günlər.- B.: Altun Kitab, 2006.- S. 107-109.

Mükərrəmoğlu, M. Beynəlxalq Muzeylər Günü münasibətilə Musiqi Mədəniyyəti Dövlət Muzeyində tədbir keçirildi //Xalq qəzeti.- 2007.- 20 may.- S. 4.

İnternetdə

www.apa.az.
www.azadinform.az
www.bizimasr.media-az.com
www.osi-az.org
www.ses-az.com

Adilə Abdullayeva

May

25

125 illiyi

Salman Mümtaz
1884-1941

Ədəbiyyatşünas

Salman Məmmədəmin oğlu Əsgərov (Mümtaz) 20 may 1884-cü ildə Şəki şəhərində anadan olmuşdur. Kiçik yaşlarından Aşqabad şəhərində yaşamış, ibtidai təhsilini də orada Xalxallı Mirzə Əsədullanın məktəbində almışdır. Uşaqlıqdan böyük bir ailənin qayğısını çəkməyə məcbur olan Salman Mümtaz müntəzəm təhsil ala bilməmişdir.

Onun bir ədəbiyyatşünas kimi yetişməsində istedadı, ədəbiyyata böyük həvəsi, öz üzərində işləməsi və çox qüvvətli hafizəsi mühüm rol oynamışdır. Salman Mümtaz müəllimi Mirzə Əsədulladan ərəb və fars dillərini, habelə Hindistanda geniş yayılmış urdu dilini öyrənmişdir. Şərq dillərinə bələd olması onda ümumiyyətlə, ədəbiyyat nümunələrini toplamaq, onların izahı və şərhi ilə məşğul olmaq, nəşr etmək, məşhur şairlərin əsərlərini oxuculara çatdırmaq meylini gücləndirmiş və onu mətbuat aləmi ilə daha sıx bağlamışdır.

Salman Mümtaz əsrin əvvəllərində tariximizin mübarizələr, gərgin axtarışlar dövründə fəaliyyətə başlamışdır. Həm də uzun müddət Azərbaycandan xeyli uzaqlarda yaşamış, o mühitin ab-havası ilə pərvəriş tapmışdır. Əlli dörd illik ömrünün otuz ildən çoxunu ədəbiyyat tariximizin öyrənilməsinə həsr etmiş S.Mümtaz şair və alim-mətnşünas kimi şöhrət qazanmışdır.

Yaradıcılığa Şərq şeirinin təsiri altında başlayan, uşaqlıqdan Azərbaycan və Şərq ədəbiyyatına çox böyük maraq göstərən, Nizami, Füzuli, Firdövsi, Sədi və Hafiz kimi klassiklərin əsərlərini mütaliə edən və onların sənətkarlığından çox şey öyrənən S.Mümtaz Aşqabadda Məmmədəli Manafzadə, Mirfəttah Musəvi, Zülfüqar Cəfərov, Cəfər Tahirov, Rza Səmədov, Mirəhməd Mirdadaşzadə, Məhəmməd Səid kimi qabaqcıl fikirli ziyalılar ilə yaxından tanış olmuş, Ədəbi Məclis təşkil etmiş, klassik şeir üs-

lubunda yeni əsərlər yazmışdır.

1905-ci il inqilabından sonra uzun müddət Türküstanda Azərbaycan mətbuatının müvəkkili olmuş tacir Salman Mümtazın adı məşhur "Molla Nəsrəddin" jurnalının adı ilə də bağlıdır. O, "Molla Nəsrəddin" jurnalının fəal əməkdaşlarından biri olmuş, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əbdürrəhimbəy Haqverdiyev, Ömər Faiq Nemanzadə, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Əli Nəzmi, Rzaqulu Nəcəfov ilə dostluq etmişdir.

Mövhumata, cəhalətə bir sözlə bütün tüfeyli ünsürlərə qarşı fədakarlıqla mübarizə aparan S.Mümtaz dil saflığı, məqsəd prinsipiallığı, qadın azadlığı ətrafında gedən mübahisələrdə qəzet və jurnal səhifələrində fəal çıxış etmişdir.

S.Mümtaz klassik ədəbi irsin toplanması, nəşri və tədqiqi sahəsində də fəaliyyət göstərmiş, Azərbaycan şair və aşıqlarının əsərlərinin bir sıra naməlum əlyazma nümunələrini aşkara çıxarmışdır. "Kommunist" nəşriyyatında "Unudulmuş yarpaqlar" başlığı altında Azərbaycan ədəbiyyatı seriyasından 24 şairin (Nəsimi, Qövsi Təbrizi, Nişat Şirvani, Ağa Məsih Şirvani, M.P.Vaqif, Q. Zakir, M.Ş.Vazeh və s.) kitabını buraxdırmışdır. Bunların bir çoxu həmin şairlərin əsərlərinin ilk toplu nəşri idi. Aşıq poeziyası nümunələrindən ibarət "El şairləri" kitabını (H. 1-2, 1927-1928; təkrar çapı 1935), "Sarı aşığın bayatılarını» (1927,1934) nəşr etdirmişdir. S.Mümtaz Azərbaycan ədəbiyyatı klassiklərinin əsərlərinin elmi-tənqidi mətninin hazırlanması sahəsində də çalışmışdır. Ədibin Nəsimi, Şah İsmayıl Xətai, Həbibi, Füzuli, Vidadi, Vaqif, İsmayıl bəy Qutqaşınlı və başqalarının həyat və yaradıcılığına dair araşdırmaları, M.Ə. Sabir, A.Səhhət haqqında xatirələri vardır.

S.Mümtaz gözəl tədqiqatçı, məşhur ədib olmaqla yanaşı, eyni zamanda gözəl tarixçidir. Çünki o, öz araşdırmalarında tarixi məsələləri və məxəzləri də nəzərdən qaçırmamış, əksinə, onlara diqqət yetirmiş və maraqlı elmi nəticələr çıxarmışdır. Salman Mümtaz bayatıların ilk toplayıcısı və tədqiqatçısı olmuşdur. Bu baxımdan onun 1927-ci ildə nəşr etdirdiyi "Aşıq Abdulla" adlı kitabı diqqəti cəlb edir. Salman Mümtazın toplayıb nəşr etdirmiş olduğu əsərlər ədəbiyyat tariximizə, o cümlədən Azərbaycan tarixinə dair faktların öyrənilməsi öz əhəmiyyətini itirməmişdir.

Bu fədakar insana yüzlərlə günahsız qurbanlardan biri kimi millətçi damğası vurularaq, sürgün edilmiş və beləliklə ömrünün ən bəhrəli çağında həyatla vidalaşmışdır. Adını yüksək məhəbbətlə, hörmətlə çəkərək anadan olmasının 125 illiyini qeyd etdiyimiz Salman Mümtaz 1938-ci ildə Oryolda vəhşicəsinə güllələnmişdir.

Ədəbiyyat

Azərbaycan ədəbiyyatı (El şairləri: 2 cilddə /tərt. ed. Salman Mümtaz; red. filol.e.n. Paşa Kərimov); AMEA-nın M.Füzuli adına Əlyazmalar İn-tu.- B.: Nurlan, 2005.- C.I.- 461 s.

Azərbaycan ədəbiyyatının qaynaqları /tərt. və ön sözün müəllifi R.Tağıyev; red. M.Adilov.- təkrar nəşr.- B.: Avrasiya Press, 2006.- 439 s.

Azərbaycan ədəbiyyatının qaynaqları /tərt və ön sözün müəllifi R.Tağıyev.- B.: Yazıçı,1986.- 448 s.

El şairləri /tərt ed. Ağalar Mirzə; AMEA-nın Folkor İnstitutu.- B.: Səda, 2005.-292 s.

Mirzə Şəfi Vazeh /nəşrə haz. A.Ramazanov; red. M.Adilov.- B.: Nurlan, 2005.-31 s.

Nəcəfov, N. Salman Mümtazın ədəbi və elmi fəaliyyəti.- B.: Maarif, 1987. - 98 s.

Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu.- B.: Nurlan, 2005 .-237 s.

Tağıyev, R. Salman Mümtaz.- B.: Elm, 1974.- 44 s.

Paşayeva, M. Salman Mümtaz arxivinin təsviri /M.Paşayeva, Z.Hacıyeva; Tahirzadə, Ə. Salman Mümtaz: (Tərcümeyi hal oçerki).- B.: Kür, 2002.- 16 s.

İbrahimov, M. Fədakar tədqiqatçı, M.İbrahimov Niyəsiz, necəsiz bir yazısan sən.- B.: Yazıçı, 1985.- S.533-546.

Zeynalov, M. Azərbaycanın ən zəngin adamı: Salman Mümtaza öz əlilə yaratdığı əlyazmalar Fondunu da çox gördülər //Xalq cəbhəsi.- 2003.- 9 may.-S.14.

Nailə Alışova

May

20

80 illiyi

Mürsəl Həkimov
1929-2006

Folklorşünas

Mürsəl İsmayıl oğlu Həkimov 1929-cu il mayın 20-də Qazax rayonunun Kəmərli kəndində anadan olmuşdur. Burada kənd orta məktəbini bitirdikdən sonra Qazax iki-illik Müəllimlər İnstitutunda təhsil almışdır (1947-1949). Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Tarix-filologiya fakültəsində təhsilini davam etdirmişdir (1955-1960). "Aşıq Hüseyn Cavanın həyat və yaradıcılığı" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1965). "Orta əsrlər Azərbaycan aşıq yaradıcılığı" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir (1986). Ədəbi-elmi fəaliyyətinə tələbəlik illərindən başlamışdır. Əsərləri dövri mətbuatda, toplu və almanaxlarda çap olunmuşdur. SSRİ Folkloristlər Cəmiyyətinin, Azərbaycan folklorşünaslıq qurumunun təmsilçisi (1977-1992), Türkiyə Atatürk Kultur Dil və Tarix yüksək qurumunun üzvü olmuşdur.

Azərbaycanın tanınmış folklorşünas alimi, ləyaqətli ziyalı, professor Mürsəl Həkimov 2006-cı il aprel ayının 19-da Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Azərbaycan aşıq şeir şəkilləri və qaynaqları .- B.: Maarif, 1999.- 375 s.

Bayatılar.- B.: APİ nəşriyyatı, 1991.- 101 s.

Bozqurd-kultum mənim, Türk eli yurdum mənim.- B.: "Yeni nəsil", 2001.- 333 s.

Dədə Qorqud-1300.- B.: ADPU nəşri, 2000.- 40 s.

Oğuz-tərəkəmə xalq mərasimləri və meydan tamaşaları.-B.: Maarif, 1997.- 333 s.

Azərbaycan xalq dastanlarında ana-qadın mənəviyyatı //Dədə-Qorqud.- 2003 .- № 1-2.- S. 6-14.

Gülşən Hüseynova

May

23

90 illiyi

Hüseyn İbrahimov
1919-2008

Yazıçı

Azərbaycanın Xalq yazıçısı Hüseyn İbrahimov 1919-cu il may ayının 23-də Naxçıvan MR-in Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur. Kənd yeddiillik məktəbini bitirdikdən sonra Naxçıvan Pedaqoji Texnikumunda, Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsində (1953-1958) təhsil almışdır. Noraşen (indiki Şərur) rayon Sədərək kənd orta məktəbində müəllim kimi əmək fəaliyyətinə 1940-cı ildə başlamış, Noraşen rayonunda bir sıra ictimai vəzifələrdə çalışmışdır. Ədəbi fəaliyyətə 1944-cü ildə "Ədəbiyyat qəzeti"ndə çap olunan "O, düşməndə qoymadı anasının qanını" adlı ilk şeiri ilə başlamışdır. Bundan sonra öz hekayələrini dövri mətbuatda müntəzəm olaraq çap etdirmişdir. "Qu quşları öləndə oxuyurlar" əsərini və Hüseyn Cavidə həsr etdiyi "Böhtan" romanını 1998-ci ildə başa çatdırmışdır. Əsərləri keçmiş SSRİ və bir çox xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur.

Yazıçı həm komediya, həm də faciə janrında mükəmməl əsərlər yaratmışdır. "Torpağın övladları" və "İtirilən sağlıq" pyesləri Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur. Əziz Nesinin (Türkiyə), Murad Sibainin (Suriya), Şixata Ubeydin (Misir) və Abdulla Qəhharın (Özbəkistan) bir sıra hekayələrini Azərbaycan dilinə tərcümə etmişdir. SSRİ yazıçılarının ikinci və üçüncü qurultaylarında nümayəndə kimi iştirak etmişdir. Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi və Azərbaycan Yazıçılar İttifaqı plenumuna dəfələrlə üzv seçilmişdir. Naxçıvan Ali Sovetinin (IV, VII, VIII çağırış) deputatı, Naxçıvan Ali Sovetinin Sədri (1963-1967) olmuşdur. SSRİ "Bilik" cəmiyyəti nümayəndə heyətinin tərkibində Finlandiya və Da-

nimarka ölkələrinə (1967), Azərbaycan mədəniyyət işçiləri nümayəndə heyətinin rəhbəri kimi İtaliya və Əlcəzair ölkələrinə (1975) səfər etmişdir. Naxçıvan MR Ali məclisinin nümayəndə heyətinin tərkibində İran İslam Respublikasında (1992, 1994, 1996) olmuşdur. Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərinə görə beş medalla, 1994-cü ildə anadan olmasının 75 illiyi münasibətilə "Şöhrət" ordeni ilə təltif edilmişdir. Prezidentin fərdi təqaüdünə layiq görülmüşdür (2002).

Azərbaycanın xalq yazıçısı Hüseyn İbrahimov 10 aprel 2008-ci ildə 89 yaşında dünyasını dəyişib

Ədəbiyyat

Seçilmiş əsərləri: 3 c.-də. – B.: Naksuana, 2007.

Seçilmiş əsərləri.– B.: Gənclik, 1998. – 423 s.

Ata, qız və bostonlu Franklin: Hekayələr, novellalar, povestlər.– B.: Yurd, 1999. -180 s.

Bahar yağışı.- B.: Yazıçı, 1983. – 219 s.

Böhtan: Roman.– B.: Şərq -Qərb, 1998. – 286 s.

Əsrin onda biri: Roman .– B.: Avrasiya, 2005. – 383 s.

Günəş doğan yerdə.– B.: Gənclik, 1976. – 147 s.

Qu quşları öləndə oxuyurlar.– B.: Azərb. Dövlət Kitab Palatası, 1988.- 203 s.

Xalq yazıçısı Hüseyn İbrahimov-80: [Təbriklər, məqalələr, xatirələr toplusu] /topl. və red. Hüseyn Həşimli.– B.: Yurd, 1999. – 124 s.

Xəlilzadə, F. Sabahın sorağında: [Xalq yazıçısı Hüseyn İbrahimovun 85 illiyi münasibətilə] //Azərbaycan.-2004.-22 may.- S. 8.

Rus dilində

Гюлзар: Рассказы.– Б.: Азернешр, 1958. – 95 с.

Когда ошибается сердце: Рассказы.– Б.: Гянджлик, 1968. – 171 с.

İnternetdə

www.az.wikipedia.org

Səmayə Quliyeva

May

24

135 illiyi

Abbas Səhhət
1874-1918

Şair

Azərbaycanda XX əsrin əvvəlinin ədəbi-bədii mühitinin tufanı, onun həm realist, həm də romantik dalğada qabaran, öz içərisindən aşıb-daşan narahat qəlbi məhz Səhhətin poeziyasında durulmuşdur. Sözün əsl mənasında "millilik" və "millət" anlayışı, "Ana dili" və "Vətən" məfhumu müasirləri və qələm dostları arasında məhz Abbas Səhhətin zəngin ədəbi-elmi irsində bu qədər aydınlıq kəsb etmişdir.

Mehdizadə Abbasqulu Əlabbas oğlu Səhhət (Abbas Səhhət) 1874-cü il mayın 24-də Şamaxı şəhərində anadan olmuşdur. Burada atasının açdığı məktəbi bitirdikdən sonra İranın Xorasan şəhərində mədrəsədə, sonralar Tehranın "Mədrəssəyi-nizamiyyəyinasiriyyə" məktəbində təhsil almışdır.

Əmək fəaliyyətinə Şamaxıda Rüşdiyyə məktəbində müəllim kimi başlayan Abbas Səhhət həm də bədii yaradıcılığa güclü meyl göstərmişdir. 1905-ci il inqilabı milli ədəbiyyatın ümumi inkişafına oyadıcı təsir göstərdiyi kimi, Səhhətin də yaradıcılıq imkanlarının genişlənməsi üçün münbit şərait yaratmışdır. Onun ilk mətbu şeiri 1905-ci ildə "Şərqi-rus" qəzetində dərc edilmişdir. Burjua-demokratik inqilabının təsiri onun poetik yaradıcılığında ictimai-siyasi motivləri gücləndirmişdir. Çıxış yolunu maarif və mədəniyyətin inkişafında görən şair öz şeirlərində, nəsr əsərlərində və məqalələrində xalqın həyatını, milli azadlıq mübarizəsini, vətənə məhəbbəti, əxlaq və tərbiyə məsələlərini əks etdirmişdir.

Vətən mövzusu Səhhət şeirində ən ali duyğuların çələngidir. Onun bütün fədakarlığı vətən üçündür. Ən uca məhəbbət – vətən məhəbbətidir.

Mən vətəni canım kimi sevirəm,
Ruhum, ətim, qanım kimi sevirəm.

A.Səhhətin tərcüməçilik fəaliyyəti də çox zəngin olmuşdur. O, klassik rus, ərəb, fars, gürcü

və fransız yazıçılarının əsərlərindən tərcümələr etmiş, onları "Məğrib günəşləri" (iki cilddə) adlı kitabında 1912-ci ildə çap etdirmişdir.

Vətəndaş şair 1918-ci ildə Gəncə şəhərində yatalaq xəstəliyindən vəfat etmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri /tərt., ed. ön söz və qeydlərin müəl. Kamal Talıbzadə.- B.: Lider nəşriyyatı, 2005.- 456 s.

Gün dağlara yayıldı: (kiçik yaşlı uşaqlar üçün şeirlər) /red. F.Hüseynova.- B.: Turan, 2002.-12 s.

Təmsillər, tərcümələr /buraxılış və yayıma məsul A.İbrahimov.- B.: Turan, 2001.-15 s.

Məmməd Məmmədov

May

24

110 illiyi

Ümgülsüm Sadıqzadə
1899-1946

Yazıçı

1899-cu il mayın 24-də Azərbaycanda Bakı ətrafındakı Novxanı kəndində ruhani ailəsində anadan olmuşdur. İlk təhsilini atasından almış, türk, fars və ərəb dillərini mükəmməl öyrənmişdir. Gənclik dövründən şeirləri, hekayə və məqalələri dövri mətbuatda - "İqbal", "Yeni iqbal", "Açıq söz", "İstiqlal", "Azərbaycan" qəzetlərində, "Məktəb", "Dirlilik" jurnallarında vaxtaşırı çap olunmuşdur. "Solğun çiçək" miniatürü "Qurtuluş" jurnalının 1915-ci ildə keçirdiyi müsabiqədə birinci yeri tutduğuna görə M.Ə.Sabirin "Hop-Hop naməsi" və "Qurtuluşun" birillik abunəsi ilə mükafatlandırılmışdır.

Ömür-gün yoldaşı, yazıçı Seyid Hüseynin onun bir qələm sahibi kimi püxtələşməsində böyük rolu olmuşdur. 1937-ci ildə ailəlikçə represiyaya uğramışlar. Seyid Hüseyni xalq düşməni kimi güllələmiş, özünü Sibirə sürgün etmişlər. 1946-cı ildə dünyasını dəyişmişdir.

Ədəbiyyat

Hüseynzadə, A. İstiqlal şairi Ümgülsüm.- B.: Çaşıoğlu, 2005.-269 s.

Bayramoğlu, A. Türk dünyasının istiqlalı naminə /Ümgülsüm haqqında //Ədəbiyyat qəzeti.- 1997. -29 avqust.- S.8.

Ümgülsüm. Solğun çiçək. /Hekayə //Azərbaycan qadını.-1971.- №2.-S.1-2.

Gülanə Quliyeva

May
26

95 illiyi

İlyas Əfəndiyev
1914-1996

Yazıçı

Əfəndiyev İlyas Məhəmməd oğlu 1914-cü ilin may ayının 26-da Azərbaycanın Füzuli şəhərində tacir ailəsində anadan olmuşdur. 1930-1933-cü illərdə burada ikinci dərəcəli məktəbi bitirib orta məktəblərdə dil və ədəbiyyat fənlərini tədris etmişdir. 1934-1938-ci illərdə Azərbaycan Pedaqoji İnstitutuna daxil olsa da, bir ildən sonra yenidən Füzuli şəhərinə qayıtmış, orta məktəblərdə coğrafiya müəllimi işləmiş, eyni zamanda APİ-nin coğrafiya şöbəsində qiyabi təhsil almışdır. O, 1938-1940-cı illərdə "Yeni yol", "Kommunist" qəzetlərinin redaksiyalarında ədəbi işçi, 1940-1941-ci illərdə "Ədəbiyyat qəzeti" redaksiyasında tənqid şöbəsinin müdiri, 1941-1947-ci illərdə Azərbaycan Radio Komitəsində ədəbiyyat şöbəsinin müdiri, 1944-1945-ci illərdə Bakı Kinostudiyasında ssenari şöbəsinin rəisi, 1946-1947-ci illərdə "İnqilab və mədəniyyət" jurnalı redaksiyasında nəşr şöbəsinin müdiri vəzifələrində işləmişdir. 1940-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur. 1952-1958-ci illərdə Azərbaycan Yazıçılar İttifaqında nəsr üzrə məsləhətçi, 1958-1961-ci illərdə məsul katib kimi çalışmışdır. O, 1960-cı ildə Azərbaycan Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.

Yazıçı ədəbi fəaliyyətə 1939-cu ildən başlamışdır. İ.Əfəndiyevin "Berlində bir gecə" adlı ilk hekayəsi 1939-cu ildə "Ədəbiyyat qəzeti"ində dərc olunmuşdu. O, dövri mətbuatda müntəzəm olaraq çıxış etmişdir.

"Söyüdlü arx" (1958) , "Körpüsalanlar" (1960), "Dağlar arxasında üç dost" (1963), "Sarıköynəklə Valehin nağılı" (1978), "Geriyə baxma, qoca" (1980), "Üçatılan" (1981) kimi romanları bir çox digər povest və hekayələri Azərbaycan və rus dillərində dəfələrlə Bakıda nəşr edilmişdir. Eyni zamanda əsərləri keçmiş SSRİ

xalqlarının dillərinə, ingilis, fransız, alman, çex, slovak, bolqar, macar və başqalarına tərcümə olunmuşdur.

Mövzusu İkinci Dünya müharibəsinə həsr edilən "İntizar" adlı ilk pyesini o, M.Hüseynlə birlikdə yazmışdır. Onun 1947-ci ildə "İşıqlı yollarla", 1948-ci ildə "Bahar suları", 1954-cü ildə "Atayevlər ailəsi", 1964-cü ildə "Sən həmişə mənimləsən", 1968-ci ildə "Unuda bilmirəm", 1969-cu ildə "Məhv olmuş gündəliklər", 1970-ci ildə "Mənim günahım", 1971-ci ildə "Mahnı dağlarda qaldı", 1973-cü ildə "Qəribə oğlan", 1981-ci ildə "Xurşudbanu Natəvan", 1983-cü ildə "Büllur sarayda", 1986-cı ildə "Şeyx Məhəmməd Xiyabani", 1988-ci ildə "Bizim qəribə taleyimiz" və başqa pyesləri Azərbaycan Dövlət Akademik Dram Teatrında, (indiki Akademik Milli Dram Teatrı) eləcə də respublikanın teatr səhnələrində tamaşaya qoyulmuşdur. Bir çox oçerklərin, publisistik yazıların və əbədi-tənqidi məqalələrin müəllifidir.

İ.Əfəndiyev M.Hüseynlə birlikdə A.N.Ostrovskinin "Son qurban" komediyasını Azərbaycan dilinə tərcümə etmişdir. O, 1953-cü ildə "Ulduz" jurnalı redaksiya heyətinin, Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyəti, 1991-ci ildə Ağsaqqallar Şurasının üzvü olmuşdur.

İ.Əfəndiyev 1972-ci ildə Azərbaycan dövlət mükafatı laureatı,1974-cü ildə Azərbaycanın Xalq yazıçısı kimi fəxri adlara layiq görülmüşdür. O, 1949-cu ildə "Şərəf nişanı", 1971-ci ildə "Qırmızı əmək bayrağı", 1974-cü ildə "Oktyabr inqilabı", 1994-cü ildə "Şöhrət" ordenləri və bir çox medallarla təltif olunmuşdur.

Unudulmaz ədib 1996-cı il oktyabrın 3-də Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ədəbiyyat

Seçilmiş əsərlər: Üç cilddə.- C.I.-B.: Avrasiya Press, 2005.- 279 s.; C.II .-335 s.; C.III .- 445 s.

Seçilmiş əsərləri: Yeddi cilddə.- C.I.- B.: Çinar çap, 2002.- 443 s.; C.II .- 469 s.; C.III.-621s.; C.IV. -565 s.; C.V.-613 s.; C.VI.- 421 s. ; C.VII.- 566 s.

İlyas Əfəndiyev: Biblioqrafik göstərici /tərt. ed. Ə.Əfəndiyev.- B.: Çinar çap, 2002.-238 s.

Qarayev, Y. Xarı bülbülün nağılı.- B.: Azərnəşr, 1995 .-53 s.

Tahirli, A. İlyas Əfəndiyevin publisistikası.- B.: Elm, 2005.-63 s.

Sənətkarın ikinci ömrü: Beç ilin salnaməsi.- B.: Çinar çap, 2002.-340 s.

Şahbazova, S. İlyas Əfəndiyevin tarixi dramları.- B.: Çinar çap, 2002.- 189 s.

Dadaşov, A. “Sən həmişə mənimləsən //Respublika. -2004.-23 iyul.- S. 7.
Əhmədov, T. Əbədiyaşar sənətkar //Respublika.- 2007.-3 oktyabr.-S.6.
Əlizadə, Ə. Tənqidçi duyumu //Azərbaycan.- 2004. -N11.- S. 27.
Xəlilzadə, F. Azərbaycan nəsrinin şirin dili //Azərbaycan.-2004.- 2 oktyabr. - S. 5.
Hacıyev, T. Nəsr və dramaturgiyanın seiriyyəti //Xalq qəzeti.-2004.-19 may.- S.6.
Həmişə bizimləsən //Ədəbiyyat qəzeti.-2006.-6 oktyabr.-S.1-2.
İlyas Əfəndiyev haqqında monoqrafiya //İki sahil.- 2006.-8 iuyn.-S.6.
Ülvü, A. Şöhrəti xalq bağından hirslənən ustad sənətkar //Xalq qəzeti,- 2005.-2 oktyabr.-S.6.
Yusifli, V. İlyas Əfəndiyevin nəsri //Azərbaycan.-2004.-№11.-S. 6-11.
Kəbutər, İ. Mahnı dağlarda qaldı //Yeni Azərbaycan.-2004.-28 may.- S. 6.
Məmmədzadə, R. Böyük yazıçı İ.Əfəndiyevin xatirəsinə //Respublika.-2003 .-2 oktyabr.-S. 5.
Müasirləri İ.Əfəndiyev haqqında //Azərbaycan.- 2004.-№ 11.- S. 28.
Şəmsizadə, N. Zirvədən-zirvəyə və əbədiyyətə //Xalq qəzeti.- 2004.-19 may.-S. 6.

Rus dilində

Избранные.– Б.: Гянджлик, 1984 – 420 с.
Избранные произведения: В 2-х томах.- В.: Чинар-чап, 2002. – Т. 1.- 613 с.; Т.2 .- 485 с.

Ивы над арыком .- М.: Худ.лит. , 1967 – 296 с.
Кизиловсий тост.- М.: Сов. писатель, 1976 – 480 с.
Любовь за семью горами.- М.: Сов. писатель, 1973 – 271 с.
Песня остаётся в горах . – Б.: Язычы, 1979.- 475 с.
Повесть о Сарыкейнек и Валехе.– М.: Сов. писатель, 1983 – 376 с
Пьесы.- Б.: Гянджлик, 1984 – 472 с.
Роман и повести.- Б.: Гянджлик, 1984 – 422 с.
Трёхзарядная винтовка. –Б.: Азернешр, 1989- 419 с.

Bəybala Ələsgərov

May

26

115 illiyi

Vəli Xuluflu
1894-1938

Folklorşünas

Vəli Məmmədhüseyn oğlu Xuluflu 1894-cü il mayın 26-da Şamxor rayonunun Xuluflu kəndində anadan olmuşdur. İbtidai təhsilini mollaxanada almışdır (1905-1907). Sonra "Mədrəseyi-Ruhaniyyə"ni bitirmişdir (1912). Həmin məktəbdə müəllim saxlanmışdır. Bu vaxtdan gizli inqilabi işə qoşulmuş, sonra RSDFP sıralarına daxil olmuşdur (1919). Gəncə qubernyasında qəza partiya komitəsinin katibi işləmişdir (1921-1922). Bakıda ADU-nun Şərqşünaslıq fakültəsində təhsilini davam etdirmiş, eyni zamanda yeni türk (Azərbaycan) əlifbası komitəsində işləmişdir (1922-1927). Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunda elmi katib, onun yenidən təşkili vaxtı isə Dil, Ədəbiyyat və İncəsənət İnstitutunun direktoru olmuşdur. "El aşıqları" (1927) toplusunu tərtib və çap etdirmişdir.

Yeni türk əlifbası komitəsinin üzvü və yeni əlifbanın digər ölkə xalqları arasında yayılması üzrə təlimatçı kimi onun fəaliyyəti böyükdür. Bu münasibətlə Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan respublikalarında, Krımda, Kazan və digər şəhərlərdə olmuşdur.

Zaqfederasiyanın 10 illiyində ictimai-elmi və ədəbi xidmətlərinə görə Fəxri tərifnamə və qızıl saatla təltif olunmuşdur.

Vəli Xuluflu 1938-ci ildə cəza tədbirləri dövründə həlak olmuşdur.

Ədəbiyyat

Yeni türk əlifbası ilə yazı qaydaları.- B.: "Yeni türk əlifbası komitəsi" nəşriyyatı, 1925.- 24 s.

Koroğlu.- B.: Azərnəşr, 1927.- 115 s.

İmla lüğəti.- B.: Azərnəşr, 1929.- 342 s.

Din və qadın.- B.: Azərnəşr, 1930.- 36 s.

May

28

Respublika Günü
1918

XIX əsrin I rübündə Rusiya İmperiyasının cənuba - isti dənizlərə çıxışı, yeni geostrateji ərazilərin ələkeçirmə siyasəti çoxəsrlik Azərbaycan tarixinin müstəqil dövlətçilik ənənələrinə ciddi ziyan vurdu və ölkəmizin tam işğalı ilə nəticələndi. Amansız müstəmləkə siyasəti, onun xalqımıza qarşı həyata keçirdiyi assimilyasiya, dini-milli ayrıseçkilik əməlləri ölkənin təbii inkişafını ləngitdi və müstəqil dövlətçiliik qurumlarının ortadan qalxmasına gətirib çıxardı.

Lakin XIX əsrin II yarısından başlayaraq Avropa mədəniyyətinin və elmi nailiyyətlərinin təsiri altında Azərbaycanda milli şüurun oyanmasına xidmət edən güclü maarifçilik cərəyanları meydana gəldi. M.F.Axundzadənin, H.Zərdabinin, C.Məmmədquluzadənin, M.Ə.Sabirin və digər görkəmli maarifçilərimizin təsiri altında tədricən milli özünüdərk və müstəqil dövlətçiliyə olan arzuların rüşeymləri cücərməyə başladı. Türkçü alim Əli bəy Hüseynzadənin "Türkləşmək, islamlaşmaq, müasirləşmək" ideyası ilə silahlanan minlərlə vətənpərvər əlverişli tarixi şəraitdə Azərbaycanın dövlət müstəqilliyinin yetişəcəyi gün uğrunda mübarizəyə başladılar. Nəhayət, 1918-ci ilin 28 Mayında Azərbaycan Xalq Cümhuriyyəti elan olundu.

Müstəqilliyini bərpa etdikdən sonra bu bayram hər il ölkəmizdə böyük təntənə ilə qeyd edilir. Keçirilən tədbirlərdə Cümhuriyyət dövrünə bir daha nəzər salınır, onun tariximizdəki yeri və rolu ətraflı təhlil edilir, dövlət quruculuğu təcrübəsi hərtərəfli öyrənilir. Ümummilli lider Heydər Əliyev dövlətçilik tariximizdə Azərbaycan Xalq Cümhuriyyətinin özünəməxsus yeri olduğunu nəzərə alaraq, 2003-cü ilin fevral ayında verdiyi xüsusi sərəncamla Bakı şəhərində Xalq Cümhuriyyətinin xatirəsinə abidə ucaldılması haqqında qərar qəbul etmişdi.

Müsəlman Şərqində ilk demokratik respublika ol-

an Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çox əsirlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxmışdır. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının, yüksək istedad və qabiliyyətinin göstəricisi idi. 1918-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyətinin elan edilməsində, Xalq Cümhuriyyətinin təşəkkül tapmasında və fəaliyyət göstərməsində Cümhuriyyətə rəhbərlik etmiş şəxslərin – Əlimərdanbəy Topçubaşovun, Məmmədəmin Rəsulzadənin, Fətəli xan Xoyskinin, Nəsib bəy Yusifbəylinin, Səməd bəy Mehmandarovun, Əliağa Şıxlinski və başqalarının böyük xidmətləri olmuşdur. Bu görkəmli dövlət xadimlərinin, vətənpərvər ziyalıların, peşəkar hərbçilərin adları xalqımızın yaddaşına əbədi həkk olunmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini üzvi şəkildə birləşdirən yeni dövlət və cəmiyyət nümunəsi idi. Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ilk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi. Demokratik hüquq və azadlıqların bərqərar olması, etnik və dini mənsubiyyətdən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, hətta bir çox Avropa ölkələrindən daha əvvəl qadınlara seçki hüququnun verilməsi, Azərbaycan dilinin dövlət dili elan edilməsi, təhsil və mədəniyyətin inkişafına xüsusi diqqət göstərilməsi, nizami milli ordunun, təhlükəsizlik strukturlarının qurulması və sair işlər Xalq Cümhuriyyəti hökumətinin yürütdüyü siyasətin miqyasını, mahiyyət və mənasını əyani şəkildə səciyyələndirir.

Həyata keçirilən tədbirlər xalqımızın dövlətçilik ənənələrinin bərpasına və milli mənlik şüurunun güclənməsinə böyük təsir göstərdi. Məhz buna görə, 1920-ci ilin aprelində bolşevik işğalı nəticəsində Cümhuriyyət süqut etdikdən sonra da müstəqillik hissləri azərbaycanlıları sonrakı dövrdə heç zaman tərk etmədi, azadlıq ideyaları şüurlara hakim kəsildi. Sovet hakimiyyətinin qurulması ilə Azərbaycanın dövlət müstəqilliyinə faktiki olaraq son qoyulmasına baxmayaraq, xalqımız formal şəkildə olsa da öz dövlətini qoruyub saxladı, müttəfiq respublika kimi SSRİ-ni təşkil edən subyektlərdən birinə çevrildi.

XX əsrin 80-ci illərinin sonu - 90-cı illərin əvvəlində Azərbaycanda başlamış milli-azadlıq hərəkatı bolşevik rejiminin süqutunu yaxınlaşdırdı. Xalqın təkidi və tələbi ilə 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası dövlətin adını dəyişdirərək "Azərbaycan Respublikası" adlandırdı. AXC-nin üçrəngli, ay-ulduzlu bayrağı bu respublikanın da dövlət bayrağı kimi təsdiq olundu. Həmin il mayın 21-də verilmiş, xüsusi fərmanla 28 may Respublika Günü elan edildi.

Xalqımız yeni tarixi şəraitdə öz dövlət müstəqilliyini bərpa etdikdən

sonra ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında Xalq Cümhuriyyətinin ənənələrini əsas tutaraq, müstəqil Azərbaycan dövlətini yaratdı. Lakin Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətindən fərqli olaraq, mürəkkəb vəziyyətdə öz müstəqilliyini və suverenliyini qorumağı və möhkəmləndirməyi bacardı, ilk illər buraxılan kobud səhvlərə baxmayaraq, dövlətçiliyin qorunması üçün qətiyyətli tədbirlər görüldü, ölkədə davamlı ictimai-siyasi sabitlik bərpa edildi. Bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasında demokratik, hüquqi, dünyəvi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesi uğurla davam etdirilir. Bu sahədə qazanılmış nailiyyətlər qürur doğurur. Respublikamızda siyasi, iqtisadi və sosial islahatlar uğurla həyata keçirilir, ölkə iqtisadiyyatı dönmədən inkişaf etdirilir, əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün təsirli tədbirlər görülür. Müxtəlif ölkələrlə hüquq bərabərliyi və qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan əlaqələr yaradılır. Azərbaycan nüfuzlu beynəlxalq və regional təşkilatlara daxil olaraq dünya birliyinə daha sıx inteqrasiya olunur, bu birlikdə özünə layiq yer tutur. Ölkəmiz regionun ən iri enerji (Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri) və tranzit (Tarixi İpək yolu – TRASEKA, Şimal-Cənub nəqliyyat dəhlizi, Bakı-Tbilisi-Qars dəmiryolu xətti) layihələrinin mərkəzinə çevrilmişdir.

Ermənistan Respublikasının hərbi təcavüzü nəticəsində Azərbaycan ərazilərinin 20 faizi işğal edilmiş, 20 mindən çox insan qətlə yetirilmiş, 50 mindən artıq adam yaralanmış və şikəst olmuşdur. Bir milyondan artıq insan 15 ildən çoxdur ki, qaçqın və məcburi köçkün şəraitində yaşayaraq Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin qurbanı olmuş, elementar insan hüquqlarından məhrum edilmişdir. İşğal nəticəsində 900-dən artıq yaşayış məntəqəsi talan edilmiş, yandırılmış və dağıdılmış, 6 min sənaye, kənd təsərrüfatı müəssisəsi və digər obyektlər məhv edilmiş, ümumi yaşayış sahəsi 9 mln kv. km-dən artıq olan 150 yaşayış binası dağıdılmış, 4366 sosial–mədəni obyekt, eyni zamanda 695 tibb ocağı məhv edilmişdir. İşğal edilmiş ərazilərdə kənd təsərrüfatı sahəsi, su təsərrüfatı hidrotexniki qurğular bütün nəqliyyat və kommunikasiya xətləri tam sıradan çıxarılmışdır. Dağıntılar nəticəsində iqtisadiyyata 60 milyard ABŞ dollarından artıq ziyan dəymişdir. Hərbi təcavüz zamanı ələ keçirilmiş Azərbaycan ərazilərində 927 kitabxana, 464 tarixi abidə və muzey, 100-dən çox arxeoloji abidə, 6 dövlət teatrı və konsert studiyası dağıdılmışdır. Talan edilmiş muzeylərdən 40 mindən çox qiymətli əşya və nadir eksponat oğurlanmışdır. Belə ki, Kəlbəcər Tarix Diyarşünaslıq Muzeyi yerlə yeksan olunduqdan sonra muzeyin ekspozisiyasına daxil olan nadir qızıl və gümüş zinət əşyaları, ötən əsrlərdə toxunmuş xalçalar Ermənistana daşınmışdır. Şuşadakı Tarix Muzeyinin, Ağdamdakı Çörək

Muzeyinin, Zəngilandakı Daş Abidələr Muzeyinin də taleyi belə olmuşdur. Oğurlanmış və məhv edilmiş bu tarixi-mədəni sərvətlərin dəyərini müəyyənləşdirmək, pulla qiymətləndirmək mümkün deyildir. Bir sözlə Ermənistan Respublikası "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" HAAQA Konvensiyasının və "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq Azərbaycanın mədəni sərvətlərini talamaqla məşğuldur. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş 822, 853, 874, 884 saylı Qətnamələrində Azərbaycan Respublikasının ərazi bütövlüyünün tanınmasına və işğal olunmuş Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsi tələblərinə baxmayaraq Ermənistan Respublikası bu gün də işğalçılıq siyasətini davam etdirir.

Ən ağır problemimiz olan Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ probleminin həll edilməsi, işğal olunmuş torpaqlarımızın geri qaytarılması, ərazi bütövlüyümüzün bərpa edilməsi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Hal-hazırda Azərbaycan Respublikası istər iqtisadi qüdrətinə, istərsə də hərbi-siyasi nüfuzuna görə regionun lider ölkəsidir.

Biz bu gün də Azərbaycan Xalq Cümhuriyyətinin tarixini, onun görkəmli şəxsiyyətlərinin fəaliyyətini dərindən öyrənməli, ideyalarını təbliğ etməli, təcrübəsindən bəhrələnməliyik.

Cümhuriyyətin tarixi təcrübəsi göstərir ki, dövlət müstəqilliyini və suverenliyi əldə etmək kifayət deyil, həm də onu bütün vasitələrlə qorumaq və möhkəmləndirmək lazımdır.

Ədəbiyyat

Əliyev, İlham 28 May – Respublika Günü münasibətilə Azərbaycan xalqına təbrik //Xalq qəzeti.- 2008.- 28 may.- S.1.

Qocayev, Ə. 28 May Respublika Günü /Ə.Qocayev Bayramlar və tarixi günlər.-B.: Altun Kitab, 2006.- S.26-30.

Hacıyev, H. Şərqdə ən demokratik respublika //Respublika.- 2005.- 28 may.- S.6.

Hacızadə, A. Moskvada Azərbaycanın Milli bayramı – Respublika Günü //Azərbaycan.- 2006.- 28 may.- S.9.

Yaqublu, H. 28 May istiqlalının mənası //Yeni Müsavat.-2001.- 27 may.- S.15.

Nailə Alışova

May

31

110 illiyi

Leonid Maksimoviç Leonov 1899-1994

Rus yazıçısı

Rus sovet yazıçısı Leonov Leonid Maksimoviç, 31 may 1899-cu ildə Moskva şəhərində anadan olmuşdur. 1972-ci ildən SSRİ EA-nın akademiki, 1967-ci ildən Sosialist Əməyi Qəhrəmanı, Lenin mükafatı laureatı (1957), Dövlət mükafatı laureatı (1943-1977) olmuşdur. İlk əsərləri 1915-ci ildə, M.L. Leonovun sürgündə olduğu Arxangelsk şəhərinin qəzetlərində dərc edilmişdir. İlk irihəcmli əsəri olan "Porsuqlar" (1924) romanında inqilab ərəfəsində Moskvanın meşşan həyatı, kənddə inqilabi mübarizə təsvir edilir. "Sukutarevski" (1932), "Okeana yol" (1935), romanlarında köhnə ziyalıların yeni həyat quruculuğuna qoşulmasından danışılır. 30-40 cı illərdə Leonov bir sıra dram əsərləri "Polovçan bağları", "Canavar" (1938), "Çovğun" (1939), "Adi adam" (1941) və s. yazmışdır.

"Basqın", (1942), "Lyonuşka" (1943) pyesləri, Böyük Vətən müharibəsinə həsr edilmişdir. "Dımkovun dünyası" (1974), "Son gəzinti" (1979) romanları insan və təbiət, bəşəriyyətin və mənəvi sərvətlərin gələcək taleyi problemlərinə həsr edilmişdir.

8 avqust 1994-cü ildə Moskva şəhərində vəfat edib.

Ədəbiyyat

Собрание сочинений в 10 т.т.- Т 1.- М., 1981.

Публицистика.- М., 1976.

Дангулов, С . Леоновская новь /о Л. Леонове //Сов. культура.- 1987.- 3 декабря.- С. 6.

Ершов, Л. Леонид Леонов и русская проза 1970 - х годах //Звезда.- 1979.- № 11.- С. 197–205.

Elmira Kazımova

2009

Əlamətdar və tarixi günlər

1. Uşaqları Beynəlxalq Müdafiə Günü
5. Ətraf Mühitin Mühafizəsi Günü
15. Milli Qurtuluş Günü
17. Səhiyyə İşçiləri Günü
18. İnsan Hüquqları Günü
23. Dövlət Qulluqçularının Peşə Bayramı
26. Milli Silahlı Qüvvələr Günü
26. Narkomaniyaya və Norkobiznesə qarşı Beynəlxalq mübarizə Günü

1 iyun
Gün çıxır
04:12
Gün batır
21:05
30 iyun
Gün çıxır
04:10
Gün batır
21:15

İyun

Be	1
Ça	2
Ç	3
Ca	4
C	5
Ş	6
B	**7**
Be	8
Ça	9
Ç	10
Ca	11
C	12
Ş	13
B	**14**
Be	15
Ça	16
Ç	17
Ca	18
C	18
Ş	20
B	**21**
Be	22
Ça	23
Ç	24
Ca	25
C	26
Ş	27
B	**28**
Be	29
Ça	30

22 may-
21 iyun

Əkizlər bürcünün Nişanı Həvadır. Merkurinin himayəsindədir. Günəşin Əkizlər bürcünün keçdiyi dövrdə doğulanlar çox ağıllı olub, hər şeyi bilməyə həvəs göstərir, şəraitə asanlıqla uyğunlaşırlar.

Qan yaddaşı 1988-2009

20 yanvar - Ümumxalq hüzn günü
31 mart – Azərbaycanlıların soyqırımı günü

Keçmiş Dağlıq Qarabağın (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) işğal tarixi- 1988-1993-cü illər (Sah: 4400 kv.km.) olmuşdur.
Şuşa (08 may 1992-ci il) 351,55 kv.km
Laçın (18 may 1992-ci il) 1835 kv.km
Kəlbəcər (3-4 aprel 1993-cü il) 1936 kv.km
Ağdam (23 iyul 1993-cü il) 1094 kv.km.
Cəbrayıl (23 avqust 1993-cü il) 1050 kv.km.
Füzuli (23 avqust 1993-cü il) 1386 kv.km.
Qubadlı (31 avqust 1993-cü il) 802 kv.km.
Zəngilan (30 oktyabr 1993-cü il) 707 kv.km

Uşaqları Beynəlxalq Müdafiə Günü (01.06.1949)

Rus bəstəkarı Qlinka Mixail İvanoviçin (01.06.1804-15.02.1857) anadan olmasının 205 illiyi

Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının yaradılmasının (02.06.1919) 90 illiyi

Şair, dramaturq Vəkilov Vaqif Səməd oğlunun (Vaqif Səmədoğlu) (05.06.1939) anadan olmasının 70 illiyi

Ətraf Mühitin Mühafizəsi Günü (05.06.1972)

Rus yazıçısı Puşkin Aleksandr Sergeyeviçin (06.06.1799-10.02.1837) anadan olmasının 210 illiyi

Azərbaycanın Əməkdar elm xadimi, professor Dadaşzadə Məmməd Arif Məhərrəm oğlunun (Məmməd Arif) (10.06.1904-27.12.1975) anadan olmasının 105 illiyi

SSRİ və Azərbaycanın Xalq artisti, rus müğənnisi Zıkina Lyudmila Georgiyevnanın (10.06.1929) anadan olmasının 80 illiyi

Milli Qurtuluş Günü (15.06.1993)

Şair Hüseynzadə Hüseyn Camal oğlunun (15.06.1924-14.09.1992) anadan olmasının 85 illiyi

Ədəbiyyatşünas Alışanov Hüseyn Həsən oğlunun (Hüseyn Kürdoğlu) (15.06.1934-12.07.2003) anadan olmasının 75 illiyi

Əməkdar incəsənət xadimi, xor dirijoru Kərimov Rəfail Musa oğlunun (15.06.1949) anadan olmasının 60 illiyi

Azərbaycanın Əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı, professor, Türkiyənin Milli şairi Rəfiq Cəfər Xəndan oğlunun (Rəfiq Zəka Xəndan) (16.06.1939-07.01.1999) anadan olmasının 70 illiyi

Səhiyyə İşçiləri Günü (17.06.2001)

İnsan Hüquqları Günü (18.06.2007)

Əməkdar elm xadimi, tənqidçi Əsədullayev Seyfulla Qüdrət oğlunun (19.06.1924) anadan olmasının 85 illiyi

Biblioqraf, ədəbiyyatşünas, professor Axundov Nazim Fərrux oğlunun (20.06.1924-10.03.1994) anadan olmasının 85 illiyi

Azərbaycan mütəfəkkiri, yazıçı, maarifpərvər Bakıxanov Abbasqulu Ağanın (Qüdsi) (21.06.1794-1847) anadan olmasının 215 illiyi

Azərbaycan yazıçısı Cavadov Cəlal Novruz oğlunun (Cəlal Bərgüşad) (22.06.1924-09.07.1996) anadan olmasının 85 illiyi

"Nobel Qardaşları" şirkətinin və "Lüdviq Nobel" cəmiyyətinin başçısı Emmanuel Nobelin (22.06.1859-31.05.1932) anadan olmasının 150 illiyi

Dövlət Qulluqçularının Peşə Bayramı (23.06.2006)

Beynəlxalq Olimpiya Komitəsinin yaradılmasının (23.06.1894) 115 illiyi

Rus şairəsi Axmatova (Qorenko) Anna Andreyevnanın (23.06.1889-05.03.1966) anadan olmasının 120 illiyi

Azərbaycanın Əməkdar elm xadimi, professor Rzayev Nurəddin Məmmədbağır oğlunun (26.06.1929) anadan olmasının 80 illiyi

Milli Silahlı Qüvvələr Günü (26.06.1918)

Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü (26.06.1987)

Azərbaycan Xalq Cümhuriyyətində türk (Azərbaycan) dilinin dövlət dili elan edilməsinin (27.06.1919) 90 illiyi

Azərbaycanın Xalq artisti, aktyor Dadaşov Məlik Yusif oğlunun (27.06.1924-03.12.1996) anadan olmasının 85 illiyi

Azərbaycanın Əməkdar mədəniyyət işçisi, şair Əliyev Çingiz Əli oğlunun (29.06.1944) anadan olmasının 65 illiyi

İyun

1

Uşaqları Beynəlxalq Müdafiə Günü

1949

Uşaqları sevin, uşaqlar bizi nurlu gələcəyə aparan yoldur... Uşaqlar dünyanın sevincidir... Uşaqlar bizim bu günümüz və sabahımızdır.

Heydər Əliyev, ümummilli lider

Uşaqlar mənsub olduqları ölkənin gələcəyi, işıqlı sabahıdırlar. Fransız mütərəqqi romantizminin aparıcı nümayəndəsi Viktor Hüqo "Dünyanın ən dahi himni körpə qığıltısıdır" sözlərini əbəs yerə deməmişdir. Hər bir uşaq ailədə böyüməli, ata-ana məhəbbəti hiss etməlidir. Çünki, hər bir insanın formalaşmasında, cəmiyyətdə layiqli yer tutmasında ailənin rolu əvəzsizdir.

Statistikaya görə, Azərbaycanda 2,5 milyon uşaq yaşayır. Ancaq "2,5 milyon uşağın hamısının hüquqları qorunur" demək mümkün deyil. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar cəmiyyətin ən həssas qruplarından birini təşkil edir. Belə uşaqların sayı Respublikamızda 21 min nəfərədəkdir. Bu rəqəmin çoxluğunun səbəbi Ermənistanın Azərbaycana təcavüzü nəticəsində uşaqların valideynlərini itirməsi, qaçqın və məcburi köçkün ailələrinin sosial vəziyyətinin çətinliyidir. Uşaqların normal inkişaf etməsi üçün dövlət və cəmiyyət tərəfindən hərtərəfli dəstək zəruridir. Buna görə də hər bir dövrdə sabahımızın sahibləri olan uşaqların xoşbəxt, bəxtəvər, eyni zamanda, məsuliyyətli vətəndaş kimi böyüməsi uğrunda mübarizə cəmiyyəti narahat edən, düşündürən məsələlərdən biridir.

Bu sahədə ilkin və ən uğurlu addımlardan biri Uşaqları Beynəlxalq Müdafiə Gününün təsis edilməsi oldu. Bu bayramın qeyd olunması haqqında qərar Beynəlxalq Demokratik Qadınlar Federasiyası Şurasının 1949-cu ilin noyabrında keçirilmiş xüsusi sessiyasında qəbul edilmişdir. Uşaqları Beynəlxalq Müdafiə Günü ilk dəfə 1950-ci il iyunun 1-də qeyd olunmuşdur. Bununla əlaqədar ən maraqlı sənəd BMT-nin "Uşaq hüquqları haqqında Konvensiya"sıdır. Bu sənəd uşaqların hansı dövlətdə yaşamasından asılı olmayaraq, onların hüquqlarını tam əhatə edir. Hazırda Kon-

vensiyaya 189 ölkə qoşulub. Azərbaycan Respublikası bu Konvensiyaya 1992-ci ildən qoşulmuşdur.

Azərbaycanın gələcəyi olan uşaqlarımız arasında yüzlərlə, minlərlə istedad sahibi olanlar var. Bu gün onların bacarığını üzə çıxarıb, daha da inkişaf etdirmələri üçün ölkəmizdə hər cür şərait yaradılmışdır. Ümummilli liderimiz Heydər Əliyev uşaqları çox sevir, onlarla fərəhlənir, sağlam böyümələri, düzgün tərbiyə almaları üçün əvəzsiz işlər görür, çalışırdı ki, istedadlı uşaqların peşə seçimi düzgün istiqamətləndirilsin. Ölməz rəhbərin təşəbbüsü və göstərişi ilə 1996-cı ildə istedadlı uşaqlara həsr olunmuş "Qırmızı kitab" yaradıldı və bu kitaba neçə-neçə istedadlı uşağın adı düşdü. Dahi rəhbərin ənənələrini Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev uğurla davam etdirərək öz fəaliyyətində uşaqların qayğı və problemlərinə böyük diqqət yetirir. Bu istiqamətdə həyata keçirilən bir sıra qanunverici aktlar, dövlət proqramları və tədbirlər uşaqlarımızın rifahının yüksəldilməsinə real zəmin yaradır. Cənab İlham Əliyevin imzaladığı "Baxımsız və küçə uşaqlarının probleminin həlli üzrə" Tədbirlər Planı, "Xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanı məhdud) uşaqların təhsilinin təşkili üzrə" İnkişaf Proqramı, "Xüsusi istedada malik olan uşaqların yaradıcılıq potensialının inkişafı üzrə" Dövlət Proqramı, "Ana və uşaqların sağlamlığının qorunması üzrə" Tədbirlər Proqramı, "Körpə və erkən yaşlı uşaqların qorunması haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanunlar və digər mühüm sənədlər uşaqlarımızın normal fiziki və mənəvi inkişafına xidmət edir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 14 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında baxımsız və küçə uşaqları probleminin həlli üzrə Tədbirlər Planı" çərçivəsində YUNİSEF-lə birgə bu uşaqlar üçün sosial və psixoloji reabilitasiya işinin və mərkəzlərinin təşkili sahəsində layihələrin həyata keçirilməsi üçün işlərə başlanılmışdır.

Hazırda Heydər Əliyev Fondu Ulu öndərin işıqlı ideyalarını davam etdirərək, uşaqlara xüsusi qayğı göstərir. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Millət vəkili Mehriban xanımın təşəbbüsü ilə respublikamızın ucqar kəndlərində belə müasir üslublu yeni məktəb binaları, uşaq bağçaları tikilmiş, köhnələri əsaslı təmir olunmuşdur. Uşaq evləri, internatlar xüsusi qayğı ilə əhatə olunmuşdur. Vaxtaşırı ölkədə xüsusi qabiliyyətə malik istedadlı uşaqların mahnı, rəqs, rəsm və digər yaradıcılıq müsabiqələri keçirilir.

Möhtərəm Prezidentimiz İlham Əliyev uşaqların rifahının yüksəldilməsini dövlət siyasətinin başlıca vəzifələrin-

dən biri kimi müəyyən etmişdir. Lakin yalnız dövlət orqanlarının səyləri ilə kifayətlənmək olmaz. Bütün cəmiyyət, hər bir vətəndaş uşaqların qayğıları ilə yaşamalı, onların rifahının yüksəldilməsi üçün əlindən gələni etməlidir.

Ədəbiyyat

Azərbaycan Respublikasının Prezidenti. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında: Azərbaycan Respublikasının Qanunu.- B.: Qanun, 2004.-12 s.- (Hüquqşünasın kitabxanası).

Baxşəliyev, R. Uşaq parlamenti fəaliyyətə başladı: Milli Məclis gənclərə ilk qanun layihəsini təqdim etdi /Rəşad Baxşəliyev //Şərq.- 2007.- 2 iyun.- S. 4.

Hüseynova, H. Ölkəmizdə hər bir uşaq dövlət qayğısı ilə təmin olunur: 1 iyun Uşaqları Beynəlxalq Müdafiə Günüdür /Hicran Hüseynova //Xalq qəzeti.- 2007.- 1 iyun.- S.10.

Milli Məclis YUNİSEF-lə əməkdaşlığı daha da gücləndirəcək: Uşaq problemləri Azərbaycan hökumətinin diqqətindədir //Azərbaycan.- 2005.- 21 dekabr.-S. 5.

Uşaq hüquqları ilə bağlı vəziyyəti əks etdirən sənəd hazırlanmışdır //Azərbaycan.- 2007.- 24 aprel.- S. 4.

Rus dilində

Президент Азербайджанской Республики. Распоряжение об утверждении «Государственной программы по развитию творческого потенциала особо одаренных детей (молодежи) на 2006-2010 годы»: 17 апрель, 2006 //Бакинский рабочий.- 2006.- 18 апреля.- С. 1.

Президент Азербайджанской Республики. Распоряжение о присуждении молодым талантам специальной стипендии: 14 июня, 2007 года //Бакинский рабочий.- 2007. - 15 июня.- С. 2.

İnternetdə

www.azeribaijan.az
www.azeribaijan.news.az
www.itv.az
www.kaspi.az
www.szlibrary.aznet.org

Adilə Abdullayeva

5 İyun

70 illiyi

Vaqif Səmədoğlu
1939

Şair

Şair, dramaturq, publisist Vəkilov Vaqif Səməd Vurğun oğlu 1939-cu il iyun ayının 5-də Bakı şəhərində dünyaya göz açmışdır. O, Bülbül adına musiqi məktəbində və Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında təhsil almışdır. V.Səmədoğlu Moskvada Çaykovski adına Konservatoriyada ixtisas kursu keçmiş (1962-1963), sonra Azərbaycan Dövlət Konservatoriyasında fortepiano üzrə ixtisas müəllimi (1963-1971), Azərbaycan Sovet Ensiklopediyasında incəsənət redaksiyasının müdiri (1968-1971), C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında kinoaktyor teatrının ədəbi hissə müdiri vəzifəsində (1982-1985) işləmişdir. "Yeddi şeir" adlı ilk əsəri 1963-cü ildə "Azərbaycan" jurnalında çap olunmuşdur. Bundan sonra dövri mətbuatda vaxtaşırı çıxış etmişdir. 1992-1994-cü illərdə "Oğuz eli" qəzetinin baş redaktoru vəzifəsində çalışmışdır. V.Səmədoğlu 2000-ci ildə Azərbaycan Milli Məclisinə deputat seçilmişdir. O, Avropa Şurası Parlament Assambleyasının üzvüdür.

Onun "Uca dağ başında", Bəxt üzüyü", "Lotoreya", "Yayda qartopu oyunu", "Yaşıl eynəkli adam", "Generalın son əmri", "Mamoy kişinin yuxuları" pyesləri Bakı, Naxçıvan, Şəki Dövlət Dram Teatrlarında tamaşaya qoyulmuşdur. İlk dəfə dramaturq kimi "Bəxt üzüyü" tamaşası ilə tanındı və indi də tanınır... Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Dram Tearında tamaşaya qoyulan bu əsərdə müasirlərimizin həyatını qələmə alan yazıçı mənəvi-psixoloji, etiq-əxlaqi məsələləri ön plana çəkmiş, əqidəsi, idealı, məqsədi olan insanların yaşayış tərzini və həyata baxışlarını dörd ailənin simasında gərgin dramatik səhnələrdə canlandırmışdır. O, "Humay" mükafatı laureatıdır (1998). 1999-cu ildə Azərbaycan Xalq şairi adına layiq görülmüşdür.

Ədəbiyyat

Bəxt üzüyü: (pyeslər).- B.: Gənclik, 1999.–402 s.

Günün baxtı: şeirlər.– B.: Gənclik, 1972. – 46 s.

Mən burdayam, ilahi: şeirlər və poema.- B.: Gənclik, 1996. – 426 s.

Uzaq yaşıl ada: [şeirlər]. - B.: Şərq-Qərb, 2004.- 263 s.

Yoldan teleqram: şeirlər. – B.: Gənclik, 1968.-70 s.

Əliyev, İ. Xalq şairi Vaqif Səmədoğluna: [Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin şairin 65 illik yubileyi ilə əlaqədar təbriki] //Azərbaycan. – 2004. – 6 iyun. – S. 1.

Xəyal, S. Vaqif Səmədoğlu: (yaradıcılığı əsasında) . – B.: Yurd NPB, 2006.–174, [2] s.

Rəna. "Müasirlərin seriyası" Vaqif Səmədoğlu ilə davam edir: [Tədqiqat] Sona Xəyalın V.Səmədoğluna həsr olunmuş yeni kitabı haqqında //525-ci qəzet.-2006.-13 aprel.- S. 7.

Rus dilində

Игра в снежки летом.– Б.: Юрд, 2006. – 199 с.

Сфинксы ночи: Стихи. – М.: Сов. писатель, 1990. – 92 с.

İnternetdə

www.google.az

Səmayə Quliyeva

İyun

6

210 illiyi

Aleksandr Sergeyeviç Puşkin 1799-1837

Rus şairi

Böyük rus şairi Aleksandr Sergeyeviç Puşkin 1799-cu il iyun ayının 6-da qədim boyar nəslindən olan ortabab dvoryan ailəsində doğulmuşdur. Puşkin 12 yasında ikən Sarskoye Selo liseyinə daxil olmuş, ilk uğurlu şeirlərini orada təhsil aldığı illərdə yazmışdır. Hələ liseydə oxuyarkən Q.R.Derjavin, N.M.Karamzin, V.A.Jukovski və K.N.Batyuşkovun diqqətini cəlb edən Puşkin "Arzamas" ədəbi dərnəyinin üzvləri ilə, azad fikirli dvoryanlığın nümayəndələri, o cümlədən P.Y.Çaadayevlə yaxınlaşmışdır.

1817-ci ildə liseyi bitirən Puşkin Kollegiya katibi rütbəsi almış, Xarici işlər kollegiyasına təyin olunmuşdur. 1817-1820-ci illərdə yazdığı əsərlərdə gənc şairin Peterburq həyatı, gərginləşən siyasi şərait, yetişməkdə olan dvoryan inqilabçıları nəslinin görüşləri əksini tapmışdır.

1820-ci ildə xidməti təyinat adı ilə Rusiyanın cənubuna sürgün edilən Puşkin Qafqaz və Krımda olmuş, Kişinyovda və Odessada yaşamış, burada dekabristlərdən V.F.Rayevski, P.İ.Pestel və b. ilə görüşmüşdür.

Cənub sürgünü Puşkin romantizminin vüsət aldığı dövrdür. Yaradıcılığında mühüm yer tutan üsyankar ruhlu "Qafqaz əsiri", "Quldur qardaşlar", "Baxçasaray fontanı" poemalarında ilk dəfə olaraq Puşkinin azadlıq, məhəbbət, şəxsiyyət problemlərinə fəlsəfi münasibəti nəzərə çarpır.

1824-cü ilin iyul ayında şair xidmətdən kənar olunaraq, Pskov vilayətinin Mixaylovskoye kəndinə sürgün edilmişdir. Puşkin orada hələ cənubda yazmağa başladığı "Yevgeni Onegin" mənzum romanının yeni fəsillərini və "Qraf Nulin" satirik poemasını yazmış, Rusiyanın tarixi, salnamələrini öyrənmiş, xalq mahnı və nağıllarını qələmə almışdır.

Puşkinin yaradıcılıq təkamülündə mühüm mərhələ olan "Boris Qodu-

nov” faciəsində realizm, xəlqilik və tarixilik prinsiplərinin əsası qoyulmuşdur.

Puşkin Dekabristlər üsyanının məğlubiyyətindən sonra, 1826-cı il sentyabrın 8-də II çar I Nikolayla görüşüb söhbət etmişdir. I Nikolay şairi bağışladığını bildirmiş və özünün onun yeganə senzoru olacağını vəd etmişdi. Siyasi və iqtisadi islahatlar keçirilməsinin və hökumətlə əməkdaşlığın mümkünlüyünə ümid bəsləyən Puşkin eyni zamanda çara I Pyotrun yolunu davam etdirməyi, sürgün olunanlara mərhəmət göstərməyi məsləhət görmüşdür.

1830-cu ilin payızında Boldinoda yaşayan Puşkin 50-yə yaxın müxtəlif janrlı əsər yaratmışdır. 1831-ci ilin fevral ayında evlənmiş, həmin ilin may ayında Peterburqa köçmüş, Rusiya tarixinə, o cümlədən I Pyotr dövrünə və Puqaçov hərəkatına dair arxiv materialları, sənədləri öyrənmişdir. 1833-cü ilin oktyabrında yenidən Boldinoya qayıtmışdır. İkinci “Boldino payızı” şairin yaradıcılığında yeni yüksəliş mərhələsi olmuşdur. Puşkin orada “Dubrovski” romanını, “Puqaçov tarixi”ni, “Tunc atlı”, “Ancelo” poemalarını, “Qaratoxmaq qadın” povestini, bir sıra məşhur nağıllarını yazmışdır.

Zülm və istibdad düşməni, azadlıq carcısı olan şairin saraydakı düşmənləri onun həyatını zəhərləməyə çalışır, həyat yoldaşı Natalya ilə fransız mühaciri J.Dantesin yaxınlığı haqqında şayiələr yayırdılar. Puşkin bu dedi-qodulara son qoymaq məqsədilə Dantesi duelə çağırır. O, 1837-ci il yanvarın 23-də baş verən dueldə yaralanmış və iki gündən sonra ölmüşdür. M.Y.Lermontov, F.İ.Tütçev, A.V.Koltsov və başqalarının bu münasibətlə yazdıqları seirlərdə Puşkinin ölümü milli faciə, ümumxalq kədəri kimi qiymətləndirilirdi.

Puşkin bəşər mədəniyyətinin ən görkəmli nümayəndələrindəndir. Rus və dünya mədəniyyətinin nailiyyətlərindən, xalq yaradıcılığından bəhrələnən şair, qısa bir dövr ərzində bir neçə ədəbi mərhələni keçərək, kamil realizmə gəlib çıxmışdı. Puşkin rus ədəbi dilini yeni yüksək zirvəyə qaldırmışdır.

Ədəbiyyat

Əliyev, H. Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi: (Bakıda dahi rus şairi A.S.Puşkinin abidəsinin açılışı mərasimində) //Azərbaycan. – 2001.-13 oktyabr. – S.3

Puşkin təkcə Rusiyanın yox, bütün bəşəriyyətin dahi insanlarından biridir: Bakıda dahi rus şairi A.S.Puşkinin abidəsi açılmışdır. Azərbaycan Prezidenti Heydər Əliyev mərasimdə iştirak etmişdir //Azərbaycan.-2001.-13 oktyabr.- S.2.

Seçilmiş əsərləri: İki cilddə /tərt. Telman Cəfərov.- B.: Avrasiya Press, 2006. C.I.– 279 s., C.II – 318 s.

Yevgeni Onegin: Mənzum roman.– B.: Adiloğlu, 2005.–209 s.

Puşkin Çaadayeva: Şeirlər //Kaspi.-2006.-10-12 iyun.-S.18

Puşkini kim öldürüb: Xarkovlu yazıçı və tarixçi Aleksandr Zinuxovun yenicə çapdan çıxmış "Aleksandr Puşkini kim öldürmüşdür" kitabı haqqında //Azərbaycan.- 2004 .-10 mart.-S.8.

Rus dilində

Собрание сочинений : В 10 томах. – М.: Вагриус, 2005.
Проза.–М.: СТ Москва, 2006.- 378 с.

Эрот: Резвости нескромные стихи.- М.: Олма-пресс Красный пролетарий, 2006. – 351 с.

Кулешов, И. А.С.Пушкин: Научно-художественная биография.– М.: Наука, 1997. – 430 с.

Касумова, Е. Бросьте, оставьте сомненья, я вовсе не умирал: (Стих. об А.С.Пушкине) //Бакинский рабочий.- 2001. – 12 октября. – С.7
Не зарастет народная тропа: (О поэтической встрече у памятника А.С.Пушкину в связи с 206 летием поэта) //Бакинский рабочий.– 2005.– 8 июня. – С.4.

İnternetdə:

http: //www. musiqi-dunya.az

www.bioqrafi.info/kişi/puşkin

Samirə Eminova

İyun

10

105 illiyi

Məmməd Arif Dadaşzadə
1904-1975

Akademik

Yaradıcı insanın xoşbəxtliyi onun öz ədəbi-elmi axtarışlarının məhsulu ilə tanınması və sevilməsidir. Hələ sağlığında ikən böyük nüfuza malik olmuş, klassikləşmiş belə xoşbəxt şəxsiyyətlərdən biri də Azərbaycanın görkəmli ədəbiyyatşünas alimi, tənqidçi, tərcüməçi, pedaqoq, nasir, akademik Məmməd Arif Dadaşzadədir.

Məmməd Arif Məhərrəm oğlu Dadaşzadə 1904-cü il iyunun 10-da Bakı şəhərində anadan olmuşdur. Rus-tatar məktəbini bitirdikdən sonra bir müddət müəllimlik etmişdir. 1920-1925-ci illərdə Bakı Xalq Maarifi İnstitutunda təhsilini davam etdirmiş, 1925-1931-ci illərdə ADU-nun Şərq fakültəsini bitirmişdir. Savadlı alim araşdırmalara xüsusi meyilli milli kadrlardan biri kimi Moskvada Sovet Şərq Xalqları Elmi-Tədqiqat İnstitutunun aspiranturasına daxil olmuşdur.

Məmməd Arif 1932-1938-ci illərdə Azərbaycan Maarif komissarının müavini, eyni zamanda APİ-nin Rus ədəbiyyatı kafedrasının baş müəllimi, dosent işləmiş, ADU-nun Rus ədəbiyyatı kafedrasının müdiri təyin edilmişdir. Keçmiş SSRİ EA Azərbaycan filialının Ədəbiyyat və Dil İnstitutunda baş elmi işçi, 1957-1959-cu illərdə İnstitutun direktoru vəzifəsində işləmişdir.

M.A.Dadaşzadə ədəbi fəaliyyətə 1923-cü ildə "Molla Nəsrəddin" məcmuəsi səhifələrində çıxan "Bədgümanam", "Belə getsə düzələr", "Mərsiyə xəbərləri" felyetonları ilə başlamışdır. 1920-1930-cu illərdə dövri mətbuatda şeir və hekayələrlə vaxtaşırı çıxış etmişdir. Bu dövrdən başlayaraq sovet ədəbiyyatşünaslığı və ədəbi tənqidinin yaranması, təşəkkülü və inkişafında çalışmışdır. Görkəmli alim 1936-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Görkəmli alim 1941-1945-ci illərdə "Vətən uğ-

runda" jurnalının redaktoru olmuş, Azərbaycan EA Rəyasət Heyəti nəzdində olan Terminologiya Komitəsinin sədri kimi çalışmışdır. O, 1954-cü ildə "Cəfər Cabbarlının yaradıcılıq yolu" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmiş, filologiya elmləri doktoru, professor adı almışdır. 1955-ci ildə Azərbaycan EA-nın müxbir üzvü, üç il sonra isə həqiqi üzvü seçilmişdir. 1959-cu ildə EA-nın ictimai elmlər bölməsinin akademik katibi, 1960-cı ildə vitse-prezidenti olmuş, ömrünün sonuna kimi bu vəzifədə işləmişdir. Görkəmli alim məhsuldar əməyinə görə Əməkdar elm xadimi adına layiq görülmüşdür.

Məmməd Arif Azərbaycan ədəbiyyatı tarixinin yaradıcılarından biridir. Azərbaycan, rus və dünya xalqları klassik ədəbiyyatı, ədəbiyyat nəzəriyyəsi, ədəbi-mədəni əlaqələr onun əsas tədqiqat obyekti olmuşdur. İkicildlik "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi", "Azərbaycan sovet ədəbiyyatı tarixi oçerki"nin müəlliflərindən biridir.

Alimin "Azərbaycan xalqının ədəbiyyatı" kitabı rus, ingilis və fars dillərində çapdan çıxmışdır. 1932-ci ildən başlayaraq onun digər müəlliflərlə birgə yaratdığı ədəbiyyat dərslikləri 50 ildən artıqdır ki, dönə-dönə çap olunub məktəblərdə tədris olunur.

Bədii yaradıcılıqla yanaşı, müntəzəm olaraq Məmməd Arif dünya klassiklərindən R.Taqor, E.Remark, N.Qoqol, L. Tolstoy, A.Çexov, M. Qorki, N.Ostrovski, Evripid, A.Barbüs, Servantes və başqalarının əsərlərindən bədii tərcümələr etmişdir. Bu gün asanlıqla sadalanan hər bir tərcümənin arxasında böyük zəhmət, milli bədii sözün inkişafına xidmət cəhdi durur. Əsərləri keçmiş SSRİ xalqlarının dillərinə və xarici dillərə çevrilmişdir.

Görkəmli alim EA-nın "Dünya ədəbiyyatının inkişaf qanunauyğunluqları" problemi üzrə elmi şurasının Moskvada çıxan "Qısa ədəbiyyat ensiklopediyası"nın redaksiya heyətinin üzvü idi. Məmməd Arif 1946-cı il İran yazıçılarının I konqresində, 1960-cı ildə şərqşünasların XXI Beynəlxalq konqresində iştirak etmiş, Azərbaycan Ali Sovetinin deputatı və sədri olmuşdur. 1974-cü ildə Azərbaycan Dövlət mükafatı laureatı, iki dəfə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunmuşdur.

Məmməd Arif Dadaşzadə 1975-ci il dekabrın 27-də Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur. Alimin ölümündən sonra Azərbaycan Yazıçılar Birliyinin kitabxanasına, Bakı küçələrindən birinə onun adı verilmişdir.

Ədəbiyyat

Əsrin oğlu.- B.:Yazıçı, 1979.- 135 s.

Sənətkar qocalmır.-B.: Yazıçı, 1980.-368 s.

Bayramoğlu, A. Görkəmli alimin yubileyi şərəfinə: [Akademik M.A.Dadaşzadənin 100 illik yubileyi münasibətilə AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda keçirilən Respublika elmi konfransı haqqında] //Respublika.-2004.-23 noyabr.- S. 7.

Əliyeva, İ. ”Tənqidimizin vicdanı”: [Məmməd Arif-100] //Vəfa.-2004.-№7.-S.10-12.

Xəlilzadə, F. Ədəbiyyatımızın pərvanəsi: [Məmməd Arif-100] //Azərbaycan.-2004.-11 iyun.-S.7.

Səttarlı, L. Məmməd Arifin 100 illik yubileyi Xızıda qeyd olundu //Azərbaycan.- 2004.-3 noyabr.- S.8.

Sağlığında klassikə çevrilmiş alim: [Məmməd Arif -100] //Sirdaş.-2004.-30 oktyabr.-S.1-2.

Ülvi, A. Müəllim şərəfi unudulmazdır: Məmməd Arif Dadaşzadənin 100 illik yubileyi münasibətilə //Xalq qəzeti.- 2004.- 30 iyun.-S.7.

Vüsal, R. Məmməd Arifin 100 illiyi Xızıda qeyd edildi //Respublika.- 2004. - 3 noyabr.-S.6.

Hicran Bəşirova

İyun

18

İnsan Hüquqları günü 2007

Müasir beynəlxalq və dövlət daxili hüquqda ən mühüm məsələlərdən biri də insan hüquq və azadlıqlarının qorunmasıdır. İnsan hüquqları ilə əlaqədar məsələlərin bilavasitə beynəlxalq hüquq çərçivəsində öyrənilməsinin özü bu problemə bəşəriyyətin diqqətinin artması ilə əlaqədardır.

Bütün tarix boyu şəxsiyyətin ləyaqətinə hörməti təmin etmək məqsədilə səylər göstərilmişdir. İnsan hüquqları konsepsiyaları irəli sürülmiş və təkmilləşdirilmişdir. Bu ideyanın inkişafına dövlət xadimləri və hüquqşünaslar qiymətli töhfələr vermişlər. Nəticədə fərdin hüququnun müdafiəsini müəyyənləşdirən yazılı normalar tədricən müxtəlif ölkələrin qanunvericiliyinə daxil edilmişdir.

İnsan hüquqları sahəsində beynəlxalq normaları qəbul etmək üçün ilk addımlar XIX əsrdə və xüsusilə də Birinci Dünya müharibəsi qurtarandan sonra nəzərə çarpmağa başladı. Ancaq XX əsrin ikinci yarısında insan hüquqlarının geniş əhatəli beynəlxalq müdafiə sistemi əsas etibarilə BMT-nin, ixtisaslaşdırılmış təsisatların və regional hökumətlərarası təşkilatların səyləri nəticəsində yaradıldı.

İnsan hüquqları sahəsində dövlətin özünün bu sahədə beynəlxalq öhdəliklərinə əməl etməsi vacibdir. İnsan hüquqlarına hörmət prinsipinin məzmununu isə ilk növbədə, dövlətlərin onların yuridikasiyası sferasında yerləşən bütün şəxslərə münasibətdə hər hansı diskriminasiya olmağın, bu hüquqlara hörmət və əməl etmək öhdəliyi təşkil edir.

İnsan hüququ amili Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin fəaliyyətinin əsası olmuşdur ki, bu da bilavasitə onun təşəbbüsü ilə kifayət qədər normativ sənədlərin qəbul edilməsi ilə nəticələnmişdir. 1988-ci il iyunun 18-də Azərbaycan Respublikasında "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət

Proqramı"nın, 22 fevral 1998-ci il tarixli "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı və insan hüquq və azadlıqlarının müdafiəsini nəzərdə tutan 100-dən artıq beynəlxalq müqaviləyə qoşulması buna misal göstərilə bilər.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev insan hüquqları anlayışına konkret yanaşaraq, bəşəriyyətin bu sahədə qazandığı nailiyyətlərə real dəyərli töhfə verərək ilk növbədə ölüm hökmünün tətbiqini dayandırdı. Milli Məclisdə insan hüquqlarına dair beynəlxalq konvensiyalar ratifikasiya edildi.

Müstəqilliyini yenicə əldə etmiş Azərbaycan Respublikası insan hüquqlarının müdafiəsi istiqamətində bir sıra addımlar atmış, insan hüquqları sahəsində qəbul edilmiş mühüm beynəlxalq müqavilələrə qoşulmuşdur, bu sahədə beynəlxalq standartlara uyğun olaraq öz milli qanunvericiliyini yaratmışdır.

Bu istiqamət özü Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarda apardığı fəaliyyətlə sıx bağlıdır və son nəticədə, milli qanunvericiliyin daha da təkmilləşdirilmiş şəkildə formalaşdırılmasına gətirib çıxarır.

İnsan hüquqlarının müdafiəsi istiqamətində Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinin müddəaları çox əhəmiyyətlidir. Belə ki, 12 -ci maddənin 1-ci hissəsində dövlətin ali məqsədi kimi insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi göstərilirsə, 12-ci maddənin 2-ci hissəsində isə qeyd edilir ki, bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrə uyğun tətbiq edilir.

Ümummilli lider Heydər Əliyevin bütün bu sahələrdə əsasını qoyduğu mütərəqqi ənənələr Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən daha böyük əzmlə davam etdirilir. Bu günlərdə onun verdiyi sərəncam da buna canlı sübutdur. İnsan hüquqlarının təmin olunmasının dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edildiyini nəzərə alan Respublikamızın Prezidenti hər il iyunun 18-i Azərbaycan Respublikasında İnsan Hüquqları Günü kimi qeyd olunması barədə Sərəncam imzaladı.

Ədəbiyyat

Azərbaycan Respublikasının Prezidenti. Azərbaycan Respublikasında İnsan Hüquqları Gününün təsis edilməsi haqqında: Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı [18 iyun, 2007] //Xalq qəzeti.-19 iyun.-2007.-S.1.

Azərbaycan Respublikasında insan hüquqları: tədris metodiki vəsait /tərt. C.Y.Qaracayev; Azərbaycan Respublikası N.- B.: Azərb. Unver.-ti, 2002.-70 s.

Babaoğlu, N. İnsan hüquqları və azadlıqlar: tarixi təkamülü, Azər-

baycan təcrübəsi /N.Babaoğlu; elmi red. fəl. e.nam. Ə.Əhmədov.- B.: Elm, 2006.-241 s.

İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında konvensiya.- B.: Qanun, 2006.- 32 s

Məktəblərdə insan hüquqları: müəllimlər üçün vəsait /elmi red.: R.F. Məmmədov, G.M. Rəhimova; Bəşər – gələcək Naminə tərəfdaşlıq Beynəlxalq hərəkatı.- B.: ATƏTİN Bakı ofisi, 2006.-155 s.

NİV/AİDS və insan hüquqları: Beynəlxalq rəhbər prinsiplər /tərc.və red. p.e.n. O.Səmədov.- B., 2000.- 120 s.

Avropa insan hüquqları məhkəməsi və Azərbaycan //Azərbaycan.- 2007. -24 aprel.-S.4.

Azərbaycanda insan hüquqları və azadlıqlarının təmin edilməsi və müdafiəsinin vəziyyəti haqqında //Azərbaycan.- 2005.-15 may.- S.3.

Rus dilində

В Азербайджане существует надежная гарантия защиты прав человека //Бакинский рабочий.- 2003.- 15 марта.- С. 2.

Конвенция о защите прав человека и основных свобод /Рим, 4 ноября, 1950 г. //Бакинский рабочий.-2002.- 3 апреля.- С. 2

İnternetdə

www.azhumanrights.org/
www.unhchr.ch/udhr/lang
www.un-az.org.
www.humanrights.az
www.ombudsman.gov.az.

Nailə Alışova

İyun

21

Abbasqulu ağa Bakıxanov

215 illiyi 1794-1847

Tarixçi

Azərbaycan elminin, mədəniyyətinin, tarixinin və fəlsəfəsinin inkişafında böyük xidmətləri olan Abbasqulu ağa Bakıxanov ensiklopedik zəkaya malik tarixi şəxsiyyətlərdən olmuşdur. O, bir dilçi, şair, tərcüməçi, tarixçi, coğrafiyaçı, astronom, filosof kimi geniş və çoxtərəfli elmi fəaliyyətlə məşğul olmuş, XIX əsrdə nəinki Azərbaycan və Rusiyada, eləcə də Yaxın və Orta Şərq ölkələrində xalqımızın mədəniyyətinin tanıtdırılmasında, təbliğində diqqətəlayiq işlər görmüşdür. Bədii əsərlərilə ədəbiyyatda tənqidi realizmin inkişafı üçün cığır acan Bakıxanov XIX əsr ədəbiyyatında inkişaf edən realizm cərəyanının ilk nümayəndələri sırasına daxildir.

Abbasqulu ağa Bakıxanov (Qüdsi) Bakı xanlarının nəslindəndir. İkinci Mirzə Məhəmməd xanın böyük oğludur. O, 1794-ci ildə iyun ayının 21-də keçmiş Bakı qəzasının Xilə (indiki Əmircan) kəndində anadan olmuşdur. İlk uşaqlıq illəri Əmircan, Balaxanı və Maştağa kəndlərində keçmişdir. Lakin Abbasqulu ağa Bakıda çox az yaşamış, ömrünün böyük bir hissəsini Qubada, atasının Əmsar kəndindəki malikanəsində keçirmişdir. İlk təhsilini Bakıda başlamış, Qubada davam etdirmişdir. Qubada bilikli ruhanilərdən fars və ərəb dillərini mükəmməl öyrənmişdir. Müntəzəm və əsaslı təhsil A.Bakıxanova Firdovsi, Xəyyam, Nizami, Xaqani, Mövlanə Rumi, Sədi, Hafiz kimi klassiklərin, Yaxın Şərqdə tanınmış alim və mütəfəkkirlərin əsərləri ilə tanış olmağa, öz yaradıcılığında bunlardan istifadə etməyə imkan yaratmışdır. A.Bakıxanov gənclik dövründə rus dili ilə də maraqlanmış, sonralar Tiflisdə onu mükəmməl öyrənmişdir.

1819-cu ildə A.Bakıxanov Tiflisə gedərək, Qafqazın baş hakimi general A.P.Yermolovun idarəsində Şərq dilləri

mütərcimi vəzifəsinə qəbul edilir. O, Tiflisdə bir tərəfdən rus dilinin köməyi ilə dünya mədəniyyətini öyrənir, o biri tərəfdən isə o zamanlar Zaqafqaziyada yaşayan bəzi dekabristlərlə dostlaşıb, onların vasitəsilə dekabrist Rusiyasının qabaqcıl ictimai fikrilə tanış olmağa başlayır. Onun maarifçi dünyagörüşü belə bir şəraitdə inkişaf edir.

A.Bakıxanovun rəsmi dövlət qulluğu müharibələr dövrünə təsadüf edir. Bu dövrdə çar hökuməti əlinə keçirdiyi ucqar ölkələrin daxilində hökumət əleyhinə qalxan kəndli üsyanlarını yatırtmaqla məşğul olur, Zaqafqaziyada öz hakimiyyətini möhkəmləndirmək məqsədi ilə İran və Türkiyə hökumətləri ilə müharibələr aparırdı. Baş məmur və sərkərdələrin yanında mütərcim kimi çalışan Bakıxanov bir sıra hərbi səfərlərdə iştirak edir, göstərdiyi bacarığına görə getdikcə rütbəsi yüksəlir. O, 1820-ci ildə praporşik, 1826-cı ildə poruçik, 1827-ci ildə ştabs-kapitan, 1828-ci ildə kapitan, 1829-cu ildə mayor, 1832-ci ildə podpolkovnik, 1842-ci ildə isə polkovnik rütbəsi alır. 1823-ci ildə Bakıxanov Yermolov tərəfindən Qarabağ əyalətini tədqiq edən komissiyanın üzvü təyin olunur. Qarabağa səfəri zamanı o, bu əyalətin qədim tarixini, coğrafiyasını və etnoqrafiyasını öyrənərək özünün gələcək "Gülüstani-İrəm" əsəri üçün xeyli məlumat toplayır.

I Nikolay Yermolovdan şübhələndiyi üçün, 1827-ci ilin mart ayında onu qraf Paskeviçlə əvəz edir. A.Bakıxanovun Rusiya dövlətindəki qulluğunun parlaq dövrü də bu zamandan başlanır. 1826-1828-ci il Rusiya-İran və 1829-cu il Rusiya-Türkiyə müharibələri zamanı Paskeviç bu hökumətlərlə sülh danışıqlarını Bakıxanovun vasitəsilə aparmışdır. Bakıxanovun diplomatiya sahəsindəki fəaliyyəti və onun Qriboyedovla dostluğu da bu dövrə aiddir. 1827-ci ilin noyabrında Cənubi Azərbaycanda Dehxarqanda Paskeviçin sədrliyi, A.S. Qriboyedovun katibliyi ilə Rusiya-İran dövlətləri arasında sülh məclisi açılır ki, Bakıxanov da orada Rusiya dövlətinin nümayəndəsi kimi iştirak edir.

Cənubi Azərbaycanda ikən Bakıxanov Ərdəbildə rus qoşunlarının əlinə keçən zəngin kitabxananın tədqiqilə də məşğul olur. Həmin kitabxana zəbt olunub Tiflisə gətirildikdən sonra Bakıxanov onun üzərində işini davam etdirərək, Şərq müəllifləri tərəfindən yazılmış əsərlərin kataloqunu tərtib edir.

Bu zamanlar Bakıxanov "Dərbəndnamə"nin qısa şərhi və rusca tərcüməsi üzərində də elmi iş aparır.

A.Bakıxanovu rəsmi dövlət qulluğundan daha çox elmi və ədəbi yaradıcılıq işi maraqlandırırdı. Buna görə də müharibələr qurtardıqdan sonra o, dinc bir şəraitdə elmi fəaliyyətə başlayır.

Bakıxanovun birinci elmi əsəri 1831-ci ildə fars dilinin qanun və qaydalarını təlim edən "Qanuni-Qüdsi" adlı sərf və nəhv əsəridir. Əsər Zaqafqaziya və Rusiyada fars dilinin ilk qrammatikasıdır və məktəb şagirdləri üçün bir dərslik kimi yazılmışdır.

1830-cu illərdə Bakıxanov kainatın quruluşu və vəziyyətini öyrənmək üçün qədim yunan və ərəb

mənbələrini mütaliə edir. Yeni kəşfləri ilə məşhur olan Nikolay Kopernik (1473-1543), İsaaq Nyuton (1642-1727), Qalileo Qaliley (1564-1642) və b. alimlərin nəzəriyyələri ilə tanış olur. Belə bir tədqiqat işindən sonra o, Kopernikin kainat haqqındakı heliosentrik nəzəriyyəsini müdafiə edən "Əsrarül-məlәkut" əsərini yazır. Bu əsər müqəddimədən, üç ayrı-ayrı hissədən və nəticədən ibarətdir.

1835-ci ildən etibarən Bakıxanov atasının Əmsar kəndində olan malikanəsində yaşayır, elmi və ədəbi fəaliyyətini davam etdirərək "Təhzibi-əxlaq", "Kitabi-nəsihət", "Kitabi-əsgəriyyə", "Mişkatül-ənvar" əsərlərini yazır.

Öz elmi fəaliyyətində fəlsəfə, pedaqoji və etika məsələlərinə də geniş yer verən A.Bakıxanovun tə-lim-tərbiyə, əxlaq problemlərinə həsr olunmuş əsərlərindən biri "Təhzibi-əxlaq", o biri isə "Kitabi-nəsihət"dir.

"Təhzibi-əxlaq" fəlsəfi əsərdir. Bunu yazmaqda müəllifin məqsədi gənclərin tərbiyələnməsi işinə kömək etməkdir.

"Təhzibi-əxlaq"dan sonra A.Bakıxanov pedaqoji əsəri "Kitabi-nəsihət" və ya "Nəsihətnamə"ni yazmışdır. Əsər 102 nəsihətdən ibarətdir.

Bu illərdə o, Qubada "Gülüstan" adında ədəbi məclis təşkil edir. Qubanın az-çox tanınmış şair və ziyalılarını bu məclisə toplayır.

1841-ci ildə A.Bakıxanov özünün məşhur "Gülüstani-İrəm" əsərini fars dilində yazıb qurtarır. "Gülüstani-İrəm" Bakıxanovun tarix elminə baxışını göstərən qısa, dolğun məzmunlu bir müqəddimə ilə başlanır. Müqəddimədə Azərbaycanın və Dağıstanın qısa coğrafi təsviri, bu ölkələrin xalqlarının mənşəyi, dili və dinləri haqqında məlumat verilir. Əsərdə Azərbaycan və Dağıstan tarixinin qədim zamanlardan 1813-cü ilədək dövrü əhatə olunur. "Gülüstani-İrəm"də Albaniya (Qafqaz), Babək hərəkatı, Şirvanşahlar, monqol hücümları, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri, Azərbaycan xanlıqları, onların Rusiyaya birləşdirilməsi və s. haqqında məlumat vardır.

Bakıxanovun "Gülüstani-İrəm" əsərini M.Kazım bəy, görkəmli şərqşünaslardan M.İ.Brosse, B.A.Dorn və başqaları yüksək qiymətləndirmişlər. 1843-1844-cü illərdə Bakıxanov əsəri özü rus dilinə tərcümə etmişdir. "Gülüstani-İrəm" ilk dəfə 1926-cı ildə rusca, 1951-ci ildə isə Azərbaycan dilində çap olunmuşdur. 1970-ci ildə isə əsərin elmi tənqidi mətni nəşr edilmişdir.

A.Bakıxanov görkəmli alim olduğu kimi, həm də istedadlı şair idi. Bədii irsi lirik və epik əsərlərdən ibarətdir. Lirik şeirlərində dünyəvi məhəbbət tərənnüm olunmuşdur. "Tiflis" müxəmməsi və "Gürcülər arasında" mənzum məktubunda Tiflisin, gürcu qızlarının gözəlliyi, xalqlar dostluğu tərənnüm edilir. Orijinalı tapılmamış "Fatma tar çalır" şeirinin alman dilində, "Tatar nəğməsi"nin isə rus dilində tərcüməsi qalmışdır.

Bakıxanovun maraqlı satirik şeirləri də vardır. "Təbriz əhlinə xitab" şeiri XIX əsr Azərbaycan poeziyasında zadəgan və ruhanilər əleyhinə ilk ictimai satiradır. "Mişkatül-ənvar" əsərində Bakı-

xanovun mənzum məktub və təmsilləri toplanmışdır.

Bakıxanovun "Kitabi-Əsgəriyyə" hekayəsi Azərbaycan nəsrinin ilk nümunələrindəndir. Əsərdə iki gəncin məhəbbətindən bəhs olunur, onların səadətinə mane olan feodal qayda-qanunları tənqid edilir.

1974-ci ildə Təbriz Milli Kitabxanasında Bakıxanovun Azərbaycan, fars və ərəb dillərində yazdığı əsərlərindən ibarət divanı, habelə bir neçə şeiri tapılmışdır.

Bakıxanov jurnalistika sahəsində də fəaliyyət göstərmiş, "Tiflisskiye vedomosti" (1828-1832) qəzetinin əməkdaşı, onun fars dilində buraxılan variantının redaktoru, habelə Qafqaz xalqlarının tarix və mədəniyyət məsələlərinə dair məsləhətçisi olmuşdur.

Bakıxanovun bütün elmi və ədəbi yaradıcılığının əsas qayəsi xalqın maariflənməsi olmuş, mütərəqqi rus mədəniyyətini təbliğ etmiş, Zaqafqaziya və Rusiya xalqları arasında dostluq münasibətlərinin yaranmasına çalışmışdır.

1846-cı ilin martında Şərqə səyahət edən Bakıxanov vətənindən uzaqlarda, Mədinə və Məkkə arasındakı "Vadiyi-Fatimə" adlanan yerdə, 1847-ci ilin əvvəllərində vəba xəstəliyindən ölmüş və orada da dəfn edilmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri.- B.: "Avrasiya Press", 2005.- 487 s.

Həbiboğlu, V. Abbasqulu ağa Bakıxanov.- B.: Gənclik, 1992.- 350 s.

Qurban, T. Müqəddəs məkanda Qüdsimiz vardır...: Abbasqulu ağa Bakıxanovun vəfatının 160 illiyi münasibətilə.- B.: Şirvannəşr, 2007.- 104 s.

Qurd və İlbiz: Təmsillər.- B.: Gənclik, 1985.-20 s.

Arzumanlı, V. A.Bakıxanovla yeni "görüş": [A.Bakıxanovun anadan olmasının 200 illiyi ilə əlaqədar] //Xalq qəzeti.- 1993.- 9 oktyabr.- S. 3.

"Təhzibül - əxlaq" "Əlhudə" nəşriyyatında çap olunmuşdur: [A.Bakıxanovun eyni adlı əsərinin latın qrafikası ilə çap edilməsi haqqında] //Azərbaycan.-2005.- 12 fevral.- S.7.

Hind əfsanəsi.- B.: Gənclik, 1991.- 83 s.

Şükürov, A. Yeni tədqiqat: Abbasqulu ağa Bakıxanov-200 //Azərbaycan.-1994.- 24 fevral.

Dilşad Sadıqova

İyun

22

85 illiyi

Cəlal Bərgüşad
1924-1996

Yazıçı



Cavadov Cəlal Novruz oğlu 1924-cü il iyun ayının 22-də Azərbaycanın Qubadlı rayonunun Qəzyan kəndində anadan olmuşdur. Orta təhsilini rayon fəhlə-gənclər məktəbində almışdır. O, İkinci Dünya müharibəsində iştirak etmiş, ağır döyüşlərin birində kontuziya aldığına görə tərxis edilmişdir.

1943-cü ildə müharibədən qayıtdıqdan sonra 1946-cı ilə qədər Qubadlı rayon Daxili İşlər Şöbəsində VVAQ müdiri işləmişdir.

Onun "Cənub taydan əsən meh" adlı ilk şeiri də 1946-cı ildə Qubadlıda cıxan "Avanqard" qəzetində dərc olunmuşdur.

1951-ci ildə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsinin nəzdində jurnalistika şöbəsini bitirmişdir. Həmin il o, "Azərbaycan pioneri" qəzeti redaksiyasında ədəbi işçi təyin edilmişdir.

O, 1958-ci ildən Azərbaycan Dövlət Televiziya Şirkətində böyük redaktor vəzifəsində işləmişdir. Cəlal Bərgüşad 1963-cü ildən Azərbaycan Yazıçılar Birliyinin Üzvü olmuşdur. Onun ssenarisi əsasında "Çoban Boran", "Göy göl", "Torpağın ətri", "Çinar yarpağı" televiziya filmləri çəkilmişdir. "Babək" əsəri 1984-cü ildə Tehranda farsca, "Qaçaq Nəbi" əsəri isə 1979-cu ildə İstanbulda türkcə kütləvi tirajla çap olunmuşdur.

O, 1986-cı ildə xidmətlərinə görə birinci dərəcəli "İkinci Dünya müharibəsi" ordeni və medallarla təltif olunmuşdur.

Cəlal Novruz oğlu Cavadov 1996-cı il iyulun 9-da vəfat etmişdir.

Boz atın belində: Roman.- B. : Gənclik, 1994.- 318 s.
Dünyada nələr gördüm. - B. : Yazıçı, 1991. - 364 s.

Əliyev, H. Yazıçı Cəlal Bərgüşada: Azərbaycan Pespublikasının Prezidenti Heydər Əliyevin anadan olmasının 70 illiyi və ədəbi fəaliyyətinin 50 illiyi münasibətilə təbriki //Ədəbiyyat qəzeti.- 1994. - 8 iyul.- S. 1.
Adlarına layiq. Müəlliflə 70 illik yubileyi ilə əlaqədar müsahibə //Ədəbiyyat qəzeti.- 1994.- 8 iyul.- S. 4.
"Boz atın belində", "Sıyrılmış qılınc"la: Yazıçı Cəlal Bərgüşadın 70 illiyi münasibətilə Zəngəzur cəmiyyətləri birliyində keçirilmiş görüş haqqında //Bakı.- 1994.- 30 iyun.- S. 3.
Sıyrılmış qılınc: Roman.- B.:Gənclik, 1994.- 340 s.

Şərq çiçəyi: Hekayələr, xatirələr.-B.:Gənclik, 1985.- 236 s.

Generallar döyüş üçün doğulmuşlar. Günümüz, taleyimiz //Ədəbiyyat qəzeti.- 1993.- 26 noyabr.- S.2.
Kürdoğlu, H. Cəlal Bərgüşad: Vəfatı münasibətilə //Ədəbiyyat qəzeti.- 1996.- 12 iyul.- S. 7.

Samirə Eminova

İyun

23

120 illiyi

Anna Andreyevna Axmatova 1889-1966

Rus şairi

Anna Andreyevna Axmatova (əsi familyası Qorenkodur) 23 iyunda 1889-cu ildə Odessa şəhərində anadan olmuşdur. Rus Sovet şairidir.

Axmatova ziddiyyətli yaradıcılıq yolu keçmişdir. Ədəbi fəaliyyətinin ilk dövründə akmeizmə meyl etmişdir. "Axşam" (1912), "Təsbeh" (1914) şeir kitablarını, Böyük Oktyabr Sosialisit inqilabından sonra yeni həyatdan kənarda qalmasına baxmayaraq, ağ mühacirləri qətiyyətlə pisləmiş, "Vətəni atanlarla deyiləm..." adlı şeirini yazmışdır.

"Qəhrəmansız poema" (1940-1962) lirik-epik əsəri Axmatovanın yaradıcılıq zirvəsidir.

Şeirləri forma kamilliyi, ahəngdarlığı, dərin lirizmi ilə seçilir. O, həmçinin Şərq və Qərbi Avropa şairlərinin əsərlərindən tərcümələr etmişdir. A.Axmatova 5 mart 1966-cı ildə vəfat etmiş və Leninqradda dəfn edilmişdir.

Ədəbiyyat

Сероглазый король: Стихотворение /А.А. Ахматова .- М.: Эксмо, 2007.-414с.

Кралин, М. М. Артур и Анна: Роман (без героя, но все-таки о любви: Об А.Ахматовой и А.Луръе).- Л., 1990.

Носик, Б. Анна и Амедео. История тайной любви Ахматовой и Модиляни или Рисунок в интеръере: Документальная повесть.- М., 1997.- 240 с.

Оруджен, Г. О. Акмеизм и творчество Анны Ахматовой: Методическая разработка для студентов педагогических вузов.- Б.,1998.- 32 с.

Победа над судьбой.- М.: Русский путь, 2005.- 471 с.

Tahirə Həsənova

İyun

26

80 illiyi

Nurəddin Rzayev
1929

Elm xadimi

Rzayev Nurəddin Məmmədbağır oğlu 1929-cu il iyun ayının 26-da Gədəbəy rayonunda anadan olmuşdur. 1945-ci ildə orta məktəbi qızıl medalla bitirib, Tibb Universitetinin Müalicə profilaktika fakültəsinə daxil olub. 1950-ci ildə Universiteti fərqlənmə diplomu ilə bitirib, 1958-ci ildə "Mezatonun cərrahiyyədə tətbiqi" mövzusunda namizədlik dissertasiyasını müdafiə edib.

1965-ci ildə "Ağ ciyər arteriyasının trombozlarının diaqnostikası və müalicəsi" mövzusunda doktorluq dissertasiyasını müdafiə edib, az sonra isə professor elmi rütbəsini alıb. 1982-ci ildə Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür. 1983-cü ildən Beynəlxaq Cərrahlar Cəmiyyətinin, 1993-cü ildə Avropa Təxirəsalınmaz Cərrahlıq və Travma Cəmiyyətinin, 1994-cü ildən isə Nyu-York Elmlər Akademiyasının üzvüdür.

Elmi-bədii kitablar müəllifi N.Rzayev ana dilimizə, türkcəmizə, milli mədəniyyətimizə dərin məhəbbət bəsləyən bir ziyalıdır. Həkim-yazıçı Nurəddin Rza 1999-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Ədəbiyyat

Qan damarlarının cərrahlıq xəstəlikləri.-B.: Azərnəşr, 1988.-174 s.

Cəfərov, Ç. Professor Nurəddin Rza-70.- B.: Günəş, 1999.- 134 s.

Rus dilində

Эмболии и тромбозы легочной артерии.- Б.: 1970.- 224 с.

Антитромботическая терапия.- Б.: Азернешр, 1971.- 174 с

Azadə Novruzova

İyun

26

Narkomaniya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü

Narkomaniya "ağ ölüm" dür, həyatdan üz çevirməkdir.

"Narkomaniya" və "ölüm" sözləri bu gün insanların təsəvvüründə sinonim sözlərə çevrilib. Narkomaniya bəşəriyyəti narahat edən ən böyük problemlərdən biridir. Hər il on minlərlə insan "ağ ölüm"ün qurbanına çevrilir. Ən qorxulusu isə narkotik vasitələrə daha çox gənclərin meyl etməsidir.

Müasir dövrümüzdə insanlıq üçün böyük bəla olan narkomaniya bütün dünyada geniş yayılmışdır. Bu bəla ilə mübarizə etmək bir o qədər asan deyil. Narkotik maddə alverçiləri pul qazanmaq naminə insanları, xüsusilə uşaqları ölümə aparan bu pis vərdişə alışdırırlar.

Narkotik maddələr geniş çeşidlidir: xaşxaş, tiryək, marixuana, heroin, kakoin və sairə. Son illərdə kimyəvi laboratoriyalarda hazırlanan sintetik narkotik maddələr meydana gəlmişdir. Bunlar xüsusilə təhlükəlidir, çünki bir neçə dəfə istifadədən sonra adamı özünə alışdıra bilir. Narkotiklərdən asılılıq ağır xəstəliyə - narkomaniyaya gətirib çıxarır. Narkotik maddələr insan sağlamlığına bərpaedilməz ziyan vurur, fiziki qüvvələri tükəndirir, bədənin çəkisi birdən-birə azalır, ümumi zəhərlənmə baş verir.

Narkomaniya keçici xəstəliklərin sürətlə yayılmasına səbəb olur. Narkotik maddələrin bir çoxu şprislə qana ötürüldüyündən, narkoman qrupları daxilində eyni şprisdən istifadə edildiyindən narkomanlar arasında QİÇS və başqa xəstəliklərə tutulmuş insanlar daha çoxdur.

Narkotik maddələrlə ticarət böyük gəlir gətirir. Milyard dollarlarla qazanc əldə edən cinayətkarlar üçün bacardıqca daha çox adamı "iynəyə oturtmaq", daha çox gəncləri və

uşaqları narkomaniyaya sövq etmək sərfəli işdir. Bir az "yüngül" narkotiklərdən başlayan insan tez bir zamanda çox təsiredici narkotiklərə alışır və müalicəsi mümkün olmayan xəstəliklərə mübtəla olur.

Narkotik maddələrin gənc nəsillər arasında yayılması təhlükəsinin qarşısını almaq məqsədilə, bir çox ölkələr "Narkotiksiz gələcək naminə" milli proqramlar qəbul edirlər. Buraya təhsil ocaqlarında, hüquq mühafizə orqanlarında, təşkilatlarda narkomaniyanın ziyanı haqqında maarifləndirilmə kampaniyaları daxildir. Bu kampaniyalar kütləvi informasiya vasitələri, İnternet şəbəkəsi vasitəsilə aparılır.

Narkomaniya ilə bağlı problemləri daim ictimaiyyətin nəzarəti altında saxlamaq məqsədilə BMT iyun ayının 26-nı Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü elan etmişdir.

Ədəbiyyat

Əliyev, Q. Narkomaniya və narkotizmlə mübarizə problemləri.- B., 1999.- 60 s.

Məmmədov, M. Narkomaniya, alkoqolizm və... . - B ., 1995 .- 93 s.

Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə haqqında qanun.- B., 2000 .- 98 s.

Cahandarov, B. Narkomanların 70 faizi gənclərdir /Narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı 2007-2012-ci illəri əhatə edən ikinci dövlət proqramı hazırlanıb //Paritet.-2007.- № 3. - 26-27 iyun. - S. 7.

Rus dilində

Указ Президента Азербайджанской Республики о применении Закона Азербайджанской Республики «О наркологической службе и контроле" //Бакинский рабочий.- 2001.- 20 сентября.- С. 1.

Закон Азербайджанской Республики о наркологической службе и контроле //Бакинский рабочий.- 2001.-15 сентября.- С. 1-2.

Наркомания – чума столетия /О распространении наркомании в нашей стране и борьба с ней //Бакинский рабочий.- 2005.- 30 июня.- С. 3.

Samirə Eminova

İyun

26

Azərbaycan Silahlı Qüvvələri Günü
1918

Azərbaycan ordusunun əsası 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyulub. 1918-ci il 26 iyun – ilk Əlahiddə Azərbaycan Korpusunun yaradıldığı gün ümummilli lider Heydər Əliyevin 22 may 1998-ci il tarixli Fərmanı ilə Silahlı Qüvvələr Günü elan olundu.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təşkili müstəqil Azərbaycanın dövlət quruculuğunun mühüm tarixi nailiyyətlərindən biridir. Ordumuzun tarixi əslində müstəqilliyimizin tarixidir, Azərbaycan xalqının suverenliyinin tarixidir. 1918-1919-cu illərdə erməni təcavüzünün güclənməsi Azərbaycan türklərinin fiziki cəhətdən məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Yaranmış vəziyyət təcili olaraq ordu quruculuğuna başlamağı tələb edirdi. 1918-ci il 26 iyun – Əlahiddə Azərbaycan korpusu yaradıldı və həmin il avqustun 1-də Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi Nazirliyi təsis edildi. Qısa müddətdə Milli Ordu Osmanlı dövlətinin Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından xilas etdi. Bu hərbi birləşmələr Muğanda və Əsgəranda milli hökumətə qarşı baş vermiş qiyamları yatırmaqda yüksək səriştəlilik göstərdi, Qazaxda Azərbaycan sərhəddini pozmuş erməni nizami ordu hissələrini darmadağın etdi. Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra bolşevik hökuməti Milli Ordunu ləğv etdi. Onun rəhbərlərinin əksəriyyəti Nargin adasına aparılıb güllələndi.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra milli ordunun yaradılması günün ən vacib məsələsinə çevrilmişdi. Lakin hələ 1991-ci il sentyabrın 5-də Müdafiə Nazirliyinin yaradılması barədə qərarın və həmin ilin oktyabrın 9-da Azərbaycan Respublikasının Ali Soveti tərəfindən Silahlı Qüvvələrin yaradılması haqqında Qanunun qəbul edilməsinə baxmayaraq, o dövrün Respublika rəhbərliyi bu

qərarların həyata keçirilməsi üçün heç bir səy göstərmirdi.

Ermənistanın gündən-günə genişlənməkdə olan hərbi təcavüzü Milli Ordunun yaradılması işini sürətləndirməyi tələb edirdi. Lakin ilk vaxtlar yaradılmış hərbi hissələr müxtəlif siyasi qüvvələrin əlində alətə çevrilmişdi. Ordu quruculuğuna yalnız 1993-cü ildən başlamaq mümkün oldu. Heydər Əliyev hakimiyyətə ikinci dəfə qayıtdıqdan sonra vəziyyət kökündən dəyişdi. O, ilk növbədə Respublikada mövcud olan ictimai-siyasi vəziyyətə aydınlıq gətirdi. Onun 1993-cü il noyabrın 2-də radio və televiziya ilə xalqa tarixi müraciətindən sonra Silahlı Qüvvələrin quruculuğu sahəsində, Ermənistan-Azərbaycan cəbhəsində vəziyyət radikal surətdə dəyişdi və atəşkəs haqqında saziş imzalandı.

Atəşkəs rejimi əldə edildikdən sonra Azərbaycan Silahlı Qüvvələri özünümüdafiə dəstələrindən dünya ordu quruculuğunun münasib standartlarına cavab verən, bir mərkəzdən vahid komandanlıq prinsipi ilə idarə olunan, möhkəm, mətin hərbi struktura çevrildi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədi ilə 1999-cu il yanvarın 20-də Hərbi Akademiyanın yaradılması haqqında Fərman imzalamışdı. Prezidentin 20 avqust 2001-ci il tarixli Fərmanı ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər: Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırılmışdır.

Son illər Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaranmasında, möhkəmlənməsində və onun müasir tələblərə cavab vermək səviyyəsinə qaldırılmasında böyük

nailiyyətlər əldə edilib.

Hazırda Silahlı Qüvvələrdə kadr siyasəti üzrə işlər Ali Baş Komandanın, Müdafiə Nazirinin əmr, sərəncam və göstərişlərinə, Azərbaycan Respublikasının hərbi qanunvericilik aktlarının tələblərinə uyğun olaraq həyata keçirilir. Əsas komanda-qərargah vəzifələrinin peşəkar, ali hərbi təhsili olan, professional, mənəvi, fiziki və psixoloji cəhətdən hazırlıqlı, döyüş təcrübəsi olan zabitlərlə komplektləşdirilməsi diqqət mərkəzində olub.

Tarixi vərəsəlik ənənəsinə uyğun olaraq Prezidentin Fərmanı ilə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Milli Ordunun yarandığı 26 İyun günü Azərbaycan Silahlı Qüvvələri Günü kimi bayram edilir.

Ədəbiyyat

Əsgərin yaddaş kitabçası /tərt.ed. C.Məmmədov.- B.: Azərbaycan, 1993.- 40 s.

Süleymanov M. Azərbaycan ordusu (1918-1920).- B.: Hərbi nəşriyyat, 1998.- 487 s.

Süleymanov, M. Qafqaz İslam ordusu və Azərbaycan.- B.: Hərbi nəşriyyat, 1999.- 439 s.

Azərbaycan ordusu tarixindən //Azərbaycan ordusu.- 2007.- 24 noyabr.- S. 3.

Azərbaycan Silahlı Qüvvələri cümhuriyyət ordusunun varisidir //Azərbaycan Ordusu.- 2007.- 26 iyun.- S. 3.

Hərb tariximizdə Heydər Əliyev fenomeni //Azərbaycan Ordusu.- 2007.- 24 noyabr.- S. 2.

İnternetdə

www.anl.az
www.azerbaijan.az
www.az.wikipedia.org
www.bizimasr.media-az.com
www.yeniazerbaijan.com

Adilə Abdullayeva

İyun

27

85 illiyi

Mələk Dadaşov
1924-1996

Aktyor

Görkəmli teatr və kino aktyoru Mələk Yusif oğlu Dadaşov 1924-cü il iyun ayının 27-də Bakı şəhərində anadan olmuşdur. 1941-ci ildə orta məktəbi bitirmiş və cəbhəyə getmişdir. O, 1945-ci ildə ordudan tərxis olunaraq geri dönmüş və Gənc Tamaşaçılar Teatrında, Zaqatala Dövlət Teatrında və Şəmkir Teatrında aktyor kimi fəaliyyət göstərmişdir. 1951-ci ildə Mirzəağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunu bitirmiş, həmin ildən M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrında çalışmış və bütün həyatını bu sənət ocağı ilə bağlamışdır.

M.Dadaşov 1989-1992-ci illərdə S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının direktoru və bədii rəhbəri kimi çalışmışdır.

Aktyor ilk dəfə H.Muxtarovun "Ailə namusu" əsərində Arif rolunda oynamışdır. Şeyx Nəsrullah, (C.Məmmədquluzadə, "Ölülər"), Sebastian (V.Şekspir, "On ikinci gecə"), Karenin (L.Tolstoy, "Canlı meyit"), Şuriyə və Şapur ("S.Vurğun, "Fərhad və Şirin"), Zabelin (N.Poqodin, "Kreml saatı"), Tərlan (Ş.Qurbanov, "Sənsiz"), Tahirov (İ.Qasımov, "Nağıl başlananda") obrazlarını məharətlə ifa etmişdir. Böyük sənətkar eyni zamanda pedaqoji fəaliyyət göstərmişdir. O, 1960-cı ildən ömrünün sonunadək Azərbaycan Dövlət İncəsənət Universitetində aktyorluq sənətinin sirlərini böyük həvəslə gənc nəslə öyrətməyə çalışmışdır.

M.Dadaşov bir çox filmlərdə baş rollara çəkilmiş və yadda qalan obrazlar yaratmışdır. Bunlardan "Bir məhəlləli iki oğlan" (1957), "26 Bakı komissarı"(1966), "Dəli Kür" (1969), "Ulduzlar sönmür" (1970), "Axırıncı aşırım" (1971), "Mezozoy əhvalatı" (1975) və s. misal göstərmək olar.

Sənətkarın bu xidmətləri yüksək qiymətləndirilmiş və ona 1974-cü ildə Azərbaycan SSR Xalq artisti adı verilmiş, müxtəlif

orden və medallarla təltif olunmuşdur.

İstedadlı aktyor, Xalq artisti, Dövlət mükafatı laureatı M.Dadaşov 1996 -cı il dekabr ayının 3-də vəfat etmişdir.

Ədəbiyyat

Mehdixanlı, T. Xarakterlər ustası: [Məlik Dadaşov haqqında] //Azərbaycan.- 2004.- 11 iyul.- S. 6.

Mehdiyeva, K. Unudulmaz aktyor, müəllim: (Xalq artisti Məlik Dadaşov haqqında) //Qobustan. - 2003. - № 1.- S. 50-52.

Mükərrəmoğlu, M. Bir ömür yaşasa da...: Akademik Milli Dram Teatrında Xalq artisti Məlik Dadaşovun xatirəsi yad edildi //Xalq qəzeti.- 2006.- 23 dekabr.- S. 8.

Mükərrəmoğlu, M. Bitkin obrazlar ustası: (M. Dadaşov-80) /M. Mükərrəmoğlu //Xalq qəzeti.- 2004.- 14 avqust.- S. 6.

Mükərrəmoğlu, M. Xatirələrdə əbədi yaşayacaq (Azərbaycanın Xalq artisti Məlik Dadaşov haqqında) //Xalq qəzeti.- 2003.- 3 iyul.- S. 7.

Şərif, M. Dadaşov anıldı: (Xalq artisti, Dövlət mükafatı laureatı Məlik Dadaşov haqqında) //Yeni Azərbaycan.- 2003.- 28 iyul.- S. 5.

Rus dilində

Дадашева, Г. Своей смертью Мелик Дадашев доказал, что был настоящим актером //Эхо плюс.- 2005.- 8 январь.- С. 14.

İnternetdə

www.cinema.aznet/org .actors_az.html

Səmayə Quliyeva

1 iyul
Gün çıxır
04:11
Gün batır
21:15
31 iyul
Gün çıxır
04:48
Gün batır
20:57

İyul

22 iyun-
22 iyul

Xərcəngin Nişanı sudur. Aym himayəsindədir. Günəşin Xərçəng bürcündən keçdiyi dövrdə doğulanlar daha çox açıq xasiyyətli, xəyalpərəst olurlar.

2009

Əlamətdar və tarixi günlər

2. Azərbaycan Polisi Günü
11. Türk dünyasının tarixi Çaldıran döyüşünün baş verməsinin 495 ildönümü
14. Heydər Əliyevin Azərbaycan KP MK-nın 1 katibi seçilməsinin 40 illi yi
22. Milli Mətbuat və Jurnalistika Günü
23. Ağdam rayonunun işğal günü

Ç	1
Ca	2
C	3
Ş	4
B	**5**
Be	6
Ça	7
Ç	8
Ca	9
C	10
Ş	11
B	**12**
Be	13
Ça	14
Ç	15
Ca	16
C	17
Ş	18
B	**19**
Be	20
Ça	21
Ç	22
Ca	23
C	24
Ş	25
B	**26**
Be	27
Ça	28
Ç	29
Ca	30
C	31

Ağdamın işğal günü



Rayonun relyefi əsasən düzənlik, qismən alçaq dağlıqdır. Ərazidə geniş yer tutan Qarabağ düzünün mütləq hündürlüyü cənub-qərbdən şimal-şərqə doğru tədricən azalır. Ərazidə əhəng daşı, sement xammalı, çınqıl və qum yataqları var. Rayon ərazisində Xaçın və Qarqar çayları axır. 1993-cü ildə erməni silahlı dəstələri tərəfindən işgal olunub.

İşğal nəticəsində Ağdamın rayon mərkəzi ilə birlikdə 90 kəndi, 10 kolxozu, 2 sənaye, 100-dən artıq mədəni-maarif, bir o qədər də səhiyyə obyekti düşmən əlinə keçib.

Azərbaycan Polisi Günü (02.07.1998)

Nasir, tədqiqatçı-alim, professor Zamanova Elmira Nəzər qızının (07.07.1939) anadan olmasının 70 illiyi

Alman yazıçısı Feyxtvanger Lionun (07.07.1884-21.12.1958) anadan olmasının 125 illiyi

Azərbaycanın Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, professor Dəmirçizadə Əbdüləzəl Məmməd oğlunun (08.07.1909-10.04.1979) anadan olmasının 100 illiyi

Çex yazıçısı Neruda Yanın (09.07.1834-22.08.1891) anadan olmasının 175 illiyi

Ədəbiyyatşünas, tərcüməçi Babayev Əkbər Ağarza oğlunun (10.07.1924-12.09.1979) anadan olmasının 85 illiyi

Filosof Makovelski Aleksandr Osipoviçin (10.07.1884-16.12.1969) anadan olmasının 125 illiyi

Türk dünyasının tarixi Çaldıran döyüşünün (11.07.1514) baş verməsinin 495 ildönümü

Maarif xadimi Axundzadə Xosrov Mirzə Əli oğlunun (13.07.1889-10.05.1960) anadan olmasının 120 illiyi

Heydər Əliyevin Azərbaycan KP MK-nın I katibi (14.07.1969) seçilməsinin 40 illiyi

Ədəbiyyatşünas, tərcüməçi Tarıverdiyeva Kövsər Məmməd qızının (14.07.1914) anadan olmasının 95 illiyi

Ədəbiyyatşünas, publisist Vəliyev Həmid Alı oğlunun (15.07.1939) anadan olmasının 70 illiyi

Azərbaycanın Xalq rəssamı, heykəltəraş Qaryağdı Cəlal Məhərrəm oğlunun (15.07.1914-01.01.2001) anadan olmasının 95 illiyi

Azərbaycanın Əməkdar memarı Əliyev Rasim Həsən oğlunun anadan olmasının (16.07.1934) 75 illiyi

Etnoqraf, folklorşünas Əbdülhəlimov Hikmət Əhməd oğlunun (17.07.1939) anadan olmasının 70 illiyi

Amerika yazıçısı, Nobel mükafatı laureatı Heminquey Ernest Millerin (21.07.1899-02.07.1961) anadan olmasının 110 illiyi

Amerika astronavtlarının Ayın səthinə enmələrinin (21.07.1969) 40 illiyi

Milli Mətbuat və Jurnalistika Günü (22.07.1875)

Ağdam rayonunun işğal (23.07. 1993) günü

Şair, publisist Mahmudov Tofiq Cavad oğlunun (Tofiq Mahmud) (24.07.1944) anadan olmasının 65 illiyi

Rus rejissoru, Əməkdar incəsənət xadimi, yazıçı və kinorejissor Şukşin Vasili Makaroviçin (25.07.1929-02.10.1974) anadan olmasının 80 illiyi

Azərbaycanın Milli Qəhrəmanı Məmmədov Aqil Səməd oğlunun (30.07.1969-07.08.1992) anadan olmasının 40 illiyi

8 İyul

125 illiyi

Feyxtvanger Lion 1884-1958

Alman yazıçısı

Alman yazıçısı Lion Feyxtvanger 7 iyul 1884-cü ildə Münhen şəhərində anadan olmuşdur. Berlin və Münhen şəhərlərində filoloji təhsil almışdır. 1907-ci ildən fəlsəfə elmləri doktoru adını almışdır. Jurnalistika və teatr tənqidi ilə məşğul olmuşdur. 1933-cü ildə Almaniyadan Fransaya mühacirət etmiş və orada yaşamışdır. Feyxtvanger Beynəlxalq mədəniyyəti müdafiə hərəkatında iştirak etmiş, B.Brext və B.Bredel ilə birgə 1936-1939–cu illərdə Moskvada çıxan "Vort" (Das Vort) jurnalının redaktoru olmuşdur. O, həmçinin "Moskva" kitabını (1937) yazmışdır. 1940-cı ildə Fransa hökumətinin mürtəce siyasətini tənqid etdiyinə görə həbs düşərgəsinə salınmış, alman qoşunları Fransanı işgal edərkən çətinliklə xilas olmuşdur.

Feyxtvanqerin "Hərbi əsirlər" (1918), "Sülh" (1918) şeirlərində, həmçinin "Gözləmə zalı" trilogiyasında, "Müvəffəqiyyət" (1930) "Oppenheymlər ailəsi" (1933), "Sürgün" (1939) romanları, "Lautenzak qardaşları" (1943) romanında faşizm ifşa olunur, vətənin yeni tərəqqisi naminə mübarizənin zəruriliyi ideyası irəli sürülür. Onun "Yəhudi Zyuss" (1920-1922, nəşri 1925), "Eybəcər hersoginya" (1923) və s. tarixi romanlarında xalq kütlələrinin rolu, sosial tərəqqinin inqilabi formaları şübhə altına alınır. 1930-cu illərdə yazdığı tarixi romanlar "Yəhudi müharibələri" (1932), "Oğullar" (1935), "Gun gələcək" (1942) trilogiyası, "Yalançı Neron" (1936) dövrün mütərəqqi ictimai-siyasi ideyaları ilə səsləşirdi. "Tülkülər üzümlükdə" (1947),

"Qoyya, yaxud idrakın məşəqqətli yolu" (1952), "Qəribə adamın müdrikliyi, yaxud Jan Jak Russonun ölümü və ölməzliyi" (1952) romanlarında tarixdə xalq kütlələrinin inqilabi roluna inamı güclənmişdir.

Feyxtvangerin bir şox əsərləri ekranlaşdırılmışdır.

Ömrünün son illərini yazıçı ABŞ-da keçir-

mişdir**.** 21 dekabr 1958-ci ildə Los-Anceles şəhərində vəfat etmişdir.

Ədəbiyyat

Roman, hekayələr.- B.,1991.- C. 85.- (Dünya ədəbiyyatı kitabxanası)

Şıxlı, İ. XX əsr xarici ədəbiyyat tarixi.-B.: Maarif, 1974.- 248 c.

Rus dilində

Собрание сочинений: в 6-ти томах. /ред. коллегия А.С.Дмитриев и др.- М.: Художественная литература, 1988.- 733 с.

Роман /перевод с нем. В.Станевич.- М.: АСТ; Люкс, 2005.-318 с.

Совместное предприятие СССР-Франция «ДЭМ», 1990.-334 с.

Безобразная герцогиня Маргарита Маульташ: Братья Лаутензак. Роман. Рассказы. - М.: 1987

Гойя или Тяжкий путь познания /перевод с нем. Н.Касаткиной, И. Татариновой.- М.: Правда, 1991.-609 с.

Наргиев К. М. Лион Фейхтвангер – писатель-антифашист.- М.: Знание,1990.- 64 с.

Pərvanə Qurbanova

8 İyul

100 illiyi

Əbdüləzəl Dəmirçizadə
1909-1979

Elm xadimi

Dəmirçizadə Əbdüləzəl Məmməd oğlu 1909-cu ildə Şəki şəhərində anadan olmuşdur. Dəmirçizadə Əbdüləzəl Azərbaycan ədəbi dili tarixinə, müasir Azərbaycan dilinin fonetikasına, üslubiyyatına, etimologiyasına və dilçiliyə aid əsərlərin, orta və ali məktəb dərsliklərinin müəllifidir. Elmi kadrların hazırlanmasında xüsusi xidməti var. 25-ci Beynəlxalq Şərqşünaslıq konqresində (Moskva, 1960) məruzə etmişdir. Qırmızı Əmək Bayrağı ordeni və medallarla təltif olunmuşdur. Dəmirçizadə Əbdüləzəl "Azərbaycan ədəbi dili tarixi xülasələri" (1938), "Kitabi Dədə Qorqud" dastanlarının dili (1958-1962), "Azərbaycan dilinin üslubiyyati", "Müasir Azərbaycan dili" (1972) kitablarının müəllifidir. Görkəmli elm xadimi Ə. Dəmirçizadə 1979-cu il 10 aprel tarixində vəfat etmişdir.

Ədəbiyyat

Azərbaycan ədəbi dilinin tarixi: Ali məktəb tələbələri üçün dərslik.- B.: Maarif.- 1979.- 22 s.

Azərbaycan dili lüğət tərkibinin tarixi tədqiqinə dair Nizami adına Ədəbiyyat və Dil İnstitutunun əsərləri.-B.: Azərbaycan SSR EA. nəşr., 1957.- C. VIII.- S. 87-100.

Şahbazlı, F. Azərbaycan dilçiliyi və professor Ə. M.Dəmirçizadə.-B.: "Nurlan", 2000.- 141 s.

Xudiyev, N. Dəmirçizadə dünyası: [Professor Əbdüləzəl Dəmirçizadə haqqında] //Azərbaycan.- 2002 . - 4 sentyabr.- S. 5.

Qənbərli, H. Dəmirçizadə haqqında tədqiqat //Azərbaycan.- 2000.- 29 oktyabr.- S. 4.

Zəminə Əhmədova

İyul

9

175 illiyi

Neruda Yan
1834-1891

Çex yazıçısı

Neruda Yan 1934-cu il iyul ayının 9-da Praqa şəhərində anadan olmuşdur. Neruda Akademik gimnaziyanı qurtarmış, Praqa Universitetində oxumuş, orada fəlsəfə və hüquq fakültələrində mühazirələr dinləmişdir. Bir neçə il Praqa idarələrində işləmiş, gimnaziyada alman dilindən dərs demişdir.

Onun ilk şeirləri 50-ci illərin əvvəllərində çap olunmuşdur. "Qəbristanlıq çiçəkləri" (1857), "Şeirlər kitabı" (1868), "Kosmik nəğmələr"(1878), "Balladalar və romanslar" (1883), "Övliya cüməsi nəğmələri" (1896) və s. kitabların müəllifidir.

Vətənpərvərlik və sosial azadlıq duyğularının tərənnümü, xalq gücünə inam poeziyasının ideya məzmunudur. Nerudanın familiyasını çili şairi Pablo Neruda özünə təxəllüs seçmişdir.

O, 22 avqust 1891-ci ildə vəfat etmişdir.

Ədəbiyyat

Şeirlər: Çex poeziyası. Antologiya.- B.: Azərnəşr, 1965.- 314 s.

Yelizarova, M.Y. və b. XX əsr xarici ədəbiyyat tarixi.- B.,1964.- 494 c.

Rus dilində

Рассказы.- М.: Книга, 1984.- 470 с.

Стихотворения; Рассказы; Малостранские повести; Очерки и статьи.- М.: Худ.лит, 1975.-494 s.

Соловьева, А.П. Ян Неруда и утверждение реализма в чешской литературе.- М.: Наука, 1973.- 304 с.

Yasəmən Sadıqova

İyul

14

Azərbaycan Tarixində Əlamətdar Gün
1969

Hər bir xalqın, millətin tarixində, taleyində şəxsiyyətin yeri, həlledici rolu danılmazdır. Hər bir ölkəni, hər bir xalqı onun böyük şəxsiyyətlərinə görə tanıyırlar. Xalqın böyüklüyü bəşəriyyətə bəxş etdiyi dühalarla ölçülür. Ən ali və yüksək keyfiyyətləri özündə birləşdirən ümummilli lider Heydər Əliyev də belə şəxsiyyətlərdəndir.

Heydər Əliyev parlaq siyasi zəkası və istedadı sayəsində yeni Azərbaycanı, onun bugünkü gerçəkliklərini yaratmış və gələcəyə aparan yolları müəyyən etmişdir. Məhz buna görə də Azərbaycan tarixinin 1969-cu ildən bəri yaşanan dövrü Ulu öndərin adı ilə sıx bağlıdır və tariximizə Heydər Əliyev dövrü kimi həkk olunmuşdur. Bu illər ərzində xalqın ictimai-siyasi və mədəni həyatının bütün sahələrində dirçəliş məhz onun adı ilə əlaqədardır.

Azərbaycanın keçmiş sovetlər məkanında ön sıraya çıxmasında, onun yüksəliş və tərəqqisində 1969-1982-ci illərin özünəməxsus yeri vardır. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin (AKP MK) 1969-cu ilin iyulunda keçirilən plenumunda Heydər Əliyev AKP MK-nın birinci katibi və MK-nın büro üzvü seçilmişdir. Bununla Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü başlanmışdır. Bu dövrdən başlayaraq Ulu öndər respublikada xalq təsərrüfatına və mədəni quruculuğa rəhbərliyi əsaslı surətdə yaxşılaşdırmaq, dövlət və əmək intizamını möhkəmləndirmək, kadrların məsuliyyətini artırmaq siyasətini həyata keçirirdi. Onun bu sahədə gördüyü işlər Moskvanın diqqətini cəlb etmiş və o, 70-ci illərdə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin (Sov.İKP MK) üzvlüyünə namizəd seçilmişdir. 1976-cı ildə Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd olmuşdur. O, SSRİ Konstitusiya Komissiyasının üzvü kimi Sovet İttifaqının yeni Konstitusiyasının yaradılmasında fəal iştirak etmiş,

eyni zamanda Azərbaycan SSR-nin yeni Konstitusiyasını yaradan Komissiyanın sədri olmuşdur. Həmin Konstitusiyaya görə Azərbaycan dili Azərbaycan SSR-in dövlət dili elan edilmişdir.

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk illərdən mükəmməl iqtisadi inkişaf konsepsiyası hazırlanmış, ənənəvi təsərrüfat sahələrinin şöhrəti və səmərəliliyi bərpa edilmiş, yeni-yeni istehsal sahələrinin istiqamətlərinin əsası qoyulmuş, iqtisadiyyatın sənaye bazası genişləndirilmiş və müasirləşdirilmişdir. Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövründə (1969-1982) ictimai-iqtisadi inkişafın və milli-mədəni oyanışın bütün sahələrində sürətli inkişaf dövrü olmuşdur.

1982-ci ilin noyabrında Ümummilli Lider Sov. İKP MK-nın Siyasi büro üzvü seçilmiş, eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilmişdir. Fəaliyyətinin Moskva dövründə də Heydər Əliyev daim Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, respublikanın tanıdılmasında əlindən gələni etmişdir. 1988-ci ildən

başlayaraq Azərbaycan xalqının başına gətirilən müsibətlərə, faciələrə dözməyərək Azərbaycana-Naxçıvana qayıdan Heydər Əliyev bu gəlişi ilə blokada şəraitində yaşayan Naxçıvanı erməni təcavüzündən qorudu. 1993-cü ilin iyun ayında xalqın istəyi və tələbi ilə hakimiyyətə yenidən qayıdan Heydər Əliyev Azərbaycanın qarşısında duran çox çətin problemlərin həllinə nail oldu. Qanunsuz silahlı dəstələr və separatçı qüvvələr zərərsizləşdirildi, dövlət çevrilişlərinin qarşısı alındı, müharibədə uzunmüddətli atəşkəsə nail olundu, yeni demokratik Konstitusiya qəbul edildi, yeni neft strategiyası həyata keçirildi və Azərbaycan iqtisadiyyatı yeni inkişaf mərhələsinə qədəm qoydu.

Ümummilli lider Heydər Əliyevin düşünülmüş və uzaqgörən siyasəti bu gün möhtərəm Prezidentimiz İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində son dərəcə dəqiqliklə həyata keçirilir. Artıq günbəgün inkişaf edən ölkəmiz regionda lider dövlətə çevrilib. Əminliklə deyə bilərik ki, Heydər Əliyev siyasətinin davamçısı olan İlham Əliyev xoşbəxt gələcəyimizə doğru uzanan yolu böyük qətiyyətlə davam etdirir.

Ədəbiyyat

Əhmədov, S. Azərbaycan tarixindən yüz şəxsiyyət /Səbuhi Əhmədov; red. İ.Qasımzadə.- B.: Ayna Mətbu Evi, 2006.- 267 s.

Heydər Əliyev - istiqlala gedən yol (1969-1987-ci illər) /red. Ə. Həsənov.- B.: BUN, 2006.- 606 s.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının rəhbərliyinə gəlməsinin 36-cı il dönümünə həsr olunmuş

beynəlxalq elmi praktik konfrans.- Sumqayıt: Elm, 2005.- 375 s.

Azərbaycan tarixinin Heydər Əliyev dövrü //Fövqəladə hallar.- 2007.- 14 iyul.- S.1.

Rus dilində

Алиев, Э. Недосягаемые вершины.- Б.: Элм, 2003.- 304 с.

Ахундова, Э. Мгновения истины.- Б.: Дом сказки, 2003.- 516 с.

Гейдар Алиев: лидер, политик и друг.- 2-ое издание.- Б.: Нурлан, 2006.- 215 с.

İnternetdə

www.aliyev-museum.nakhchivan.az

www.azerbaijan.news.az

www.xalqqazeti-com

www.meclis.gov.az

www.mus.gov.az

Adilə Abdullayeva

İyul

16

75 illiyi

Rasim Əliyev
1934

Memar

Əliyev Rasim Həsən oğlu 16 iyul 1934-cü ildə Gəncə şəhərində anadan olub.

1958-ci ildə Politexnik İnstitutunun (indiki Texniki Universitet) memarlıq şöbəsini bitirmişdir.

1958-1965-ci illərdə "Azərdövlətlayihə" İnstitutunda fəaliyyət göstərmişdir. Daha sonralar Bakı şəhərinin baş memarının 1-ci müavini (1965-1974) və baş memarı (1974-1988) olmuşdur. Bakı şəhərinin "Baş planı", "İçərişəhərin" regerasiya planı layihələrinin müəllifidir. "Xalqlar dostluğu" metro stansiyası (müştərək layihə), Xırdalan mədəniyyət sarayı, Nazirlər Kabinetinin qonaq evi, Quba şəhərinin mərkəzi meydanı və burada tikilmiş 600 yerlik mədəniyyət sarayı, Naxçıvanda H.Cavidin məqbərəsinin (1996, müəllifi Ömər Eldarov), Bakıda bir sıra xatirə abidələrinin layihələrini vermişdir. O, Binə Beynəlxalq Hava Limanının (müştərək) və Azərbaycanın Türkiyədəki səfirliyi binasının layihələrinin müəllifidir.

1980-1988-ci illərdə Azərbaycan Memarlar İttifaqının katibi olub. Qırmızı Əmək Bayrağı və "Şöhrət" ordenləri ilə təltif olunmuşdur. Azərbaycan Memarlar İttifaqının vitse-prezidentidir.

Şərq ölkələri Beynəlxalq Memarlıq Akademiyasının (Bakı) həqiqi üzvü (1992), Rusiya Memarlıq Akademiyasının fəxri üzvü (1994), Azərbaycan Respublikası Dövlət mükafatı, H.Cavid adına və bir sıra mükafatların laureatıdır.

Ədəbiyyat

Naxçıvan Ensiklopediyası. - B.: Azərbaycan Milli Elmlər Akademiyası, 2002.- S. 145.

Aytən Abdullayeva

İyul

22

Milli Mətbuat və Jurnalistika Günü
1875

Azərbaycanın ictimai həyatının ən mühüm hadisələrindən biri milli mətbuatın formalaşması olmuşdur.

Ölkəmizdə milli mətbuatın bünövrəsi 1875-ci il iyulun 22-də "Əkinçi" qəzetinin ilk nömrəsinin çapdan çıxması ilə qoyuldu. Bütün Qafqazda böyük əks-səda doğuran bu qəzetin naşiri də, redaktoru da, korrektoru da Azərbaycan milli maarifçilik hərəkatının banilərindən biri, təbiətşünas alim Həsən bəy Zərdabi idi. Qəzetin ərsəyə gəlməsində M.F.Axundov, S.Ə.Şirvani, Nəcəf bəy Vəzirov, Ə.A.Gorani və başqa ziyalıların böyük xidmətləri olmuşdur.

"Əkinçi" qəzeti tərəfindən bəyan edilmiş başlıca prinsiplər-maarifləmə, müasirləşmə, ümummilli məqsədlərin təbliği, ədəbi dilin danışıq dilinə yaxınlaşdırılması, hadisələrin obyektiv işıqlandırılması Azərbaycan milli demokratik mətbuatının gələcək inkişafı üçün böyük rol oynadı. 1877-ci ildə "Əkinçi" qəzeti bağlandıqdan sonra respublikamızda cərəyan edən ictimai proseslər və gündəlik xəbərlər "Kəşkül", "Kaspi", "Şərqi-rus" qəzetində öz əksini tapmağa başladı.

1906-cı il aprelin 7-də Cəlil Məmmədquluzadənin təşəbbüsü, redaktorluğu və naşirliyi ilə həftəlik illüstrasiyalı ilk Azərbaycan satirik jurnalı "Molla Nəsrəddin" işıq üzü gördü. Həmin jurnal geriliyi, mövhumatı, müstəmləkəçilik siyasətini satira atəşinə tutur, Azərbaycan dilinin saflığı uğrunda ardıcıl mübarizə aparırdı. Azərbaycanın 1918-ci il mayın 28-də müstəqillik qazanmasında milli mətbuatın da mühüm rolu olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ümummilli platformadan çıxış edən "Azərbaycan" qəzetinin dahi Üzeyir bəy Hacıbəyov tərəfindən nəşr edilməsi, ictimai-siyasi proseslərin milli mədəniyyətin inkişafı ilə nə qədər

bağlı olduğunun ən bariz nümunəsidir.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra həyatın bir çox sahələrində olduğu kimi, mətbuatın inkişafında da dönüş yarandı və söz azadlığını təmin etmək üçün mühüm işlər həyata keçirilməyə başladı.

Azərbaycan mətbuatının sürətli inkişafı respublikamızda dünya standartlarına cavab verən müstəqil kütləvi informasiya vasitələrinin yaranmasına gətirib çıxardı.

Bu gün hüquqi, demokratik dövlət və vətəndaş cəmiyyəti qurmaq istiqamətində irəliləyən Respublikamızda 650-dən çox müxtəlif kütləvi informasiya vasitələri – qəzet, jurnal, informasiya agentlikləri fəaliyyət göstərir.

Yarandığı 134 il ərzində Azərbaycan milli mətbuatı zəngin və mənalı inkişaf yolu keçmiş, milli özünüdərkin bərqərar olmasında, vətənpərvərlik hisslərinin aşılanmasında, ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynamışdır.

Ədəbiyyat

Bəşirli, A. Azad mətbuatın çərçivəsində /elmi red: prof. Y.Mahmudov.- B., 2007.- 223 s

Əkinçi. 1875-1877 /ön sözün müəl. və red. Əziz Mirəhmədov.- B., 2005.- 495 s.

Hüseynov, Ş. Mətbu irsimizdən səhifələr.- B., 2007.- 478 s.

Sərdarov, E. Vətəndaş cəmiyyəti mətbuat aynasında .- B., 2007.- 94 s.

İsmayılov, V. Mətbuatda dövlət qayğısına görə Azərbaycan MDB məkanında öncül yer tutur //Azərbaycan.- 2005.- 26 aprel.- S. 4.

Aslanov, M. İstiqlal və istiqbal ümidi /Azərbaycan qəzetinin nəşr tarixi haqqında //Azərbaycan.- 2007.- 17 may.- S. 5.

Hüseynov, Ş. Bir əsrlik məsafə - nə dəyişib, nə qalıb? /“Molla Nəsrəddin”-100 //Günay.- 2006. - 1 aprel.- S. 4.

Məmməd Məmmədov

İyul

21

110 illiyi

Ernest Heminquey 1899-1961

Amerika yazıçısı

Ernest Miller Hemunquey 1899-cu il iyulun 21-də Çikaqo yaxınlığında İllinoy ştatındakı kiçik qəsəbədə, Oyk Parkda anadan olub. Amerika yazıçısı, Nobel mükafatı laureatıdır. Məktəbi bitirdikdən sonra (1917) Kanzas–Star qəzetində reportyor işləmişdir. Jurnalistlik fəaliyyəti Heminqueyin yazıçı kimi formalaşmasında mühüm rol oynamışdır. 1939-cu ildən Kubada yaşamış, Kuba inqilabını rəğbətlə qarşılamışdır. Havana yaxınlığındakı San-Fransisko de Paula adlanan yerdəki evi ölümündən sonra xatirə muzeyinə çevrilmişdir, əsərləri dünyanın bir cox dillərinə tərcümə olunmuş, ekranlaşdırılmışdır.

Sağalmaz xəstəlikdən ağır ruhi böhran kecirmiş Heminquey 1961-ci il iyulun 2-də Aydaho ştatındakı Ketçemdə intihar etmişdir.

Ədəbiyyat

Əlvida silah: Roman /tərc. ed. H.Hacıyev.-B.: Azərnəşr,1986.- 264 s.

Əcəl zəngi: Roman /tərc. ed. H.Hacıyev.-B.: Yazıçı, 1986.- 431 s.

Ernest Heminquey tarixə realist baxış.-B., 2005.- 285 s.

Rus dilində

Собрание сочинений: В 4-х т.- Т.1.-Рассказы; Очерки; Фиеста; И восходит солнце /вступ. статья Б.Грибанова.- М.: Худож. лит., 1981.-671 с.

Старик и море. Повесть-притча /пер.с англ. Е. Голшевой и Б.Изакова.- М.: Мартин, 2005.-126 с.

Rəna Orucəliyeva

23 İyul

Ağdam

Ərazisi – 1154 km²
Əhalisinin sayı – 153154
İnzibati mərkəzi – AĞDAM
İşğal tarii i– 23 iyul 1993

Ağdamın igid oğullarını birləşdirən özünümüdafiə dəstələri düşmənin hücumlarının qarşısında mətanətlə dayanmış, yüzlərlə vətənpərvər öz torpağı uğrunda şəhid olmuşdur. Lakin ölkənin keçmiş rəhbərlərinin laqeydliyi, xəyanəti, səriştəsizliyi üzündən Ermənistan silahlı qüvvələri əlverişli döyüş mövqelərini ələ keçirmiş və beləliklə, Ağdam rayonunun bir hissəsi 1993-cü il iyulun 23-də düşmən tərəfindən işğal olunmuşdur.

Heydər Əliyev, ümummilli lider

Ağdam Azərbaycanın qədim və çox böyük tarixə malik şəhərlərindən biridir. Respublikamızın həyatında Ağdam rayonu həm iqtisadi, elmi potensialına, həm də insanların fədakarlığına görə həmişə çox mühüm rol oynamışdır. Bir qədər Ağdam rayonunun coğrafi mövqeyinə nəzər salaq: Respublikanın ən inkişaf etmiş, güclü sənayesi və kənd təsərrüfatı, böyük iqtisadi potensialı olan rayonlarından idi Ağdam. Rayonda 134 kənd, 36 kolxoz və sovxoz, 12 sənaye, 196 mədəni-maarif, 158 səhiyyə obyekti, 103 məktəb var idi. Dəniz səviyyəsindən yüksəkliyi 410 metr, maksimum yüksəkliyi 1365 metrdir. İqlimi, əsasən, mülayim isti, quraq subtropikdir. Dağətəyi yerlərdə yüksəklik artdıqca iqlim mülayim-

ləşir. Ən çox yağıntı dağətəyi sahələrə düşür. İllik yağıntı 300-500 mm-dir. Rayonun ərazisindən Qarqar və Xaçın çayları axır. Ağdam rayonunda çoxlu sayda tariximizin şahidi olan memarlıq abidələri var. Ağdam şəhərinin şimal-qərbində Xındırıstan kəndində yerləşən Üzərlik təpə abidəsi, Xaçındərbənd kəndindəki Qutlu Musa oğlu günbəzi (1314-cü il), Salahlı-Kəngərli kəndindəki türbə və daş abidələri (XIV əsr), Papravənd kəndindəki Xanoğlu türbəsi (XVII əsr), türbələr və məscid (XVIII əsr), Qarabağ xanı Pənahəli və onun nəslinin Ağdam şəhərindəki imarəti (XVIII əsr), Şahbulaq qalası və s. memarlıq abidələri bu yurdun qədim Azərbaycan torpağı olduğunu təsdiq edir. Tariximizin sirdaşı, ev ünvanı olan bu abidələr Ağdamın keçmişinin qaranlıqlarına işıq saçaraq dünənindən bu gününə soraq verir. 1930-cu ildə Ağdam inzibati rayonu təşkil olunmuşdur. Ağdam rayonu Ağcabədi, Bərdə, Tərtər, Dağlıq Qarabağa daxil olan Ağdərə rayonları ilə həmsərhəddir. Rayonun mərkəzi olan Ağdam Bakıdan 358 kilometr, Qarqar çayının sahilindən 3 kilometr aralı, Qarabağ düzünün cənub-qərbindədir. Ağdam ağır, yeyinti və yüngül sənayeyə, inkişaf etmiş kənd təsərrüfatına malik olan rayondur. Ağdamda dəzgah avadanlıqları, aerokosmik və rabitə cihazları, metiz-furnitur, traktor və avtomobil təmiri, konserv, tikinti materialları zavodu, ət kombinatları, iki dəmir yolu vağzalı və aeroport, kənd təsərrüfatının mexanikləşdirilməsi və elektrikləşdirilməsi zavodu, Ü. Hacıbəyov adına Musiqi Texnikumu və Ə.Haqverdiyev adına Ağdam Dövlət Dram Teatrı fəaliyyət göstərirdi. Rayon ərazisinin 1700 hektarı meşəlik, 91,3 hektarı isə kənd təsərrüfatına yararlı torpaqlardan ibarət idi. Kənd təsərrüfatının istiqaməti isə əsasən pambıqçılıq, üzümçülük və heyvandarlıqdır. Çox təəssüf ki, biz bu haqda keçmiş zamanda danışmalı oluruq. Heydər Əliyevin hələ 70-ci illərdəki uğurlu fəaliyyəti Ağdamın dirçəliş illəri kimi yaddaşlarda idi. Ermənilәşən Qarabağı millətləşdirən, oraya millət qayğısını artıran, kadr potensialını azərbaycanlaşdıran Heydər Əliyev Ağdama daim xüsusi diqqət göstərmişdir. 70-80-ci illərdə iri aqrar, sənaye, təsərrüfat rayonuna çevrilən, bölgənin iqtisadi mərkəzi olan, əhalinin rifahı daim yüksələn Ağdam məhz Heydər Əliyevin məqsədyönlü siyasəti nəticəsində 90-cı illərin əvvəllərində özünü Qarabağın məğrur qalası kimi göstərdi. 1993-cü ilin iyununda erməni təcavüzkarları Azərbaycanda baş vermiş siyasi böhrandan istifadə edərək yeni hücum əməliyyatına başladı. Ermənistanın işğalçı qüvvələri Ağdam rayonunun Qarqarçayı, Saybalı kəndinə qədər ərazini işğal etdi.

23 iyul, 1993-cü il, saat 17 radələri. Bu, Ağdamın işğala məruz qaldığı qara tarixdir. Bakı qazan kimi qaynayırdı. Qarabağın üstünə «qrad» lar, “alazan”lar dolu kimi yağırdı. Sakinlər arasında dünyalarını dəyişənlərin sayı günbəgün artırdı. Yaşayanlara isə qorxu, səksəkə, xof qənim kəsilmişdir. Bir tərəfdən də

Ağdam torpaqlarımızı canlarından artıq sevənləri müəmmalı şəkildə qətlə yetirirdilər. Ağdam kökü baltalanan azman ağac kimi laxlayırdı. Sakinlər əsir-yesir olmuşdular. Ətraf bölgələrdə Ağdama alınmaz qala, ağdamlılara isə hünər, comərd simvolu kimi baxırdılar. Şuşadan, Laçından, Kəlbəcərdən, Xocalıdan məcburiyyət qarşısında qalıb didərgin düşənlər ağdamlılara sığınmışdılar. Bu ünvanda məskunlaşmışdılar. Bəs indi onların özləri hara üz tutsunlar, kimə pənah gətirsinlər. Ağdam şam kimi yanır, gilə-gilə əriyirdi. Onu tənha, köməksiz görən gavurlar daha da quduzlaşırdılar. Cəbhə yerli özünümüdafiə batalyonlarının ümidinə qalmışdı. Düşmən sürətlə irəliləyirdi. Malıbəyli kəndində güclü döyüşlər gedirdi. "Fred" ləqəbli Asif Məhərrəmovun müdafiə batalyonlarının döyüşçüləri iyulun 22-23-də bütün günü və gecəni düşmənlə əlbəyaxa döyüşdülər. Lakin kömək gəlmədiyi üçün geri çəkildilər. İyulun 23-də 43 gün düşmənə sinə gərmiş Ağdam şəhəri süqut etdi. Yağı düşmən evlərə od vurur, mədəniyyət abidələrini dağıdır, insanların əmlaklarını qarət edir, şəhəri tərk edə bilməyən dinc əhaliyə amansız divan tuturdu. Ağdam rayonunun 1094 km^2 ərazisi hakimiyyət uğrunda gedən siyasi didişmələrin, təxribat və xəyanətlərin qurbanı oldu. Ağdam vuruşmuşdur, döyüşmüşdür, böyük itkilər vermişdir. Ağdamın işğalından 16 il ötür. Hər belə ildönümündə dönə-dönə xatırlanan, işğalının səbəbləri araşdırılan Ağdamın itkisi ilə barışmaq nə qədər çətin olsa da, bu acı gerçəklik və keçmişin qaranlıq səhifələri aydınlaşdırmağı tələb edən zərurətdir. Qarabağ münaqişəsi başlayanda, eləcə də bu, müharibə mərhələsinə qədəm qoyanda ermənilər ən çox Ağdamdan və ağdamlılardan çəkinirdilər. Bu münasibətin çoxəsrlik tarixi vardı. Hələ ötən əsrin əvvəllərindən etibarən dəfələrlə baş qaldıran erməni qiyamçılarının qarşısı həmişə Ağdam cəbhəsi tərəfindən alınmış, Ağdam daim ermənilərin qorxu obyekti olmuşdur. Ağdam tək özünü yox, Qarabağın digər rayonlarını da müdafiə etmək gücündə idi. Lakin Ağdam nə qədər ləyaqətlə döyüşsə də, müdafiə olunsa da, işğal taleyindən yan keçə bilmədi. Şübhəsiz ki, Ağdamın işğalı erməni təcavüzünün nəticəsi idi. Ağdam əhalisi baş verən bu proseslərin rayonun itkisi ilə nəticələnəcəyini anlayırdı. Ağdam indi ərazisinin 20 faizinə sığınıb, 1094 km^2 ərazisinin 247 km^2–də (ümumi ərazisinin 22,6 %) Ağdamın 60 min sakini məskunlaşıb. Qalan 100 min nəfər isə respublikanın 58 rayonunda müvəqqəti sığınacaq tapıb. İşğal nəticəsində Ağdamın rayon mərkəzi ilə birlikdə 90 kəndi, 10 kolxozu, 2 sənaye, 100-dən artıq mədəni-maarif, bir o qədər də səhiyyə obyekti düşmən əlinə keçib. Ağdamın işğalından xeyli əvvəl rayonun ətrafındakı bütün strateji nöqtələr yüksəkliklər ermənilər tərəfindən zəbt olunmuşdu. Bu, şəhərin işğalını qaçılmaz edirdi. Vətən uğrunda gedən savaşda 6 mindən artıq ağdamlı şəhidlik zirvəsinə yüksəldi, minlərlə insan fiziki şikəstlik qazanmış, 126 min nəfərdən artıq ağ-

damlı öz doğma ev-eşiyindən didərgin düş-müşdür. Azərbaycanın cə-sarət rəmzi, Qarabağın mübarizlik istinadgahı olan Ağdam indi düşmən nəzarətində olsa da, hamı əmindir ki, bu uğurlu hal tezliklə bitəcək. Ölkənin müxtəlif güşələrində məskunlaşaraq Ağdam qubarını qəlbində həsrətə çevirənlərin bir istəyi, tə-mənnası var: tez bir za-man ərzində doğma yurda qayıtmaq! Heç kəs unut-mamalıdır ki, bizim qar-şımızda müqəddəs vəzifə var: Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, işğal olunmuş torpaq-larımızı azad etmək və həmin torpaqlardan didər-gin düşmüş soydaşları-mızı öz yerinə-yurduna qaytarmaq, Ağdamın bü-tün ərazilərinə yenidən qayıtmaq. Bu bizim ali məqsədimizdir. Hər bir ağdamlı əmindir ki, onun müqəddəs ziyarətgahı, də-yişməz qibləgahı olan, bu gün azan səsinə həsrət qalmış məscidimiz, musi-qi səslərinə möhtac qal-mış bərli-bərəkətli torpaq-larımız, ata-babalarımızın uyuduqları məzarıstanlıq-larımız tezliklə azad edi-ləcək. Ötən nəsillərin qızıl əlləri ilə qurub-yarat-dıqları Ağdam şəhərində, kəndlərimizdə, hər bir divarın daşında ata və babalarımızın alın təri, qeyrəti, odlu nəfəsi, nə-nələrimizin əməyi, hünəri var. Qurub-yaratmağı öz-lərinin həyat amalı, məsləki etmiş neçə-neçə ötən nəslimiz gələcək nəsillərə ürək sözləri kimi ağ şəhərimizi - Ağdamı ucaltmışdılar. Ağdamlılar inanırlar ki, Avropada, Amerikada və digər qitə-lərdə onların haqlarını qo-ruyan, problemlərini qal-dıran və bununla da erməni təcəvüzünü ifşa edən İlham Əliyev bu fəaliyyətinin davamı ola-raq Ağdama da qələbə bayrağı sancacaq! Ağ-damlılar əmindir ki, 70-ci illərdə "Lider rayon"sta-tusunu qazanan Ağdam Heydər Əliyevin qurduğu yeni Azərbaycanda da öz əzəmətini bərqərar edə-cək! Hamı işğal gününün qələbə gününə çevri-ləcəyini həsrətlə gözləyir …Ağdamın qara günləri bitəcək, adından həmişə qürur, iftixar duyduğumuz şəhərimizin ağ günləri başlayacaq, onun başının üstündəki qara buludlar çəkiləcək. O gün uzaqda deyil.

Ədəbiyyat

Ağdamım qibləgahım.-B.: Şuşa, 2001.- 648 s.

Tapdıqoğlu, N. Ağdam rayonu və onun toponi-miyası.- B.: Təhsil, 2006.- 444 s.

İnternetdə

http://www.azadqarabag.azerall.

www.anl.az.

Aynur Qəmbərova

1 avqust
Gün çıxır
04:49
Gün batır
20:56
31 avqust
Gün çıxır
05:31
Gün batır
20:15

Avqust

22 iyul-
23 avqust

Şirin Nişanəsi oddur. Ulduzlar padşahı olan Günəşin himayəsindədir. Günəşin şir bürcündən keçdiyi dövrdə doğulanlar hökmlü və daxili aləmləri zəngin olur.

2009

Əlamətdar və tarixi günlər

1. *Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü*
5. *Hərbi Donanma Günü*
12. *Beynəlxalq Gənclər Günü*
14. *I Dünya müharibəsinin başlanmasının 95 illiyi*
23. *Cəbrayıl rayonunun işğal günü*
23. *Füzuli rayonunun işğal günü*
31. *Qubadlı rayonunun işğal günü*

Ş	1
B	**2**
Be	3
Ça	4
Ç	5
Ca	6
C	7
Ş	8
B	**9**
Be	10
Ça	11
Ç	12
Ca	13
C	14
Ş	15
B	**16**
Be	17
Ça	18
Ç	19
Ca	20
C	21
Ş	22
B	**23**
Be	24
Ça	25
Ç	26
Ca	27
C	28
Ş	29
B	**30**
Be	31

Cəbrayıl, Füzuli və Qubadlının işğal günü

Cəbrayıl



Füzuli



Qubadlı

Cəbrayıl, Füzuli və Qubadlı 1993-cü ildə erməni quldur dəstələri tərəfindən işğal olunub.

Fəqət saysız-hesabsız abidələr, mağaralar, qalaların, bürclərin, məbədlərin qalıqları tarixin daş dili ilə pıçıldayır ki, burada insanlar min illər boyu ömür sürmüşlər. Füzuli... Yer üzünün ilk insan məskənlərindən sayılan Azıx Füzulidədir. Quruçay mədəniyyət abidələri əsrlərin sirrini açır, eyni zamanda çox-çox sirləri də gizlədir. Türbələr, karvansaralar, qəsr, qala və hasar izləri bu gün də yaşamaqdadır. Hazırda rayonun işğal olunmamış 22 kəndində 50 min nəfərə yaxın əhali yaşayır.

Bir yanında Bərgüşad çağlayır, bir yanında Həkəri. Çaylar boyu ellər, obalar, ağban evlər... Bu yerlərdə Qaçaq Nəbi at oynatdı, Həcər sədaqəti igidlərə ürək verdi. Qubadlı - Azərbaycanın mərdlər, igidlər yurdu olub.

Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü (01.08. 2001)

Azərbaycan Kinosu Günü (02.08.1898-18.12.2000)

Ədəbiyyatşünas, tənqidçi Bağırov Bağır İbrahimxəlil oğlunun (01.08.1929) anadan olmasının 80 illiyi

N.Nərimanovun Bakıda ilk ictimai kitabxana- qiraətxana açmasının (01.08.1894) 115 illiyi

Fransız təbiətşünası Lamark jan Batist Pyer Antuan de Monenin (01.08.1744-18.12.1829) anadan olmasının 265 illiyi

Ədəbiyyatşünas, professor Məmmədov Xeyrulla Qulam oğlunun (01.08.1934) anadan olmasının 75 illiyi

Azərbaycanın Milli Qəhrəmanı Novruzov Ələsgər Xanlar oğlunun (01.08.1949-26.02.1992) anadan olmasının 60 illiyi

Şair Qoşqarlı Oruc Hüseyn oğlunun (04.08.1909-25.11.1989) anadan olmasının 100 illiyi

Ədəbiyyatşünas Vahabzadə İsfəndiyar Bəxtiyar oğlunun (05.08.1954) anadan olmasının 55 illiyi

Hərbi Donanma Günü (05.08.1992)

Rus boyakarı və qrafiki Repin İlya Yefimoviçin (05.08.1844-29.09.1930) anadan olmasının 165 illiyi

Azərbaycanın Milli Qəhrəmanı Həsənov Məhəmməd Ələsgər oğlunun (09.08.1959-14.06.1992) anadan olmasının 50 illiyi

"Qızıl Qələm" mükafatı laureatı, şair Yusifov Zəki İslam oğlunun (10.08.1939) anadan olmasının 70 illiyi

Beynəlxalq Gənclər Günü (12 avqust)

Yazıçı, dramaturq, "Qızıl qələm" mükafatı laureatı Fərzəliyev Şamil Xurşud oğlunun (Şamil Xurşud) (14.08.1934) anadan olmasının 75 illiyi

I Dünya müharibəsinin (14.08.1914) başlanmasının 95 illiyi

Biologiya elmləri doktoru Əsgərova Roza Qasım qızının anadan olmasının (15.08.1929) 80 illiyi

Fransa dövlət xadimi və sərkərdə Napoleon Bonapartın (Napoleon I) (15.08.1769-05.05.1821) anadan olmasının 240 illiyi

Cəbrayıl rayonunun işğal (23.08. 1993) günü

Füzuli rayonunun işğal (23.08. 1993) günü

Xüsusi Dövlət Mühafizə xidməti əməkdaşlarının peşə bayramı günü (23.08.2008)

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin (26.08.1949) anadan olmasının 60 illiyi

Alman şairi Höte İohann Volfqanqın (28.08.1749-22.03.1832) anadan olmasının 260 illiyi

Qubadlı rayonunun işğal (31.08.1993) günü

1 Avqust

Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü

2001

Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm.

Heydər Əliyev, ümummilli lider

Ana dilinin saflığı uğrunda bütün dövrlərdə mübarizə aparılıb. Doğma dilimizin mühafizəsi ilə əlaqədar şair və yazıçılarımız, ədəbiyyatşünaslarımız əllərindən gələni əsirgəməyiblər. İlk dəfə Şah İsmayıl Xətai tərəfindən dövlət dili elan edilən Azərbaycan dilinin türk dünyasında özünəməxsus yeri olub. Türkoloqlar, müxtəlif dilçilər həmişə etiraf ediblər ki, Azərbaycan dilində başqa dillərdə olmayan zənginlik vardır.

Azərbaycan dilinin kökləri eramızdan əvvəl I minilliyə - manna, maday, kas və alban dillərinə gedib çıxır.

Azərbaycan dilçiliyinin tarixi XI əsrdən, daha doğrusu, Mahmud Qaşqarinin məşhur əsərindən başlanır. Onun "Kitabi-Divani lüğat-üt-Türk" kitabı türkologiya sahəsində, o cümlədən Azərbaycan dilçiliyi tarixində ilk sənəd və ilk mənbə hesab edilir. Mahmud Qaşqaridə dilimizin xüsusiyyətləri haqqında çox maraqlı və qüvvətli fikirlər vardır. Bu əsər dilçiliyimiz üçün çox böyük əhəmiyyətə malikdir.

Azərbaycan dilinin düzgün inkişaf yoluna düşməsində dövlətimizin qayğısını, yaxın köməyini və himayəçiliyini xüsusi olaraq qeyd etmək lazımdır.

Ulu öndər Heydər Əliyev aktiv siyasi fəaliyyətdə olduğu ömrünün əsas hissəsini Azərbaycana, rəhbərliyə sərf etdiyi otuz ilə yaxın bir dövrdə milli mədəniyyətimizin inkişafında, elm və incəsənət xadimlərinin yaradıcılığının çiçəklən-

məsində əvəzsiz rol oynamışdır. H.Əliyevin mənsub olduğu xalqın və uzun zaman rəhbərlik etdiyi, möhkəmləndirdiyi dövlətin dili - Azərbaycan dili haqqında fikirləri əvəzsiz olmuşdur.

Böyük mütəfəkkir-dövlət xadimi H.Əliyev Azərbaycan dilinin bir dövlət dili səviyyəsinə yüksəlməsinə çalışmaqla yanaşı, məsələnin həllinin elmi-nəzəri prinsipləri, yolları barədə də düşünmüşdur. O, ana dilimizin mənşəyini, tarixi inkişafını, bugünkü funksional xüsusiyyətlərinin araşdırılması işinə həmişə diqqət yetirmiş, Azərbaycan dilçilərinin bu sahədə intensiv çalışmaları üçün dövlət başçısı kimi əlindən gələni əsirgəməmişdir.

"Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanun və bu Qanunun respublikamızda tətbiq edilməsi barədə 2 yanvar 2003-cü il tarixində Prezident tərəfindən Fərman imzalanmışdır. Beləliklə, ilk növbədə Konstitusiyamıza uyğun olaraq Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusu təsdiqlənmişdir.

Azərbaycan Respublikasının müstəqil bir dövlət kimi demokratiya mərhələsinə başladığı dövrdə Azərbaycan xalqının dil və əlifba sahəsində çətinlikləri pillə-pillə aradan qaldırıldı.

Xalqımız 1929-1939-cu illərdə işlətdiyi latın qrafikalı Azərbaycan əlifbasına qayıtdı. Azərbaycan dili yazısının latın dilli qrafikaya qayıtması xalqımızın dünya sivilizasiyasına qovuşmasında bəşər mədəniyyətinin xəzinəsinə daha yaxın olmasına ciddi təsir göstərdi.

Yuxarıda qeyd edildiyi kimi, respublikamızda dövlət dili ilə bağlı müxtəlif dövrlərdə qərarlar çıxarılmış və fərmanlar verilmişdir. 1919-1920-ci illərdə Azərbaycan Cümhuriyyəti dilimizi öz ənənəvi adı ilə dövlət dili kimi işlətmişdi. 1930-cu illərə qədər dövlət dili yenə türk dili adlandırılmışdı. 1936-cı ildən dövlət dili Azərbaycan dili adı ilə işlənməyə başlamışdır. Lakin onun dövlət dili kimi işlənməsi formal səciyyə daşımış, rəsmən dövlət dili sayılsa da, əslən dövlət idarələrində məhdud şəkildə işlədilmişdir. Müstəqil Azərbaycan Respublikası yarananda sonra, təbii ki, dil haqqında yeni qanun verilməli idi. 1992-ci ilin 22 dekabrında verilən Fərmanla Azərbaycan Respublikasının dövlət dili öz əski adında, türk dili adlandırıldı. 1995-ci il 12 noyabrda qəbul edilmiş Konstitusiyada isə Azərbaycan dili adlandırıldı. 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında", 2001-ci il avqust ayının 9-da "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Fərmanlar verildi. Daha sonra 2002-ci il sentyabr ayının 30-da 3 fəsil 20 maddədən ibarət "Dövlət dili haqqında" Qanun qəbul edildi. 2003-cü ilin yanvarın 2-də isə "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Fərman imzalandı. İndi Azərbaycan dili Sovet hakimiyyəti illərindəki kimi yox, həqiqi mənada müstəqil dövlət dilidir. Bu gün Azərbaycan Respublikası müstəqil, suveren dövlətdir və təbii ki, onun dövlət dili haqqındakı qanunu da realdır.

Azərbaycan dili Azərbaycanda millətlərarası ünsiyyət vasitəsidir.

Ulu öndər Heydər Əliyev çox vacib, aktual olan məsələni bir qədər də konkretləşdirərək demişdir: "Xarici dil bilmək, əlbəttə ки, lazımdır, vacibdir. Mən bir daha arzu edirəm ки, vətəndaşlarımız ingilis dilini də, rus dilini də, fransız dilini də, alman dilini də, türk dilini də, ərəb dilini də, fars dilini də, hətta Çin dilini də bilsinlər. Gənclərimiz nə qədər çox dil bilsələr bir o qədər zəngin dünyagörüşünə malik olacaqlar. Bu müasir dünyanın tələbləridir. Amma ən əsası ondan ibarətdir ki, hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini - Azərbaycan dilini, dövlət dilini mükəmməl bilməlidir. Gənclərə tövsiyə edirəm ки, əgər kiminsə bu barədə çatışmazlığı varsa, çalışsın, bunu aradan qaldırsın. Xarici ölkələrdə təhsil alarkən, həmin ölkənin dilini öyrənərkən öz dilinizi heç vaxt unutmayın və öz ana dilinizi heç bir başqa dilə dəyişməyin. Xalqın, millətin, insanın öz ana dilindən əziz heç bir şeyi ola bilməz".

Xalqın əlifbasını tərtib etmək, onu min illər üçün stabilləşdirmək, ən zəruri məsələlərdən biridir. Yaranmış ictimai-siyasi hadisələrlə əlaqədar yeni əlifbanın bərpası dövründə keçirilmiş ümumxalq müzakirələrinin nəticələri göstərdi ki, xalqımız dilimizin latın qrafikalı əlifbasının bərpasını tələb edir. Çünki həqiqət ondan ibarətdir ki, latın əlifbası türk sistemli dillərin, o cümlədən Azərbaycan dilinin fonetik təbiətini tam əhatə edir, sait səsləri bildirmək üçün müvafiq hərflər və işarələri özündə cəmləşdirir.

Mətbuatda, ekranlarda, idarə və müəssisələrdə ünvan, bildiriş və reklam sahəsində çox yazılar bu əlifba əsasında aparılır. Bu əlifbanın son variantı Azərbaycan Ali Sovetinin Milli şurasında geniş müzakirə edilib, qərar qəbul olunub, Prezidentin fərmanı ilə qüvvəyə minmişdir.

Bu fərman əsasında elm və təhsil ocaqlarında, o cümlədən klub və kitabxanalarda yeni latın qrafikalı Azərbaycan əlifbasına keçmək üçün əsaslı tədbir və proqramlar hazırlanmışdır. Keçmiş Dövlət Mətbuat Komitəsi və Xalq Təhsili Nazirliyi tərəfindən yeni dərslik və dərs vəsaitləri nəşr olunmuşdur.

Ədəbiyyat

Azərbaycan əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Fərmanı //Azərbaycan.-2001.-10 avqust.- S.4.

Azərbaycan Respublikasında "Dövlət Dili haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə: Azərbaycan Respublikası Prezidentinin Fərmanı //Azərbaycan.- 2003.- 4 yanvar.-S.1.

13 avqust 2001-ci ildə ümummilli liderimiz Heydər Əliyevin milli-mənəvi dəyərlərin qorunması və sosial ədalət haqqında Bəyanatı //Azərbaycan.- 2004.- 13 avqust.- S.2.

2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısı-

nın təsdiq edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı //Azərbaycan.-2004.- 28 dekabr.- S.1.

Azərbaycan dilinin fonetikası.- B.: Maarif, 1984.-391s.
Dil və ədəbiyyat: 2 C-də. - B.: Gənclik, 2003.-C.I.-658 s.; C.II.-436 s.
Əlifba təliminin təşkilinə dair metodik göstərişlər : İzahlı planlaşdırma.-B., 1996.- S. 62.
Qurbanov, A. Müasir Azərbaycan dili.- B.: Nurlan, 2003.-S.449.
Qurbanov, A. Ümumi dilçilik: 2-C-də. Dərslik .- B.: Nurlan, 2004.- C.I - 2004.- 747 s.; C.II-2004.-531 s.
Rüstəmov, T.Z. Əski əlifba.- B., 1996. - S.71.

Axundov, A. Prezident fərmanından bir il ötür: Dilimizə dövlət qayğısı //Azərbaycan.-2002.-21 iyun.-S.1-2.
Elcanlı, S. Yaddaş enerjisinin xilaskar gücü: Azərbaycan dili haqqında //Azərbaycan.-2002.-7 dekabr.- S.5-6.
Əlibəyzadə, E. Azərbaycan xalqı və onun dilinin soy kökü-mənşəyi, problemi //Yeni Azərbaycan.-2002.-11yanvar.-S.16.
Niftəliyev, E. Milli varlığın ilk atributu: 21 fevral - Beynəlxalq Ana Dili Günüdür //Azərbaycan.-2005.-20 fevral.- S.3
Vəliyev, A. Dilimizin saflığını qorumaq hamımızın borcudur //Azərbaycan.-2001.- 22 sentyabr.- S.5.

Rus dilində

Закон Азербайджанской Республики о Государственном языке в Азербайджанской Республике //Баку.-2003.-4 января.-С.1.
Указ Президента Азербайджанской Республики. О внесении изменения Указа Президента Азербайджанской Республики № 835 от 2 января 2003 года «О применении Закона Азербайджанской Республики о Государственном языке в Азербайджанской Республике» //Бакинский рабочий.-2004.-13 августа.-С.1.
Указ Президента Азербайджанской Республики об учреждении Дня Азербайджанского алфавита и Азербайджанского языка //Бакинский рабочий.-2001.-10 августа.-С.1.
Распоряжение Президента Азербайджанской Республики об утверждении списка произведений, издание которых планируется на Азербайджанском языке латинской графикой в 2005-2006 годах //Бакинский рабочий.-2004.-28 декабря.- С.1.
Исламов, М.И. Значение диалектных данных для изучения истории азербайджанского языка //Туркология.-2004.-№1.- С.55-60

Samirə Eminova

Avqust

1

115 illiyi

Bakıda ilk ictimai kitabxana - qiraətxana 1894

XIX əsrin axırlarında Azərbaycanda kitabxana işi tarixində mühüm hadisə baş verdi. 1894-cü ildə Bakıda görkəmli yazıçı, ictimai və dövlət xadimi Nəriman Nərimanov ilk ümum açıq milli Azərbaycan kitabxana-qiraətxanasının əsasını qoydu. Bu Azərbaycan xalqının mədəni və ictimai həyatında görkəmli hadisələrdən biri idi.

1891-ci ildə Bakıya gəlib müəllimlik edən N.Nərimanov xalqın zülm və əsarət altında yaşamasını və onu bu zülmdən xilas etmək yolunu maarifdə görürdü. Milli xalq kitabxana-qiraətxanası yaratmaq fikrinə düşən Nəriman Nərimanov görkəmli ziyalılardan S.M. Qənizadə, H.Mahmudbəyov, S.Vəlibəyov, Ə. Axundov, Ə.Cəfərzadənin yaxından köməyi ilə Xaqaninin, Nizaminin, Füzulinin, Sədinin, Hafizin, Firdovsinin, A.Bakıxanovun, M.F.Axundovun, M.P.Vaqifin, Q.Zakirin, S. Ə.Şirvaninin və b. əsərlərini, həmçinin jurnal və qəzet komplektlərini toplamağa başladı. Kitabxana-qiraətxananı açmaq üçün müəyyən hazırlıq işi görüldükdən sonra, Bakı qubernatorunun icazəsi ilə 1894-cü il, avqustun 1-də kitabxana-qiraətxana fəaliyyətə başladı.

O dövrdə kitabxana-qiraətxananı lazımi ədəbiyyatla təmin etmək olduqca çətin idi. Bir tərəfdən Bakıda qəzet və kitab nəşrinin az olması və mütərəqqi qəzet və kitabların yoxluğu, digər tərəfdən də lazımi maddi vəsaitin olmaması kitabxananın təkmilləşməsi işini çətinləşdirirdi. Tez bir müddətdə Nərimanov Hindistan, Misir, Bolqarıstan, Türkiyə, İran və başqa ölkələrin nəşriyyatları və Rusiyanın bir çox şəhərləri ilə əlaqə yaratmağa müvəffəq oldu. Qəzet və kitabların çoxu milyonçu H.Z.Tağıyevin hesabına alınırdı.

Qiraətxanaya giriş haqqı 2 qəpik idi. Oxucuların suallarına tez və vaxtında cavab vermək üçün kataloq düzəldilmişdi. Kitabxanaçı-qiraətxanaçı vəzifəsində Nərimanovun ən yaxın silahdaşlarından olan, öz işini sevən Əlisgəndər Cəfərov işləyirdi. Kitabxana-qiraətxananın fəaliyyətə başladığı ilk vaxtlar bir ay ərzində kitabxanaya 710 nəfər oxu-

cu gəlmiş, bunlardan 151 nəfəri azərbaycanlı, digər qismi isə müxtəlif millətlərin nümayəndələri idi. Bu da o zaman Zaqafqaziya kitabxanalarının heç birinin malik olmadığı bir rəqəm idi.

Kitabxana təkcə qəzet, jurnal, kitab verməklə kifayətlənmir, həm də geniş kütləvi iş aparırdı. Kitabxananın yanında gənc ədəbiyyat həvəskarlarının, gənc aktyorların dərnəkləri təşkil edilmişdi. Dərnəklərdə həm bədii əsərlər oxunub müzakirə edilmiş, həm də Azərbaycanın teatr mədəniyyəti tarixində xüsusi rol oynamış bir neçə əsər tamaşaya qoyulmuşdu. Tamaşalardan toplanılan pullar qiraətxanaya verilmişdi. Dərnəklərin fəaliyyətində N.Nərimanov yaxından iştirak etmişdi.

Bu xeyirxah və mütərəqqi iş heç də hamı tərəfindən rəğbətlə qarşılanmırdı. Zəhmətkeş xalq kütlələrinin gözünün açılmasından qorxuya düşən çar məmurları, burjua ziyalıları, ruhanilər, köhnə fikirli adamlar bu gözəl mədəni-maarif müəssisəsinə qarşı mübarizəyə başladılar. Çox ağır şəraitdə cəmi 4 il fəaliyyət göstərdikdən sonra gözəl mədəni-maarif müəssisəsi olan kitabxana-qiraətxana 1898-ci ildə çar hökuməti tərəfindən bağlandı.

Nəriman Nərimanovun ilk ümum açıq milli kitabxana-qiraətxanası çox az bir müddətdə fəaliyyət göstərməsinə baxmayaraq, ölkənin mədəni inkişafında, Azərbaycan xalqının milli şüurunun yüksəlməsində, təhsil və tərbiyəsində çox mühüm rol oynamışdı.

Ədəbiyyat

Xələfov, A.Nəriman Nərimanovun ilk ümum açıq milli kitabxana-qiraətxanası /A.Xələfov Azərbaycanda kitabxana işinin tarixi: Dərslik.-2 hissədə.-H.I.- B.: BUN, 2004.-328 s.

İnternetdə

www.azeriart.net
www.azerilobbi.com
www.google.az

Adilə Abdullayeva

Avqust

1

265 illiyi

Jan Batist Lamark Pyer Antuan De Mone 1744-1829

Fransız təbiətşünası

Lamark Jan Batist Pyer Antuan De Mone 1 avqust 1744-cü ildə Pikardiya vilayətinin Bazanten adlanan kicik bir kəndində anadan olmuşdur. Fransız təbiətşünası, ilk və tam təkamül nəzəriyyəsinin yaradıcısıdır. 1783-cü ildən Paris Elmlər Akademiyasının üzvü olmuşdur.

1778-ci ildə Lamarkın Fransanın florasına dair 3 cilddə əsəri cıxmışdır. 1793-cü ildə onun təklifi ilə Kral Botanika Bağı Təbiətn Tarixi Muzeyinə cevrildi. Lamark burada həşəratların, qurdların və mikroskopik heyvanların zoologiyası kafedrasının professoru və rəhbəri oldu.

Lamark ilk dəfə 1794-cü ildə heyvanlar aləmini 2 qrupa - onurğalılar və onurğasızlar qrupuna böldü. Lamark onurğasızları 10 qrupa ayırmışdır. O, bu sinifləri özünün təkmilləşmə prinsipi-qradasiya əsasında ardıcıl olaraq mürəkkəbləşən 4 quruluş dərəcəsi arasında böldü.

O, zoopsixologiyanın əsasını qoymuşdur.

Botanika və zoologiyaya dair işləri ilə yanaşı Lamark geologiya, hidrologiya, meteorologiyaya dair nəşrlərin müəllifidir. "Hidrogeologiya" əsərində (1802) tarixilik və aktualizm prinsiplərini irəli sürmüşdür.

Jan Batist Pyer Antuan De Mone Lamark 1829-cu ildə Parisdə vəfat etmişdir.

Ədəbiyyat

Корсунская, В.М. Подвиг жизни шевалье де Ламарка.- Л.,1961.- 236 с.

Избранные произведения: в 2-х т. /редаксия И.М.Полякова и Н.И. Нуждина; пер. А.В. Юдиной.- М: Из-во Акад. наук. СССР, 1955-1959.-968 с.

Rəna Orucəliyeva

5 Avqust

165 illiyi

İlya Yefimoviç Repin
1844-1930

Rus boyakarı



Görkəmli rus boyakarı və qrafiki Repin 1844-cü il avqustun 5-də Ukraynanın Xarkov vilayətində anadan olmuşdur. O, 1864-1871-ci illərdə Peterburq Rəssamlıq Akademiyasında oxumuşdur. 1893-cü ildən isə həmin Akademiyanın həqiqi üzvü seçilmişdir.

Repinin yaradıcılığı rus demokratik-realist incəsənətinin zirvələrindən birini təşkil edir. O, portret, məişət və tarixi boyakarlıq janrlarında fəaliyyət göstərmiş, ofort və litoqrafiyalar çəkmişdir. 1870-1873-cü illərdə yaratdığı "Burlaklar Volqada" tablosunda zülmə qarşı etiraz motivləri, sadə adamların mənəviyyatı, qüvvə və qüdrəti əks etdirilmişdir. Repin 1873-cü ildə İtaliya və Fransaya səyahət edir. 3 il orada qalan rəssam Avropa incəsənəti ilə yaxından tanış olmuş, "Paris kafesi"(1874-1875), "Sadko sualtı səltənətdə" (1876) əsərlərində plener üsulundan məharətlə istifadə etmişdir.

1870-1880-ci illər Repin yaradıcılığının ən məhsuldar dövrüdür. Xaricdən qayıtdıqdan sonra 1882-ci ildən Peterburqda yaşayan Repin rus həyatının sosial ziddiyyətlərini və ictimai münasibətləri qabarıq şəkildə təsvir edərək, "Qorxaq kəndli" (1877), "Bədnəzər kəndli"(1877) əsərlərində 1 sıra kəndli obrazları yaratmışdır. "Tövbədən imtina"(1879-1885), "Təbliğatçının həbsi" (1880-1892), "Gözləmirdilər" (1884-1888) tablolarında sürgündən qayıtmış inqilabçıların obrazını təsvir etmiş, qəhrəmanın ağır taleyini, onun ailə üzvlərinin hiss və həyəcanlarını mürəkkəb rəng qammaları ilə göstərmişdir.

Bu illərdə Repin ən yaxşı portretlərini: "V.V. Stasov" (1873), "A.F.Pisemski" (1880), "L.N. Tolstoy" (1887) işləmiş, həmçinin tarixi janr sahəsində "Şahzadə Sofiya"(1879), "İvan Qroznı və oğlu İvan"(1885), "Zaporojyelilər Türkiyə sul-

tanına məktub yazarkən" (1878-1891) adlı görkəmli əsərlərini yaratmışdır.

Repin 1930-cu il sentyabrın 29-da vəfat etmişdir. Repinin öldüyü və dəfn olunduğu Penatıda 1940-cı ildə xatirə muzeyi açılmışdır. Çuquyevdə də Repinin xatirə muzeyi açılmışdır. 1958-ci ildə Moskvada Repinə abidə qoyulmuşdur. Sankt-Peterburq Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutu Repinin adını daşıyır.

Ədəbiyyat

Альбом репродукций.- М.: Изобразит. искус., 1975.- 34 с.

Графика: [Альбом].- М.: Изобразит. искус., 1987. - 48 с.

Лясковская, О. А. И. Е. Репин.- 3-е изд.- М., 1983.

Пилипенко, И. Репин в Абрамцеве .- Л., 1980.

Чуковский, К. Илья Репин.- 2-е изд.- М., 1983.

Adilə Abdullayeva

Avqust
12

Beynəlxalq Gənclər Günü
1999

Avqustun 12-si Beynəlxalq gənclər günüdür. Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 1999-cu il dekabrın 17-də qəbul etdiyi qərara əsasən elan olunan Beynəlxalq Gənclər Günü hazırda dünyanın əksər dövlətlərində qeyd edilir. Xatırladaq ki, 1998-ci il avqustun 8-12-də Lissabonda müxtəlif ölkələrin gənclərlə iş üzrə nazirlərinin iştirakı ilə keçirilən Beynəlxalq Konfransda Beynəlxalq Gənclər Gününün təsis edilməsi və bütün dünyada bayram kimi qeyd edilməsi təklif olunmuşdu və bir qədər sonra BMT Baş Assambleyası avqustun 12-sini Beynəlxalq Gənclər Günü elan etdi.

2000-ci ildən başlayaraq bu gün bir çox dövlətlərdə, o cümlədən dünya birliyinin tamhüquqlu üzvü olan Azərbaycanda da Beynəlxalq Gənclər Günü kimi qeyd olunur. Tarixə qısaca nəzər salsaq, əslində Azərbaycan gənclərinin belə bir bayramı qeyd etməyə daha çox mənəvi haqlarının çatdığını görmək olar.

Müstəqilliyimizin və dövlətçiliyimizin möhkəmkəmləndirilməsi, etibarlı gələcəyimizin təmin edilməsi, ölkəmizin inkişafı gənclərin sosial-siyasi fəallığının yüksəlməsindən çox asılıdır. Məhz buna görə də ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və hazırda Ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət gənclər siyasətinin aparıcı xəttində bu məsələ daim diqqətdədir.

Son 14 ildə Azərbaycanda gənclərlə iş sahəsində görülən işlər, bu istiqamətdə həyata keçirilən mükəmməl dövlət siyasəti Azərbaycan gəncliyinin inkişafına böyük təkan vermiş, onun cəmiyyətdə özünü təsdiq etməsində böyük rol oynamışdır. Bu illərdə Azərbaycan gəncliyi beynəlxalq miqyasda cərəyan edən ictimai-siyasi proseslərdə də yaxından iştirak etmiş və ölkəmizi tanıtmışdır.

Ayrı-ayrı dövlət orqanlarının gənclərlə iş sahəsindəki fəaliyyətinin əlaqələndirilməsi Azərbaycan gəncliyinin yenidən təşkilatlanması, ölkədə gənclər hərəkatının,

gənclik enerjisinin bir mərkəzdən koordinasiya olunması məqsədilə 1994-cü ildə yaradılmış Gənclər və Turizm Nazirliyi qısa zamanda dövlət gənclər siyasətinin uğurla həyata keçirilməsinə start verdi.

Azərbaycanı çox düzgün olaraq "gənclər ölkəsi" adlandıran ulu öndər Heydər Əliyev bu sahədə həyata keçirilən dövlət siyasətini əsas prioritetlərdən biri kimi müəyyənləşdirərək hər zaman gənclərin işi üzrə məsələləri, onlara olan qayğının vacibliyini önə çəkirdi. Məhz Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin forumları keçirilməyə başladı. Forumlarda ulu öndər Heydər Əliyevin proqram xarakterli çıxışlarının nəticəsi olaraq hər bir gəncin qarşısında duran vəzifələr müəyyənləşdirilmiş, gənc nəslin hərtərəfli inkişafı, problemlərin həlli sahəsində tədbirlərin görülməsi əlaqədar təşkilatların qarşısında vəzifə kimi qoyulmuşdu. Ulu öndər Heydər Əliyev gənclərin I forumundan sonra Respublikanın hər yerində gənclərlə aparılan işin nəzərə çarpacaq dərəcədə canlandığını nəzərə alaraq 1997-ci ildə imzaladığı Sərəncamla tədbirin keçirildiyi günü-fevralın 2-ni Azərbaycan Gənclər Günü elan etdi.

Gənclərə göstərilən diqqət və qayğı dövlət proqramlarında da öz əksini tapıb. Əsası Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətini Azərbaycan Prezidenti İlham Əliyev uğurla davam etdirir. Prezident Heydər Əliyevin 2005-ci ilin avqustunda təsdiq etdiyi "Azərbaycan gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər)" isə dövlət gənclər siyasətinin ən mühüm tərkib hissəsidir. Bu proqram Azərbaycanda gənclərə qayğının əyani təzahürüdür. Hazırda proqrama uyğun olaraq gənclərin sosial müdafiəsi, məşğulluğunun təmin edilməsi, hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, milli ruhda təhsil və tərbiyəsi, onların yaradıcılıq axtarışlarının, stimullaşdırılması, sağlam həyat tərzinin təbliği və sair istiqamətlərdə kompleks tədbirlər keçirilir. Gənclər gününün 10-cu ildönümü münasibətilə gənclər təşkilatının nümayəndələri ilə görüşən Prezident İlham Əliyev onların cəmiyyətdəki rolunu çox yüksək qiymətləndirmişdir: "Gənclərin Azərbaycan cəmiyyətində rolu çox böyükdür. Azərbaycanın dövlət müstəqilliyi uğrunda mübarizə aparan da, bu müstəqilliyi bərpa edən də gənclər olmuşlar".

2007-ci ildə isə Azərbaycan gənclərinin ölkənin ictimai siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakı, sosial problemlərin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi, gənclər siyasətinin bütün istiqamətlər üzrə müvafiq Dövlət Proqramının səmərəli həyata keçirilməsi, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin xidmətlərini qiymətləndirilməsi üçün Prezident İlham Əliyevin Sərəncamı ilə "Gənclər ili" elan edilib.

Ədəbiyyat

Azərbaycan Respublikasının Prezidenti. 2007-ci ilin "Gənclər ili" elan edilməsi haqqında: Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı //Azərbaycan.-2007.- 10 fevral.- S.1.

Əliyev, İlham. Azərbaycan gəncliyi üçün ən böyük xoşbəxtlik vətən, xalq üçün çalışmaqdır: Azərbaycan Prezidentinin yekun nitqi: Gənclər gününün 10-cu ildönümü ilə əlaqədar ölkənin gənclər təşkilatlarının nümayəndələri ilə görüşdə //Azərbaycan.-2007.-3 fevral.-S.3.

Cəfərli, R. Ölkəmizdə gənclər siyasəti uğurla həyata keçirilir //Azərbaycan.-2007.-12 avqust.-S.1-4.

XXI əsr gənclərin əsridir //Respublika.-2007.- 2 fevral.-S.7.

Qarayev, Ə. Müstəqil Azərbaycan Respublikasında dövlət gənclər siyasəti //Dirçəliş XXI.-2004.- fevral.- S.59-64.

Nailə Alışova

Avqust

14

95 illiyi

I Dünya müharibəsi 1914

Müharibə bəşər cəmiyyətinin zəruri atributlarından biridir. İnsanların, tarixin yetişdirmiş olduğu liderlərin, qüdrətli dövlətlərin təbiəti elədir ki, onlar çox vaxt mövcud vəziyyətlə, nail olduqları ilə kifayətlənmək istəmirlər. Bu isə mütləq müharibələrə gətirib çıxarır. Birinci Dünya müharibəsi də məhz belə müharibələrdən biridir.

I Dünya müharibəsinə 33 dövlət cəlb edilməklə 70 milyondan çox adam səfərbərliyə alınmışdır. Müharibənin başlanmasına Almaniya ilə İngiltərə və Almaniya-Rusiya arasındakı ziddiyyətlər böyük təsir göstərmişdir.

Birinci Dünya müharibəsinə hazırlıq hərbi-siyasi blokların yaranmasında öz əksini tapdı. Almaniya hələ 1879-1882-ci illərdə Avstriya-Macarıstan və İtaliya ilə hərbi blok yaratmışdı ki, bu da Rusiya, İngiltərə və Fransa dövlətlərinə qarşı çevrilmişdi. "Antanta" adlı ittifaqda isə İngiltərə, Fransa və Rusiya birləşmişdi. Müharibə zamanı İtaliya da Antantanın tərəfinə keçdi və beləliklə, Avropada bir-birinə düşmən iki cəbhə yarandı. Müharibənin başlanmasına əsas bəhanə 1914-cü il iyunun 15-də serb millətçisi tərəfindən Avstriya-Macarıstan Şahzadəsi Frans Ferdinandın öldürülməsi oldu. Almaniyanın təzyiqi ilə Avstriya-Macarıstan Serbiyaya ultimatum verdi və əslində bu ultimatumun qəbul olunmasına baxmayaraq, iyulun 15-də Serbiyaya müharibə elan etdi.

Bir qədər sonra isə Almaniya Rusiya ilə müharibəyə başladı. İyulun 22-də Fransa və Belçika da Almaniyaya qarşı müharibəyə qoşuldu. Hərbi əməliyyatlar Avropa, Asiya və Afrika qitələrində, bütün okeanlarda aparılırdı.

Birinci Dünya müharibəsi Almaniya və onun müttəfiqlərinin məğlubiyyəti ilə başa çatdı.

Paris sülh konfransının çıxardığı qərara görə Almaniya böyük məbləğdə Təzminat ödəməyə və öz Silahlı qüvvələrini kəskin

surətdə azaltmağa məcbur oldu.

Öz miqyasına görə Birinci Dünya müharibəsi bəşəriyyətin ona qədərki tarixi ərzində ən ağır müharibə olmuşdur. Bu müharibədə 9,5 milyon adam həlak olmuş, 20 milyon adam isə yaralanmışdır. Təxmini hesablamalara görə müharibə qızılla 360 mlrd. dollara başa gəlmişdir.

Ədəbiyyat

Azərbaycan Sovet Ensiklopediyası.- B., 1978.- C. 2.- S. 182-183.

Hacıyeva, A. Beynəlxalq münasibətlər tarixi: /Dərs vəsaiti.- B., 2001.- 558 s.

SSRİ tarixi: (İkinci hissə: 1861-1917).- B.: Maarif, 1982.- 565 s.

Rus dilində

Всемирная история.- М., 1960-61.- 718 с.

Денисова, А.Ф. Мировая война 1914-1917.- М., 1964.- 216 с.

Прошин, Н.А. Причины и результаты первой мировой войны.- М., 1976.- 446 с.

İnternetdə

www.fizistwar,info
www.wui.tut2.ru

Məmməd Məmmədov

Avqust

15

80 illiyi

Roza Əsgərova

1929

Elm xadimi

Əsgərova Roza Qasım qızı 15 avqust 1929-cu ildə Babək rayonunun Qahab kəndində anadan olmuşdur.

1950-ci ildə Azərbaycan Dövlət Universiteti (indiki BDU) Biologiya fakültəsini bitirmiş, Azərb. Milli EA-nın Botanika İnstitutunda baş elmi işçi olmuş, hazırda isə ali bitkilərin sistematikası şöbəsinin müdiridir.

1979-cu ildə biologiya elmləri doktoru adını almışdır. Sistematika, floristika, flokogenezis, palinologiya sahəsində çalışır. Respublikada ilk dəfə müasir bitkilərin tozcuqlarının mikfologiyası (palinomorfologiya) və onun sistematikada tətbiqi ilə məşğul olmuşdur.

Bir monoqrafiyanın, 80-ə qədər elmi məqalənin müəllifidir. III Beynəlxalq palinologiya (Novosibirski, 1971), XII Beynəlxalq Botanika (Leninqrad, 1973) konqreslərində, mürəkkəbçiçəklilər fəsiləsinə dair beynəlxalq konfransda (London, 1994) məruzələr etmişdir. Çox cildlik "Azərbaycan faunası"nın (C.7-8.-B.,1959-1961), "Azərbaycanın qırmızı kitabı" nın (B., 1989) müəlliflərindəndir.

Ədəbiyyat

Аскерова, Р. Г. Палинология: Труды III международной палинологической конференции.- Л., 1973.- 82 s.

Аскерова, Р.Полмнология цикорневых: (Compositae Cichorieae).- B.: Elm, 1987.- 207 s.

Аскерова, Р. Флора Азербайджана.- Т.7-8.- Б., 1959-690 s.

Tahirə Həsənova

23 Avqust

Cəbrayıl

Ərazisi - 1050 km²
Əhalisinin sayı – 54430
İnzibati mərkəzi - CƏBRAYIL
İşğal tarixi – 23.08.1993

Qarabağ hər zaman Azərbaycanın ərazisi olub, bunu yalnız biz yox - erməni, gürcü və rus əsilli ədəbiyyatlar da söyləyir!...
Heydər Əliyev, ümummilli lider



On dörd ildir həsrətini çəkdiyimiz rayonlardan biri də Cəbrayıldır. Bu torpaq onlarla tarixi abidənin məskəninə çevrilib. İşğala qədər rayonda tikiş, xalça, cihazqayırma sexləri, səkkiz sənaye obyekti fəaliyyət göstərirdi. Cəbrayıl milli aşıq-ozan sənətimizin baniləri – Dirili Qurbaninin, Aşıq Pərinin, Mücrüm Kərəmin, Aşıq Humayın vətənidir.

İşğaldan əvvəl rayonda 72 orta və natamam məktəb, 3 musiqi məktəbi, 12 mədəniyyət evi, 32 klub, 10 mədəni çadır və avtokülüb, 78 kitabxana, 3 daimi, 4 səyyar kinoqurğusu fəaliyyət göstərirdi. Zəngin eksponatları olan tarix – diyarşünaslıq muzeyi vardı. Əhaliyə 210 çarpayılıq mərkəzi xəstəxana və ümumi çarpayı sayı 245 yer olan kənd xəstəxanaları, Dağ Tumas, Quycaq, Balyand kəndlərində 11 həkim, 52 feldşer - mama məntəqəsi sakinlərə xidmət göstərirdi. İnsanların yeganə gəlir yeri torpaq idi.

1970-ci ildən başlayaraq rayonda quruculuq işləri geniş vüsət almışdı. Rayon mərkəzində bir vaxtlar "Dəyirman dərəsi" kimi tanınan boş ərazi ötən əsrin 80-ci illərində geniş yaşayış massivinə çevrilmişdi. Yaşı əsrlərlə hesablanan Xan çinar bu yurdun simvoluna çevrilmişdi. Rayonda irili-xırdalı 90 kənd vardı. Həmin illərdə camaatın güzəranı daha da yaxşılaşmağa başladı. Sözügedən dövrdə irəliləyişə səbəb olan əsas amil

üzüm bağlarının salınması idi.

Rayon mərkəzini kənd-



lərlə birləşdirən yolların hamısına asfalt döşənmişdi. Hər 5-10 nəfər sakindən biri özünə minik maşını almışdı. Rayonda elmə, təhsilə maraq günbəgün artırdı. Çoxsaylı alimlərimizin, ziyalılarımızın şərəfli, şanlı ənənələri uğurla davam etdirilirdi. Cəbrayılın adı çox yerdə hörmətlə və məhəbbətlə çəkilirdi. Amma.... 1988-ci ildən başlayaraq rayonun "bəxtində qara zolaqların" sayı artmağa başladı. Cəbrayılın ərazisində ermənilərin yaşadığı iki kənd var idi: Hərəkül və Banazur.

Ermənilərin tarixən naxələf olmaları barədə çox yazılıb, onları bir daha sadalamağa ehtiyac yoxdur. Bütövlükdə hər bir azərbaycanlı bilirdi ki, insan qiyafəsinə girmiş bu məxluqlar dönükdürlər, satqın, bişərəf, xain və paxıldırlar, yenə onlara səmimiyyət göstərir, süfrələrinin başında əyləşdirir, bir tikə çörəklərini onlarla bölüşdürürdülər. Hələ bu azmış kimi, özləri enib aranda ən axarlı-baxarlı yerləri, zümrüd meşəlikləri, diş göynədən bulaqları, əlçatmaz, ünyetməz dağları onlara bağışlamışdılar. Bax, Cəbrayılın, cəbrayıllıların üstünə top, "Alazan", "Qrad" atəşləri həmin yüksəkliklərdən atılırdı. Evlər od tutub yanırdı, dağılırdı, heç bir günahı olmayanlar qanlarına qəltan edilirdilər, lakin dözürdülər. Hansısa bir qüvvənin gücünə inanıb gözləyir, tab gətirirdilər. Beləliklə, 1990-cı ildən 1993-cü il iyulun 23-nə kimi camaatın nə gecəsi gecə oldu, nə də gündüzü gündüz. Nəhayət...

Şuşada, Laçında, Ağdamda olduğu kimi, cəbrayıllılar da köməyə ehtiyac duyurdular. Hərbi taktika, strategiya, vahid komanda altında birləşmə, irəliləmə yox idi. Demək olar, hərə öz gücünə güvənir, fərdi qaydada intiqam almağa çalışırdı.

O çətin dözülməz günlərdə Cəbrayıl rayonunda kifayət qədər qüvvə yox idi. Amma çətinliklərə baxmayaraq sərhəddə ermənilərə qarşı müdafiə xətləri yaradılmışdı. Şaqay yüksəkliyi alınmış və orada mövqe tutulmuşdu. Yeddi ay həmin yüksəkliyin hesabına rayona nəzarət edildi. Şaqay yüksəkliyi itirildikdən sonra bununla da Cəbrayılın başı üstünü qara buludlar aldı. Rayonun işğalı həmin yüksəklik verilən gündən başladı.

Cəbrayıl ərazisini o ağır günlərdə qoruyan ərənlər də az olmamışdı. Yusif Allahverdiyev, Samir Alıyev, Şükür Abdullayev, İnqilab Aslanov, Azər Bayramov, Mais Verdiyev, Mübariz Qasımov, Mehdi İsmayılov... onların hər biri cismən ayrı düşüblər, ruhən həmişə, hər vaxt bizimlədirlər.

Ümumiyyətlə, döyüşlərdə 180, atəşkəs dövründə isə 6 nəfər həlak olub. 14 nəfər polis, 60 nəfər mülki şəxs dünyasını dəyişib, 90 nəfərə yaxın isə əsir və itkin düşüb. Cəbrayıllılar içərisində 180 nəfərə yaxın Qarabağ müharibəsi əlili statusu alıb, 6 nəfər isə Azərbaycanın Milli Qəh-

ramanı fəxri adına layiq görülüb.

Hazırda cəbrayıllılar arasında 351 nəfər şəhid ailəsi var. Artıq 14 ildir ki, cəbrayıllılar ölkənin 58 bölgəsinə səpələniblər. Daha çox Beyləqan, İmişli, Sabirabad, Biləsuvar rayonlarında məskunlaşıblar.

Bu gün müxtəlif təyinatlı obyektlərdə məskunlaşan Cəbrayıl camaatı öz ata-baba ocaqlarına, şəhidlərin narahat ruhları dolaşan o müqəddəs yerlərə qayıdacaqları günü həsrətlə gözləyirlər. Ahıllar "məni doğma torpağımızda dəfn edin" deyə-deyə dünyalarını dəyişirlər. Gənclər ailə qururlar. Amma hamı gələcəyə ümidlə baxır. Təki inam ölməsin!

Ədəbiyyat

Abuzərov, A. Cəbrayılın qəm karvanı.- B.: Ulu, 2000.-126 s.

Quliyev, Ş. Cəbrayıl: tarixi oçerk /Ş.Quliyev, T.Abbasov, F.Quliyev.- B., 1993.-126 s.

Tapdıqoğlu, N. Cəbrayıl rayonu və onun toponimiyası.- B., 2004.- 454 s.

İnternetdə

http://www.azadqarabag.azerall.

www.anl.az

.

Günel Əfəndiyeva

23 Avqust

Füzuli

Ərazisi - 1361 km²
Əhalisinin sayı - 110 000
İnzibati mərkəzi – FÜZULİ
İşğal tarixi- 23.08.1993



Füzuli camaatı əməksevər, torpaq qədri bilən insanlardır. Xatırlayıram ki, 1970-1980-ci illərdə onlar plan və tapşırıqları artıqlaması ilə əməl edirdilər. Gərgin əmək hesabına yüksək məvacib alırdılar, xoş güzəranda yaşayırdılar. Hər dəfə bu regiona gələndə yerli sakinlərdən razılıq eşidərdim.

Heydər Əliyev, ümummilli lider

Füzuli rayonu Qarabağ dağ silsiləsinin cənub-şərq ətəklərindən, Araz çayına qədər maili düzənlik və alçaq sahələri əhatə edir. O, Cəbrayıl, Xocavənd, Ağcabədi, Beyləqan rayonları və Araz çayı boyunca İranla həmsərhəddir.

Rayonun əsası 1827-ci ildə qoyulmuş və ilkin adı Qarabulaq olmuşdur. Rayon 8 avqust 1930-cu ildə təşkil olunmuş və Qaryagin adlandırılmışdır.

1959-cu ilin aprelində böyük şairimiz Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə Qaryagin rayonunun adı dəyişərək Füzuli rayonu adlandırılmışdır.

Füzuli rayonunda 1 şəhər, 1 şəhər tipli qəsəbə, 75 kənd və başqa yaşayış məntəqələri vardır. Rayon ərazisindən axan Quruçay, Köndələnçay, Qozluçay, Çərəkən çayları Araz hövzəsinin çaylarıdır.

Rayonun işğaldan azad olunmuş ərazisində 13 qəsəbə və 20 kənd vardır. Qəsəbələrdən 12-si işğal-

dan azad olunmuş ərazidə yeni salınmış və məcburi köçkün ailələri müvəqqəti olaraq burada yerləşdirilmişlər. Hazırda ərazidə 51 min nəfər məcburi köçkün məskunlaşmışdır.

Məhsuldarlıq baxımından kənd təsərrüfatına yararlı boz, şabalıdı, bozqəhvəyi kimi torpaq sahələri var. Rayonda taxılçılıq, heyvandarlıq, üzümçülük, qoyunçuluq, quşçuluq, baramaçılıq geniş inkişaf etmişdir. Kənd təsərrüfatı ilə yanaşı, rayonda tikinti tresti, 6 nəqliyyat təşkilatı, 13 sənaye müəssisəsi və s. fəaliyyət göstərirdi.

İşğala qədər rayonda 70 kitabxana, 20 mədəniyyət evi, 45 klub, xalq və dövlət dram teatrları, 685 çarpayılıq 13 xəstəxana, 40 feldşer-mama məntəqəsi, vərəm və dəri zöhrəvi xəstəlikləri dispanseri, 20 kinoqurğu, texnikum, 2 texniki peşə məktəbi, 38 məktəbəqədər müəssisə, 2 muzey, stadion, 65 kolxoz və sovxoz, 12 fermer təsərrüfatı və s. obyektləri var idi.

Qarabağımızın dilbər guşəsi olan Füzuli rayonu ərazisində müxtəlif dövrlərdə Qaraköpəktəpədə, Qarabulaq kurqanlarında, Günəştəpədə, Quruçay sahillərində və digər yerlərdə tədqiqatlar aparılmış, Azərbaycanın qədim kökə sahib olduğu sübut edilmişdir. 1968-ci ilin yayında mərhum arxeoloq-alim Məmmədəli Hüseynov tərəfindən aşkar olunmuş preneandertal – Azıxantrop adamının alt çənəsinin sümükləri rayon mərkəzindən 15 km aralı məsafədə yerləşən Azıx mağarasında tapılmışdır. Azərbaycan arxeologiya elminin böyük nailiyyətləri olan bu abidə Qarabağın Füzuli ərazisində vaxtilə qədim paleolit dövrünün mövcudluğunu aşkarladı. Füzuli rayonunda Əcəmi memarlıq məktəbinin təsiri ilə inşa olunan bir sıra memarlıq abidələri var idi. Çox təəssüf ki, Əhmədalılar və ya Arğalı türbəsi (XIII əsrin sonu), Babı türbəsi (1273), Aşağı Veysəlli kəndində hamar daşdan tikilən qülləvari Mirəli türbəsi (XV əsr), Qarğabazar kəndində Hacıqiyasəddin məscidi (1682), Karvansara (1684), Qoçəhmədli kəndində məscid (XVIII əsr), Füzuli şəhərində Hacı Ələkbər məscidi (XIX əsr), "Məşədi Həbib" hamamı (XIX əsr), Merdinli kəndi yaxınlığında daşdan yonulan at, qoç fiquru qədim abidələri (XVIII-XIX əsrlər) və s. bu kimi tarixi əhəmiyyət daşıyan abidələrimiz ermənilərin vəhşi vandalizminə məruz qalmış, məhv edilmiş, yandırılmışdır. Hər bir xalq öz tarixinin qədimliyi ilə tanınır. Lakin işğalçı ermənilər Azərbaycana dair tarixi hər vasitə ilə saxtalaşdırmağa, yaddaşlardan silməyə çalışmışlar. Zəbt edilmiş torpaqlarımızın hər daşının külə döndərilməsi, viran edilməsi erməni vandalizminin bir daha sübutudur. 1988-ci ildən başlayan erməni təcavüzünə qarşı mübarizədə minlərlə füzulili döyüşmüş, yüzlərlə füzulili şəhid olmuş, yaralanmış, itkin düşmüşdür. Füzuli rayonunun əhalisi Qarabağ müharibəsində ölkəmizdə ən çox itkin və şəhid vermişdir. Füzulinin 1100-dən çox şəhid və itkini, 113 girovu, 1450 nəfər müxtəlif dərəcəli əlili var. Füzuliyə erməni təcavüzü nəticəsində 36 361 nəfər uşaq zərər çəkmiş, onlardan 155 nə-

fəri valideynlərini itirmişdir. Müharibənin əsas ağırlığını Qacar, Divannalar, Yuxarı Veysəlli, Aşağı Veysəlli, Qaradağlı, Üçbulaq, Arış, Qoçəhmədli, Cuvarlı, Güzdək, Gorazıllı, Cəmilli, Dilağarda, Yağlıvənd, Govşad, Xələfşə, Mollavəli kəndlərinin əhalisi çəkmişlər. Avqustun 23-ü 1993-cü ildə ecazkar Füzuli torpaqları da girov düşdü, əsir alındı.

Hazırda 51 kənd və rayon mərkəzi erməni tapdağı altında zillət çəkir, 55 min nəfərə yaxın füzulili köçkün həyatı yaşayır.

Ümid edirik ki, işğal olunmuş torpaqlarımız yaxın zamanlarda erməni zülmündən azad ediləcək. Minlərlə köçkün öz yurd-yuvalarına qayıdacaq. O gün gələcək ki, Füzuli rayonu yenidən öz əvvəlki qüdrətini, əzəmətini bərqərar edəcək.

Ədəbiyyat

Tapdıqoğlu, N. Füzuli rayonu və onun toponimiyası.- B.: Ünsiyyət, 2006.- 488 s.

İnternetdə

http://www.azadqarabag.azerall.

www.anl.az.

Günel Əfəndiyeva

Avqust

28

260 illiyi

İohann Volfqanq Höte
1749-1832

Alman şairi

Alman şairi İohann Volfqanq Höte 1749-cu il avqust ayının 28-də anadan olmuşdur. Hötenin həyat və yaradıcılığı yalnız vətəni Almaniyada deyil, bütün Avropada mürəkkəb ictimai-siyasi çaxnaşmalar dövrünə təsadüf edir. O, ilk gənclik yaşlarından bu "fırtına və hücum" cəbhələrinə atılır, hətta həmin ad altında məlum olan ədəbi cərəyana, bu coşqun ədəbi mübarizəyə başçılıq edir.

1775-ci ildə Veymar prinsi, sonralar isə, hersoq olan Karl Avqustun dəvəti ilə Höte onun sarayına köçür və ömrünü orada keçirir. Sarayda müşavir, nazir, məhkəmə rəisi və s. vəzifələrə təyin edilir, nəhayət, əyan adı alır, belə ki, sözdə feodalizm quruluşunun düşməni olan Höte, işdə saray xadimi olur.

Saray həyatının ilk on ili ədəbi yaradıcılıq baxımından, demək olar ki, təmamilə səmərəsiz keçir. Bu durğunluq illərindən sonra, 1786-cı ildə məqsədyönlü İtaliya səfəri Hötenin yaradıcılıq ruhunu yenidən dirçəldir. Klassik mədəniyyətin canlı xatirələrini yaşadan İtaliya şəhərləri, möhtəşəm saraylar, binalar, heykəllər, abidələr, muzeylər Höteyə o qədər təsir edir ki, bir zaman yeni ictimai quruluş yaratmaq arzusu ilə köhnə dünyaya meydan oxuyan, onu məhv etmək istəyən, coşqun, üsyankar, "Fırtına və hücüm" başçısı Höte, dönüb alman klassisizminin başçısı olur. Vaxtilə milli xalq mədəniyyətinə, memarlıq abidələrinə valeh və heyran olan Höte, indi antik sənət əsərlərinin məftunu kimi tanınır. Özü də klassik üslubda əsərlər yazmağa başlayır.

Adları, məzmunları, qəhrəman və iştirakçıları da, başlıca olaraq klassik ədəbiyyatla əlaqədar olan "İfigeniya Tavridada" (1887), "Torkvato Tasso" (1790), "German və Doroteya" və sair əsərləri məhz belə nümunələrdəndir.

Höte məşhur "Faust" əsəri üzərində, demək olar ki, bütün yaradıcılığı boyunca işləmişdir. O,

həmin əsəri 1772-ci ildə, 23 yaşında yazmağa başlayıb, 1831-ci ildə, yəni 82 yaşında, ölümündən bir il əvvəl bitirmişdir. Bu böyük sənət əsərində həyat ilə, müəyyən tarixi dövr və mühit ilə, yəni Hötenin yaşadığı Almaniya ilə və alman xalqının həyatı ilə üzvi surətdə bağlıdır. Haqlı olaraq "Faust" alman həyatının ensiklopediyası kimi yüksək qiymətləndirilir.

Təbiətşünaslıq sahəsində də Hötenin mühüm xidməti olmuşdur. Heyvanların və bitkilərin müqayisəli morfologiyasına dair Hötenin tədqiqatları böyük tarixi əhəmiyyətə malikdir. Onun 1770-ci ildə yazdığı "Bitki metamorfozuna dair təcrübə" əsərində bitki aləminin geniş təhlilini verə bilmişdir. Hötenin bitki və heyvan orqanizmlərinin birliyinə dair baxışları onu Ç.Darvinin sələflərindən biri hesab etməyə imkan verir.

Höte İohann Volfqanq 1832-ci il mart ayının 22-də Frankfurt-Maynda vəfat etmişdir.

Ədəbiyyat

Faust .- B.: Öndər nəşriyyat.- 2004.- 560 s.

Abdullayeva, L. "Qərb-Şərq Divanı.İ.V.Höte – dahi alman şairi //Yeni Azərbaycan.- 2002.- 17 may.- S. 4.

Gözəlov, Ə. Höte və Şərq aləmi //Bakı.-1983.-24 yanvar.- S.2.

İsmayılov, Ə. Cavid və Höte //Elm və həyat.- 1980.- № 1.- S.35-36.

Qurbanova, K. Hötenin yaradıcılıq dünyası //Vəfa.-2004.- № 9.-S.42-44

.

Samirə Eminova

.

Avqust
31

Qubadlı

Ərazisi - 826 km²
Əhalisinin sayı - 31300
İnzibati mərkəzi - QUBADLI
İşğal tarixi - 31. 08.1993



Hər dəfə Azərbaycan ərazilərinin işğala məruz qalmasını eşidəndə ürəyim sancar, varlığım göynəyərdi. O torpaqlar əməksevər insanların qeyrət, bərəkət ünvanı idi... Qubadlılılar Qarabağa, Laçına, Kəlbəcərə Ermənistandan gələn yolun üstündə möhtəşəm qala kimi dayanmışdılar. Onun işğalından da bərk sarsıldım.

Heydər Əliyev, ümummilli lider

15 il əvvəl Qubadlı işğal olundu. 30 mindən artıq əhali öz yurd-yuvasından didərgin düşdü. Var-dövləti başdan aşan rayon mərkəzi və 94 kənd qarət edildi, talandı, yandırıldı. Qubadlının işğalı Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi, dənizdən-dənizə böyük Ermənistan yaradılması barədə daşnak ideoloqlarının çoxillik sərsəm ideyalarının tərkib hissəsi idi. Tarixən həm çar, həm də sovet imperiyasının çökməsi zamanı Dağlıq Qarabağ məsələsi dəfələrlə qaldırılmışdı. Azərbaycan torpaqlarına, o cümlədən Qubadlıya erməni işğalçıları hücum etmiş, kəndlər yandırılmış, talan edilmiş, dinc əhaliyə divan tutulmuşdur.

Qubadlı əslində, erməni təcavüzü ilə Qarabağ münaqişəsindən bir qədər əvvəl üzləşmişdi. Sərhədlərin dəqiqləşdirilməsi adı ilə tarixən qubadlıların dədə-baba torpaqları olan Vəli düzü, Gülü zəmi kimi gözəl təbiətli yerləri Ermənistana vermək cəhdi əslində

münaqişənin örtülü olsa da bünövrəsini qoymuşdu. Lakin Qarabağ münaqişəsinin əsl startı sovet imperiyasının labüd çökməsi nəticəsində baş verdi.

1988-ci il fevral ayının 6-da Xankəndində ilk erməni mitinqlərindən sonra Ermənistandan azərbaycanlıların deportasiya edilməsinə başlandı və ilk qaçqın dalğası Qubadlıdan keçdi. Sisiyandan, Qafandan, Gorusdan qovulan, döyülüb təhqir edilən azərbaycanlıların bir qismini qubadlılar qəbul etdilər.

Dağlıq Qarabağla Ermənistan arasında yerləşən Qubadlının strateji əhəmiyyətini başa düşən erməni təcavüzkarları Qubadlıda terror-təxribat əməlləri törədirlər. Dağlıq Qarabağa Qubadlı ərazisindən keçid yaratmaq, dəhliz açmaq, buradan separatçılara silah-sursat daşımaq niyyətini həyata keçirmək istəyirdilər. 1989-cu ilin sentyabr ayında sovet qoşunlarının zirehli texnikalarının müşaiyəti ilə Gorus istiqamətində Yazı düzü yolu ilə 150-160 avtomobildən ibarət maşın karvanının Qubadlı ərazisinə yaxınlaşdığı xəbər verildi. Bir saat ərzində əhali ayağa qalxdı. Bütün yollar bağlandı. Əliyalın camaat maşın karvanının yolunu elə sərhəddəcə kəsdi. Xankəndi şəhərinə avtomobil karvanı buraxılmadı. Təəssüf ki, geri qaytarılan avtomobil karvanı bir həftə Gorusun Xinzərək kəndində qaldıqdan sonra Laçın-Şuşa yolu ilə Xankəndinə yol tapa bildi və karvanı müşaiyət edən zirehli texnika Laçın şəhərində faciələr törətdi.

Qubadlı Ermənistanla 120 km^2 məsafədə həmsərhəddir. Bilavasitə, Ermənistan ərazisindən Qubadlının sərhəddə yerləşən Əliquluuşağı, Məlikməhəmmədli, Seytas, Eyvazlı, Qədili, Davudlu, Novlu, Y.Cibikli, Əyin, Çaxdaxlı, Tarovlu, Fərcan, Göyyal, Saldaş, Çərəli kəndlərinə təcavüz edilir, kəndlər atəşə tutulurdu.

1989-cu ilin axırları rayonda vəziyyət son dərəcə ağırlaşdı. Gündüz sərhəddə keşik çəkən düşmənin hücumlarının, təxribat əməllərinin qarşısını alan özünümüdafiə dəstələri yerli milis qüvvələri ilə birlikdə hərəkət edirdi. Lakin qüvvələr qeyri-bərabər idi. Təcavüzkar erməni dəstələri avtomat silahlardan, artilleriyadan, zirehli hərbi texnikadan gen-bol istifadə etdiyi halda, bizdə adi ov tüfəngləri çatmırdı.

Rayonun şərq tərəfdən geniş bir ərazisi müdafiəsiz qalmışdı. Həkəri çayı boyunca Zilanlı, Mahruzlu, Xanlıq kəndlərindən tutmuş Başarat zonasınadək yerli əhali silaha sarılsa da, qüvvələr qeyri-bərabər idi. Zirehli texnikanın qarşısını 4-5 adama düşən bir avtomatla qorumaq mümkün deyildi.

Avqust ayının 30-da erməni hərbi birləşmələri yalnız mülki əhalinin qoruduğu Gəyən zonası istiqamətindən güclü hərbi texnikanın müşaiyəti ilə hücuma keçdi. Əsas zərbə Xanlıq istiqamətinə göndərilmişdi. Qeyri-bərabər döyüşdə xanlıqlılar nə qədər fədakarlıqla döyüşsələr də, erməni tankları kəndə soxuldu. Həkəri çayı boyunca Muradxanlı, Balasoltanlı, Xocik istiqamətində rayona soxulan erməni birləşmələri kəndləri yandırdı, dinc əhaliyə divan tutdular.

Avqustun 31-də daha bir faciə törədildi. Qani-

çən erməni hərbi birləşmələri ilə üz-üzə qalan mülki əhali məcburiyyət üzündən rayonu tərk etməli oldu. Avqustun 31-də Qubadlı bütünlükdə işğal olundu.

Qubadlının işğalından 15 ildən çox keçməsinə baxmayaraq rayon sakinləri nikbindirlər. Çünki onların zati-aliləri Heydər Əliyev kimi sərkərdələri olmuş və indi də İlham Əliyevə inanırlar. Ümidvarıq ki, İlham Əliyevin müdrik sülhsevər siyasəti nəticəsində torpaqlarımız azad olunacaq.

Əgər Ali Baş Komandanımız torpaqlarımızı hərb yolu ilə qaytarmaq qərarına gəlsə, qubadlılar əldə silah ön cərgədə getməyə hazırdılar.

Ədəbiyyat

Şahmar, E. Xanimanım Qubadlı .-B.: Araz, 1988.-803 s.

İnternetdə

http://www.azadqarabag.azerall.

www.anl.az.

Yeganə Məmmədova

1 sentyabr
Gün çıxır
05:33
Gün batır
20:14
30 sentyabr
Gün çıxır
06:06
Gün batır
19:25

Sentyabr

24 avqust-
23
sentyabr

Qız bürcü Nişanəsi yerdir. Günəşin Qızlar bürcünün keçdiyi dövrdə doğulanlar hər işdə aydınlıq, dəqiqliyin olmasını istəyirlər.

2009

Əlamətdar və tarixi günlər

1. II Dünya müharibəsinin başlamasının 70 ili
15. Bilik Günü
18. Milli Musiqi Günü
20. Neftçilər Günü
20. "Əsrin müqaviləsi"nin imzalanmasının 15 illiyi

Ça	1
Ç	2
Ca	3
C	4
Ş	5
B	**6**
Be	7
Ça	8
Ç	9
Ca	10
C	11
Ş	12
B	**13**
Be	14
Ça	15
Ç	16
Ca	17
C	18
Ş	19
B	**20**
Be	21
Ça	22
Ç	23
Ca	24
C	25
Ş	26
B	**27**
Be	28
Ça	29
Ç	30

"Əsrin müqaviləsi"

1994-cı ilin 20 sentyabrında Gülüstan sarayında Amerikanın "Amoko", "Yunokal", "Pennzoil", "Makdermott", Böyük Britaniyanın "British Petroleum» və "Ramko" Norveçin "Statoil", Rusiyanın "Lukoil", Türkiyənin "Türk Petrolları", Səudiyyə Ərəbistanın "Delta" şirkətinin yaratdığı konsorsium əsasında Azərbaycan Dövlət Neft Şirkəti Xəzər dənizinin Azərbaycan sektorundakı Azəri-Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birlikdə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında "Əsrin neft müqaviləsi" adlı saziş imzaladı.

II Dünya müharibəsinin (01.09.1939) başlamasının 70 ili

Azərbaycanın Milli Qəhrəmanı Əhmədov Natiq İlyas oğlunun (01.09.1969-26.09.1991) anadan olmasının 40 illiyi

Nasir, dramaturq Şahvələd Rza Nəbi oğlunun (02.09.1909-02.07.1984) anadan olmasının 100 illiyi

Bakıda Televiziya Mərkəzinin təməli (02.09.1954) qoyulmuşdur

Azərbaycanın Əməkdar incəsənət xadimi, şair Orucov Hidayət Xuduş oğlunun (05.09.1944) anadan olmasının 65 illiyi

Azərbaycanın Əməkdar elm və texnika xadimi, neftçi alim Quluzadə Məmmədpaşa Piri oğlunun (05.09.1914-28.02.1994) anadan olmasının 95 illiyi

Azərbaycanın Əməkdar incəsənət xadimi Vəkilov Mənsur Fəxri oğlunun (Mənsur Fəxri) (07.09.1939) anadan olmasının 70 illiyi

Azərbaycanın Əməkdar incəsənət xadimi, teatrşünas Cəfərov Cəfər Haşım oğlunun (07.09.1914-19.09.1973) anadan olmasının 95 illiyi

Azərbaycanın Əməkdar incəsənət xadimi, professor Rəhimli İlham Əziz oğlunun (08.09.1949) anadan olmasının 60 illiyi

Ukrayna kino rejissoru Dovjenko Aleksandr Petroviçin (11.09.1894-25.11.1956) anadan olmasının 115 illiyi

Yazıçı, dramaturq Qəhrəmanlı Aslan Qəhrəman oğlunun (14.09.1939) anadan olmasının 70 illiyi

Naxcıvan Dövlət Kukla Teatrının yaranmasının (14.09.1989) 20 illiyi

Amerika yazıçısı Kuper Ceyms Fenimorun (15.09.1789-14.09.1851) anadan olmasının 220 illiyi

Bilik Günü (15.09.2004)

Milli Musiqi Günü (18.09.1995)

Neftçilər Günü (20.09.1994)

“Əsrin müğaviləsi”nin (20.09.1994) imzalanmasının 15 illiyi

Azərbaycanın Əməkdar elm xadimi, professor Cəfərov Nizami Qulu oğlunun (21.09.1959) anadan olmasının 50 illiyi

Azərbaycanın Əməkdar elm xadimi, fəlsəfəşünas Şirəliyev Həsən İsmayıl oğlunun (22.09.1929-30.11.1997) anadan olmasının 80 illiyi

Azərbaycan Milli Elmlər Akademiyasının akademiki, ilk azərbaycanlı qadın biologiya elmləri doktoru, professor Tutayuq Validə Xaspolad qızının (23.09.1914-12.11.1980) anadan olmasının 95 illiyi

Şair, publisist Bünyadzadə Ülvi Yusif oğlunun (23.09.1969-20.01.1990) anadan olmasının 40 illiyi

Azərbaycanın Əməkdar incəsənət xadimi, yazıçı Əsgərov Əfqan Hacıağa oğlunun (23.09.1929) anadan olmasının 80 illiyi

Texnika elmləri doktoru Kəngərli Ulduz Səttar oğlunun (28.09.1924) anadan olmasının 85 illiyi

Rus yazıçısı Ostrovski Nikolay Alekseyeviçin (29.09.1904-22.12.1936) anadan olmasının 105 illiyi

Sentyabr

1

70 ildönümü

II Dünya müharibəsi 1939

İkinci Dünya müharibəsi (1939-1945)– beynəlxalq irtica qüvvələrinin hazırladığı və başlıca olaraq təcavüzkar dövlətlər – faşist Almaniyası, faşist İtaliyası və militarist Yaponiyası tərəfindən başlanmış ən dəhşətli müharibələrdəndir. Bu müharibəyə dünyanın 61 dövləti, Yer kürəsi əhalisinin 80%-dən çoxu cəlb edilmişdi. Hərbi əməliyyatlar 40 dövlətin ərazisində, həmçinin dəniz və okeanlarda aparılmışdı.

İkinci Dünya müharibəsi sentyabrın 1-də faşist Almaniyasının Polşaya hücumu ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdilər.

1941-ci il iyunun 22-də Almaniyanın Sovet İttifaqına hücumu ilə müharibə daha geniş miqyas aldı.

İkinci Dünya müharibəsinin əsas cəbhəsinə çevrilmiş sovet-alman cəbhəsində silahlı mübarizə son dərəcə gərgin xarakter almışdı. Müharibənin ilk aylarında xeyli ərazilərin işğal edilməsinə baxmayaraq, Hitler Almaniyası "Barbarossa" adlı nəzərdə tutulmuş strateji məqsədini həyata keçirə bilmədi və "İldırım sürətli müharibə" planı puça çıxdı. 1941-ci il dekabrın 7-də Yaponiya Sakit okeandakı Pirlxarbon hərbi bazasına endirdiyi qəfil zərbə ilə ABŞ-a qarşı müharibəyə başladı.

1942-ci il noyabrın 19-da Sovet qoşunları Stalinqrad ətrafında gedən döyüşlərdə əks hücuma keçdi və düşmənin 330 minlik qoşununu mühasirəyə alıb, darmadağın etdi.

Stalinqrad (indiki Volqoqrad) ətrafındakı qələbə faşist Almaniyasını sarsıtdı, onun hərbi və siyasi nüfuzunu aşağı saldı, işğal olunmuş ölkələrdə milli azadlıq mübarizəsinin inkişafına güclü təkan verdi.

1945-ci ilin mayında Berlin və Praqa əməliyyatlarında alman-faşist qoşunlarının sonuncu qruplaşmaları da məhv edildi.

Mayın 8-də V.Keytelin başçılığı ilə Almaniya ali komandanlığının nümayəndələri faşist Almaniyası silahlı qüvvələrinin

danışıqsız təslim olması haqqında aktı imzaladılar. Sentyabrın 2-də Yaponiya hökuməti də təslim olması haqqında sənəd imzaladı və bununla da İkinci Dünya müharibəsi başa çatdı.

İkinci Dünya müharibəsi 2194 gün davam etdi və müharibədə iştirak edən dövlətlərin əhalisinin ümumi sayı 1,7 milyarda yaxın olmuşdur. Ön cəbhəyə 115 milyon əsgər və zabit çağırılmışdı. Bu müharibə tarixində baş vermiş müharibələrin ən dağıdıcısı idi. Təkcə Avropaya hərbi dağıntıdan dəyən maddi zərər tam olmayan məlumata görə 270 milyarad dollar (1938-ci il qiymətlərinə görə) təşkil etmişdir. İkinci Dünya müharibəsində 50 milyondan çox adam həlak olmuş, SSRİ-nin itkisi 27 milyon nəfər təşkil etmişdir.

Azərbaycan xalqı da faşizmə qarşı vahid cəbhədə döyüşən digər xalqlar ilə birlikdə Vətənin müdafiəsinə qalxdı. Bakı neftçilərinin fədakarlığı nəticəsində müharibənin 4 ili ərzində ölkəyə 75 milyon ton neft vermişdi. Müharibə dövründə Azərbaycan zəhmətkeşləri Sovet ordusunu yüksək keyfiyyətli benzin, sürtkü materialları, müxtəlif silahlar, ərzaq və döyüş sursatı ilə təchiz edirdi.

Ön cəbhədə xalqımızın igid oğul və qızları düşmənə qarşı qəhrəmancasına vuruşmuşdur. Azərbaycan döyüşçülərindən 123 nəfəri Sovet İttifaqı Qəhrəmanı adına, tank qoşunları general-mayoru Həzi Aslanov isə bu ada iki dəfə layiq görülmüşdür.

Ədəbiyyat

Azərbaycan Respulikası.- B., 2000.- 652 s.

Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları: (Məqalələr məcmuəsi).- B.: Azərnəşr, 1963.- 247 s.

Aslanov, M. Azərbaycan döyüşçülərinin partizan hərəkatında iştirakı: (1941-1944-cü illər).- B.: Elm, 1975.- 250 s.

Mehdixanlı, T. Sönən ocaqlar: İkinci Dünya müharibəsi - 60 //Azərbaycan.- 2005.- 11 yanvar.- S. 4.

Rus dilində

История второй мировой войны. 1939-1945.- T. 1.-10.- M., 1973-1979.

Жилки, Г.А. Как фашистская Германия готовила нападение на Советский Союз: 2-е издание.- M, 1966.- 531 с.

İnternetdə

www.weltkrieg.ru http://1939-1945.net.

Məmməd Məmmədov

5 Sentyabr

65 illiyi

Hidayət Orucov
1944

Şair

Hidayət Xuduş oğlu Orucov 1944-cü il sentyabr ayının 5-də, Qərbi Azərbaycanda Meqri rayonunun Maralzəmi kəndində anadan olmuşdur. 1953-cü ildə Maralzəmi ibtidai məktəbinə getmiş, sonra Lök və Aldərə kəndlərində oxumuş, S.Vurğun adına orta məktəbi qızıl medalla bitirmişdir.

1963-1968-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Filologiya fakültəsində təhsil almışdır.

1966-1968-ci illərdə "Sovet Ermənistanı" qəzetində ədəbi işçi işləmiş, 1968-ci ilin iyul ayından C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru təyin olunmuş, fasiləsiz olaraq 16 il xalqımızın bu qədim sənət ocağına başçılıq etmişdir. O, eyni zamanda Ermənistan Yazıcılar İttifaqının Azərbaycan Ədəbiyyatı Şurasına rəhbərlik etmiş, İrəvan Pedaqoji İnstitutunun Azərbaycan şöbəsində XIX-XX əsr Azərbaycan ədəbiyyatından dərs demişdir. 1984-1986-cı illərdə "Gənclik" nəşriyyatında baş redaktorun müavini, 1986-1992-ci illərdə baş redaktor olmuşdur.

1992-2005-ci illər Azərbaycan Respublikası Prezidentinin Millətlər arası Münasibətlər üzrə müşaviri vəzifəsində işləmişdir.

Hal-hazırda Dini qurumlar üzrə Dövlət komitəsinin sədri vəzifəsində işləyir.

"Nəyin var" adlı ilk şeiri 1963-cü ildə "Ədəbi Ermənistan" məcmuəsində dərc olunmuşdur. Bu vaxtdan dövri mətbuatda müntəzəm çıxış edir. O, poetik yaradıcılıqla bərabər, dramaturgiyaya, bədii tərcüməyə də xüsusi diqqət vermiş, "Uçan nəğmələr", "Bu yaşımda", "Tom dayının daxması" kimi iri həcmli kitabları tərcümə etmişdir. O, 1978-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

H.Orucov 1980-1984-cü illərdə Ermənistan Yazıçılar İttifaqının İdarə Heyətinin üzvü və Azərbaycan ədəbiyyatı dərnəyinin sədri olmuşdur. O,

1974-1984-cü illərdə həmçinin Ermənistan Teatr cəmiyyətinin üzvü seçilmişdir.

H.Orucov 1970-ci ildə "Əməkdə igidliyə görə" medalı, 1978-ci ildə Azərbaycan Ali Sovetinin Rəyasət Heyətinin Fəxri fərmanına, 1991-ci ildə Əməkdar incəsənət xadimi, 2002-ci ildə Gürcüstanın "Şöhrət" ordeninə layiq görülmüşdür.

H.Orucov Azərbaycan və digər dillərdə çap olunmuş 40-dan çox kitabın müəllifidir.

Ədəbiyyat

Bir teatrın üç aktyoru.- İrəvan: Ermənistan teatr cəmiyyəti, 1977.- 60 s.

Evimiz analı olsun.- B.: Yazıçı, 1981.- 101 s.

Həsrət.- B.: Göytürk, 1998 .- 122 s.

Ələsgərov, B. Hidayət: Biblioqrafik göstərici.- B.: Nağıl evi, 2001.- 404 s.

Hərdən xatırla məni.- B.: Göytürk, 1998.- 129 s.

Heydər Əliyev və Azərbaycanda milli siyasət.- B.: Şərq-Qərb, 2002.- 172 s.

İrəvana 7 məktub.- B.: Əbilov, Zeynalov və oğullar, 2004.- 82 s.

Qatardan məktub.- B.: Yazıçı, 1986.- 159 s.

Mir Cəlal dünyasından sətirlər.- B.: Yazıçı, 2006.- 84 s.

Sabaha çox var.- B.: Yazıçı, 1989.- 408 s.

Sözün vaxtı.- B.: Kitab cəmiyyəti, 1995.- 76 s.

Ömrümün səhimləri.- B.: AMEA, 2002.- 476 s.

Zəngəzurda doğuldum.- B.: Əbilov, Zeynalov və oğullar, 2005.- 600 s.

Rus dilində

Беженцы.- Б.: Гянджлик, 1992.- 488 с.

Самед Вургун.-Б.: Гянджлик, 1986.- 224 с.

Вехи мира Мир Джалала.- Б.: Абилов, Зейналов и сыновья.- 2006.- 84 с.

Bəybala Ələsgərov

Sentyabr

7

70 illiyi

Mənsur Vəkilov
1939-2008

Şair

Vəkilov Mənsur Fəxri oğlu (Mənsur Fəxri) – şair, tərcüməçi, ssenarist. 1968-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, 2003-cü ildən Əməkdar incəsənət xadimidir.

1939-cu il sentyabrın 7-də Bakıda anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra ADU-nun Filologiya fakültəsində təhsil almışdır, (1956-1961). İlk şeirlərini ("Parta", "İnstitut dəhlizlərində") "Литературный Азербайджан" (1959, № 8) jurnalında dərc etdirmişdir. Rus dilində yazıb-yaradan Mənsur Vəkilovu oxucular "Avar səsi", "Sonuncu etiraf", "Qarşıdan atılan güllə", "Payız uçuşu" şeir kitablarının müəllifi kimi tanıyırlar. Şair 1961-1963 cu illərdə "Молодёжь Азербайджана" qəzeti redaksiyasında ədəbi işçi, sonra məsul katib vəzifələrində çalışmışdır. 1968-1969-cu illərdə Moskvada ssenaristlərin ali kursunda dinləyici olmuşdur. 1991-ci ildən isə "Литературный Азербайджан" jurnalının baş redaktoru işləmişdir. Elə həmin ildə Azərbaycan Yazıçılar Birliyinin katibi seçilmişdir. 1963-cü ildə gənc yazıçıların IV Ümumittifaq müşavirəsinin, 1967- ci ildə isə Moskvada keçirilən gənc poeziya günlərinin iştirakçısı olmuşdur.

Azərbaycan yazıçılarının V və VI qurultaylarında təftiş komissiyasının üzvü, VII, VIII qurultayında isə Azərbaycan Yazıçılar Birliyi idarə heyətinin xüsusi üzvü seçilmişdir. Mənsur Vəkilov poetik yaradıcılığında bədii tərcüməyə diqqət vermişdir: Zeynal Xəlil, Süleyman Rəhimov, Əbülhəsən, Əli Kərim, Bəxtiyar Vahabzadə, Fikrət Qoca və digər həmkarlarının əsərlərini rus dilinə çevirmişdir. Mənsur Fəxri 1981-ci ildə Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fərmanı, 1986-ci ildə isə "Şərəf nişanı" ordeni və A.S.Puşkin medalı ilə təltif edilmişdir.

Şairin şeirlərində insan və zaman haqqında düşüncələr, doğma torpağa məhəbbət, sabahı düşünən qanadlı duyğular onun

yaradıcılığına xas olan cəhətlərdir.

"Payız uçuşu"- Mənsur Vəkilovun Azərbaycan dilində çap olunan ilk kitabıdır.

Ədəbiyyat

Payız uçuşu .-B.:- Gənclik, 1983.- 78 s.

Lirika.-B.: Kitab cəmiyyəti nəşriyyatı, 2000.- 80 s.

Rus dilində

Встречный выстрел: (Стихи и поэма) /Мансур Векилов.- Б.: Язычы, 1980.- 144 с.

Последнее признание : Стихи /Мансур Векилов.- Б.: Гянджлик», 1977.- 95 с.

Плеск весла (Стихи).- Б.: Гянджлик, 1970.- 108 с.

Сегодня еще не поздно : (Стихи и поэма) /Мансур Векилов.- Б.: Язычы, 1987- 156 с.

Море моё. Стихи /пер. на азерб.Ф. Годжа, Ч. Алиоглу.- Б.: Юрд ИПО, 2006.- 112 с.

Воля, С. Завораживают с первых строчек: (презентация в Музее Литературы им. Низами Мансура Векилова //Бакинский рабочий.- 2002.- 21 февраля.- С. 4.

Jalə Məmmədova

Sentyabr

11

115 illiyi

Aleksandr Petroviç Dovjenko 1894-1956

Ukrayna rejissoru

Ukrayna sovet kino-rejissoru, yazıçı və kino-dramaturq, RSFSR Xalq artisti (1950), SSRİ Dövlət mükafatı laureatı (1941, 1949), Lenin mükafatı laureatıdır (1959, ölümündən sonra).

Dovjenko Aleksandr Petroviç 11 sentyabr 1894-cu ildə, indiki Çerniqov vilayətinin Sosnitsı kəndində anadan olmuşdur. 1912-ci ildə Qluxov Müəllimlər İnstitutunu bitirmşdir. 1926-cı ildə öz ssenarisi əsasında "İslahatçı Vasya" adlı ilk filmini (birgə iş) çəkmişdir.

1927-ci ildə lentə aldığı "Diplomatik kuryerin çantası" macəra filmində sovet diplomatlarının qəhrəmanlığı təsvir olunmuşdur. Vətəndaş müharibəsindən, Ukrayna xalqının tarixi keçmişi, inqilabi yolundan, Ukrayna kəndlilərinin kollektivləşmə uğrunda mübarizəsindən bəhs edən "Zveniqora" (1928), "Arsenal" (1929), "Torpaq" (1930) filmləri sovet kino sənətinin inkişafında mühüm mərhələ təşkil edir. Kinematoqrafiya tarixi bürosunun tənqidçiləri arasında keçirilən beynəlxalq sorğuda (1958, Brussel) "Torpaq" filmi bütün dövrlərin və xalqların 12 ən yaxşı filmindən biri hesab olunmuşdur. Dovjenko 1932-ci ildə ilk səsli sovet kino əsərlərindən olan "İvan", 1935-ci ildə isə "Aeroqrad" filmini çəkmişdir. Böyük Vətən müharibəsi illərində (1941-1945) Dovjenko hərbi müxbir kimi, publisistik məqalələr, hekayə və oçerklər yazmışdır. Onun "Azadlıq" (1940), "Bizim Sovet Ukraynası uğrunda vuruşma" (1943), "Sağsahil Ukraynasında qələbə" (1945) sənədli filmləri poetik kinopublisistikanın görkəmli nümunələrindəndir.

Müharibədən sonrakı illərdə "Çiçəklər qoynunda" pyesinin ssenarisini yazmış, onun əsasında "Miçurin" (1949) rəngli

bədii filmini yaratmışdır. Dovjenkonun filmləri üçün yüksək romantika və kəskin satira, lirika, siyasi publisistika, hadisələrin epik şərhi səciyyəvidir. Görkəmli kinorejissorun ssenariləri üzrə rejissor Y.Solntseva "Dəniz haqqında poema" (1953), "Alovlu illərin povesti" (1961), "Məftun olmuş Desna" (1965) filmlərini çəkmişdir.

Dovjenko filmlərinin ssenarisini əsasən özü yazmışdır. 1945-1951 və 1955-ci ildən Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda pedaqoji fəaliyyət göstərmişdir. Dovjenkonun yaradıcılığı, estetik görüşləri sovet və dünya sənətinin inkişafına böyük təsir göstərmişdir. Bir çox filmi beynəlxalq kino festivallarında mükafata layiq görülmüşdür.

Kiyev bədii filmlər kinostudiyasına Dovjenkonun adı verilmişdir. Lenin ordeni, Qırmızı əmək ordeni və medallarla təltif edilmişdir. 25 noyabr 1956-cı ildə Moskva şəhərində vəfat etmişdir.

Ədəbiyyat

Aleksandr Petroviç Dovjenko : Anadan olmasının 90 illiyi //Yeni filmlər 1984.- № 9 .- S.1.

"Alovlu sənətin əsgəri": Aleksandr Dovjenko – 90 //Ədəbiyyat və incəsənət.- 1984.- 28 sentyabr.- S.4.

Rus dilində

Барабаш, Ю.Я Довженко. Некоторые вопросы эстетики и поэтики.- М.: «Худож.лит.», 1968. – 271 с.

Думы у карты Родины .- Л.:Лениздат,1983.-463 с.

Земля: Книга-фильм.- М.: Бюро пропаганды сов. киноискусство, 1966. -186 с.

Повесть пламенных лет: Киносценарий. - М.: «Искусство», 1963.- 214 с.

Марьяков, А.М. Довженко.- М., «Мол. Гвардия», 1968.-383 с.

«Я принадлежу к лагерю поэтическому…» : Статьи, выступлении, заметки.- М., «Советский писатель», 1967.- 403 с.

Şəhla Məmmədli

Sentyabr
14

70 illiyi

Aslan Qəhrəmanov
1939

Nasir



Nasir, dramaturq fizika-riyaziyyat elmləri namizədi Qəhrəmanlı Aslan Qəhrəman oğlu 1939-cu ilin sentyabr ayının 14-də Ağstafa rayonunun Yenigün kəndində anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra 1956-cı ildə ADU-nin Mexanika-riyaziyyat fakültəsinə qəbul olmuşdur. 1961-ci ildə həmin fakültəni bitirmişdir.

1961-ci ildən əmək fəaliyyətinə Azərbaycan EA-nın hesablama mərkəzində başlamışdır. 1984-cü ildən Azərbaycan Neft Kimya İnstitutunun tətbiqi riyaziyyat kafedrasının dosentidir.

"Dağların mahnısı" adlı ilk hekayəsi 1967- ci ildə "Gənc qələmlər" almanaxında dərc olunmuşdur. Həmin ildən dövri mətbuatda müntəzəm çıxış edir. "Spektr", "Döngə", "Burulğan", "Şəni axtarıram", "Səndən xəbərsiz", "Bağışla" və s. telepyesləri Azərbaycan televiziyasında dəfələrlə tamaşaya qoyulmuşdur. 1986-cı ildə Azərbaycan televiziyasının "Müasirlərimiz" devizi ilə ən yaxşı televiziya pyeslərinin müsabiqəsində müəllifin "Ürək" pyesi ikinci mükafata layiq görülmüşdür.

Ədəbiyyat

Daş dönmüşlər şəhəri (nağıllar və fantastik hekayələr).- B., 2007.- 207 s.

Energetikanın riyazi məsələləri.-B., 1989.- 45 s.

Qızıl zəncirli açar (povestlər və hekayələr) .- B.: Yazıçı, 1990.- 224 s.

Səni axtarıram (pyeslər və hekayələr).- B.: Gənclik, 1998.- 104 s.

Sevgiyə Əsədova

Sentyabr

15

220 illiyi

Kuper Ceyms Fenimor 1789-1851 Amerika yazıçısı



Amerikan yazıçısı, Amerika ədəbiyyatında romantizmin görkəmli nümayəndəsi Ceyms Kuper Fenimor 1789-cu ildə, sentyabr ayının 15-də Nyu-Cersi ştatında Börlinqton şəhərində anadan olmuşdur. Amerikanın milli istiqlaliyyət uğrunda mübarizəsindən bəhs edən "Casus"(1821), "Pirat" (1822), "Losman" (1823), "Layonel Linkovı" (1825) tarixi romanlarının müəllifidir. "Hindi silsiləsi" romanlarında ("Pionerlər" 1823, "Sonuncu mogikan", 1826, "Ləpirçi" 1840, "Vəhşi heyvan ovçusu" 1841) romanında kapitalist sivilizasiyasını tənqid etmiş, hindilərin vəhşicəsinə qırılmasının əleyhinə çıxmışdır. "Amerikalı demokrat" (1838) publisistik traktatında, "Monikinlər" (1835) satirasında, "Evə" (1838), "Evdə" (1838), romanlarında Amerika demokratiyasını qətiyyətlə pisləmişdir. 14 sentyabr 1851-ci ildə Kuperstaun şəhərində vəfat etmişdir.

Ədəbiyyat

"Sonuncu mogikan".- B., 1958

" Ləpirçi".- B., 1959.

Rus dilində

Следопыт или на берегах Онтарио.- Сыктывкар, 1991.

Иванко, С.С. Фенимор Купер .- М, 1990.

Рафикова, Э.Е. Фенимор Купер в оценке В. Г. Белинского. Сб. науч. тр /Ташкентского Университета.-Ташкент, 1980.- № 642.- С. 99-101.

Шпион, или Повесть о нейтральной территории. - Минск, 1992.

Zemfira Qəhrəmanova

20 Sentyabr

15 illiyi

Əsrin müqaviləsi 1994

Əsrin müqaviləsi ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firəvan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, XXI əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır.

Heydər Əliyev, ümummilli lider

Əsrin əvvəllərində bizim neft sənayeçilərimiz dünya bazarlarında Avropanın və Şimali Amerikanın neft şirkətləri ilə uğurlu rəqabət aparırdılar. Eyni zamanda həmin illərdə xarici sərmayədarlar Azərbaycanda neftçıxarmanın, neftayırmanın, neft maşınqayırmasının, nəqliyyat kommunikasiyalarının inkişafına böyük kömək göstərirdilər.

Birinci Dünya müharibəsi qurtarıb Rusiya imperiyası parçalanandan sonra Azərbaycan müstəqil inkişaf yoluna qədəm qoydu. Cəmi 23 ay ömür sürmüş Azərbaycan Demokratik Respublikası bu imkandan hərtərəfli istifadə edə bilmədi, lakin indi ölkəmizin və onun vətəndaşlarının tərəqqisi naminə dövlətçiliyin, demokratik təsisatların bərqərar olunub möhkəmlənməsi üçün yenidən real şərait yaranmışdır.

Hazırda Azərbaycan Respublikasının neft sənayesi öz inkişafının keyfiyyətcə yeni mərhələsindədir ki, bu da, bir tərəfdən, ən əvvəl respublikanın 1991-ci ildə müstəqillik əldə etməsi, digər tərəfdən, çox böyük neft və qaz yataqlarının aşkar edilməsi, onları mənimsəmək üçün geniş perspektivlər açılması sayəsində mümkün olmuşdur.

Azərbaycan iqtisadiyyatına xarici sərmayələrin geniş miqyasda cəlb edilməsinə hələ 1990-ci ildə, keçmiş SSRİ-nin mövcud olduğu dövrdə başlanmışdır.

Lakin onda da və Azərbaycan siyasi müstəqillik əldə edəndən sonra da dəqiq strategiya, möhkəm siyasi iradə və sarsılmaz qətiyyətin olmaması, həmçinin daxili və xarici qarşıdurmalar bu prosesi müvəffəqiyyətlə başa çatdırmağa imkan vermədi. Təqribən üç il davam edən danışıqlar 1993-cü ildə çıxılmaz vəziyyətə düşdü.

1994-cü ilin fevralından başlayaraq ilin sonuna kimi ardıcıl surətdə yeni, çox məsul qərarlar qəbul etmək, konkret əməli işlər görmək

lazım gəldi ki, təkcə bizim respublikamız üçün deyil, o cümlədən Azərbaycanla həmsərhəd dövlətlər üçün böyük və prinsipial əhəmiyyətə malik sənəd – "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının işlənməsi və neft hasilatının pay bölgüsü haqqında Saziş bütün iştirakçılar tərəfindən razılaşdırılıb imzalansın və Azərbaycan Parlamenti tərəfindən təsdiq edilsin. Son mərhələdə altı dövləti – ABŞ-ı, Böyük Britaniyanı, Rusiyanı, Norveçi, Türkiyəni və Səudiyyə Ərəbistanını təmsil edən "AMOKO", "Bi-Pİ", "Pennzoyl", "Yunokal", "Statoyl", "Mak Dermott", "Lukoyl", "Türkiyə Petrolleri Anonim ortaqlığı", "Delta" və "Remko" kimi güclü şirkətlərin daxil olduğu Xarici Neft Şirkətləri Konsorsiumu ilə üç ildən çox aparılan danışıqlar 1994-cü il sentyabrın 20-də Bakıda Sazişin təntənəli şəkildə imzalanması mərasimi ilə başa çatdı. Mərasimdə danışıqların iştirakçıları ilə yanaşı, şirkətləri konsorsiuma daxil olan ölkələrin hamısının nümayəndə heyətləri də iştirak edirdilər.

1994-cü ilin sentyabrın 20-də "Gülüstan" sarayında Azərbaycan, Böyük Britaniya, Norveç, Rusiya, Səudiyyə Ərəbistanı, ABŞ və Türkiyənin Xəzər dənizinin sahilində neft yataqlarının birgə işlənməsi haqqında Azərbaycan Dövlət Neft Şirkəti ilə müqavilə imzalanması münasibətilə təntənəli mərasim keçirilmişdi.

Mərasimdə toplaşanlar Azərbaycan Prezidenti Heydər Əliyevi səmimi salamladılar. O, imzalama mərasimini açaraq nitq söyləmişdi.

Xəzər dənizinin Azərbaycan sektorunda ümumi sahəsi 432, 4 km^2 olan "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında Saziş respublikanın siyasi və iqtisadi həyatında unikal bir hadisədir.

Məqsəd birdir - Azərbaycanın malik olduğu imkanlardan tam istifadə etmək.

Müqavilənin imzalanması mərasimində Heydər Əliyev və xarici qonaqlar təbrik və minnətdarlıq sözü ilə Azərbaycan xalqına müraciət etmişlər. "Britiş Petroleum" şirkətinin prezidenti Con Braun, "AMOKO" şirkətinin prezidenti Uilyam Laurin, "Penzoyl" şirkətinin prezidenti Tom Hamilton, Türkiyənin Dövlət naziri Nəcməddin Gövhəri, Böyük Britaniyanın Energetika naziri Timoti Edqar, ABŞ Energetika nazirinin müavini Uilyam Uayt, Norveçin Sənaye və energetika nazirinin birinci müavini Quunar Murvanq, Rusiya Federasiyasının Yanacaq və Energetika Nazirliyi Baş idarəsinin rəisi Stanislav Puqaçov, İslam İnkişaf Bankının prezidenti Osam Cəfər Fakihin çıxış edərək, müqavilənin müvəffəqiyyətindən danışdılar.

Mərasimdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev

yekun nitqi söylədi və mətbuat konfransı keçirildi.

"Əsrin müqaviləsi" adını almış "Azəri-Çıraq-Günəşli" və "Bakı-Tbilisi-Ceyhan" neft kəmərləri özü-özlüyündə hazırda dünyada həyata keçirilən ən böyük neft layihələrindən biridir. Bu, istər hasil olunacaq karbohidrogen ehtiyatlarının və Azərbaycana gətirəcəyi gəlirlərin həcminə, istərsə də layihə çərçivəsində işə cəlb edilmiş insanların sayına görə dünya səviyyəli bir işdir. Təkcə "Azəri"dən təxminən 35 milyon barrel neft çıxarılması nəzərdə tutulur. Bu gündəlik hasilatın orta heasabla 93 min barrel olması deməkdir. 30 düyümlük yeni sualtı boru kəməri hasil olunan nefti Səngəçal terminalına çatdırır. Bakı-Tbilisi-Ceyhan kəməri işə düşəndən sonra onun vasitəsi ilə nəql olunacaq. 2008-ci ildən Azəri-Çıraq-Günəşli yatağının dərinlikdə yerləşən hissəsi artıq neft verir. Beləliklə, 1994-cü ilin sentyabrında imzalanmış Hasilatın Pay Bölgüsü Sazişi 30 il qüvvədə olacaq. Bu dövr ərzində "Azəri-Çıraq-Günəşli" yataqlarının 5,4 milyard barrel neft verəcəyi gözlənilir.

Ədəbiyyat

Bünyadov, Z. Azərbaycan tarixi.- B.: Elm, 1994.- 606 s.

Əsrin müqaviləsi.- B.: MBM, 2004.- 182 s.

Adilqızı, N. Dünyada analoqu olmayan dostluq neft kəməri //Respublika.- 2004.- 3 mart.- S. 7.

Camalov, Y. Neft sənayesində yeni eranın başlanğıcı //Respublika.- 2004.- 19 sentyabr.- S. 4.

Əliyev, Q. "Əsrin müqaviləsi" beynəlxalq əhəmiyyətli hadisədir //Azad Azərbaycan.- 2005.- 20 sentyabr.- S. 4.

"Əsrin müqaviləsi" çərçivəsində neft və səmt qazı hasilatı artır //Xalq qəzeti.- 2006.- 8 may.- S.6.

İsmayılov, V. H.Əliyev diplomatiyası qalib gəldi //Azərbaycan.- 2004.- 14 noyabr.- S. 4.

Əsrin müqaviləsi.- B.: Azərnəşr, 1996.- 110 s.

Nəsibli, N. Azərbaycan geopolitikası və neft .- B.: Elm, 2001.- 118 s.

Kərimov, K. Ölkəmizə milyardlarla dollar xarici sərmayə qoyuluşu reallaşıb//Xalq qəzeti.- 2004.- 22 sentaybr.- S. 3.

Sadıqlı, E. Azərinin ilin nefti Əsrin müqaviləsinin kulminasiya nöqtəsidir //Azərbaycan.- 2005.- 17 fevral.- S. 3.

Vəliyev, Ə. Bəşəriyyət ünvanı.- B.: Elm, 2002.- 116 s.

Bəybala Ələsgərov

Sentyabr

21

50 illiyi

Nizami Cəfərov
1959

Elm xadimi

Nizami Qulu oğlu Cəfərov 1959-cu ilin sentyabrın 21-də Azərbaycanın Ağstafa rayonunun Zəlimxan kəndində müəllim ailəsində anadan olmuş, Zəlimxan kənd səkkizillik, Yenikənd kənd orta məktəbini bitirib 1977-ci ildə Azərbaycan indiki Bakı Dövlət Universitetinin Filologiya fakültəsinə daxil olmuş və 1982-ci ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirib Azərbaycan dilçiliyi ixtisası üzrə aspiranturaya daxil olur.

1985-ci ildə "Sadə cümlənin struktur semantik təkamülü (inkişafı)" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. Əmək fəaliyyətinə Azərbaycan MEA Nəsimi adına Dilçilik İnstitutunda kiçik elmi işçi kimi başlayır.

Müasir Azərbaycan dilçiliyinin və nəzəri linqvistikanın ayrı-ayrı problemlərinə həsr etdiyi məqalələri dövri mətbuatda dərc olunmuşdur. Burada sosioloji tənqiddən daha çox sözün bədii funksiyasına, ayrı-ayrı yazıçıların yaradıcılığının bədii-estetik özünəməxsusluğuna, üslub məsələlərinə, qədim türk dili ədəbi abidələrin dilinə tədqiqatçı linqvist alim kimi diqqət yetirmişdir.

İnstitutun elmi-ictimai həyatında fəal iştirak edən N.Cəfərov tezliklə Gənc Alimlər Şurasının sədri seçilir, elmi araşdırmalarını davam etdirmək şərtilə yanaşı, milli müstəqillik uğrunda ideya mübarizəsini aparan gənc intellektualların sırasına qoşulur.

1987-1991-ci illərdə "Ədəbiyyat və incəsənət" qəzetinin tənqid və ədəbiyyatşünaslıq şöbəsinə başçılıq etmişdir. O, türkçülük, azərbaycançılıq ideyalarının təbliğinə fikir verirdi.

N.Cəfərov 1991-ci ildə "XVIII əsr Azərbaycan türk ədəbi dili" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Sonra Universitetin Türkologiya kafedrasında müəllim, baş müəllim, professor kimi çalışmışdır.

1994-2001-ci illərdə Filologiya fakültəsinin de-

kanı olmuşdur. Hazırda BDU-nun ümumi dilçilk kafedrasının, eyni zamanda Azərbaycan Atatürk Mərkəzinin müdiri vəzifələrində çalışır. O, 2001-2003-cü illərdə Azərbaycan Ali Attestasiya Komissiyasının Dilçilik üzrə doktorluq müdafiə şurasının sədri olmuşdur. 2003-cü ildən filologiya elmləri üzrə Ekspert Şurasının sədridir.

N.Cəfərov 1993-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, 2000-ci ildən Əməkdar elm xadimi, 2001-ci ildən Azərbaycan MEA-nın müxbir üzvü, 2002-ci ildən Millət vəkilidir. O, bir Millət vəkili kimi Azərbaycan dilinin dövlət dili olaraq öz siyasi-ideoloji mövqelərini gücləndirilməsi uğrunda fəal mübarizə aparır. 2004-cü ildən Mətbuat Şurasının İdarə Heyətinə üzv seçilmişdir. Azərbaycan "Bilik" Maarifçilik Cəmiyyətinin qərarı ilə "Yusif Məmmədəliyev adına medal"la təltif olunmuşdur.

Ədəbiyyat

Azərbaycan yalvarışları lüğəti.- B.: BDU, 2000.- 22 s.

Azərbaycan mədəniyyəti məsələləri.- B.: BDU, 2000.- 49 s.

Azərbaycanşünaslıq məsələləri.-B.:BDU, 2001 .- 36 s.

Azərbaycanşünaslığa giriş.- B.: BDU, 2002.- 600 s.

Azərbaycanşünaslığın əsasları.- B.: Pedaqogika, 2005.- 480 s.

Anar.- B.: Azatam, 2004. - 58 s.

Heydər Əliyev.- B.: Az Atam, 2002.- 81 s.

Klassiklərdən müasirlərə .- B.:Çaşıoğlu, 2004.- 272 s.

Qədim türk ədəbiyyatı.- B.: Çaşıoğlu, 2006.-347 s.

Türk xalqları ədəbiyyatı.- C. I.- B.: Çaşıoğlu, 2006.- 348 s.; C. II.- 318 s. ; C.- III.- 2007.- 318 s. ; C.- IV.- 2007.-360 s.

Türkologiya tarixinə ümumi bir baxış.- B.: BDU, 2000.- 92 s.

Kamal, R. Nizami Cəfərov, yaxud bir təfəkkürün poetikası.- B.: Təhsil, 2007.- 102 s.

Osmanlı, D. Nizami Cəfərov: ictimai xadim, mütəfəkkir alim, ideoloq.- B.: Adiloğlu, 2005.- 50 s.

Akademik Bəkir Nəbiyevin yaradıcılıq yolu //Respublika.- 2005.- 24 iyul.- S. 3.

Ana dilmiz xalqımızın ən böyük mənəvi sərvətidir //Xalq qəzeti.- 2006.- 1 avqust.- S.5.

Ayaz Vəfalıya açıq məktub //Ədəbiyyat qəzeti.- 2007.- 20 aprel.- S. 3.

Bütün azərbaycanlıların Prezidenti //Azərbaycan.- 2007.- oktyabr.- S. 3.

Heydər Əliyev – liderlik fenomeni //Xalq qəzeti.- 2005.- 13 dekabr.- S. 3.

Heydər Əliyev və millimənəvi yüksəlişin təməl prinsipləri //Xalq qəzeti.- 2007.- 10 may.- S. 6.

Heydər Əliyevin dövlətçilik irsi və varislik //Xalq qəzeti.- 2006.- 10 may.- S. 7.

Türk tarixinin böyük dövlət qurucusu ictimai harmoniya ustası //Xalq qəzeti.- 2006.- 17 iyun.- S. 5.

Bəybala Ələsgərov

Sentyabr
23

80 illiyi

Əfqan Əsgərov
1929

Yazıçı

Nasir, dramaturq Əfqan Hacıağa oğlu Əsgərov 1929-cu il sentyabr ayının 23-də dünyaya göz açmışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsinin jurnalistika şöbəsində 1948-1953-cü illərdə təhsil almışdır. 1953-cü ildə "Azərbaycan gəzeti" redaksiyasında şöbə müdiri kimi əmək fəaliyyətinə başlamış və 1958-ci ilədək orada işləmişdir. Bu dövrdə "O mənim oğlumdur" adlı ilk pyesi gənclik mövzusunda ən yaxşı pyeslər müsabiqəsində mükafata layiq görülmüşdür. Əsər 1954-cü ildə Gənc Tamaşaçılar Teatrında tamaşaya qoyulmuşdur. 1958-1961-ci illərdə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında redaktor, 1961-1990-cı illərdə "Kommunist" qəzeti redaksiyasında ədəbiyyat və incəsənət şöbəsinin müdiri, 1990-cı ildən "Sovet kəndi" (sonra "Həyat") qəzetinin redaktoru vəzifəsində çalışmışdır. O, bədii yaradıcılığı ilə yanaşı, ictimai işlərdə də fəallıq göstərmişdir. Onun "Dağ seli", "Sarı əlcək", "Qız atası", "Gülməyən adam" pyesləri Bakı, Gəncə və Sumqayıt teatrlarında tamaşaya qoyulmuşdur.

1958-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 1986-cı ildə Əməkdar incəsənət xadimi adına layiq görülmüşdür.

Ədəbiyyat

Tarixdən nəticə çıxarılır //Azərbaycan. – 2006. – 21 aprel. – S. 7.

Xəlilov, Q. Həyatın canlı təsviri: Əfqan Əsgərovun 50 illiyi münasibəti ilə //Ədəbiyyat və incəsənət. – 1979. – 21 dekabr. – S. 7.

Səmayə Quliyeva

Sentyabr

28

85 illiyi

Ulduz Kəngərli
1924

Professor

Texnika elmləri doktoru, professor Ulduz Səttar oğlu Kəngərli 1924-cü il sentyabr ayının 28-də anadan olmuşdur. 1952-ci ildə Azərbaycan Sənaye İnstitutunun (indiki Neft Akademiyası) Energetika fakültəsini, 1958-ci ildə isə Azərbaycan Milli EA Energetika İnstitutunun aspiranturasını bitirmişdir. 1958-1961-ci illərdə Sumqayıt şəhərindəki Elmi-Tədqiqat "Neftkimyaavtomat" Layihə İnstitutunda şöbə müdiri və Elmi-Tədqiqat Neft İnstitutunda laboratoriya rəhbəri işləmişdir. 1961-ci ildə Azərbaycan Politexnik İnstitutunda (indiki Texniki Universitet) onun rəhbərliyi ilə radiotexnika, elektronika və rabitə kafedrası təşkil edilmişdir. Alim radioelektronika sahəsində tədqiqatlar aparmış, 12 dərslik və dərs vəsaitinin, 185 elmi məqalənin, "Rusca-azərbaycanca-ingiliscə radioelektronika terminləri lüğəti"nin (1983; Cəmilə Kəngərli ilə birlikdə) müəllifidir. Elmi araşdırmaları neft sənayesində-neft quyularını qazıma və neft emalı proseslərinin avtomatlaşdırılmasında və başqa sənaye sahələrində geniş tətbiq edilmişdir.

Ədəbiyyat

Qeyri-xətti elektron dövrələri nəzəriyyəsi.- B.: Maarif, 1991.- 434 s.

Radiotexniki dövrələr və siqnallar. 2 hissədə.- hissə1-2.- B., 1978-1982.

Siqnalların verilmə nəzəriyyəsi. 2 hissədə.- hissə 1-2.- B., 1981-1983.

Səmayə Quliyeva

Sentyabr

29

105 illiyi

Nikolay Alekseyeviç Ostrovski 1904-1936

Rus yazıçısı

Rus yazıçısı Nikolay Alekseyeviç Ostrovski 1904-cü il sentyabrın 29-da Ukraynanın Rovno vilayətində fəhlə ailəsində anadan olmuşdur. Uşaqlıq illərində təhsil almaq ona nəsib olmamış, 11 yaşından işləməyə başlamışdır.

1927-ci ildə ağır iflic Nikolayı yatağa salmış, 1928-ci ildə isə gözləri tutulmuşdur. Lakin yenilməz iradəyə malik Ostrovski təslim olmamış, bütün mənəvi qüvvəsini toplayaraq yaşamaq uğrunda mübarizə aparmış, təhsilini artırmışdır. 1930-cu ilin payızında "Polad necə bərkidi" romanını yazmışdır. O, 1934-1936-cı illərdə Qərbi Ukrayna zəhmətkeşlərinin inqilabi mübarizəsindən bəhs edən 3 cildlik "Fırtınadan doğulmuşlar" romanı üzərində işləmişdir. Yazıçının əsərləri 100-dən çox dildə, o cümlədən Azərbaycan dilində dəfələrlə nəşr olunmuş, ekranlaşdırılmışdır. Lenin ordeni ilə təltif edilmişdir. 1928-1936-cı illərdə yaşadığı Soçidə, Moskvada və vətənində N.A.Ostrovskinin ev-muzeyi var. 1979-cu ildə Xmelnitski vilayətinin Şepetovka şəhərində Ostrovskinin şərəfinə xatirə kompleksi yaradılmışdır.

Ədəbiyyat

Polad necə bərkidi: Roman; Çapayev : povest /Nikolay Alekseyeviç Ostrovski.- B.: Gənclik, 1987.- 645 s.- (Dünya uşaq ədəbiyyatı)

Ostrovskaya, R. Nikolay Ostrovski /Raisa Ostrovskaya.- B.: Gənclik, 1986.- 248 s.

Rus dilində

Как закалялась сталь: роман /Николай Алексеевич Островский.- М.: Просвещение, 1986.- 348 с.

Рожденные бурей : роман /Николай Алексеевич Островский.- Минск, 1984.-191 с.

Adilə Abdullayeva

1 oktyabr
Gün çıxır
06:07
Gün batır
19:24
31 oktyabr
Gün çıxır
05:38
Gün batır
17:40

Oktyabr

24
sentyabr-
23 oktyabr

Tərəzi bürcü Nişanı havadır. Veneranın himayəsindədir. Günəşin Tərəzi bürcündən keçdiyi dövrdə? doğulanlar yumşaq xasiyyətli, parlaq

2009

Əlamətdar və tarixi günlər

1. Prokurorluq İşçiləri Günü
1. Beynəlxalq Ahıllar Günü
5. Müəllim Günü
18. Dövlət Müstəqilliyi Günü
24. Birləşmiş Millətlər Təşkilatı Günü
30. Zəngilan rayonunun işğal günü

Ca	1
C	2
Ş	3
B	**4**
Be	5
Ça	6
Ç	7
Ca	8
C	9
Ş	10
B	**11**
Be	12
Ça	13
Ç	14
Ca	15
C	16
Ş	17
B	**18**
Be	19
Ça	20
Ç	21
Ca	22
C	23
Ş	24
B	**25**
Be	26
Ça	27
Ç	28
Ca	29
C	30
Ş	31

Zəngilan rayonunun işğal günü



Erməni quldurları tərəfindən işğal olunana kimi əhalisi əsasən heyvandarlıq və tərəvəzçilik, üzümçülük və arıçılıqla məşğul olmuşdur. Avropada ən böyük çinar meşəliyi də Zəngilan rayonunun ərazisində yerləşir. Burada dövlət qoruğu yaradılmışdı.

Rayon ölkənin cənub-qərbində alçaq dağlıq və dağətəyi ərazidə yerləşir. Rayon həmçinin molibden, qızıl, qranit və digər yeraltı ehtiyatlarla da zəngindir. Rayon 1993-cü ildə tamamilə erməni silahlı dəstələri tərəfindən işğal edilmişdir.

Prokurorluq İşçiləri Günü (01.10.1998)

Şair Cəbrayılov Vaqif İsib oğlunun (Vaqif Bayatlı Önər) (01.10. 1949) anadan olmasının 60 illiyi

Beynəlxalq Ahıllar Günü (01.10.1992)

Dövlət çevrilişinə (04.10.1994) cəhd edilməsinin 15 ili

Müəllim Günü (5 oktyabr)

Ukrayna şairi, SSRİ Dövlət mükafatı laureatı Bajan Mikolo Platanoviçin (09.10.1904-23.11.1983) anadan olmasının 105 illiyi

Rus şairi Lermontov Mixail Yuryeviçin (15.10.1814-27.07.1841) anadan olmasının 195 illiyi

Azərbaycanın Əməkdar incəsənət xadimi, şair İsgəndərov Əliağa Məmmədqulu oğlunun (Əliağa Vahid) (15.10.1894-01.10.1965) anadan olmasının 115 illiyi

Azərbaycanın Əməkdar elm xadimi, ədəbiyyatşünas Həbibov İsa Əkbər oğlunun (İsa Həbibbəyli) (16.10.1949) anadan olmasının 60 illiyi

Azərbaycanın Əməkdar incəsənət xadimi, şair Rzayev Hüseyn Məmməd oğlunun (Hüseyn Razi) (17.10.1924-27.02.1998) anadan olmasının 85 illiyi

Dövlət Müstəqilliyi Günü (18.10.1991)

Bəstəkar Cavid Ərtoğrul Hüseyn Cavid oğlunun (22.10.1919-14.10.1943) anadan olmasının 90 illiyi

Ədəbiyyatşünas, professor Mikayılov Şəmistan Abdu oğlunun (24.10.1929) anadan olmasının 80 illiyi

Birləşmiş Millətlər Təşkilatı Günü (24.10.1945)

Zəngilan rayonunun işğal (30.10. 1993) günü

Oktyabr

1

60 illiyi

Vaqif Bayatlı Önər

1949

Şair

Çağdaş Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən biri də Vaqif Bayatlı Önərdir. Vaqif Cəbrayılov 1949-cu il oktyabrın 1-də Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində anadan olmuşdur. O, Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun Sənaye və Mülki Tikinti fakültəsində təhsil almışdır.

Vaqif Bayatlı 1992-ci ildən Azərbaycan Televiziya və Radio Şirkətinin xarici ölkələrə verilişlər studiyasının direktoru vəzifəsində çalışır. 1991-ci ildə Azərbaycan Yazıçılar Birliyi katibliyi idarə heyətinə (gənclərlə iş üzrə) katib seçilmişdir. Dəfələrlə Sovet ədəbiyyatı günlərində, ümumittifaq konfranslarında, XI poeziya festivalında iştirak etmişdir.

Görkəmli şair 1993-cü ildə Azərbaycan mətbuat fondunun Mirzə Cəlil mükafatına və Moskvanın "Molodaya qvardiya" nəşriyyatının kütləvi tirajla buraxdığı "Sıçrayış" kitabına görə Gürcüstan Nazirlər Sovetinin V.Mayakovski mükafatına layiq görülmüşdür.

Ədəbiyyat

Unudulacaq bütün sevdalar.-B.: Yazıçı, 1986.-110 s.

Ölənəcən sevmək azdır.-B.:Yazıçı, 1990.-126 s.

Ən gülməli ölü: Şeirlər .-B.: Azərb.Tərc. Mərk., 1998.-319 s.

Behrudi, R. İblisin heybəsindəki incil:[Vaqif Bayatlı Önərə məktub] //Azadlıq.-2006.- 6 iyul.-S.12.

Hacıyev, T. Adı da sərbəst şeir olan şair: [Vaqif Bayatlı Önər haqqında] //Ədəbiyyat qəzeti.-1998 . -23 oktyabr.-S.3.

Hicran Bəşirova

9 Oktyabr

105 illiyi

Mikolo Bajan Platonoviç 1904-1983

Ukrayna şairi

Mikolo Bajan Platonoviç 1904-cü il 9 oktyabr tarixində Ukraynanın Kamenets-Polodski şəhərində anadan olmuşdur. 1951-ci ildə Ukrayna SSR Elmlər Akademiyasının üzvü, 1946-1949-cu illərdə SSRİ Dövlət mükafatı laureatı olmuş, 1974-cü ildə Sosalist Əməyi Qəhrəmanı adını almışdır. "On yeddinci patrul" adlı ilk şeir kitabı 1923-cü ildə nəşr edilmişdir.

Böyük Vətən müharibəsi illərində Mikolo Bajan işğal edilmiş vilayətlərin əhalisi üçün buraxılan "Za Padyansku Ukrainu" (Sovet Ukraynası uğrunda) qəzetinin redaktoru olmuşdur. Müharibə illəri və ondan sonrakı illərdəki yaradıcılığının əsas mövzusu xalqlar dostluğu, sülh uğrunda mübarizədir.

Mikolo Bajan Ş.Rustavelinin "Pələng dərisi geymiş pəhləvan", Ə.Nəvainin "Fərhad və Şirin" poemalarını, A.S.Puşkinin, B.B.Mayakovskinin, A.Mistkeviçin əsərlərini ukrayna dilinə tərcümə etmişdir.

1978-ci ildən Ukrayna Sovet Ensiklopediyasının baş redaktoru, SSRİ Ali Sovetinin deputatı olmuşdur. Dörd dəfə Lenin ordeni, müxtəlif orden və medallarla təltif olunmuşdur.

23 noyabr 1983-cü ildə vəfat etmişdir.

Ədəbiyyat

Abdulla, A. Bajan məktəbi /Ukrayna Sovet şairi Mikola Bajanın anadan olmasının 80 illiyi münasibətilə //Kitablar aləmində.-1984.- №4.- S.19-21.

Rus dilində

Избранные произведения: В.2-х т.-М.: Худож. лит., 1984

Адельгейм, Е.Г. Микола Бажан.- М.: Худож. лит., 1970.- 183 с.

Воспоминания о Миколе Бажане: Сборник.- М., 1989. - 495 с.

Yasəmən Sadıqova

Oktyabr 15

195 illiyi

Mixail Yuryeviç Lermontov 1814-1841 Rus yazıçısı

Rusiyanın görkəmli şairi Mixail Yuryeviç Lermontov XIX əsrin birinci yarısında yaşayıb yaratmışdır. Şairin uşaqlıq illəri nənəsinin malikanəsində - Tarxanı kəndində keçmişdir. Qohumları ilə Qafqaza səfərləri (1818, 1820, 1825) Lermontovun xatirəsində silinməz izlər buraxmışdır. 1828-ci ildə Moskva Əsilzadələr Pansionuna daxil olmuş və 1828-ci ildə "Çərkəzlər", "Dəniz qulduru", "Qafqaz əsiri", 1829-cu ildə "Cani", "Demon" poemalarını, bir çox lirik şeirlərini burada yazmışdır. Moskva Universitetindəki təhsil illəri (1830-1832) Lermontovun formalaşmasında əhəmiyyətli rol oynamışdır. Bu illərdə Lermontov mövzusu Puqaçov hərəkatından alınmış "Xadim" (1832) tarixi romanı üzərində işləmiş, "İsmayıl bəy", "Hacı Abrek" (1833-1834) poemalarını və "Qəribə adam" (1831) dramını yazmışdır.

A.S.Puşkinin ölümünə həsr etdiyi "Şairin ölümünə" (1837) şeiri Lermontovun yaradıcılığında həlledici rol oynamışdır.

M.Y.Lermontov dostu S.Rayevskiyə yazdığı məktublarda Qafqaz təəssüratlarını onunla bölüşdürür. O, Tiflisdə olarkən "tatar (azərbaycanlı) alim Əli və Əhməd"lə tanış olduğunu, Şuşa (yəqin ki, Şəki), Quba, Qusar və Şamaxını gəzdiyini, yerli əhali ilə ünsiyyətini və hətta "fransız dili Avropada vacib olduğu qədər Asiyada geniş işlənən tatar dilini öyrənməyə başladığını da vurğulayırdı. Dəfələrlə Qafqaza səyahət edən

şair, dramaturgiyamızın banisi M.F.Axundovla yaxından tanış olmuş və məhz onun yaxından köməyi nəticəsində məşhur məhəbbət dastanımız "Aşıq Qərib"i "Türk nağılı" adı ilə yazıya alınmışdır.

M.Y.Lermontov rus ədəbiyyatında realist rus sosial - psixoloji roman janrının əsasını qoymuş və "Zəmanəmizin qəhrəmanı" romanını qələmə almışdır. Bu əsər 1908-ci ildə Azərbaycan türkcəsinə çevrilmişdi. Bu mövzudan təsirlənən tanınmış şair və yazıçımız, rus ədəbiyyatının gözəl bilicisi və tərcüməçisi Abdulla Şaiq isə Azərbaycan həqiqətlərini əks etdirən "Əsrimizin qəhrəmanı" romanını yazmışdır.

Azərbaycanda XIX əsrin sonlarından başlamış bu günədək Lermontovun həyat və yaradıcılığına olan maraq və məhəbbət azalmamışdır. Xüsusən də onu dilimizə çevirən şairlər bu mövzuda gözəl şeir nümunələri yaratmışlar.

Ədəbiyyat

Seçilmiş əsərləri.- B.: Öndər nəşriyyatı, 2005.- 520 s.

Aşıq Qərib: Nağıl /red. M.Namaz; tərc. ed. Ə.Yusifoğlu.-B.: Gənclik, 1981. - 23 s.

Sevirəm Qafqazı mən /tərc. ed. M.Rahim və b.- B.: Gənclik, 1988.-181 s.

Qurbanov, Ş. Lermontov və Azərbaycan ədəbiyyatı. -B.: Maarif, 1976.- 66 s.

Məmməd, C. XIX əsr rus ədəbiyyatı .-h.1.-B.,1970

Zəmanəmizin qəhrəmanı /tərc.ed. C.Məcnunbəyov; red. R.Salamova.- B.: Gənclik, 1976.-175 s.

Rus dilində

Собрание сочинений : в 4 Т-х.- 2-е изд.-Т.1-4.- М., 1979-1981.

Полное собрание стихотворений: в 2 Т-х.- Л.: Советский писатель, 1989.

Афанасьев, В.В.Тропа к Лермонтову .- М., 1982.

Джафаров, Т. М. Ю.Лермонтов: Очерк творчества.- Б., 1997.

Nailə Alışova

Oktyabr

16

60 illiyi

İsa Həbibbəyli

1949

Tənqidçi

Tənqidçi, ədəbiyyatşünas Həbibov İsa Əkbər oğlu 1949-cu il oktyabr ayının 16-da Azərbaycanın Naxçıvan MR-nın Şərur rayonunun Danyeri kəndində müəllim ailəsində anadan olmuşdur. 1966-cı ildə orta məktəbi bitirdikdən sonra əmək fəaliyyətinə Bakıda başlamışdır. 1966-1967-ci illərdə 3 saylı tikinti-təmir idarəsində, sonra Bakı soyuducular zavodunda fəhlə işləmişdir.

İsa Həbibov 1971-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun Naxçıvan filialını fərqlənmə diplomu ilə bitirmişdir. 1971-1975-ci illərdə Şərur rayonunun Danyeri kənd səkkizillik məktəbində müəllimlik etmişdir.

O, 1975-1979-cu illərdə akademik Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan ədəbiyyatı kafedrasının professorudur.

İ.Həbibbəyli 1976-1990-cı illərdə akademik Y.N. Məmmədəliyev adına Naxçıvan Dövlət Universiteti tələbə elmi cəmiyyətinin sədri olmuşdur.1991-1996-ci illərdə bu ali məktəb universitet statusu alandan sonra onun elmi işlər üzrə ilk prorektoru, sonra, 1996-cı ildən isə rektoru təyin edilmişdir. Naxçıvan Dövlət Universitetinin "Elmi əsərləri"nin, "Fikir" informasiya jurnalının baş redaktoru, ixtisaslaşmış müdafiə şurasının sədridir. "Dialoq Avro-Asiya", "Elm və həyat" jurnallarının, "Ədəbiyyat qəzeti", "Tələbə-press" qəzeti, Naxçıvan MR Ali Məclisinin (I-II çağırış) deputatı, İnsan Haqları Parlamentlərarası Əlaqə və Beynəlxalq Münasibətlər daimi Komissiyasının sədri seçilmişdir. 2001-ci ildən Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası İdarə Heyətinin üzvüdür. 2001-ci ildə Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. Həmin ildə ABŞ-ın Bioqrafiya İnstitutu tərəfindən "İlin adamı" adına layiq görülmüşdür.

Alim Azərbaycan Xalq Təhsili Nazirliyi nəzdindəki ədəbiyyatşü-

naslıq üzrə elmi-metodik şuranın üzvüdür.

Onun ilk elmi məqaləsi 1971-ci ildə APİ-də tədqiqatçı tələbələrin elmi əsərləri toplusunda dərc olunmuşdur. Müntəzəm olaraq dövri mətbuatda müasir ədəbi proses, ədəbiyyat tarixi və ədəbiyyat nəzəriyyəsinə dair məqalələrlə çıxış edir. Əsərləri xarici ölkələrdə də dərc olunmuşdur. 1980-ci ildə Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasında qiyabi təhsil alaraq "XX əsr Azərbaycan romantik lirikası" mövzusunda namizədlik, 1996-cı ildə "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1995-ci ildə Naxçıvan Atatürk Araşdırma Mərkəzini yaratmışdır. 1999-cu ildə Türkiyə Cümhuriyyəti Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumu Başqanlığının üzvü, "Ankara Universitetinin fəxri dostu" seçilmişdir. O, Beynəlxalq elmi konfrans və simpoziumlarda iştirak etmişdir.

1986-cı ildə Ali və Orta İxtisas Təhsili Nazirliyinin fəxri fərmanları, ÜİLKGİ Mərkəzi Komitəsinin təsis etdiyi "Tələbələrin elmi-tədqiqat işlərində müvəffəqiyyətlərə görə" medalı ilə təltif olunmuşdur. 1993-1994-cü illərdə Məmməd Araz ədəbi mükafatının laureatıdır.

Ədəbiyyat

Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti. -Naxçıvan: Qeyrət, 2002. -80 s.

Mirzə Cəlil və Məmmədquluzadələr. Məktublaşma.- B.: Çinar-çap, 2003.- 238 s.

Molla Nəsrəddin. Rəssam Oskar Şmerlinq.- Naxçıvan: Gəmiqaya, 2002.- 52 s.

Müasirləri Abbas Zamanov haqqında.- B.: Çinar-çap, 2003.-350 s.

Şəhriyar dünyası.- Tehran: Zifa yayınları, 2000.- 88 s.

İsa Həbibbəyli Azərbaycan xalqının adı haqqında ilk araşdırma //Ədəbiyyat qəzeti.-2005.- 4 noyabr.- S.1.

İsa Həbibbəyli Əkbər oğlu: Biblioqrafik göstərici.- B.: Elm, 2004.- 119 s.

İsa Həbibbəyli Əkbər oğlu: Biblioqrafik göstəricisi. Filologiya elmləri doktoru professor İsa Həbibbəylinin "Elm" nəşriyyatında əsərlərinin biblioqrafik göstəricisinin çap edilməsi haqqında //Azərbaycan.- 2005.-14 yanvar. - S.5.

Mədətov, A. Ədəbi-bədii irs: Obyektivlik, müasirlik, bütövlük: [Professor İsa Həbibbəylinin "XX əsrin əvvəlləri Azərbaycan yazıcıları" adlı kitabı haqqında] //Xalq qəzeti.- 2005.- 10 aprel.- S.4.

Samirə Eminova

Oktyabr

17

85 illiyi

Hüseyn Razi
1924-1998

Şair



Hüseyn Məmməd oğlu Rzayev 1924-cü il oktyabrın 17-də Ordubad rayonunun Dəstə kəndində anadan olmuşdur. 1941-1943-cü illərdə Ordubad Pedaqoji məktəbini bitirdikdən sonra Culfa rayonunn Ərəzin kəndindəki orta məktəbdə müəllim işləmişdir. O, İkinci Dünya müharibəsi illərində Sovet Ordusu sıralarında Oryol ətrafında gedən döyüşlərdə iştirak etmiş, yaralanmış, sağaldıqdan sonra kiçik təyyarə mütəxəssisləri məktəbini bitirmiş, Pribaltika cəbhəsində Əlahiddə Uzaq Kəşfiyyat alayında xidmət etmiş, ordudan tərxis olunmuşdur.

O, ədəbi fəaliyyətə 1947-ci ildə "Şərq qapısı" qəzetində çap olunan "Moskva" adlı şeirindən sonra başlamışdır.

1959-cu ildə Hüseyn Razi ADU-nun Filologiya fakültəsinin jurnalistika şöbəsini qiyabi bitirmişdir. Dövri mətbuatda müntəzəm çıxış etmiş, poetik yaradıcılıqla yanaşı bədii tərcümə ilə də məşğul olmuş, pyeslər yazmışdır.

O, xidmətlərinə görə bir neçə medala və Fəxri fərmanlara layiq görülmüşdür.

Hüseyn Razi 1998-ci il fevralın 27-də Naxçıvan şəhərində vəfat etmişdir.

Ədəbiyyat

Ayrılmaram.- B.: Azərnəşr, 1981.- 244 s.

Sahil həsrəti.- B.:Yazışı, 1985.- 294 s.

Canlı tonqal.- B.: Azərnəşr, 1977.-95 s.

Araz sahilində.- B.: Gənclik, 1974.-14 s.

İsmayılov, N. Hüseyn Razinin dramaturgiyası: [Naxçıvanda yaşayıb-yaradan H.Razi haqqında] //Qobustan.-2001.-№2.-S. 47-48.

Gülər Hüseynova

Oktyabr

24

Birləşmiş Millətlər Təşkilatı Günü
1945

Birinci Dünya müharibəsi (1914-1918) 15 milyon insanın həyatına son qoydu. Müharibənin bütün dəhşətlərini görmüş Avropa xalqları birgə bəyanat qəbul etdilər: "Müharibə olmasın!" Birinci Dünya müharibəsinin yekunlarına həsr olunmuş Versal sülh konfransında (1914) sülhü müdafiə etmək naminə beynəlxalq birliyin yaradılması ideyası irəli sürüldü. Bu ideyanın müəllifi ABŞ Prezidenti Vuqro Vilson idi. Bu təklif konfrans iştirakçıları tərəfindən rəğbətlə qarşılandı və Millətlər Cəmiyyəti adlanan beynəlxalq təşklilat yaradıldı. Bu təşkilat elə yarandığı ilk gündən çətinliklərlə qarşılaşdı. ABŞ Senatı Vilsonun Millətlər Cəmiyyətinə daxil olmaq barədə təklifini rədd etdi. SSRİ yalnız 1933-cü ildə bu təşkilata daxil oldu. Lakin tezliklə, 1939-cu ildə Finlandiya ilə müharibədə təqsirləndirilərək qovuldu.

Millətlər Cəmiyyəti 1927-ci ildə arbitraj və təhlükəsizlik üzrə xüsusi komissiya yaratdı. Həmin dövrdə Millətlər Cəmiyyətinin üzvü olan bütün ölkələr yeni müharibənin alovlanmasına yol verməmək üçün təntənəli şəkildə and içdilər: dünyada heç bir ölkə başqa ölkəyə hücum edib müharibəyə başlaya bilməz. Bütün müharibələr müdafiə xarakteri daşımalı idi. Buna baxmayaraq 1939-cu ildə Almaniya Çexiya və Polşaya soxuldu. Bununla da İkinci Dünya müharibəsi başlandı. Bu, Millətlər Cəmiyyətinin dağılması demək idi.

İkinci Dünya müharibəsi (1939-1945) başa çatanda dünya xalqları bir daha qətiyyətlə dedilər: "Müharibə olmasın!". Bu dəfə müharibə 50 milyon insanın həyatına son qoymuşdu. Əbədi sülhü bərqərar edib möhkəmləndirən yeni beynəlxalq birliyin yaradılması zərurəti meydana çıxdı.

Birləşmiş Millətlər Təşkilatı beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, eləcə də dövlətlər ara-

sında dinc əməkdaşlığı inkişaf etdirmək məqsədi ilə müstəqil dövlətlərin könüllü birləşməsi nəticəsində təşkil edilmiş beynəlxalq təşkilatdır. BMT-nin Nizamnaməsi 1945-ci ilin aprelində ABŞ-ın San-Fransisko şəhərində keçirilən konfransda 50 dövlətin nümayəndəsi tərəfindən imzalanmış və həmin ilin 24 oktyabrında qüvvəyə minmişdir. Odur ki, oktyabrın 24-də beynəlxalq aləmdə BMT Günü kimi qeyd olunur.

Beynəlxalq sülhün və təhlükəsizliyin qorunması üçün əsas məsuliyyət BMT-nin Təhlükəsizlik Şurasının üzərinə qoyulmuşdur. Burada qərar qəbul olunması zamanı TŞ-nin beş daimi üzvü ABŞ, Böyük Britaniya, Fransa, Rusiya və Çinin səs birliyi prinsipləri mövcuddur. Bu o deməkdir ki, bu dövlətlərdən hər biri öz mandatına uyğun gəlməyən qərara veto qoymaq hüququna malikdir. Bu ölkələrin daimi üzv seçilməsi BMT yarandığı vaxtda dünyada mövcud olan siyasi vəziyyətlə bağlı idi. BMT-nin Təhlükəsizlik Şurasından əlavə, əsas orqanları bunlardır: Baş Məclis, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və BMT Baş katibinin başçılıq etdiyi Katiblik. BMT sistemində 15 ixtisaslaşdırılmış təsisat da vardır. BMT-nin iqamətgahı Nyu-Yorkda yerləşir. Azərbaycan Respublikası 1992-ci il martın 2-də BMT-nin üzvlüyünə qəbul olunmuşdur. 2000-ci ildə BMT üzvlərinin sayı 189-a çatmışdı.

BMT yarandığı vaxtdan yeddi baş katibi olmuş dur: Treqvi Li (Norveç), Daq Hammarskold (İsveç), U.Tan (Birma), Kurt Valdhaym (Avstriya), Havyer Peres de Kuel (Peru), Butros-Butros Qali (Misir), Kofi Annan (Qana). BMT-də rəsmi olaraq ingilis, ərəb, çin, fransız, rus və ispan dilləri işlənir.

BMT-nin ən çox əhalisi olan üzvü Çin dövlətidir: 1 milyard 300 milyon nəfər. Ən az əhalisi olan üzvü isə Tudaludur: 10000 nəfər. Ərazisindən və əhalisinin sayından asılı olmayaraq hər bir ölkə BMT-nin Baş Məclisində bir səslə təmsil olunur.

BMT-nin münaqişə zonalarında yerləşdirmək üçün müxtəlif ölkələrin hərbçilərindən təşkil olunmuş və "mavi dəbilqəlilər" adlanan sulhməramlı qoşun kontinqenti də vardır. Ermənistan ordusunun torpaqlarımızı işğal etməsi məsələsi dörd dəfə BMT-də müzakirə olunmuş, bu işğalı pisləyən və işğal olunmuş əraziləri qeyd-şərtsiz tərk etməyi tələb edən 822, 853, 874 və 884 nömrəli qətnamələri indiyədək yerinə yetirilməmişdir. Beynəlxalq birliyin sanksiyalarına məruz qalmayan təcavüzkar isə bu qətnamələri yerinə yetirməkdən imtina edir.

Ədəbiyyat

BMT-nin ixtisaslaşmış qurumları.- B., 2003.- 34 s.

BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Nizamnaməsi.– B., 2004. – 12 s.

BMT-nin Minillik Sammiti: Nyu-York, 6-8 sentyabr. 2000.- B., 2000.- 23 s.

Məlikova, N. BMT strukturlarında Azərbaycan diplomatiyasının xüsusiyyətləri: Monoqrafiya.- B.: Elm, 2007.- 147 s.

Abdullayev, E. Azərbaycan BMT münasibətləri daim inkişaf edir //Respublika.- 2007.- 3 mart.- S. 6.

Akifqızı, Ş. Azərbaycan BMT-nin yeni yaradılan İnsan Hüqüqları Şurasına uzunmüddətli üzv seçilmişdir //Azərbaycan.- 2006.- 11 may.- S. 14.

Azərbaycanın BMT-yə üzv olmasından 14 il ötür //525-ci qəzet.- 2006.- 3 mart.- S.1.

BMT-nin Ümumdünya Ərzaq Proqramının icraçı direktoru mətbuat konfransı keçirmişdir //Azərbaycan.- 2006.- 29 iyul.- S. 2.

BMT ilə Azərbaycan arasında insan hüquqları üzrə əməkdaşlıq uğurla davam edir //Azərbaycan.- 2005.- 8 oktyabr.- S. 3.

İsmayılova, V. Sülh, inkişaf və insan hüqüqları bütün münaqişələrin ləğvini tələb edir //Azərbaycan.- 2004.- 24 sentyabr.- S. 3.

Rus dilində

Организация объединенных Наций. Доклад Комиссии Международного право.- Нью-Йорк: ООН, 2006.- 561 с.

Организация объединенных Наций. Ежегодник Комиссии Международного Права.-Нью-Йорк. Женева: ООН, 2006. – 345 с.

Samirə Eminova

Oktyabr
30

Zəngilan

Ərazisi - 707 km²
Əhalisinin sayı – 33890
İnzibati mərkəzi – ZƏNGİLAN
İşğal tarixi 30 oktyabr 1993-cü il



Zəngilanda Azərbaycan xalqının milli mədəniyyətini əks etdirən tarixi abidələr var. Azərbaycan xalqının həyatını əks etdirən tarixi hadisələr baş vermişdir. Zəngilanda keçmiş əsrlərdə də xalqımızın çox hörmətli, dəyərli insanları yaşayıblar, yaradıblar və beləliklə də Zəngilan həm öz təbiətinə görə, həm o torpaq üzərində insanların qurduqlarına, yaratdıqlarına görə və bugünkü nəsillərə çatdırdıqları irsə görə Azərbaycanın qiymətli bir diyarıdır, qiymətli bir hissəsidir.

Heydər Əliyev,
ümummilli lider

Zəngilan rayonunun ərazisi ən qədim insanların yaşayış məskənlərindən hesab olunur. Bölgə ərazisində mövcud olan bir neçə mağara (Əsgülüm və Süsən dağlarında) burada ibtidai insanların yaşayışından xəbər verir. Ancaq rayon kimi Zəngilan 1930-cu ildə təşkil olunmuşdur. Rayonda bir şəhər, bir şəhər tipli qəsəbə, bir qəsəbə, 81 kənd var idi. Mərkəzi Zəngilan şəhəridir.

XX əsrin sonu Azərbaycan xalqının tarixinə faciələrlə dolu bir dövr kimi yazıldı. Ölkədə mövcud ictimai-siyasi vəziyyət, daxili çəkişmələr, birbirinə xəyanət edən silahlı birləşmələrin bəd əməlləri torpaqlarımızın itirilməsi ilə nəticələndi. Zəngilan da digər rayonlarımız

kimi xəyanətin qurbanı oldu. Təqvimimizdə daha bir qara günün sayı artdı-

30 Oktyabr (1993-cü il).

Zəngilan müharibə alovunun qasırğasını 1990-cı ildən hiss etməyə başladı. Ermənilər dəmir yolunu bağlayır, qatarları saxlayır, adamları girov götürürdülər. 1992-ci ilin əvvəlindən isə rayonun sərhəd kəndləri döyüş zonasına çevrildi.

Zəngilanın işğalı artıq 1992-ci ildə faktiki olaraq reallaşmışdı. Hərbi işdən az-çox başı çıxan adam bu reallığı görürdü. Aydınlıq olsun deyə, işğala aparan bu yolda xronoloji ardıcıllığa qısa nəzər yetirək:

1992-ci ilin yanvar ayının sonunda ermənilərin Zəngilana mütəşəkkil hücumları başlayır. Fevralın 1-də Günqışlaq, Qazançı, Dərəli və Veynəli kəndinə basqın etdilər. Artıq döyüşlər intensiv xarakter almışdı. Aprelin 9-da erməni silahlı birləşmələri Qazançı, Seyidlər, Dərəli, Ağkənd, Pirveyis, Günqışlaq kəndlərinə soxulur, evlərə od vururdular. Beləliklə, bu kəndlər ermənilərin nəzarəti altına düşdü. 2 həftə sonra Qazançı və Dərəli kəndləri azad edilsə də, Seyidlər kəndi mühasirədə qaldı. Bundan sonra ermənilərin növbəti hücumu iyunun 29-da oldu. Çox ağır və qanlı döyüşlər iki saat çəkdi. Artıq iyulun 6-da düşmən rayon mərkəzini atəşə tutmuşdu. Bütün yayı Zəngilanın kəndləri və rayon mərkəzi düşmən atəşinə məruz qaldı. Bir müddət fasilə verdikdən sonra oktyabrın 20-də ermənilərin döyüş təyyarələri rayon mərkəzini bombalayırdı. Belə şəraitdə Bakıda hələ də siyasi hərc-mərclik hökm sürürdü. Dekabrın 10-da Seyidlər kəndi yenidən ermənilər tərəfindən işğal olundu. Beləliklə də, 1992-ci ilin sonuna Zəngilanın 13 yaşayış məntəqəsi, bir çox strateji yüksəkliklər düşmənin əlinə keçmişdi. Bununla da rayonun işğalının əsası qoyuldu. AXC - Müsavat iqtidarı rayonun müdafiəsini başlı-başına buraxdığından vəziyyət getdikcə gərginləşirdi.

İyulun 19-da Qızıldaş qəsəbəsi döyüş meydanına çevrilmişdi. Avqustun 25-də erməni hərbi birləşmələri genişmiqyaslı hücuma keçərək daha 5 kilometr irəlilədilər. Rayon mərkəzinin mühasirəyə düşmək təhlükəsi daha da artdı. Oktyabrın sonuna yaxın rayon tam mühasirə vəziyyətinə düşdü. Oktyabrın 25-26-da Sığırt və Bartaz yüksəklikləri işğal olunmuşdu. Bununla da Zəngilanın mühasirəsi başa çatdırıldı.

Düşmən əsasən 3 istiqamətdə hərəkət edirdi: Mehri istiqamətində hərəkət edən işğalçılar yüksəklikləri ələ keçirib, Vəjnəli və Ağbənd kəndlərini işğal etdilər; Qafan istiqamətində hərəkət edib Burunlu, Şayıflı, Göyəli kəndlərini tutub rayon mərkəzinə gedən yola çıxdılar; Qubadlının işğal edilmiş ərazilərindən hərəkət edib Saldaş, Çərəli, Mollalı, Qiyaslı, Ulaşlı, Əbilcə, Qarakişi, Tinli, Xocahan, Ağbiz kəndləri və Ağbiz yüksəkliklərini ələ keçirirlər. Təxminən 34 min əhali İran sərhəddinə - Araz çayının kənarına toplaşır. Gur sulu Araz çayını isə keçmək mümkün deyildi. Xalqımızın xilaskarı, ulu öndərimiz Heydər Əliyev bu dəfə də xalqın köməyinə gəldi. O, İran hökuməti ilə danışıqlar aparır və Araz çayı üzərindəki bənddə suyu

bağlayırlar. Yalnız bundan sonra əhali çayı keçib xilas olur. Buna görə də zəngilanlılar Heydər Əliyevə daim minnətdardılar. O, olmasaydı, yəqin ki, əhali ya qırılmalı, ya əsir düşməli, ya da Arazın sularına qərq olmalıydı.

ZƏNGİLANDA İTİRDİKLƏRİMİZ:

ZƏNGİLAN boyda VƏTƏN;
Dünyada II, Avropada I Nadir Çinar meşələri;
Torpaq üzərində olan bütün var-dövlət;
67 məktəb, 56 kitabxana, 34 klub, 9 mədəniyyət evi, 7 xəstəxana, 6 iri dəmir yol stansiyası, dəmir yol deposu, 2 şərab zavodu, konserv zavodu.

Hazırda Zəngilan rayonunun məcburi köçkünləri Bakıda və respublikamızın 43 rayonunda müvəqqəti məskunlaşmışdır. Zəngilan rayonunda erməni təcavüzü nəticəsində Milli Ordunun 33 nəfər döyüşçüsü qəhrəmancasına həlak olmuş, 7 nəfər polis işçisi itkin düşmüşdür. Zəngilan 200 nəfərdən çox şəhid vermiş, 12 800 uşaq zərər çəkmiş, 395 uşaq yetim qalmışdır. 44 nəfərin aqibəti bəlli deyil, 127 nəfər isə müharibə əlilidir.

Ədəbiyyat

Kərimli, A. İşğal (Zəngilan şəhidləri haqqında) /Akif Kərimli.- B.: Azərbaycan, 1994.- 165 s.

Kərimli, A. Soraq verin (Zəngilan şəhidləri haqqında) /Akif Kərimli.- B.: Azərbaycan, 1995.- 63 s.

Sobulu, Ə. Zəngəzurun Zəngilanlı ziyalıları /Əli Sobulu; red. A.B.Nuriyev.- I hissə.- B.: Ağrıdağ, 2001.-188 s.

Sobulu, Ə. Zəngilan əlilləri /Əli Sobulu; red. Ş. Səlimbəyli.- B.: ADKP, 1997.-114 s.

Tapdıqoğlu, N. Zəngilanın toponimləri /Nazim Tapdıqoğlu; red. B.İdrisoğlu.- B., 2002.- 116 s.

İmanov, V. Bu yurd yağıya qalmaz: (Zəngilanın işğalından 9 il ötür) /Vahid İmanov //Xalq qəzeti.- 2002.- 29 oktyabr.-S.5.

Mehdixanlı, T. Görüş yeri dəyişmir…//Azərbaycan.- 2002.- 29 oktyabr.- S.7.

Rzalı, R. Biz gəldik Vətən qaldı //Azərbaycan.- 2001.- 30 oktyabr.- S.5.

İnternetdə

www.anl.az

www.azerbaijanfoundation.org

www.bizimyol.az

www.huquqsunas.sayt.ws

www.qarabag.iatp.az

Adilə Abdullayeva

1 noyabr
Gün çıxır
05:39
Gün batır
17:38
30 noyabr
Gün çıxır
05:29
Gün batır
17:45

Noyabr

24 oktyabr-
22 noyabr

Əqrəbin Nişanı sudur.Marsın və Neptunun himayəsindədir. Günəşin Əqrəb bürcündən keçdiyi dövrdə doğulanlar güclü xarakterli olurlar.

2009

Əlamətdar və tarixi günlər

6. Televiziya və Radio İşçiləri Günü
12. Konstitusiya Günü
15. Bakı Dövlət Univerisitetinin təsis edilməsinin 90 illiyi
14. Ümumdünya Diabet Günü
17. Milli Dirçəliş Günü
20. Beynəlxalq Uşaq Günü
22. Sumqayıt şəhərinin yaranmasının 60 illiyi
24. Beyləqan rayonunun yaranmasının 70 illiyi
24. İsmayıllı rayonunun yaranmasının 70 illiyi

B	**1**
Be	2
Ça	3
Ç	4
Ca	5
C	6
Ş	7
B	**8**
Be	9
Ça	10
Ç	11
Ca	12
C	13
Ş	14
B	**15**
Be	16
Ça	17
Ç	18
Ca	19
C	20
Ş	21
B	**22**
Be	23
Ça	24
Ç	25
Ca	26
C	27
Ş	28
B	**29**
Be	30

Bakı Dövlət Univerisiteti- 90

Azərbaycanın ilk ali təhsil müəssisəsi olan Bakı Dövlət Universiteti 1919-cu ildə yaradılıb.

Azərbaycanda tədris müəssisələrinin flaqmanı olan, zəngin tarixi keçmişə malik universitet hazırda tanınmış elm və təhsil mərkəzidir.

Universitet hər zaman Azərbaycanda mütərəqqi fikrin, milli düşüncənin mərkəzi olmuşdur. Burada Azərbaycanın yüzlərlə tanınmış alimləri, ziyalıları, görkəmli diplomatları təhsil almışlar.

Şair, publisist İsmayılov Məmməd Mürşüd oğlunun (Məmməd İsmayıl) (01.11.1939) anadan olmasının 70 illiyi

Şair Rzalı Oqtay Məhərrəm oğlunun (Oqtay Rza) (02.11.1934) anadan olmasının 75 illiyi

Rus şərqşünası, akademik Bartold Vasili Vladimiroviçin (03.11.1869-19.08.1930) anadan olmasının 140 illiyi

Azərbaycanın Milli Qəhrəmanı Musayev Aqil Hüseyn oğlunun (03.11.1974-05.10.1994) anadan olmasının 35 illiyi

Televiziya və Radio İşçiləri Günü (06.11.)

Geologiya-mineralogiya elmləri doktoru Əliyev Vasif İsmayıl oğlunun anadan olmasının (07.11.1929-25.01.1982) 80 illiyi

Azərbaycanın Əməkdar mədəniyyət işçisi, yazıçı Vəzirov Cəlil Həbib oğlunun (08.11.1944) anadan olmasının 65 illiyi

Rus bəstəkarı Paxmutova Aleksandra Nikolayevnanın (09.11.1929) anadan olmasının 80 illiyi

Alman şairi Şiller İohann Kristof Fridrixin (10.11.1759-09.05.1805) anadan olmasının 250 illiyi

Azərbaycanın Xalq artisti Rzayev İslam Tapdıq oğlunun (11.11.1934-28.01.2008) anadan olmasının 75 illiyi

Konstitusiya Günü (12.11.1995)

Bakı Dövlət Univerisitetinin təsis edilməsinin (15.11.1919) 90 illiyi

Ümumdünya Diabet Günü (14.11.1991)

Milli Dirçəliş Günü (17.11.1988)

Azərbaycan neftinin Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəqlinə dair dövlətlərarası sazişin (18.11.1999) imzalanmasının 10 illiyi

Beynəlxalq Uşaq Günü (20 noyabr)

Azərbaycanın Əməkdar hüquqşünası, professor Məlikova Məsumə Fazil qızının (22.11.1929) anadan olmasının 80 illiyi

Sumqayıt şəhərinin yaranmasının (22.11.1949) 60 illiyi

Aforist-deyimçi Əliyev Elman Ağa oğlunun (Safruh) (23.11.1939) anadan olmasının 70 illiyi

Azərbaycanın Əməkdar incəsənət xadimi, rəssam Səmədova Vəcihə Əli qızının (24.11.1924-24.10.1965) anadan olmasının 85 illiyi

Beyləqan rayonunun yaranmasının (24.11.1939) 70 illiyi

İsmayıllı rayonunun yaranmasının (24.11.1939) 70 illiyi

Türk yazıçısı Rəşad Nuri Güntəkinin (25.11.1889-07.12.1956) anadan olmasının 120 illiyi

Şair Xəlilov Alqayıt Bayram oğlunun (28.11.1939) anadan olmasının 70 illiyi

Şair, tərcüməçi Tapdıqov İlyas Oruc oğlunun (İlyas Tapdıq) (30.11.1934) anadan olmasının 75 illiyi

Noyabr

1

70 illiyi

Məmməd İsmayıl

1939

Şair



İsmyılov Məmməd Mürşüd oğlu 1939-cu il noyabr ayının 1-də Tovuz rayonunun Əsrik-Cırdaxan kəndində anadan olmuşdur. Orta təhsilini kənddə almış, 1957-1964-cü illərdə ADU (indiki BDU)-nun Filologiya fakültəsini və 1973-1975-ci illərdə Moskvada ikiillik Ali Ədəbiyyat kursunu bitirmişdir. Ədəbi fəaliyyətə 1956-cı ildə Tovuzda çıxan "Sosializm kəndi" qəzetində dərc olunmuş "Dağlar" qoşması ilə başlamışdır.

1966-1973-cü illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində kiçik redaktor, redaktor, böyük redaktor, 1973-1975-ci illərdə "Ədəbiyyat və incəsənət" qəzetində ədəbi işçi, 1975-1980-cı illərdə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının "Elmi-kütləvi, sənədli filmlər birliyinin" baş redaktoru, 1980-1983-cü illərdə "Yazıçı" nəşriyyatında baş redaktor müavini, redaksiya müdiri, 1983-1987-ci illərdə "İşıq" nəşriyyatının direktoru, 1987-1992-ci illərdə "Gənclik" və "Molodost" jurnallarının baş redaktoru, 1992-1993-cü illərdə Azərbaycan Televiziya və Radio Verilişəri Şirkətinin sədri olmuşdur.

Hazırda Türkiyədə Çanaqqala Universitetində çalışır. 1998-ci ildə "Çağdaş Azərbaycan poeziyasında aşıq şeiri motivləri" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. O, 1997-ci ildə Dəyanət Vəqfinin Məhəmməd Peyğəmbərin doğum günü ilə bağlı keçirdiyi şeir yarışmasının qalibi olmuşdur. Onun 1999-cu ildə "Bu qan yerdə qalan deyil", 2000-ci ildə "Türkün sevgisi", 2003-cü ildə "Baxtıma düşən gün" kitabları Türkiyədə çap olunmuşdur.

M.İsmayıl 1970-ci ildən Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü, 1964-cü ildə "Qızıl qələm" mükafatı, 1978-ci ildə Respublika Lenin komsomolu və N.Ostrov-

ski adına mükafatlara layiq görülmüşdür.

Ədəbiyyat

Seçilmiş əsərləri.- B.: Azərnəşr, 1992.- 301 s.

Aman, təklik əlindən.- B.: Yazıçı, 1987.- 196 s.

Axşamlar, səhərlər.- B.: Gənclik, 1972.- 125 s.

Bəxtimə düşən gün.- B.: Yazıçı, 1980.- 144 s.

Döyüş, qələbə.- B.: Yazıçı, 1983.- 230 s.

Hələ yaşamağa dəyər.- B.: Gənclik, 1981.- 2008.

Qoymayın dünyanı adiləşməyə.- B.: Gənclik, 1978.- 150 s.

Ümiddən asılan qılınclar. - B.: Yazıçı, 1990.- 286 s.

Bəybala Ələsgərov

3 Noyabr

140 illiyi

Vasili Vladimiroviç Bartold 1869-1930

Rus şərqşünası



Vasili Vladimiroviç Bartold 3 noyabr 1869-cu ildə Peterburq şəhərində anadan olmuşdur. O, Peterburq Universitetinin Şərq dilləri fakültəsinə daxil olmuş və 1891-ci ildə oranı bitirmişdir. Hə min ildə də elmi – pedaqoji fəaliyyətə başlamışdır. 1899-1900-cü illərdə yaratdığı "Türküstan monqol istilası dövründə" əsərinə görə ona "Şərq tarixi üzrə "doktor" elmi dərəcəsi verildi. Bartold islam dini tarixinə dair əsərlərində ərəb və qərbi Avropa alimlərinin islam dininə münasibətlərinə tənqidi yanaşaraq, islam dini haqqında geniş material toplayıb, dinin yaranması və yayılması tarixi haqqında yeni görüşlərini ortaya qoymuşdur. Bartold qədim slavyanlardan yazan ərəb müəlliflərinin əsərləri üzərində yorulmadan və məhsuldar işləmişdir. 1917-ci ildən isə "Müsəlman dünyası" jurnalını nəşr etdirmişdir. 1950-ci ildə Azərb. EA Nizami adına Ədəbiyyat və Dil İnstitutu Bartoldun rus dilinə tərcümə etdiyi "Dədə Qorqud" dastanını çap etdirmişdir. Görkəmli alim 1924- cü ildə ADU-da "Türk-tatar xalqları tarixi" kursundan mühazirələr oxumuşdur. Bartold 1926-cı ilin martında Bakıda keçirilən I Ümumittifaq Türkoloji qurultayda da iştirak etmişdir.

O, 19 avqust 1930-cu ildə Peterburq şəhərində vəfat etmişdir.

Ədəbiyyat

Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri.- B: Elm, 1999.- 159 s.

Rus dilində

Сочинения: В 9 т.- М., 1963 (1977)

Книга Моего Деда- Коркута: Огузский героический эпос.-Б.: 1999. - 319 с.

Tamella Musayeva

8 Noyabr

65 illiyi

Cəlil Vəzirov
1944

Yazıçı

Cəlil Həbib oğlu Vəzirov 1944-cü ildə Naxçıvan şəhərində ziyalı ailəsində dünyaya gəlmişdir. Naxçıvan şəhərindəki 4 saylı orta məktəbi bitirib, 1964-1968-ci illərdə Aərbaycan Dövlət İncəsənət İnstitutunda təhsil almışdır. Hələ tələbə ikən respublika qəzetlərində oçerkləri, məqalələri, teatr tamaşalarına resenziyaları dərc olunmuşdur.

1968-ci ilin iyul ayının 16-dan bu günə qədər "Şərq qapısı" qəzeti redaksiyasında ədəbi işçi, müxbir, baş müxbir, bölmə müdiri, ədəbiyyat və incəsənət şöbəsinin müdiri vəzifəsində işləmişdir. 30 ildən çoxdur ədəbi yaradıcılqla məşğuldur. Bir jurnalist-teatrşünas kimi yüzlərlə məqalələrin, essenin, oçerkin, teatr resenziyalarının, habelə monoqrafiyaların müəllifi kimi şöhrət tapmışdır. Ədibin məqalələri rus, türk, ingilis, çex, hind, eston, gürcü, özbək, türkmən, kürd dillərində çap olunmuşdur.

Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. C. Vəzirov həmçinin Azərbaycan Teatr Xadimləri İttifaqının üzvü və onun Naxçıvan təşkilatının sədri olmuşdur.

Ədəbiyyat

Güldürən-ağladan (monoqrafiya).- B.: "Əcəmi", 1998

Ömrün romantik notları (monoqrafiya).-B.: "Əcəmi", 1996

Şərur qədim diyar (oçerklər toplusu.- B.: "Şirvan ", 1997

Tanrının işıqlı bəndəsi (sənədli roman).- B.: "Azərbaycan" , 1998

Təki sən səslə məni (sənədli povest).- B: "Qismət", 1999

Şəhla Məmmədli

Noyabr

12

Konstitusiya günü
1995

Konstitusiya hər bir dövlətin ali hüquqi qüvvəyə malik olan əsas qanunu hesab olunur.

Ölkəmizdə ilk Milli Konstitusiya yaranması zərurəti SSRİ-nin dağılması nəticəsində respublikamızın müstəqillik qazanması ilə bağlıdır.

Müstəqil Azərbaycanın ilk Milli Konstitusiyasının yaranması prosesi yalnız ümummilli lider Heydər Əliyevin xalqın təkidi və tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtması və ölkə prezidenti seçilməsindən sonra başlanmışdır. Məhz onun sədrliyi ilə 35 nəfərdən ibarət yeni konstitusiya layihəsini hazırlayan Komissiya yaradılmış, cəmi 6 ay ərzində yeni konstitusiya işlənib hazırlanmış və xalqın müzakirəsinə verilmişdir.

1995-ci il noyabrın 12-də keçirilən ümumxalq referendumunda qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası 1995-ci il noyabrın 27-dən qüvvəyə minmişdir.

Yeni Konstitusiya Azərbaycan Respublikasının tarixində ilk dəfə olaraq, Azərbaycan dövlətinin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünü qorumaq əzmini, Azərbaycan xalqının öz müqəddəratını sərbəst, müstəqil olaraq həll etmək və öz idarəetmə formasını müəyyən etmək hüququnu təntənəli surətdə bəyan etmişdir. Dövlətin əsas qanununda göstərilir ki, Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi, unitar respublika olmaqla öz suveren hüquqları və mənafeləri ilə bağlı olan hər bir məsələni referendumda həll edir.

Konstitusiyada əsas diqqət yetirilən məsələlərdən birincisi insan və vətəndaşların hüquq və azadlıqlarına hərtərəfli diqqətin göstərilməsidir.

Yeni Konstitusiyada azadlıq hüququ, yaşamaq hüququ, mülkiyyət hüququ, xaricə getmiş vətəndaşlara maneəsiz olaraq respublikamıza qayıtmaq hüququ, sağlamlığın qorunması hüququ və sair

hüquqlara da geniş yer verilmişdir.

Milli Konstitusiyanın səciyyəvi cəhətlərindən biri də Azərbaycan dilinin rəsmi dövlət dili kimi təsbit edilməsidir. Azərbaycan dilinin qorunması və inkişafı qayğısına qalmaq dövlətin əsas vəzifələrindən biri kimi göstərilmişdir.

1995-ci il Konstitusiyası siyasi-iqtisadi, sosial-mədəni həyatda baş verən keyfiyyət dəyişikliklərini də özündə əks etdirmişdir.

Bu Konstitusiya məzmununa və quruluşuna görə inkişaf etmiş demokratik dövlətlərin konstitusiyalarına çox oxşardır. Hakimiyyətin bölünməsi prinsipinin təsbit edilməsi, ayrı-ayrılıqda qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının statusunun müəyyən edilməsi həmin oxşarlığı səciyyələndirən başlıca xüsusiyyətlərdəndir.

Ümumbəşəri dəyərlərə sadiqliyini bəyan edərək, bütün dünya xalqları ilə dostluq, sülh və əminamanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək maddəsinin Konstitusiyada öz əksini tapması, xalqımızın dünya xalqları arasında öz mövqeyini ifadə etməklə yanaşı, həm də Azərbaycan dövlətinin dünya dövlətləri sisteminin tam hüquqlu üzvü və onun ayrılmaz tərkib hissəsi olduğu bir daha özünü təsdiqləmişdir. Odur ki, Azərbaycan dövləti yeni Konstitusiya aktını qəbul etməklə ölkənin demokratik inkişaf prosesinə dönməzlik xarakteri vermiş, qanunçuluğun, dövlətçiliyin möhkəmləndirilməsinə təminat yaratmış, müstəqilliyimizi əbədi etmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikasının Konstitusiyası /nəşrə məsul: Şahbaz Xuduoğlu.- B.: Qanun, 2004.- 47 s.

Azərbaycan Respublikasının Konstitusiyası /buraxılışa məsul. D.Rzayeva.- B..: Qanun, 2002.- 141 s.

Azərbaycan Respublikasının Konstitusiyası və konstitusiya aktları /nəşrə məsul. Ş.Xuduoğlu.- B.: Qanun, 2003.- 127 s.

Cəfərov, İ. Azərbaycan Respublikası Konstitusiyasının şərhi /elmi red. M.Əfəndiyev.-B.: Hüquq ədəbiyyatı nəşriyyatı, 2001.- 488 s.

Əsgərov, Z. Konstitusiya hüququ (Dərs vəsaiti).-B.: "Bakı Universiteti" nəşriyyatı, 2002.- 632 s.

Xəlilov, C. Azərbaycan Respublikası Konstitusiyasının preambulası və ümumi müddəaların şərhi. -B.: Qanun, 2007.- 248 s.

İsmayılov, İ. Azərbaycan Respublikası Konstitusiyası və hüququnun əsasları (Ali məktəblər üçün dərslik).- B.: Qanun, 2002.- 179 s.

Nailə Alışova

Noyabr

15

90 illiyi

Bakı Dövlət Universiteti 1919

Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam

Heydər Əliyev, ümummilli lider

Tariximizin çətin, ziddiyyətli və şərəfli dövrlərindən biri Azərbaycan Demokratik Respublikasının fəaliyyəti illəridir. Azərbaycan Milli Hökuməti yarandığı gündən milli mədəniyyətin və xalq maarifinin inkişafına xüsusi qayğı ilə yanaşdı, xalqın maariflənməsi üçün çox ciddi addımlar atdı. Bütün məktəblərdə təhsilin icbari olması və ana dilində aparılması sahəsində bir sıra tədbirlər həyata keçirdi.

1919-cu ildə Bakı Dövlət Universitetinin açılması Azərbaycan xalqının mədəni həyatında əlamətdar hadisə, Azərbaycan Demokratik Respublikasının isə ən mühüm xidmətlərindən biri oldu.

1919-cu il sentyabrın 15-də Universitet komissiyasının son iclası oldu. İclasda müvəqqəti Şura və Universitet İdarə heyəti yaradıldı. 1919-cu il noyabrın 15-i Universitetdə birinci dərs günü elan edildi. Azərbaycanda ilk milli ali təhsil ocağı fəaliyyətə başladı. Onun ilk rektoru görkəmli rus alimi V.İ.Razumovski bu münasibətlə yazmışdı: "Azərbaycan öz maarif ocağını yaratdı. Türk xalqının tarixinə yeni parlaq səhifə yazıldı. Avropa ilə Asiyanın qovşağında yeni məşəl yandı. Bu böyük tarixi hadisənin şahidləri kimi biz özümüzü xoşbəxt hesab edi-

rik.” Doğrudan da, bu gün Bakı Dövlət Universitetinin keçdiyi tarixi yola nəzər salarkən belə bir qəti qənaətə gəlmək olur ki, Azərbaycanın bu gününü, onun dünya şöhrətli elmini, mədəniyyətini, alimlərini, iqtisadiyyatını, bütövlükdə müasir Azərbaycan cəmiyyətini bu elm məbədgahından ayrılıqda təsəvvür etmək qeyri mümkündür. Yarandığı zaman 40 müəllim və 4 (tarix-filologiya, fizika-riyaziyyat, hüquq və tibb) fakültəsi olan universitetin auditoriyalarında 877 tələbə və 217 azad dinləyici məşğul olurdu ki, onların 297 nəfəri azərbaycanlı, 366 nəfəri yəhudi, 209 nəfəri isə rus idi. Bu gün zəngin tarixi bir yol keçmiş və daima inkişafda olmuş Bakı Dövlət Universitetinin 16 fakültəsində 14 mindən çox tələbə təhsil alır, 1300 nəfər professor-müəllim heyəti, o cümlədən 300-ə yaxın elmlər doktoru, 800-ə yaxın elmlər namizədi, dosent çalışır, 6 muzey, 80 elmi-tədqiqat və tədris laboratoriyası, informasiya və tərcümə mərkəzi, idman-sağlamlıq kompleksi, poliklinika fəaliyyət göstərir. Burada həmçinin yataqxana və tələbə şəhərciyi də vardır.

Azərbaycanın tərəqqisi, inkişafı və çiçəklənməsi uğrunda böyük əzmlə çalışan vətənpərvər ziyalıların çoxu bu milli təhsil ocağının yetirmələri olmuşdur. Universitet 90 illik tarixi ərzində respublikamızın bütün elm sahələrinə görkəmli simalar bəxş etmişdir. Öz xalqına, onun mədəniyyəti və mənəviyyatına bağlı olan, öz şəxsiyyəti ilə xalqımızın simvoluna çevrilən, Azərbaycan dövlətinin xilaskarı və qurucusu Heydər Əlirza oğlu Əliyev də BDU-nun məzunu olmuşdur.

Universitetin şöhrətini dünyaya onun Yusif Məmmədəliyev, Heydər Hüseynov, Abdulla Qarayev, Şəfayət Mehdiyev, Zahid Xəlilov, Əşrəf Hüseynov, Məcid Rəsulov, Mirəli Qaşqay, İsmayıl Hüseynov kimi alimləri yayıblar. Fəxr edirik ki, Azərbaycanımızın Cəfər Cabbarlı, Mikayıl Müşfiq, Süleyman Rəhimov, Səid Rüstəmov, Əfrasiyab Bədəlbəyli kimi görkəmli elm, mədəniyyət xadimləri, yazıçı və şairləri də Universitetin məzunlarıdır. Yarandığı gündən bu vaxta qədər Universitet Azərbaycan ziyalılar ordusuna 100 mindən artıq yüksək ixtisaslı mütəxəssis vermişdir. Diqqətəlayiqdir ki, BDU öz fəaliyyətinin bütün dövrlərində elm və təhsil məbədi olmaqla yanaşı, həm də Azərbaycan dilinin inkişafında, milli şüurun, vətənpərvərlik ruhunun inkişafında xidmətlər göstərmiş bir mərkəz rolunu oynamışdır.

Bakı Dövlət Universiteti fəaliyyət göstərdiyi illərdə təkcə respublikamız üçün deyil, yaxın və uzaq xarici ölkələr üçün: Almaniya, Polşa, Çexiya, Slovakiya, Bolqarıstan, Türk, Misir, Suriya, İordaniya, İran, Əfqanıstan, Çili, Çin, Vyetnam, bir sözlə 50-dən çox dövlət üçün minlərlə mütəxəssis hazırlamışdır.

Universitetin diplomu dünyanın 50-dən artıq ölkəsində tanınır.

Bakı Dövlət Universiteti Avroasiya Universitetləri Assosiasiyasının, Xəzəryanı Dövlətlərin Universitetləri Assosiasiyası və Qara dəniz hövzəsi ölkələrinin Universi-

tetlərinin Assosiasiyasının üzvüdür.

Universitetin fəxri doktorları arasında Türkiyə, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Gürcüstan Prezidentləri-Süleyman Dəmirəl, İslam Kərimov, Saparmurad Niyazov, Askar Akayev, Eduard Şevardnadze, YUNESKO-nun prezidenti Federiko Mayor, amerikalı doktor Lütfizadə, fransalı İren Məlikova, polşalı Tadeuş Svyatoxovski, iranlı doktor Cavad Heyət, almaniyalı Əhməd Şmide kimi dünyanın görkəmli siyasi və dövlət xadimləri, məşhur elm və təhsil nümayəndələri vardır.

Ədəbiyyat

Atakişiyev, A. M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin tarixi: 2 hissədə /Aslan Atakişiyev.- B.: Bakı Universiteti nəşriyyatı, 1991.- H.I.- 544 s.

Bakı Dövlət Darülfünunun təsisi: (Sənədlər toplusu) /tərt.: S. İbrahimov.- B. ADU, 1989.- 88 s.

Bakı Dövlət Universitetinin dünya şöhrətli məzunu: Heydər Əliyev haqqında /elmi. red. C. Əliyev; buraxıl. məsul A. Məhərrəmov.- B.: Bakı Universiteti nəşriyyatı, 2001.- 229 s.

Məhərrəmov, A. Bakı Dövlət Universiteti /Abel Məhərrəmov.- B.: Göytürk, 2000.-46 s.- (BDU-nun 80 illik yubileyinə həsr olunub)

BDU-nun yeni tədris kursları açılacaqdır: (Almaniya Akademik Mübadilə Xidmətinin (DAAD) baş katibi Kristian Vordun başçılıq etdiyi nümayəndə heyəti BDU-da) //Azərbaycan.- 2007.- 19 aprel.- S. 6.

Əməkdaşlıq haqqında müqavilə imzalanmışdır: (BDU ilə Taras Şevçenko adına Kiyev Milli Universiteti arasında) //Azərbaycan.- 2005.- 9 aprel.- S. 4.

Xəlilzadə, F. Haqqı və xidməti olanlar: (Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsi haqqında) //Azərbaycan.- 2005.- 20 iyul.- S. 5.

Rus dilində

Алескеров, М. Бакинский Государственный Университет (1919-1994): специальный выпуск / М. Алескеров, М. Марданов, Ф. Вахидов.- Б., 1994.- 141 с.

İnternetdə

www.bsu.in-baku.com
www.bizimyol.az
www.lidertv.com
www.baku-online.com.az
www.kitab.az

Adilə Abdullayeva

Noyabr

17

Milli Dirçəliş Günü
1988

1988-ci ildə Sovet imperiyasının dağılmasıyla bağlı onun hüdudları daxilində qanlı çaxnaşmalar baş verdı. Artıq çürümüş imperiyanın əsl mahiyyəti aydınlaşır, uzun illər təlqin olunan kommunist beynəlmiləlçiliyinin puç olduğu üzə çıxırdı. Xalqları bir-birinə düşmən etməklə öz dayaqlarını saxlamağa çalışan imperiya dəhşətli cinayətlərə əl atdı...

1988-ci il noyabrın 17-də Azərbaycan xalqının azadlıq səsini ucaldaraq, imperiyaya qarşı hamılıqla ayağa qalxması onun dirçəlişi yolunda dönüş nöqtəsi oldu.

Azərbaycan xalqı uzun illər arzusunda olduğu müstəqilliyinə qovuşdu. Öz haqqı, azadlığı və torpaqlarına sahib çıxmaq istəyən xalqımız bu müqəddəs ideallar naminə birlik və bərabərliyini bir daha bütün dünyaya nümayiş etdirdi. 1992-ci ildən 17 Noyabr Milli Dirçəliş Günü kimi qeyd olunur. 1988-ci ilin ilk günlərində Ermənistanın Azərbaycana qarşı açıq təcavüzü başlandı. Moskvanın, xüsusən də SSRİ-nin rəhbəri M.Qorbaçovun buna biganə münasibətini görən ermənilər planlı şəkildə, Ermənistan hökumətinin tapşırığı və göstərişilə Ermənistanda yaşayan 200 mindən çox azərbaycanlını öz ata-baba yurdlarından kütləvi surətdə qovdular.

Ermənilər azərbaycanlıları təkcə öz ev-eşiklərindən qovmayırdılar, həm də onları cismən öldürür, diri-diri yandırırdılar. Ermənilərin tarixdə görünməmiş bu vandalizminə M.Qorbaçov və onun ətrafı heç bir reaksiya vermədilər. Ermənilər bununla da kifayətlənmədilər. 1988-ci ilin fevralın əvvəllərində Azərbaycanın Dağlıq Qarabağ bölgəsində ixtişaşlar törətdilər. Onlar Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirməsi haqqında məsələ qaldırdılar. Belə bir vaxtda Azərbaycan xalqı

ayağa qalxdı. Xalq öz etirazını sakit şəkildə rəhbərliyə bildirdi. İlk zamanlar Azərbaycan vətəndaşları Moskvaya, yerli hakimiyyət başçılarına inanırdılar. Onların şüarları, gəzdirdikləri portret və bayraqlar bunu sübut edirdi.

Ancaq, xalq gördü və başa düşdü ki, nə Moskva, nə də Azərbaycanın o vaxtkı rəhbərliyi heç bir qəti tədbir görmək istəmirlər. Belə olduqda, respublikanın hər yerindən insanlar axın-axın Bakıya gəlir, Azadlıq meydanına (o vaxt V.İ.Lenin adını daşıyırdı) toplaşır, ermənilərin və Sovet hökumətinin belə münasibətinə qarşı mitinqlər keçirir, öz etirazlarını bildirirdilər.

1988-ci ilin noyabrın 17-də Bakının əsas meydanı sayılan Azadlıq meydanında Sovet dövlətinin xalqımıza qarşı apardığı antiazərbaycan siyasətinə etiraz əlaməti olaraq Azərbaycan ictimaiyyətinin sonu bilinməyən mitinqi başlandı. O vaxt bütün xalq bir yumruq kimi düyünlənmişdi. Bu, əsl xalq hərəkatı, milli azadlıq hərəkatı idi. Dekabrın əvvəllərində sovet qoşunları tərəfindən ümumxalq mitinqi dağıdıldı. Azərbaycanda bu hadisələr milli azadlıq hərəkatı kimi qiymətləndirilir və Vətənimizin istiqlaliyyət qazanmasında əsas amil sayılır.

Ədəbiyyat

Dirçəliş illərində: Kitab-albom. (Heydər Əliyev haqqında).- B.: Azərbaycan, 1998.- 80 s.

Allahverdiyev, R. İnkişafa, sabitliyə aparan yol: 17 Noyabr-Milli Dirçəliş Günüdür //Cəmiyyət və cəza.- 2005.- № 6.- S. 33.

Əliyev, H. Əsl müstəqilliyə aparan yol: Bu yol ulu öndər Heydər Əliyevin hakimiyyətə gəldiyi gündən başlanır: [Dirçəliş günü ilə əlaqədar] //Azərbaycan.- 2006.- 17 noyabr.- S. 4.

Əliyev, H. Mənəvi gücün qüdrəti: [Heydər Əliyev və Dirçəliş Günü haqqında] Milli Dirçəliş Günü //Qocayev, Ə. Bayramlar və tarixi günlər.- B.: Altun kitab.- S. 64-66.

Adilə Abdullayeva

Noyabr

24

85 illiyi

Vəcihə Səmədova
1924-1965

Rəssam

Görkəmli Azərbaycan rəssamı, Azərbaycanın Əməkdar incəsənət xadimi Vəcihə Əli qızı Səmədova 1924-cü ildə Bakı şəhərində anadan olmuşdur.

1939-1944-cü illərdə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda təhsil alan Vəcihə xanım, sonradan V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunun Rəngkarlıq fakültəsinə - tanınmış rus rəssamı Pavel Korinin emalatxanasına daxil olur. O, 1951-ci ildə "Üzeyir Hacıbəyov tələbələri arasında" adlı diplom işini müvəffəqiyyətlə müdafiə edir. Təhsilini başa vurduqdan sonra vətənə qayıdır və Azərbaycanın ilk peşəkar qadın rəngkarı olur. Portret, mənzərə və tematik tablolar çəkmişdir.

Vəcihə Səmədova ömrünün axıranadək təhsil aldığı rəssamlıq texnikumunda pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Və indi onun yetirmələri respublikanın adlı-sanlı fırça ustalarıdır.

1954-cü ilin avqustunda Moskvada SSRİ Rəssamlıq Akademiyasının salonunda müharibədən sonra ilk dəfə Gürcüstan, Ermənistan və Azərbaycan rəssamlarının əsərlərindən ibarət sərgi açıldı. Vəcihə Səmədova bu sərgidə özünün ən yaxşı tablolarından birini- "İmtahandan əvvəl" əsərini nümayiş etdirdi. Moskva tamaşaçıları, sənət biliciləri gözəl naxışlı xalça fonunda təsvir edilmiş tələbə obrazına baxa-baxa əsər haqqında səmimi fikirlər söylədilər. Obrazın təbiiliyi, gözəlliyi və bütövlükdə əsərin güclü koloriti tamaşaçıların böyük marağına səbəb oldu. Az sonra Bakıda Respublika sərgisində onun Göy-göldə çəkdiyi bir neçə mənzərə tabloları da sənətsevərlər tərəfindən eyni səmimiliklə qarşılandı.

Sərgidəki "Leyla Bədirbəylinin portreti" Vəcihə xanımın bu janrdakı uğurunu göstərirdi. Onun əsərlərini indi də muzeylərdə görənlər bu

rəssamın necə yüksək bir istedada, professional hazırlığa malik olduğunu təsdiq edə bilərlər.

Uşaqlara həsr etdiyi hər bir əsərində isə Vəcihə xanımın körpələri qəlbən sevən bir ana olduğu qabarıq görünür və bu əsərlərə indinin özündə də həyəcansız baxmaq olmur. "Gənc skripkaçının portreti" (oğlu Nicatın portreti) və "Fatimənin portreti" (rəssamın qızı) kimi əsərləri doğrudan da misilsiz sənət yadigarlarıdır.

Fırça ustasının "Toy günü", "Gözləmə" əsərləri Moskvada, Riqada, Tbilisidə təçkil olunmuş sərgilərdə nümayiş etdirilmişdir. Vəcihə Səmədova "Xəbər gözləyərkən" (Xəzər balıqçılarının həyatına həsr olunmuş) kimi ciddi planda psixoloji əsərlər də işləmişdir.

1962- ci ildə rəssamın Bakıda fərdi sərgisi açılır. Onun "Bayram", "Türk qızı" kimi digər əsərləri tamaşaçıları valeh edir. Tablolarındakı rəng çalarları, milli kolorit böyük ustalıqla işlənmiş bu əsərləri dünyanın bir sıra muzeylərində layiqli yer tutmasına səbəb olub.

1965-ci ildən Bakıda rəssamın adını daşıyan sərgi salonu var.

1965-ci ildə Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Vəcihə Səmədova. Azərbaycan SSR Əməkdar incəsənət xadimi.- B., 1966.- 6 s.

İsmayılova, T. Əsərlərində əbədiləşən rəssam //Bakı.- 1984.- 13 aprel.- S.3.

Qasımova, E. Doğma, əziz...: [Rəssamın yaratdığı əsərlər haqqında] //Qobustan, 1985.- № 2.- S. 16-18.

Nəcəfov, M. Rəssamın yeni sərgisi qarşısında //Ədəbiyyat və incəsənət.- 1985.- 6 dekabr.- S. 8.

Elnaz Həsənova

Noyabr

25

120 illiyi

Rəşad Nuri Güntəkin
1889-1956

Türk yazıçısı

Görkəmli türk yazıçısı Rəşad Nuri Güntəkin 1889-cu il noyabrın 25-də İstanbulda həkim ailəsində anadan olmuş, uşaqlıq illərini Anadolu, Çanaqqala və İzmirdə keçirmişdir. İzmirdə fransızca orta təhsil almış, İstanbul Universitetinin Ədəbiyyat fakültəsini bitirmişdir. Sonralar Rəşad Nuri müəllim və məktəb müdiri işləmiş, bir neçə il sənət dostları ilə birgə satirik jurnal nəşr etmiş, 1927-ci ildə Maarif Nazirliyində müfəttiş vəzifəsinə təyin edilmişdir. On iki il müfəttiş işlədiyi dövrdə o, kənd və şəhərləri dolaşmış, xalq həyatını yaxından öyrənmişdir.

Görkəmli yazıçı kimi şöhrət qazanan Rəşad Nuri 1939-cu ildə Türkiyə Böyük Millət Məclisinə deputat seçilmişdir. 1947-ci ildə İstanbulda çıxan "Məmləkət" qəzetinin baş redaktoru işləmiş, daha sonra Parisdə Birləşmiş Millətlər Təşkilatı nəzdində fəaliyyət göstərən Mədəni cəmiyyətdə Türkiyənin nümayəndəsi olmuşdur. Yaradıcılıqla Birinci Dünya müharibəsi illərindən məşğul olmağa başlayan Rəşad Nuri ilk məqalələrini fransızca nəşr olunan jurnalda dərc etdirmişdir. Yazıçının ilk nəsr əsəri 1917-ci ildə yazdığı "Köhnə dost" hekayəsidir. Sonra 1918-ci ildə "Xarabaların çiçəyi" romanını yazmış, 1923-1930-cu illərdə birbirinin ardınca bir neçə hekayələr kitabı nəşr etdirmişdir. R.N.Güntəkin çoxlu hekayə, pyes və məqalələr yazsa da, daha çox romançı kimi məşhurdur. O, "Çalıquşu" (1922), "Damğa" (1924), "Dodaqdan qəlbə"(1925), "Acımaq" (1928), "Yarpaq tökümü" (1930), "Köhnə xəstəlik" (1938), "Dəyirman" (1944), "Qovaq yelləri" (1950), "Qan davası" (1956) və s. romanlarında Türkiyə həyatının geniş realist təsvirini vermişdir. "Yaşıl gecə" (1928) romanı isə türk xalqının milli azadlıq mübarizəsindən bəhs edir. Rəşad Nuri "Xəncər" (1918), "Daş parçası" (1926), "Fəlakət qarşı-

sında” (1931), “Vergi oğrusu” (1933), “İstiqlal” (1933) və başqa dram əsərləri də yazmışdır. 1919-cu ildə Azərbaycan artistlərinin qastrol tamaşaları münasibəti ilə yazdığı “Azərbaycan teatrı” məqaləsində Azərbaycan teatrının ideya-sənətkarlıq səviyyəsini, Ü.Hacıbəyovun “Arşın mal alan” və “Məşədi İbad” komediyalarını yüksək qiymətləndirmişdir. Ömrünün son illərində təzədən Maarif Nazirliyinə qayıtmış, az sonra təqaüdə çıxmışdır.

Rəşad Nuri Güntəkin 1956-cı il dekabrın 7-də Londonda müalicədə olarkən vəfat etmiş və İstanbulda dəfn edilmişdir.

Ədəbiyyat

Çalıquşu: roman / tərc.ed. M.Rzaquluzadə.- B.: Şərq -Qərb, 2006.- 373 s.

Dodaqdan qəlbə: roman /nəş. haz. M. Axundova.- B.: Şərq-Qərb, 2006.- 277 s.

Yarpaq tökümü: roman /red. F.Qoçəliyeva.- B.: Çinar-Çap, 2007.- 111 s.

Rus dilində

Избранные произведения.- М.: Художественная литература, 1986.- 750 с.

Птичка певчая: Роман /пер. с тур. И.Печенова.- М.: Издательство МСХА, 1991.- 412 с.

Adilə Abdullayeva

Noyabr

30

75 illiyi

İlyas Tapdıq
1934

Şair

İlyas Tapdıq Azərbaycan uşaq ədəbiyyatının tanınmış nümayəndələrindən biridir. O, 1934-cü il noyabr ayının 30-da Gədəbəy rayonunun Əli İsmayıllı kəndində doğulmuş, məktəbi bitirdikdən sonra APİ-nin Dil və ədəbiyyat fakültəsində təhsil almışdır.

Ədəbi yaradıcılığa tələbəlik illərində "Bakının gecəsi" şeirilə başlamışdır. 1957-1962-ci illərdə "Uşaqgəncnəşr"də, 1962 - 1968-ci ilərdə "Azərnəşr"də redaktor, 1968-1976-cı illərdə "Gənclik" nəşriyyatında böyük redaktor, redaksiya müdiri, 1968-1976-cı ildə baş redaktor, 1976-1978-ci ildə Azərbaycan Baş Mətbuat Müvəkilliyində qrup rəhbəri, 1978-1983-cü illərdə Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsində Televiziya gənclər baş redaksiyasının baş redaktoru, 1989-1992-ci illərdə Türkiyənin Ankara şəhərində Türk Standartları İnstitutunda və Xarici İşlər Nazirliyi və kalkınma ajasında müəllim, "Azərbaycan" qəzetinin Türkiyə üzrə xüsusi müxbiri vəzifələrində işləmişdir.

İ.Tapdıq gözünü dünyaya açdığı zamandan sazın laylası ilə pərvəriş tapmış, xalqın sevinci ilə sevinmiş, kədəri ilə kədərlənmiş, müasir həyatla yaşamış, zamanla, vaxtla ayaqlaşmağa çalışmış, insanların istək və arzularının əsl tərənnümçüsünə çevrilmişdir. Bu cəhd və maraq onun yaradıcılığında müsbət bəhrələrini bu gün də göstərir.

Xalq poeziyasına, aşıq şeirinə yaxından bağlılıq, vurğunluq onun poeziyasına xüsusi bir oynaqlıq, səmimiyyət gətirir.

Təsadüfi deyildir ki, onun əsərləri respublika sərhədlərindən çox-çox uzaqlarda da yayılmış, özünə digər respublikalardan da oxucu tapmışdır.

İlyas Tapdıq ədəbiyyatımızın əllinci illərin nəslinə mənsubdur. Hələ ilk şeirlərindəki yığcamlıq, zəngin xalq ədəbiyyatından yaradıcı şəkildə bəhrələnmək şairi oxucu-

larına tanıtdırmış və sevdirmişdir. Müxtəlif illərdə nəşriyyatlarda buraxılmış "Kəndimizin çobanı", "Bulaq başında", "Xumar", "Arxalı dağlar", "Çimnaz oynayır", "Bir gülün qönçəsi" və başqa kitabları uşaq ədəbiyyatının inkişafında mühüm rol oynamışdır.

İlyas Tapdıq həm də lirik şairdir. "Əksim və qəlbim", "Bir eşqin şimşəyi" və başqa kitablarında toplanmış şeirlər gənclərin sevə-sevə oxuduğu şeirlərdəndir.

1989-cu ildən "Azərnəşr"də bədii ədəbiyyat şöbəsinin müdiri vəzifəsində çalışır. Prezident təqaüdçüsüdür.

Ədəbiyyat

Bir evim var: Azyaşlı uşaqlar üçün şeirlər.- B.: Gənclik, 1971.-12 s.

Bir gülün qönçəsi: şeirlər. -B.: Gənclik, 1970.- 123 s.

Əziz bir insanı xatırlayıram: (Mir Cəlal haqqında xatirələr).- B.: Şur, 199.-26 s.

Qızar, qağayılar: şeirlər və poemalar.- B.: Azərnəşr, 1974.-154 s.

Məhəbbət yolları: şeirlər.- B: Yazıçı, 1973.- 191 s.

Şeir sevən balalar: şeir və poemalar.- B.: Turan evi, 2005.-503 s.

Hacızadə, N. Prezident təqaüdçüsü «Şeirimin canıdır bu el, bu vətən… (Şair İlyas Tapdıq haqqında) //Azərbaycan.- 2004.-25 dekabr.- S.6

Məmməd, A. Ustad haqqı qazanmış şair (müəllifin İlyas Tapdığın yaradıcılığı haqqında 2001-ci ildə yazdığı məqaləsi) //Respublika.- 2006.-14 fevral.- S. 7.

Məmməd Arazın məktubları: (İlyas Tapdığa) //Zəfər qalası.-2005.-1-10 sentyabr.- S. 4.

Şairin yubileyi keçirildi: İlyas Tapdığın anadan olmasının 65, yaradıcılığının 50 illiyi //Mədəniyyət.- 2000.- yanvar.- №1.- S.5.

Rus dilində

Возьми меня за руку: Стихи.- М.: Детская литература, 1981.-95 с.

Следы ветра: Стихи и поема.- М.: Сов.писатель, 1973.- 103 с.

Nailə Alışova

1 dekabr
Gün çıxır
06:08
Gün batır
17:15
31 dekabr
Gün çıxır
06:26
Gün batır
17:24

Dekabr

23 noyabr-
21 dekabr

Oxatanın Nişanı oddur. Yupiterin himayəsindədir. Günəşin Oxatan bürcündən keçdiyi dövrdə doğulanlar təmkinli, fəal olurlar. Kişilər qadınların xoşuna

2009

Əlamətdar və tarixi günlər

1. *QİÇS-ə qarşı mübarizə Günü*
3. *Beynəlxalq Əlillər günü*
11. *Uşaqların Beynəlxalq Televiziya və Radio Verilişləri Günü*
12. *Respublikamızda ilk dəfə bələdiyyə seçkiləri keçirilməsinin 10 illiyi*
16. *Sərhəd Qoşunları Günü*
30. *Gəncə şəhərinin tarixi adının bərpa olunmasının 20 illiyi*
31. *Dünya Azərbaycanlılarının Həmrəylik Günü*

Ça	1
Ç	2
Ca	3
C	4
Ş	5
B	**6**
Be	7
Ça	8
Ç	9
Ca	10
C	11
Ş	12
B	**13**
Be	14
Ça	15
Ç	16
Ca	17
C	18
Ş	19
B	**20**
Be	21
Ça	22
Ç	23
Ca	24
C	25
Ş	26
B	**27**
Be	28
Ça	29
Ç	30
Ca	31

Qan yaddaşı 1988-2009



1988-ci ilin yanvar ayından etibarən azərbaycanlıların indiki Ermənistan Respublikasının ərazisindən, öz tarixi torpaqlarından kütləvi deportasiyasına başlayaraq, Azərbaycan Respublikasının Dağlıq Qarabağ daxil olmaqla 20 faiz ərazisini işğal edib orada «etnik təmizləmə», «yandırılmış ərazilər» prinsipini həyata keçirən erməni tərəfi həmvətənlərimizə qarşı kütləvi qətllər və soyqırımı törətmiş, 1 milyondan artıq vətəndaşımızı öz yurd-yuvasından didərgin salmışdır. 1995-ci ildən etibarən işğal olunmuş ərazilərdəki qeyri-qanuni fəaliyyətini daha da genişləndirən erməni tərəfi narkotik maddələrin qanunsuz becərilməsi, istehsalı, dövriyyəsi, insan ticarəti, qanunsuz məskunlaşdırma, maddi-mənəvi sərvətlərin talan edilməsi, nüvə və radioaktiv tullantıların basdırılması və digər beynəlxalq cinayətlər törətməklə həmin əraziləri beynəlxalq, o cümlədən erməni terrorçularının sığınacaq yerinə və təlim-məşq bazasına çevirmiş, cəbhəyanı zonadan yüz kilometrlərlə uzaq yaşayış məntəqələrini əhatə edən terror-təxribat əməllərinin coğrafiyasını genişləndirmiş, bu cinayət əməllərinə Azərbaycanda yaşayan azsaylı xalqların nümayəndələrini də cəlb etmişdir.

QİÇS-ə qarşı Mübarizə Günü (01.12.1996)

Azərbaycanın Milli Qəhrəmanı Əliyev Yusif Əliyusif oğlunun (02.12.1969-14.09.1991) anadan olmasının 40 illiyi

Beynəlxalq Əlillər Günü (03.12.1992)

Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, kinorejissor Mahmudbəyov Şamil Fərəməz oğlunun (05.12.1924) anadan olmasının 85 illiyi

Azərbaycanın neft ustası, Əliyev Gülbala Ağabala oğlunun (05.12.1879-27.03.1971) anadan olmasının 130 illiyi

Azərbaycanın Xalq şairi Babayev Nəbi Ələkbər oğlunun (Nəbi Xəzri) (10.12.1924-15.01.2007) anadan olmasının 85 illiyi

Uşaqların Beynəlxalq Televiziya və Radio Verilişləri Günü (11 dekabr)

Respublikamızda ilk dəfə bələdiyyə seçkiləri keçirilməsinin (12.12.1999) 10 illiyi

Gürcüstanın Əməkdar mədəniyyət işçisi, ədəbiyyatşünas, tərcüməçi Əliyeva Dilarə Əkbər qızının (14.12.1929-20.04.1991) anadan olmasının 80 illiyi

Azərbaycanın Xalq rəssamı Bəhlulzadə Səttar Bəhlul oğlunun (15.12.1909-14.10.1974) anadan olmasının 100 illiyi

Azərbaycanın Xalq şairi Hüseynzadə Hüseyn Camal oğlunun (Hüseyn Arif) (15.12.1924-14.09.1992) anadan olmasının 85 illiyi

Sərhəd Qoşunları Günü (16 dekabr)

Şair, dramaturq Qurbanov Teyyub Yarməmməd oğlunun (Teyyub Ourban) (18.12.1934) anadan olmasının 75 illiyi

Azərbaycanın Xalq şairi Bayramov Tofiq Qulam oğlunun (Tofiq Bayram) (18.12.1934-18.04.1991) anadan olmasının 75 illiyi

Azərbaycanın Xalq artisti, aktyor Məmmədov İbrahim Əhməd oğlunun (22.12.1934) anadan olmasının 75 illiyi

Ədəbiyyatşünas, tənqidçi Əkbərov Tofiq Süleyman oğlunun (22.12.1939-29.12.1985) anadan olmasının 70 illiyi
Əməkdar elm xadimi, ədəbiyyatşünas İsmayılov Rauf Əbdüləli oğlunun (22.12.1939) anadan olmasının 70 illiyi

Azərbaycanın Əməkdar mədəniyyət işçisi, şair Aslanov Məmməd Muxtar oğlunun (Məmməd Aslan) (24.12.1939) anadan olmasının 70 illiyi

Şair, tənqidçi, professor Mehdiyev Famil Ağalar oğlunun (Famil Mehdi) (25.12.1934-18.09.2003) anadan olmasının 75 illiyi

Azərbaycanın Xalq artisti, rəqqasə Dilbazi Əminə Paşa qızının (26.12.1919) anadan olmasının 90 illiyi

Azərbaycan Respublikasının Dövlət Neft Fondunun (ARDNF) yaradılmasının (29.12.1999) 10 illiyi

Azərbaycan tarixçisi, professor Əzizbəyova Püstə Əzizağa qızının (29.12.1929-08.01.1998) anadan olmasının 80 illiyi

Gəncə şəhərinin tarixi adının bərpa olunmasının (30.12.1989) 20 illiyi

İctimai xadim, tarixçi İsgəndərov Məmməd Salman oğlunun (30.12.1909-1965) anadan olmasının 100 illiyi

Dünya Azərbaycanlılarının Həmrəylik Günü (31.12.1991)

Dekabr
10

85 illiyi

Nəbi Xəzri
1924-2007

Şair



Azərbaycanın Əməkdar incəsənət xadimi, Xalq şairi Nəbi Ələkbər oğlu Babayev 1924-cü il dekabrın 10-da Bakının Xırdalan kəndində yoxsul kəndli ailəsində anadan olmuş, opta məktəbi bitirdikdən sonra ADU-nun Filologiya fakültəsinə daxil olmuşdur. 1942-1943-cü illərdə ordu sıralarına çağırılmış, lakin xəstəliyinə görə tərxis edilmuşdur. 1943-1945-ci illərdə "Kommunist" qəzeti redaksiyasında korrektor, Azərbaycan radio komitəsində diktor, 1945-1947-ci illərdə "Vətən uğrunda" jurnalı redaksiyasında ədəbi işçi vəzifəsində işləmişdir. 1947-1949-cu illərdə Leninqrad Dövlət Universitetində, 1949-1953-cü illərdə Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunda təhsil almışdır.

"Çiçəklənən arzular" adlı ilk kitabı (1950), "Bakı səhəri" (1954), "Salxım söyüdlər" (1957), "Kim məni xatırlasa" (1960), "Dəniz, göy məhəbbət" (1965), "İllər və sahillər" (1969), "Dərələr" (1970), "Ulduz karvanı" (1979) lirik şeirlər kitabları nəşr edilmişdur.

N.Xəzrinin poemalarında müasirlərimizin zəngin mənəvi aləmi, doğma vətən təbiətinin gözəllikləri tərənnüm olunur. Buna misal olaraq "Təmiz ürək" (1954), "Dağlar dağımdır mənim" (1962), "Günəşin bacısı" (1964), "İki Xəzər" (1967), "Əfsanəvi yuxular" (1971), "Mənim babam baxan dağlar" (1976), "Bacı" (1977), "İnam" (1980) poemalarını göstərmək olar. Əsərləri SSRİ xalqları dillərinə və bir sıra xarici dillərə tərcümə edilmişdir. N.Xəzri Azərbaycan Yazıçılar İttifaqında məsləhətçi (1949-1952), "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında ədəbi işçi (1957-1958), Azərbaycan Yazıçılar İttifaqının katibi (1958-1965), Azərbaycan Dövlət Radio və Televiziya Verlişləri Komitəsinin sədr müavini (1965-1971), Azərbaycan mədəniyyət nazirinin müavini (1971-1974),

Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti Rəyasət Heyətinin sədri, (1974-1992), 1992-ci ildən "Azərbaycan dünyası" Beynəlxalq Əlaqələr Mərkəzinin prezidenti vəzifəsində işləmişdir. 1981-ci ildə SSRİ Yazıçılar İttifaqı idarə heyətinə üzv, 1991-cı ildə Azərbaycan Yazıçılar Birliyi Ağsaqqallar Şurasına üzv seçilmişdir. Şair Qırmızı "Əmək Bayrağı" ordeni ilə təltif olunmuş, anadan olmasının 70 illiyi münasibətilə "Şöhrət" ordeninə layiq görülmüşdür.

N.Xəzri 17 yanvar 2007-ci il tarixində, Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri: 2 cilddə.-B.: "Lider nəşriyyatı", 2004.- 2004.- 246 s.

Salatın.- B.: Gənclik, 1991. - 22 s.

Ömür çinarından yarpaqlar.- B.: Gənclik, 1995.- 359 s.

Peygəmbərlər.- B.: Azərbaycan, 1992.- 48 s.

Səndən eldə bir nişanə qalar söz.- B.: Azərbaycan, 1994.- 20 s.

Səma uca, torpaq dərin.- B.: Gənclik, 1995.- 269 s.

Əsrin qanlı laləsi.- B.: Azərnəşr, 1996.- 465 s.

"Bu gün Nəbi Xəzri kimsəsizlik dövrünü yaşayır /Şair APA-nın suallarına cavab verir //Azadlıq.- 2006.- 27 aprel. – S. 3.

Kim məni xatırlasa: (Şeir) //Ədəbiyyat qəzeti.- 2007.- 19 yanvar.-S.1.

Rus dilində

Хазри, Н. Ветка чинары: Стихи /сост. и авт предисл. Н.Хазри, А.Ловрин.- М.: Сов. Россия, 1988.- 302 с.

Голубая книга: Стихи.- Б.: Язычы, 1988.- 302 с.

İnternetdə

www.az-customs.net
www.bizimasr.media-az.com
www.dil-tarix-poeziya
www.xalqqazeti.com
www.xazar.info
www.iatp.az
www.lider.tv.az

Saqibə Mehrəliyeva

Dekabr

14

80 illiyi

Dilarə Əliyeva
1929-1991

Ədəbiyyatşünas

Ədəbiyyatşünas, tərcüməçi Əliyeva Dilarə Ələkbər qızı 1929-cu il dekabrın 14-də Gürcüstanın Tbilisi şəhərində dəmirçi ailəsində anadan olmuşdur. 97 saylı Azərbaycandilli şəhər orta məktəbini bitirdikdən sonra ADU-nun Şərqşünaslıq fakültəsində təhsil almışdır (1945-1950). Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunun aspiranturasına daxil olandan sonra Gürcüstan EA-nın Şota Rustaveli adına Ədəbiyyat İnstitutuna ezam edilmiş, "Azərbaycan-gürcü ədəbi əlaqələrinin XIX əsr ədəbiyyatında inikası" mövzusunda namizədlik dissertasiyasını tamamlamış, 1954-cü ildə müdafiə etmişdir.

1960-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Gürcüstanın Əməkdar mədəniyyət işçisi (1980), Azərbaycan Respublikası Ali Sovetinin deputatı (1990) vəzifələrində işləmişdir.

Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunda kiçik elmi işçi, Nizami adına Ədəbiyyat Muzeyində baş elmi işçi (1957-1959), qədim və orta əsrlər ədəbiyyatı şöbəsində müdir (1959-1972), sonra Nizami adına Ədəbiyyat İnstitutunun ədəbi əlaqələr şöbəsində böyük elmi işçi (1972-1979), Nizamişünaslıq şöbəsində böyük elmi işçi (1979-1986), institutun ədəbi əlaqələr şöbəsində aparıcı elmi işçi vəzifələrində işləmiş, (1986-cı ildən) eyni zamanda bölmə müdiri kimi çalışmışdır. «Nizami və gürcü ədəbiyyatı» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Filologiya elmləri doktoru olmuşdur (1985).

1991-ci il aprelin 20-də avtomobil qəzasında faciəli şəkildə həlak olmuş, Bakıda Fəxri Xiyabanda dəfn olunmuşdur. Qadın Hüquqlarını Müdafiə Cəmiyyəti onun adını daşıyır.

"Koroğlu"nun yeni əlyazma nüsxəsi: Yeddinci məclis //Azərbaycan.- 1990.- № 9.- S. 174-189.

Tərcümə məharətinin nümunəsi (Əhməd Cavad haqqında).- Ədəbiyyat və incəsənət.- 1989.- 12 iyul.- S. 10-11.

Türkiyə görüşləri: (I Millətlərarası Böyük Azərbaycan Konqresi haqqında) //Elm.- 1990.- 7 iyul.- S. 1- 4.

Ürək bir, dilək bir .- B.: Yazıçı, 1981.- 217 s.

Əhmədov, T. XX əsr Azərbaycan yazıçıları.- B.: "Nurlar", 2004.- S. 175.

İsmayıllı, Ə. Bitməmiş müsahibə və ya duru meydanı: /Dilarə Əliyeva haqqında //Ədəbiyyat qəzeti.- 1992.- 27 mart.- S. 5.

Kəngərli, F. ...Öncə məsləkdaş idik: [Dilarə Əliyeva haqqında] //Ədəbiyyat qəzeti.- 1993.- 23 aprel.- S. 4.

Aytən Abdullayeva

Dekabr

18

75 illiyi

Tofiq Bayram
1934-1991

Şair

Tofiq Bayram 1934-cü il dekabrın 16-da Bakının Əmircan kəndində anadan olmuş, həmin kənddə orta məktəbi bitirdikdən sonra Azərbaycan Pedaqoji İnstitutunun Tarix fakültəsində təhsilini davam etdirmişdir. İnstitutda oxuyarkən ədəbiyyat dərnəyinə getmiş və ilk şeirlərini də elə orada yazmışdır.

Əmək fəaliyyətinə "Azərbaycan müəllimi" qəzeti redaksiyasında şöbə müdiri kimi başlamışdır. Sonra Azərbaycan Dövlət Radio və Televiziya Verilişləri Komitəsində ədəbi işçi, M.F.Axundov adına Dövlət Opera və Balet Teatrında ədəbi hissə müdiri (1961-1964), "Ulduz" jurnalı redaksiyasında (1964-1968), "Ədəbiyyat və İncəsənət" qəzeti redaksiyasında şöbə müdiri (1968-1978), "Yazıçı" nəşriyyatında baş redaktor müavini vəzifələrində (1978) işləmişdir.

Şairin yaradıcılığında Səməd Vurğun poeziyasının, Vurğun ədəbi məktəbinin böyük rolu olmuşdur.

Bu baxımdan "Səməd Vurgun çələngi" silsilə şeirlərini göstərmək olar. Şair Səməd Vurguna olan sonsuz el sevgisini, Vurğunun müdrik poeziyasının səxavətini öz şeirində göstərmişdir.

T.Bayram yaradıcılığının aparıcı xətti onun vətəndaşlıq ehtirasıdır. Şairin "Ana təbəssümü", "Mənim şair xalqım", "Sizi düşünürəm", "İnamım, əqidəm", "Gərək elə yanım..", "Azərbaycan deyəndə", "Səninlə görüşəndə"və s. kitabları oxucular tərəfindən maraqla qarşılanmışdır.

Tofiq Bayram əsasən lirik şairdir. Ancaq onun lirikasında siyasi-motivlər üstünlük təşkil edir. O, bir şair kimi çox yaxşı başa düşürdü ki, həyatda insanı yaşadan inamdır, əqidədir. Əqidəsiz, inamsız yaşamaq ölümə bərabərdir. Ona görə də şair yazır:

Yaşaya bilmərəm çörəksiz, susuz,
Yaşaya bilmərəm bir gün amalsız.

Dərin fəlsəfi təfəkkürə malik olan şair öz şeirlərində ilk baxışda çox adi görünən məsələləri poetik zənginliklə bəzəyir və ona fəlsəfi mahiyyət verə bilir. Şair "Ərik ağacı" şeirində həyətlərində bitən ərik ağacını elə təsvir edir ki, oxucu həmin ərik ağacının timsalında canlı bir aləmi görür.

T.Bayram həm də epik poemalar müəlifidir. Şairin "Yaralı nəğmə", "Fəhlə danışır" kimi poemaları buna misaldır.

T.Bayramın bir tərcüməçi kimi fəaliyyəti onun yaradıcılığının böyük bir sahəsini təşkil etmişdir.

Lope de Veqanın "Hiyləgər məşuqə" pyesini (1978) tərcümə etmişdir. 1988-ci ildə A.T.Tvardovskinin "Yaddaşın hökmü" poemasının tərcüməsinə görə M.Qorki adına Azərbaycan Dövlət mükafatı fəxri adına layiq görülmüşdür.

T.Bayramın ədəbiyyat sahəsindəki xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, o, respublikanın Əməkdar incəsənət xadimi kimi fəxri ada layiq görülmüşdür.

1991-ci il aprelin18-də vəfat etmiş, Bakının Əmircan kəndində dəfn olunmuşdur.

Ədəbiyyat

Seçilmiş əsərləri.- B.: Lider nəşriyyatı, 2005.- 325 s.

Ay gecikən məhəbbətim .- B.: Yazıçı, 1987.-235 s.

Əsrin oyunu.- B.: Gənclik, 1979.-120 s.

Könlümdə yaşayanlar.- B.: Yazıçı, 1980.-252 s.

Məsləkim-silahım.- B.: Yazıçı,1984.-268 s.

Sənինlə görüşəndə.- B.: Azərnəşr, 1977.-136 s.

Bayram, T. /Tofiq Bayram. Dostum sair Həsən Valehə cavab [Şeir] //Azərbaycan. 2001.- 6 yanv.-S.4.

Quliyeva, Z "Silinib itmərəm xatirələrdən" [AMEA-nın "Nizami Gəncəvi" adına Azərbaycan ədəbiyyatı Muzeyində şair Tofiq Bayrama həsr olunmuş "Silinib itmərəm xatirələrdən" adlı xatirə gecəsi haqqında]- //Azərbaycan.- 2005.- 18 iyun.- S. 7.

Ulduz, B. Məslək və ilham şairi Tofiq Bayram-70. //Azərbaycan 2004.- №10.-S. 106-116.

İnternetdə

www.romantik.iatp.az.
www.az.wikipedia.org.
www.load.az.
www.azerbaijan.news.az
www.municipality.az.

Saqibə Mehrəliyeva

Dekabr

18

75 illiyi

Teyyub Qurban
1934

Şair



Qurban Teyyub Yarməmməd oğlu 1934-cü il dekabrın 18-də Bakı yaxınlığındakı Bülbülə qəsəbəsində fəhlə ailəsində anadan olmuşdur. 208 saylı orta məktəbi bitirdikdən sonra 1954-1959-cu illərdə ADU-nun (indiki BDU) Filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil almışdır. T.Qurban ədəbi fəaliyyətə 50-ci illərdə başlamışdır. Onun "Koreyalı döyüşçüyə" adlı ilk şeiri 1950-ci ildə "Pioner" jurnalının 12-ci sayında çıxmışdır. Dövri mətbuatda müntəzəm çıxış edir, şeirləri ayrı-ayrı xalqların dilində çap olunmuşdur. 1993-cü ildə Hacı Zeynalabdin Tağıyevə həsr etdiyi "Yaşayan ömür" pyesi Azərbaycan Dövlət Gənclər Teatrında tamaşaya qoyulmuşdur. 1994-cü ilin may-sentyabr aylarında M.Ə.Rəsulzadənin həyatından bəhs edən "Dönməzlik" poeması "Bakının səsi" qəzetində dərc olunmuşdur. 2002-ci ildə "Yaşıl rəngin işığı" kitabını tərtib etmişdir.

Hazırda fərdi yaradıcılıqla məşğuldur.

Ədəbiyyat

Dostluğun gücü.- B.: Azərnəşr, 1966.- 43 s.

Dostluq və qəhrəmanlıq səhifələri.- B.: Azərnəşr, 1985.- 103 s.

Dönməzlik.- B.: Şirvannəşr, 1997.- 114 s.

Yanğı.- B.: Azərnəşr, 1972.- 80 s.

Mənim gəncliyim.- B.: Azərnəşr, 1963.- 42 s.

Ömrün gecikən yazı .- B.: Yazıçı, 1992.- 152 s.

Sara (poema).- B.: Şirvannəşr, 2002.- 110 s.

Bəybala Ələsgərov

Dekabr

22

75 illiyi

İbrahim Məmmədov

1934

Aktyor

Məmmədov İbrahim Əhməd oğlu Culfa rayonunun Bənənyar kəndində 1934-cü ildə anadan olub.

1955-ci ildən C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Dram Teatrında işləyir. Əsas rolları Yaşar, Rəbi ("Yaşar", "Od gəlini", C. Cabbarlı), Hacı Qara ("Hacı Qara", M.F.Axundov), Bəxtiyar ("Komsomol poeması", S. Vurğun), Vahan ("Nakam qız", A.Şirvanzadə), Nər oğlan ("Qız atası", Ə.Əsgərov), Məşədi İbad, Mərcan bəy ("O, olmasın, bu olsun", "Ər və arvad", (Ü. Hacıbəyov), Kərəmov ("Toy", S.Rəhman), Dadaşbala ("Hicran", S. Rəhman, E.Sabitoğlu), Əli Paşa ("Nadir şah", N.Nərimanov) və s.

2000-ci ildə Azərbaycanın Xalq artisti adına layiq görülüb. Azərbaycan Teatr Xadimləri İttifaqının üzvüdür.

Ədəbiyyat

Naxçıvan Ensiklopediyası.- B.: Azərbaycan Milli Elmlər Akademiyası, 2002.- S. 312.

Elnaz Həsənova

Dekabr

24

70 illiyi

Məmməd Aslan
1939

Şair

Şair Aslanov Məmməd Muxtar oglu 1939-cu il dekabrın 24-də Azərbaycanın Kəlbəcər rayonunun Laçın kəndində ziyalı ailəsində anadan olmuşdur. Atasının klassik ədəbiyyata dərindən bələd olması onda şeirə-sənətə tükənməz həvəs oyatmışdır.

Kəlbəcərdə orta məktəbi bitirdikdən sonra APİ-nin Filologiya fakültəsində təhsil almış, əmək fəaliyyətinə Kəlbəcər rayonunun Yanşaq, İstisu kənd məktəblərində müəllim kimi başlamışdır. Sonra rayonda nəşr olunan "Yenilik" qəzetinin redaksiyasında məsul katib işləmişdir. 1970-ci ildə Bakı şəhərinə köçmüş, burada "Ulduz", "Azərbaycan təbiəti" jurnallarında, "Azərbaycan gəncləri", "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyalarında çalışmış, Yazıçı nəşriyyatında böyük redaktor olmuşdur.

Bədii yaradıcılığa 1960-cı ildə "Azərbaycan müəllimi" qəzetində çıxan ilk şeirilə başlamış, keçmiş SSRİ xalqları ədəbiyyatından tərcümələr etmişdir. Özbək şairi Zülfiyyənin "Torpağa səcdə", qazax şairi Qədir Mirzalıyevin "Bu bağda bülbüllər ötər" şeirlər məcmuələrini şərikli tərcümə etmişdir.

Bir sıra beynəlxalq və respublika mükafatları laureatıdır. 2000-ci ildə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Məmməd Aslan şeirdən-şeirə inkişaf edən, müasir həyatımızı, adamlarımızın zəngin mənəvi aləmini daha dolğun əkş etdirməyi bacaran şairdir. Məmməd Aslanın şeirlərinin mayası vətən məhəbbətidir.

Şairin "Dəlidağda qalan var", "Çiçək dənizi", "Dərə və zirvə", "Kəlbəcər", "Torpaq" və s. şeirləri buna misaldır.

Məmməd Aslan şeirlərində şifahi xalq yaradıcılığına arxalanmış, elin bu tükənməz sərvətindən bol-bol faydalanmışdır.

Şairin ilk məqalələr kitabı "Bizdən sonra nə

qaldı” 1979-cu ildə çapdan çıxmışdır.

Həmişə axtarışda olan, elimizin dadlı-duzlu ifadələrini, müdrik atalar sözlərini şeirlərində işlədən Məmməd Aslanın bu kitabında onun 15 illik publisist yazıları, oçerk və məqalələri toplanmışdır.

Səməd Vurgun, B.Vahabzadə, Aşıq Şəmşir, Aşıq Ömər, Misgin Abdal haqqında yazdığı məqalələri nə qədər təbii və səmimidirsə, müasirləri olan həkim, müəllim, valideynlər, Böyük Vətən müharibəsinin iştirakçıları haqqındakı yazılarda da eyni odlu sətirlər, qayğıkeşlik və səmimiyyət vardır.

“Ərzurumun gədiyinə varanda” kitabı şairin Türkiyə səfərindən aldığı təəssüratın məhsuludur. Kitabda şairin türk və Azərbaycan ədəbiyyatı haqqında müqayisəli qeyd və mülahizələri əsas yer tutur. Özünün dediyi kimi, “mənim yazdıqlarım istər təmasda olduğum mövzular baxımından, istərsə də dil cəhətdən bir folklorçu gündəliyidir. Kitabın ruhuna hopan duyğulardan biri də şairin Türkiyəni gəzərkən həmişə və hər yerdə öz Azərbaycanını anması və doğma torpaq ətrinin həsrətini çəkməsidir.

Xalq dilinin məna və zənginliyi, bədii təsvir və ifadə vasitələri Məmməd Aslanın publisistikasının canıdır. Bu cəhəti xüsusi qiymətləndirən B.Vahabzadə onun “Səsimə səs ver” kitabı haqqında belə yazmışdır: “Qoy ana dilimizin dadını, duzunu, şəkərini duymaq istəyənlər bu kitabı oxusun, səslərin düzülüşünə, sözlərin nəğməsinə valeh olsunlar”.

Ədəbiyyat

Bizdən sonra nə qalır: (oçerklər, puplisistika).- B.: Gənclik, 1979.-180 s.

Durnalar lələk salır: (Hekayələr).- B.: Gənclik, 1982.-167 s.

Dəvələr niyə gövşəyir: (uşaq şeirləri).- B.: Gənclik, 1980.- 81 s.

Ərzurumun gədiyinə varanda: (xatirələr).- B.: İşıq, 1985.- 250 s.

Saxla izimi dünya.- B.: İşıq, 1989.- 200 s.

Nur içində nur (şeirlər).- Ankara, 1997.-128 s.

Allahın rəsulu.- B., 2001. - 327 s.

Bir sultan yaşardı Sultantəpədə.- İstanbul, 2003. - 123 s.

.

Haciyeva, M. Müdriklik çeşməsi.- B.: Azərnəşr, 1984.- S. 102-107

İsmayılqızı, X. Görüş yeri. Bənövşə qoxulu sətirlər müəllifi: [Məmməd Aslan haqqında] //Yeni Azərbaycan.- 2003. -may.- S.8.

İnternetdə

www.ahiska.iatp.az.

www.azadliq.az.

www.az.wikipedia.org.

www.irfan.sayt.ws/seir.htm

www.kitab.az.

www.sd.com.az

Saqibə Mehrəliyeva

Dekabr

25

75 illiyi

Famil Mehdi
1934- 2003

Şair

Azərbaycanın görkəmli şairi, tənqidçi, publisist Famil Ağalar oğlu Mehdiyev 1934-cü il dekabrın 25-də Ağdam rayonunun Sarıhacılı kəndində anadan olmuşdur. Əhmədavar kənd yeddiillik məktəbini bitirdikdən sonra Ağdam Pedaqoji məktəbində təhsil almışdır. 1953-1958-ci illərdə ADU-nun Filologiya fakültəsinin jurnalistika şöbəsində təhsilini davam etdirmişdir.

Famil Mehdi bədii yaradıcılığa 1951-ci ildə Ağdam rayon qəzetində çıxan ilk şeiri ilə başlamış, dövri mətbuatda vaxtaşırı çıxış etmişdir. Famil Mehdi 1959-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. O, 1974-cü ildə "Azərbaycan bədii publisistikasının sənətkarlıq problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, 1977-ci ildən professor adına layiq görülmüşdür. Onun əsərləri müxtəlif xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur.

Görkəmli alim eyni zamanda pedaqoji, elmi və ictimai fəaliyyətlə məşğul olmuşdur. Ali məktəb tələbələri üçün yazılmış "Jurnalistika məsələləri" dərsliyinin müəlliflərindən biridir.

Famil Mehdi 2003-cü il sentyabrın 28-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri.- B.: Azərnəşr, 1989.- 223 s.

50-dən sonra.- B.: Yazıçı, 1993.-132 s.

Qarabağ faciəsi (publisistika).-B.: Gənclik, 1995 . -320 s.

Hacıyev, T. Famil yadıma düşüb...//Ədəbiyyat qəzeti.-2007.-16 fevral.-S.3.

Hicran Bəşirova

Dekabr

26

90 illiyi

Əminə Dilbazi
1919

Rəqqasə

Azərbaycanın Əməkdar incəsənət xadimi, Xalq artisti, rəqqasə Əminə Paşa qızı Dilbazi 1919-cu il dekabrın 26-da Qazax rayonunun Musagöy kəndində anadan olmuşdur. Əminə Dilbazi milli rəqslərimizin kamil bilicisi və gözəl ifaçısı kimi incəsənət tariximizdə özünəməxsus yer tutur. Onun rəqs dünyası çoxəsrlik mədəniyyətimizdə yeni bir mərhələ, yeni bir məktəbdir. Əminə Dilbazi 1935-ci ildən rəqqasəlik fəaliyyətinə başlamışdır. 1936-1969-cu illərdə M. Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası Mahnı və Rəqs Ansamblının solisti, 1939-cu ildən rəqs qrupunun rəhbəri olmuşdur. Dilbazinin oynadığı "İnnabı", "Tərəkəmə", "Vagzalı-Mirzəyi", "Turacı", "Naz eləmə" rəqsləri xüsusilə məşhurdur. Gözəllik və incəlik mücəssəməsi olan hər rəqsi ona şöhrət qazandırmışdır.

Rəqqasənin repertuarında rus, ukrayna, özbək, ərəb və digər ölkələrin rəqsləri geniş yer tutmuşdur.

Müasir rəqqasə eyni zamanda bir çox rəqslərin, Ü.Hacıbəyovun "Leyli və Məcnun" operası, "Arşın mal alan" və "O olmasın, bu olsun" musiqili komediyalarında və s. əsərlərdə rəqslərin quruluşunu vermişdir.

O, 1949-cu ildən Bakı Xoreoqrafiya Məktəbində pedaqoji fəaliyyət göstərir.

Ə.Dilbazi 1959-cu ildən Azərbaycan Tibb İnstitutunun "Çinar" rəqs ansamblının rəhbəri olmuşdur. Ansamblın ilk çıxışı 1959-cu ildə Moskvada keçirilmiş Azərbaycan İncəsənəti Ongünlüyündə olmuşdur və ona böyük şöhrət gətirmişdir. 1967-1968-ci illərdə isə Azərbaycan Dövlət Filarmoniyasında "Sevinc" qızlar ansamblını yaratmışdır.

Ömrünü Azərbaycan incəsənətinin təbliğinə həsr edən rəqqasə bir sıra xarici ölkələrdə çıxış etmişdir. 1957-ci ildə Moskvada keçirilən tələbə və gənclərin VI Ümum-

dünya Festivalında "Qızıl medala" layiq görülmüşdür. Əminə Dilbazi qonşu Şimali Qafqazın incəsənət ustalarının da diqqətini cəlb etmişdir. O, Şimali Osetiyanın məşhur "Alan" rəqs ansamblında bir çox rəqslərin quruluşunu vermişdir.

Tükənməz enerji, həvəs, sənətinə vurğunluq onu gümrah saxlamışdır. Daim axtarışdadır.

Əminə Dilbazi ömrünün yarım əsrdən çoxunu Azərbaycan xalq rəqslərinin toplanması, öyrənilməsi və təbliği işinə həsr edərək zəngin nəzəri irs qoymuşdur. Onun hər bir rəqs üzərindəki işi bir elmdir, estetik və fəlsəfi fikirlər toplusudur. Ə.Dilbazi "Şərəf nişanı" və "İstiqlal" ordeni və medallarla təltif edilmişdir.

Ədəbiyyat

Rəqs şahzadəsi /tərt. ed. Fəridə Ləman.- B.: "Ozan", 1999.-227 s.

Gəncəli, S. Əminə Dilbazi //Qadın, gözəllik və ülviyyət.- B.: Azərbaycan, 2001. - S. 255-256.

Umudlu, İ. Dilbazilər: tarixi-biblioqrafik araşdırma.-B.: Əbilov-Zeynalov və oğulları, 2007.-391 s.

"Hər kəsin haqqı düzgün verilməlidir": Sənətkar həmişə istəyir ki, onu unutmasınlar": [Xalq artisti Ə.Dilbazi ilə müsahibə] //Kaspi.-2005.-8-10 oktyabr.-S.22.

Qocayeva, A. Oxuyan əllər /Əminə Dilbazi-85/ //Respublika-2004.-29 dekabr.-S. 4.

Səttərova, M. Yeraltı turacın rəqsi: [Rəqqasə Ə. Dilbazi haqqında] //Xəzər.-2007.-17 mart.-S. 14.

Rus dilində

Амина, Д. Заслуженная артистка Азербайдж. ССР.- Баку, 1959.

İnternet

www.express.com.az
www.xazar.az
www.ikisahil.com
www.wikipedia.org
www.az-custom.net
www.el.ans.az

Saqibə Mehrəliyeva

Dekabr
31

Dünya Azərbaycanlılarının Həmrəyliyi günü
1991

XX əsrin 80-cı ıllərinin axırlarında dünyada baş verən qlobal dəyişikliklərlə əlaqədar bir çox xalqların, o cümlədən Azərbaycan xalqının özünüdərki, həmrəylik hissi gücləndi. İctimai həyatın demokratikləşməsi istiqamətində genişlənən xalq hərəkatı zəminində ilk olaraq Naxçıvan Muxtar Respublikasında 1989-cu ilin noyabrında Şimali və Cənubi Azərbaycan arasında çəkilmiş sərhəd çəpərlərinə qarşı xalqın etirazı başlandı. Beləliklə, "Sərhəd hərəkatı" adı ilə başlanan bu siyasi aksiya 1989-cu il dekabrın 31-də azərbaycanlıların həmrəylik hərəkatına çevrildi.

1990-cı il noyabrın 3-5-də Türkiyədə keçirilən Birinci Millətlərarası Azərbaycan Türk Dərnəkləri Qurultayı isə Naxçıvan Muxtar Respublikasında başlamış hərəkatın davamı kimi milli birlik və həmrəylik rolunda atılan mühüm addım oldu. Qurultayın qəbul etdiyi qərarda 31 dekabr gününün hər il Həmrəylik Günü kimi qeyd edilməsi irəli sürüldü. Bütün bunları nəzərə alaraq ümummilli liderimiz Heydər Əliyevin başçılıq etdiyi Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin 1991-ci il 16 dekabr tarixli iclasında 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edilməsi qərara alındı.

Bu qərar dünya azərbaycanlıları arasında həmrəylik hissini daha da gücləndirdi. Hazırda YUNESKO-nun məlumatına görə, dünyada 40 milyondan çox azərbaycanlı yaşayır. Onlardan 29 milyonu Cənubi Azərbaycanın, 3 milyonu Türkiyənin, 2 milyondan çoxu Rusiyanın, 1.5 milyonu ABŞ-ın, 500 mini Ukraynanın, 300 mini Almaniyanın, 180 mini Fransanın, 175 mini Kanadanın, 350 mini Hindistan və Pakistanın, 700 mini İraqın, 430 mini Əfqanıstanın payına düşür.

XX əsrin əvvəllərindən təşəkkül tapan və fəaliyyətini son dövrlərdə xeyli gücləndirən Azərbaycan diasporu yeni bir inkişaf mərhələsindədir.

Azərbaycan diasporunun dünyanın müxtəlif ölkələrində formalaşan özəkləri, birlikləri Azərbaycan dövlətinin, Azərbaycan mədəniyyətinin, Azərbaycan həqiqətlərinin tanınması və təbliği işində radio və televiziyanın, dövri mətbuatın imkanlarından geniş istifadə edir. Hazırda dünyanın bir çox ölkələrində Azərbaycan dilində müxtəlif qəzet və jurnallar nəşr olunur, xüsusi radio və televiziya verilişləri hazırlanır. Dünyanın 30-dan çox ölkəsində azərbaycanlıların 100-dən artıq ictimai, milli və mədəni cəmiyyət və təşkilatları fəaliyyət göstərir.

Müstəqillik qazandıqdan sonra əldə olunan nailiyyətlər sayəsində bütün dünya azərbaycanlılarının milli hüquqlarının, beynəlxalq haqlarının həyata keçirilməsinə geniş imkanlar açılmışdır.

Ümummilli liderimiz Heydər Əliyevin sərəncamına müvafiq olaraq 2001-ci il noyabrın 10-da Bakı şəhərində Dünya Azərbaycanlılarının Birinci Qurultayı keçirildi. Qurultayda 36 ölkədən gəlmiş 1105 nümayəndə, 906 qonaq iştirak edirdi. Qurultayda Azərbaycan Respublikası Prezidentinin söylədiyi proqram səciyyəli nitqinin aparıcı xəttini belə bir tezis təşkil edirdi: "Biz azərbaycançılığın dövlət rəmzlərini yaşadan müstəqil dövlətimiz ətrafında daha sıx birləşməli, onun tərəqqisi üçün əlimizdən gələni əsirgəməməliyik".

Qurultay dünyanın müxtəlif qütblərinə səpələnmiş soydaşlarımızın bir araya gətirilməsi vəzifəsinin həyata keçirilməsi istiqamətində atılmış ilk ciddi addım idi. Qurultay Azərbaycanın Avroatlantika məkanına inteqrasiyasına kömək edəcək diasporumuzun inkişafında həlledici əhəmiyyətə malik qərarlar qəbul etdi.

Türk dünyasının böyük lideri Heydər Əliyev minillik tariximizdə dünya azərbaycanlılarını ilk dəfə bir araya gətirən dövlət xadimi oldu.

Azərbaycan dövləti Dünya Azərbaycanlılarının I Qurultayının tarixi qərarlarının əməli surətdə həyata keçirilməsi üçün bir sıra işlər gördü. O cümlədən, 2002-ci il iyulun 5-də Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla iş üzrə Dövlət Komitəsi yaradıldı.

Ədəbiyyat

Əliyev, Z. Dünya diasporları: Nəzəriyyə və təcrübə. – B.: Qismət, 2005. – 349 s.

Cəfərli, Y. Bir çağırışın tarixi: Ulu öndər Heydər Əliyev dünya azərbaycanlılarının birliyi ideyasının banisidir //Azərbaycan.-2006.–16 dekabr. – S. 3.

Cəfərov, N. Azərbaycan dünyaya bütövləşərək qovuşur: (Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibəti ilə) //Xalq qəzeti.-2006.-31 dekabr. – S. 3.

Həbiboğlu, V. Azərbaycan diasporu yeni mərhələdə //Xalq qəzeti. – 2006. – 31 dekabr. – S.4.

Samirə Eminova

Əlavələr

Göy-gölün yaranmasının (Kiçik Qafqazda dağ gölü) (1139) 870 illiyi

Qori Müəllimlər Seminariyasının nəzdində Azərbaycan bölməsinin yaradılmasının (1879) 130 illiyi

Azərbaycanın ən qədim rəsədxanası - Marağa (1259) rəsədxanasının inşa edilməsinin 750 illiyi

İtalyan şairi Aligyeri Dantenin (1269-1321) anadan olmasının 740 illiyi

Ərəb alimi və biblioqrafı İbn Əl-Fuvati Kəmaləddin Əbu-Fəzl Əbdürrəzzaq ibn Əhməd ibn Məhəmmədin (1244-1326) anadan olmasının 765 illiyi

Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin (Seyid Əli) (1369-1417) anadan olmasının 640 illiyi

Azərbaycan şairi Füzuli Məhəmməd Süleyman oğlunun (1494-1556) anadan olmasının 515 illiyi

Fransız yazıçısı Rable Fransuanın (1494-09.04.1553) anadan olmasının 515 illiyi

İrəvan qalasının (orta əsrlərdə qala şəhər) inşa edilməsinin (1509-1510) 500 illiyi

"Şeyx Səfi" xalçasının (Təbriz xalçaçılıq məktəbinə mənsub Azərbaycan xalısı) (1539) 470 illiyi

Azərbaycan şairi Zakir Qasım bəy (Qasım bəy Əlibəy oğlu Cavanşir) (1784-1857) anadan olmasının 225 illiyi

Azərbaycan şairi Vidadi Molla Vəlinin (1709-1809) anadan olmasının 300 illiyi

Alman şairi Şiller İohann Kristof Fridrixin (1759-1805) anadan olmasının 250 illiyi

Azərbaycan şairi Mirzə Şəfi Vazehin (1794-1852) anadan olmasının 215 illiyi

Şair və nəqqaş Kərbəlayi Zeynalabdinin (1839-1904) anadan olmasının 170 illiyi

Əməkdar incəsənət xadimi, müğənni Qacar Xurşidin (1849-1963) anadan olmasının 160 illiyi

Xalq qəhrəmanı Qaçaq Nəbinin (Nəbi Alı oğlu) (1854-12.03.1896) anadan olmasının 155 illiyi

Görkəmli Molla Nəsrəddinçi şair Abbaszadə Bayraməli Abbas oğlunun (1869-1926) anadan olmasının 140 illiyi

Tənqidçi publisist Ağayev Əhməd bəy Mirzə Həsən oğlunun (Ağaoğlu) (1869-1939) anadan olmasının 140 illiyi

Dövlət xadimi, hərbiçi Cahangirzadə İbrahim bəy Cahangir oğlunun (1874-19.05.1948) anadan olmasının 135 illiyi

Azərbaycan şairi Hadi Məhəmmədin (Ağaməhəmməd Hacı Əbdülsəlim oğlu) (1879-04.1920) anadan olmasının 130 illiyi

Şair, nasir və teatr xadimi Kazımzadə Səməd Hacı Əhməd oğlunun (Səməd Mənsur) (1879) anadan olmasının 130 illiyi

İctimai xadim Şeyx Məhəmməd Hacı Əbdülhəmid oğlunun (Şeyx Məhəmməd Xiyabani) (1879-1920) anadan olmasının 130 illiyi

Publisist, ictimai xadim Şahbazi Tağının (Tağı Şahbazi Simurq) (1889-1937) anadan olmasının 120 illiyi

Maarif xadimi Qiyasbəyli Mədinə Mehdiağa qızı (Mədinə xanım Qiyasbəyli) (1889-1938) anadan olmasının 120 illiyi

Azərbaycan yazıçısı Əfəndiyev Qafur Səbi oğlunun (Qantəmir) (1899-1944) anadan olmasının 120 illiyi

Nasir Ələkbərzadə Əbülhəsən Əlibala oğlunun (1904-1986) anadan olmasının 105 illiyi

Yazıçı Əlizadə Məhərrəm Fərəc oğlunun (1909-17.11.1942) anadan olmasının 100 illiyi

Şair Axundov Məzahir Həmzə oğlunun (Məzahir Daşqın) (1909-31.11.1979) anadan olmasının 100 illiyi

Azərbaycanın Əməkdar incəsənət xadimi, yazıçı Musayev Qılman İsabala oğlunun (Qılman İlkin) (04.1914) anadan olmasının 95 illiyi

Cavadova Nabat Paşa qızının (Aşıq Nabat) anadan olmasının (1914-1973) 95 illiyi

Gəncə Milli Müəllimlər Seminariyasının açılmasının (1919) 90 illiyi

Azərbaycan Milli Məclisinin Sədri Ə.Topçubaşov Eyfel qülləsindən Gəncə radiostansiyasına ilk teleqram (noyabr-1919) göndərmişdir

Ədəbiyyatşünas, tərcüməçi, professor Beqdeli Qulamhüseyn Fətulla xan oğlunun (1919-1998) anadan olmasının 90 illiyi

SSRİ Dövlət mükafatı laureatı, şair, dramaturq Muxtarov Hüseyn Muxtar oğlunun (1919-1980) anadan olmasının 90 illiyi

Azərbaycan Dövlət Nəşriyyatının yaranmasının (1924) 85 illiyi

Şair, ədəbiyyatşünas Əsgərov Şamil Səlim oğlunun (1929) anadan olmasının 80 illiyi

Mingəçevir SES-in işə salınmasının (1954) 55 illiyi

Azərbaycanın Əməkdar mədəniyyət işçisi, şair-aşıq Əfəndiyev Kamandar Həmid oğlunun (1929-28.10.2000) anadan olmasının 80 illiyi

Qızılağac Dövlət Təbiət qoruğunun yaradılmasının (1929) 80 illiyi

Azərbaycan Bəstəkarlar İttifaqının yaradılmasının (1934) 75 illiyi

Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin yaradılmasının (1939) 70 ili

Neft Daşlarının salınmasının (1949) 60 illiyi

Radioda maqnit lent yazısı tətbiq (oktyabr 1949) olunmuşdur

Beynəlxalq Sülh mükafatlarının təsis edilməsinin (1949) 60 illiyi

“Azərbaycanfilm”də yaradılmış multiplikasiya sexində birhissəli rəngli “Cırtdan” cizgi filmi çəkilməsinin (1969) 40 illiyi

Muğam Teatrının yaradılmasının (1989) 20 illiyi

Qurban bayramı

Ramazan bayramı

2009

Qurban Bayramı

İslam dininin ən vacib ayinləri sırasında Qurban bayramı adlanan dini mərasim müsəlmanlar arasında geniş yayılan ayinlərdəndir. O, Quranın müəyyən etdiyi dini tələbdir, müsəlmanların riayət etdiyi ümumi mərasimdir.

Üç səmavi dinin - yəhudilik, xristianlıq və İslamın hər üçündə müxtəlif formada qurbanlıq mövcuddur. Lakin İslamda bu ayin xüsusi mahiyyət və əhəmiyyət kəsb edir. Onun əsasında Allaha sonsuz sevgi, Onun qüdrətinə dərin inam və iman işığı durur.

İnsanları halallığa, paklığa səsləyən Qurban bayramının çox maraqlı tarixi və şərtləri var. Əslində qurban ayini İslamdan çox-çox əvvəllər, müxtəlif ölkələrdə müxtəlif cür icra olunurdu. Məsələn, qədim dövrlərdə qurban verilənlərin əksəriyyəti hərbi əsirlər olmuşdur. Çünki müharibədə ələ keçirilən əsirləri saxlamaq əlverişli deyildi, onlar izafi məhsul yaratmır, xüsusi gözətçi tələb edir və başqa əlavə qayğılar doğururdular. Buna görə də onların qurban verilməsi ən əlverişli və müqəddəs əməliyyat sayılırdı.

Cəmiyyətin ictimai-iqtisadi inkişafının müəyyən pilləsində, insan əməyinin məhsuldarlığı artıb izafi məhsul yaratmağa başladıqda, yəni cəmiyyət siniflərə bölündüyü zaman hərbi əsirləri qurban verib öldürmək əvəzinə, onları qula çevirib işlətməyə başladılar. Bu dövrdən etibarən allahlara verilən qurbanlar əsasən heyvanlardan ibarət oldu. Ev heyvanları və quşları qurban vermək adət halını aldı.

Atəşpərəstlər isə insanı odda yandırırdılar. Onlar bu yolla guya Allaha yaxın olduqlarını göstərirdilər. Qədim Çində də insanları tanrılara qurban vermək adəti var idi. Bu ölkələrdə təbii fəlakətlərdən, daşqınlardan hifz olunmaq üçün uşaqları çaya atırdılar.

İslam dini ərəb tayfalarının həmişə icra etdikləri qurban vermək adətinə müqəddəslik mahiyyəti verərək, onu Qurban bayramı adlandırıb müsəlmanlığın əsas tələblərindən birinə çevirdi.

Onun bu adətə etdiyi yeganə əlavə ondan ibarət olmuşdur ki, bu mərasimi istənilən vaxt keçirməyin əvəzinə hər il hicri tarixi üzrə Zilhiccə ayının 10-da keçirməyi qanuniləşdirmişdir.

İslam dinində Qurban bayramı böyük bayram (eyd əl-kəbir) adlanır. Bayram günü məscidlərdə xüsusi bayram namazı qılınır, dəvə, mal-qara, davar qurban kəsilir, vəfat etmiş əziz adamların xatirəsini yad etmək əlaməti olaraq evlərdə və qəbiristanlıqlarda dua oxunur, ehsan verilir.

Qurban bayramı haqqında Qurani-Kərimdə deyilir ki, "Allah Beytülhəram olan Kəbəni haram ayı (zilhiccəni), Kəbəyə gətirilən boyunları bağsız və bağlı (boyunlarına nişan taxılmış və taxılmamış) qurbanları insanların (dini və dünyəvi işlərinin) düzəlib sahmana düşməsi üçün bir yol müəyyən etdi". Şəriətə görə, qurbanlıq heyvanın qüsuru olmamalı və onu kəsən bıçağa xüsusi qurban duası oxunmalıdır. Nəsil artımında dişi heyvanların müstəsna rolu olduğuna görə qurbanlıq heyvanın erkək olması daha üstün tutulur. Qurbanlıq qoçun yaşına gəlincə, bu, ən azı altı aylıq heyvan olmalıdır. Lakin dana, yaxud dəvənin bir yaşı tamam olsa, daha yaxşıdır. Bir qurbanlıq heyvan yeddi dindarın adından kəsilə bilər, lakin fərdi qurban daha savablı sayılır.

Qurban bayramı müsəlman ruhaniləri tərəfindən İbrahim peyğəmbərin (Ə) öz oğlu İsmayılı Allahın şərəfinə qurban kəsmək niyyətini bildirən hadisə ilə əlaqələndirilir. Allah öz sevimlisi İbrahim peyğəmbərin (Ə) sadiqliyini sınamaq üçün ondan yeganə oğlu İsmayılı qurban kəsməyi tələb edir və İbrahim peyğəmbər (Ə) gözünü qırpmadan oğlunu yerə yıxıb başını kəsərkən, Allahın göndərdiyi mələk Cəbrayıl (Ə) göydən enib onun əlini saxlayıb, Allahın İbrahimdən (Ə) razı qaldığını bildirib və oğlu İsmayılın əvəzinə Tanrının göndərdiyi qoyunu kəsməyi təklif edir. Buna görə də Qurbanlıq bayramında kəsilən qurbana "İsmayıl qurbanı" da deyirlər. Çox sevdiyi balasını Allah yolunda qurban verməyə hazır olması Peyğəmbərin (Ə) Allah qarşısında imanının, səmimiliyinin və mütiliyinin bariz sübutudur. Odur ki, din tarixində dərin iz salmış bu hadisə Allaha inamın, dərin etiqadın nümunəsidir. Bu onu göstərir ki, insanlar Allahı sonsuz imanla sevməli və öz sevgilərində bu cür səmimi olmalıdırlar. Çətin anlarda Allahı yada salıb, yaxşı zamanlarda Onu unutmaq möminə yaraşan hərəkət deyil!

Bu andan etibarən dindarlar hər il ev heyvanlarından birini Allahın şərəfinə kəsib, Ona öz itaətkarlıqlarını bildirirlər. Ömründə bir dəfə vacib Məkkə və ya Həcc ziyarətinə getməsi və orada qurban kəsməsi də dindarın mühüm borcu hesab olunur.

Bu hadisənin başqa bir fəlsəfi-əxlaqi mənası ondan ibarətdir ki, İslam dinində insanın Allah yolunda qurban kəsilməsi qəbul olunmur. Çünki insan Allahın yaratdığı ən şərəfli və ən üstün məxluqdur. Allah özünün yaratdığını öz yolunda qurban kəsilməsini qəbul etmir.

Bu bayramın əsas mahiyyəti Allah yolunda

kəsilmiş heyvanın ətini Allahın imkansız bəndələri ilə bölüşmək, onları sevindirmək və sevincinə şərik olmaqdır. Beləliklə, bu bayramın və ayinin də əsasında, orucluqda olduğu kimi, xeyirxahlıq, paklıq, Allaha inam və sevgi durur.

Bəzən bir neçə adam bir heyvan alıb onu öz aralarında bölüşməklə, yaxud gedib bazardan ət alıb gətirməklə öz qurbanını kəsmiş hesab edirlər. Lakin İslam dininə görə bunlar qurbanlıq hesab olunmur. Əlbəttə, bir neçə nəfər yığışıb bir dananı qurban kəsə bilərlər, bu şərtlə ki, hər bir şəxsə düşmüş ət payını ən azı üç hissəyə bölmək mümkün olsun. Bu hissələrdən biri onların öz ailəsinə sərf olunmalı, qalan hissələr isə fəqir-füqəraya paylanmalıdır.

Qurbanlığın ən gözəl xüsusiyyətlərindən biri odur ki, burada din, məzhəb ayrı-seçkiliyinə yol verilmir. Bu bayramda istənilən dindən olan yetimin, kimsəsizin və yoxsulun haqqı var ki, varlının imkanlarından bəhrələnsin, adi günlərdə yeyə bilmədiyi qurbanlıq ətindən dadsın. Qurbanlıq o deməkdir ki, insanlar Allahın xoşuna gələcək bir əməli icra edirlər.

Qurbanlığın şərtlərindən biri də odur ki, qurban kəsmək yalnız buna imkanı olan varlı adamların boynunda haqdır. İmkanı olmayan adama isə qurban kəsmək vacib deyil. Qurban kəsmək üçün borc pula heyvan almaq İslamda təqdir olunmur, çünki bu bayramın əsas mahiyyəti zənginlərlə imkansızların birliyi, qardaşlığıdır. Bu bayramda hamı sevinməlidir: varlılar - Allaha xoş gedən əməli icra etdikləri və kasıbları sevindirdiklərinə görə, kasıblar isə-dünya nemətindən əldə etdiklərinə və başqalarından gördükləri mərhəmətə və qayğıya görə.

İslam dünyasının ən müqəddəs bayramlarından sayılan Qurban bayramı bütün müsəlman ölkələrində təmtəraqla qeyd olunur. Azərbaycan müstəqillik əldə etdikdən sonra Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanununa əsasən Qurban bayramı ölkəmizdə də dövlət səviyyəsində bayram edilir.

Ədəbiyyat

Əliyev, İ. Qurban bayramı münasibətilə Azərbaycan Pespublikasının Prezidenti İlham Əliyevin Azərbaycan xalqına təbriki //Xalq qəzəti.- 2006.- 28 dekabr.- S. 1.

Həcc ziyarəti və Qurban bayramı /Dünya dinləri: Ensiklopedik məlumat kitabı.-B.: Azərbaycan Milli Ensiklopediyası, 2003.- S.441-443.

Kərimov, Q. Şəriət və onun sosial mahiyyəti.- B.: Azərnəşr, 1987.- S.73.

Qocayev, Ə. Bayramlar və tarixi günlər.-B.:Altun, 2006.-152 s.

Seyidzadə, Q.M. Qurban kəsilməsi /Q.M. Seyidzadə. İslami söhbətlər: II hissə.- B.: Gənclik, 2002.- S.157.

Səadət Mütəllimova

2009

Ramazan Bayramı

İslam dininin müqəddəs bayramları arasında Ramazan bayramı və ya orucluq mühüm yer tutur. Bu bayramın tarixi müsəlman təqvimi ilə hicrinin 2-ci ilindən (miladi 623-cü il) başlanır. Oruc əsasən Ramazan ayında tutulduğu üçün ona "Ramazan orucu" da deyirlər.

Bildiyimiz kimi, qəməri aylar günəş təqvimindəki aylara nəzərən on gün əvvəl gəlir. Ramazan orucuna hər il on gün tez başlandığına görə Ramazan ayı təxminən 33 il ərzində sırayla ilin bütün fəsillərini dolaşır, beləliklə oruc tutacağımız vaxtlar da dəyişir. Dünyanın hər yerində müsəlmanların olduğunu nəzərə alsaq, müsəlmanların fərqli mövsümlərdə oruc tutması, hər mövsümün çətinliklərinə alışması və yoxsulların müxtəlif fəsillərdə çəkdikləri sıxıntıları dərk etməsi ilə əlaqələndirilir.

Hicri təqvimi ilə ilin ayları arasında Ramazan ayı ən şəfqətli və müqəddəs bir ay, səbr, mərhəmət və bağışlanma ayıdır. On bir ayın sultanı olan Ramazanda müqəddəs kitabımız "Qurani-Kərim" nazil olmuşdur. Quranın nazil olduğu gecə "qədir" və ya "əhya" gecəsi adlanır. İslamşünasların fikrincə, bu gecə Ramazan ayının son 10 gecəsindən biridir. Allah-Təala müqəddəs Quranda Bəqərə surəsinin 183-cü ayəsində belə buyurur: "Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib buyurulduğu kimi, sizə də vacib buyuruldu ki, bəlkə bunun vasitəsilə pis əməllərdən çəkinəsiniz!"

Oruc tutmaq Adəm peyğəmbərin zamanından bəri bəşəriyyət üçün vacib sayılmışdır. Mühüm olan ibadətlərin içərisində birinci namaz, ikinci isə oruc tutmaq əmr olunmuşdur. Orucun insan orqanizmi üçün faydalarından peyğəmbərlərimiz, imamlarımız, alimlərimiz, həkim və təbiblərimiz zaman-zaman geniş şəkildə açıqlamalar vermişlər. Bu barədə yalnız islam alimləri deyil, Qərbin və Avropanın bir çox elm sahibləri maraqlı araşdırmalar ortaya çıxarmışlar. Tibb alimlərinin nöq-

teyi-nəzərincə hər bir insan həddi-büluğ vaxtından əgər oruc tutmuş olarsa, o şəxs gələcəkdə fiziki xəstəliklərdən, məsələn, mədə-bağırsaq, qan təzyiqi, şəkər, artıq piylərin və duzun bədəndə yığılmasından xilas olmuş olar.

Ümumiyyətlə, orucluğun orqanizmə verdiyi faydalardan çox danışmaq olar, amma bu ayın əsas əhəmiyyəti mənəviyyata bəxş olunan dəyərlərdir. Hər bir şəxs mədəsini ziyanlı qidalardan qoruya bilər, lakin mənəviyyatı qorumaq çox çətin bir işdir. Oruc tutan hər bir sağlam insan sübh açılandan axşam olana qədər mədəsini yemək və içməkdən, bədəninin digər üzvlərini: gözünü, qulağını, əlini, ayağını, xüsusilə dilini günah və haramdan qorumalıdır. Ramazan insanda dözüm, iradə və təmkin tərbiyə edir. Müqəddəs ramazan ayında hər bir oruc tutan mömin əxlaq və mənəviyyatını çətinlik və günah mikrobundan təmizləmiş olur. Maddi imkanı yaxşı olan və daim istədiyi qidanı yeməyə qüdrəti olan şəxs yoxsulun və acın nə çəkdiyini yalnız bu ayda dəyərincə dərk etməyə qadirdir. Uşaqlar, xəstələr, hamilə qadınlar, döyüşçülər, əsirlikdə olanlar və səfərə çıxanlar orucluqdan azad olunurlar.

Belə rəvayət olunur ki, Ramazan ayının ilk günlərinin birində Rəsulullah (s.ə.s.) belə buyurmuşdur: "Budur, bərəkət ayı Ramazan gəldi. Artıq siz Allahın rəhməti ilə əhatə olunmuşsunuz. O ay yer üzünə bol-bol rəhmət enər. Günahlar bağışlanar. Dualar qəbul olunar. Allah sizin yaxşılıq və ibadətlərdə yarışmağınıza baxaraq mələklərinə qarşı sizinlə fəxr edər. Elə isə qulluğunuzla özünüzü Allaha sevdirin." Ramazanda hamı eyni vaxtda oruc tutur, birlikdə namaz qılır və bununla insanların Xaliq qarşısında bərabərliyi bir daha təsdiqlənir.

Orucluğun başa çatdığı gün bayram edilir. Həmin gün bütün müsəlmanlar bir-birlərini təbrik edir, vəfat edənlərin qəbirlərini ziyarət edir, ruhlarına dualar oxuyurlar. Bayram günü hər kəs öz himayəsində olanlar üçün təqribən 3 kiloqram buğda, un, yaxud xurma miqdarında kasıblar üçün fitrə zəkatı verməlidirlər.

Orucluq bayramı ölkəmizdə Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanuna əsasən dövlət səviyyəsində qeyd olunur.

Ədəbiyyat

Məhəmməd, C. Ramazan orucu: Fəzilətləri, qaydaları, hökmləri /tərc. Rasim Abdullayev.- B.: "Əbilov, Zeynalov və oğulları", 2003.- 24 s.

Səbr və təvəkkül ayı Ramazan /elmi red. Mübariz Camalov; tərc. İlkin Abdulla.- B.: "Xəzər nəşriyyatı" MMC, 2007.- 65 s.

Əliyev, İ. Ramazan bayramı münasibəti ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan xalqına təbriki //Azərbaycan.- 2006.- 22 oktyabr.- S.1.

ABŞ Prezidenti Corc Buş dünya müsəlmanlarını Ramazan ayının başlanması münasibəti ilə təbrik etmişdir //Azərbaycan.- 2005.- 6 oktyabr.- S. 3.
Azərbaycan Prezidenti adından qaçqın və məcburi köçkün uşaqlar üçün iftar süfrəsi açılmışdır //Azərbaycan.- 2003.- 23 noyabr.- S.3.
Dinindən, dilindən və milliyyətindən asılı olmayaraq, Azərbaycanda bütün millətlər, xalqlar demokratiya və dözümlülük şəraitində rahat, sərbəst yaşayır və yaşayacaqlar: Müqəddəs Ramazan bayramı münasibətilə Şeyxülislamın təbriki //Azərbaycan.-2004.-14 noyabr.- S. 3.
Mehdiyev, A. Ramazan-on bir ayın sultanı /A.Mehdiyev //Azərbaycan.- 2004.- 15 oktyabr.- S. 7.
Məmmədəliyev, V. Allah orucunuzu qəbul etsin, sağlam olasınız, niyyətinizə çatasınız //Azərbaycan.- 2005.- 11 oktyabr.- S. 8.
Mustafaoğlu, M. Orucun bəxş etdiyi şərəfə nail olmağa çalışaq /Məhəmməd Mustafaoğlu //Azərbaycan.- 2006.- 28 sentyabr.- S. 5.
Şeyxülislam Müqəddəs Ramazan ayı münasibəti ilə iftar süfrəsi açmışdır //Azərbaycan.- 2005.- 27 oktyabr.- S. 1.

Rus dilində

Валентинович, Д. Религии мира. Ислам /Денис Брилев.- М.: ООО «Мир книги», 2006.- 191 с.
Ионова, А. и др. Современный ислам, человек и общество /А.И. Ионова, А.К. Султан-алиева, П.С. Наумов.- М.: Знание, 1991.- 63 с.
Ислам: Поиски в истории исламской культуры и мысли.- Тегеран, 2002.- 175 с.
Юнусов, А. Ислам в Азербайджане /Ариф Юнусов.-Баку: «Заман», 2004.- 388 с.
Мусульманские праздники.- М.: СП. «Корона»: РИФ «Корона-принт», 1990.- 63 с.

İnternetdə

www.capital.trend.az
www.delta-telecom.net
www.islamiyet.gen.tr
www.yeniazerbaijan.com

Adilə Abdullayeva

2009

870 illiyi

Göy-Göl 1139

Göy-göl Azərbaycanın ən gözəl göllərindən biridir. 1139-cu ildə Gəncədə baş vermiş zəlzələ nəticəsində Kəpəz dağı uçaraq Ağsu çayının qarşısını kəsib. Nəticədə füsunkar gözəlliyi, xüsusilə də suyunun şəffaflığı ilə seçilən məşhur Göygöl yaranmışdır. Göy-göl ərazisində ümumilikdə 19 göl var. Bunlardan 7-si böyük göllər sırasına daxildir. Dəniz səviyyəsindən 1556 metr yüksəkliyində yerləşir. Uzunluğu 2800 metrdir. Eni 800 metrdən 1000 metrə qədərdir. Dərinliyi 96 metrdir.

Ona, "Göy-göl" deyirlər. Çünki ağacların kölgəsi ayna üzünə düşüb rəngini göyərtmişdir. Əslində göy rəng xoşa gələn yaşıllıqdır, yaşıllıqsa cavanlıq əlamətidir.

Gölün dünyaya nə vaxt gəldiyini tarixçilər bilər. Onlar yazırlar ki, 1139 – cu ilin sentyabr ayının 30-da birdən dağların başını duman bürümüş, düzlərin üstünü qara buludlar almış, dəhşətli zəlzələ olmuş, paytaxt Gəncə xarabalığa dönmüş, Kəpəz uçmuş, aşağısındakı dərənin içindən uzanıb gedən dağ çayının (Ağsunun) yolunu kəsmişdir. Səkkiz ildən sonra (1147) orada quyruqlu ulduza bənzəyən parlaq bir göl yaranmış və ilk dəfə onu quzu otaran bir oğlan görüb gəncəlilərə xəbər vermişdir. Başı buludlara dəyən o əzəmətli dağ uçub onun üstünə töküldüsə, də o "ölmədi", baş-gözü dağıdılmış Kəpəzin sınmış belini nəhəng bir əl kimi qucaqladı. İndi düz 870 ilə yaxındır üzünü onun ətəyinə sürtüb xumarlanır. Dəniz səviyyəsindən 1600 metr yüksəklikdə olsa da, dibi 94 metrdir, suyu şirindir, balıqlar xallıdır, dadlıdır. Hüsnü o qədər gözəldir ki, görənlər heyran qalır. Moskvalı alım, tibb elmləri doktoru R. Qlizerin onun "qonağı olduqdan" sonra yazıb ki, "Göy-gölü seyr etmək, onun havası ilə nəfəs almaq, müalicə ücün bir "vaqon" dərman qəbul etməkdən yaxşıdır".

Beləcə, sevilə-sevilə sığallandı ömür boyu, beləcə nazlana-nazlana uyudu göllər gözəli. Dağların daşında, meşələrin qoynunda göylərə güzgü tuta-tuta yaşadı Göy-göl, yan-yörəsində də yeddi gözəl: Maral göl, Qara göl, Ördək göl, Zəli göl,

Ağ göl, Ayna göl, Şamlıq göl...

Gölün görünmə qabiliyyəti 8-10 metrdir. Göy-gölün faunası olduqca zəngindir. Göldə qorunmaqda olan forel balıqları yaşayır. O Respublikanın digər çay forellərindən xeyli fərqlənir. Öz mənşəyi etibarilə Göy-göl foreli çay forelindən əmələ gəlmişdir. Onların əmələgəlmə tarixi Göy-gölün yaranma tarixi ilə bağlıdır. Zəlzələ zamanı gölün ərazisində qalan çay forelləri uzun illər ərzində tədricən göl forelinə çevrilmiş, artıb çoxalmış və zəmanəmizə qədər gəlib çatmışdır.

Göy-göl və onun ətrafının meşə landşaftı öz təbiət zənginliyi və füsunkarlığı ilə dünyada məşhurdur.

Ədəbiyyat

Əhmədov, F. Gəncənin tarix yaddaşı.- Bakı, 1998.-237 s.

İsayev, Ə. Gəncə və gəncəlilər.- B.: Azərnəşr, 1992.- 352 s.

İnternetdə

http://az.wikipedia.org/
Qedim Gəncə
Gence.Az
Ganca.Net

Nailə Alışova

2009

470 illiyi

"Şeyx Səfi" xalçası 1539

"Şeyx Səfi" xalısı dünyanın səkkizinci möcüzəsi sayılır. Xalı Azərbaycan tarixində Səfəvilər hakimiyyəti dövrünün qoyduğu parlaq iz, günümüzədək gəlib çatmış nadir inci, bütün dövrlərin kamil sənət nümunəsidir. 1843-cü ildə Ərdəbildə olmuş səyyah V.R. Holms vətəninə döndükdən sonra yazdığı "Xəzər sahilləri haqqında hekayətlər" kitabında qeyri-adi dəyərə malik bu xalı haqqında heyrətini belə bildirmişdir: "Səfəvilərin məscid-türbəsinin yerinə döşənmiş bu xalının oxşarı yer üzündə hələ görünməmişdir".

Xalının "Şeyx Səfi" türbəsinin tavanının bədii tərtibatına uyğun eyni kompozisiya quruluşunda və eyni naxışlarda olması sübut edir ki, məscid-türbənin tikilməsi ilə xalının toxunması eyni vaxta təsadüf etmiş və bir nəfər tərəfindən idarə olunmuşdur.

Məlumatlardan bəlli olduğu kimi, xalının toxunmasına bu ideyanın müəllifi Şah İsmayıl Xətainin oğlu I Şah Təhmasib şəxsən rəhbərlik etmişdir. Onun bu xalının yaradılmasında məqsədi ulu babası Şeyx Əbu İshaq Ərdəbilinin adını tarixin yaddaşına əbədi həkk etdirmək olmuşdur. Şeyx Səfi məqbərəsi özü sufi məsləkli şiələrin toplandığı ən nüfuzlu dini mərkəz, ibadətxana, məscid, böyük binalar, hamam, bağ, qəbiristanlıq və çoxlu məqbərələr olan kiçik şəhərcik idi. "Şeyx Səfi" məqbərəsinin genişlənməsi ilə Şah İsmayılın vaxtsız ölümündən sonra onun oğlu Şah Təhmasib özü ciddi məşğul olmuşdur. Məşhur "Şeyx Səfi" xalısını peşəkar təbrizli ustalar toxusalar da, Şah Təhmasibin əmri ilə karxana sahibi Maqsud Kaşaninin bu işlərə rəhbərlik etdiyi ehtimal olunur. Xalının toxunmasına 3 il yarım vaxt sərf edilmiş, xalı 946-hicri, 1539-cu il miladi təqvimində başa çatmışdır. Xalının yuxarı hissəsində ustad Hafiz Şirazinin "Sənin astanandan başqa sığınacaq yerim yoxdur. Mənim başımı bu qapıdan başqa tapşıracaq məkanım yoxdur" misraları yerləşdirilmiş, sətirlərin altında isə ustanın öz adı toxunmuşdur: "müqəddəs

yerin qulu Maqsud Kaşaninin işi, 946".

Məşhur "Şeyx Səfi" xalısı 1888-ci ildə bir il davam edən qiymət danışıqlarından sonra Ərdəbil türbəsindən satın alınıb İngiltərəyə aparılmış, Londonda "İran xalıları" sərgisində nümayiş olunmuşdur. "Tayms" qəzetində "Fövqəladə xalı", Mançestrdəki "Quardyan" qəzetində isə "Dərvişlərin şərhi olan ən incə xalı" adlı geniş məqalələr nəşr edilmişdir.

1892-ci ildə isə Londonda keçirilən hərracda "Şeyx Şəfi" xalısına o dövrə qədər heç bir xalıya təyin edilməyən ən yüksək dəyər 2500 funt sterlinq qiymət qoyulmuşdur.

"Viktoriya və Albert" Muzeyi ingilis ictimaiyyətinə xalının alınıb xaricə aparılmaması üçün yardım göstərmələri məqsədilə müraciət etmişdir. İngilislər bu məsələdə muzeylə həmrəy olduqlarını nümayiş etdirərək tələb olunan vəsaitin yığılmasında fəal iştirak etmiş, xalının Almaniyaya aparılmasına imkan verməmişlər.

Beləliklə, bütün ingilis xalqının yardımı ilə "Şeyx Səfi" xalısı "Viktoriya və Albert" Muzeyinin əmlakına çevrilmişdir.

"Şeyx Səfi" xalısının mürəkkəb çeşnisi orta əsrlər ornament sənətinin qanunauyğunluqlarına dərindən bələd olan, peşəkar rəssam tərəfindən çəkilmişdir. K.Erdman bu rəssamın Sultan Məhəmməd, A.Poup isə Behzad olduğunu ehtimal edirlər. "Şeyx Səfi" xalçasının bədii quruluşu Təbriz xalça məktəbinə məxsus "Ləçək turunc" kompozisiyasındadır.

İlk baxımdan xalının sürməyi rəngli yerliyini pərakəndə şəkildə bəzəyən nəbati elementlər əslində XII əsrdən başlayaraq ornament sənətimizdə geniş yayılmış dürüst ölçülərə əsaslanan spiral sistemlər üzərində yerləşdirilmişdir. Səfəvi dövrünün xalılarında bu mürəkkəb spiral sistemli xalıların toxunması ənənə halını almışdır. Bu spiral formalı quruluş sistemini təkcə ideal gözəllik deyil, həmçinin də orta əsrlərin mistik-fəlsəfi baxışlarının təcəssümü adlandırmaq olar. "Şeyx Səfi" xalısı eyni zamanda astronomik mahiyyətli sirli informasiyanın daşıyıcısıdır. Əgər xalının dörd hissəsində yerləşdirilmiş ləçəklərdən çıxan üç tam qubpaları planetlərə, yarımçıq qubpaları isə hərəkətə, dinamikliyə işarə kimi qəbul etsək, xalının mərkəzində olan turuncu işıq saçan günəşin simvolu adlandırmaq olar. Xalı üzərində səpələnmiş qırmızı və şəkəri çiçəklər isə ulduzlara işarədir.

İnternet

www.xalqqazeti.com
www.azerbaijan-irs.com
www.bizimasr.media-az.com

Nailə Alışova

2009

750 illiyi

Marağa Rəsədxanası 1259



XIII əsrə məxsus olan Marağa rəsədxanasının çox qədim bir tarixi vardır. 1253-cü ildə Çingiz Xanın nəvəsi Hülaku xan böyük bir qoşunla Səmərqənddən keçməklə Xəzər dənizinə doğru hərbi yürüşə başlayır və bu əraziləri işğal edir. O, digər alimlərlə yanaşı Nəsirəddin Tusini də həbsdən azad edir. Hülaku xan Tusinin qabiliyyətini, ağıllı fikir və mühakimələrini və Şərq xalqları arasında böyük hörməti olduğunu nəzərə alaraq onu özünün şəxsi müşaviri təyin edir.

Görkəmli alim qazandığı nüfuzdan istifadə edərək çoxdan arzuladığı rəsədxananı yaratmaqla daha ciddi məşğul olmağa başlayır. Tusi yarım ildən az bir müddətə gələcək rəsədxana üçün çox əlverişli bir yer seçir. Bu yer, Urmiya gölünün şərq sahilindən 35 km aralıda, dəniz səviyyəsindən 1613 metr yüksəklikdə yerləşən bağlar və geniş çöllərlə əhatələnmiş qədim mədəniyyətə malik Marağa şəhərinin qərb tərəfində, təpəliyin zirvəsində idi. Burada astroiqlim çox əlverişli idi. Rəsədxananın ərazi ölçüləri 150m × 35m idi. Hülaku xan rəsədxana yaratmaq üçün 20000 dinar pul buraxılmasına razılıq verir və nəhayət, 1259-cu ildə (Şamaxı Astrofizika rəsədxanasının təməlindən düz 700 il əvvəl) Marağa astronomiya rəsədxanasının (təqribən 50 il fəaliyyət göstərmişdir) əsasının qoyulmasına nail olur. Nəsirəddin Tusi rəsədxananın həm layihəsinin müəllifi idi, həm də astronomiya cihazlarının çertyojlarının hazırlanmasında yaxından iştirak edirdi.

Tusi həmçinin rəsədxananın nəzdində təşkil etdiyi xüsusi məktəbdə elmi kadrların hazırlanması ilə də ciddi məşğul olurdu. Çox keçmədən N.Tusi Qafqaz, Orta Asiya, İran, Ərəbistan, Çin və s. ölkələrin görkəmli alimlərini Marağaya dəvət edir. Məşhur alimlərdən ibarət böyük

kollektiv 12 illik gərgin zəhmətdən sonra "Zic Elxani" (Elxan cədvəlləri) adlı məşhur kataloq yaradırlar. Elxanilər sülaləsinin şərəfinə adlandırılmış bu kataloq bütün Avropa ölkələrində əsrlərlə geniş istifadə edilmişdir.

Marağa rəsədxanası dünya elm tarixində möhtəşəm bir abidədir. Burada aparılan elmi işlərin diapazonu, səviyyəsi onun irsinin sonrakı əsrlərdə inkişafına təsir göstərmişdi ki, rəsədxana öz çərçivəsindən çıxaraq Elmlər Akademiyası zirvəsinə yüksəlmişdi. Yüksək səviyyəli böyük elmi kollektivə, mükəmməl astronomik alətlərə və zəngin kitabxanaya malik olmuş Marağa rəsədxanası XIII əsrdə dünyanın ən görkəmli elm və mədəniyyət mərkəzi kimi şöhrət qazanmışdı. Təsadüfi deyil ki, YUNESKO 2008-ci ili Marağa rəsədxanası ili kimi elan etmişdir.

Ədəbiyyat

Qasımov, R. Əsrləri qabaqlamış alim Nəsirəddin Tusi /elmi red. prof. E. Mehrəliyev.- B.: Yurd NPB, 2003.- 363 s.

Rzayev, A. Nəsirəddin Tusi: (həyatı, elmi, dünyagörüşü) /AMEA-nın İSTİİ; red. R.Əhmədov, Q.Camalov.- II nəşri.- B.: Elm, 2001.- 343 s.

Ağayeva, K. Göylərin ən parlaq ulduzu: Məhəmməd Nəsirəddin Tusi-805 // Xalq qəzeti.- 2007.- 2 yanvar.- S. 5.

Zeynal, V. Elm dünyasının korifeyi: (Nəsirəddin Tusinin 804 illik yubileyi ilə əlaqədar) //Azərbaycan.- 2005.- 18 fevral.- S.6.

İnternetdə

www.akademiya.net
www.azerislam.com
www.azeri.net
www.az.wikipedia.org

Adilə Abdullayeva

2009

640 illiyi

İmadəddin Nəsimi
1369-1417

Şair

Altı yüz ildir ki, böyük Azərbaycan şairi İmadəddin Nəsiminin adı Yaxın Şərqdə mərdlik, fədakarlıq və iradə rəmzi kimi hörmətlə çəkilir. Altı yüz ildir ki, məsləki uğrunda dara çəkilib dərisi soyulan, son nəfəsində belə öz sözündən dönməyən bu mərd insanın faciəli ölümü şairlərin şeirində, aşıqların sazında tərənnüm olunur.

Nəsimi Azərbaycan dilində şeirin ilk gözəl nümunələrini yaradan, öz mütərəqqi fikirlərini yüksək bədii dillə ifadə etməyi bacaran qüdrətli sənətkarlardan biri olmuşdur. Onun ana dilindən başqa ərəb və fars dillərində də yaratmış olduğu divanlar şairin vətənindən çox-çox uzaqlarda, bütün Yaxın Şərqdə şöhrətlənməsinə səbəb olmuşdur.

Şairin əsl adı Seyid Əlidir. O, 1369-cu ildə Şamaxı şəhərində doğulmuşdur. Atası Seyid Məhəmməd dövrünün tanınmış adamlarından biri olmuşdur. Seyid Əli ilk təhsilini Şamaxı şəhərində almış, sonralar biliklərini daha da təkmilləşdirmiş, xüsusən dini və fəlsəfi cərəyanları öyrənməyə həvəs göstərmişdir. O, Nizami, Xaqani, Məhsəti, Fələki, Zülfiqar Şirvani, Arif Ərdəbilli, Mahmud Şəbüstəri, Cəlaləddin və Marağalı Əvhədinin əsərləri ilə tərbiyələnmiş, eyni zamanda Yaxın Şərqin görkəmli şairlərinin: Cəlaləddin Rumi, Rudəki, Sədi, Əttar və başqa klassik şairlərin əsərlərini dərindən öyrənmiş, özü də kiçik yaşlarından şeir yazmağa başlamışdır.

Nəsimi özündən sonra zəngin bir irs qoyub getmişdir. Dahi Azərbaycan şairi Nizami Gəncəvinin Yaxın Şərq ədəbiyyatına gətirdiyi humanist ideyaları davam və inkişaf etdirən böyük sənətkar insana, insan ləyaqətinə, onun qüdrətinə olan yüksək inamını tərənnüm edərək şeirlərində insanı həyatın yaradıcısı, həyati gözəlliklərin əsil mənbəyi kimi vəsf etmişdir.

Belə ki, hürufiliyin banisi Fəzlullah Nəimi ilə yaxından tanış olan İmadəddin o zaman artıq lirik şair kimi bütün Azərbay-

canda tanınırdı. Lakin Nəimi ilə tanışlıq onun həyatını dəyişir. O, hürufiliyi qəbul edir və bütün qalan həyatını insanların kamilləşdirilməsinə sərf edəcəyini bildirir. Bəşəriyyətin xilasını kamil insanların mövcudluğunda görən İmadəddin həvəslə hürufiliyin əsas müddəalarını yaymağa başlayır.

Fəzlullah Nəimi 1394-cü ildə həbs edilmiş və Naxçıvan ərazisində Teymurilər tərəfindən işgəncə ilə edam olunmuşdur. Ölümündən əvvəl yazdığı "Vəsiyyətnamə"yə əsasən o, Nəsimini öz davamçısı elan etmişdir.

Müəlliminin vəsiyyətini yerinə yetirən Nəsimi özü üçün təhlükəsiz olan Şirvandan çıxmış və Təbrizə, ordan isə Anadoluya yollanmışdır.

Şairin qabaqcıl ideyaları dövrün mürtəce ruhaniləri tərəfindən şiddətli müqavimətə rast gəlirdi. O, allahsızlıqda ittiham olunur, panteist fikirləri yanlış izah edilirdi. Məhz buna görə də Nəsimi dini ifadələrdən geniş istifadə yolu ilə fikirlərini yaymağa çalışırdı. O, öz şeirlərində birinci növbədə cahil insanları tənqid edir, həyat gözəlliklərindən ilham almağa çağırırdı.

Onun istər didaktik, istərsə də məhəbbət mövzusunda yazılmış şeirləri, təbiət təsvirlərinə həsr olunmuş əsərləri oxucuların estetik zövqünü oxşayır. Şair eyni zamanda hakim təbəqənin zülm və ədalətsizliyini, istilaçıların qarətçiliyini və onlara xidmət edən ruhanilərin satqınlığını ifşa edən əsərlər də yaradırdı. Nəsimi müasirlərini həyat və kainatın sirlərini öyrənməyə, biliyə, mövcud qanun - qaydalara açıq gözlə baxmağa çağırır, onları qəflət yuxusundan oyatmaq istəyirdi. Şairin hər üç dildə yazılmış şeirləri bədii cəhətdən sənətkarlıqla işlənmişdir.

Nəsimi sənəti bütövlükdə insan gözəlliyinə, insan qüdrətinə heyranlıqla dolu bir himn kimi səslənir. Ancaq bu gözəllik, bu qüdrət dünyada bütün insanlara deyil, yalnız özünü tanımış, dərk etmiş kamil insanlara xasdır.

Nəsimi irsi son dərəcə təhriflərə uğramışdır. Hər şeydən əvvəl, böyük şairin davamçıları hürufiliyin ciddi təqib olunduğu illərdə Nəsimi divanının üzünü köçürərkən onları müəyyən dərəcədə dəyişdirmək məcburiyyətində qalmışlar. Nəsiminin müxtəlif ölkələrdə, müxtəlif zamanlarda yazdığı şeirlərinin hamısı divanına düşməmişdir.

Nəsimi Hələb şəhərində həbs edilir və Misir Sultanının əmri ilə 1417-ci ildə elə Hələb şəhərində edam olunur. Onun ölümü ilə bağlı rəvayətlərdə fədakar şairin ölüm ayağında özünü mərdliklə aparması və məsləkindən dönməməsi göstərilir.

Ədəbiyyat

Seçilmiş əsərləri.- B., 2005.-314 s.

Həsənoğlu, Ə. Nəsimi "ənəlhəq"qinin kökləri.- B.: Nurlan, 2004.- 99 s.

Lirika.- M.: Dilya, 2001.- 352 s.

Nəsim, E. Nəsimi şeirində məntiq //Azərbaycan mədəniyyəti və incəsənəti.- 2006.- 26 oktyabr.- S. 1-3.

Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin heykəlinin açılış mərasimi //Azərbaycan.- 2005.- 28 aprel.- S.2-3.

Şahin, G. Türkiyədə İmadəddin Nəsimi beynəlxalq simpoziumu keçirildi: Ankarada keçirilən Nəsimi I Beynəlxalq simpoziumu haqqında //Azərbaycan.- 2005.- 24 iyun.- S. 8.

Rus dilində

Лирика.- М.: Диля, 2001.- 352 с.

Рубаи /перевод с азерб. Н.Гребнева .- Б.: Азернешр, 1973.-92 с.

Гусейнов, И. Судный день /Роман о Насими.- Б.: Азернешр,1984.- 262 с.

Иванов, С.С. Насими; Роема.-Б.: Азернешр, 1973 .- 40 с.

Кулизаде, З.А. Насими – философ и поэт Востока.- Б.: Гянджлик, 1973 .- 50 с.

Samirə Eminova

2009

250 illiyi

Şiller İohann Kristof Fridrix
1759-1805
Alman şairi

Şiller XVIII əsr Almaniyasının ən cəsur və böyük şəxsiyyətlərindən biridir. O, 1759-cu ildə anadan olmuşdur. On iki yaşında onu Vürtemberq hökmdarının açdığı məktəbə qoyurlar. O, gənc ikən şeirə, fəlsəfəyə və dramaturgiyaya meyl göstərirdi. Bu dövrdə alman ədəbiyyatında "Fırtına və hücum" ədəbi məktəbinin nüfuz və təsiri qüvvətlənməkdə idi. Gənc Şiller də dövrünün bir çox şairləri kimi Homer, Şekspir kimi böyük sənətkarların əsərlərinə valeh olaraq coşqun hisslər, yüksək ideyalar, alovlu xəyallar ilə çırpınırdı. Şiller yaradıcılığının ən şah əsəri "Qaçaqlar"dır. Şiller 1781-ci ildə ilk əsəri olan "Qaçaqlar"ı öz pulu ilə çap etməyə müvəffəq olur. Bu əsərlə o, Almaniyanın ən məşhur şairləri sırasına keçmişdir. Artıq onun simasında "alman Şekspir"i doğulduğunu etiraf edirdilər. "Qaçaqlar"ın müvəffəqiyyəti Şillerdə böyük ruh yüksəkliyi oyatmış, "Dünyada Fieskonun suiqəsdi", bir az sonra isə "Məkr və məhəbbət" əsərlərini yazmasına imkan yaratmışdı. 1783-cü ildə onu Mannheym teatrosuna dramaturq vəzifəsinə çağırırlar.

1784-cü ildə Şiller "Məkr və məhəbbət" əsərinin ilk dəfə tamaşaya qoyulmasına müvəffəq ola bilir.

Əsər gurultulu alqışlarla qarşılanmışdı. "Məkr və məhəbbət" Şillerin yazmış olduğu ən inqilabi və həyatı realistcəsinə təsvir edən əsəri idi. Şiller 1788-ci ildə Höte ilə tanış olur, yeni bir həyat, yeni bir dövrə qədəm basır, 1795-ci ildə şairin həyatında yeni və parlaq bir dönüş başlayır. Bir çox yeni əsərlər, şeirlər, balladalar, dramatik əsərlər yaradır. "Vallenşteyn" kimi tarixi trilogiyasını nəşr edir, əsərlərini tamaşaya qoyurdu. 1800-cü ildə məşhur "Mariya Stüart" əsərini, bir az sonra isə "Orlean qızı"nı yazır. 1800-cü ildən sonra, o, yeni bir həvəs, yeni bir ruh ilə "Messina gəlini", "Vilhelm Tell" kimi əsərlərini yaradır. Artıq

bu zamanlar Şiller şöhrət və yüksəlişin zirvəsinə çatmışdır. Bu illər Şiller yaradıcılığının ən səmərəli və ən coşqun illəri sayılırdı. O, 1805-ci ildə vəfat etmişdir. Şiller azad şəxsiyyət pərəstişkarı, qəhrəman şəxsiyyət şairi və məftunudur. Şillerin əsərləri Azərbaycan səhnəsində tamaşaya qoyulmuşdur.

Ədəbiyyat

Şiller, F. Seçilmiş əsərləri.- B.: "Öndər", 2004.- 350 s.

Şiller, F. Balladalar, şeirlər.-B.: Şirvannəşr, 2002.- 60 s.

Şıxlı İ. XIII əsr xarici ədəbiyyat tarixi.-B.,1970.- 150 s.

Rus dilində

Шиллер, Ф. Избранное: Стихотворения и пьесы.- М.: Правда, 1989.- 574 с.

От просвещения к предромантизму: Фридрих Шиллер: о жизни и творчестве.- М., 1999.- 638 с.

2009

225 illiyi

Qasım bəy Zakir
1784-1857

Şair

Azərbaycan ədəbiyyatında ictimai satiranın banisi, aşıq poeziyasının varisi və davamçısı, maarifçi, görkəmli şairlərimizdən biri Qasım bəy Zakirdir. Qasım bəy Əli bəy oğlu Zakir 1784-cü ildə Şuşa şəhərində bəy ailəsində doğulmuşdur. Onun əsli Qarabağda məşhur olan Cavanşirlər nəslindəndir. Zakir uşaq ikən mollaxanada oxumuş, fitri istedadı sayəsində fars və ərəb dillərini qısa müddətdə öyrənmiş, Şərq klassik ədəbiyyatı nümunələri ilə maraqlanmış, Yaxın Şərqin Firdovsi, Nizami, Sədi, Hafiz kimi məşhur söz ustadlarının əsərlərini oxumuşdur.

Qarabağda baş vermiş siyasi hadisələr, Qacarın 1795-1797-ci illərdə Şuşaya hücumu, şair Molla Pənah Vaqifin öz oğlu ilə birlikdə Cıdır düzündə öldürülməsi, XIX əsrin ilk illərindən başlayaraq çar Rusiyasının Azərbaycana qarşı istilaçı hücumları, 1804-cü ildə Cavad xanın oğlu və arvadı ilə bərabər Gəncədə, 1806-cı ildə isə İbrahimxəlil xanın ailə üzvləri ilə birlikdə Şuşada vəhşicəsinə güllələbaran edilməsi Zakirin dünyagörüşünün formalaşmasına təsir göstərmişdir.

Zakir ilk şeirlərini dahi Azərbaycan şairi Məhəmməd Füzulinin ədəbi təsiri ilə yazmışdır. XIX əsr Azərbaycan ədəbiyyatında Zakir yaradıcılığı lirik, satirik və epik üslubların qovşaq nöqtəsidir. Sənətkar öz ilhamını yaşadığı həyatdan, gördüyü canlı insanlardan, doğulub böyüdüyü milli zəmindən almışdır. Zakir lirikasının bir hissəsi məhəbbət, digər hissəsi isə ictimai mövzudadır. Qasım bəy öz aşiqanə şeirlərini yaradarkən şifahi xalq poeziyası ənənələrindən istifadə edərək ondan qidalanmışdır. "Ağlaram", "Öyrənib", "Ay mədəd" və s. rədifli qoşmalarını aşıq şeirindən ayırmaq çətindir. Şairin lirikasında ictimai məzmunda şeirlər də əsas yerlərdən birini təşkil edir. Onun "Eylər", "Dost yolunda cəfa çəkdim, can üzdüm",

“Gözüm yolda qaldı, könül intizar”, “Dost yolu bağlandı, ümid kəsildi”, “Qələtdir qocaya növcavan sevmək” misraları ilə başlanan qoşmalarında, bəzi qəzəl və müxəmməslərində zəmanədən şikayət, haqsızlığa etiraz motivləri, mənəvi-əxlaqi naqisliklərin tənqidi güclüdür.

Qasım bəy Zakirin satiraları Azərbaycan ədəbiyyatında realizmin formalaşması və inkişafında mühüm rol oynamışdır. Zəngin məzmuna malik satiralarında şair, dövrünün mühüm ictimai-siyasi məsələlərini, tipik cəhətlərini ümumiləşdirmiş, feodal üsul-idarəsinin nöqsanlarını açıb göstərmişdir.

Mənzum hekayələr və təmsillər də Zakir yaradıcılığında mühüm yerlərdən birini tutur. Şair açıq dildə söyləyə bilmədiyi bir çox cəsarətli fikirləri mənzum hekayələrdə, təmsillərdə dolayı yolla oxuculara çatdırır. Mövzularına görə şairin “Əxlaqsız qazi”, “Xalqa vəz deyən, özü fisqü fücurdan çıxan biəməl alim”, “Həyasız dərviş” adlı mənzum hekayələri feodal əxlaq normalarını, din nümayəndələrini ifşa edir. “Qoca kişi və cavan arvad”, “Zövci axər”, “Əmirzadə və aşiq” kimi mənzum hekayələrdə isə sevgi, evlənmək, ailə, qadın hüququ məsələləri əhatə olunmuşdur.

“Tısbağa, qarğa, kəsəyən və ahu”, “Tülkü və şir”, “Qurd, çaqqal və şir”, “Tülkü və qurd”, “Dəvə və eşşək”, “İlan, dəvə, tısbağa” təmsilləri Azərbaycan xalq təmsillərinin orijinal yolla işlənmiş şəklidir.

Qarabağ xanlığı Rusiyanın idarəsinə keçdikdən sonra Zakir çar ordusunun Qafqaz müsəlman könüllü atlı dəstəsində xidmət etmiş, 1806-1813, 1826-1828-ci illərin Rusiya-İran müharibələrinin iştirakçısı olmuşdur. Qasım bəy Rusiya-İran müharibələrində fərqləndiyinə görə çarın 1828-ci il 15 mart tarixli fərmanına əsasən gümüş medalla təltif edilmişdir. 1830-cu ildə könüllü polis dəstələrinin tərkibində Balakənə getmiş, Cardakı üsyanların yatırılmasında iştirak etmişdir. O, 1806-cı ildə Qarabağ əhalisinin köçürülüb İrana aparılmasının qarşısını almaqda xüsusi xidmət göstərmişdir.

1812-ci ildə Talışa getmiş, Abbas Mirzənin başçılıq etdiyi İran qoşununa qarşı vuruşan dəstənin tərkibində olmuşdur. Gənclik illərini at belində, müxtəlif müharibələrdə və döyüşlərdə keçirən Qasım bəy Zakir 30-cu illərin sonlarından tamam təsərrüfatçılıqla məşğul olmağa başlayır. İlin yay fəslini Şuşada, qalan fəsillərini isə Xurşidbanu Natəvanın atası Mehdiqulu xanın ona bağışladığı Xındırıstan kəndində keçirirdi.

1849-cu ilin oktyabr ayında Qasım bəy hökumətdən qaçaq düşmüş qardaşı oğlu Behbud bəy Cavanşiri evində saxlamaq üstündə günahlandırılaraq ailə üzvləri ilə birlikdə həbs edilb Şuşa həbsxanasına gətirildi. Həbsdə olarkən şair bir neçə dəfə yuxarı hökumət dairələrinə məktub yazıb qanunsuz tutulduğunu bildirsə də, onun şikayətlərinə ədalətli bir cavab verilmədi. Şair bir ilə qədər Şuşa həbsxanasında qaldıqdan sonra mühakimə edilmədən Bakıya sürgün edildi. Oğlu Nəcəfqulu bəy və qardaşı oğlu İsgəndər bəyi Tiflisə gətirdib, oradan əvvəlcə

Voronejə, sonra isə Kaluqaya sürgün etdilər. Zakirin ailəsi isə Şuşada qaldı. İctimai məzmunlu şeirlərindən biri olan "Durnalar" rədifli qoşmasını şair Bakıda sürgündə olarkən yazmışdır.

Şair yaxın dostları Mirzə Fətəli Axundov, İsmayıl bəy Qutqaşınlı, İliko Orbeliani, Mixail Kolyubakin kimi şəxslərin köməyi ilə Şuşaya qayıdıb, ömrünün axırına qədər polis nəzarəti altında yaşadı.

Qasım bəy Zakirin ömrünün son illəri olduqca fərəhsiz və kədərli keçmişdi. Oğlu və qardaşı oğlunun həbsdən azad olması onu sevindirsə də daim nəzarət altında yaşaması onu sıxırdı. Maddi ehtiyac və çətinliklər də öz təsirini göstərirdi. Bu haqda Zakirə yenə də hökumət dairələrində çalışan dostları kömək etmiş və ona "Rus dövlətinə göstərdiyi xidmətlərinə görə" 1857-ci ildən başlayaraq ayda 36 manat təqaüd təyin edilmişdir. Lakin təqaüd kağızı Şuşaya çatanda şair artıq dünyasını dəyişmişdi. Qasım bəy Zakir 1857-ci ildə Şuşada vəfat etmiş, şəhərin Mirzə Həsən qəbiristanlığında dəfn olunmuşdur.

Ədəbiyyat

Seçilmiş əsərləri /tərt. Kamran Məmmədov.- B.: Yazıçı, 1984.- 384 s.

Seçilmiş əsərləri /tərt. Kamran Məmmədov.- Təkrar nəşr.- B.: "Avrasiya Press", 2005.- 398 s.- (Klassik Azərbaycan ədəbiyyatı)

Mənzum hekayələr və təmsillər /tərt. S.Axundov; rəs. A. Məmmədov.- B.: Gənclik, 1984.- 88 s.

Məmmədov, K. Qasım bəy Zakir /tərt. Kamran Məmmədov.- B.: Gənclik, 1984.- 232 s.- (Azərbaycanın görkəmli adamları)

Azərbaycan ədəbiyyatının qaynaqları /red. M. Adilov.- B.: "Avrasiya press", 2006.- 440 s.- (Azərbaycan dili və tarixi)

Rus dilində

Избранное /сост. А.Заманов.- Б.: Азернешр, 1971.- 232 с.

Басни и притчи: Переводы.- Б.: Гянджлик, 1987.- 64 с.

Гусейнов, С.С. Лексика и фразеология произведений Касум бека Закира /С.С. Гусейнов.- Б.: Азернешр, 1973.- 146 с.

Мамедов, К. Касум бек Закир /Камран Мамедов.- Б.: Язычы,1984.- 50 с.- (Выдающиеся люди Азербайджана)

Мустафаев, М. Особенности мастерства поэзии Касум бека Закира /М. Мустафаев.- Б.: Язычы, 1965.-152 с.

İnternetdə

www.azerilobbi.com
www.az-customs.net
www.az.wikipedia.org
www.gateway.az
www.kitabxana.iatp.az

Adilə Abdullayeva

2009

130 illiyi

Məhəmməd Hadi
1879-1920

Şair

Azərbaycan ədəbiyyatının ən görkəmli simalarından biri olan Məhəmməd Hadinin həyatı son dərəcədə qəmli, faciəli keçmişdir.

Avtobioqrafik mahiyyətdə olan bir əsərində şair nahaq demirdi ki, mən tərcümeyi-halımı yazmaqda çətinlik çəkirəm, çünki dərdli ürəyim acı həqiqətlərlə doludur!..

Əsl adı Ağa Məhəmməd olan, gəncliyində özünə "Hadi" (ərəbcə: doğru yol göstərən) təxəllüsünü seçən şair 1879-cu ildə, Şərqin şeir sənət mərkəzlərindən biri kimi tanınan Şamaxı şəhərində doğulmuşdur. Onun uşaqlıq və gənclik illəri Azərbaycanda feodalizmin süqutu, kapitalizmin yeni-yeni inkişafa başladığı tarixi mərhələyə təsadüf etmişdir.

Şairin atası Hacı Əbdülsəlim böyük nəsildən idi. Alverlə dolanan Hacı Əbdülsəlim öz ailəsinə miyanə bir həyat qura bilmiş, oğlu Məhəmmədi kiçik yaşından oxumağa qoymuşdur.

"Həyat" qəzetində çıxan ilk yazılarından məlum olur ki, artıq 1905-1906-cı illərdə o, Nizamini, alim və yazıçı Mirzə Məlküm xanı, Sənanini, Cəlaləddin Rumini, Sədini, Beyzavini, Hafizi, Namiq Kamalı, Əbdülhəq Hamidi, Şünasini yaxşı öyrənmiş, Seyid Əzim Şirvani, Bixud kimi görkəmli Azərbaycan şairlərini də dərindən mütaliə etmişdir.

M.Hadinin mətbuata gəlişi 1905-ci ildə birinci rus inqilabının başladığı dövrə təsadüf etmişdir. Onun ilk mətbu əsərləri Bakıda "Həyat" qəzetində çap olunan elmi və publisistik məqalələr idi. Məqalələrin içərisində bəzən mövzuya uyğun mənzum parçalar da verməsi Hadinin eyni zamanda şeirə böyük marağı olduğunu göstərirdi. Şairin "Həyat" qəzetində çap olunan ilk əsəri məktəbin, elmin əhəmiyyətini tərənnüm edən "Lövhi-məkatib" şeiri idi. Lakin hələ "Həyat" qəzetində çap olunan ilk yazıları gös-

tərirdi ki, gənc Hadinin görüşləri çox dumanlı və ziddiyyətli olmuşdur. 1907-1908-ci illərdə Hadi artıq Azərbaycan şeirinin görkəmli simalarından biri sayılırdı. İdeya və sənətkarlıq cəhətindən sürətlə irəliləyib kamala çatmaqda olan şair əsərlərində getdikcə daha böyük, ciddi sosial məsələlər qoymağa çalışırdı.

İctimai məzmun, inqilabi motivlər Hadi şeirində üstünlük təşkil edirdi. Xüsusilə vətənpərvərlik, azadlıq, maarifpərvərlik ideyaları lirik şairin leytmotivlərinə çevrilmişdi. Hadi yaradıcılığının ayrı-ayrı dövrlərinin məhsulu olan "Ax şam təzzöhləri", "Gözlərin", "Təsviri məhəbbət", "Zümzümati təhəssürat" kimi onlarca şeirdə bu xüsusiyyət aydın nəzərə çarpır.

XX əsrin əvvəllərində Azərbaycanda güclənmiş milli-mədəni hərəkatın, demək olar bütün mürəkkəb ziddiyyətli xüsusiyyətləri Hadinin yaradıcılığında öz əksini tapmışdır. Onun bir çox ciddi məsələlərdə gah "Füyuzat" jurnalına, gah da "Molla Nəsrəddin" ədəbi məktəbinə haqq qazandırması, meyl etməsi də təbiidir. Daha sonralar ədib İstanbulda çıxan "Tənin", "Sərvəti-Hünun" redaksiyalarında işə dəvət olunmuş, türk ədəbi mühiti ilə sıx əlaqə saxlamışdır.

Siyasi baxışlarına görə Yunanıstanın Saloniki şəhərinə sürgün edilmişdir. 1912-1914-cü illərdə Dünya müharibəsində müsəlman alayı tərkibində ön cəbhədə vuruşmuşdur. Ordudan tərxis edilib Gəncəyə qayıtsa da, iş tapa bilməmiş, ruhən düşkün, böhranlı həyat keçirmişdir.

1918-1920-ci illərdə Bakıda nəşr edilən "Bəsirət", "Azərbaycan" və s. qəzetlərdə əməkdaşlıq etmişdir. İctimai-siyasi məzmunlu şeirlərində və məqalələrində elmi, maarifi təbliğ edir, dövrün haqsızlıq və rəzalətlərinə qarşı çıxırdı. M. Hadi milli ədəbiyyatda mütərəqqi romantizmin görkəmli nümayəndəsi hesab edilir. Nizami Gəncəvi, Ömər Xəyyam, Hafiz və başqa sənətkarların poeziyasından tərcümələr etmişdir.

Bugünkü Azərbaycan şeiri örnəklərində Hadi ruhlu mənzumələr yox deyildir. Əruzu bilən, klassik poeziyamıza, divan ədəbiyyatımıza ehtiram göstərən şairlərimiz Məhəmməd Hadi sənətinə yüksək məhəbbət bəsləyir, ondan faydalanırlar.

Şair 1920-ci ilin may ayında Gəncədə vəfat etmişdir. Dünyadan 40 yaşında köçən, daima məşəqqətlərlə, əziyyətlərlə, müsibətlərlə üz-üzə gələn şairin ömrü vəfa etsəydi, yeni cəmiyyəti görüb sevinəcək, arzuları çiçək açacaqdı, ömrü boyu vətən, xalq deyən sənətkarı azadlığa çıxmış vətəni, xalqı alqışlayacaqdı. Bu günsə onun "Ey ol vaxtı görən məsud, unutma bizləri, yad et!" misrası qulağımızda doğma bir səs kimi səslənir. Biz gözəl şairimizi bu gün də yad edir, ondan öyrənir, onu yaşadır və Məhəmməd Hadiyə üzümüzü tutub, bugünkü nəslin adından bu misraları deyirik:

Vətənpərvər, hünərpərvər, zəfərpərvər vətandaşdın,
Azərbaycana aşiqdin əsil övlad şəklində!

Ədəbiyyat

Seçilmiş əsərləri /tərt. ed.: Ə.Hüseynov və b.- təkrar nəşr.- B.: Şərq-Qərb, 2005.- 463 s.- (Klassik Azərbaycan ədəbiyyatı)

El fəryadı: Seçilmiş şeirlər və poemalar /müqəddimə M.Cəfərindir; tərt. və red. Ə.Mirəhmədov.- B.:Yazıçı, 1980.- 152 s.

Ağamirov, M. Məhəmməd Hadinin fəlsəfəsi /M.Ağamirov.- B.: Azərnəşr, 1987.-272 s.

Hadi irsinin tədqiqi əsasında /elmi red.prof. S.T. Əhmədli.- B.: Bakı Universiteti, İqtisad Universiteti, 2003.-167 s.

Qəribli, İ. Məhəmməd Hadinin "İnsanların tarixi faciələri, yaxud əlvahi-intibah" poeması.- B.: Elm, 2001.-117 s.

Məmmədova, A. XX əsr Azərbaycan romantizminin fəlsəfəsi /A.Məmmədovanın "XX əsr Azərbaycan romantizminin fəlsəfəsi" kitabı haqqında //Respublika.- 2004.-15 aпrel.- S.4

Osmanlı, V. Məhəmməd Hadinin romantizmi /elmi red. prof.Y. Qarayev.- B.: Elm, 2006.-202 s.

Vahabzadə İ. Millətimin imzası: (M.Hadi haqqında).-B.Təbib, 1992.-190 s.

Zəka, R. Məhəmməd Hadi: (anadan olmasının 100 illiyi münasibətilə).- B.: N.U.,1979.-87 s.

Rus dilində

Хади Мухаммед. Биографическая справка в. кн.: Поэты Азербайджана.-М.-Л.: Сов.писатель, 1962.-С.320.

Гарибов, И.Я. Поэт Мухаммед Хади «исторические трагедии человечества, или картины возраждения».- Б.,1990.- 21 с.

Большой мастер /100 лет со дня рождения видного Азербайджанского поэта Мухаммеда Хади //Баку, 1979.-7 декабря.-С.3.

Гаджиев, А. Поэт «Эпохи пробуждения»: к 100-летию со дня рождения Мухаммеда Хади //Бакинский рабочий, 1979.- 7 декабря.-С.4.

İnternetdə

www.kitab.az/

az.wikipedia.org/

www.anl.az/

kitabxana.iatp.az/

Nailə Alışova

2009

500 illiyi

İrəvan Qalası 1509-1510

İrəvan xanlığının ərazisində iki böyük müdafiə qalası olmuşdur. Bunlardan biri də İrəvan qalası idi. Bu qala Sərdərabad qalası ilə müqayisədə daha qədim tarixə və böyük ölçülərə malik idi. Əlverişli təbii mövqedə tikilmişdi. Onun tikintisi üçün iti axan Zəngi çayının sağ tərəfindəki sərt sahildə yerləşən hündürlük seçilmişdi. Bu sahil qalanın qərb tərəfini təşkil edirdi. Ona görə həm iti axan çayı, həm də onun sərt sahili üzərindəki hündür divarlar bu istiqamətdə qalanın müdafiə imkanlarını xeyli artırdı.

Qala, demək olar ki, kvadrat formasında tikilmişdi. Yalnız onun qərb divarı Zəngi çayının sahil boyu salındığından qövsvari formada idi. Qalanın divarları daşdan və çiy kərpicdən hörülmüşdü. Bayırdan tikilən divarların hündürlüyü beş sajen yarım idi. Bəzi məlumatlara görə həmin divarda 17 bürc olmuşdu. Daxili divarlar isə birinci divardan daha hündür idi. Bu plana görə divarı götürülmüşdü, düşmən birinci keçə bilsəydi, daha hündür olan ikinci divarla üzbəüz gəlməli və bu divarlar arasındakı kiçik sahədə onların fəaliyyəti xeyli çətinləşməli idi. İkinci divarda da çoxlu bürclər var idi. Bu bürclər əsasən yarımdairə şəklində tikilmişdi. Qalanın iki darvazası var idi. Biri şimalda, o biri isə cənubda yerləşirdi. Onlar Təbriz və Şirvan divarları adlandırılırdı. Darvazalar qalın taxtadan düzəldilmiş və onların üzərinə dəmir lövhələr vurulmuşdu. Darvaza keçidləri elə düzəldilmişdi ki, buradan arabaların gəlib getməsi çətin idi. Qalanın darvazalarını xüsusi keşikçi dəstələri qoruyurdu.

Qala divarlarının qalınlığı da çox böyük idi. Onların ölçüləri hətta top mərmilərinə davam gətirirdi.

Uzunmüddətli mühasirəyə davam gətirmək üçün gizli yolla qalanın daxilinə su xətti çəkilmişdi. Rus qoşunlarının ikinci hücumu zamanı bu xətt tapılıb dağıdılmışdı.

Qalanın müdafiə qüdrətini artırmaq üçün onun ətrafında su saxlancları yaradılmışdı. Bu su saxlancları qurudan birbaşa qala üzərinə hücumu qeyrimümkün edirdi. Onları keç-

məyə cəhd göstərənləri isə qala divarları üzərindən asanlıqla vurmaq olurdu.

Su saxlancları xüsusi plan üzrə pilləli şəkildə tikilmişdi. Qırxbulaq çayından gil borularla gələn su şimal darvazası yanında xüsusi su saxlancına tökülürdü. Su qalanın şərqinə və cənubuna uzanan yuxarı saxlancı doldurduqdan sonra gil borularla aşağı saxlanca tökülüb onu doldururdu.

Fransız səyyahı J. Şarden şahidi olduğu İrəvan qalasını təsvir edərkən göstərir ki, onu müstəqil bir şəhər kimi qəbul etmək olar. Qala divarlarının uzunluğu dörd min addım olan bu şəhərcikdə 800 ev var idi. Fransız səyyahının şəhadətinə görə qalada yalnız azərbaycanlılar yaşayırdı. Ermənilər isə bura yalnız ticarətə gəlirdilər. Qalanın daxilində bir neçə erməni dükanı mövcud idi. Ermənilər gündüz burada sövdəgərliklə məşğul olduqdan sonra axşam qaladan çıxıb yaxınlıqda yerləşən şəhərə yollanırdılar.

Qala daxilində şəhərsalma şərq üslubunda idi. Küçələr xeyli dar, evlərin divarları isə hündür idi. Küçədə evin həyətini müşahidə etmək çətin olurdu. Rusların İrəvan qalası üzərinə sonuncu hücumunda iştirak etmiş dekabrist E.Naçinovun qeydlərinə görə qala daxilində iki məscid olduğu qeyd edilir. Bəzi ədəbiyyatda mövcud olan məlumatlara görə isə qala daxilində 4 məscid var idi. Onlardan ən qədimi qalanın əsası qoyulduğu illərdə, 1510-cu ildə Şah İsmayıl Xətainin göstərişi ilə tikilmişdi. Sərdar sarayının yaxınlığında olan Cümə məscidinin əsasını isə Şah Abbas qoymuşdu. Bu məsciddə mədrəsə, kitabxana və qonaq otaqları yerləşirdi.

Qalanın daxilindəki ən möhtəşəm tikili Sərdar sarayı idi. Burada İrəvan xanlığının həm dəftərxanası və həm də hərəmxanası yerləşirdi. Verilən məlumatlara görə Sərdar sarayının əsası elə qala tikildiyi vaxtdan qoyulmuşdu.

Lakin sonrakı illərdə bu tikili əsaslı şəkildə təkmilləşdirilmiş və böyük bir memarlıq incisinə çevrilmişdi. Xüsusən XVIII əsrin sonlarında Hüseynəli xanın və onun oğlu Məhəmməd xanın dövründə memar Mirzə Cəfər tərəfindən görülən quruculuq işləri sarayı daha baxımlı və bütöv etmişdi.

Dekabrist Naçinov öz qeydlərində ermənilər tərəfindən artıq dağıdılmış olan Sərdar sarayının da mükəmməl təsvirini verir. Azərbaycan memarlıq sənətinin incilərindən olan bu sarayın ən gözəl otaqlarından biri xanın otağı idi. E.Naçinova görə sonsuz zövq və ustalıqla bəzədilmiş bu otaqda maraqlı rəsmlər və portretlər asılmışdı. Sarayın qarşısında Sərdarın yay qəbul zalı yerləşirdi. Yay qəbul zalı da böyük zövqlə bəzədilmişdi. Yay qəbul zalının bir divarında Fətəli şahın taxtda oturduğu rəsmi vəziyyətdə, Abbas Mirzənin xanla qardaşı Həsən xanın və iki kürd döyüşçüsünün rəsmləri çəkilmişdi.

Sarayla üzbəüz Zəngi çayının o biri sahilində isə Sərdar bağı salınmışdı. Bağın bir hissəsində meyvə ağacları, üzümlüklər salınmış, bir hissəsinə isə kölgəlik üçün ağaclar əkilmişdir. Bağda istirahət üçün eyvan və otaqlar ti-

kilmişdi. İrəvanın sonuncu mühasirəsi zamanı xanın göstərişi ilə bağın ağaclarının bir hissəsi qırılmışdı ki, rus qoşunlarının hərəkətini yaxşı müşahidə etmək mümkün olsun.

İrəvan şəhəri qalanın şimalında tikilmişdi. Qala ilə şəhər arasında müəyyən qədər məsafə var idi. Onun möhtəşəmliyini rus generalları da dəfələrlə öz raportlarında qeyd etmişdilər. Təsadüfi deyil ki, İrəvan qalasını işğal etdiyinə görə general Paskeviçə irəvanlı təxəllüsü verilmiş və bu qalanın tutulması Sankt-Peterburq şəhərində imperatorun özünün iştirakı ilə təntənəli şəkildə qeyd edilmişdir.

Ədəbiyyat

Ələkbərli, Ə. Qədim Türk-Oğuz yurdu.- B., 1994.-S.184-187.

Süleymanov, M. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən.- B.: Hərbi nəşriyyat, 1997.- 160 s.

Rus dilində

Алекперли, А. Эриванские Бани / Алекперли, А. Памятники Западного Азербайлжана.- Б., 2007.- С. 240

Bəybala Ələsgərov

MÜNDƏRİCAT

Yanvar ayı üçün təqvim..... 4

Planetimizdə Neçə Yeni İl Bayramı var..... 6

Təqvim mifləri (Öküz ili)..... 8

Vaqif Vəliyev - 85..... 11

Gəncənin işğalı-205..... 12

Afat Qurbanov - 80..... 15

Baba Vəziroğlu - 55..... 17

Aydın Məmmədov - 65..... 18

Vaqif Nəsib - 70..... 19

Azadlıq Yolunun 20 Yanvar Zirvəsi..... 20

Şəfiqə Axundova - 85..... 23

Lessinq (Qothold Efraim) - 280..... 25

Robert Berns - 250..... 26

Georgi Nikolayeviç Leonidze - 110..... 27

Məhəmməd Əmin Rəsulzadə - 125..... 28

Əli Tudə - 85..... 31

Fevral ayı üçün təqvim..... 33

Tariyel Qasımov - 70..... 35

Rüstəm İbrahimbəyov - 70..... 36

Firəngiz Şərifova - 85..... 38

Tofiq Tağızadə - 90 39

Dmitri İvanoviç Mendeleyev - 175..... 41

Naxçıvan Muxtar Respublikası - 85 43

Xədicə Qazıyeva - 100..... 45

Qalileo Qaliley - 445..... 46

Cəlil Məmmədquluzadə -140 47

Yusif Əhmədov - 70 49

Arkadi Petroviç Qaydar -105..... 50

Süleyman Ələsgərov - 85..... 52

Həmid Araslı- 100 54

Əli bəy Hüseynzadə -145..... 56

Xocalı soyqırımı XX əsrin ən dəhşətli cinayətlərindəndir..... 58

Mart ayı üçün təqvim..... 62

Hüseynağa Sadıqov -95 65

Seyfulla Qacar– 145..... 66

Türkan Əfəndiyeva - 90..... 67

Yuri Alekseyeviç Qaqarin - 75 68

Taras Qriqoryeviç Şevçenko - 275..... 70

Qızıl Aypara günü..... 72

İbrahimxəlil İbrahimxəlilov - 75..... 75

Albert Eynşteyn - 130..... 77

Məmməd Quliyev - 95..... 79

Məmmədəli Vəlixanlı - 110 80

Aleksandr Stepanoviç Popov - 150 82

Dəmir Gədəbəyli - 70..... 83

Novruz Bayramı..... 84

Hüseynqulu Sarabski - 130..... 87

İsmayıl Şıxlı - 90..... 89

Mehdi Hüseyn - 100..... 92

Lütfəli Abdullayev - 95..... 95

Teymur Elçin - 85..... 96

Bakıda "Nobel qardaşları" şirkəti..... 97

Tariximizin faciəli səhifəsi..... 100

Aprel ayı üçün təqvim..... 106

Zeynal Xəlil – 95..... 108

Nizami Xudiyev - 60 110

Nikolay Vasilyeviç Qoqol - 200..... 111

Kəlbəcər..... 112

Asəf Zeynallı - 100..... 114

Tofiq İsmayılov - 70..... 117

Çingiz Abdullayev - 50..... 118

Nəcəf bəy Vəzirov - 155..... 121

Seyid Şuşinski - 120 124

Tofiq Mütəllibov - 80 126

Denis İvanoviç Fonvizin - 265..... 128

Çaplin Çarls Spenser - 120..... 129

Ramiz Mirişli - 75..... 131

Rza Təhmasib – 115..... 133

Çingiz Hüseynov - 80..... 135

Vilyam Şekspir - 445..... 136

Məmməd Bürcəliyev - 95..... 137

Əjdər İbrahimov - 90 138

May ayı üçün təqvim..... 141

İsi Məlikzadə - 75..... 144

Yusif Seyidov - 80..... 145

Nikollo Makiavelli - 540..... 148

Sultan Hacıbəyov - 90..... 149

Şuşa..... 152

Faşizm üzərində qələbə günü..... 155

Məmməd Cəfər - 100..... 158

Heydər Əliyev Fondu *161*

Əliş Ləmbəranski - 95 ..... *166*

Etel Lilian Voyniç - 145 ..... *168*

Hikmət Ziya - 80..... *169*

Beynəlxalq Ailə Günü *170*

Laçın *172*

Beynəlxalq Muzeylər Günü *174*

Salman Mümtaz - 125 ..... *176*

Mürsəl Həkimov - 80 ..... *179*

Hüseyn İbrahimov - 90 ..... *180*

Abbas Səhhət - 135..... *182*

Ümgülsüm Sadıqzadə - 110 .... *184*

İlyas Əfəndiyev -95 ..... *185*

Vəli Xuluflu - 115..... *188*

Respublika Günü *189*

Leonid Maksimoviç Leonov - 110..... *193*

İyun ayı üçün təqvim..... *195*

Uşaqları Beynəlxalq Müdafiə Günü..... *197*

Vaqif Səmədoğlu - 70..... *200*

Aleksandr Sergeyeviç Puşkin - 210..... *202*

Məmməd Arif Dadaşzadə - 105..... 205

İnsan Hüquqları Günü..... 208

Abbasqulu ağa Bakıxanov-215..... 211

Cəlal Bərgüşad-85..... 215

Anna Andreyevna Axmatova - 210..... 217

Nurəddin Rzayev – 80..... 218

Narkomaniya və narkobiznesə qarşı beynəlxalq mübarizə günü..... 219

Azərbaycan Silahli Qüvvələri Günü..... 221

Mələk Dadaşov - 85 224

İyul ayı üçün təqvim..... 227

Feyxtvanger Lion – 215..... 229

Əbdüləzəl Dəmirçizadə - 100..... 231

Neruda Yan -175..... 232

Azərbaycan Tarixində Əlamətdar Gün..... 233

Rasim Əliyev - 75 236

Milli Mətbuat və Jurnalistika Günü 237

Ernest Heminquey - 110..... 239

Ağdam..... 240

Avqust ayı üçün təqvim..... 245

Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü..... 247

Bakıda ilk ictimai kitabxana- qiraətxana..... 251

Jan Batist Lamark Pyer Antuan De Mone - 265 ..... *253*

İlya Yefimoviç Repin - 165 ..... *254*

Beynəlxalq Gənclər Günü..... *256*

I Dünya müharibəsi *259*

Roza Əsgərova - 80..... *261*

Cəbrayıl..... *262*

Füzuli..... *265*

İohann Volfqanq Höte - 260..... *268*

Qubadlı *270*

Sentyabr ayı üçün təqvim..... *274*

II Dünya müharibəsi *276*

Hidayət Orucov - 65 ..... *278*

Mənsur Vəkilov - 70..... *280*

Aleksandr Petroviç Dovjenko - 115..... *282*

Aslan Qəhrəmanov - 70..... *284*

Kuper Ceyms Fenimor - 220 ..... *285*

Əsrin müqaviləsi *286*

Nizami Cəfərov - 50 ..... *289*

Əfqan Əsgərov - 80..... *291*

Ulduz Kəngərli - 85..... *292*

Nikolay Alekseyeviç Ostrovski -105..... 293

Oktyabr ayı üçün təqvim..... 295

Vaqif Bayatlı Odər - 60..... 296

Mikolo Platonoviç Bajan - 105 297

Mixail Yuryeviç Lermontov - 195..... 298

İsa Həbibbəyli - 60..... 300

Hüseyn Razi - 85..... 302

Birləşmiş Millətlər Təşkilati Günü 303

Zəngilan..... 306

Noyabr ayı üçün təqvim..... 310

Məmməd İsmayıl - 70..... 312

Vasili Vladimiroviç Bartold - 140..... 314

Cəlil Vəzirov - 65..... 315

Konstitusiya Günü..... 316

Bakı Dövlət Universiteti..... 318

Milli Dirçəliş Günü..... 321

Vəcihə Səmədova - 85..... 323

Rəşad Nuri Güntəkin - 120..... 325

İlyas Tapdıq - 75 327

Dekabr ayı üçün təqvim..... 330

Nəbi Xəzri - 85 332

Əliyeva Dilarə - 80..... 334

Tofiq Bayram - 75..... 336

Teyyub Qurban - 75..... 338

İbrahim Məmmədov - 75..... 339

Məmməd Aslan - 70..... 340

Famil Mehdi - 75..... 342

Əminə Dilbazi - 90 343

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü 345

Əlavələr..... 347

Qurban Bayramı..... 351

Ramazan Bayramı..... 354

Göy-göl 357

"Şeyx Səfi" xalçası 359

Marağa Rəsədxanası..... 361

İmadəddin Nəsimi - 640..... 363

Şiller İohann Kristof Fridrix - 250 366

Qasım bəy Zakir - 225 368

Məhəmməd Hadi - 130..... 371

İrəvan qalası - 500..... 374

ƏLAMƏTDAR VƏ TARİXİ GÜNLƏR TƏQVİMİ
2009

Nəşriyyat redaktoru: ***T.Ağamirova***
Korrektorlar: ***Ş.Əhmədova***
Kompyuter dizaynı: ***Şahbazova Nazlı***

Ünvan: AZ-1000 Bakı ş., Xaqani küç.29
E-mail: contact@anl.az
URL: www.anl.az

M.F.Axundov adına Azərbaycan
Milli Kitabxanasının mətbəəsində
ofset üsulu ilə çap olunmuşdur.
Sifariş 45
Çapa imzalanmışdır:
Tirajı: 300
Pulsuz:

Tğrim 2009

Yanvar						
be	ça	ç	ca	c	ş	b
			1	2	3	4
5	6	7	8	9	10	11
12	13	14	15	16	17	18
19	20	21	22	23	24	25
26	27	28	29	30	31	

Fevral						
be	ça	ç	ca	c	ş	b
						1
2	3	4	5	6	7	8
9	10	11	12	13	14	15
16	17	18	19	20	21	22
23	24	25	26	27	28	

Mart						
be	ça	ç	ca	c	ş	b
						1
2	3	4	5	6	7	8
9	10	11	12	13	14	15
16	17	18	19	20	21	22
23	24	25	26	27	28	29
30	31					

Aprel						
be	ça	ç	ca	c	ş	b
		1	2	3	4	5
6	7	8	9	10	11	12
13	14	15	16	17	18	19
20	21	22	23	24	25	26
27	28	29	30			

May						
be	ça	ç	ca	c	ş	b
				1	2	3
4	5	6	7	8	9	10
11	12	13	14	15	16	17
18	19	20	21	22	23	24
25	26	27	28	29	30	31

İyun						
be	ça	ç	ca	c	ş	b
1	2	3	4	5	6	7
8	9	10	11	12	13	14
15	16	17	18	19	20	21
22	23	24	25	26	27	28
29	30					

İyul						
be	ça	ç	ca	c	ş	b
		1	2	3	4	5
6	7	8	9	10	11	12
13	14	15	16	17	18	19
20	21	22	23	24	25	26
27	28	29	30	31		

Avqust						
be	ça	ç	ca	c	ş	b
					1	2
3	4	5	6	7	8	9
10	11	12	13	14	15	16
17	18	19	20	21	22	23
24	25	26	27	28	29	30
31						

Sentyabr						
be	ça	ç	ca	c	ş	b
	1	2	3	4	5	6
7	8	9	10	11	12	13
14	15	16	17	18	19	20
21	22	23	24	25	26	27
28	29	30				

Oktyabr						
be	ça	ç	ca	c	ş	b
			1	2	3	4
5	6	7	8	9	10	11
12	13	14	15	16	17	18
19	20	21	22	23	24	25
26	27	28	29	30	31	

Noyabr						
be	ça	ç	ca	c	ş	b
						1
2	3	4	5	6	7	8
9	10	11	12	13	14	15
16	17	18	19	20	21	22
23	24	25	26	27	28	29
30						

Dekabr						
be	ça	ç	ca	c	ş	b
	1	2	3	4	5	6
7	8	9	10	11	12	13
14	15	16	17	18	19	20
21	22	23	24	25	26	27
28	29	30	31			